


İLQAR CƏMİLOĞLU
ƏLİ İMAMVERDİ


# CƏMİL ƏKBƏR

ŞEİRLƏR

5. CİLD

İKSAD Publishing House

İLQAR CƏMİLOĞLU
ƏLİ İMAMVERDİ

# CƏMİL ƏKBƏR



## *ŞEİRLƏR*

*V CİLD*

İKSAD Publishing House

Copyright © 2023 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed or transmitted in any form or by
any means, including photocopying, recording or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of brief quotations embodied in critical reviews and certain other noncommercial uses permitted by copyright law. Institution of Economic Development and Social Researches Publications®
(The Licence Number of Publicator: 2014/31220)
TURKEY TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
www.iksadyayinevi.com
It is responsibility of the author to abide by the publishing ethics rules.
Iksad Publications – 2023©
**ISBN: 978-625-367-059-7**
Cover Design: İbrahim KAYA
May / 2023
Ankara / Turkey
Size = 16 x 24 cm

## ÖN SÖZÜN MÜƏLLİFİ

***Prof.Dr. İlgar İmamverdi, Hüquqşünas Əli İmamverdi***

## ELMİ MƏSLƏHƏTÇİ VƏ REDAKTOR:

***Professor Maarifə Hacıyeva***
**Filologiya Elmləri Doktoru**

Sənətşünaslıq elmləri doktoru, professor İlqar Cəmiloğlu ilə Əli İmamverdinin, pedaqoji sahədə uzun illər səmərəli xidmət etmiş, iqtisadcı alim, Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə bir araya gətirdikləri ***V cild "Cəmil Əkbər şeirlər"*** adlı kitabda, yarıməsirlik bir yaradıcılıq yolu keçmiş şair təbiətli şəxsiyyətin poetik irsinin bir hissəsi yer almaqdadır. Ayrı - ayrı dönəmləri əhatə edən, müxtəlif mövzulu kitabda variantları ilə birlikdə **350** adda poetik nümunələr yer almaqdadır. Vətən, məhəbbət, eşq, insan amili, ictimai-siyasi, optimist xarakterli nümunələrlə yanaşı, bəzən də tənbeh, satirik hətta şikayət motivli, haqsızlığa üsyan, lirik-duyğusal, bədbin, pissimist ovqatlı müxtəlif mövzulu poetik incilər Cəmil Əkbərin həssas, kövrək, narahat qəlbinin, şairanə düşüncələrinin şeir dili ilə əks sədası olub, mənəvi – ruhi dünyasını təcəssüm etdirir. V cild "Cəmil Əkbər şeirlər" adlı kitab filoloji elm sahəsində çalışan mütəxəssislər, ədəbyyatşünaslar və qiymətli oxucularımız üçün nəzərdə tutulmuşdur.

# MÜNDƏRİCAT

Ön sözün müəllifi ........ i
Mündəricat ........ iii
Ön söz ........ 13
1. Nifət! ........ 35
2. Lənətləyirəm ........ 35
3. Görünəndə ........ 37
4. Yanasan ........ 39
5. Çaşdirib ........ 40
6. Çaşdirib ........ 43
7. İnsanin-insana ........ 44
8. Nəçixar? ........ 45
9. Nəçixar? ........ 46
10. Hikmətnamə ........ 48
11. Oyerdə ........ 50
12. Soldurur niyə? ........ 52
13. Görünmür niyə? ........ 52
14. Görünmür niyə? ........ 53
15. Görünmür niyə? ........ 56
16. Bilinmir niyə? ........ 60
17. Sosializmin yolu ........ 63
18. Sosializmin yolu ........ 64
19. Bəşərəm mən ........ 65
20. Düşəcək bəşər ........ 66
21. Bəşər ........ 68
22. Bəşər ........ 71
23. Bəşəri ........ 73
24. Bu bəşər? ........ 74
25. Bu bəşər ........ 75
26. Bu bəşər ........ 78
27. Bu bəşər ........ 79
28. Bu bəşər? ........ 80
29. Bu bəşər ........ 83
30. Bu bəşər ........ 84
31. Bu yaziq bəşər ........ 86
32. Mən həyatı oxudum ........ 88

33. Yanği keçsin canina? ........ 92
34. Günahsizlar neyləsin? ........ 93
35. Günah nə səndədir, nədə məndədir ........ 94
36. Mənmi, sənmi? ........ 95
37. Sənmi, mənmi? ........ 97
38. Sənmi, mənmi? ........ 99
39. Sənmi, mənmi? ........ 101
40. Sənmi, mənmi? ........ 105
41. Kişi ürəyi ........ 106
42. Bu həyat hara? ........ 108
43. Birisi məhv olur, biri doğulur ........ 110
44. Nə ehtiyac var? ........ 118
45. İstərəm ........ 120
46. Əziz Bakı ........ 122
47. Yenəmi? ........ 122
48. İtməsin ........ 124
49. Ustad ........ 126
50. Onundur ........ 127
51. Təmizlə ........ 129
52. Təmizlikdədir ........ 130
53. İşləmirsə ........ 131
54. İşləmirsə ........ 134
55. Qayğili günlərim ........ 136
56. Adam da Vətəni qoyub qaçarmı? ........ 139
57. Görmür ........ 143
58. Bu dərd ........ 144
59. Ağladım ........ 146
60. A Cabir! ........ 147
61. Çox sağol ........ 148
62. Saxtadır ........ 149
63. Saxtadır! ........ 150
64. Saxtadır ........ 151
65. Saxtadır ........ 152
66. Saxtadır indi ........ 153
67. Öləsisən də ........ 154
68. Kimdir? ........ 156
69. Görün kimdir? ........ 156
70. Görün kimdir? ........ 157
71. Görün kimdir? ........ 158

72. Görün kimdir? .......... 159
73. Saxtalıqla olmaz aram .......... 161
74. Olsun .......... 161
75. Başammış .......... 162
76. Olmasa .......... 164
77. Taniyammadı .......... 165
78. Düşərsən .......... 166
79. Deyim? .......... 166
80. Vardadır .......... 167
81. Tapmadım .......... 168
82. Tapmadım .......... 168
83. Bu qanunda .......... 169
84. Sən eləsən, mən belə .......... 171
85. Təzə il .......... 171
86. Verəydi .......... 173
87. Ey insan! .......... 173
88. Hara? .......... 174
89. Möhtacdır .......... 174
90. Möhtacdır .......... 176
91. Görməyək .......... 177
92. Vətəndaşıyıq .......... 180
93. Tapmışam .......... 183
94. Tapmışam .......... 188
95. Eydir .......... 191
96. Eydir .......... 192
97. Hesabat ver .......... 194
98. Hesabat ver .......... 196
99. Özün bil .......... 198
100. Özün bil .......... 199
101. Zərərli ünsürlər .......... 200
102. Zərərli ünsürlər .......... 201
103. Zərərli ünsürlər .......... 203
104. Afərin .......... 204
105. Nəimiş? .......... 205
106. Nəimiş? .......... 207
107. Nə səndədir, nə məndə .......... 208
108. Əydi .......... 208
109. Görünmədi .......... 210
110. Çatmasa .......... 211

111. Kəm olsa ........ 212
112. Qızıl gül ........ 214
113. Ummaq əbəsdir ........ 214
114. Kürd oğluna ........ 216
115. Salamat qalın ........ 218
116. Çəkmisən övlad? ........ 219
117. Gülüm ........ 221
118. Mən istərdim ........ 221
119. Tanı ........ 222
120. Neyləyək? ........ 223
121. Neyləyək? ........ 224
122. Neyləyim? ........ 225
123. Gözdən düşməsin ........ 226
124. Vəhdətindədir ........ 228
125. M.Q.Sadiqovun 70 illiyi ........ 230
126. Bəndənin ........ 231
127. Öyrənəsən ........ 234
128. Əyridir ........ 235
129. Halına? ........ 236
130. Kərəm eylə ........ 238
131. Yetimin ........ 239
132. Gizlənibdir ........ 240
133. Qohumlar ........ 241
134. Doludur ........ 241
135. Doludur ........ 243
136. Ana torpağım ........ 245
137. O da, bu da ........ 248
138. Mən də donoram ........ 249
139. Ayrılsın ........ 250
140. Şair ürəyi ........ 251
141. O vaxtdan ........ 252
142. Keşkə ........ 254
143. Keşkə ........ 255
144. İnsanlar dostlaşarsa ........ 257
145. Genlər ........ 259
146. Bilərsən ........ 259
147. Bilərsən ........ 260
148. Dönməyə ........ 261
149. Çatmaz ........ 262

150. Dönərmi? .... 263
151. Ləkədi bu .... 264
152. Gərəkki .... 265
153. Gəz .... 266
154. Gəzir? .... 268
155. Sorağı gəlmir .... 269
156. Yaşama! .... 270
157. Dumandayiq, çəndəyik .... 272
158. Yaşayıb .... 273
159. Ordadır! .... 274
160. Amandır! .... 275
161. Tələsmə! .... 275
162. Öldü .... 276
163. Bir nəvəm ölübdür .... 278
164. Xətasıdır .... 279
165. Azərbaycanım .... 280
166. Azərbaycanım .... 280
167. Azərbaycanım .... 282
168. Qəhətdir .... 285
169. Matəmdədir .... 286
170. Şübhələnmişəm .... 287
171. Hər şey .... 289
172. Öyrənin .... 290
173. Qayıt! .... 292
174. Qayıt! .... 294
175. Qayıtmalıyıq! .... 295
176. Qayıtmalıyıq! .... 298
177. Vermisən? .... 300
178. Dünyasıymış .... 302
179. Yaddan çıxıb .... 304
180. Edir .... 305
181. Edir .... 307
182. Dolandırır .... 308
183. Dolandırır .... 310
184. Vaxtıdır .... 311
185. Nə məndə, nə səndə .... 312
186. İstəyirəm mən .... 313
187. Kimə inanim? .... 314
188. Bilmirəm inanim, ya inanmayım? .... 317

189. Kimə inanasan, inanmayasan? .................... 318
190. Dözdüm .................... 320
191. Bir yandan .................... 321
192. Yetirirmiş .................... 321
193. Allah? .................... 322
194. Allah? .................... 323
195. Allah .................... 325
196. Ay Allah .................... 325
197. Bilinmir Allah?! .................... 326
198. Var Allah? .................... 327
199. Bax Allah?! .................... 328
200. Bax Allah .................... 330
201. Çətindir Allah? .................... 331
202. Allah sən saxla .................... 332
203. Allah sən saxla .................... 334
204. Sən saxla .................... 336
205. Saxla .................... 337
206. Saxla .................... 338
207. Saxla .................... 340
208. Saxla .................... 341
209. Saxla .................... 342
210. Zavallı millət .................... 344
211. Lələ .................... 346
212. Bu gün də birini görmüşəm lələ .................... 347
213. Meydanıdır .................... 348
214. Zalım oğlu? .................... 349
215. Ayrı .................... 350
216. Ayrı .................... 351
217. Saxlama! .................... 352
218. Hərəyə bircürə pay verib fələk .................... 354
219. Fələk .................... 359
220. Fələk .................... 361
221. Pərişandır .................... 364
222. Vətən torpağı .................... 367
223. Vətən torpağı .................... 371
224. Ay Vətən? .................... 372
225. Ay Vətənoğlu? .................... 375
226. Sevmişəm .................... 377
227. Bizim ellər .................... 378

228. Qanırsan ... 379
229. Cibdədir ... 380
230. Zəhmət ... 383
231. Şahiddir ... 385
232. Çoxdur ... 386
233. Səndən ... 386
234. Güc aldı ... 387
235. Vəzifə ... 388
236. O öyrətdi ... 389
237. Görməmişəm ... 389
238. Qəmkeş ... 390
239. Danmıram ... 390
240. Çəkirsən ... 391
241. Ay Maral! ... 392
242. Necədir? ... 393
243. Varmı heç? ... 394
244. Ayıbdır ... 395
245. Ayıbdır ... 397
246. Ayıbdır ... 398
247. Duymamışam ... 399
248. Hərə bir yolda, bir yanda ... 400
249. Yada salın ... 403
250. Yapış ... 404
251. Başlara ... 405
252. Başlara ... 406
253. Nəyi pisdiki? ... 407
254. Heçnəyə dəyməz ... 409
255. Dəyməz ... 413
256. Yetim olmayaq ... 417
257. Az deyil ... 418
258. Çıxanmır ... 419
259. Çıxanmır ... 420
260. Qonşular ... 421
261. Mənim varlığımdir, sənin varlığın ... 422
262. Mənim xidmətimdir, sənin xidmətin ... 426
263. Bəsləyənməz ... 427
264. Edərlər ... 428
265. Eyləmə! ... 429
266. Səhv düşübdür yerimiz ... 430

267. Səhv düşübdür yerimiz ........ 430
268. Ələsgər ........ 431
269. Başa düş! ........ 432
270. Əlgötür! ........ 433
271. Cəmiyyət ........ 433
272. Bu yerlərin ........ 435
273. Oxşamasınmı? ........ 436
274. Çox şükür ........ 436
275. Çox şükür ........ 439
276. Geri dönməz ........ 439
277. Nəyi görsəm o oluram ........ 440
278. Tükənməkdədir ........ 442
279. Bel bağlayib ........ 443
280. Uyma ........ 444
281. Nəsihətnamə ........ 445
282. Şəkər ........ 447
283. Döndü nə döndü ........ 448
284. Gəlməyir ........ 450
285. Ehtiram ........ 452
286. Ehtiram! ........ 456
287. Yaraşsın ........ 457
288. Səmtinə ........ 460
289. Varsa ........ 462
290. Həsrətindəyəm ........ 463
291. Çalişdim ........ 464
292. Bu necə həyatdir? ........ 465
293. Düşəndə ........ 466
294. Sən yadıma düşəndə ........ 468
295. Arxada ........ 469
296. Eyləyirlər ........ 470
297. De sənmisən, ya mənəmmi? ........ 472
298. Heçdir ........ 473
299. Lağa qoy ........ 474
300. Nə ........ 475
301. Ayrılıram ........ 476
302. Dözdülər ........ 477
303. Unutma! ........ 478
304. Öyrənin! ........ 479
305. Torpağınkıdır ........ 481

306. Ozanı sanmış ........ 482
307. Artar ........ 483
308. Artar ........ 484
309. Əlvida ........ 485
310. Əlvida deyir ........ 487
311. Apar ........ 488
312. Apar ........ 489
313. Utan qız ........ 490
314. Diləyim ........ 493
315. Öldüm ........ 494
316. Yatır ........ 496
317. Çiçəklər ........ 497
318. Kövrəkdir ........ 498
319. Xilas et ........ 501
320. Xilas et ........ 503
321. Var idi onda ........ 504
322. Ağrıdı ........ 506
323. Utandım ........ 508
324. Öləndə nəyaman ........ 509
325. Çaşdırar ........ 510
326. Ağanın hökmüylə ........ 512
327. Unutma ki, son mənzilin buradır ........ 513
328. Həyatın lövhələri ........ 514
329. Ummuşam ........ 520
330. Eləbil dünyanın axırı çıxıb ........ 521
331. Arzularım ........ 523
332. Arzum budur ........ 525
333. Qədrini bilək ........ 526
334. Qədrini bilək ........ 528
335. Geri qaytarın ........ 529
336. Tarixin təkəri dönəndən bəri ........ 531
337. Kəhkəşan ulduzu sönəndən bəri ........ 534
338. Darıxma! ........ 537
339. Yazıq millət bu nə gündür düşübdür?! ........ 539
340. Yazıq millət gör nəgünə düşübdür?! ........ 541
341. Dəbdən  düşübdür ........ 544
342. Görəsən? ........ 545
343. Görəsən? ........ 545
344. Qaşqabaqlıyam ........ 547

345. Gün görüb........................................................................ 549
346. Gün görüb........................................................................ 550
347. Qurtarmadı ...................................................................... 552
348. Cahana gəldimki.............................................................. 558
349. Damarında, qanındadır.................................................... 560
350. Hərkəsdənin  genindədir................................................... 562
HÜQUQŞÜNAS ƏLİ İLQAR OĞLU İMAMVERDİ..................... 564
PROF. DR. İLQAR CƏMİLOĞLU İMAMVERDİYEV ................ 565

# ÖN SÖZ

## *VƏTƏNPƏRVƏR RUHLU, HİKMƏTLİ KƏLAMLAR ŞAİRİ*

Azərbaycanın poetik ruhlu şairləri keçmiş zamanlarda olduğu kimi bu gün də var, gələcəkdə də məhsuldar yaradıcılıqları ilə mənsub olduğu xalqına yeni töhvələr bəxş edərək, uğurlu əsərləri ilə millətini sevindirəcəkdir. Məhz bu qəbildən olan şairlər hər zaman xalqını təmsil etməklə digər xalqların sevgi və məhəbbətini də qazana bilmişlər. Bəşəri fikirlərlə zəngin yaradıcılığa sahib, bir çox tanınmış şairlər təkcə millətinin deyil, digər xalqların da dünyəvi şairləri olaraq qəbul edilir poeziya aləmdə. Nizami Gəncəvi, Firdovsi, Məhəmməd Fizuli, Nəsimi, Əlişir Nəvai kimi dünya fövqündə dayanan şairlər öz möhtəşəm yaradıcılıqları ilə bu qiymətə layiq olduğunu ispat etmişlər. "Peyğmbər"lərimizdən sonra şairlər gəlməkdədir" təbiri şairlərimizə verilən ən ali mükafat dərəcəsindədir. Çünki onların çoxmövzulu yaradıcılıqlarındakı dərin mənalı fikirlər, xalqlara, dünyaya, bəşərə verilən mesajlar öz əhəmiyyətini, önəmini bu gün də qoruyub saxlamaqdadır. Məhz dahilik əlaməti də buradan qaynaqlanır. Bu baxımdan aktual fikirlər keçmişdə olduğu kimi bugün və gələcək zamanlarda da öz hökmündə, öz qüvvəsində qalmış və qalmaqda davam edəcəkdir.

Azərbaycanda şairlər nəslinin bir nümayəndəsi də Cəmil İmamverdi oğlu Əkbərdir. Hər mövzuda poetik nümunələr yaradan



Cəmil İmamverdioğlu Əkbər (1928-2000)

Cəmil Əkbərin dünyabaxışı, dünya dərki aktuallığı ilə seçilən elmi məqalələrində olmaq üzrə zəngin mövzuları ehtiva edən şeirlərində də öz əksini tapmışdır. Çünki şairlik fitrəti, şairlik qabiliyyəti, həssas ürək, incə ruhlu dünyəvi baxış, zərif düşüncə ən önəmlisi isə pedaqoji

fəaliyyətdəki alimlik məsləyi Cəmil Əkbərə imkan vermişdir ki, fərqli mövzularda poetik incilər yaratsın. Bu baxımdan hüzün dolu kədər, qəm, şən mövzuda, olan şeirlərlə yanaşı, dövrandan şikayət, insanlar arasındakı ülvi münasibətlərə xələl gəlməsi kimi durumlar, bəzən nadanlıq, cahillik, sayqısızlıq kimi neqativ hallar Cəmil Əkbər poeziyasının misralarında da sezilməkdədir. Nə yazdısa görüb eşitdiyini, hiss edib duyduğunu, ruhunun diktə etdiyi fərqli düşüncələrini qələmə aldı, obrazlı dillə, sanki poetik üslubla tərcümə etməyə çalışdı. Böyüklərimizə, kiçiklərimizə xitab etdiyi şeirlərlə yanaşı qız-gəlinlərimizə, ana-bacılarımıza, gənclərimizə, gəncliyimizə üz tutub fikirlərini ifadə etməklə bir ömür yaşadı. Əlli il sərasər gah kənddən, gah şəhərdən, fərqli ölkələrdən *(Kiyev, Minsk, Daşkənd)* yazaraq gələcək nəsillərə zəngin bir poetik miras ərmağan etdi. Zəhmətkeş insanlardan olmaq üzrə bəzən də insanlıq adına xələl gətirənləri hədəf alaraq bir çox üzdəniraqlardan yazıb zaman içində nifrət sədalarını da yüksəltdi. Doğru yola çəkmək məramı ilə bəzən sərt dillə tənqid edib, şeirsəl misraların gücü ilə qırmmanclayıb şallaqladı da. Haqq yoluna dəvət etmək üçün çox uğraşdı, zamanında sözünü süngüyə çevirib mübarizə də apardı yorulmadan, usanmadan, bezmədən, irzikmədən. Bəxtəvər bəndə idi ki, Allah-Taala bütün insani keyfiyyətləri bəxş etmişdi Cəmil Əkbərə. Haqsevər, ədalətsevər, həqiqətsevər, doğru-dürüst, olduğu kimi görünən, sözündə işində özünü əsl insan, alim-şair kimi təsdiq etmişdi onu tanıyanların çevrəsində. Əsasən də müəllim kollektivi arasında olmaqla, hətta elində-obasında, yurdunda-yuvasında belə. Ülvi amalla yaşayaraq, ömrünü xalqının, millətinin övladlarının təlim-tərbiyəsinə həsr etdi. Gənc nəslin həqiqi insan övladı kimi Azərbaycan adlı məmləkətinə layiq olması üçün Cəmil Əkbər yorulmadan, usanmadan daima fəaliyyət göstərdi. Çünki özü bir doğruluq, dürüstlük mücəssiməsi olmaqla haqq-ədalət vurğunu, həqiqət aşiqi idi:

Əzəl gündən, ibtidadan, ədalətin aşiqiyəm,
Doğru sözün, düz fikirin, həqiqətin aşiqiyəm.

və ya

Məni axtarmayın əyri yollarda,
Haqqa, həqiqətə qeyri yollarda,

Verərəm insana xeyri yollarda,
Ədalət hardasa mən də ordayam.

Digər bir şeirində ali məramını təqdim etdiyimiz bənddə belə ifadə etmişdir.

Müqəddəs bilmişəm ədaləti mən,
Haqqı-ədaləti, həqiqəti mən,
Sədaqət, səxavət, kəraməti mən,
Qeyri bir həvəslə barışammadım.

Cəmil Əkbər bir ömür boyu ülvi insani amalın, xoş məramların carcısı oldu şəxsiyyətində, şəxsi nümunəsində. Yazdı, yaratdı, gələcək nəsillər üçün poetik xislətli əsərləri ilə mənəvi bir miras qoydu insanlıq dünyamıza. Ruhu şad, məkanı cənnət olsun bu mübarək insanın.

Cəmil Əkbər yaradıcılığını incələdiyimizdə insanlıq aləminə layiq olanlara məhəbbətinin, ülvi sevgisinin sonsuz dərəcədə böyük, dərya qədər dərin, asiman qədər əlçatmaz, ünyetməz böyüklükdə olduğunu hiss edirik. Bununla belə insanlıq meyarlarına cavab verməyənlərə isə nifrəti də vardır Cəmil Əkbərin. *"Nifrət"* rədifli şeirinin misralarından çıxan mənalardan aydın olur ki, Cəmil Əkbərin nifrəti dünya malına aldananlara qarşıdır. Ellərin dərdinə yanmayana qarşı olmaqla insafı-vicdanı atanlar da nifrət hədəfində yer almaqdadır. Qəflət yuxusunda yatanlar, yaxşını yamandan ayıra bilməyənlər, mərifətli olub haqqın yolu ilə getməyənlər bilavasitə Cəmil Əkbərin qəzəbinə düçar olanlardır. İnsanlara hiylə-kələk quranlar, zəli kimi qansoranlar, üzə gülüb arxadan zərbə vuranlar da Cəmil Əkbərin lənətinə tuş gəlir. Fitnə-fəsad törədib, şər-böhtan danışanlar da bu şeirində poetik dillə car edilir. Hətta hörməti-izzəti unudanlara, kor olub haqqı ədaləti görməyənlərə, həyasızlara, nankorlara, qudurğanlara da nifrətini bildirib. İnsana düz qiymət verməyib namərdi mərd kimi tutanlar da Cəmil Əkbər nifətinə səbəb olan amillərdəndir.

Aldanıb nəfsinə, dünya malına,
İnsafı-vicdanı atana nifrət.
Yanmayan ellərin dərdi-halına,
Yaxşını-yamana qatana nifrət.

Mərifət şərbəti içməyənlərə,
Haqqın yollarından keçməyənlərə,
Yaxşını-yamandan seçməyənlərə,
Qəflət yuxusunda yatana nifrət.

Haqqı-ədaləti görməyənlərə,
Bağ salıb, gülündən dərmiyənlərə,
İnsana düz qiymət verməyənlərə,
Namərdi-mərd kimi tutana nifrət.

Cəmil Əkbərin poetik yaradıcılıq mirasını təhlil etdiyimizdə atalar sözlərimizdən yararlanaraq özünəməxsus variantda mənası eyni olan fikrə orijinal deyimlə sanki yenilik gətirir. Məsələn, xalqımız arasında belə bir təbir var: *"Anasına bax qızını al, torbasına bax duzunu al"*. Cəmil Əkbər bu təbirin birinci bölümündəki "Anasına bax qızını al" kəliməsini təqdim etdiyimiz *"Tanı"* rədifli qoşmadakı bir bəndin 4-cü misrasında *"Balanı alanda ananı tanı"* variantında nəzmə çəkmişdir.

Tərlanlara sar deməsən yaxşıdır,
Çəmənzara xar deməsən yaxşıdır,
Hər yetənə yar deməsən yaxşıdır,
Balanı alanda ananı tanı.

Cəmil Əkbər yaradıcılığında digər bir atalar sözündən faydalandığını *"Hikmətnamə"* adlı şeirində də müşahidə edirik.

Qisas qiyamətə qala bilmədi,
Zindanlar əbədi dola bilmədi.
Buynuzsuz qoçların buynuzlu qoçda,
Qisası qalmadı nə bərkdə, boşda.

"Görünmür niyə?" rədifli şeirini oxuduqca mənanın içində bir önəmli mətləbin olduğunu aşkar edirik. Hər bənddəki fikirlər bir növ giley, şikayət xarakteri daşıyır. Bağımsızlığa keçid dönəmində, Sosializmin qurucusu Vladimir İliç Leninin heykəlinin uçurulmasını təəssüf hissləri ilə qarşılayan Cəmil Əkbər bu neqativ halların sanki ona edilmiş qəbahət kimi sayır. Çünki sosializm quruculuğu dönəminin yetirməsi olan Cəmil Əkbər, bu quruluşun iqtisadi-siyasi, sosioliji-kültüroloji sahədə bir çox müsbət cəhətlərin olduğunu heç unutmur. Daş heykəllərin, çoxsayda büstlərin yıxılması ilə birdən-birə

xoşbəxtliyə nail olduğumuzun yanlışlığını poetik dillə oxucularına anlatmağa çalışır: *"Həqiqi xoşbəxtliyin tək çarəsi gecə-gündüz vicdanla çalışmaq, daima yeni məhsullar istehsal etməklə gələcək nəsillərin istəyinə, tələbinə tam cavab verə bilməkdədir"*- deyir Cəmil Əkbər. Bu baxımdan da ölkə iqtisadiyyatının durmadan inkişaf etməsi sayəsində daha qüdrətli olacağı qənaətindədir. Dağıdıb uçurmaq xoşbəxtliyi özü ilə bərabərində gətirmir. Əksinə bataqlıq yuvasına sürüklədiyini yana-yana, qana-qana etiraf edərək poetik misraların gücü ilə anlatmağa çalışır. Bu şeirdə Cəmil Əkbər sanki özü-özünə sual verir: *"Vicdanla, qeyrətlə çalışmanın nəticəsində aldığım qiymət, dəyər bumu?"* - deyə özünü sanki Leninin yerində görür.

Nəyaman qalxıbdır mənim üstümə?
Hücuma keçirlər cansız büstümə?
Dəyirlər qəlbimə, bir də şəsdimə?
Ülvi-məhəbbətim görünmür niyə?

"*Görünmür niyə?"* rədifli iki variantda olan digər şeirdə isə Cəmil Əkbər sanki sosializimin banisinə Leninə sual verib cavab almağa çalışır. Bu prizma ilə yanaşdığı üçün digər ilk *"Görünmür niyə?"* rədifli şeirindən fərqlənir.

Övladı-bəşərə xidmət etmisən,
Məzmunun, hikmətin görünmür niyə?
Səadət yolunda zəhmət çəkmisən,
Ulu təbiətin görünmür, niyə?

*"Mən həyatı oxudum"* şeiri Cəmil Əkbərin həyat fəlsəfəsinə dayanan ən uğurlu, kamil əsərlərindəndir. Bu şeirindən anlaşılır ki, kiçik yaşlarından, həyatın mənasını anlamaq üçün hərflər kəlmələr əxz edib ilk bilgiləri ibtidai məktəbdə alfabetik sırası ilə yazılan kitablardan öyrənməyə çalışıb. Müdirklərin fikrindən, düşüncəsindən yola çıxaraq həyatı dərk etməyə çalışdığını səmimiyyəti ilə etiraf edir. Hələ uşaq yaşlarında yetəri qədər təcrübəsi olmadığı üçün hər baxışa, hər sözə tez inandığını oxucusuna anlatmağa çalışır. Böyüdükcə daha çox kitablardan bu həyatı öyrənmək, nə olduğunu dərk etmək üçün fərqli qaynaqlardan, öz dönəmində yayınlanmış məqalələrdən, dərgilərdən, hətta dünya ədəbiyyatı siyahısında yer alan, şərq dünyasının məşhur şairlərindən olan Nizami Gəncəvinin

"Xəmsəsi"ndən, özəlliklə də Sədi Şirazinin "Gülüstan", "Büstan" adlı şeirlərindən fikir aldığını da qeyd edir Cəmil Əkbər.

Bununla belə bir məsələyə də oxucusunun diqqətini çəkərək etiraf edir Cəmil Əkbər. Məqam gəlib yetişdiyi, müstəqil addım atdığı zaman həyatın gerçək üzü ilə qaşılaşan şair əsil həyatı kitablardan öyrəndiyinin bir qədər doğru olmadığını, bu baxımdan yanlış mövqe tutduğunu səmimiyyəti ilə etiraf edir. Kitabda yazılanlarla həyatın gerçək, qanunları ilə müqayisə etdiyi zaman yanıldığını bu səbəblə də fikir və düşüncələrində çaşqınlığını şeir dili ilə dilə gətirməklə, məyusluğunu təəssüf hissiləri ilə etiraf edir. Şeirin son 3-cü bölümündə Cəmil Əkbər özü başda olmaqla dost-müsahiblərinə, onu tanıyanlara üz tutaraq bu həyatın gerçək mənasını yenidən doğru anlamağa səsləyir. Təklif edir ki, həyatı öyrənmək üçün kitabda yazılanlar çox bəsit, yarımçıq olmaqla yetərsizdir. Əslində isə həyatın özü ən dərin, təbii, əsl həyat məktəbidir. Çünki ətraflı, əhatəli zəngin bilgilər həyatın özündə olan obyektiv gerçəkliklərdədir. Buna görə də həyatın özünü öyrənmək çox vacibdir. *"Həyatın mənasını həyat adlı kitabdan öyrənsək daha doğru olar"* - deyə şeirin mənası bu fikirlə təsbit olunur. Son misralarda Cəmil Əkbər həqiqi fikirlərini bu kəlmələrlə yekunlaşdırır. Həyatı, kitabda yazılanlardan deyil, həyat adlı sonu bilinməz, dərin fəlsəfi anlamlı "həyat kitabı"ndan öyrənməyin daha doğru olduğu düşüncəsi ilə yekunlaşır.

Bu həyatın özünü, həyat kimi öyrənək,
Nüsrət kimi öyrənək, nicat kimi öyrənək.
Kitab hələ dayazdır, həyat yaman dərindir,
Kitab acı gəlsə də, həyat yaman şirindir.
Dostlar, gəlin həyatı dönə-dönə öyrənək,
Gəl bezməyək biz ondan yenə-yenə öyrənək.
Qardaşım gəl, həyatı kitab kimi anlayaq,
Kitabları oxuyub, xitab kimi anlayaq.
Kim həyatı duymasa, biz onları danlayaq,
Qırmanclayıb hərzaman kötəkləyək, yanlayaq.

Azərbaycan poeziyasında "Qadın ürəyi", "Ana ürəyi" kimi zənənlərimizə, ana-bacılarımıza, qız gəlinlərimizə ithaf edilən şeirlər olduğunu ədəbiyyatsevərlər, poeziya vurğunları, şeir həvəskarları

bilməkdədir. Lakin *"Kişi ürəyi"* adlı şeirin müəllifi Cəmil Əkbərdir. Ailədə, həyatda qayğılarla yüklənən erkək cinsinin nümayələrinə, bəyəfəndilərimizə həsr olunmuş şeirini oxuduqca bir çox mətləblər şairlik istedadı ilə açığa çıxarılır. Anlaşılır ki, kişi ürəyi də xanım-xatınlarımızın ürəyi kimi həssasdır, qayğıkeşdir, kövrəkdir, yuxadır. Xanımlara arxa, həyan, imdad köməkdir kişi ürəyi. Bəzi qadınlara üz tutaraq bu ürək sahibinin nifrətinə səbəb olduqda və ya hiddətləndirdiyi zaman bəzən bir anda xətası, şiddəti artar hətta tufan, qar, soyuq, buz adında daş xarakterli ürəyə də çevrilər.

Xətrinə dəyəndə nifrəti artar,
Qəzəbi çoxalır, hiddəti artar,
Yetişər xətası, şiddəti artar,
Tufandı, borandı kişi ürəyi.

Elə, obaya, Vətənə, sevgilisinə məhəbbəti artdığı zaman isə heç zaman zəhmətdən usanmır, əksinə bu ürək sahibinin yaradıcılığı, coşğusu durmadan artar, səadət naminə xoş məramlı eşq ilə ürək döyünər Vətən, millət, xalq üçün.

Məhəbbət yolunda özünü yorur,
Zəhmətdən usanmır, yaradır, qurur.
Səadət naminə oturur, durur,
Eşq ilə vurandı, kişi ürəyi.

Əksinə yar öz sevgisinə sadiq olmadığı təqdirdə vaxtsız qocalar. Naləsi fəqanı asimana yüksələr. Qəm-kədər atmosferində boynubükük bənövşə kimi məsum görünər kişi ürəyi. 1980-ci il 12 fevral tarixində yazdığı *"Kişi ürəyi"* rədifli şeirinin daha iki bəndində Cəmil Əkbər kişi ürəyini obrazlı dillə belə vəsf edir:

Dərd tüğyan eyləsə yanıb kül olar,
Gah bəmə köklənər, gah da zil olar.
Bir günlük ayrılıq min bir il olar,
Sevgisiz virandır kişi ürəyi.

Ha çəkirsə qayğıları azalmır,
Ha yorulur inildəmir, pozulmur,
Gündən-günə aşıb-daşır, sozalmır,
Dəryadır, ümmandır kişi ürəyi.

Cəmil Əkbər yaradıcılığı ilə tanış olduqca başqa xalqlara xüsusən Ukrayna, Özbək xalqına həsr etdiyi şeir nümunələrinin olduğunu təsbit edirik. Bununla yanaşı fərqli illərdə yazdığı Azərbaycanın Gəncə, Gədəbəy, Bakı şəhərinə aid poetik örnəklərə rast gəlirik:

Bakı mənim fərəhimsən,
İftixarım, sevincimsən,
Qüvvətimsən, qüdrətimsən,
Şərəfimsən, şöhrətimsən.

Böyük şəxsiyyətlərə, alimlərə həsr etdiyi şeirlərlə yanaşı xüsusən də dünya ədəbiyyatında tanınmış nəhəng söz ustadlarına: dahi Nizami Gəncəviyə və Səməd Vurğuna həsr etdyi poetik nümunələr də vardır. Cəmil Əkbərin *"Ustad"* rədifli şeirdən bir bəndə nəzər salaq.

Sən dahi Nizami, mən Cəmil Əkbər,
Sən boyük sərkərdə, mən adi əsgər,
Mən az tanınmışam, sən dildə əzbər,
Peşəm də çatmadı, peşənə ustad.

Mənəvi aləmi çirkli olan, mənfur fikirlərlə dolu olan bu kimi əxladan uzaq, nadürüst, fırıldaq, ikiüzlü, bir sözlə insanlığa yaraşmayan antipodlar üçün yazdığı *"Təmizlə"* rədifli şeirində mənəvi aləmini təmizləməsini bir neçə bənddə ifadə etməyə çalışır Cəmil Əkbər. 1986-cı il 14 Aprel tarixində yazdığı bu şeirin bir bəndində belə deyir:

Nəfsin sənin çamırlıqdı a yazıq,
Get içini, həm çölünü təmizlə.
Üfunətdi, mamırlıqdı a yazıq,
Get löhməni, get lilini təmizlə.

Səkkiz bənddən ibarət bu poetik nümunə tamamən insanın iç dünyasındaki, əsl insanlığa zərəri olan məcazi anlamda ləkələri, zərərli bakteriyaları təmizləməsini tövsiyyə etməsi ilə bu şeirin timsalında İranın Urmiya mahalının Qulunçu kəndində yaşamış Əbdülrəhman Təyyar Dədə Katibin bir zamanlar yazdığı *"Yalandır"* rədifli divanisi ilə müəyyən qədər eyni fikirin daşıyıcıları olduğunu təsbit edirik.

Könül, nəfsi öldürməmiş, rəyazət də yalandır,
Haram maldan ehsan olmaz, səxavət də yalandır.
Bir insanınki zatında gər ləyaqət olmasa,
Ata-baba sultan ola, nəcabət də yalandır.

Cəmil Əkbərin *"Yenəmi?"* adlı şeiri ilə tanış olduğumuz zaman bugünkü günümüzlə bahəm səsləşdiyini görürük. Dahilik də budur ki, deyilmiş sözlərdəki fikirlər bugünümüz üçün də aktuallığını qoruyub saxlamaqdadır. 1941-1945 Alman savaşı illər keçdikcə, 2022-ci il Rusya-Ukrayna savaşı, Suriyada iç savaş, İraqdakı siyasi qarğaşa, Azərbaycan –Ermənistan savaşı bütün bu müharibələr Cəmil Əkbərin qeyd etdiyimiz şeirində 35-40 il əvvəl yazdığı şeirin bu dönəmin olaylarının bu günümüz üçün həyəcan təbli kimi dəyərləndirə bilərik.

Yenəmi döyüşdə axsın qanımız?
Sürünsün cəbhədə çıxsın canımız?
Yenəmi yollarda qalsın gözümüz?
Boğulsun ürəkdə solsun gözümüz?
Yenəmi dağılsın şəhərlər, kəndlər?
Yerlərə, göylərə sığmasın dərdlər?
Qulaqlar tutulsun topun səsindən,
Bombanın, mərminin kişnəməsindən.
Yenəmi qırılsın, tökülsün bəşər?
Üz-üzə dursunlar xeyr ilə şər.
Cahanı bürüsün aclıq, səfalət,
Ehtiyac, yoxsulluq, zülm, zəlalət.
Yenəmi çoxalsın dəhşət, fəlakət?
Virana çevrilsin ölkə, məmləkət.
Yenəmi yas tutsun ana-bacılar?
Görsünlər, bilsinlər ağrı acılar.

İnsanlıq meyarlarının get-gedə unudulması, bəni-insan xilqətinin mənəvi-əxlaqi keyfiyyətlərinin yerini şeytanlıq, iblislik kimi mənfur, neqativ halların tədricən insanların mənəvi dünyasını əsarətə alması Cəmil Əkbəri çox qorxudur. Şair qəlbini narahat etdiyi üçün də imdad diləmək üçün ulu Tanrıya üz tutaraq mədət umur *"İtməsin"* rədifli şeirlə.

Ulu Tanrı kömək eylə bəşərə,
İnsanlığın sədaqəti itməsin.
Yol olmasın müsibətə, mənşərə,
İnsanlığın məhəbbəti itməsin.

İnsanoğlu düz tanısın yerini,
Görə bilsin dayazını, dərini,
Yola versin həm xeyrini, şərini,
Ədəb-ərkan, mərifəti itməsin.

Cəmil Əkbər yaradıcılığında siyasi motivli şeirlər də vardır. Qeyd etməliyik ki, qədim Türk yurdu İrəvanda soydaşlarımızın daşnaklar tərəfindən amansızcasına qətl edilməsi, Azərbaycan Türklərinin öz tarixi dədə-baba torpaqlarından, yurd-yuvalarından deportasiyaya məruz qalması, keçən əsrin 80-ci illərinin sonlarından Cəmil Əkbəri aşırı dərəcədə hiddətləndirməklə yanaşı həm də çox məyus etmişdir. Bütün bu olaylar Cəmil Əkbər yaradıcılığına təbii ki, təsir etmiş *"Adam da Vətəni qoyub qaçarmı?"* rədifli şeirlə bu haqsızlığa dur deməyə çalışmış, dünyanın sülhpərvər insanlarına çağırış edərək etiraz motivli üsyan səsi ilə bir növ bəşəriyyətə hayqırmışdır. Dünyanın gözü önündə baş vermiş bu ədalətsizliyə hamılıqla yox deməyə, xaqlının tərəfində mövqe tutmağa səsləmişdir poeziyanın təsiredici dili ilə.

Nə deyim, danışım didərginlərə?
Adam da Vətəni qoyub qaçarmı?
Taleyi bəd gələn o bədbinlərə,
Adam da Vətəni qoyub qaçarmı?

Vətən dedikləri anamız olub,
Əzəl bünövrəmiz, binamız olub,
Şövkətimiz olub, şanamız olub,
Adam da Vətəni qoyub qaçarmı?

Qaçqınlıq damğadır, ləkədir bizə,
Yumaqla, silməklə ləkədir üzə,
Çox ağır bir yükdür, möhnətdir bizə,
Adam da Vətəni qoyub qaçarmı?

2 Aprel 1993-cü il tarixində bədnam qonşumuz Erməni silahlı qüvvələrinin, Azərbaycanımızın böyük ozanı Dədə Şəmşirin ana Vətəni olan füsunkar təbiətli Kəlbəcəri, qəsb etməsindən qeyzlənən Cəmil Əkbər dərdini bölüşmək üçün, Azərbaycanın istedadlı vətənpərvər şair övladı Bəhmən Vətənoğluna məktub göndərir. Bu bölgənin insanlarının başına gələn acı müsibətləri, bu müqəddəs məkanı satan xainlərin kim olduğunu öyrənmək məramı ilə şeir dili ilə sorğu-suallar verərək, baiskarların tezliklə cəzasına çatdırılmasını tələb edir. Hər bənd sanki bir mərmidir, bir qurşundur sual şəklində Bəhmən Vətənoğlunun üzərinə yağdırılır.

A Bəhmən qələmin niyə susubdur?
Kim satdı Vətəni ay Vətənoğlu?
Kimdən inciyibdir, kimdən küsübdür?
Kim satdı Vətəni ay Vətənoğlu?

Bu necə satqınlıq, xəyanət odu?
Necə də qəddarlıq, cinayət oldu?
Avamlıq, nadanlıq, cəhalət oldu?
Satdı Kəlbəcəri ay Vətənoğlu?

Cəmil Əkbərin dost itkisinə yazdığı qəmli halının təzahürü olan poetik nümunələr V cild "Cəmil Əkbər şeirlər" adlı kitabınıda da nəzərə çarpmaqdadır. Tanınmış riyaziyyatçı alim, Azərbaycan Elmlər Akademiyasının Müxbir Üzvü, məşhur riyaziyyatçı alim, professor Qoşqar Teymuroğlu Əhmədovun bu fani dünyanı vaxtsız tərk edib getməsi bir dost kimi Cəmil Əkbərin ruhunu, qəlbini hüzünlə çuğlamışdır. Təəssüf hisslərinin məyusluq ifadəsi, 1975-ci il 10 Dekabr tarixində yazdığı *"Bu dərd"* rədifli qoşmasında açıq-aydın qəmin tüğyanında, kədər aurasında duyulmaqdadır.

Nəqədər bədxəbər, nəqədər kədər?
Ağrıtdı qəlbimin başını bu dərd.
Bu itki ağrısı qəlbimi didər,
Tökdü gözlərimin yaşını bu dərd.

Köçdü elimizin mayağı Qoşqar,
Dar gündə köməyi, dayağı Qoşqar,
Alimlər dəsinin oyağı Qoşqar,
Gətirdi qəlbimin qışını bu dərd.

Şair Cabir Novruzun şeirinə cavab olaraq yazdığı *"Ağladım"* rədifli qoşması da qəm ruhunda köklənmiş şeirlər siyahısında yer alır.

Şair Cabir o nə sözdü yazmısan?
Sətir-sətir oxuduqca ağladım.
Nə ocaqdır, o nə közdür yanmısan?
Tüstüsünü qoxuduqca ağladım.

Nə zülümdü, nə yaradı almısan?
Nə fikirdi, nə xəyaldı dalmısan?
Bu nə kaman köklənmisən, çalmısan?
Əriş-arğac toxuduqca ağladım.

Cəmil Əkbər haqq dünyasına qovuşan böyük elm adamlarına həsr etdiyi üzüntü dolu şeirlərlə yanaşı ictimai-siyasi xadimlərin vəfatından kədərlənərək yazdığı şeirlərə də rast gəlirik. Hətta Türkiyə Cumhuriyyətinin cumhurbaşkanı Turqut Özalın qəfil Haqq dünyasına qovuşmasından duyğulanan Cəmil Əkbər 1993-cü il 18 Aprel tarixində yazdığı hüzün motivli *"Öldü"* rədifli şeiri ilə kədərini, qəmini, təlaşını bu poetik misralarla əziz millətinə çatdırmağa çalışır.

Sarsıtdı elimi bu qara xəbər,
Deyirlərki Turqut Özal da öldü.
Şərəf-şan sahibi dillərdə əzbər,
Deyirlərki Turqut Özal da öldü.

O, Türk ellərinin dayağı idi,
Parlaq kəhkəşanı, mayağı idi,
İgidlər dəsinin oyağı idi,
Deyirlərki Turqut Özal da öldü.

İslam dünyasının çırağı söndü,
Eşqi, məhəbbəti, marağı söndü,
Kəsildi xəbəri, sorağı söndü,
Deyirlərki Turqut Özal da öldü.

Azəri elinin qardaşı idi,
Həmdəmi, həmkarı, sirdaşı idi,
Yaxşı dostu idi, yoldaşı idi,
Deyirlərki Turqut Özal da öldü.

*"Bir nəvəm ölübdür"* rədifli şeiri də qəm ruhunun, acı dərdin ifadəsidir. Üç yaş yarımında haqq dünyasına qovuşan nəvəsi Şəhlanın faciəvi ölümü, Cəmil Əkbəri dərin kədərə, üzüntüyə mübtəla etmiş, bu matəmlə əlaqədar münasibətini dilə gətirərək çox həssas, səmimi duyğularını bir baba olaraq sözün ecazkar qüdrəti ilə orijinal misralarla izhar edərək gözyaşlarını qəlbinə axıdır pünhanca.

Bir nəvəm ölübdür ürəyim kimi,
Qızılım, gümüşüm, gərəyim kimi,
Bükülməz qollarım, biləyim kimi,
Qolum, qanadımtək, lələyim kimi.

Bir nəvəm ölübdür, tayı yox idi,
Qılıncı, qalxanı, yayı yox idi,
Sovqatı yox idi, payı yox idi,
Nöqsanı yox idi, zayı yox idi.

Bir nəvəm ölübdür, qardaşım kimi,
Mehriban, istəkli yoldaşım kimi,
Həmkarım, həmdəmim, sirdaşım kimi,
Yaşdaşım, tay-tuşum, çağdaşım kimi.

Bir çox şeirlərinə diqqətlə nəzər saldığımızda Cəmil Əkbər poeziyasında lirik musiqilik özünü biruzə verir. Bu qəbildən olan şeirlərində bir axıcılıq, rəvanlıq özünün melodikliyi ilə göstərir. Yeni ilin gəlişi şərəfinə yazdığı *"Təzə il"* adlı nümunədəki bəndlərin hər birini oxuduqca bu mövzu ilə əlaqədar fikir bağlılığı duyulur.

Köhnə ili yola saldıq,
Gözləyirik gəl təzə il.
İllər ötdü, yaşa dolduq,
Süfrəmizi gəl bəzə il.

Yenilməsin təməlimiz,
Hər işimiz, əməlimiz,
Səadətdir nəzərimiz,
Sən də baxıb gül üzə il.

Cəmil Əkbər yaradıcılığında təbiət gözəllikləri, yaylaqlar, dağlar, gül-çiçəklərə aid mövzuda şeirlər şairlərə məxsus cəhət kimi Cəmil Əkbər yaradıcılığında da yer almaqdadır. Bu nöqteyi

nəzərindən *"Qızıl gül"* rədifli şeiri sanki oxucusunu bir qədər düşündürür. Gözəlliyinin tez solub getməsinə toxunsada bülbüllərin cəhcəhi ilə harmonikləşir, bir-birini tamamlayır. Poetik dillə fikirlərdən zövq alırsan bu şeiri oxuduqca. Sanki bir insan tərəfmüqabil kimi söhbət edib dərdini, həssas düşüncələrini səmimiyyəti ilə izhar edir.

Təbiət nəqədər gözəl yaradıb?
Hər çiçəkdən ətirlisən qızıl gül.
Bəlkə də gözəldən əzəl yaradıb?
Hər göyçəkdən xətirlisən qızıl gül.

Ətirinlə yaraşıqsan ellərə,
Çəmənlərə, çəmənzara, çöllərə,
O səbəbdən car olmusan dillərə,
Məna dolu sətirlisən qızıl gül.

Cəmil Əkbər yaradıcılığını incələdiyimizdə səmimiyyət şairi olduğu poetik sözlərinin məna dolu fikirlərlə zəngin ifadələrlə obrazlı dillə əks olunmasında hiss edilir. 1970-ci ildə 4 aylıq təkmilləşdirmə kursunu Özbəkistanda tamamlayıb Vətəninə, Azərbaycana dönüş məqamında yaşadığı duyğulu anlarını qələmə alan *"Salamat qalın"* rədifli qoşması tamamilə səmimiyyətin ifadəsi olub poetik deyimlə təzahür etməklə bulaq suyu kimi insanı mənəviyyat aləmində saflaşdırır, paklaşdırır.

Mən gəldim, gedirəm mehriban ellər,
Görüm sizi sağlıq ilə qalasız.
Düşünən zəkalar, yaradan ellər,
Görüm sizi sağlıq ilə qalasız.

Ey mehriban Daşkənd, ey gözəl diyar,
Qəlbimdə silinməz xatiratın var,
Görmüşəm xalqında sədaqət, ilqar,
Görüm sizi sağlıq ilə qalasız.

Ümumilikdə Özbəkistanla bağlı Cəmil Əkbəri bir neçə şeiri bu qədim tarixi mədəniyyətə sahib, zəngin mənəviyyat ölkəsi ilə bağlı olduğunu təsbit edirik. Bütün bunlar Şərq aləminə olan məhəbbətinin timsalıdır ki, şeir dili ilə oxucusuna çatdırılmış. Və o unudulmaz ülvi xatirələrlə dolu günlərin nişanəsidir.

Cəmil Əkbər yaradıcılığında yubiley münasibəti ilə tanınmış elm adamlarına həsr etdiyi şeirlər də vardır. İnqilabçı şəxsiyyət, Akademik Mirzə Sadıqovun 70 illik yubileyi münasibəti ilə yazdığı poetik örnəkdən bir bəndə diqqət etdikdə alimə verdiyi dəyəri bu poetik misralarda olan qiymətli kəlmələrlə anlamış oluruq.

Səni görcək fəxr eyləyir el-obamız, doğma diyar,
Gətirmisən Vətəninə şərəf, şöhrət, həm iftixar.
Həsədini çəkə bilər başı qarlı uca dağlar,
Bunu bilki, Mirzə dayı, ləyaqətin, haqqın da var.

Cəmil Əkbər yaradıcılığının xarakterik özəlliyini səciyyələndirən cəhətlərdən biri də yaşadığı sovetlər dönəminin son illərində baş vermiş ictimai-siyasi hadisələrə dolu, haqsızlıqlara, şər-böhtana, iftiralara qarşı öz münasibətini etiraz motivli şeirləri ilə bildirmişdir. Haqq-ədalət carçısı kimi səsini mənfur meyllərə qarşı ucaldaraq əslində hayqırışını bütün dünyaya, sülhsevər insanlara duyurmağa çalışır. Bu baxımdan Ermənistan Azərbaycan qarşıdurmasının tətikçilərinidən, “başkomutanlarından” olan aşırı milliyətçi, daşnak terror örgütünün başbilənlərindən olan Zori Balayanın “Ocaq” və “Çörək” adlı iftira dolu kitabını oxuyub tanış olduqdan sonra bir siyasətçi alim kimi sözaltı mənalara açıqlıq gətirib, buradakı qorxunc fikirləri izah etməklə müəllifin iç üzünü açmış, faşist təbiətli, mənfur xislətini ortaya qoymuşdur Cəmil Əkbər. Zori Balayanın bu kitablarına *“Doludur”* rədifli şeirlə hətta “Pravda” və “İzvestiya” qəzetinin əməkdaşlarına rəsmi məktubla da verdiyi tutarlı cavabları ilə Azərbaycanın əsil həqiqətlərini Post sovet məkanında ən üst məqamında vəzifə başında dayanan yönəticilərin diqqətinə də çatdırmağa çalışır.

Nə “ocaqdır” qalamısan Balayan?
Odu-közü ədavətlə doludur.
Ünsiyyətə benzin töküb calayan,
Alışarsa hərarətlə doludur.

Bu “ocaqda” zəhər dolu tüstü var,
Ölənlərin-itənlərin büstü var,
Qəzəbi var, qisası var, qəsdi var,
Kin-küdurət, xəyanətlə doludur.

Tanıtdırdın, nədə imiş zorunu,
Ocağının hənirini, qorunu,
Belə getsə qazacaqlar gorunu,
Başın dolu xəyanətlə doludur.

Rəsmi qurumlardan gələn cavab məktubları hələ Cəmil Əkbərin arxivində yer almaqdadır.

Cəmil Əkbərin yaradıcılığında Dədə Şəmşir, Aşıq Veysəl kimi digər şairlərdə olduğu kimi torpağa həsr etdiyi şeirlər də diqqəti çəkər. Ana torpağın dünya xalqlarının ömür-gün sürüb yaşaya bilməsi üçün təməl olduğunu, eyni zamanda dəmir filizi, mərmər, neft, qaz yataqlarını yaradan geniş imkanlara sahibliyini poetik dillə bildirməklə ona borclu olduğunun insanlıq aləminin düşüncəsi ilə *"Ana torpağım"* adlı şeiri ilə etiraf edir.

Mən sənə borcluyam ay ana torpaq.
Nəqədər çalışsam qaytaranmaram?
Haqqını-sayını qurtaranmaram.
Nəqədər danışsam yenə də azdır,
Deyərsən bu nə söz, bu nə avazdır.

Cəmil Əkbərin *"Şair ürəyi"* rədifli şeirini oxuduqca öz ürəyini, ruhunu, fikrini sanki bir insan gözündə ortaya qoyub oxucusuna çatdırır. Ürəyə aid olan fikirlər əslində insan hədəfindəki baxışacısını göstərməyə çalışır. Bəhs etdiyimiz şeirin fərqli bəndlərində şair ürəyinin bəzən qüssə, dərd-məlalla, bəzən fikir xəyalla dolu olduğu yaş səviyyəsinin qoca, bəzən cavan olduğunu obrazlı bir şəkildə xarakterizə etməyə çalışır. Cəmil Əkbər şair ürəyini el-oba, mahal kimi geniş olduğunu, bəzən zülal, şərbət olduğunu, Haqq-say sümürüb udan kəslərlə, barışa bilmədiyini də ifadə edir. Əslində bu şeirlə öz ürəyinin timsalında digər şairlərin ürəyinin xarakterini göstərməyə çalışır Cəmil Əkbər.

Haçandan bəridir təlatümdədir,
Fikirdir, xəyaldır şair ürəyi.
Özü də bilməyir heç nəgündədir?
Qüssədir, məlaldır şair ürəyi.

Ülfət eyləyərək nadan kəslərlə,
Yolunu tərsinə adan kəslərlə,
Haqq-say sümürüb udan kəslərlə,
Barışa bilmədi şair ürəyi.

Cəmil Əkbər yaradıcılığında bir çox şairlərin sözlərinə yazdığı cavab, əslində deyişmə xarakterində olub aşıqlıq ənənəsindəki kimi bir fikir üstə qarşılıqlı cavab şəklində səslənir.

Xalq şairi Hüseyn Ariflə, Miskinli Şair Vəli ilə olan deyişmələr bu baxımdan xarakteriktir. Bəhmən Vətənoğlu ilə Cəmil Əkbərin *"Keşkə"* rədifindəki fikir mübadiləsi əslində aşıq deyişməsi kimi görünür.

***Bəhmən Vətənoğlu***: Yaz fəsli gələndə ana torpağa,
Şaxtadan əlamət qalmaya keşkə.
Göz açıb dünyaya gələn bir çiçək,
Vədəsiz saralıb, solmaya keşkə.

***Cəmil Əkbər:*** Nəola tarlada alaqotları,
Cücərib, boy atıb qalmaya keşkə.
Gicitkansayağı dalaqotları,
Əlləri dalayıb, çalmaya keşkə.

Cəmil Əkbər illərlə qazandığı təcrübə nəticəsində bir qənaətə gəlir ki, xoşbəxtliyin əsaslarından biri də insanlar arasındakı dostluqdadır. Müharibələrin olmaması dostluğun dəyəri qiyməti ilə izah olunur Cəmil Əkbər baxışında. Dostluq meyyarı insanların ünsiyyəti prosesində qəm-kədərin olmamasıdır. Könüllərin şad olması dostluğa bağlıdır deyir Cəmil Əkbər. Azadlığın, xoşbəxtliyin başında dostluq dayanır fikrini söyləyir Cəmil Əkbər. Şairin 1963-cü 25 iyul tarixində yazdığı *"İnsanlar dostlaşarsa"* rədifli şeirində bütün bu düşüncələr poetikcəsinə ifadə olunmaqdadır.

Millətlər qardaş olar,
Ürək bir sirdaş olar,
Mehriban yoldaş olar,
İnsanlar dostlaşarsa.

Müsibətlər azalar,
Ürəklərdə yaz olar,
Könüllər pərvaz olar,
İnsanlar dostlaşarsa.

Tapılmaz ara vuran,
Ona-buna tor quran,
Nə də pusquda duran,
İnsanlar dostlaşarsa.

Bağçalar barlı olar,
Kasıb da varlı olar,
İgid vüqarlı olar,
İnsanlar dostlaşarsa.

Ömrünün 50 illini iqtisadi-siyasi elm sahəsində ali təhsil qurumuda *(Gəncə Dövlət Aqrar Universiteti)* pedaqoq kimi fəaliyyət göstərmiş Cəmil müəllim tədris prosesində gənc nəslin təmsilçilərinə hər zaman öyüd-nəsihət vermiş, onların dövlətimiz üçün əsl kadr, həqiqi vətəndaş kimi yetişməsində üzbəüz dərs anlatdığı prosesində həm də şeirin ecazkar dili ilə, sanki ata öz övladına verdiyi öyüd məsləhətlərlə həyatda doğru-dürüst insan kimi yaşamağın yolunu öyrətməyə çalışmışdır. Şairin *"Öyrənin"* rədifli şeirini nümunə göstərdikdə tərbiyəvi nəsihətlərinin, öyüdlərinin poetik dillə qələmə alındığına şahid oluruq. Bu baxımdan da yetirmələrinə tövsiyyəsi budur ki, həyatının, yaşamağın anlamını insanlıqdan, həqiqətdən, ədalətdən, insafdan, mürvətdən, öyrənməyə çalışsınlar. Çünki "insanlıq", "həqiqət", "sədaqət", "səxavət", "ədalət" adlı elm əsl insana xas olan keyfiyyətidr. Bununla belə xalqına xas olan mənvi dəyərlərin əxz edilib yaşam tərzinə keçirilməsində də fayda var deyə nəsihət verir. Bu nöqteyi-nəzərdən zirəklikdən, qoçaqlıqdan, halal zəhmətdən, fərasətdən, bacarıq-məharətdən, ədəb-ərkandan, dini kitaplarımızdan: İncildən, Qurandan, doğru fikirdən, pak niyyətdən də öyrənib nəticə çıxarıb şəxsiyyətinə, rəftarına şamil etməyin əslində onların özü üçün faydası olacaqdır deyə bu insani meyarlara uymağı arzu edir Cəmil Əkbər.

Əzəl başdan budur sənlə söhbətim,
İnsanlıqdan, ləyaqətdən öyrənin.
Budur ilk təvəqqəm, xahiş minnətim,
Ədalətdən, həqiqətdən öyrənin.

Meylini yetirmə tamaha doğru,
Qal-qovğa, xətaya, günaha doğru,
Naləyə, qarğışa, nə aha doğru,
İnsaf, mürvət, səxavətdən öyrənin.

Bütün şairlərə məxsus məhəbbət ruhlu şeirləri Cəmil Əkbər yaradıcılığında da özünü göstərməkdədir. *"Ay Maral"* qoşması bu baxımdan örnək ola bilər.

Gülümsəyən gözlərinə baxmaqdan,
Olmamışam mən biganə, ay Maral!
Çatmaz mənə eşq oduna yanmaqdan,
Nə Səməndər, nə Pərvanə ay Maral!

Cəmil Əkbər poeziyasını təhlil etdiyimizdə bəzən eyni misranın, bəzən də bir beytin digər bir şeirdə də olduğu kimi, dəyişmədən istifadə edildiyinə də rast gəlirik. Bu baxımdan bir çox nümunə göstərə bilərik. "Ayıbdır" rədifli qoşmasının 3-cü bəndinin ilk beytində olan *"Danışanda diqqət yetir dilinə, Hörmət qoyub bir nəzər sal elinə"* misraları Cəmil Əkbərin *"Hayıf olar"* rədifli şeirində də var.

Danışanda diqqət yetir dilinə,
Hörmət qoyub bir nəzər sal elinə,
Bel bağlama fitnə-fəsad felinə,
Ədalətdən, həqiqətdən ayıbdır.

"Hayıf olar" rədifli digər şeirində isə həmin beyt bu şəkildədir.

Danışanda diqqət yetir dilinə,
Hörmət qoyub bir nəzər sal elinə,
Gövhər düşər olsa nadan əlinə,
Xiridar tapılmaz, ləl hayıf olar.

Cəmil Əkbərin yaradıcılığında bəzi misraların eyni ilə bir digər şeirində olduğunu da təsbit edirik. *"Heçnəyə dəyməz"* rədifli şeirinin bir bəndindəki misralara "Gözləmə" rədifli şeirində də rast gəlirik.

| "Heçnəyə dəyməz" | "Gözləmə" |
|---|---|
| Sərraflıq igidin özündə gərək, | Sərraflıq igidin özündə gərək, |
| Qüvvət qollarında, dizində gərək, | Qüvvət qollarında, dizində gərək, |
| Qeyrət hərkəsdənin özündə gərək, | Qeyrət hərkəsdənin özündə gərək, |
| Məharət olmasa heçnəyə dəyməz. | Özgədən özünə qeyrət gözləmə. |

Cəmil Əkbər yaradıcılığında diqqətimizi çəkən cəhətlərdən biri böyüyüb boya-başa çatdığı füsunkar təbiətli Azərbaycanımızın fərqli bölgələrinə *(Gəncə, Gədəbəy, Bakı)*, kəndlərinə *(Balçılı, Sarısu, Qazax),* şəhərlərinə, qəsəbələrinə həsr etdiyi bir çox şeirlər mövcuddur.

Bununla belə fərqli illərdə elmi-pedaqoji təcrübə mübadiləsi almaq üçün rəsmi olaraq göndərildiyi Özbəkistanda, Ukraynada, Belarusyada yazdığı şeirlər də vardır. Bu nöqteyi nəzərindən *"Bu yerlərin"* adlı gəraylısı 3 Aprel 1987-ci ildə Belarus Respublikasında 5 aylıq təkmilləşdirmə kursunda təcrübə keçdiyi dönəmdə Minsk şəhərində yazılmışdır. Təbii ki, gözü ilə gördüklərini, müşahidə etdiyi gözəl anları qələmə alaraq poetik dillə Minsk şəhərini şair ruhu ilə vəsf etmişdir.

Gözəlinə gözəl çatmaz,
Bu yerlərin, bu yerlərin.
Axır çatmaz, əvvəl çatmaz,
Bu yerlərin, bu yerlərin.

Dövlətinə dövlət çatmaz,
Sərvətinə sərvət çatmaz,
Mürvətinə mürvət çatmaz,
Bu yerlərin, bu yerlərin.

Yaradıcılığında nəsihətnamə ruhlu şeirlər, Cəmil Əkbər dünyasından, pedaqoji fəaliyyətində qazandığı zəngin təcrübədən, dünyagörüşündən irəli gəlir. Oxuduqca Nizami Gəncəvinin poetik ruhunun təsiri hiss olunur. Çünki Cəmil Əkbər Nizami Gəncəvinin bütün "Xəmsə"lərini oxuyub mütaliə edib yararlandığı *"Nəsihətnamə"* adlı şeirindən anlaşılır.

Güclüsənsə əzib sıxma, gücsüzləri, füqəranı,
Zülm eyləmə hər yetənə, ayaqlama biçarəni.
Varlısansa səxan olsun, yoxsula da bir əl uzat,
Əlin tutsa haraya çat, gücün yoxsa ol fərağat.
Bacarırsan yaxşılıq et, bezikdirmə millətini,
Nahaq yerə incidərək, irzikdirmə xilqətini.
Ağlın olsun ey biçarə, aldanmaynan şöhrətinə,
Ümid olma var qüvvənə, arxalanma qüdrətinə.
Qayğı göstər insanlara ata-ana, bacı kimi,
Bu dövranın, bu həyatın bünövrəsi, tacı kimi.
Yardım eylə köməksizə, tut qolundan yıxılanın,
Dərdlərinə əlac eylə, imdada çat sıxılanın.

Cəmil Əkbər yaradıcılığında diqqətimizi çəkən cəhətərdən biri, ata-baba kimi qız övladına, hətta nəvəsinə insan həyatının ən önəmli məqamı olan toy-düyün edib gəlin getməsi münasibəti ilə duyğusal

dolu, həm də müdrik bir şəxsiyyətin öyüd-nəsihətinin ifadəsi olan xeyir dualarını poetik dillə izhar edərək, xoşbəxtlik üçün, bir ailə səadəti üçün ürək sözlərini səmimi dillə ifadə etməsidir. Bu baxımdan 1982-ci il 5 Sentyabr, və 1996-cı il 11 Yanvar tarixində yazdığı *"Apar"* rədifli iki qoşmalarını oxuduqca bu xeyir-duaların nəinki öz övladları üçün olduğunu görürük, əslində isə bütün Azərbaycan qız övladlarımızı nəzərdə tutaraq xoş arzu, məramını bütün babalar, atalar dilindən səmimiyyəti ilə ən gözəl şəkildə ifadə edir. *"Apar"* rədifli şeirdən iki bəndə nəzər salsaq bu xeyir-duanın doğma ata dilindən bütün qızlarımıza şamil edilə bilər.

Mehriban qızlarım, gözəl qızlarım,
Bu evdən o evə sədaqət apar.
Yoluna-izinə düzəl qızlarım,
Ülvi-istək apar, məhəbbət apar.

Atma insafını, qoru mürvəti,
Saxla namusunu, arı, qeyrəti,
Gözlə şərafəti, artır şöhrəti,
Cehiz əvəzinə mərifət apar.

*"Apar"* rədifli digər şeiri də sanki bundan öncəki şeirinin davamı kimi səslənir. Fikir eyni, məram xoş, arzu-diləklərinin xeyir dua şəklində ifadəsidir.

Atanın evindən yarın evinə,
Pak arzu, saf istək, məhəbbət apar.
Cəmi cehizlərin hamsı bir yana,
Bir abır, bir həya, bir ismət apar.

Eşit ustadları, eşit Cəmili,
Dinlə müdrikləri, alın dəlili,
Atın bir kənara fitnəni, feli,
Qalsın qulağında nəsihət apar.

Cəmil Əkbər şeirləri içərisində duyğusal ruhda olanlar da vardır. Oxuduqca bəzən dünyanın gərdişini düşünürsən, kədərlənirsən, bu fani dünyada nəyi düz etdin, nəyi yanlış etdin deyə öz-özünə hesabat verirsən. Təbii ki, həyatda edilən yanlış, səhv hərəkətlər insanı kədərləndirir. Doğru olanlara isə qürurlanırsan, haqlı olduğunla da haqq qazandırırsan. Həyata vidalaşmağa 4 ay 19 gün qalmış Cəmil Əkbər kiçik övladı İlqar İmamverdiyevin ad günündə bir şeir

yazmışdır. 1999-cu il 23 sentyabr tarixində duyğulu anlar yaşayıb, nigarançılıq hissələri keçirən Cəmil Əkbərin *"Görəsən?"* rədifli qəm içərikli, fikir-xəyal ruhunun, düşüncələrin əks-sədası olan şeirini oxuduqca həssas, qayğıkeş bir atanın övladının gələcəyinin nəcür olacağını, həyatda nələrlə qarşılaşacağının nigarançılığını poetik sözlərin minor tonallığında həyəcan, niskil dolu ümidsizliyin melodiyası kimi səslənərək oxucusunu da kədərləndirir.

Səni düşünürəm, səni ay bala,
Taleyin üzünə güləcəkdimi?
Dostlar sevəcəkmi səni ay bala?
Axsa, gözyaşını siləcəkdimi?

Paxıllar sənə də darılacaqmı?
Sarsıyıb içindən qırılacaqmı?
Usanıb, hörmətdən yorulacaqmı?
Utanıb xətirdən öləcəkdimi?

Necə çıxacaqdır dostun, yoldaşın?
Həmkarın, həmdəmin, yaxın sirdaşın?
Atan olacaqmı əziz qardaşın?
Dərdini tən yarı böləcəkdimi?

Cəmil Əkbər yaradıcılığını təhlil edib gətirdiyimiz örnəklərdən bir daha aydın olur ki, şairin poetik düşüncələri zəngin olmaqla fərqli mövzuları əhatə edir. Hər bir şeirdə insan övladı üçün bir məram görsənməklə, bir mətləb izhar olunur poetik misralarla. Bu səbəblə də fərqli düşüncəyə sahib oxucular özləri üçün bir fikir, bir məna götürə bilər. Cəmil Əkbərin bir beytdə nə gözəl deyib poetikcəsinə:

Dünya gör-götürdür, atalar deyib,
Görüb götürməyən hədərə gedib.



Prof. Dr. İlgar Cəmiloğlu



Hüquqşünas Əli İmamverdi

28.05– 2023 saat 19:00

## 1. NİFƏT!

Aldanıb nəfsinə, dünya malına,
İnsafı-vicdanı atana nifrət!
Yanmayan ellərin dərdi-halına,
Yaxşını-yamana qatana nifrət!

Mərifət şərbəti içməyənlərə,
Haqqın yollarından keçməyənlərə,
Yaxşını-yamandan seçməyənlərə,
Qəflət yuxusunda yatana nifrət!

Ona-buna hiylə-kələk quraraq,
Üzə gülüb, arxalardan vuraraq,
Zəli kimi al-qanları soraraq,
Şərəfə-şöhrətə çatana nifrət!

İnsanları məlul-müşkül qoyana,
Məhəbbətdən usanana, doyana,
Şər danışıb fitnə-fəsad yayana,
Nahaqdan aranı qatana nifrət!

Hörməti-izzəti unudanlara,
Həyasız, nankora, qudurğanlara,
Qasırğa, fırtına, burulğanlara,
Üfunət gölünə batana nifrət!

Haqqı-ədaləti görməyənlərə,
Bağ salıb, gülündən dərməyənlərə,
İnsana düz qiymət verməyənlərə,
Namərdi-mərd kimi tutana nifrət!

***Cəmil Əkbər***

## 2. LƏNƏTLƏYİRƏM

Hərə bir diyarda sökhasökdədir,
Mən belə xidməti lənətləyirəm.
Gözünün yaşını tökhatökdədir,
Mən belə zilləti lənətləyirəm.

Salırlar bəşəri dara gədələr,
Gətirib xilqəti zara gədələr,
Axtarmır dərdlərə çara gədələr,
Mən belə xisləti lənətləyirəm.

Nə Vətən anlayan, nə el qanan var,
Nə inci, nə sədəf, nə ləl qanan var,
Nə mətləb anlayan, nə dil qanan var,
Mən belə zəhməti lənətləyirəm.

Bezdirib zəhlələr tökənlərə bax,
Dağıdıb, talayıb sökənlərə bax,
Dağı sinələrə çəkənlərə bax,
Mən belə nadanı lənətləyirəm.

Gör kimi qaldırıb, kimi yıxırlar?
Kimin ürəyini vurub, sıxırlar?
Gör kimlərin axırına çıxırlar?
Mən belə korları lənətləyirəm.

Gör kimə xəşandı, xardı deyirlər?
Kimlərə tərlandı, sardı deyirlər?
Kimlərə yoldaşdı, yardı deyirlər?
Mən belə kütləri lənətləyirəm.

Kimə yaxşı, kimə pisdi deyirlər,
Kimə qızıl, kimə misdi deyirlər,
Kimlərə inaddı, tərsdi deyirlər,
Mən belə bütləri lənətləyirəm.

Nəqədər gələnə çəkil deyirlər,
Ağrıtma başları əkil deyirlər,
Olmaz başımıza vəkil deyirlər,
Mən belə itləri lənətləyirəm.[1]

[1]Kamalı qıtları lənətləyirəm.

Çoxları boylandı görə bilmədi,
Aldığı borcları verə bilmədi,
Bağ salıb barından dərə bilmədi,
Mən belə karsızı lənətləyirəm.

Seyrinə vardıqca yara dərindir,
Tapılmır dərdlərə çarə dərindir,
Üz tutub gedəsən hara, dərindir?
Bu söyüd barsızı lənətləyirəm.[2]

Gileylər, güzarlar, şikayət artır,
Nadanlıq, cəhalət, qəbahət artır,
Küdurət çoxalır, ədavət artır,
Mən belə arsızı lənətləyirəm.

***Cəmil Əkbər*** 15. 02 – 1994

## 3. GÖRÜNƏNDƏ

Əsəbim korlanır, qanım qaralır,
Tərlan yuvasında sar görünəndə.
Gen dünya başıma yaman daralır,
Gözümə vəfasız yar görünəndə.

Bədənim uçunur, əlim titrəyir,
Dodağım söz tutmur, dilim titrəyir,
Vətənim, ulusum elim titrəyir,
Könüllər mülkündə mar görünəndə.

Vətənin torpağı soyuyub gedir,
Qərq olub xəyala, uyuyub gedir,
Yalları, yamacı keyiyib gedir,
Dağların başında qar görünəndə.

İnsanam deyəndən bezəsim gəlir,
Əlimi-əlindən üzəsim gəlir,
Çəkilib kənarda gəzəsim gəlir,
Namus tükənəndə, ar görünəndə.

[2] Beylə karsızları lənətləyirəm.

Nə yerə, nə göyə sığa bilmirəm,
Nə çölə, nə evə sığa bilmirəm,
Nə küncə, bucağa sığa bilmirəm,
Ünsiyyət-ülfətlər dar görünəndə.

İstərdim insandan aralı gəzim,
Oralı axtarım, buralı gəzim,
Qəlbi xoflu gəzim, qaralı gəzim,
Alimi biəməl, cır görünəndə.

Heçkəslə yaradıb, qurmağım gəlmir,
Oturmağım tutmur, durmağım gəlmir,
Kefini-halını sormağım gəlmir,
Könül aynasında kir görünəndə.

Dünyada sarsılıb, pozuluram mən,
Əriyib mum kimi azalıram mən,
İnləyib, sızlayıb sozalıram mən,
Xeyir meydanında şər görünəndə.

Nə deyim zamanın gərdişinə mən?
Adət-ənənəsi, vərdişinə mən?
Gedən karvanına, sərnişinə mən,
Nadanlar əlində zər görünəndə.

Əllərim titrəyir, dizlərim əsir,
Dilim kəlmə tutmur, sözlərim əsir,
Yolağım, cığırım, izlərim əsir[3],
Arvad xasiyyətli ər görünəndə.

Nə deyim, danışım, yaza bilmirəm?!
Düşünüb, dərk edib sezə bilmirəm?!
Səbr edib, tablaşıb dözə bilmirəm?!
Tülkü xislətində şir görünəndə.

[3] Getdiyim yol, cığır, izlərim əsir.

Cəmil Əkbər kədərlənir, qəm yeyir,
Zildən düşüb, pəs içində bəm yeyir,
Arzusundan doya bilmir, kəm yeyir,
Güllü bağçalarda xar görünəndə.

***Cəmil Əkbər*** 4. 06 – 1993

## 4. YANASAN

Belə başla-qulaqla, de hayana gedirsən?
Hansı səmtə yön alıb, nə cəryana gedirsən?
Ədəbazlıq edirsən, modabazlıq edirsən?
Nə oyundu çıxarıb, hoqqabazlıq edirsən?
Nə soraqdı eyləyib, nə sevdaya düşmüsən?
Gör nəqədər yoğnuyub, sən nəyaman şişmisən?
Bucür hiylə, kələklə, nədir sənin mətləbin?
Nədir bizdən iddian, nədir xalqdan tələbin?
Gəl qurşanma bu yola, tezi-geci batarsan,
Nə yığmısan hamsını, ucuz, baha satarsan.
Bu fikirlə, xəyalla el gözündən düşərsən,
Xatirədən silinib, yoldan, izdən düşərsən.
Ünsiyyəti korlayıb, ülfətləri pozarsan,
Öz əlinlə qəbrini tez-tələsik qazarsan.
Yaxınları seyredib, gedənməzsən uzağa,
Qarğatəki aldanıb düşəcəksən duzağa.
İtirərsən üzündən abır, həya, isməti,
Olan-qalan hər nə var, dəyər-dəyməz qiyməti.
Ləkə düşər ünvana, ada-sana yazıqsan,
Qəsd olunar inan ki, şirin cana yazıqsan.
Beylə arzu-diləklə, yoldan-izdən düşərsən,
Günortaya çatmamış, səhər tezdən düşərsən.
İşlənməyən əşyatək, künc-bucaqda qalarsan,
Qəm kökünə köklənib, öz havanı çalarsan.
Beylə arzu-diləklə, yoldaşlıqdan umma gəl,
Mehri-ülfət gözləyib, qardaşlıqdan umma gəl.
Tamahına qul olub, vara-hala sussama,
Dövranını xoş görüb, cahcəlala sussama.
El-obanı saymayıb, harınlaşma ayıbdır,
Peysərini yoğnudub, qarınlaşma ayıbdır.
Mənliyini itirib pozğunlaşma ayıbdır,

Toyuq kimi kürk düşüb, qızğınlaşma ayıbdır.
Gəlin biraz utanıb, el-obadan ar edək,
Qeyrət ilə dolanaq, adı-sanı car edək.
Qoy sözlərim kimsənin xatirinə dəyməsin,
Al-qanını qaraldıb, qamətini əyməsin.
Bu sözləri dedim ki, bədəməldən çəkinək,
Gəbərməmiş, ölməmiş diri-diri çəkilək.
Dedim bəlkə bir qədər, düşünəsən, qanasan,
Varsa vicdan odunda, bir balaca yanasan.

***Cəmil Əkbər*** 11. 05 -1988

## 5. ÇAŞDIRIB

*I variant*

İstəməzdim bir adamdan pul alam,
Odun nədi, ocaq nədi, kül alam,
Yazmaq üçün qələm alam, mel alam,
İnci, sədəf, ləl məni də çaşdırıb.[4]

İnanmışdım mən ədalət yoluna,
Doğru, düzlük, mən həqiqət yoluna,
Təmiz ad-san, ol ləyaqət yoluna,
Aman Allah, yol məni də çaşdırıb. [5]

---

[4] *II variant*

İstəməzdim bir adamdan pul alım,
Dəymiş, sütül, kal da məni çaşdırıb,
Odun nədi, ocaq nədi, kül alım,
Bəd gəlibdir il də məni çaşdırıb.

[5] *III variant*

Ha meyl etdim ədalətin yoluna,
Doğru, düzlük, həqiqətın yoluna,
Təmiz ad-san, ləyaqətin yoluna,
Aman Allah, yol da məni çaşdırıb.

*IV variant*

İnanmışdım ədalətin yoluna,
Doğruluğun, həqiqətin yoluna,
İnsanlığın, ləyaqətin yoluna,
İz də məni, yol da məni çaşdırıb.

Çoxalıbdı ərli-ərsiz qəhbələr,
Üzəgülən fərli-fərsiz qəhbələr,[6]
Bərbəzəkli, zərli-zərsiz qəhbələr,
Bakirələr, dul məni də çaşdırıb.[7]

Heyran oldum yanaqdakı xallara,
Totux-motux incə belli dallara,
Dəymiş nədi, sütüllərə, kallara,
Aman Allah, xal məni də çaşdırıb.[8]

Şəkəri də sırıyıblar bal kimi,
Demək olmur, dilim qalıb lal kimi,
İxtiyarsız, sədarətsiz qul kimi,
Zülal nədir, bal məni də çaşdırıb.[9]

Müğənni də nəyi desən oxuyur,
Ordan-burdan quraşdırıb toxuyur,
Kol-koslar da ətri-ənbər qoxuyur,
Aman Allah, val məni də çaşdırıb.

Gədə-güdə bürünür alqumaşa,
Gözlər gərək etsin ona tamaşa,
Az qalır ki, bərq vuranda qamaşa,
Tirmə nədir, şal məni də çaşdırıb.[10]

---

[6] Yaxşı-yaman, fərli-fərsiz qəhbələr.

[7]*II variant*

Bürüyüb hər yanı ərsiz qəhbələr,
Karlı-karsız, fərli-fərsiz qəhbələr,
Bər-bəzəkli, zərli-zərsiz qəhbələr,
Aman Allah, dul da məni çaşdırıb.

[8] *II variant*

Baxıb-baxıb mən də uydum xallara,
İncə belli totux-motux dallara,
Dəymiş nədi, sütül nədi, kallara,
Aman Allah, dal da məni çaşdırıb.

[9]*II variant*

Qaynadıblar, şəkər olub bal kimi,
Demək olmur, mən olmuşam lal kimi,
İxtiyarsız, sədarətsiz qul kimi,
Aman Allah, bal da məni çaşdırıb.

Hiylə artıb, kələk artıb, bic artıb,
Sarsaq artıb, axmaq artıb, gic artıb,
Qəddar artıb, zalım artıb, kəc artıb,[11]
Fitnə-fəsad, fel məni də çaşdırıb.[12]

Tamah bizi sürükləyir haraya?
Yetiş dada, yetiş Allah haraya!
Məlhəm eylə kəm xəyalda yaraya,
Zaman məni, il məni də çaşdırıb.[13]

İnanmışam yağlı-yağlı sözlərə,
Hər salınan cığırlara, izlərə,
Əyrilərə, yalanlara, düzlərə,
Aman Allah dil məni də çaşdırıb.

Cəmil Əkbər gəl aldanma tamaha,
Yolu vermə qəbahətə, günaha,
Nəzər yetir gələcəyə, sabaha,[14]
Deməginən hal məni də çaşdırıb.[15]

***Cəmil Əkbər*** 4. 10 – 1987

---

[10] *II variant*
Hər yetirən bürünürlər qumaşa,
Gözlər gərək etsin ona tamaşa,
Bərq vurduqca gözlərimiz qamaşa,
Aman Allah, şal da məni çaşdırıb.

*III variant*
Hər yetirən tirməşala bürünüb,
Min fikirə, min xəyala bürünüb,
Vara-hala cah-cəlala bürünüb,
Aman Allah, xal da məni çaşdırıb.

[11] 1) Qəddar artıb, zalım artıb, öc artıb. 2) Xain artıb, paxıl artıb, kəc artıb.

[12] *II variant*
Lotu-potu tirməşala bürünür,
Orda-burda xoruz kimi görünür,
Məzlum, fəqir ilan kimi sürünür,
Aman Allah, fel də məni çaşdırıb.

[13] *II variant*
Dəyişib nəyaman dövrü-zəmanə,
Fikirlər, xəyallar, gedir gümanə,
Baxmayır nə aha, nə də amana,
Aman Allah, il də məni çaşdırıb.

[14] Nəzər yetir sən uğurlu, sabaha.
[15] Deməginən hal da məni çaşdırıb.

## 6. ÇAŞDIRIB

*II variant*

Aman Allah nə günlərə qalmışıq?
Qəpik-quruş, pul da bizi çaşdırıb.
Nə səs-küyə, nə ünlərə qalmışıq?
Daş da, qaş da, ləl də bizi çaşdırıb.

Çoxalıbdır saxtalıqlar, yalanlar,
Bir kök üstə min bir hava çalanlar,
Min fikirə, min xəyala dalanlar,
Dəhan, dodaq, dil də bizi çaşdırıb.

Daş düzülüb ədalətin yoluna,
Doğruluğun, həqiqətin yoluna,
İnsanlığın, ləyaqətin yoluna,
Hamı azıb, yol da bizi çaşdırıb.

Məqam gəlib gədələr də bəy olub,
Qanan, qanmaz, alimlər də “key” olub,
İtiriblər kamalını “səy” olub,
Nə bəd gəlib, il də bizi çaşdırıb.

Çoxalıbdı ərli, ərsiz madamlar,
Addımını tərsəməssəb adanlar,
Haram puldan kalan-kalan dadanlar,
Yelbeyinlər, dul da bizi çaşdırıb.

Dayılara daldananlar çoxalıb,
Aldadanlar, aldananlar çoxalıb,
Əyri yola yollananlar çoxalıb,
Fitnə-fəsad, fel də bizi çaşdırıb.

Sırıyırlar şəkəri də bal kimi,
Utanmırlar, qızarmırlar kal kimi,
Danışan yox, deyən yoxdur lal kimi,
Zülal, şəkər, bal da bizi çaşdırıb.

Müğənni də hər nə desən oxuyur,
Ordan-burdan quraşdırır, toxuyur,
Elə sanır ətri-ənbər qoxuyur,
Efirdəki val da bizi çaşdırıb.

Hər yetənkəs bürünürlər qumaşa,
Az qalır ki, göz baxdıqca qamaşa,
Qəribədir tamaşadır, tamaşa,
Tirmə, sətin, şal da bizi çaşdırıb.

Cəmil Əkbər qulluq etmə tamaha,
Səni salar tezi-geci o aha,
Yolu vermə qəbahətə, günaha,
Alagözlər, xal da bizi çaşdırıb.

***Cəmil Əkbər*** 4.05 – 1987

## 7. İNSANIN-İNSANA

Yer üzündə törədilən davalar,
İnsanın-insana cinayətidir.
Zəhərlərə bülənd olan havalar,
İnsanın-insana xəyanətidir.

Tutulan qabaqlar, çatılan qaşlar,
İnləyən ürəklər, ağrıyan başlar,
Gödələn ömürlər, kəsilən yaşlar,
İnsanın-insana ədavətidir.

Korlanan əsəblər, qaralan qanlar,
Əzab-əziyətdə üzülən canlar,
Murada çatmamış ölən insanlar,
İnsanın-insana qəbahətidir.

Ünsiyyət-ülfətdə olan pisliklər,
Bədxahlıqlar, qəddarlıqar, nəsliklər,[16]
İnadlıqlar, höcətliklər, tərsliklər,
İnsanın-insana cəhalətidir.

Düşünməmək, dərk etməmək, qanmamaq,
Dünya alışsa da, tükü yanmamaq,
Böyük-kiçik pəsinməmək, sanmamaq,
İnsanın-insana fəlakətidir.

---

[16] Bədxahlıqlar, zalımlıqar, nəsliklər.

Düz görüb, eşidib, düz anlamamaq,
İşarə qanmayıb, göz anlamamaq,
Nəqədər eşitsə, söz anlamamaq,
İnsanın-insana müsibətidir.

Təlim-tərbiyəsiz olan nadanlar,
Addımını tərsəməssəb adanlar,
Haqq-sayı sümürərək, udanlar,
İnsanın-insana şikayətidir.

***Cəmil Əkbər*** 7. 06 - 1993

## 8. NƏÇIXAR?

İstər doxsan yaşa, istər yüz yaşa,
Adi ömür, adi yaşdan nəçıxar?
Sinə gərib havayıdan döz yaşa,
Adi bahar, adi qışdan nəçıxar?

Seyrə çıxıb uzaqları görməsən,
Məzlumları, yazıqları görməsən,
Öz borcunu el-obaya verməsən,
Adi gözdən, adi qaşdan nəçıxar?

Kamalında dür danəsi yoxdursa,
İnci, sədəf, zər danəsi yoxdursa,
Vətənində tər danəsi yoxdursa,
Toz-torpaqdan, adi daşdan nəçıxar?

Eli bəzəmirsə söz incilərin,
Haqdan xəbər verən düz incilərin,
Könül diyarında köz incilərin,
Boş kəllədən, adi başdan nəçıxar?

Dediyin sözlərin səməri yoxsa,
Muştuluq xəbəri, nəməri yoxsa,
Ellərə çatası bəhəri yoxsa,
Fikir, xəyal, adi huşdan nəçıxar?

Sən gedən yollarla gələ bilməyən,
Şəninə sevinib, gülə bilməyən,
Dirilə bilməyən, ölə bilməyən,
Adi tay-tuş, ya çağdaşdan nəçıxar?

Olursan tərlan ol, səmalarda gəz,
Mavi ənginlikdə, havalarda gəz,
Qanad çal ellərdə, obalarda gəz,
Boz sərçədən, adi quşdan nəçıxar?

Yesə çörəyini nanıkor gədə,
Dostuna, tanışa ziyankar gədə,
Siranuş, Hayqanuş, Kinikor gədə,
Sondan-sona kaşki-kaşdan nəçıxar?

***Cəmil Əkbər*** 18. 03 – 1998

## 9. NƏÇIXAR?

İnsanoğlu məhəbbətlə dolanın,
Kinlilikdən, küdurətdən nəçıxar?
Ehtiramla, sədaqətlə dolanın,
Qəsd-qərəzdən, ədavətdən nəçıxar?[17]

Qoy könül diyarın güllü bağ olsun,
Vicdanın ləkəsiz, canın sağ olsun,[18]
Başın uca olsun, üzün ağ olsun,
Xəbislikdən, xəyanətdən nəçıxar?

Qoçaq ol, zirək ol, fərasətli ol,
Ürəkli, ciyərli, cəsarətli ol,
Sözündə bütöv ol, kəsarətli ol,
Nadanlıqdan, cəhalətdən nəçıxar?[19]

Qoşulmaynan bədxahlığa, şər işə,
Qulluq etmə bəd əmələ, vərdişə,
Nəzər yetir zəmanəyə, gərdişə,
Zəlillikdən, zəlalətdən nəçıxar?

---

[17] *II variant* İnsanoğlu məhəbbətlə dolanın,
Qəsd-qərəzdən, ədavətdən nəçıxar?
Sədaqətlə, səxavətlə dolanın,
Qəbahətdən, xəyanətdən nəçıxar?

[18] Yediyin, içdiyin bal-qaymaq olsun.

[19] *II variant* Öz fəhmini, fərasəti artırın,
Hünərini, cəsarəti artırın,
İnsanlığa ləyaqəti artırın,
Nadanlıqdan, cəhalətdən nəçıxar?

İnsansan insana mürvətin olsun,
Ədəbin, ərkanın, mərfətin olsun,
Nəvazişin olsun, hörmətin olsun,[20]
Dedi-qodu, şikayətdən nəçıxar?

Pisliyi özünə etməynən peşə,[21]
Amandı qırılar, könüldə şüşə,
Qoyma aralığa söz-söhbət düşə,[22]
Utanarsan, qəbahətdən nəçıxar?

Halal zəhmətinlə səadətə çat,
İnsanlıq elminə, ləyaqətə çat,
Doğruluq, düzgünlük, həqiqətə çat,
Quldurluqdan, cinayətdən nəçıxar?[23]

Yolunu azarsan, gözdən düşərsən,
Cığırdan düşərsən, izdən düşərsən,
Söhbətdən düşərsən, sözdən düşərsən,
Adsız, sansız nihayətdən nəçıxar?

Qorxusuz, ülküsüz hünərlə yaşa,
Nurlu gələcəyə zəfərlə yaşa,
Qeyrətlə, namusla, təpərlə yaşa,
Pis vərdişdən, bəd adətdən nəçıxar?

Aralığı qatanlardan uzaqlaş,
İnsafını atanlardan uzaqlaş,
Vicdanını satanlardan uzaqlaş,
Şeytanlara ziyarətdən nəçıxar?[24]

---

[20] Ellərə-obaya hörmətin olsun.
[21] Qoymayın araya söz-söhbət düşə.
[22] Kimsəyə pisliyi etməyin peşə.
[23] *II variant*
Halal zəhmətinlə dolanın, oğlum!
Bəslənin, yetişin, sulanın, oğlum!
Peyvənd ağac kimi çalanın, oğlum!
Quldurluqdan, cinayətdən nəçıxar?

[24] *II variant*
Aralığı qatanlardan uzaq ol!
Vicdanını satanlardan uzaq ol!
Qəflətlərdə yatanlardan uzaq ol!
Şeytanlara ziyarətdən nəçıxar?

Ünsiyyəti korlamağa çalışma,
Hissimizi zorlamağa çalışma,
Onu-bunu xorlamağa çalışma,
Giley-güzar, şikayətdən nəçıxar?

Çalış şərafətli gözəl ad qazan,
Ram et könülləri, çoxlu yad qazan,
Bu həyatdan ləzzət anla, dad qazan,
Adsız-sansız nihayətdən nəçıxar?[25]

***Cəmil Əkbər*** 20. 08 – 1988

## 10. HİKMƏTNAMƏ

Dayanmır dünyada dəyişir hər şey,
Yaxşı da, yaman da xeyir şey, şər şey.
Dövran keçir, zaman verir hökmünü,
Bir an susur, bir an verir hökmünü.
Bir zaman haq gəlir, divan qurulur,
Laxtalanmış qara qanlar durulur.
Məhbəsdə yatanlar azad olurlar,
Yenidən "kəşf" olub, "icad" olurlar.
İdrak sahibləri sola bilməyir,
Qisas qiyamətə qala bilməyir.
Yenidən bağlarda güllər açılır,
Dağlar, yal-yamaclar, çöllər açılır.
Yaxılmış ləkələr silinib gedir,
Yaxşı da, yaman da bilinib gedir.
Saf-çürük edilib, ələnib gedir,
Hərkəs bələyinə bələnib gedir.[26]
Günahsız ölənlər dirilə bilir,
Azadlıq, bəraət verilə bilir.
Zindanda qalanlar üzə çıxırlar,
Enişdən, yoxuşdan düzə çıxırlar.

---

[25] *II variant* Çalış şərafətli ad-sanın olsun,
Qalsın bir nişanən, insanın olsun,
Düşünüb, dərk edən, qananın olsun,
Zəmanətdən, bəraətdən nəçıxar?

[26] Qanına bələnib, bülənib gedir.

Çıxırlar meydana yaralı şirtək,[27]
Gəzirlər ovçudan aralı, sirtək.
Dövrü-zaman ilə barışanmadı,
Kefini, halını soruşanmadı.
Fikirdə, xəyalda kini dolandı,
Başında şeytanı, cini dolandı.
Nəqədər vaxt keçdi, küsülü gəzdi,
Nəcabəti gəzdi, nəsili gəzdi.
Səbr edib, tablaşıb, məqam gözlədi,
Aylarla, illərlə müdam gözlədi.
Fürsət ələ keçdi, qisas alındı,
Çox asıb-kəsənlər yola salındı.
Hökm çıxaranın özü tutuldu,
Kor oldu gözləri, gözü tutuldu.
Yolları bağlandı, izi tutuldu,
Söhbəti kəsildi, sözü tutuldu.
Qisas qiyamətə qala bilmədi,
Zindanlar əbədi dola bilmədi.
Buynuzsuz qoçların buynuzlu qoçda,
Qisası qalmadı nə bərkdə, boşda.
Zəmanə mülkündə dövran belədir,
Kimi ağadırsa, kimi kölədir.[28]
Həyat gör-götürdür atalar deyib,
Görüb götürməyən hədərə gedib.
Çalış şər iş tutub aranı qatma,
İnsafı, mürvəti, vicdanı satma.
Çox ev yıxanların yıxıldı evi,
Pozuldu növrağı, azaldı kefi.[29]
Korlandı əsəbi, qaraldı qanı,
Tükəndi taqəti, üzüldü canı.
Evlər yıxıb, qapıları bağlama,
Çox günahsız sinələri dağlama.
Köçedib dünyadan gedəndə bir gün,
Düşmə könüllərdən uzaq, didərgin.
Elə et ellərdə adın çəkilsin,

[27] Meydana gəlirlər yaralı şirtək.
[28] Bir zaman ağasa, sonra kölədir.
[29] Sarsıldı dövranı, pozuldu dəbi.

Qohumun şad olub, yadın çəkilsin.
Könül dünyasında daim dur, yaşa,
Şərəflə ömrünü, günü vur başa.
Görənlər, bilənlər əhsən desinlər,
Saldığın bağlardan meyvə yesinlər.
Ünsiyyət-ülfətdə izin bilinsin,
Sən gedən yollarla gedib-gəlinsin.
Həyat yollarını görə bilməsən,
Xalqına borcunu verə bilməsən,
Nifrətlər eyləyib el sənə söyər,[30]
Dalınca danışıb, bədini deyər.
Çalış bu həyatda dərsini götür,
Qəzəbini soyut, hirsini götür.
Qal-qovğaya, ədavətə yol vermə,
Pis vərdişə, pis adətə yol vermə.
Elə et dünyadan köç edən zaman,
Ellər deməsin ki, gəbərdi heyvan.

***Cəmil Əkbər*** 27. 12 - 1995

## 11. OYERDƏ

Ürək daşlara dönər, insan vəhşiyə dönər,
Alim nadana dönər, loğman naşıya dönər.
Qanmaz, qanan sayılar, qanan qanmaz sayılar,
Alışsa da, yansa da, oda yanmaz sayılar.
Yaxşı pisə çevrilər, pis yaxşıya çevrilər,
Mis qızıla çevrilər, qızıl misə çevrilər,
Merhi-ülfət pozlar, hamı tərsə çevrilər.
Hamı azar yolunu, hamı pozar yolunu,
Hamı çaşar yolunu, hamı yozar yolunu.
Yanılar öz fikrini, hamı danar sözünü,
İtirərlər əqlini, hamı yumar gözünü.
Abır-həya tükənər, ismət ərşə çəkilər,
Sağlam fikir, düşüncə, niyyət ərşə çəkilər.

[30] Nifrəti bildirib el sənə söyər.

Sülh pozular yerbəyer, dava-dalaş başlayar,
Yer üzündə səksəkə, qorxu, təlaş başlayar.
Ən müqəddəs istəklər, eşq-məhəbbət tükənər,
Etibar da, inam da, sədaqət də tükənər.
Tarımlanıb əsəblər, yerbəyerdən korlanar,
Sakit durmaz hissimiz, yerbəyerdən zorlanar.
Alqanımız qaralıb, sıxılacaq ürəklər,
Yarı qalar arzular, daşa dəyər diləklər.
Ədalət də tapılmaz, həqiqət də tapılmaz,
İnsanlığa xas olan, ləyaqət də tapılmaz.
İnsaf olmayan yerdə, mürvət olmayan yerdə,
Xətir olmayan yerdə, hörmət olmayan yerdə.
Nə dağlarda, daşlarda, nə bağlarda gül olar,
Nə bostanda, tarlada, nə tağlarda gül olar.
Yer də zülmətə dönər, göy də zülmətə dönər,
Xoşa gəlməz çöl, bayır, öy də zülmətə dönər.
Yer üzünü bürüyər, çirkinliklər çoxalar,
Qəm-qüssə tüğyan edər, bədbinliklər çoxalar.
Can çürütmə qardaşım, hörmət olmayan yerdə,
İnsaf olmayan yerdə, mürvət olmayan yerdə.
Eşqə olub mübtəla, yanan olmayan yerdə,
Bir abırlı, ismətli, zənan olmayan yerdə.
Dərk eyləyib dərdini, qanan olmayan yerdə,
Kərəm, Məcnun, ya Dilqəm, Sənan olmayan yerdə.
Deyirlərki bu həyat hörmət üstə qurulub,
Ədəb üstə qurulub, mərfət üstə qurulub.
Çörək olmaz deyirlər, mürvət olmayan yerdə,
Xətir olmayan yerdə, hörmət olmayan yerdə.
Nə o yerdə oturun, nə də durun qardaşım,
Nə yaşayın, yaradın, nə də qurun qardaşım.
Nə dərk edib, anlayıb, sezənməzsən oyerdə,
Nə səbr edib, tablaşıb, dözənməzsən oyerdə.

***Cəmil Əkbər*** 7. 08 - 1989

## 12. SOLDURUR NİYƏ?

Gözəllik eşqiylə yaşayanları,
Kifirlik, çirkinlik soldurur niyə?
Möhnəti çiynində daşıyanları,
Qəmginlik, bədbinlik soldurur niyə?

Sadəlik eşqiylə öyünənləri,
İftixar hissilə sevinənləri,
Qəlbi eşq-həvəslə döyünənləri,
Lovğalıq, xudbinlik soldurur niyə?

Zəhmətlə, hünərlə ucalanları,
Hər addımbaşında bac alanları,
Zəfərlər qazanıb, tac alanları,
Məhv edib tənbəllik soldurur niyə?

Sülhün keşiyində dayananları,
Namusla, qeyrətlə oyananları,
Xətadan-bəladan yayınanları,
Xətalar, cəncəllik soldurur niyə?

***Cəmil Əkbər*** 6. 04 -1991

## 13. GÖRÜNMÜR NİYƏ?

Sayəmdə nəqədər ucalan oldu,
Məzmunum, hikmətin görünmür niyə?
Zəfərlər çalaraq, bac alan oldu,
Zəhmətim, xidmətim görünmür niyə?

Nəqədər arzuya, murada çatdı,
Şərəfli-şöhrətli bir ada çatdı,
Köməyə yetişdi imdada çatdı,
Xətirim-hörmətim görünmür niyə?

İstədim əzilən-əzən olmasın,
İncidən, inciyən, bezən olmasın,
Əzab-əziyyətə dözən olmasın,
Saf arzu-niyyətim görünmür niyə?

Dedimki həryanda yoldaş çoxalsın,
Həmkarlar, həmdəmlər, sirdaş çoxalsın,
Bacılar çoxalsın, qardaş çoxalsın,
İnsafım-mürvətim görünmür niyə?

Nifrətim olubdur nadanlıqlara,
Ünsiyyət-ülfətdə avamlıqlara,
Bədxahlıq, rəzillik, yamanlıqlara,
Dəyərim, qiymətim görünmür niyə?

Çalışdım həryanda həqiqət olsun,
Doğruluq, düzgünlük, ədalət olsun,
Yaşasın insanlıq, ləyaqət olsun,
Əzab-əziyyətim görünmür niyə?

Zəmanə mülkündə dönük çoxalıb,
Vicdanı-məsləyi sönük çoxalıb,
Hər səmtə üz tutan yönük çoxalıb,
Dözüm-dəyanətim görünmür niyə?

Hayanda qalıbdır silahdaşlarım?
Dar gündə, məqamda arkadaşlarım?
Həmrəylik eyləyən əməkdaşlarım?
Şərəfim-şöhrətim görünmür niyə?

Nəyaman qalxıbdır mənim üstümə?
Hücuma keçirlər cansız büstümə?
Dəyirlər qəlbimə, bir də şəsdimə?
Ülvi-məhəbbətim görünmür niyə?

***Cəmil Əkbər*** 30. 08 – 1991

## 14. GÖRÜNMÜR NİYƏ?

*I variant*

Övladı-bəşərə xidmət etmisən,
Məzmunun, hikmətin görünmür niyə?
Səadət yolunda zəhmət çəkmisən,
Ulu təbiətin görünmür niyə

Nəqədər fəqirə dayaq olmusan,
Durub keşiyində oyaq olmusan,
Kəhkəşan ulduzu, mayaq olmusan,
Qüvvətin, qüdrətin görünmür niyə?

Nəqədər acları doyurmusan da,
Yolunu göstərib buyurmusan da,
Haqlını-haqsızdan ayırmısan da,[31]
İstəyin, riqqətin görünmür niyə?

İstədin əzilən, əzən olmasın,
Avarə dolanıb gəzən olmasın,
Əzab-əziyyətə dözən olmasın,
Tərtəmiz xislətin görünmür niyə?

Dedinki yolunu azan olmasın,
Ünsiyyət-ülfəti pozan olmasın,
Doğrunu tərsinə yozan olmasın,
Saf-arzu niyyətin görünmür niyə?

İstədin saralan, solan olmasın,
Saxta danışıqlar, yalan olmasın,
Əqrəblər, iblislər, ilan olmasın,
Nəzərin, diqqətin görünmür niyə?

Çalışdın, hamını həyalı olsun,
Qədəmi uğurlu, sayalı olsun,
Məsləkli, vicdanlı, qayəli olsun,
Abırın, ismətin görünmür niyə?

Hayanda qalıbdır arkadaşların,
Həmkarın, həmdəmin əməkdaşların,
Sayəndə gün görən vətəndaşların,
Şərəfin, şöhrətin görünmür niyə?

[31] Yağlını yağsızdan ayırmusan da.

İstədin dünyada olmasın dava,
Tərtəmiz görünsün üfüqdə hava,
Xalqa hökm etməsin hər yetən, yava,
Haqqın, həqiqətin görünmür niyə?

Sayəndə nəqədər ucalan oldu,
Zəfərlər çalaraq, bac alan oldu,
Vəzifəyə çatıb, tac alan oldu,
Dəyərin, qiymətin görünmür niyə?

Zülmün dirəyini yıxan sən oldun,
Onun axırına çıxan sən oldun,
Xain ürəkləri sıxan sən oldun,
Mənəvi sərvətin görünmür niyə?

Hayanda qalıbdır ədalətsevən?
Doğruluq, düzgünlük, həqiqətsevən,
İnsanlıq xoşlayan ləyaqətsevən,
Səxan, səxavətin görünmür niyə?

Zərbələr vurmusan sultana, bəyə,
Kəmfürsət zalıma, keyoğlu keyə,
Sərsəri, kəmağıl, səyoğlu səyə,
Nifrətin, hiddətin görünmür niyə?

Ünvanına böhtan deyən çoxalıb,
İblis, əqrəb, şeytan deyən çoxalıb,
Nağıl deyən, dastan deyən çoxalıb,
Qüvvətin, qüdrətin görünmür niyə?

Gör kimi ayaqdan başa çəkmisən?
Zirvəyə qaldırıb, qaşa çəkmisən?
Şərəfli-şöhrətli işə çəkmisən?
İnsafın, mürvətin görünmür niyə?

Nəqədər məzluma çörək vermisən?
Təsəlli vermisən, ürək vermisən?
Yorulmaq bilməyən bilək vermisən?
Xətirin, hörmətin görünmür niyə?

Cəmil Əkbər bu təbinən çağladı,
Dinlədikcə için-için ağladı,
Yaraları qövr eylədi, sızladı,
Nicatın, nüsrətin görünmür niyə?[32]

***Cəmil Əkbər*** 26. 05 - 1990 // 15. 02 – 1991

## 15. GÖRÜNMÜR NİYƏ?

*II variant*

Nəqədər məzlumu çörəkli etdim,
O nazı-nemətim görünmür niyə?
Durub arxasında ürəkli etdim,
Zəhmətim, xidmətim görünmür niyə?[33]

Nəqədər acları doyurmuşam mən,
Eyhamla buyurub çağırmışam mən,
Haqlını-haqsızdan ayırmışam mən,
Saf arzu-niyyətim görünmür niyə?[34]

Dedimki əzilən, əzən olmasın,
Canından usanıb bezən olmasın,
Min bir əziyyətə dözən olmasın,
İnsafım-mürvətim görünmür niyə?

---

[32] *II variant*

Cəmil Əkbər bu təbili dinlədi,
Dinlədikcə için-için inlədi,
Yaraları qövr eylədi simlədi,
Nicatın, nüsrətin görünmür niyə?

[33] *II variant*

Nəqədər məzluma gərək olmuşam?
Yetimə-yesirə çörək olmuşam?
Təsəlli olmuşam, dirək olmuşam?
Zəhmətim, xidmətim görünmür niyə?

[34] *II variant*

Acları, gicləri doyurmuşam da,
Eyhamla buyurub çağırmışam da,
Haqlını-haqsızdan ayırmışam da,
Saf arzu-niyyətim görünmür niyə?

Çalışdım yolunu azan olmasın,
Doğrunu əyriyə yozan olmasın,
Ünsiyyət-ülfəti pozan olmasın,
Mənə məziyyətim görünmür niyə?[35]

İstədim saralıb-solan olmasın,
Fikirə qərq olub dolan olmasın,[36]
Əllərdə, ayaqda qalan olmasın,[37]
Nəzərim, diqqətim görünmür niyə?

Çalışdım hamını həyalı edim,
Məsləkli, vicdanlı, qayəli edim,
Qədəmi uğurlu, sayəli edim,
Abırım, ismətim görünmür niyə?

Gözümə dəyməyir vətəndaşlarım,
Əqidə dostlarım əməkdaşlarım,
Silahdaş, məsləkdaş, arkadaşlarım,
Zəhmətkeş xilqətim görünmür niyə?[38]

Cəhd etdim dünyada olmasın dava,
Pozmasın aranı kəmağıl, yava,
Tərtəmiz görünsün səmada hava,
Haqqım-həqiqətim görünmür niyə?

Sayəmdə nəqədər ucalan oldu?
Zəfərlər çalaraq bac alan oldu,
Səksəndə, doxsanda qocalan oldu,[39]
Ülvi keyfiyyətim görünmür niyə?

---

[35] *II variant*
İstədim yolunu azan olmasın,
Ünsiyyət-ülfəti pozan olmasın,
Şər deyib, danışıb, yazan olmasın,
Dəyərim, qiymətim görünmür niyə?

[36] Ayaqlara altında qalan olmasın.

[37] Xalqını soyanlar, kalan olmasın.

[38] *II variant*
Bəs nə xəyaldadır vətəndaşlarım?
Əqidə dostlarım, əməkdaşlarım?
Silahdaş, arkadaş əməkdaşlarım?
Zəhmətkeş xilqətim görünmür niyə?

[39] Yaşayıb yaradan qocalan oldu.

Nəqədər insanda haqq-sayım var?
Sovqatım, hədiyyəm, dürlü payım var?
Bəşər qarşısında nə günahım var?
Dəyərim, qiymətim görünmür niyə?

Zülmün zəncirini qıran mən oldum,
Bu gözəl dünyanı quran mən oldum,
Haqqın keşiyində duran mən oldum,
Ülvi məhəbbətim görünmür niyə?[40]

Bu yolda nəqədər zora düşmüşəm?
Çətinə düşmüşəm, dara düşmüşəm?
Borana, tufana, qara düşmüşəm?
Əzab-əziyyətim görünmür niyə?

Nəqədər çox imiş nanıkor, gədə?
Vicdanı, məsləyi, qəlbləri zədə?
Tərsinə dönübdür zəmanə, vədə?
Xətirim-hörmətim görünmür niyə?

İstədim hamını kamallı edəm,
Əqidə, məsləkli, amallı edəm,
Mənəvi çəkidə samballı edəm,
Xalqa sədaqətim görünmür niyə?

İstədim can-ciyər, qardaş çox olsun,
Mehriban, səmimi yoldaş çox olsun,
Həmkarlar, həmdəmlər, sirdaş çox olsun,
Ülfət-ünsiyyətim görünmür niyə?

Hayanda qalıbdır ədalətsevən?
Doğruluq, düzgünlük, həqiqətsevən?
İnsanlıq naminə ləyaqət sevən?
Səxam-səxavətim görünmür niyə?

---

[40] *II variant*

Kapital dünyasın yıxan mən oldum,
Zülmətin sonuna çıxan mən oldum,
Xain ürəkləri sıxan mən oldum,
Qüvvətim, qüdrətim görünmür niyə?

Zərbələr vuruldu sultana, bəyə,
Laqeyid, biganə, keyoğlu-keyə,
Xəsis oğlu xəsis, göyoğlu-göyə,
Şərəfim, şöhrətim görünmür niyə?[41]

Gədalar nəyaman ayaq alıbdır?
Kimdən qüvvət alıb, dayaq alıbdır?
Gör zəmanə nə günlərə qalıbdır?
Fəhmim-fərasətim görünmür niyə?

Ünvanıma böhtan deyən çoxalıb,
İblis, əqrəb, şeytan deyən çoxalıb,
Hədyan-hədyan dastan deyən çoxalıb,[42]
Riqqətim, hiddətim görünmür niyə?

Görünür indi də qisas alırlar,
Fürsət ələ keçib casus olurlar,[43]
Əksiklik törədib naqis dolurlar,[44]
Qəzəbim, hiddətim görünmür niyə?

Girərəm meydana, çalaram "Cəngi",
Verərəm qərarı, vuraram zəngi,
İstəsən nəfəs al, istəsən təngi,
Hökmüm, sədarətim görünmür niyə?

Cəmil Əkbər bu gileyi dinlədi,
Dinlədikcə yaraları simlədi,
Eləbil qəlbində kaman inlədi,
Nicatım, nüsrətim görünmür niyə?

***Cəmil Əkbər*** 15. 02 – 1991

---

[41] *II variant* Zərbələr vurmuşam sultana, bəyə,
Sərsəri, kəmağıl, key oğlu keyə,
Xəsisoğlu xəsis, göyoğlu göyə,
Şərəfim, şöhrətim görünmür niyə?

[42] Həcv yazıb, dastan deyən çoxalıb.

[43] Fürsət ələ düşüb casus olurlar.

[44] Xətalar törədib naqis olurlar.

## 16. BİLİNMİR NİYƏ?

*III variant*

Övladı-bəşərin ümid yeriyəm,
Məzmunum, hikmətim bilinmir niyə?
Müqəddəs iqamətgahı, piriyəm,
Ülvi təbiətim bilinmir niyə?[45]

Nəqədər kasıbı doyurmuşam mən?!
Çağırıb işə də buyurmuşam mən?!
Haqlını-haqsızdan ayırmışam mən?!
İstəyim, riqqətim, bilinmir niyə? [46]

Çalışdım əzilən, əzən olmasın,
Canından usanıb bezən olmasın,
Əzab-əziyyətə dözən olmasın,[47]
İnsafım-mürvətim bilinmir niyə?

Qoymadım yolunu azanlar olsun,
Ayaqlar altından qazanlar olsun,
Ülfət-ünsiyyəti pozanlar olsun,
Saf arzu-niyyətim bilinmir niyə?

İstədim saralan-solan olmasın,
Qərq olub fikirə dalan olmasın,
Qansoran zəlilər, kalan olmasın,[48]
Nəzərim, diqqətim bilinmir niyə?

---

[45] *II variant*
Bəşər övladının dayağı oldum,
Məzmunum, hikmətim bilinmir niyə?
Kəhkəşan ulduzu, mayağı oldum,
Nicatım, nüsrətim bilinmir niyə?

[46]*II variant*
Nəqədər acları doyurmuşam da,
Ərk ilə çağırıb, buyurmuşam da,
Haqlını-haqsızdan ayırmışam da,
İstəyim, riqqətim, bilinmir niyə?

[47] Ağrı-acılara dözən olmasın,
[48] Milyoner, milyarder, kalan olmasın.

İstədim hamını həyalı olsun,
Məsləkli, vicdanlı, qayəli olsun,
Qədəmi uğurlu, sayəli olsun,
Abırım, ismətim bilinmir niyə?

Görünmür gözümə arkadaşlarım,
Həmkarım, həmdəmim əməkdaşlarım,
Əhdinə vəfalı vətəndaşlarım,
Millətim, xilqətim bilinmir niyə?[49]

Çalışdım dünyada olmasın dava,
Xalqa hökm etməsin hər yetən yava,
Tərtəmiz görünsün üfüqdə hava,
Haqqım-həqiqətim bilinmir niyə?

Sayəmdə nəqədər ucalan oldu?
Hünərlər göstərib bac alan oldu?
Zəfər meydanında tac alan oldu?
Dəyərim, qiymətim bilinmir niyə?

Zülmət dünyasını yıxmaq istədim,
Xain ürəkləri sıxmaq istədim,
Onun axırına çıxmaq istədim,
Mənəvi sərvətim bilinmir niyə?

Alıbdır əlinə hərə bir pedə,
Vicdanı ləkəli, qəlbləri zədə,
Tərsinə dolanır zəmanə, vədə,
Xətirim, hörmətim bilinmir niyə?

İstədim hamını kamallı edim,
Vicdanlı, məsləkli, amallı edim,
Mənəvi aləmdə samballı edim,
Xalqa məhəbbətim bilinmir niyə?

---

[49] *II variant* Görünmür gözümə arkadaşlarım,
Dar gündə həmdəmim,əməkdaşlarım,
Vətəndə yaşayan vətəndaşlarım,
Millətim, xilqətim bilinmir niyə?

Dedimki həryanda qardaşlıq olsun,
Mehriban, səmimi yoldaşlıq olsun,
Həmkarlıq, həmdəmlik, sirdaşlıq olsun,
Ülvi-ünsiyyətim bilinmir niyə?

Hayanda qalıbdır ədalət sevən?
Doğruluq axtaran, həqiqət sevən?
Ünsiyyət-ülfətdə ləyaqət sevən?
Səxam-səxavətim bilinmir niyə?

Zərbələr vuruldu xan ilə bəyə,
Eli düşünməyən keyoğlu keyə,
Xamoğlu xamlara, çiyoğlu çiyə,
Şərəfim, şöhrətim bilinmir niyə?[50]

Gör zəmanə nə günlərə qalıbdır?
Gədalar üstümə ayaq alıbdır?
Ötən günlərini yada salıbdır?
Fəhmim-fərasətim bilinmir niyə?

Qarayaxan, böhtan deyən çoxalıb,
Haqlı-haqsız dastan deyən çoxalıb,
İlan-çayan, şeytan deyən çoxalıb,
Namusum, qeyrətim bilinmir niyə?

Nəqədər ayaqdan başa çəkmişəm?
Zirvəyə qaldırıb döşə çəkmişəm?
İqtidar sahibi işə çəkmişəm,
Həvəsim, heyrətim bilinmir niyə? [51]

İstədim nə ağa, nə nökər olsun,
Nə işsiz avarə, nə bikar olsun,
Nə infarkt, nə xərçəng, nə şəkər olsun,
Qüvvətim, qüdrətim bilinmir niyə?

---

[50] *II variant* Hörmət edilmədi sultana, bəyə,
Kəmfürsət zalıma, keyoğlu keyə,
Sərsəri, kəmağıl, səyoğlu səyə,
Şərəfim, şöhrətim bilinmir niyə?

[51] *II variant* Çoxunu ayaqdan başa çəkmişəm,
Zirvəyə qaldırıb qaşa çəkmişəm?
Süfrəyə, plova, aşa çəkmişəm?
Hiddətim, heyrətim bilinmir niyə?

Cəmil Əkbər bu təbili dinlədi,
Dinlədikcə için-için inlədi,
Yaraları qövr eylədi, simlədi,
Eşqim, məhəbbətim bilinmir niyə?

***Cəmil Əkbər*** 26. 05 - 1990

## 17. SOSİALİZMİN YOLU

*I variant*

Nəqədər düşüncə, kamal gərəkdir?
Bu yolla, bu izlə gedib-gələsən.
Nəqədər əqidə, amal gərəkdir?
Bu fikir, bu sözlə gedib-gələsən.

Nəqədər güc lazım, qüvvət lazımdır?
Rəhim, insaf həm də mürvət lazımdır?
Arzu, murad, istək, niyyət lazımdır?
Bu nəzər, bu gözlə gedib-gələsən.

Nəqədər haq gərək, ədalət gərək?
Bacarıq, fərasət, məharət gərək?
Yenilməz iradə, dəyanət gərək?
Bu dağla, bu düzlə gedib gələsən.

Nəqədər eşq-həvəs, məhəbbət gərək?
Sədaqət, səxavət, kəramət gərək?
İnsanlıq naminə əlamət gərək?
Bu astar, bu üzlə gedib gələsən.

Nəqədər müqəddəs, ali olasan?
Sərsəm xəyallardan xali olasan,
Ay Cəmil başbilən, Vali olasan,[52]
Bu səs, bu avazla gedib gələsən.

***Cəmil Əkbər*** 19. 10 – 1988

[52] Başbilən olasan, Vali olasan.

## 18. SOSİALİZMİN YOLU

*II variant*

Nəqədər düşüncə, kamal gərəkdir?
Bu yolla, bu izlə gedib-gələsən.
Nəqədər əqidə, amal gərəkdir?
Bu yolla, bu izlə gedib-gələsən.

Nəqədər güc lazım, qüvvət lazımdır?
Saf arzu, istəklər, niyyət lazımdır?
Həm kəmiyyət, həm keyfiyyət lazımdır,
Bu yolla, bu izlə gedib-gələsən.

Nəqədər haq gərək, ədalət gərək?
İnsanlıq, dəyanət, ləyaqət gərək?
Yenilməz iradə, dəyanət gərək?
Bu yolla, bu izlə gedib-gələsən.

Nəqədər eşq-həvəs, məhəbbət gərək?
Bu xalqa, vətənə sədaqət gərək?
İnsanlıq naminə əlamət gərək?
Bu yolla, bu izlə gedib-gələsən.

Nəqədər şan gərək, şərafət gərək?
Ətiri-gülüstan, təravət gərək?
Bacarıq, fərasət, məharət gərək?
Bu yolla, bu izlə gedib-gələsən.

Nəqədər iradə, səbr gərəkdir?
İntizam gərəkdir, cəbr gərəkdir?
Qurub yaratmağa tədbir gərəkdir?
Bu yolla, bu izlə gedib-gələsən.

Nəqədər güc gərək, qüvvət gərəkdir?
Nəzarət gərəkdir, diqqət gərəkdir?
Ürəkdə eşq-həvəs, riqqət gərəkdir?
Bu yolla, bu izlə gedib-gələsən.

Nəqədər el gücü, fərasət gərək?
İradə, qətiyyət, cəsarət gərək?
Oxumaq, öyrənmək, qiraət gərək?
Bu yolla, bu izlə gedib-gələsən.

Nəqədər insana ağıl gərəkdir?
“Min bir gecə” kimi nağıl gərəkdir?
Düşüncə, təfəkkür, mağıl gərəkdir?
Bu yolla, bu izlə gedib-gələsən.

***Cəmil Əkbər*** 19. 10 – 1988

## 19. BƏŞƏRƏM MƏN

Aralığı qatan-qatır,
Nə diqqətsiz bəşərəm mən.
Vicdanını satan satır,
Nə riqqətsiz bəşərəm mən.

Xainə bax, xəbisə bax,
Nanəcibə, naqisə bax,
Tamaha bax, nəfsə bax,
Nə qiymətsiz bəşərəm mən.

Cahilə bax, nadana bax,
Yolu tərsə adana bax,
Heyvana bax, xislətə bax,
Nə hikmətsiz bəşərəm mən.

Könülləri qırana bax,
Sinəyə dağ vurana bax,
Qəsdimizdə durana bax,
Nə qeyrətsiz bəşərəm mən.

Onu-bunu soyana bax,
Ağlar gözlü qoyana bax,
Yeyib-içib doyana bax,
Nə mürvətsiz bəşərəm mən.

Baxan yoxdu ada-sana,
Nə alimə, nə loğmana,
Fikir, xəyal ümmanına,
Nə hikmətsiz bəşərəm mən.

İnsanoğlu pozulubdur,
Doğru tərsə yozulubdur,
Ədəb-ərkan sozalıbdır,
Mərifətsiz bəşərəm mən.

Çoxalıbdır hiylə, kələk,
Yoxdu indi huri-mələk,
Nə bəd əsir Allah, külək?
Nə şöhrətsiz bəşərəm mən.

Həyasızlar sırtıqlaşır,
Azır yolu, şıltaqlaşır,
El malına ortaqlaşır,
Nə cürətsiz bəşərəm mən.

Nahaq yerdən tökülür qan,
İstər yaxıl, istərsə yan,
İstər səbr et, istər dayan,
Fəzilətsiz bəşərəm mən.

***Cəmil Əkbər*** 19. 01 – 1992

## 20. DÜŞƏCƏK BƏŞƏR

İnsan düz yoluna qayıtmasa, bil!
Bundan da pis günə düşəcək bəşər.
Biri-birisini oyatmasa, bil!
Bundan da pis günə düşəcək bəşər.

Biri digərini dərk edənməsə,
Qananlar qanmaza görk edənməsə,
Cəhalət mirasın tərk edənməsə,
Daha da pis günə düşəcək bəşər.

Nəqədər çoxalsa alaqotları?
Tikanlar, qanqallar, ulaq otları?
Gicitkansayağı dalaqotları?
Bundan da pis günə düşəcək bəşər.

Neçəki naxələf, naqis başdadır,
Paxıllar, xainlər, xəbis başdadır,
Tamahkar, acgözlər, həris başdadır,
Bundan da pis günə düşəcək bəşər.

Nəqədər nadanlar çəkilsə başa?
Düyünlər düşəcək alına, qaşa,
Oqədər zülm olar dosta, yoldaşa,
Daha da pis günə düşəcək bəşər.

Meydan verilibdir bicoğlu-bicə,
İlqara-imana, kəcoğlu-kəcə,
Qaydaya, qanuna, öcoğlu-öcə,
Bundan da pis günə düşəcək bəşər.

Sanmaki hamıdan kamallı sənsən,
Məsləkli, vicdanlı, amallı sənsən,
Çəkidə, tutarda samballı sənsən,
Daha da pis günə düşəcək bəşər.

Yaxşını yamandan seçə bilməsə,
Mərifət şərbətin içə bilməsə,
Dünyadan şərəflə köçə bilməsə,
Bundan da pis günə düşəcək bəşər.

Dərdləyər ürəyin, ağrıyar başın,
Tutular qabağın, çatılar qaşın,
Zəhərə qarışar xörəyin, aşın,
Daha da pis günə düşəcək bəşər.

Haqqı-ədaləti anlayanmasaq,
Naxələf övladı danlayanmasaq,
Kötəklə, qırmancla yanlayanmasaq,
Bundan da pis günə düşəcək bəşər.

Ləyaqət əhlini görə bilməsək,
Saldığı bağlardan dərə bilməsək,
Haqqını qaytarıb verə bilməsək,
Bundan da nəs günə düşəcək bəşər.
Daha da pis günə düşəcək bəşər.

***Cəmil Əkbər***

## 21. BƏŞƏR

Bu dünya nəqədər varlı olsada?
Xətirdən, hörmətdən kasaddır bəşər.
Tutarlı, samballı, karlı olsada?
İnsafdan, mürvətdən kasaddır bəşər.

Üz-gözümüzdən çəkilib həyamız,
Əqidəmiz, məsləyimiz, qayəmiz,
Mat qalıbdır bu işlərə dayəmiz,[53]
Abırdan, ismətdən kasaddır bəşər.

Qəlblərin başını kin alıb gedib,
Şeytan alıb gedib, cin alıb gedib,
Məzhəb alıb gedib, din alıb gedib,
Ülvi-ünsiyyətdən kasaddır bəşər.[54]

Nəqədər olsada alim biəməl?
Yaşayır birtəhər, faməl ya əməl,[55]
Möhkəm qurulmasa dağılar təməl,
Saf arzu-niyyətdən kasaddır bəşər.[56]

Arada, bərədə naqislər çoxdur,
Paxıllar, xainlər, xəbislər çoxdur,
Acgöz, qarınqulu, harislər çoxdur,
Ülvi keyfiyyətdən kasaddır bəşər.[57]

---

[53] Gör nə deyir, bu işlərə dayəmiz?

[54] *II variant*
İdrak, düşüncədən, kamaldan qıtdı,
Əqidə, məsləkdən, amaldan qıtdı,
Mənəvi gözəllik, camaldan qıtdı,
Ülvi-ünsiyyətdən kasaddır bəşər.

*III variant*
Bürüyüb qəlbləri alaq otları,
Gicitkansayağı dalaq otları,
Tikanlar, qanqallar ulaq otları,
Ülvi-ünsiyyətdən kasaddır bəşər.

[55] Yaşayır, işləyir, faməl ya əməl.

[56] *II variant*
Nəqədər çoxsada alim biəməl?
Qalıbdı bu işdə faməl, ya əməl,
Möhkəm qurulmasa dağılar təməl,
Sağlam bir niyyətdən kasaddır bəşər.

Çoxalıb artıbdı əyri oğrular,
Mat qalıb bu işə düzlər, doğrular,
Təkləyərək orda, burda boğurlar,
Haqdan, həqiqətdən kasaddır bəşər.[58]

Çatmayır dərrakə, düşüncə, kamal,
Vicdan, məslək, həm əqidə, həm amal,
Cırlaşıb nəyaman el, oba, mahal,
Mənadan, hikmətdən kasaddır bəşər. [59]

Yeyirlər, içirlər məzələnirlər,
Çuvaltək dolurlar gözələnirlər.
Bəzənib, düzənib təzələnirlər,
Şərəfdən, şöhrətdən kasaddır bəşər.[60]

---

[57] *II variant*
Nəqədər istəsən naqisi çoxdur,
Paxılı, xaini, xəbisi çoxdur,
Acgöz, qarınqulu, xəbisi çoxdur,
Sağlam ünsiyyətdən kasaddır bəşər.

[58] *II variant*
Yaman çoxalıbdı əyri oğrular,
Mat qalıbdı bu işlərə doğrular,
Haq deyəni tez-tələsik boğurlar,
Haqdan, həqiqətdən kasaddır bəşər.

*III variant*
Artıb çoxalıbdı əyri oğrular,
Azalıb, seyrəlib düzlər, doğrular,
Kim danışsa nəfəsini boğurlar,
Haqdan, həqiqətdən kasaddır bəşər.

[59] *II variant*
Çatmayır çoxunda, düşüncə, kamal,
Nə vicdan, nə məslək, nədəki amal,
Təbii gözəllik, mənəvi camal,
Mənadan, hikmətdən kasaddır bəşər.

*III variant*
Deyəsən çatmayır çoxunda kamal,
Eləbil qəhətdi əqidə, amal,
Sanki cırlaşıbdı el-oba, mahal,
Mənadan, hikmətdən kasaddır bəşər.

[60] *II variant*
Yeyirlər, içirlər bəyzadələrim,
Sərsəri, kəmağıl, keyzadələrim,
Kütbeyin, dəngəsər, səyzadələrim,
Şərəfdən, şöhrətdən kasaddır bəşər.

*III variant*
Kef edib, nəf edib məzələnirlər,
Çuval kimi dolub gözələnirlər,
Əl-ələ verərək çözələnirlər,
Dəyərdən, qiymətdən kasaddır bəşər.

Abırsız, ismətsiz arsızlara bax,
Müqəvvasayağı karsızlara bax,
Söyüdtək, ulğuntək barsızlara bax,
Namusdan, qeyrətdən kasaddır bəşər.[61]

Qəm-qüssə bürüyüb bu cəmiyyəti,
Nəyaman azalıb səmimiyyəti?
Sağlam istəkləri, pak məhəbbəti,
Mənəvi nemətdən kasaddır bəşər.[62]

Bürüyüb həryanı biclik nəyaman?
Sərsəri, kəmağıl, giclik nəyaman?
Xainlik, xəbislik, öclük nəyaman?
Fəhm-fərasətdən kasaddır bəşər.[63]

Həryanı bürüyüb tənbəllik artıb,
İşə mane olan əngəllik artıb,
Araqarışdıran cəncəllik artıb,
Səxa-sədaqətdən kasaddır bəşər.

Getdikcə nəyaman qarışır ara?
Qövredib simləyir, göynəyir yara?
Haçandan bəridir tapılmır çara?
Eşq-məhəbbətdən kasaddır bəşər.

---

[61]*II variant* Abırsız, ismətsiz arsız oqədər,
Söyüdtək, ulğuntək barsız oqədər,
Müqəvvasayağı karsız oqədər,
Namusdan, qeyrətdən kasaddır bəşər.

[62] *II variant* Azalıb nəyaman səmimiyyəti,
Deyirəm sözümü qətidir qəti,
Fəlakət gözləyir bu cəmiyyəti,
Dəyərdən, qiymətdən kasaddır bəşər.

*III variant* Bədbəxtlik bürüyüb bu cəmiyyəti,
Azalıb hər yerdə səmimiyyəti,
Deyirəm sözümü qətidir qəti!
Dəyərdən, qiymətdən kasaddır bəşər.

[63]*II variant* Saxta fikir, saxta sözlər çoxalıb,
Saxta baxış, saxta gözlər çoxalıb,
Saxta astar, saxta üzlər çoxalıb,
Fəhm-fərasətdən kasaddır bəşər.

Oqədər çoxalıb biganəliklər,
Kəmağıl, sərsəri divanəliklər,
Yersiz oda yanmaq, pərvanəliklər,
Təpərdən, riqqətdən kasaddır bəşər.

Yolunu azanı düzəldən yoxdur,
Salıb öz təhrinə nəzildən yoxdur,
Ağladıb, sızladıb sozaldan yoxdur,
Nəzərdən, diqqətdən kasaddır bəşər.[64]

***Cəmil Əkbər*** 19. 09 -1991

## 22. BƏŞƏR

Haçandan bəridir vuruşur bəşər,
Çəkişir, didişir müdam sərbəşər,
Dil tapa bilməyir xeyir ilə şər.
Əyrilər düzlərlə yola getməyir,
Yolaqlar izlərlə yola getməyir.
Pislər yaxşıları görmək istəmir,
Alim naşıları görmək istəmir.
Yaxşılar pislərlə dostlaşa bilmir,
Xeyirxah nəslərlə dostlaşa bilmir.
Dayazlar dərinlə yollaşa bilmir,
İstilər sərinlə yollaşa bilmir.
Biri digərini inkar eyləyir,
Doydurub canına zinhar eyləyir.
Haçandı vuruşur xeyr ilə şər,
Səadət axtarır bu yazıq bəşər.
Sağsağanlar tərlanları bəyənmir,
Şikarını alanları bəyənmir.
Kamalsızlar kamallıya öc olub,
Sözləri əvvəldən yaman kəc olub.
Amalsızlar amallıya ləc olub,
Hiyləgər törəyib, aman, bic olub.
Yalan həqiqətə qənim kəsilib,
Hakim cinayətə qənim kəsilib,
Ülvi ləyaqətə qənim kəsilib.

---

[64] **a**) Niyə cəsarətdən kasaddır bəşər? **b**) Deyən cəsarətdən kasaddır bəşər.

Gözəllər çirkinlə sevdalaşanmır,
Sadələr xudbinlə sevdalaşanmır.
Arsızla heç tutmur arlılarınkı,
Karsızlada tutmur karlılarınkı.
Mürvətsizlər mürvətlini xoşlamır,
Hörmətsizlər hörmətlini xoşlamır.
Qeyrətsizlər qeyrətlini xoşlamır,
Şöhrətsizlər şöhrətlini xoşlamır.
Günəşi dumanlar boğmaq istəyir,
Nəşəni amanlar boğmaq istəyir.
Yerində-yurdunda doğmaq istəyir,
Zəlilər damarı sormaq istəyir.
Çıxıb axırına varmaq istəyir,
Yaxasına orden asmaq istəyir.
Alaqlar tarlanı bürümək istər,
Qarışıb torpağa çürümək istər.
Oxuyan-oxuyur, çalanlar-çalır,
Fikirə-xəyala dalanlar dalır.
Açılan açılır, solanlar solur,
Boşalan-boşalır, dolanlar dolur.
Ağlayan-ağlayır, gülənlər-gülür,
Yaşayan-yaşayır, ölənlər ölür.

Gözəllər-gözəllə dərdləşə bilmir,
Qaynayıb-qarışıb səmtləşə bilmir.
Yaxşılar yaxşıyla əlbir olanmır,
Sazişə gələnmir, dilbir olanmır.
Bilənlər-bilənlə birləşə bilmir,
Gülənlər-gülənlə birləşə bilmir.
Biləklər biləklə birləşə bilmir,
Ürəklər-ürəklə birləşə bilmir.
Diləklər diləklə birləşə bilmir,
İstəklər-istəklə birləşə bilmir.
Kəlmələr-kəlməyə calana bilmir,
Cümlələr-cümləyə culana bilmir.
Fikirlər-fikirlə görüşə bilmir,
Zikirlər-zikirlə görüşə bilmir.
Damlalar damlaya, birləşə bilmir,
Sel-suya qarışıb gurlaşa bilmir.

Çay-çaya qovuşub sellənə bilmir,
Sel-selə qovuşub göllənə bilmir.
İgidlər-igidlə görüşə bilmir,
Atılıb meydana vuruşa bilmir,
Zərbələr-zərbəyə qovuşa bilmir.
Haçandı vuruşur xeyr ilə şər,
Səadət axtarır bu yazıq bəşər.

***Cəmil Əkbər*** 30. 09 -1988

## 23. BƏŞƏRİ

Qadir Allah rəhmin gəlsin bizlərə,
Cəhalətdən xilas eylə bəşəri.
Düçar etmə hər yaramaz üzlərə,
Qəbahətdən xilas eylə bəşəri.

Ünsiyyət-ülfətdə hörmət bol olsun,
Kəramət çoxalsın, mürvət bol olsun,
Mənəvi gözəllik, sərvət bol olsun,
Küdurətdən xilas eylə bəşəri.

Qal-qovğa kəsilsin, dava qurtarsın,
Zəhərə qarışmış hava qurtarsın,
Araqarışdıran yava qurtarsın,
Ədavətdən xilas eylə bəşəri.

Əzilən olmasın, əzən olmasın,
Avara dolanan, gəzən olmasın,
İnciyib küsənlər, bezən olmasın,
Şikayətdən xilas eylə bəşəri.

İlqardan, imandan dönən olmasın,
Bu ali mövqedən enən olmasın,
Qaralıb, qarsıxıb sönən olmasın,
Xəyanətdən xilas eylə bəşəri.

Nanəcib, naxələf, naqis olmasın,
Acgöz, qarınqulu, həris olmasın,
Quldurlar, qaçaqlar, cəsus olmasın,
Cinayətdən xilas eylə bəşəri.

Aranı-bərəni qatan olmasın,
Vicdanı, məsləyi satan olmasın,
Bədəməl törədib tutan olmasın,
Pis adətdən xilas eylə bəşəri.

Saxta fikir, yalan sözlər olmasın,
Vaxt-vədəsiz solan gözlər olmasın,
Saxta yollar, saxta izlər olmasın,
Bəyanatdən xilas eylə bəşəri.

***Cəmil Əkbər***

## 24. BU BƏŞƏR?

Nə elmə baxan var, mədəniyyətə,
Buminvalla hara gedir bu bəşər?
Nə sağlam fikirə, nə pak niyyətə,
Buminvalla hara gedir bu bəşər?

Görə-görə gözü korlar çoxalıb,
Vicdanı kəm, qəlbi darlar çoxalıb,
Hər yetən bəy, hökmdarlar çoxalıb,
Buminvalla hara gedir bu bəşər?

Böyük, kiçik, ağsaqqalı sayan yox,
Dərdbiləni, əhli-halı sayan yox,
Hərkəsdəni öz yerinə qoyan yox,
Buminvalla hara gedir bu bəşər?

Baxan yoxdu abır, ismət həyaya,
Nə əqidə, nə məsləyə qayəyə,
Tərbiyəni düzgün verən dayəyə,
Buminvalla hara gedir bu bəşər?

Quran, kitab, şəriətə baxan yox,
Ədəb, ərkan, mərifətə baxan yox,
Ünsiyyətdə nəzakətə baxan yox,
Buminvalla hara gedir bu bəşər?

İnsan bir-birinin dərisin soyur,
Əzir körpəsini, irisin soyur,
Kəsib qabağını gerisin soyur,
Buminvalla hara gedir bu bəşər?

Gördüyün götürmür, deyirsən qanmır,
Dünya alışsa da bir tükü yanmır,
Böyükdən utanmır, kiçiyi sanmır,
Buminvalla hara gedir bu bəşər?

Baxan yox insanda ləyaqətə də,
Doğruluq, düzlüyə, həqiqətə də,
Məzmuna, mənaya, məziyyətə də,
Buminvalla hara gedir bu bəşər?

Cəmil Əkbər bu bəşərin oğludur,
Yaranıbdır, xeyir-şərin oğludur,
Mərdanəlik, ol hünərin oğludur,
Buminvalla hara gedir bu bəşər?

***Cəmil Əkbər*** 10. 10 – 1992

## 25. BU BƏŞƏR

*I variant*

Nəqədərki beyinlərdə keylik var,
Düzələnə heç oxşamır bu bəşər.
Ünsiyyətdə gicbəsərlik, səylik var,
Düzələnə heç oxşamır bu bəşər.

Nəfsinə, tamahına uyan var,
Yalan-yanlıc car edən var, yayan var,
Öz xalqını pis günlərə qoyan var,
Düzələnə heç oxşamır bu bəşər.

Qarov gəlib, görən gözlər kor olub,
Eşitməyir, qulaqlar da kar olub,
Mərd igidlər gözgörəti xar olub,
Düzələnə heç oxşamır bu bəşər.

Nanəcib var, naxələf var, naqis var,
Paxıllar var, xainlər var, xəbis var,
Əqidədən, məsləyindən xəsis var,
Düzələnə heç oxşamır bu bəşər.

Nəqədərki, ədaləti danırlar?
Doğru-düzlük, həqiqəti danırlar?
İnsandakı ləyaqəti danırlar?
Düzələnə heç oxşamır bu bəşər.

İnsafını, mürvətini atırlar,
Mərd igidi namərdlərə satırlar,
Yaxşıları yamanlara qatırlar,
Düzələnə heç oxşamır bu bəşər.

Aralıqda cahillər var, nadan var,
Haqq-sayı sümürən var, udan var,
Yollarını tərsəməssəb adan var,
Düzələnə heç oxşamır bu bəşər.

Ürəklərdə, diləklərdə kin yatır,
Əqrəb yatır, iblis yatır, cin yatır,
Qulaqları dəng eyləyən ün yatır,
Düzələnə heç oxşamır bu bəşər.

Nəqədərki tərsəməssəb gedən var?
Öz qarnını dolduran var, güdən var?
Elə, xalqa zülmətini edən var?
Düzələnə heç oxşamır bu bəşər.

Nəqədərki fikirləri çaşlar var?
Eli-xalqı dəng eyləyən başlar var?
Sinələrdə ürək boyda daşlar var?
Düzələnə heç oxşamır bu bəşər.

İlqarına, imanına dönük var?
Min bir səmtə üz tutan var, yönük var?
Canavar var, dadamal var, ənik var?
Düzələnə heç oxşamır bu bəşər.

Ünsiyyətdə-ülfətlərdə yalan var?
Ayaq altda tapdalanan, qalan var?
Saralan var, soluxan var, solan var?
Düzələnə heç oxşamır bu bəşər.

Nəqədərki, daş-qaş bizə hökm edir?
Alış-veriş, daş-baş bizə hökm edir?
Ənik gəlib, sərxoş bizə hökm edir?
Düzələnə heç oxşamır bu bəşər.

Nəqədərki, ünsiyyəti pozan var?
Düzü tərsə çevirən var, yozan var?
Yollarını dağa-daşa azan var?
Düzələnə heç oxşamır bu bəşər.

Nəzər salıb baxan yoxsa qanana?
El dərdinə alışana, yanana?
Xəyanət var analara, zənana?
Düzələnə heç oxşamır bu bəşər.

Fürsət tapıb başa çıxır gədələr,
Hökm eyləyir umu-küsü, hədələr,
Vicdanından, məsləyindən zədələr,
Düzələnə heç oxşamır bu bəşər.

Alqanları zəli kimi soran var?
Qəsdimizdə dayanan var, duran var?
Xəyanətlə nişan alıb vuran var?
Düzələnə heç oxşamır bu bəşər.

Nəqədərki əzilən var, əzən var?
İnciyənlər, küsənlər var, bezən var?
Müsibətə sinə gərib dözən var?
Düzələnə heç oxşamır bu bəşər.

İnsanoğlu öz yoluna gəlməsə,
Doğruluğa, düz yoluna gəlməsə,
Tövbə edib tez yoluna gəlməsə,
Düzələnə heç oxşamır bu bəşər.

***Cəmil Əkbər*** 9. 11 – 1991

## 26. BU BƏŞƏR

*II variant*

Dünyanın nəqədər xəbisi varsa?
Düzələnə heç oxşamır bu bəşər.
Acgöz, tamahkarı hərisi varsa?
Düzələnə heç oxşamır bu bəşər.

Nəqədərki hiyləgər var, biclər var?
İlqarına-imanına kəclər var?
Sərsəri var, kəmağıl var, giclər var?
Düzələnə heç oxşamır bu bəşər.

Neçəki dünyanın başıboşu var?
Vicdanı kəm-kəsir, qəlbidaşı var?
Fillərə çəmkirən alabaşı var?
Düzələnə heç oxşamır bu bəşər.

Nəqədərki pis deyirlər yaxşıya?
Yol verilir nabələdə, naşıya?
Oğul gərək bu dərdləri daşıya?
Düzələnə heç oxşamır bu bəşər.

Nəqədərki sığınırlar yalana?
Züy tutana, hər zurnanı çalana?
Rəhm edilmir ayaq altda qalana?
Düzələnə heç oxşamır bu bəşər.

Nəqədərki gedən yoxdur düzünə?
Məhəl yoxdur dühaların sözünə?
Ayağını basan yoxdur izinə?
Düzələnə heç oxşamır bu bəşər.

Nəqədərki qiymət yoxdur zəhmətə?
Çalışmağa, vuruşmağa, xidmətə?
Məna dolu, məzmun dolu hikmətə?
Düzələnə heç oxşamır bu bəşər.

Nəqədərki haqq-saylar danılır?
Mərd igidlər gədə-güdə sanılır?
İnsanoğlu yol-ərkanda yanılır?
Düzələnə heç oxşamır bu bəşər.

Baxıb buminvala qəm yemə Cəmil!
Zildən pəsə düşüb, bəm yemə Cəmil!
Çalış naz-nemətdən kəm yemə Cəmil!
Düzələnə heç oxşamır bu bəşər.

***Cəmil Əkbər*** 13.09 – 1993

## 27. BU BƏŞƏR

Nəqədərki nanəcib var, naqis var?
Düzələndöy , düzələndöy  bu bəşər.
Paxıllar var, xainlər var, xəbis var?
Düzələndöy , düzələndöy  bu bəşər.

Nəqədərki cahillər var, nadan var?
Tərbiyədən dadar-doymaz dadan var?
Haqq-sayı unudan var, udan var?
Düzələndöy , düzələndöy  bu bəşər.

Nəqədərki yaxşı-yaman seçilmir?
Qamətinə düzgün xələt biçilmir?
Yol-ərkanla düz gedilib keçilmir?
Düzələndöy , düzələndöy  bu bəşər.

Nəqədərki yol göstərir gədələr?
İncidəcək könülləri sədalar?
Söz-söhbətdə qalacaqdır vədələr?
Düzələndöy , düzələndöy  bu bəşər.

Nəqədərki ustadları sayan yox?
Hərkəsdəni öz yerinə qoyan yox?
Günahını təmizləyib yuyan yox?
Düzələndöy , düzələndöy  bu bəşər.

Ürək sözü ürəklərdə qaldıqca,
Arzu-istək diləklərdə qaldıqca,
Ağrıları kürəklərdə qaldıqca,
Düzələndöy , düzələndöy  bu bəşər.

Nəqədərki ağsaqqalı sayan yox?
Dərdbiləni, əhli-halı sayan yox?
Nuranini, pürkamalı sayan yox?
Düzələndöy , düzələndöy  bu bəşər.

Nəqədərki hiyləgər var, biclər var?
İlqarına, imanına kəclər var?
Sərsəri var, kəmağıl var, giclər var?
Düzələndöy , düzələndöy  bu bəşər.

Nəqədərki aralığı qatan var?
Vicdanını, məsləyini satan var?
Qərq olaraq qəflətlərdə yatan var?
Düzələndöy , düzələndöy  bu bəşər.

Nəqədərki ədalətdən uzağıq?
İnsanlıqdan, ləyaqətdən uzağıq?
Ülvi-istək, məhəbbətdən uzağıq?
Düzələndöy , düzələndöy  bu bəşər.

Düz fikir tərsinə yozulub gedir,
Ayaqlar altından qazılıb gedir,
İnsanlar nəyaman pozulub gedir?
Düzələndöy , düzələndöy  bu bəşər.

***Cəmil Əkbər***    25. 02 – 1995

## 28. BU BƏŞƏR?

Nəqədərki bu dünyada pislik var?
Düzələrmi, düzələrmi bu bəşər?
Xəyanət var, xəbislik var, nəslik var?
Düzələrmi, düzələrmi bu bəşər?

Yaxşı-yaman birbirindən seçilmir?
Yol-ərkanla düz gəlinib keçilmir?
Boya xələt düz ölçülüb biçilmir?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki yol göstərir gədələr?
Başımıza göydən yerə od ələr?
Könülləri incidəcək zədələr?
Düzələrmi, düzələrmi bu bəşər?

Yatıb qalsa sözlərimiz ürəkdə?
Arzularda, xəyallarda, diləkdə?
Baş açammaz xaliq özü, fələk də?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki böyük, kiçik sayılmır?
Cahil, nadan, qəflətlərdən ayılmır?
Saf arzuya, saf əmələ uyulmur?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki qat qarışdır mayalar?
Başlarını itiribdir dayələr?
Tapdalanır qanundakı ayələr?
Düzələrmi, düzələrmi bu bəşər?

Qanmazlara tapşırdıqca qananı?
Zəhərləyib korladıqca havanı?
Törətdikcə qal-qovğanı davanı?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki vicdanları atırlar?
Yeri gəlsə kor qəpiyə satırlar?
Min sifətlə məqsədlərə çatırlar?
Düzələrmi, düzələrmi bu bəşər?

Neçəki sadəlövh, neçəki bic var?
Neçəki sərsəri, neçəki gic var?
Neçəki əfəl var, neçəki bic var?
Düzələrmi, düzələrmi bu bəşər?[65]

---

[65] *II variant* Nəqədərki sadəlövh var, biclər var?
Nəqədərki sərsəri var, giclər var?
Nəqədərki əfəllər var, bivec var?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki fərsizlər var, təmbəl var?
Nəqədərki maneə var, əngəl var?
Nəqədərki hərzəkar var, cəncəl var?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki acgözlər var, həris var?
Naxələf var, nanəcib var, naqis var?
Paxıllar var, xainlər var, xəbis var?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki varlılar var, varsız var?
Güclü-gücsüz karlılar var, karsız var?
Abırsız var, həyasız var, arsız var?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki bir-birini əkirlər?
Dalda ikən lap qabağa çəkirlər?
Yaltaqlanıb qabağında çökürlər?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki "dahi" olur gədası?
Yerə-göyə sığışmayır ədası?
Qane etmir heçkimsəni sədası?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki "gəda" olur dâhisi?
Gözdən düşür korifeyi, banisi?
Bilinmirsə kimdi bunun baisi?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki həqiqəti sayan yox?
İnsaf-mürvət, kəraməti sayan yox?
Sədaqəti, səxavəti sayan yox?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki sevən yoxdur zəhməti?
Anlayan yox, məziyyəti, hikməti?
Doğru ölçüb verməyirlər qiyməti?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki yaxşı-pisdən seçilmir?
Xeyirxahlar, bədxahlardan seçilmir?
Haqq-nahaqdan, qərəz-qəsdən seçilmir?
Düzələrmi, düzələrmi bu bəşər?

Nəqədərki saxlayırıq qərəzi?
Düz çəkərmi vicdanlarda tərəzi?
Salınarmı de kimsələr irazı?
Düzələrmi, düzələrmi bu bəşər?

***Cəmil Əkbər*** 1975

## 29. BU BƏŞƏR

Bir yanda həyat var, bir yanda ölüm,
Elə gəlib, belə gedir bu bəşər.
Bir yanda kef-damaq, bir yanda zülüm,
Elə gəlib, belə gedir bu bəşər.

Bir yanda yaxşı var, bir yanda pis var,
Bir yanda xeyirxah, bir yanda nəs var,
Bir yanda mülayim, bir yanda tərs var,
Elə gəlib, belə gedir bu bəşər.

Bir yanda gözəl var, bir yanda çirkin,
Bir yanda sadə var, bir yanda xudbin,
Bir yanda qəmgin var, bir yanda nikbin,
Elə gəlib, belə gedir bu bəşər.

Birisi aldadır, biri aldanır,
Birisi yandırır, biri odlanır,
Birisi açıdır, biri bal dadır,
Elə gəlib, belə gedir bu bəşər.

Bir yanda həqiqət, bir yanda yalan,
Bir yanda boşalan, bir yanda dolan,
Bir yanda açılan, bir yanda solan,
Elə gəlib, belə gedir bu bəşər.

Birisi ucalır, birisi enir,
Birisi yanırsa, birisi sönür,
Birisi susursa, birisi dinir,
Elə gəlib, belə gedir bu bəşər.

Bir yanda doğruluq, bir yanda biclik,
Bir yanda kamal var, bir yanda giclik,
Bir yan dava-dalaş, bir yanda dinclik,
Elə gəlib, belə gedir bu bəşər.

Birisi yaradır, birisi sökür,
Birisi doludur, birisi tökür,
Birisi qopardır, birisi əkir,
Elə gəlib, belə gedir bu bəşər.

Birisi dərk edir, düşünür, sezir,
Birisi dünyada avara gəzir,
Birisi darıxır, birisi dözür,
Elə gəlib, belə gedir bu bəşər.

Dünya yaranıbdır ağlı-qaralı,
Yaxşıya yaxın ol, pisdən aralı,
Bu olmasa bil ki, qanın qaralı,
Elə gəlib, belə gedir bu bəşər.

***Cəmil Əkbər*** 1987

## 30. BU BƏŞƏR

Nadanlığın, cəhalətin əlində,
Düşdü pis günlərə qaldı bu bəşər.
Avamlığın, qəbahətin əlində,
Saraldı, gül kimi soldu bu bəşər.

Nəqədər çalışdı, vuruşdu getdi,
Çatıldı qabağı, qırışdı getdi,
Əzildi, sıxıldı, bürüşdü getdi,
Qərq oldu xəyala, daldı bu bəşər.

Qovuşmaq istədi səadətə o,
Nəcib arzulara xoş niyyətə o,
Mənaya, məzmuna, məziyyətə o,
Yoruldu yollarda, qaldı bu bəşər.

Abırsızlar, ismətsizlər əlində,
İnsafsızlar, mürvətsizlər əlində,
Şərəfsizlər, şöhrətsizlər əlində,
Buludtək tutuldu, doldu bu bəşər.

Dolandı nəqədər zəmanə keçdi,
Sərsəri, kəmağıl, divanə keçdi,
Laqeyid, əhlikef, biganə keçdi,
Haçandan bəridir kaldı bu bəşər.

Aqil insanları oxuyan yoxdur,
Onun ətirini qoxuyan yoxdur,
Məhəbbət xalısın toxuyan yoxdur,
Eləbil qoyundu, maldı bu bəşər.

Çıxarmır qərarı, demir sözünü,
Açmır ürəyini, demir düzünü,
Qandırmır nanəcib oğul-qızını,
Eləbil kəköydü, laldı bu bəşər.

Haçandan dolanır dava içində,
Zəhərə qarışmış hava içində,
Əqli-kəm içində, yava içində,
Eləbil qovğadı, qaldı bu bəşər.

Tarixə nəzər sal ay Cəmil Əkbər,
Gör kimlər olubdu dillərdə əzbər?
Kimi halı oldu, kimi bixəbər,
Enişli-yoxuşlu yoldu bu bəşər.

***Cəmil Əkbər*** 22. 04 – 1992

## 31. BU YAZIQ BƏŞƏR

Nəqədər xəyanət, xəbislik görüb?
Bu fəqir millətim, bu yazıq bəşər.
Zalımdan, qəddardan çox pislik görüb?
Bu fəqir millətim, bu yazıq bəşər.

Nəqədər qal-qovğa, ədavət görüb?
Paxıllıq, xainlik, xəyanət görüb?
Oğruluq, əyrilik, cinayət görüb?[66]
Bu fəqir millətim, bu yazıq bəşər.

Nəqədər nadanlıq, cəhalət gördü?
Min cür xəta, nöqsan, qəbahət gördü?
Giley-güzar gördü, şikayət gördü,
Bu fəqir millətim, bu yazıq bəşər.

Nəqədər doğruya, əyri dedilər?
Özgədir, ögeydir, qeyri dedilər?
Yoxdur kimsələrə xeyri, dedilər?
Bu fəqir millətim, bu yazıq bəşər.[67]

Nəqədər insana gicdi dedilər?
Haqqa, ədalətə öcdü dedilər?
Vicdana, imana kəcdi dedilər?
Bu fəqir millətim, bu yazıq bəşər.

---

[66] Gileylər, güzarlar, şikayət görüb.

[67] *II variant*

Nəqədər doğruya, əyri deyilib,
Özgədir deyildi, qeyri deyilib,
Yoxdur insanlığa xeyri deyilib,
Bu fəqir millətim, bu yazıq bəşər.

*III variant*

Nəqədər doğruya, əyri deyildi,
Özgədir deyildi, qeyri deyildi,
Yoxdur insanlığa xeyri deyildi,
Bu fəqir millətim, bu yazıq bəşər.

Nəqədər namərdin toruna düşüb?
Qılıncı, qalxanı, zoruna düşüb?
Alovuna düşüb, qoruna düşüb?
Bu fəqir millətim, bu yazıq bəşər.[68]

Görüb əzabını nadanların da,
Haqq-say sümürüb udanların da,
Yolunu tərsinə adanların da,
Bu fəqir millətim, bu yazıq bəşər.

Canını nəqədər fəda verdilər?
Düşüb müsibətə oda verdilər?
Yerini, yurdunu yada verdilər?
Bu fəqir millətim, bu yazıq bəşər.

Onun bir halına yanan olmadı,
Haqqını sayını anan olmadı,
Düşünüb dərdini qanan olmadı,
Bu fəqir millətim, bu yazıq bəşər.

Oradan qovdular, buralı oldu,
Düşüb müsibətə yaralı oldu,[69]
Bilən də olmadı haralı oldu?
Bu fəqir millətim, bu yazıq bəşər.

Ayaqlar altında salıb əzdilər,
Çəkib xirtdəyini onun üzdülər,
Kim deyirki möhübünü düzdülər?
Bu fəqir millətim, bu yazıq bəşər.

Özü qoy özünün dadına çatsın,
Qohum-qardaşına, yadına çatsın,
Ünvanına çatsın, adına çatsın,
Bu fəqir millətim, bu yazıq bəşər.

---

[68] *II variant* Nəqədər namərdin toruna düşdü,
Qılıncı, qalxanı, zoruna düşdü,
Cəhənnəm odunun qoruna düşdü,
Bu fəqir millətim, bu yazıq bəşər.

[69] Düşdü müsibətə yaralı oldu.

Ay Cəmil, canını fəda veribdi,
Düşüb müsibətə oda veribdi,
Əzilib düşmənə, yada veribdi,
Bu fəqir millətim, bu yazıq bəşər.

*Cəmil Əkbər*

## 32. MƏN HƏYATI OXUDUM

Öyrəndiyim ilk dəfə adi sözlər olubdur,
Adi yollar, cığırlar, adi izlər olubdur.
Xəyalımda canlanan, diləyimdən keçənlər,
Qatar-qatar düzülüb, ürəyimdən keçənlər.
Kitablara yazılan hərfləri öyrəndim,
Müdrikləri eşitdim, arifləri öyrəndim.
Əzəl gündən, binadan, ədaləti öyrəndim,
Doğruluğu, düzlüyü, həqiqəti öyrəndim.
Hər fikirə inandım, hər sözlərə inandım,
Hər baxışa inandım, hər gözlərə inandım,
Hər ocağa inandım, hər közlərə inandım,
Hər yolağa, cığıra, hər izlərə inandım.
Hər oğula baş əyib, hər qıza da inandım,
Hər varağa, dəftərə, kağıza da inandım,
Hər dodağa inandım, hər ağıza inandım.
Hər üzümə irişib, gülənlərə inandım,
Hər yanıma gedənə-gələnlərə inandım.
Ürəkdəki təpərə, riqqətlərə inandım,
Nəzərlərə inandım, diqqətlərə inandım.
Neçə-neçə kitaba, əsərlərə inandım,
Fikirdəki mənaya, kəsərlərə inandım.
İnsandakı nəciblik, məlahətə inandım,
Zərifliyə inandım, təravətə inandım,
Oda-közə, istiyə, hərarətə inandım,
Bacarığa, fəhmə, məharətə inandım,
Bu bəşərə, bu xalqa, çəmaətə inandım.
Yerli-yersiz ölənə, qazamata inandım,
Azadlığa inandım, bəraətə inandım,
Oxuduğum kitaba, qiraətə inandım.
Hər fikirin, hər sözün kəlməsinə inandım,

Kələfinə inandım, ilməsinə inandım.
Haq sözləri danışıb, deyənləri xoşladım,
Saxtalığa, yalana söyənləri xoşladım.
Cəhalətdən usanıb, bezənlərə inandım,
Özlərini yorana, üzənlərə inandım.
İgidləri vəsf edən dastanlara inandım,
"Gülüstan"a inandım, "Bustan"lara inandım.

Zaman gəldi yetişdi, mən həyatı oxudum,
Fikrimdə, xəyalımda əriş-arğac toxudum.
Kitab başqa söz dedi, həyat başqa söz dedi,
Kitab məni çaşdırdı, həyat mənə düz dedi,
Kitab mənə vəd verdi, həyat mənə döz dedi,
Kitab mənə sez dedi, həyat mənə gəz dedi.
Ürəklərdə kök salan niyyətləri anladım,
Fikirləri, xəyalı, diqqətləri anladım,
Xahişləri anladım, minnətləri anladım,
Fərasəti anladım, cəsarəti anladım,
Azadlığı anladım, əsarəti anladım.
Abırları, həyanı, ismətləri duymuşam,
Halal-haram yeyilən qismətləri duymuşam.
Saxtaları tanıdım, yalanları oxudum,
Əqrəbləri, iblisi, ilanları oxudum.
Kasıbları, məzlumu, kalanları oxudum,
Açılanı oxudum, solanları oxudum.
Dərinlikdə zühur edən, diləkləri oxudum,
Neçə-neçə hiyləni, kələkləri oxudum.
Qasırğanı, tufanı, küləkləri oxudum,
Huriləri, pərini, mələkləri oxudum.
Yaradanı, quranı, biləkləri oxudum,
Şadaranı, xəlbiri, ələkləri oxudum.
Quzuları tanıdım, qoyunları tanıdım,
Törədilən hoqqanı, oyunları tanıdım.
Həyasızı, arsızı, pozğunları tanıdım,
Qarğaları, qırğını, quzğunları tanıdım.
Hiyləgəri, bicləri, yaltaqları tanıdım,
Həyasızı, arsızı, sırtıqları tanıdım,
İnsanlığa yad olan artıqları tanıdım.
Tülküləri, qurdları, çaqqalları tanıdım,

Dəllalları, pulgiri, baqqalları tanıdım.
Sərsərini, gicləri, dəliləri tanıdım,
Alqanlara sussayan, zəliləri tanıdım.
Nanəcibi, namərdi, naqisləri tanıdım,
Paxılları, xaini, xəbisləri tanıdım.
Acgözləri, hərisi tamahkarı tanıdım,
Müqəssiri, canini, günahkarı tanıdım.
Yaxşıları ayırıb, yamanları seçmişəm,
Dəryalara baş vurub, ummanları seçmişəm.
Dar yollardan adlayıb, cığırlardan keçərək,
Hər çeşmədən bir ovuc, dolduraraq içərək.
Mənfurları, alçağı, pisləri də tanıdım,
Xeyirxahı dərk edib, nəsləri də tanıdım.
Astarları tanıdım, üzləri də tanıdım,
Oğruları, əyrini, düzləri də tanıdım.
Caniləri tanıdım, nadanları tanıdım,
Addımını tərsinə adanları tanıdım.
Tərbiyədən yarımçıq dadanları tanıdım,
Haqq-sayı sümürüb, udanları tanıdım.
Diri-diri yaşayan, ölüləri tanıdım,
Bəni-insan donunda zəliləri tanıdım.
El varından doymayan, harınları tanıdım,
Yoğunpeysər, piy basan, qarınları tanıdım.
Ağardı başdan-başa sərimdəki saçlarım,
Bədənimdə nəki var, dərimdəki saçlarım.
Vaxt olub ki, nədənsə mən görsəm də, görmədim,
Bağlar saldım nəqədər, meyvəsini dərmədim.
Hər yetənə can deyib, qardaş kimi bilmişəm,
Həmkar kimi anlayıb, sirdaş kimi bilmişəm.
Ha oxudum, öyrəndim, gördüm yenə bilmirəm,
Ha eşitdim, dinlədim, gördüm yenə bilmirəm.
Sən deməynən hərkəsin öz ilqarı başqadır,
Öz dözümü, durumu, öz tutarı başqadır.
Şəxsiyyəti, varlığı, nəcabəti başqadır,
Odu-közü, istisi, hərarəti başqadır.
Bacarığı, fəhmi, məharəti başqadır,
Sədaqəti başqadır, səxavəti başqadır.
Keyfiyəti başqadır, kəmiyyəti başqadır,
Yaşadığı el-oba, cəmiyyəti başqadır.

İxtiyarı, hüququ, sədarəti başqadır,
Düşüncəsi, idrakı, ləyaqəti başqadır.
Dözüm-durum, dəyanət, qətiyyəti başqadır,
Öz məzmunu, mənası, məziyyəti başqadır.
Hərkəsin öz aləmi, öz dünyası var imiş,
Öz fikiri, xəyalı, öz xülyası var imiş.
Ha bəsləsən girsizi, gəlib girli olanmır,
Ürəksizlər ürəkli, fərsiz-fərli olanmır.
Ha sulayıb becərsən söyüdlərdə bar olmur,
Bəhrəsilə barilə ulğunluqda car olmur.
Nə utanıb-qızarır, nə də əsla xar olmur,
Zəhmət çəkib böyütsən, ondan elə var olmur.
Çox oxuydum, eşitdim, oxunmamış kitablar,
Verilməmiş əmrlər, edilməmiş xitablar.
Dostlar gəlin öyrənək kitabları, həyatı,
Düz anlayaq, düz görək qurğuları, büsatı.
Hərnə olsa biz bilək, əyrisini, düzünü,
Dərk eyləyək, anlayaq, bu həyatın özünü.
Nə böhtanlar eşidib, nə şər deyib danışaq,
Nə inciyib, nə küsək, nə sonradan barışaq.
Qardaş, gəlin oxuyub, düz sözləri götürək,
Nəsillərə çatdırıb həqiqəti ötürək.
Qoy eşitsin hamıya, xoş xəbəri yetirək,
Doğru fikir, xəyalı, düz sözləri bitirək.
Bəşərə təlim verib, düz sözlərlə bəsləyək,
Azadlığa çağırıb, səadətə səsləyək.
Bu həyatı, dövranı, düz anlayaq, düz görək,
Borcumuzu qaytarıb, xalqımıza tez verək.
Görən, bilən deməsin, yollarını azıbdır,
Ona-buna şər deyib, dərin quyu qazıbdır.
Qoy hərbirkəs dünyada, gördüyünü götürsün,
Əydiyini düzəltsin, qırdığını bitirsin.
Qoy görənlər, bilənlər, desin dərin adamdır,
Hər kəlməsi, cümləsi, baltək şirin adamdır.

Dostlar, gəlin öyrənək, bu həyatın özünü,
Düz tanıyıb, düz görək, yolağını, izini.
Nə böhtanlar uyduraq, nə şər deyib danışaq,
Nə inciyib, nə küsək, nə də sonra barışaq.

Dostlar, gəlin kitabı, kitab kimi öyrənək,
Dühalardan bu kəlmə xitab kimi öyrənək.
Bu həyatın özünü, həyat kimi öyrənək,
Nüsrət kimi öyrənək, nicat kimi öyrənək.
Kitab hələ dayazdır, həyat yaman dərindir,
Kitab acı gəlsədə, həyat yaman şirindir.
Dostlar, gəlin həyatı dönə-dönə öyrənək,
Gəl bezməyək biz ondan yenə-yenə öyrənək.
Qardaşım gəl, həyatı kitab kimi anlayaq,
Kitabları oxuyub,  xitab kimi anlayaq.
Kim həyatı duymasa, biz onları danlayaq,
Qırmanclayıb hər zaman kötəkləyək, yanlayaq.

***Cəmil Əkbər*** 18-20. 02 - 1987

## 33. YANĞI KEÇSİN CANINA?

*(N a n ı k o r a)*

Göz açandan bəridir, mən qayğını çəkmişəm,
Kədərinə, qəminə, gözyaşımı tökmüşəm.
Mən nəqədər yanım ki, yanğı keçsin canına?
Çaxmaq vurum daşına, çınqı keçsin qanına?

Sənin üçün nəqədər, dost-düşmənə əyildim,
Onun-bunun əlində sürtülərək yeyildim.
Mən nəqədər yanım ki, yanğı keçsin canına?
Daşa dəysin çaxmağım, çınqı düşsün qanına?

Tufanına tablaşıb, boranına dözmüşəm,
Enişinə, yoxuşa, aranına dözmüşəm.
Güzarına çıxmışam, karvanına dözmüşəm,
Ötüb keçən zamana, dövranına dözmüşəm.
Mən nəqədər yanım ki, yanğı düşsün canına?
Daşa dəyib çaxmağım, çınqı düşsün qanına?

Heç bildinmi nəqədər, can qoymuşam yolunda?
Müzayiqə etmədim qüvvə varkən qolumda.
Gecə-gündüz cəhd edib, peyvənd vurdum kolunda,
Hey hərləndim sağında, oyaq durdum solunda.
Mən nəqədər yanım ki, yanğı düşsün canına?
Çaxmaqlayım daşımı, çınqı düşsün qanına?

Gedəninə yanmışam, gələninə yanmışam,
Öləninə ağlayıb, qalanına yanmışam,
Gözyaşını axıdıb, siləninə yanmışam.
Heç bilmədin, mən sənin qəhərinə yanmışam,
Zülalını görmədim, zəhərinə yanmışam.
Ha kiridim, ha susdum, ha dindimsə qanmadın,
Ha qısqanıb çəkindim, ha sindimsə qanmadın.
Ha od qoydum, qaladım, alışmadın, yanmadın,
Çürük qozla yad edib, bir adımı anmadın.
Seyrə çıxıb dolandım, ha gəzdimsə olmadı,
Ha inciyib, ha küsdüm, ha bezdimsə olmadı,
Səbr eyləyib, tablaşıb, ha dözdümsə olmadı,
Əldən salıb özümü, ha üzdümsə olmadı.
Səndən ötrü a zalım, nə qaldı ki, etməyim?
Hansı səmtə yön alıb, ora-bura getməyim?
Hara qaldı səpilib, cücərməyim, bitməyim?
De görüm hara oldu, harayına yetməyim?
Bilmirsənmi ay yazıq çörəyimi yediyin,
Ən müqəddəs arzumdu, diləyimdi yediyin.
Mən nəqədər od qoyum, yanğı keçsin canına?
Çaxmaq vurum daşıma, çınqı keçsin qanına?

***Cəmil Əkbər*** 16. 08 – 1990

## 34. GÜNAHSIZLAR NEYLƏSİN?

Çəyirtkə bura uçdu,
Çəyirtkə ora qaçdı,
Sərçə onu qovladı,
Dimdiyini sovladı.

Çəyirtkə bura uçdu,
Çəyirtkə ora uçdu,
Çəyirtkə dara düşdü,
Çəyirtkə zora düşdü.

Sərçə onu qovladı,
Dimdiyini sovladı.
Dayanmadı zoruna,
Saldı onu toruna.

Çəyirtkə bura uçdu,
Bilmədi hara qaçdı?
Sərçə tutdu yazığı,
Diddi-tökdü pazağı.

Çəyirtkə gücsüz oldu,
Çəyirtkə vecsiz oldu,
Sərçə döndü aslana,
Saldı onu al-qana.

Gücsüz yazıq neyləsin?
Güclülərin əlində?
Zorsuz yazıq neyləsin?
Zorluların əlində?
Torsuz yazıq neyləsin?
Torluların əlində?
Fəqir yazıq neyləsin?
Zalımların əlində?
Günahsızlar neyləsin?
Günahkarın əlində?

***Cəmil Əkbər***

## 35. GÜNAH NƏ SƏNDƏDİR, NƏDƏ MƏNDƏDİR

Günah nə səndədir, nədə məndədir,
Taleyim, bəxtimdə, qismətimdədir.
Nə baba, nə nənə, nə dədəmdədir,
Çəkdiyim zəhmətdə, xidmətimdədir!

Nə səndən inciyib, ondan küsürəm,
Əlimi nə bundan, ondan kəsirəm.
Günah nə səndədir, nədə məndədir,
Taleyin hökmündə, qismətimdədir,
Nə bağda bülbüldə, nə gülşəndədir,
Eşqim-həvəsimdə, riqqətimdədir,

Günah nə səndədir, nədə ondadır,
Nə səkkiz, nə doqquz, nədə ondadır,
Nə əvvəl, nə axır, nədə sondadır,
Fəhm-fərasətdə, diqqətimdədir!

***Cəmil Əkbər***

## 36. MƏNMİ, SƏNMİ?

*I variant*

Mən belə anladım, sən elə qandın,
Mənmi günahkaram, sənmi günahkar?
Mən belə axtardım, sən elə andın,
Mənmi təqsirkaram, sənmi təqsirkar?

Mən Hatəm olmuşam, sən xəsis oldun,
Mən könlütox oldum, sən həris oldun.
Mən qonaq olmuşam, sən varis oldun,
Mənmi ziyankaram, sənmi ziyankar?

Düzəldən mən oldum, əyən sən oldun,
Döyülən mən oldum, döyən sən oldun.
Qazanan mən oldum, yeyən sən oldun,
Mənmi davakaram, sənmi davakar?[70]

Sən yalan danışdın, mən həqiqəti,
Sən kalan xoşladın, mən qənaəti.
Sən sərtlik xoşladın, mən ənaəti,
Mənmi üsyankaram, sənmi üsyankar?

Sındıran sən oldun, bağlayan mənəm,
Coşduran sən oldun, çağlayan mənəm.
Ağladan sən oldun, ağlayan mənəm,
Mənmi zülümkaram, sənmi zülümkar?

Sən əyri düşündün, mən düz düşündüm,
Mən dərin düşündün, sən üz düşündün.
Mən işarə qandım, sən göz düşündün,
Mənmi fitnəkaram, sənmi fitnəkar?

Sən evdə oturdun, mən eli gəzdim,
Sən mətbəx xoşladın, mən çölü gəzdim.
Sən çeşmə axtardın, mən seli gəzdim,
Mənmi sənətkaram, sənmi sənətkar?

---

[70] Mənmi müftəxoram, sənmi müftəxor?

Görənlər deyirki mən qocalmışam,
Sən zəfər çalmısan, mən bac almışam.
Sən yerində saydın, mən ucalmışam,
Mənmi baiskaram, sənmi baiskar? [71]

Məni də, səni də əydi zəmanə,
Kötəklə, qırmancla döydü zəmanə.
Toxunub qəlbinə dəydi zəmanə,
Mənmi inadkaram, sənmi inadkar?

Mən çörək qazandım, sən ləl istədin,
Mən darçın qazandım, sən hil istədin.
Mən sətin toxudum, sən tül istədin,
Mənmi tamahkaram, sənmi tamahkar?[72]

Zəmanə hökm etdi, ağardı başım,
Tutuldu qabağım, çatıldı qaşım.
Sarsıldı xəyalım, dağıldı huşum,
Mənmi səbəbkaram, sənmi səbəbkar?

Dünyada hər şeyin qeydinə qaldım,
Düşünüb dərk edib, xəyala daldım.
Elimdən-obamdan mən ilham aldım,
Mənmi həvəskaram, sənmi həvəskar?

Nəüçün buqədər zayıl olmusan?
Yol verib hər işə qail olmusan?
Vurulub olmusan mayıl olmusan?
Mənmi sitəmkaram, sənmi sitəmkar?

---

[71] *II variant* Zəmanə hökm etdi, ağardı başım,
Tutuldu qabağım, çatıldı qaşım,
Sarsıldı xəyalım, dağıldı huşum,
Mənmi səbəbkaram, sənmi səbəbkar?

[72] *II variant* Uymadım fitnəyə, felə dünyada,
Altuna, daşqaşa, lələ dünyada,
Olmadım tamaha kölə dünyada,
Mənmi tamahkaram, sənmi tamahkar?

Baxıb zirvələrə dağlar aşmışam,
Hər addımbaşında şeir qoşmuşam,
Xudam kərəm edib, əsib coşmuşam,
Mənmi füsunkaram, sənmi füsunkar?

Kimi cahil oldu, kimi ağsaqqal?
Kimi nadan oldu, kimi əhli-hal?
Kimi kef eylədi, kimi dərd-məlal?
Mənmi ələmdaram, sənmi ələmdar?

Atadan, anadan halaldı mayam,
Xaliq bəxş etdiyi müqəddəs payam,
Zülmət gecələrdə parlaq bir ayam,
Mənmi lütfükaram, sənmi lütfükar?

Sənə nə ad verim, ay Cəmil Əkbər?
Ellərin dilində olmusan əzbər.
Bilmirəm dünyadan kimdi bixəbər?
Mənmi xilaskaram, sənmi xilaskar?

***Cəmil Əkbər*** 29-31/ 08 -1994

## 37. SƏNMİ, MƏNMİ?

*I variant*

Bürüyüb həryanı alaqotları,
Sənmi günahkarsan, mənmi günhkar?
Gicitkansayağı dalaqotları,
Sənmi təqsirkarsan, mənmi təqsirkar?

Söz demək olmayır gicoğlu-gicə,
Qanuna, qaydaya kəcoğlu-kəcə,
Hiyləgər, dələduz, bicoğlu-bicə,
Sənmi zinakarsan, mənmi zinakar?

Haçandan bəridir nadanlar artıb,[73]
Təlimdən yarımçıq dadanlar artıb,[74]
Yolunu tərsinə adanlar artıb,
Sənmi səbəbkarsan, mənmi səbəbkar?

---

[73] Cahillər çoxalıb, nadanlar artıb.
[74] Haqqı-say sümürüb, udanlar artıb.

Ünsiyyət-ülfətdə qəbahət artıb,
Küdurət çoxalıb, ədavət artıb,
Bürüyüb həryanı cəhalət artıb,
Sənmi səhlənkarsan, mənmi səhlənkar?

Toxuyan mən oldun, geyən sən oldun,
Qazanan mən oldum, yeyən sən oldun,
Döyülən mən oldum, döyən sən oldun,
Sənmi zülümkarsan, mənmi zülümkar?[75]

Mən çörək qazandım, sən ləl istədin,
Mən bağlar becərdim, sən gül istədin,
Mən sətin toxudum, sən tül istədin,
Sənmi tamahkarsan, mənmi tamahmkar?

Düzləri yolundan əyən sən oldun,
Toxunub qəlblərə dəyən sən oldun,
Şər-böhtan danışıb deyən sən oldun,
Sənmi sitəmkarsan, mənmi sitəmkar?[76]

Yarımçıq papaqçı, pinəçi artıb,
Züy tutan çoxalıb, köməkçi artıb,
Seyidlər, mollalar, dilənçi artıb,[77]
Sənmi sənətkarsan, mənmi sənətkar?

Vətəni tərk edib köçənlər artıb,
Didərgin adıyla qaçanlar artıb,
Özgə diyarlara uçanlar artıb,
Sənmi günahkarsan, mənmi günhkar?

---

[75] *II variant* Tablaşmaq çətindir, ürək dözməyir,
Saf-arzu istəklər, dilək dözməyir,
Qanad gücdən düşüb, lələk dözməyir,
Sənmi zülümkarsan, mənmi zülümkar.

[76] *II variant* Nəqədər var-dövlət talandı getdi,
Qərq oldu yerlərə, calandı getdi,
Çoxları birtəhər dolandı getdi,
Sənmi sitəmkarsan, mənmi sitəmkar?

[77] Hayana baxırsan dilənçi artıb.

Deyilən sözlərə baxan kimdiki?
Ağrıdıb qəlbini sıxan kimdiki?[78]
Zülmətin sonuna çıxan kimdiki?
Sənmi tələbkarsan, mənmi tələbkar?

Haqdan, ədalətdən əsər qalmayıb,
Xalqa yetişəsi xəbər qalmayıb,
Qanunda-qaydada kəsər qalmayıb,
Sənmi saxtakarsan, mənmi saxtakar?

Bazarda hər şeyin qiyməti artıb,
Tapmaq da mümkün döy, minnəti artıb,
İnsanın-insana hiddəti artıb,
Sənmi kəllədarsan, mənmi kəlladar?

Saxtalıq çoxalıb, yalan çoxalıb,
Dollar toplayanlar, kalan çoxalıb,
Saralan çoxalıb, solan çoxalıb,
Sənmi xəznədarsan, mənmi xəznədar?

Kimdi bu bəşəri məhvə aparan?
Hər addımbaşında səhvə aparan?
Pisləyib keçmişi həcvə aparan?
Sənmi həvəskarsan, mənmi həvəskar?

***Cəmil Əkbər*** 30. 08 -1994

## 38. SƏNMİ, MƏNMİ?

*II variant*

Çoxalıb nəyaman acgöz, hərislər?
Naxələf, nanəcib, namərd, naqislər,
Arsız, karsız, bacarıqsız, fərsizlər,
Sənmi günahkarsan, mənmi günhkar?

Tarixin təkəri dönüb geriyə,
Hörmət qoyulmayır ölü-diriyə,
Oğul gərək bu dərdlərə kiriyə,
Sənmi təqsirkarsan, mənmi təqsirkar?

---

[78] İncidib qəlbini sıxan kimdiki?

Ünsiyyət-ülfətlər pozuldu getdi,
Doğrular tərsinə yozuldu getdi,
Sədaqət, səxavət azaldı getdi,
Sənmi səbəbkarsan, mənmi səbəbkar?

Deyib danışmaqla sözə baxan yox,
Əyriyə baxan yox, düzə baxan yox,
Dərinə, dayaza, üzə baxan yox,
Sənmi səhlənkarsan, mənmi səhlənkar?

Şər deyib aranı qatan çoxaldı,
Vicdanı, məsləyi satan çoxaldı,
İnsafı, mürvəti atan çoxaldı,
Sənmi fitnəkarsan, mənmi fitnkar?

Nəqədər canından bezən oldular?
Qəmlər dəryasında üzən oldular?
Əzab-əziyyətə dözən oldular?
Sənmi zülümkarsan, mənmi zülümkar?

Haçandan bəridir dava kəsilmir,
Zəhərə qarışmış hava kəsilmir,
Gicbəsər azalıb, yava kəsilmir,
Sənmi inadkarsan, mənmi inadkar?

Arada-bərədə hörmət qalmadı,
Kəramət qalmadı, mürvət qalmadı,
Mənəvi gözəllik, sərvət qalmadı,
Sənmi nanıkorsan, mənmi nanıkor?

Nəüçün buqədər zayıl olmusan?
Yol verib hər işə qail olmusan?
Vurulub özünə mayıl olmusan?
Sənmi sitəmkarsan, mənmi sitəmkar?

Dünyanın nəqədər naqisi vardır?
Yoğurub yapmamış varisi vardır?
Acgözü, xəsisi, hərisi vardır?
Sənmi ziyankarsan, mənmi ziyankar?

Zəmanə hökm edir, qanmalıyıq biz,
Böyüyü-kiçiyi sanmalıyıq biz,
Haqqı-həqiqəti anmalıyıq biz,
Sənmi xilaskarsan, mənmi xilaskar?

***Cəmil Əkbər*** 2. 09 -1994

## 39. SƏNMİ, MƏNMİ?

*III variant*

Sən elə anladın, mən belə qandım,
Sənmi günahkarsan, mənmi günhkar?
Sən elə aradın, mən belə andım,
Sənmi təqsirkarsan, mənmi təqsirkar?

Kim Hatəm doğuldu, kim xəsis oldu?
Kim müsbət doğuldu, kim naqis oldu?
Kimlər köç eylədi, kim varis oldu?
Sənmi ziyankarsan, mənmi ziyankar?[79]

Düzələn kim oldu, əyən kim oldu?
Qazanan kim oldu, yeyən kim oldu?
Toxunub qəlblərə dəyən kim oldu?
Sənmi davakarsan, mənmi davakar?

Gör kimlər sındırdı, kimlər bağladı?
Bəs kimlər ağlatdı, kimlər ağladı?
Kimlər cuşa gəldi, kimlər çağladı?
Sənmi zülümkarsan, mənmi zülümkar?

Dünyada nəqədər ara qatdınız?
Çalaraq, çaparaq vara çatdınız?
Özün də bilmədin hara çatdınız?
Sənmi fitnəkarsan, mənmi fitnəkar?

---

[79] *II variant* Kim Hatəm doğuldu, gör kimlər xəsis?
Kim müsbət doğuldu, gör kimlər naqis?
Kimlər köç eylədi, kim oldu varis?
Sənmi ziyankarsan, mənmi ziyankar?

Kim evi düşündü, kim eli sevdi?
Kimlər tikan əkdi, kim gülü sevdi?
Kim fitnəni sevdi, kim feli sevdi?
Sənmi sənətkarsan, mənmi sənətkar?

Kim gümrah dolanır, kim qocalıbdır?
Kim zəfər çalıbdır, kim bac alıbdır?
Ellərdən, obadan kim güc alıbdır?
Sənmi səbəbkarsan, mənmi səbəbkar?[80]

Kim çörək qazandı, kim ləl istədi?
Kim sərçə bəslədi, kim fil istədi?
Kim sətin toxudu, kim tül istədi?
Sənmi tamahkarsan, mənmi tamahmkar?

Nə dedim, danışdım hirsinə dəydi?
Əslinə, nəslinə, cinsinə dəydi?
Toxundu eləbil kirsinə dəydi?
Sənmi inadkarsan, mənmi inadkar?[81]

Dünyada gör kimlər qeydinə qaldı?
Düşünüb, dərk edib, xəyala daldı?
Ellərdən-obadan ilhamın aldı?
Sənmi həvəskarsan, mənmi həvəskar?

Görəsən anadan kim zayıl oldu?
Yol verdi hər işə, o qail oldu?
Kimlərin boynunda həmail oldu?
Sənmi sitəmkarsan, mənmi sitəmkar?

---

[80] *II variant* Görənlər deyir ki, mən qocalmışam,
Sən zəfər çalmısan, mən bac almışam,
Sən yerində saydın, mən ucalmışam,
Sənmi səbəbkarsan, mənmi səbəbkar?

[81] *II variant* Hər nə dedim dəydi tezcə hirsinə,
Nəslinə, əslinə, cinsinə,
Ağrı verdi qabarına, kirsinə,
Sənmi inadkarsan, mənmi inadkar?

Dəyişib zamanın yaman gərdişi,
Qalmayıb adəti, tamam vərdişi,
Çoxları dəyişib sənəti, işi,
Sənmi kərgüzarsan, mənmi kərgüzar?

Qalxıb zirvələrə dağlar aşan kim?
Dastanlar yazan kim, şeir qoşan kim?
Haqsızlıq görəndə, əsib-coşan kim?
Sənmi füsunkarsan, mənmi füsunkar?

Kim oldu dünyada felə uymayan?
Daş-qaşa, altuna, lələ uymayan?
Aldanıb tamaha kölə olmayan,
Sənmi xiridarsan, mənmi xiridar?

Kimlər cahil oldu, ağsaqqal oldu?
Kimlər nadan oldu, əhli-hal oldu?
Kimlər kef eylədi, dərd-məlal oldu?
Sənmi ələmdarsan, mənmi ələmdar?

Nəqədər nadanlar sözlə vuruldu,
Acıqlı, qəzəbli, gözlə vuruldu,
Qamçıyla, şallaqla bizlə vuruldu,
Sənmi kamandarsan, mənmi kamandar?

Sən tora düşmüsən, mən də kəməndə,
Sən zora düşmüsən, mən isə bəndə,
Günah səndə oldu, yoxsaki məndə?
Sənmi xilaskarsan, mənmi xilaskar?

Zəmanə məni də, səni də əydi,
Səni də danladı, məni də söydü,
Toxundu nəqədər könülə dəydi,
Sənmi səhlənkarsan, mənmi səhlənkar?[82]

---

[82] *II variant*

Meydanı verdlər talayanlara,
Alqanı yerlərə calayanlara,
Xalqı barmağına dolayanlara,
Sənmi səhlənkarsan, mənmi səhlənkar?

Bu dərddən, kədərdən ağardı başım,
Tutuldu qabağım, çatıldı qaşım,
Ötüşdü baharım, yetişdi qışım,
Sənmi qələndərsən, mənmi qələndər?

Saldılar bəşəri düzə "bəylərim",
Gədədən törəyən təzə "bəylərim",
Yaxşıki gəldilər gözə "bəylərim",[83]
Sənmi saxtakarsan, mənmi saxtakar?

Dağıdıb dünyanı viran eylədi,
Çaldılar, çapdılar dövran eylədi,
Yayın ortasında, boran eylədi,
Sənmi üsyankarsan, mənmi üsyankar?[84]

Yazdım ki, yoluma düzələk qardaş,
Biraz törpülənib nəzilək qardaş,
Nizamla sıraya düzülək qardaş,
Sənmi iqtidarsan, mənmi iqtidar?

Atadan, anadan halaldı mayam,
Üfunət bilməyən axar bir çayam,
Qaranlıq gecədə parlaq bir ayam,
Sənmi lütfükarsan, mənmi lütfükar?

Səni tanımıram, mən Cəmil Əkbər,
Yaxşıdan, yamandan mən verdim xəbər,
Dünyadan çoxları oldu bixəbər,
Sənmi xəbərdarsan, mənmi xəbərdar?

***Cəmil Əkbər*** 30. 08 – 1994

---

[83] Çəkmədi sonatək məzə "bəylərim".

[84] *II variant* Kim yalan xoşladı, kim həqiqəti?
Kim ədəb-ərkdnı, kim nəzakəti?
Kimlər dönüklüyü, kim sədaqəti?
Sənmi üsyankarsan, mənmi üsyankar?

## 40. SƏNMİ, MƏNMİ?

*IV variant*

Tarixin təkəri geri işləyir,
Sənmi günahkarsan,  mənmi günahkar?
Azalıb xeyiri-şəri işləyir,
Sənmi səbəbkarsan,  mənmi səbəbkar?

Bəşərin övladı zülmətə düşüb,
Qərq olub azara, hillətə düşüb,
Qərəzə, qisasa, hiddətə düşüb,
Sənmi sitəmkarsan, mənmi sitəmkar?

Ləyaqət əhlinə lağ eyləyirlər,
Çıxıb əndazədən, ağ eyləyirlər,
Çəkib cızdağını dağ eyləyirlər,
Sənmi təqsirkarsan,  mənmi təqsirkar?

Bəşərin kələfi dolaşıb yaman,
Ağı-qarasına bulaşıb yaman,
Haçandan bəridir verməyir aman,
Sənmi fitnəkarsan,  mənmi fitnəkar?

Çəkirik dərd-bəla, qüssə-qəhəri,
Xərabə qoyurlar qədim şəhəri,
Kimlər çəkir görün xeyri-bəhəri?
Sənmi zülümkarsan,  mənmi zülümkar?

Meydanı açılıb “təzəbəylərin”,
Salıbdı milləti düzə “bəylərin”,
Qənim kəsilbdir bizə bəylərin,
Sənmi xilaskarsan,  mənmi xilaskar?

Qazanan kimlərdir, yeyən kimlərdir?
Düzəldən kimlərdir, əyən kimlərdir?
Toxuyan kimlərdir, geyən kimlərdir?
Sənmi müftəxorsan,  mənmi müftəxor?

Mən çörək qazandım, sən ləl istədin,
Mən qədək toxudum, sən tül istədin,
Mən darçın becərdim, sən hil istədin,
Sənmi tamahkarsan, mənmi tamahkar?

Vətənin var-halı talandı getdi,
Qərq olub yerlərə calandı getdi,
Dünya başımıza dolandı getdi,
Sənmi qəsbkarsan, mənmi qəsbkar?

Çoxları çaşıbdır xeyir-şərini,
Axıtmaq istəmir, tökmür tərini,
Həyatda tapan yox, layiq yerini,
Sənmi xilaskarsan, mənmi xilaskar?

Azalıbdır həqiqətdən deyənlər,
İnsanlıqdan, ləyaqətdən deyənlər,
Ədəb-ərkan, nəzakətdən deyənlər,
Sənmi nanıkorsan, mənmi nanıkor?

Düz gedən azalıb, əyən çoxalıb,
Toxunub qəlblərə dəyən çoxalıb,
İşləyən azalıb, yeyən çoxalıb,
Sənmi səhlənkarsan, mənmi səhlənkar?

***Cəmil Əkbər*** 2. 11 – 1994

## 41. KİŞİ ÜRƏYİ

Sındırsan qəlbini kin ilə dolar,
Dumandı, çiskindi kişi ürəyi.
İblislə, əqrəblə, cin ilə dolar,
Yamandan yamandı kişi ürəyi.

Sən onu küsdürsən dərdin çoxalar,
Ürəyin kövrələr, qəlbin yuxalar,
Əyninə tapılmaz atlas çuxalar,
Arxadı, həyandı kişi ürəyi.

Xətrinə dəyəndə nifrəti artar,
Qəzəbi çoxalır, hiddəti artar,
Yetişər xətası, şiddəti artar,
Tufandı, borandı kişi ürəyi.

Məhəbbət yolunda özünü yorur,
Zəhmətdən usanmır, yaradır, qurur,
Səadət naminə oturur, durur,
Eşq ilə vurandı kişi ürəyi.

Yar sadiq olmasa vaxtsız qocalar,
Naləsi, fəqanı göyə ucalar,
Qəmin çələngindən başı tac alar,
Boynunu burandı kişi ürəyi.

Ülvi gözəlliyin pərvanəsidir,
Vəfasız gözəlin biganəsidir,
Leylilər, Əslilər divanəsidir,
Məcnundur, Sənandır kişi ürəyi.

Dərd tüğyan eyləsə yanıb kül olar,
Gah bəmə köklənər, gah da zil olar,
Bir günlük ayrılıq min bir il olar,
Sevgisiz virandır kişi ürəyi.

Nəqədər dözümlü, mətin də olsa,
Eniş də, yoxuş da, çətin də olsa,
Polad kəlitəsi canında olsa,
Şam kimi yanandır kişi ürəyi.

Yorulmaq bilmədən qayalar çapır,
Oğul- qız qazanar, ləl gövhər tapır,
Arzuya qovuşur, murada çatır,
Nökərdir, çobandır kişi ürəyi.

Ha çəkirsə qayğıları azalmır,
Ha yorulur inildəmir, pozulmur,
Gündən-gündən aşıb daşır, sozalmır,
Dəryadır, ümmandır kişi ürəyi.

***Cəmil Əkbər*** 12. 02 – 1980

## 42. BU HƏYAT HARA?

Mənə dərs dedilər ləyaqət üçün,
O təlim-tərbiyə, bu həyat hara?
Doğruluq, düzgünlük, həqiqət üçün,
O təlim-tərbiyə, bu həyat hara?

Oxudum, öyrəndim qanmağım üçün,[85]
Axtarıb, arayıb, anmağım üçün,
Qaranlıq yollarda yanmağım üçün,[86]
O təlim-tərbiyə, bu həyat hara?

Mənə dərs dedilər görməyim üçün,
Aldığım borcları verməyim üçün,
Saldığım bağları dərməyim üçün,
O təlim-tərbiyə, bu həyat hara?

Dedilər, öyrəndim mərifət üçün,
Etibar, etiqad, təriqət üçün,
Xeyirxahlıq üçün, fəzilət üçün,
O təlim-tərbiyə, bu həyat hara?

Mənə dərs dedilər, sezməyim üçün,
Xəyal gəmisində üzməyim üçün,
Enişdə, yoxuşda dözməyim üçün,
O təlim-tərbiyə, bu həyat hara?

Mənə dərs dedilər, şərafət üçün,
Bacarıq, məharət, fərasət üçün,
İnsanlıq naminə əlamət üçün,[87]
O təlim-tərbiyə, bu həyat hara?

Mənə dərs dedilər, alilik üçün,
Müdriklik, zirəklik, dahilik üçün,
Bu cahan mülkünə valilik üçün,
O təlim-tərbiyə, bu həyat hara?

---

[85] Dedilər öyrəndim qanmağım üçün.
[86] Zülmət gecələrdə yanmağım üçün.
[87] İnsanlıq naminə ləyaqət üçün.

Mənə dərs dedilər, sədaqət üçün,
Hatəmlik eyləmək, səxavət üçün,
Təmiz arzu üçün, saf-niyyət üçün,
O təlim-tərbiyə, bu həyat hara?

Mənə dərs dedilər, marksizmdən,
Səadət naminə kommunizmdən,
Sosial ədalət, humanizmdən,
O təlim-tərbiyə, bu həyat hara?

Mənə dərs dedilər, mərdanəlikdən,
İncidən, sədəfdən, dürdanəlikdən,
Şamlara qərq olan pərvanəlikdən,
O təlim-tərbiyə, bu həyat hara?

Mənə dərs dedilər, beynəlmiləli
Nədir məchul qalan, nədir şübhəli?
Nədir məzhəkəli, nədir gülməli?
O təlim-tərbiyə, bu həyat hara?

Mənə öyrətdilər düz danışmağı,
Salıb könüllərə iz, danışmağı,
Sağlam fikirləşib söz danışmağı,
O təlim-tərbiyə, bu həyat hara?

Oxudum, öyrəndim ucalmağı da,[88]
Şərəflə yaşayıb qocalmağı da,
Zəfərlər çalmağı, bac almağı da,
O təlim-tərbiyə, bu həyat hara?

Mənə öyrətdilər karlı olmağı,
Namuslu, qeyrətli, arlı olmağı,
Faydalı, səmərli, barlı olmağı,
O təlim-tərbiyə, bu həyat hara?

---

[88] Mənə dərs dedilər ucalmağı da.

Mənə dərs dedilər, kamallı olum,
Əqidəli olum, qayəli olum,
Mənəvi aləmdə samballı olum,
O təlim-tərbiyə, bu həyat hara?[89]

Mənə dərs dedilər, həyalı olum,
Məsləkli, vicdanlı, amallı olum,
Qədəmi uğurlu, sayəli olum,
O təlim-tərbiyə, bu həyat hara?[90]

Əzəldən heyranam sədaqətə mən,
Nəciblik, zəriflik, lətafətə mən,
Ədəbə, ərkana, nəzakətə mən,
O təlim-tərbiyə, bu həyat hara?

Cəmiləm, inandım qardaşlığa mən,
Dostluq, mehribanlıq, yoldaşlığa mən,
Həmkarlıq, həmdəmlik, sirdaşlığa mən,
O təlim-tərbiyə, bu həyat hara?

***Cəmil Əkbər*** 14. 10 – 1992

## 43. BİRİSİ MƏHV OLUR, BİRİ DOĞULUR

Bir yanda gecədir, bir yanda gündüz,
Ziddiyyət içində dünya boğulur.
Bir yan dərə-təpə, bir yan da düm-düz,
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

---

[89] *II variant* Oxudum, yetişdim, kamala doldum,
Məslək, əqidəyə, amala doldum,
Mənəvi nüfuza, sambala doldum,
O təlim-tərbiyə, bu həyat hara?

[90] *II variant* Dedilər ismətli, həyalı olaq,
Məsləkli, vicdanlı, qayəli olaq,
Qədəmi uğurlu, sayəli olaq,
O təlim-tərbiyə, bu həyat hara?

Bir yanda qara var, bir yanda ağ var,
Bir yanda kol-kos var, bir yanda bağ var,
Bir yanda xəstə var, bir yanda sağ var.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Bir yanda yaxşı var, bir yanda pis var,
Bir yanda xeyirxah, bir yanda nəs var,
Bir yanda mülayim, bir yanda tərs var.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Bir yanda gözəl var, bir yanda çirkin,
Bir yanda sadə var, bir yanda xudbin,
Bir yanda kef əhli, bir yanda bədbin.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi qanandır, birisi qanmaz,
Birisi anandır, birisi anmaz,
Birisi danandır, birisi danmaz.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi həlimdir, birisi qəliz,
Birisi ağadır, birisi kəniz,
Birisi düşməndir, birisi əziz.[91]
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi nanəcib, birisi naqis,
Birisi hatəmdir, birisi xəsis,
Birisi qazanır, birisi varis.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

---

[91] Birisi kobuddur, birisi ləziz.

Birisi şöhrətli, biri şöhrətsiz,
Birisi hörmətli, biri hörmətsiz,
Birisi mürvətli, biri mürvətsiz.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi istidir, birisi soyuq,
Birisi xoruzdur, birisi toyuq,
Birisi müqəvva, birisi oyuq.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi əyridir, birisi düzdür,
Birisi dərindir, birisi üzdür,
Birisi kababdır, birisi közdür.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi gec qanır, biri tez qanır,
Biri astar qanır, biri üz qanır,
Birisi işarə, biri göz qanır.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Bir yanda dağ-daş var, bir yanda aran,
Bir yanda günəş var, bir yanda boran,
Bir yan bərəkətli, bir yanda şoran.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi tirmədir, birisi şaldır,
Birisi dəymişdir, birisi kaldır,
Birisi insandır, birisi maldır.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Bir yanda sarı var, bir yanda al var,
Bir yanda zülal var, bir yanda bal var,
Bir yanda nömrə var, bir yanda xal var.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.[92]

Birisi yazırsa, birisi pozur,
Biri də doğrunu tərsinə yozur,
Birisi duymayır, birisi sezir.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Baqidir müdəssil haçandan bəri,
Çəkirlər zəhməti, tökürlər təri,
Görürlər xeyiri, görürlər şəri.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Bir yanda karlı var, bir yanda karsız,
Bir yanda varlı var, bir yanda varsız,
Bir yanda arlı var, bir yanda arsız.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Bir yanda mənfi var, bir yanda naqis,
Bir yanda aqil var, bir yanda nacins,[93]
Bir yanda paxıl var, bir yanda xəbis.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

---

[92] *II variant* Bir yanda çəhrayı, bir yanda aldır,
Bir yanda zülaldır, bir yanda baldır,
Bir yanda nömrədir, bir yanda xaldır.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

[93] Bir yanda əsil var, bir yanda nacins.

Bir yanda sadəlövh, bir yanda bic var,
Bir yanda kamil var, bir yanda gic var,[94]
Bir yanda mehriban, bir yanda öc var.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Bir yanda qoçaq var, bir yanda tənbəl,
Bir yanda xəta var, bir yanda cəncəl,
Biri digərinə olurlar əngəl.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Bir yandan açılır, bir yandan solur,
Bir yandan boşalır, bir yandan dolur,
Biri də fikirə, xəyala dalır.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi ağadır, birisi kölə,
Birisi coddursa, birisi pilə,
Birisi elədir, birisi belə.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi bezdirir, birisi bezir,
Birisi səbr edib, tablaşıb dözür,
Birisi yüyürür, birisi gəzir.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi qəm yeyir, biri kef çəkir,
Birisi itirir, biri nəf çəkir,
Birisi tər tökür, biri müf çəkir.[95]
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

---

[94] Bir yanda aqil var, bir yanda gic var.
[95] Birisi düz gedir, biri səhv çəkir.

Bir yanda zirək var, bir yanda küt var,
Bir yanda bər-bəzək, bir yanda lüt var,
Bir yanda müqəvva, bir yanda büt var.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Bir yanda istidir, bir yanda sərin,
Bir yanda dayazdır, bir yanda dərin,
Bir yanda acıdır, bir yanda şirin.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi sərvaxtdır, birisi yatır,
Birisi alırsa, digəri satır,
Hərə məqsədinə bircürə çatır.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Dünyanın işinə nə demək olar?
Nə yardım eyləmək, nə kömək olar?
Nə düzəltmək olar, nə əymək olar?
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi qal-qovğa, dava xoşlayır,
Zəhərə qarışmış hava xoşlayır,
Sərsəri, kəmağıl, yava xoşlayır.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi tikandır, birisi güldür,
Birisi qarışqa, birisi fildir,
Birisi ayıqdır, birisi lüldür.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi qədəkdir, birisi sətin,
Birisi asandır, birisi çətin,
Birisi çəlimsiz, birisi mətin.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi eşidir, birisi kardır,
Birisi qarovdur, gözləri kordur,
Birisi qızıl gül, birisi xardır.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi həssasdır, birisi keydir,
Birisi aqildir, birisi səydir,
Birisi nökərdir, birisi bəydir.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Biri kamallıdır, biri kamalsız,
Biri amallıdır, biri amalsız,
Biri camallıdır, biri camalsız.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi canidir, birisi nadan,
Birisi təlimdən yarımçıq dadan,[96]
Yolunu-izini tərsinə adan.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi kovxadır, birisi darğa,
Biri şeyda bülbül, birisi qarğa,
Birisi cüllütdür, birisi qırğı.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi ucalır, birisi enir,
Birisi alışır, birisi sönür,
Birisi düz gedir, birisi dönür.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

---

[96] Təlim-tərbiyədən yarımçıq dadan.

Dövrü-zəmanənin budur gərdişi,
Budur ənənəsi, budur vərdişi,
Tab gətirib dözmür buna hər kişi.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Əzəldən belədir sirli kainat,
Cahan daimidir, ömür əmənət,
Mat qalıb bu işə küllü-cəmaət.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi incidir, birisi küsür,
Birisi danışır, birisi susur,
Birisi sinirir, birisi qusur.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Bir yandan dağılıb, sökülüb gedir,
Əyilməz qamətlər bükülüb gedir,
Sinəyə dağ-düyün çəkilib gedir.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Birisi yaradıb, yaşayıb gedir,
Ellərin yükünü daşayıb gedir,
Biri də peysəri qaşayıb gedir.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Bu bəşər haçandan özünə gəlmir,
Yığışıb yoluna-izinə gəlmir,
Dolanbac yerlərdən düzünə gəlmir,
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Nə çoxdu ellərdə qanan, qanmayan,
Yad edib haqq-say anan, anmayan,
Böyüyü-kiçiyi sanan, sanmayan.
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

Belədir bu dünya ay Cəmil Əkbər,
Az fikir eyləynən, çəkmə qəm-kədər,
Ömrünü-gününü çürütmə hədər.[97]
Ziddiyyət içində dünya boğulur,
Birisi məhv olur, biri doğulur.

***Cəmil Əkbər*** 8. 05 – 1993

## 44. NƏ EHTİYAC VAR?

Qüdrət qələmindən payın var sənin,
Ənliyə, kirşana nə ehtiyac var?
Huritək, mələktək tayın var sənin,
Damğaya, nişana nə ehtiyac var? [98]

İnsanam deyənin özü gözəldir,
Baxışı gözəldir, gözü gözəldir,
Söhbəti gözəldir, sözü gözəldir,
Zərə, zərəfşana nə ehtiyac var?[99]

Gözəllər aşiqə dür mədənidir,
Məkkə, Mədinədir, pir mədənidir,
Hələ kəşf olmamış sir mədənidir,
Lələ, Bədəxşana nə ehtiyac var?[100]

---

[97] Çəkmə bu dünyanın dərdini hədər.

[98] *II variant* Qüdrət qələmindən payın var sənin,
Ənliyə, kirşana nə ehtiyac var?
Kamantək qaşların, yayın var sənin,
Bağrımı nişana nə ehtiyac var?

[99] *II variant* İnsan övladının özü gözəldir,
Addımı düz atsa izi gözəldir,
Söhbəti gözəldir, sözü gözəldir,
Zərə, zərəfşana nə ehtiyac var?

[100] *II variant* Vəfalı gözəli dür sanıram mən,
Sərrafın əlində zər sanıram mən,
Hələ kəşf olmamış sir sanıram mən,
Lələn, Bədəxşana nə ehtiyac var?

Sərsərinin, yelbeyinin, ya gicin,
Hiyləgərin, dələduzun, ya bicin,
Həyasızın, ismətsizin, bivecin,
Tayına, tuşuna nə ehtiyac var?

Kosmeta olmasa daha gözəldir,
Daha məlahətli, daha qəşəngdir,
Daha nəşəlidir, daha zərifdir,
Dürə, zərnişana nə ehtiyac var?[101]

Nə lazım səpəsən gül üstə ətir?[102]
Ləçəklər içinə sətirbəsətir, [103]
İnana bilmirəm, sübuta yetir,
Sürməli qaşına nə ehtiyac var?

Nəzərdən düşürsən, gözdən düşürsən,
Könül diyarında izdən düşürsən,
Şeirdən, dastandan, sözdən düşürsən,
Boranlı qışına nə ehtiyac var?[104]

Üzünə baxanda qaralır qanım,
Pozulur əhvalım, üzülür canım,
Aşikar deyirəm, nəüçün danım?[105]
Halı-pərişana ehtiyac nədir?

Hörmətdən, izzətdən düşüb gedirsən,
Baxanı, görəni bezikdirirsən.
Sanmaki özünə hörmət edirsən,
Pislə yarışana nə ehtiyac var?

---

[101] *II variant* Kosmeta olmasa daha gözəldir,
Daha məlahətli, daha qəşəngdir,
Daha ahəstədir, daha zərifdir,
Daşına-qaşına nə ehtiyac var?

[102] Nə lazım gül üstə səpilsin ətir?

[103] Ləçəklər üstünə sətirbəsətir.

[104] *II variant* Yersiz bər-bəzəyin qəlbimə dəyir,
Vurub qamətimi yay kimi əyir,
İnankı heçkəsə verməyir xeyir,
Baharsız qışına nə ehtiyac var?

[105] Nəüçün gizlədim, nəüçün danım?

Sadəcə dolanıb az bəzənməsən,
Deməzlər nəyaman zəhlə tökənsən,
Dünyada ən gözəl varlıq özünsən,
Fərqi yox yaşına nə ehtiyac var?

Yerində deyilmi kamalın sənin?
Vicdanın, məsləyin, amalın sənin?
Könlümü oxşamaz camalın sənin?
Daşına, qaşına nə ehtiyac var?

Xətir-hörmət qoyanmasan elinə.
Qoruq yoxsa, qaytaq yoxsa dilinə,
Nə deyim sənintək qıza, gəlinə?
Hərzə danışana nə ehtiyac var?[106]

Sözlərimi mən yazıram müxtəsər,
Eşitmirsə, anlamırsa dəngəsər,
İluzunu gecə-gündüz sərbəsər,
Küsüb - barışana nə ehtiyac var?[107]

***Cəmil Əkbər*** 1-2. 10 -1980

## 45. İSTƏRƏM

Bəşər övladına, hərbir insana,
Canın sağlığıtək nemət istərəm.
Hamı yetişəydi şərəfə, şana,
Hamıdan hərkəsə hörmət istərəm.

Acgözlər, hərislər uymaya vara,
Salına zindana, çəkilə dara,
Ağa-ağ deyilə, qaraya qara,
Qeyrətsiz kəslərə qeyrət istərəm.

---

[106] *II variant* Xətir-hörmət qoyanmasan elinə,
Abır gərək hər qızlara, gəlinə,
Uymaginən hər yetənin felinə,
Qaşı qırışana nə ehtiyac var?

[107] *II variant* Mən yazıram sözlərimi müxtəsər,
İluzunu gecə-gündüz sərbəsər,
Kim qanmasa deyəcəyəm dəngəsər,
Küsüb - barışana nə ehtiyac var?

Birkimsə olmaya nə adsız, sansız,
Yeməksiz, içməksiz, süfrəsiz nansız,
Vicdansız, məsləksiz, acımasız, qansız,
Qatilə, caniyə mürvət istərəm.

Kaş hamı yetişə haray, imdada,
Dərin iz salaydı qoca dünyada,
İnsanoğlu nahaq getməyə bada,
Zəhər paylayana şərbət istərəm.

İstərdim batmasın heçkəsin haqqı,
Əqidəm, məsləyim, vicdanım haqqı,
Qurban verməyələr nahaqqa haqqı,
Sərraf bazarında qiymət istərəm.

Heçkəs qatarından qalmaya dala,
Gedəydi irəli o bala-bala,
Zəfərlər təblini hey çala-çala,
Cıdır meydanında sürət istərəm.

İstərəm düşməyək xalqın dilindən,
Kəsməsin səsimiz, küyümüz eldən,
Düşməyək taqətdən, düşməyək əldən,
Yorulan qollara qüvvət istərəm.

İnsanam deyənlər olmaya arsız,
Söyüd ağacıtək meyvəsiz, barsız,
Səxasız, kərəmsiz, nə etibarsız,
Abırsız kəslərə ismət istərəm.

Qoçaq mərd oğullar olmaya karsız,
Uca dağ başında dumansız, qarsız,
Gözəllər aşiqsiz, igidlər yarsız,
Dadsıza, duzsuza hikmət istərəm.

Cəmiləm sevmədim müftə tikəni,
Fəhlə becərəni, kəndli əkəni,
Hazırdan tapmaya yağlı kökəni,
Halal zəhmətimdən qismət istərəm.

***Cəmil Əkbər***

## 46. ƏZİZ BAKI

Əziz Bakı, doğma Bakı,
Əsrlərlə yaşa təki.
Bakı mənim ürəyimsən,
Ən müqəddəs diləyimsən,
Yaman gündə gərəyimsən.

Bakı mənim fərəhimsən,
İftixarım, sevincimsən,
Qüvvətimsən, qüdrətimsən,
Şərəfimsən, şöhrətimsən.

Əziz Bakı, doğma Bakı,
Əsrlərlə yaşa təki.
Mədəniyyət mərkəzisən,
İncəsənət mərkəzisən,
Sən ləyaqət mərkəzisən,
Sən sədaqət mərkəzisən,
Sən həqiqət mərkəzisən,
Sən ədalət mərkəzisən,

Əziz Bakı, doğma Bakı,
Əsrlərlə yaşa təki.

***Cəmil Əkbər***

## 47. YENƏMİ?

Yenəmi döyüşdə axsın qanımız?
Sürünsün cəbhədə çıxsın canımız?
Yenəmi yollarda qalsın gözümüz?
Boğulsun ürəkdə solsun gözümüz?

Yenəmi dağılsın şəhərlər, kəndlər?
Yerlərə, göylərə sığmasın dərdlər?
Qulaqlar tutulsun topun səsindən,
Bombanın, mərminin kişnəməsindən.
Yenəmi qırılsın, tökülsün bəşər?
Üz-üzə dursunlar xeyr ilə şər.

Cahanı bürüsün aclıq, səfalət,
Ehtiyac, yoxsulluq, zülm, zəlalət.
Yenəmi çoxalsın dəhşət, fəlakət?
Virana çevrilsin ölkə, məmləkət.
Yenəmi yas tutsun ana-bacılar?
Görsünlər, bilsinlər ağrı acılar.
Yenəmi igidlər getsinlər fəda?
Yayılsın ellərə min qara səda.
Yenəmi çoxalsın topallar, şillər?
Yenəmi gözlərə soxulsun millər?
Ayrılsın igidlər qürbətə düşsün,
Görünməz müsibət zillətə düşsün.
Yenəmi kəsilsin qılçalar, qollar?
Çoxalsın hər yerdə günahsız dullar?
Gözəllər ayrılsın igid yarından,
Sevgi, məhəbbətin ilk nübarından.
Yenəmi cəbhələr işə salınsın?
İgidlər döyüşdə şişə çəkilsin?
Yenəmi, yenəmi davalar olsun?
Zəhərə qarışmış havalar olsun?
Atalar ayrılsın vəfadarından,
Oğullar ayrılsın atalarından.
İnsanlar-insana nifrətlə baxsın,
Qəzəblə, qisasla hiddətlə baxsın.
Nəüçün sulansın dava meydanı?
Korlansın qitəmiz, hava meydanı?
Nəüçün korlansın ünsiyyətimiz?
Pozulsun, dağılsın saf niyyətimiz?
Nəüçün pozulsun sədaqətimiz?
İnsafla kəramət, səxavətimiz.
Nəüçün pozulsun cahcəlalımız?
Çoxalsın hər yerdə dərd-məlalımız?
Nəüçün pozulsun dincliyimiz də?
Gərək qurban gedək gəncliyimizdə?
Nəüçün, nəüçün düşməyək başa?
Nəüçün gəmimiz toxunsun daşa?
Davaya-dalaşa nə ehtiyac var?
Həyəcan, təlaşa nə ehtiyac var?
Bombaya, mərmiyə nə ehtiyac var?

Hücuma, zərbəyə nə ehtiyac var?
Tufan fəlakətə nə ehtiyac var?
Zülüm-zəlalətə nə ehtiyac var?
Sülhə ehtiyac var, kefə ehtiyac,
Qazanca ehtiyac, nəfə ehtiyac.
Yaşamaq istəyir bu bəşər hamı,
Qocalmaq istəyir bu bəşər hamı,
Ucalmaq istəyir bu bəşər hamı.
Zəfərdən bacları almaq istəyir,
Hünərdən tacları almaq istəyir.
Bu bəşər istəyir səadət olsun,
Xoş arzu, xoş dilək, xoş adət olsun.
Bu bəşər istəyir hörmət çoxalsın,
Ar-namus çoxalsın, qeyrət çoxalsın.
Bu bəşər istəyir mürvət çoxalsın,
Var-dövlət çoxalsın, sərvət çoxalsın.
Bu bəşər istəyir ağ günlər görsün,
Azad yaşasınlar, sağ günlər görsün.
Bu bəşər istəyir varlı yaşasın,
Namuslu, qeyrətli, arlı yaşasın.
Xəyanət olmasın haqq-ədalətə,
Bəşər salınmasın qoy cəhalətə.
Bu bəşər istəyir olmasın yalan,
Olmasın dəmtutan, olmasın çalan.
Şahintək şığıyan çalağan, çalan,
Olmasın müftəxor, olmasın alan.
Bu bəşər istəyir ədalət olsun,
Hamıdan-hamıya səxavət olsun.
Olmasın nadanlıq, sarsaqlıq, giclik,
Yaşasın daima, əbədi dinclik.

***Cəmil Əkbər***

## 48. İTMƏSİN

Ulu tanrı kömək eylə bəşərə,
İnsanlığın sədaqəti itməsin.
Yol olmasın müsibətə, mənşərə,
İnsanlığın məhəbbəti itməsin.

İnsanoğlu düz tanısın yerini,
Görə bilsin dayazını, dərini,
Yola versin xeyirini, şərini,
Ədəb-ərkan, mərifəti itməsin.

Bəd əsməsin üstümüzə küləklər,
Qara daşa toxunmasın diləklər,
Qüssə çəkib qəm yeməsin ürəklər,[108]
Odu-közü, hərarəti itməsin.

İnsan gərək hünər ilə ucalsın,
Yaşa dolsun, dünya görsün qocalsın,
Zəhmət çəksin, zəfər çalsın, ucalsın,
Şan-şöhrəti, şərafəti itməsin.

Ucalanlar mövqeyində duralar,
Yaşadalar, yaradalar, quralar,
Dost-tanışı axtaralar, soralar,
Hatəm kimi səxavəti itməsin.

Hamı gərək yolu gedə düzünə,
Fikir verə, nəzər sala izinə,
Duman çöküb, tor gəlməyə gözünə,
İnsanlığın ləyaqəti itməsin.

Hərkəs gərək öz arını gözləsin,
Kamanını, öz tarını gözləsin,
Yoldaşını, öz yarını gözləsin,
Ar-namusu, nə qeyrəti itməsin.

Hamı gərək abır ilə dolansın,
Könüllərdən-könüllərə calansın,
Eşq oduna düçar olsun, qalansın,
İgidlərin məharəti itməsin.

[108] Qırılmasın, qatlanmasın biləklər,

İnsan gərək əmanəti gözləsin,
Hörmət-izzət ənanəti gözləsin,
El-obanı, cəmaəti gözləsin,
İnsaf-mürvət kəraməti itməsin.

Hər yetənlər qoy vurmasın aranı,
Qopartmasın, qanatmasın yaranı,
Loğman kimi dərdə tapsın çaranı,
Ədaləti, həqiqəti itməsin.

Qoy ağ olsun el içində üzümüz,
Danışılsın şirin-şirin sözümüz,
Kor olmasın görə-görə gözümüz,
Məna-məzmun, kəsarəti itməsin.

Qiymət verək ləyaqətə, zəhmətə,
Göstərilən qayğılara, xidmətə,
Məna dolu, məzmun dolu hikmətə,
İgidlərin məharəti itməsin.

***Cəmil Əkbər*** 3. 12 – 1988

## 49. USTAD

*Şeyx Nizami Gəncəviyə xitabən*

Yaşım yetişsədə sən çatan yaşa,
Başım yetişməyib başına ustad.
Çox istədim çıxam sən çıxan döşə,
Döşüm çatışmadı, döşünə ustad.

Nəqədər işlədi sözdən kotanım?
Dərədən, təpədən düzdən kotanım?
Şumladı dayazdan, üzdən kotanım?
Xışım da çatmadı xışına ustad.

Nəqədər yaşayıb qocaldımsada?
Zəfərlər çalaraq bac aldımsada?
Hünərlər göstərib ucaldımsada?
Zirvəm də çatmadı tuşuna ustad.

Nəqədər danışıb şeir dedimsə?
Eşqə, məhəbbətə dair dedimsə?
Xalqıma bir xeyir verim dedimsə?
İşim də çatmadı işinə ustad.

Çalışdım sənintək kamallı olum,
Məsləkli, vicdanlı amallı olum,
Mənəvi aləmdə samballı olum,
Huşum da çatmadı, huşuna ustad.

Çox çalışdım mən də çıxam öncəyə,
Vuraydım səninlə pəncə-pəncəyə,
Yaxşı varis olum qədim Gəncəyə,
Guşim də çatmadı guşinə ustad.

Daima çalışdım, nəqədər yazdım,
Silib qaraladım, pozdum ha pozdum,
Xəyal gəmisində üzdüm ha üzdüm,
Beşim də çatmadı beşinə[109] ustad.

Bahar ayım baharından pis oldu,
Yay ayım da yay ayından nəs oldu,
Payız ayım payızından tərs oldu,
Qışım da çatmadı qışına ustad.

Sən dahi Nizami, mən Cəmil Əkbər,
Sən boyük sərkərdə, mən adi əsgər,
Mən az tanınmışam, sən dildə əzbər,
Peşəm də çatmadı, peşənə ustad.

***Cəmil Əkbər*** 15. 06 – 1992

## 50. ONUNDUR

Kimin varsa kamalının qüdrəti,
Ədalət də, həqiqət də onundur!
Əqidəsi, amalının qüdrəti,
İnsanlıq da, ləyaqət də onundur!

---

[109] Beş dedikdə Nizami Gəncəvinin "Xəmsə"si nəzərdə tutulur.

Kimin varsa bu dünyadan xəbəri?
Ürəyində eşq-həvəsin təpəri?
Ona dəyməz heçkimsənin xətəri,
Pak istək də, məhəbbət də onundur!

Kim alıbsa ustadından dərsini?
Tanıtdırsa nəcabəti, nəslini?
Soyudarsa qəzəbini, hirsini?
Sədaqət də, səxavət də onundur!

Kimin varsa abır, ismət həyası?
Pak anadan, halal süddən mayası?
Kamil olsa tərbiyəsi, dayəsi?
Ədəb-ərkan, mərifət də onundur!

Kim sevərsə vətənini, elini?
Çəmənini, çiçəyini, gülünü?
Boğa bilsə fitnəsini, felini?
İnsaf-mürvət, kəramət də onundur!

Kimin varsa öz xalqına xidməti?
Azdan-çoxdan qayğıları, zəhməti?
Şirin-şəkər, dadlı-duzlu söhbəti?
İnsanlıq da, dəyanət də onundur!

Kimki gəlib ədalətli dolanır?
Doğruluqla, həqiqətlə dolanır?
Könüllərdən-könüllərə calanır?
Şərafət də, şan-şöhrət də onundur!

Kimin varsa billur kimi ürəyi?
Pak olacaq arzuları, diləyi?
Bəd əsərmi qasırğası, küləyi?
Xeyirxahlıq, saf-niyyət də onundur!

Cəmil Əkbər belə bilir gərdişi,
Ənənəni, adətini, vərdişi,
Qoy anlasın, bunu bilsin hər kişi,
Ülviyyət də, qüdsiyyət də onundur!

***Cəmil Əkbər*** 19. 01 – 1989

## 51. TƏMİZLƏ

Nəfsin yaman çamırlıqdı a yazıq,
Get içini, həm çölünü təmizlə.
Üfunətdi, mamırlıqdı a yazıq,
Get löhməni, get lilini təmizlə.[110]

Şər danışıb qarışdırma aranı,
Didişdirib gəl qanatma yaranı,
Əlac eylə tap dərdinə çaranı,
Fitnə-fəsad, get felini təmizlə.[111]

Üfunətin dənizində üzmə gəl,
Müsibətə sinə gərib dözmə gəl,
Sözlərimə dodağını büzmə gəl,
Mamırlanmış get gölünü təmizlə.[112]

Hər yetənə igid demə, nər demə,
İnci demə, zərgər demə, zər demə,
Ona-buna böhtan demə, şər demə,
Söz-söhbəti, get dilini təmizlə.

Beylə getsən ilənərsən bir zaman,
Sümsünərsən, sülənərsən bir zaman,
Qapı-qapı dilənərsən bir zaman,
Zir-zibildən get külünü təmizlə.

---

[110] *II variant*
İçin dolu üfunətdi a yazıq,
Get içini, həm çölünü təmizlə.
Çamırlıqdı, mamırlıqdı a yazıq,
Qəlbindəki get lilini təmizlə.

[111] *II variant*
Şər danışıb qarışdırma aranı,
Sızıldadıb, qövr etdirmə yaranı,
Nə bacarsan eylə dərdə çaranı,
Get fitnəni, get felini təmizlə.

[112] *II variant*
Haq-divandan aralanıb gəzmə sən,
Ondan-bundan qaralanıb, bezmə sən,
Dodağını hər yetənə büzmə sən,
Axmazını, get gölünü təmizlə.

Yeyib-içmə özgələrin malından,
Dəymişindən, sütülündən, kalından,
Şəkərindən, zülalından, balından,
Ayağını, get əlini təmizlə.[113]

Tarlanızda alaqotu bitməsin,
Nə gicitkan, dalaqotu bitməsin,
Tikan, qanqal, ulaqotu bitməsin,
Kol-koslardan get gülünü təmizlə.[114]

Onu-bunu zəhərləmək əbəsdir,
Dərdə salıb, qəhərləmək əbəsdir,
Damğa vurmaq, möhürləmək əbəsdir,
Danışmamış get dlilini təmizlə.

Gəl qoymayaq ədavətlər çoxalsın,
Tüfeylilər, həşəratlar çoxalsın,
Xəta-bəla, xəsarətlər çoxalsın,
Yurd-obanı, get elini təmizlə.[115]

***Cəmil Əkbər*** 31. 08 – 1991

## 52. TƏMİZLİKDƏDİR

Gəl təmiz oturaq, təmiz də duraq,
Hər şeyin hikməti təmizlikdədir.
Yaradaq, yaşadaq, tərtəmiz quraq,
Hər şeyin qiyməti təmizlikdədir.

---

[113] *II variant*
Çək gözünü özgələrin malından,
Dəymişindən, sütülündən, kalından,
Bəhməzindən, zülalından, balından,
Ayağını, get əlini təmizlə.

[114] *II variant*
Alaqotu ürəyində bitməsin,
Arzu-istək, diləyində bitməsin,
Qanadında, lələyində bitməsin,
Kol-koslardan get gülünü təmizlə.

[115] *II variant*
Zəhmət çəkib, bağban olub, bağ becər,
Bostan əkib, şamamalı tağ becər,
Hərnə olsa, gümrah olsun, sağ becər,
Oba-oymaq, get elini təmizlə.

Çıxaq seyrəngaha, tərtəmiz gəzək,
Tərtəmiz düşünək, tərtəmiz sezək,
Dayanıb, səbr edib, tərtəmiz dözək,
Hər şeyin qüdrəti təmizlikdədir.

Təmiz ülfət edək, təmiz barışaq,
Təmiz əhval tutub, təmiz soruşaq,
Dərin fikirləşib, təmiz danışaq,
Hər şeyin ləzzəti təmizlikdədir.

Uzaq yollar gedək, təmiz iz açaq,
Təmiz dil tərpədək, təmiz söz açaq,
Təmiz puçurlayıb, təmiz göz açaq,
Hər şeyin izzəti təmizlikdədir.

Tərtəmiz hiss edək, tərtəmiz duyaq,
Haqqa meyl eyləyib, tərtəmiz uyaq,
Məhv edib günahı, tərtəmiz yuyaq,
Hər şeyin şöhrəti təmizlikdədir.

Dünyaya saf qəlblə, tərtəmiz baxaq,
Tərtəmiz sellənib, tərtəmiz axaq,
Tərtəmiz cücərib, tərtəmiz çıxaq,
Hər şeyin zinəti təmizlikdədir.

Cəmiləm anlayıb, bilirəm bunu,
Baxıram əvvələ, görürəm sonu,
Deyirəm sözümü, salıram ünü,
Hər şeyin urvatı təmizlikdədir.[116]

***Cəmil Əkbər*** 14. 04 – 1986

## 53. İŞLƏMİRSƏ

*I variant*

Nə sözün xoş gələr, nə də söhbətin,
Almağa, verməyə pul işləmirsə.
Nə qədrin bilinər, nə də qiymətin,
Hədiyyən, sovqatın bol işləmirsə.[117]

[116] *II variant* Cəmiləm anlayıb, deyirəm bunu,
Baxıram əvvələ, görürəm sonu,
Eşidin sözümü, salıram ünü,
Hər şeyin urvatı təmizlikdədir.

Gözlərə görünməz sədaqətin də,
Haqqın, ədalətin, həqiqətin də,
İnsafın, mürvətin, kəramətin də,
Ciblərdən-ciblərə yol işləmirsə.[118]

Sən yaxşı olsan da pis deyəcəklər,
Bədxah deyəcəklər, nəs deyəcəklər,
Höcət deyəcəklər, tərs deyəcəklər,
Arada-bərədə pul işləmirsə.

Ümid olma, səni başa çəkələr,
Vəzifəyə, ya da işə çəkələr,
Süfrələrə, yağlı aşa çəkələr,
Ashaas, kəshakəs, al işləmirsə.[119]

Nəzərdən düşərsən, gözdən düşərsən,
Astardan qoparsan, üzdən düşərsən,
Könüldən silinib, izdən düşərsən,
Paypüşün içində bal işləmirsə.

Baxan kimdi dərrakəyə, kamala?
Vicdan, məslək, əqidəyə, amala?
Görkəminə, yöndəminə, camala?
Arxanda durmursa, el işləmirsə.

Gəl özünü sən salmaynan tünlüyə,
Qiymət yoxdu ləyaqətə, mənliyə,
Nə elinə, nə obana, şenliyə,
Tirmə, qumaş, qədək, şal işləmirsə.[120]

---

[117] *II variant* Nə sözün xoş gələr, nə də söhbətin,
Mehriban, səmimi dil işləmirsə.
Nə qədrin bilinər, nə də qiymətin,
Əllərin, ayağın bil işləmirsə.

[118] *II variant* Gözlərə görünməz sədaqətin də,
Doğruluq, düzlüyün, həqiqətin də,
İnsanlıq naminə ləyaqətin də,
Hədiyyən, sovqatın, bol işləmirsə.

[119] *II variant* Ümid olma, səni başa çəkələr,
Yağlı vəzifəyə, işə çəkələr,
Yeməyə, içməyə, aşa çəkələr,
Ciblərdən-ciblərə yol işləmirsə.

Kimdi səni insan kimi tanıyan?
Bərkdə-boşda, imtahanda sınıyan?
Məzəmmət eyləyən, ya da qınıyan?
Nömrən görünmürsə, xal işləmirsə.[121]

Nə işin görünər, nə keyfiyyətin,
Nə mənan bilinər, nə məziyyətin,
İtəcək, batacaq hər əziyyətin,
Qapıdan, bacadan əl işləmirsə.

Nə arzun duyular, nə də niyyətin,
Nə ədəb-ərkanın, nə mərifətin,
Nə dözüm, nə durum, nə qətiyyətin,
Kələyin, bicliyin, bil işləmirsə.

Tanınmaz ad-sanın, nə də ünvanın,
Alınıb satılmaz gövhəri-kanın,
Hicran pəncəsində üzülər canın,
Özünə dərd etmə gül, işləmirsə.

Ünsiyyət belədir bil bu cahanda,
Bizim zəmanədə, bizim məkanda,
Bizim bazarlarda, bizim dükanda,
Sərrafın ölübsə, ləl işləmirsə.

Kimdi duyan dərrakəni, ürəyi?
Nəcib, zərif arzuları, diləyi?[122]
Kim qazanıb sənə verər çörəyi?
Məjgəlin, hodağın, kəl işləmirsə.[123]

---

[120] *II variant* Qiymət yoxdur ləyaqətə, mənliyə,
El-obaya, yurd-yuvaya, şənliyə,
Əbəs yerdən gəl girməynən tünlüyə,
Arın gətirmirsə, bal işləmirsə.

[121] *II variant* Nə işin görünər, nə keyfiyyətin?
Nə mənan bilinər, nə məziyyətin?
İtər aralıqda hər əziyyətin?
Nömrən tutmayıbsa, xal işləmirsə.

[122] Nəcib arzu-istəkləri, diləyi.

[123] Kotanın, dırmığın, kəl işləmirsə.

Var yoxsa, dünyada yaşamaq ardır,
Kainat başına ay yazıq dardır.
Niyə eşitmirsən, qulağın kardır?
Xırmanın üstündə vəl işləmirsə.[124]

Nə ad-san bilinər, nə şərafətin,
Nə fəhmin bilinər, nə fərasətin,
Nə hünər bilinər, nə məharətin,
Qazancın, gəlirin bol işləmirsə,
Unutma, yadına sal işləmirsə.

***Cəmil Əkbər*** 22.08 – 1980

## 54. İŞLƏMİRSƏ

*II variant*

Nə sözün xoş gələr, nə də söhbətin,
Sovqatın tükənib bil işləmirsə.
Nə qədrin bilinər, nə də qiymətin,
Sərraf bazarında ləl işləmirsə.

Gözlərə görünməz ləyaqətin də,
Dözümün, durumun, dəyanətin də,
Haqqın, həqiqətin, ədalətin də,
Doğruluq naminə yol işləmirsə.

Kimdiki ay yazıq üzünə baxan?
Susuz səhralara sellənib axan,
Ağrıdıb qəlbini, könlünü sıxan,
Ciblərdən-ciblərə pul işləmirsə.[125]

---

[124] *II variant*

Zəhmətsiz, xidmətsiz yaşamaq ardır,
Ay yazıq kainat başına dardır,
Yoxsa eşitmirsən, qulağın kardır?
Xırman işləmirsə, vəl işləmirsə.

[125] *II variant*

Kimdi baxan ləyaqətə, mənliyə,
Almamışdan, verməmişdən sənliyə,
Getməmişdən, gəlməmişdən şenliyə,
Görhagör, verhaver, al işləmirsə.

Nəzərdən, diqqətdən, gözdən düşərsən,
Yolaqdan çıxarsan, izdən düşərsən,
Gün çeşdə qalxmamış tezdən düşərsən,
Verhaver, görhagör, al işləmirsə.

Baxan yoxdu dərrakəyə, kamala,
Vicdan, məslək, əqidəyə, amala,
Nə görkəmə, nə yöndəmə, camala,
Arxanda dayanıb el işləmirsə.[126]

Çox aldanma, çox inanma mənliyə,
Kef-damağa, cah-calala, şənliyə,
Əbəs yerə başın soxma tünlüyə,
Arın gətirmirsə, bal işləmirsə.

Kimdi səni el içində tanıyan?
İş başında bərkdə-boşda sınıyan,
Yada salan, xatırlayan, unayan,
Tirmən geyilmirsə, şal işləmirsə.

Yaddaşdan silinib, gözdən düşərsən,
Yolaqdan, cığırdan, izdən düşərsən,
Çox keçməz zamanın, tezdən düşərsən,
Nömrən işləmirsə, xal işləmirsə.

Alhaalın, verhaverin olmasa,
Gəlhagəlin, görhagörün olmasa,
Sabınlanıb girhagirin olmasa,
Biryolluq yaşama, öl işləmirsə.

Son qoyulmaz bu dünyada tamaha,
Qəbahətə, nöqsanlara, günaha,
Qəm-qüssəyə, nalələrə, nə aha,
Üsyanlar törəyib, "qal" işləmirsə.

---

[126] *II variant*

Heç baxan yox dərrakəyə, kamala,
Vicdan, məslək, əqidəyə, amala,
Mənəvi varlığa, gözəl camala,
Dəstində tutduğun gül işləmirsə.

Tanınmaz ad-sanın, ünvanın sənin,
Alınıb satılmaz gövhəri-kanın,
Hicran pəncəsində üzülər canın,
Sərraf bazarında ləl işləmirsə.

Ünsiyyət belədir bil bu cahanda,
Bizim məmləkətdə, bizim məkanda,
Bizim çarşı-bazar, bizim dükanda,
Fitnən işləmirsə, fel işləmirsə.[127]

Heçkəsdən özünə hörmət gözləmə,
Sədaqət, səxavət mürvət gözləmə,
Nə abır, nə həya, ismət gözləmə,
Öküzün yorulub, kəl işləmirsə.

Ey Cəmil, sözünü bəyənmir hamı,
Çeynəyib udanmır, yeyənmir hamı,
Məna çuxasını geyənmir hamı,
Xəyal aləmində val işləmirsə.

***Cəmil Əkbər*** 2. 10 – 1980

## 55. QAYĞILI GÜNLƏRİM

Eləki başladı qayğılı günüm,
Fikirli-zikirli sayqılı günüm.
O zaman anlayıb qandım deyəsən,
Böyüyü-kiçiyi sandım deyəsən,
Xətiri-hörməti andım deyəsən,
Düşüb eşq oduna yandım deyəsən.
Çəkdim zəhmətimi, tərimi tökdüm,
İnci-sədəfimi, zərimi tökdüm.
Halaldan neməti, qisməti qandım,

[127] *II variant* Ünsiyyət belədir bizim cahanda,
Əzəli-axırı bütün məkanda,
Bizim bazarlarda, bizim dükanda,
Xırmanın üstündə vəl işləmirsə.

Yardımı, nicatı, nüsrəti qandım.
Qayğılı günlərim mənə qur dedi,
Yatma qəflətlərdə oyan, dur dedi.
Çalışıb özünü biraz yor dedi,
Axtarıb, arayıb biraz sor dedi.
O günlər ilhama, çoşa gəlmişəm,
Kamala yetişib, başa gəlmişəm.
Yolumu göstərdi əzəl günümdən,[128]
Gənclik çağlarımdan gözəl günümdən.
Qayğılı günlərdir yoldaşım mənim,[129]
Həmkarım, həmdəmim, sirdaşım mənim.
O günlər mənimlə oturdu, durdu,
Mənimlə yaratdı, mənimlə qurdu.
Mənimlə hərləndi, mənimlə gəzdi,
Mənimlə düşündü, mənimlə sezdi,[130]
Mənimlə incidi, mənimlə bezdi,
Mənimlə tablaşdı, dayandı, dözdü.
O günlər içində qocalmışam mən,
Yıxılıb qalxmışam, ucalmışam mən,
Zəfərlər çalaraq bac almışam mən,
Hünərlər göstərib, tac almışam mən.
Qayğılı günlərlə sevinmişəm də,
İşimlə-gücümlə öyünmüşəm də.
Həyat məktəbində mənə dərs dedi,
Yersiz danışdıqca mənə kəs, dedi.
O gündən almışam səadətimi,
Gözəl ənənəmi, xoş adətimi.
Mehri-ülfətimi, fəzilətimi,
Ünsiyyət məqamı, nəzakətimi.
O gündən almışam dəyanətimi,
İnsanlıq naminə ləyaqətimi.
Doğruluq-düzlüyü, həqiqətimi,
İnsafı-mürvəti kəramətimi.
Dözümü-durumu, mətanətimi,
Yenilmək bilməyən qətiyyətimi.

---

128 Odur yolgöstərən əzəl günümdən.
129 Odur ən vəfalı yoldaşım mənim.
130 Düşündü, dərk etdi, mənimlə sezdi.

Əhdimi, andımı sədaqətimi,
Saf arzu-istəyi, pak niyyətimi.
Eşqimi, həvəsi, məhəbbəti də,[131]
Şanı-şöhrəti də, şərafəti də,
Ətiri-gülüstan, təravəti də,
İncəlik, zəriflik, lətafəti də.
Almışam fəhmi, fərasəti də,
Qocaqlıq, zirəklik, cəsarəti də.
Odu da, közü də, hərarəti də,
Bilik-bacarığı, məharəti də.
İdrakı, zəkamı, kamalımı da,
Əqidə, məsləyi, amalımı da.
Kimki görməyibsə qayğılı günü?[132]
Fikirli, zikirli, sayqılı günü?[133]
Nəqədər böyüdü başa gəlmədi,
Kəlməsi, cümləsi xoşa gəlmədi.
Ha peyvənd vuruldu bitişənmədi,
Ömürlük kal qaldı, yetişənmədi.
Yüyürüb yortsa da dallarda qaldı,
Düşüb biyabana, kollarda qaldı.
Ellərdən, obadan aldı nifrəti,
Aldı küdurəti, aldı hiddəti.
O günlər saatlar mənə döz dedi,
Qəvvas ol ümmanda, mənə üz dedi.
Mənə düşün dedi, nənə sez dedi,
Mənə doğru dedi, mənə düz dedi.
Qayğılı günlərim məni-mən etdi,
Məni gümrah etdi, məni şən etdi.
O gözəl günlərim yenə gələydi,
Səs verib səsimə, ünə gələydi.

***Cəmil Əkbər*** 22. 02 – 1995

---

[131] Ülvi istəyi də, məhəbbəti də,
[132] Kimlər düşməyibsə qayğılı günə,
[133] Fikirli, zikirli, sayqılı günə.

## 56. ADAM DA VƏTƏNİ QOYUB QAÇARMI?

Nə deyim, danışım didərginlərə,
Adam da Vətəni qoyub qaçarmı?
Taleyi bəd gələn o bədbinlərə,
Adam da Vətəni qoyub qaçarmı?

Vətən dedikləri anamız olub,
Əzəl bünövrəmiz, binamız olub,
Şövkətimiz olub, şanamız olub,
Adam da Vətəni qoyub qaçarmı?

Qaçqınlıq damğadır, ləkədir bizə,
Yumaqla, silməklə ləkədir üzə,
Çox ağır bir yükdür, möhnətdir bizə,
Adam da Vətəni qoyub qaçarmı?

İgidlər adına ləkə yaraşmaz,
Qorxu-ülkü, nə səksəkə yaraşmaz,
Nə vahimə, nə təhlükə yaraşmaz,
Adam da Vətəni qoyub qaçarmı?

Buki başdan-başa xəyanətdi ki?
Kindi, küdurətdi, ədavətdi ki?
Gileydi, güzardı, şikyətdi ki?
Adam da Vətəni qoyub qaçarmı?

Vətənə xəyanət sizə yaraşmaz,
Nəinki tək sizə, bizə yaraşmaz,
Mərd igid oğula, qıza yaraşmaz,
Adam da Vətəni qoyub qaçarmı?

Deyib-danışmağa sözüm qalmayıb,
Tükənib taqətim, dözüm qalmayıb,
Ellərə çıxmağa üzüm qalmayıb,
Adam da Vətəni qoyub qaçarmı?

Necə dözürsünüz bu məzəmmətə?
Bu cür əzablara, bu məşəqqətə?
Vətən xainləri gəlsin lənətə,
Adam da Vətəni qoyub qaçarmı?

Qəlbimi ağrıdır qeyrəti-kəmlər,
Şərafəti kəmlər, şöhrəti-kəmlər,
Cəsarəti kəmlər, cürəti-kəmlər,
Adam da Vətəni qoyub qaçarmı?

Oyansa babalar nə deyərdiniz?
Papaq əvəzinə nə geyərdiniz?
Kimi tərifləyib, siz öyərdiniz?
Adam da Vətəni qoyub qaçarmı?

Mərd igid bu dərdə dözə bilərmi?
Vüqarla dolaşıb gəzə bilərmi?
Günü şən keçirib, məzə bilərmi?
Adam da Vətəni qoyub qaçarmı?

Qaçqınlıq adıyla öyünən kimdir?
Baxıb "hünərinə" söyünən kimdir?
Ürəyi "qürurla" döyünən kimdir?
Adam da Vətəni qoyub qaçarmı?

Nə deyəsən torpağını satana,
Şər iş tutub, aralığı qatana,
Evlər yıxıb, günahlara batana,
Adam da Vətəni qoyub qaçarmı?

Vətən xainləri xar olasıdır,
Adı bədnam olub, car olasıdır,
Gen dünya başına dar olasıdır,
Adam da Vətəni qoyub qaçarmı?

Harada qalıbdır Vətən qeyrəti?
Vətən şərafəti, Vətən şöhrəti,
Vətənin sərvəti, Vətən neməti,
Adam da Vətəni qoyub qaçarmı?

Bilmirəm danışım, nə deyim sizə?
Mərhəmət eyləyim, ya söyüm sizə?
Qayğımı göstərim, ya döyüm sizi?
Adam da Vətəni qoyub qaçarmı?

De səni nə təhər vətəndaş sayaq?
Dar günlərdə dayaq, arkadaş sayaq?
Həmkarım, həmdəmim, ya yoldaş sayaq?
Adam da Vətəni qoyub qaçarmı?

Vətəndən aralı nə gün görürsüz?
Nə səs eşidirsiz, nə ün görürsüz?
Nə taxıl əkirsiz, nə dən görürsüz?
Adam da Vətəni qoyub qaçarmı?

Qaçan zaman dağlar sənə nə dedi?
Çəmən, çiçək, bağlar sənə nə dedi?
Şamamalar, tağlar sənə nə dedi?
Adam da Vətəni qoyub qaçarmı? [134]

Arxanca nə dedi dərmanbulaqlar?
Xəstələr təbibi, loğmanbulaqlar?
Bir deyil, beş deyil, ormanbulaqlar?
Adam da Vətəni qoyub qaçarmı?

Nə dedi dalınca gəzdiyin yerlər?
Eniş-yoxuşuna dözdüyün yerlər?
Əlini çəkdiyin, üzdüyün yerlər?
Adam da Vətəni qoyub qaçarmı?

Nə dedi, danışdı Laçın qayası?
Dedimi: qaldımı üzün həyası?
Niyə əzmədiniz dığa hayesi?
Adam da Vətəni qoyub qaçarmı?

Nə dedi ardınca o dağ, o dərə?
Döngələr, dönüşlər, bərəlgə, bərə?
Aləmi mat qoyan gözəl mənzərə,
Adam da Vətəni qoyub qaçarmı?

---

[134] *II variant* Eldən qaçan zaman dağlar nə dedi?
Çəmənlər, çiçəklər, bağlar nə dedi?
Şamama yetirən, tağlar nə dedi?
Adam da Vətəni qoyub qaçarmı?

Sən qaçan zamanı baban nə dedi?
Elin, oban, yurdun, yuvan nə dedi?
Zəhmətlə tikdiyin soban nə dedi?
Adam da Vətəni qoyub qaçarmı?

Nə dedi, danışdı həyat yoldaşın?
Həmkarın, həmdəmin, yaxın sirdaşın?
Nədən tutulmadı qabağın, qaşın?
Adam da Vətəni qoyub qaçarmı?

Ev-eşik nə dedi qaçan zamanda?
Qanadsız quş kimi, uçan zamanda?
Əlvida eyləyib köçən zamanda?
Adam da Vətəni qoyub qaçarmı?

Namus baxıb, qeyrət baxıb nə dedi?
Şərəf baxıb, şöhrət baxıb nə dedi?
Bəs cəsarət, cürət baxıb nə dedi?
Adam da Vətəni qoyub qaçarmı?

Arxanca nə dedi meşələr, göllər,
Dingələr, keçidlər, yolaqlar, yollar,
İşə salınmadı qılınclar, qollar,
Adam da Vətəni qoyub qaçarmı?

Əliklər boylanıb nə dedi sənə?
Qayada kəkliklər nə dedi sənə?
Şahinlər, tülkülər nə dedi sənə?
Adam da Vətəni qoyub qaçarmı?

Baxanlar, görənlər qınamadımı?
Vəfasız, ilqarsız tanımadımı?
Dar ayaq, məqamda sınamadımı?
Adam da Vətəni qoyub qaçarmı?

Bu dərd qocaldıbdı Cəmil Əkbəri,
Dost-tanış didərgin olandan bəri,
Sıxılır ürəyi, tökülür təri,
Adam da vətəni qoyub qaçarmı?

***Cəmil Əkbər*** 14. 02 -1995

## 57. GÖRMÜR

Sahibi-zəmanə görəsən hanı?
Yolunu-izini azanı görmür.
Korlanmır əsəbi, qaralmır qanı?
Ayaqlar altından qazanı görmür.

Nəzərə almayır elmi, biliyi,
Zədələnib onurğası, iliyi,
Tüğyan edir hiylə, məkr, kələyi,
Ülfət-ünsiyyəti pozanı görmür.

Gözü qarov olub, yoxsa kor olub?
Eşitmir qulağı, yoxsa kar olub?
El içində gözdən düşüb xar olub,
Doğrunu əyriyə yozanı görmür.

Hərkəsə göstərib yerini demir,
Xeyirini demir, şərini demir,
Dayazını görmür, dərini demir,
Düşünüb dərk edən, yazanı görmür.

Nəzərə almayır dini-imanı,
Çəkilmir başından çisgə-dumanı,
Gəlməyir kimsəyə yoxsa gümanı?
Xətanı, bəlanı qəzanı görmür.

Hamını buraxıb başlı-başına,
Hərciмərclik yaman gəlir xoşuna,
Zəhər qatır dələduzun aşına,
Kimsəyə vurmağa cəzanı görmür.

Yeyiblər, içiblər, harınlaşıblar,
Peysər bağlayıblar, qarınlaşıblar,
Əl-ələ verərək tarımlaşıblar,
Nə yeri, nə göyü, fəzanı görmür.

Qəflətdə yatıbdır sahibi-zaman,
Çıxarıb qərarı düz vermir fərman,
Tapmayır xəstəyə şəfalı dərman,
Əziləni görmür, əzəni görmür.

Verməyir yaxşıya, pisə qiyməti,
Xainə, xəbisə, nəsə qiyməti,
Qızıla, gümüşə, misə qiyməti,
Möhübləri görmür, düzəni görmür.

Asanlar asırlar, kəsənlər kəsir,
İnciyən inciyir, küsənlər küsür,
Danışan danışır, susanlar susur,
Bezdirəni görmür, bezəni görmür.

Dövran belə keçir haçandan bəri,
Göstərmir xidməti, tökməyir təri,
İnsanlıq elmindən yoxdur xəbəri,
Dözdürəni görmür, dözəni görmür.[135]

Bəşərin qanını soran çoxalıb,
Töküb zəhləsini yoran çoxalıb,
Bığını şeşəldib buran çoxalıb,
Avarə dolanıb gəzəni görmür.

Ay Cəmil dünyada qananlar da var,
Axtarıb-arayıb ananlar da var,
Alovsuz, ocaqsız yananlar da var,
Canını haq yolda üzəni görmür.

***Cəmil Əkbər*** 16. 09 - 1991

## 58. BU DƏRD

*Prof. Qoşqar Əhmədlinin vəfatı ilə*

Nəqədər bədxəbər, nəqədər kədər,
Ağrıtdı qəlbimin başını bu dərd.
Bu itki ağrısı qəlbimi didər,
Tökdü gözlərimin yaşını bu dərd.

---

[135] *II variant*
Dövran belə olub haçandan bəri,
Göstərib xidməti, tökməyir təri,
İnsanlıq elmindən yox bir xəbəri,
Dözdürəni görmür, dözəni görmür.

Köçdü elimizin mayağı Qoşqar,
Dar gündə köməyi, dayağı Qoşqar,
Alimlər dəsinin oyağı Qoşqar,
Gətirdi qəlbimin qışını bu dərd.

Əydi vüqarımı bu kədər, bu qəm,
Köçdü dünyamızdan ən yaxın həmdəm,
Qövr edib bu dərddən alışdı sinəm,
Qısaltdı dostların yaşını bu dərd.

Sarsıtdı dostların cəm xəyalını,
Pozdu növrağını, cah-calalını,
Artırdı hamının dərd-məlalını,
İtirdi əqlini, huşunu bu dərd.

Elimi, obamı Qoşqarsız qoydu,
Əyib qamətimi, vüqarsız qoydu,
Dözümsüz, durumsuz, tutarsız qoydu,
Sındırdı məhəbbət daşını bu dərd.

Çəkdi sinələrə düyünlər, dağlar,
Bacılar başına qaralar bağlar,
Qohumlar yas tutub illərlə ağlar,
Pozdu bir ordunu, qoşunu bu dərd.

Gördümki əlac yox, müşgülü-halam,
Qəlbimi göynədir fəqanım, naləm,
Ağladı el-oba, ağladı aləm,[136]
İtirdi sərimi, guşimi bu dərd.

Yanıb-yaxılmasın qardaş, bacılar,
Dözmək çətindirsə, nə əlacı var?
Bu bəşər çox görüb belə acılar,
Ağardar çoxunun başını bu dərd.

Əsl insan el içində ad alar,
Əməlindən qidalanar, dad alar,
Ürəyindən çınqı düşər, od alar,
İnlətdi Cəmilin döşünü bu dərd.[137]

***Cəmil Əkbər*** 10. 12 -1975

---

[136] Ağladı el-oba, ağladı aləm.
[137] Deşər Cəmilin də döşünü bu dərd.

## 59. AĞLADIM

Şair Cabir, o nə sözdür yazmısan?
Sətir-sətir oxuduqca ağladım.
Nə ocaqdır, o nə közdür yanmısan?
Tüstüsünü qoxuduqca ağladım.

Nə zülümdü, nə yaradı almısan?
Nə fikirdi, nə xəyaldı dalmısan?
Bu nə kaman kökləmisən, çalmısan?
Əriş-arğac toxuduqca ağladım.

Sənin dərdin mənim oldu əzizim,
Qəm-kədərin mənim oldu əzizim,
Acı nalən mənim oldu əzizim,
Xəyallara qərq olduqca ağladım.

Sənə gələn mənə gəldi eləbil,
Səsə gəldi, ünə gəldi eləbil,
Dağlar başı çənə gəldi eləbil,
Hiss eyləyib, mən duyduqca ağladım.[138]

Qərq olmuşam kədərinin gölünə,
Tüğyan edən daşqınına, selinə,
Tufanına, sazağına, yelinə,
Qəm suyunda yuyunduqca ağladım.[139]

---

[138] *II variant* Sənə gələn mənə gəldi eləbil,
Səsə düşdü, ünə gəldi eləbil,
Dağ başına duman gəldi eləbil,
Hiss etdikcə, mən duyduqca ağladım.

[139] *II variant* Qərq olmuşam kədərinin gölünə,
Tufanına, sazağına, yelinə,
Tüğyan edən daşqınına, selinə,
Okivarsa yuyunduqca ağladım.

Bir anlığa eləbildim mən sənəm,
Kədərinə dözənmədi bu sinəm,
Elə sandım xırmanında bir dənəm,
Ələndikcə, üyündükcə ağladım.[140]

***Cəmil Əkbər*** 29. 01 -1989

## 60. A CABİR!

Nəqədər yazırsa qoy yazsın qardaş,
Hər yazanın öz xətti var a Cabir!
Nəqədər cızırsa, qoy cızsın qardaş,
Hər cızanın niyyəti var a Cabir!

Nəqədər yazırsa, gəlin oxuyaq,
Ətirini hər nə varsa qoxuyaq,
Xəyalların çələngini toxuyaq,
Hər yazanın xidməti var a Cabir!

Hər sözün-söhbətin bir mənası var,
Özünün aləmi, öz dünyası var,
Özünün fikiri, öz xülyası var,
Hərbir sözün hikməti var a Cabir!

Yazanlara siz hücuma keçməyin,
Kərəntəylə zəmi kimi biçməyin,
Hər bulağın gözyaşından içməyin,
Hər şairin diqqəti var a Cabir!

Hamı istər elə layiq söz desin.
Hər nə desə doğru desin, düz desin,
Qəlb evinə alov qoyan köz desin,
Hər ürəyin riqqəti var a Cabir!

---

[140] *II variant*

Bir anlığa eləbildim mən sənəm,
Sən sədasan, mənsə qopan bir ünəm,
Sən xırmansan, mən ələnən bir dənəm,
Dəyirmanda üyündükcə ağladım.

Çiçəklər də, birbirindən fərqlənir,
Düyçəklər də birbirindən fərqlənir,
Göyçəklər də birbirindən fərqlənir,
Hərəsinin zinəti var a Cabir!

Bu dünyanın yaxşısı var, pisi var,
Xeyirxahı, bədxahı var, nəsi var,
Qızılı var, gümüşü var, misi var,
Hər dəyərin qiyməti var a Cabir!

Bu cahan mülkündə hamı bir deyil,
Hamı mömin deyil, hamı pir deyil,
Yaxşı-yaman bu agahdır, sir deyil,
Hər şairin hörməti var a Cabir!

***Cəmil Əkbər*** 30. 09 – 1989

## 61. ÇOX SAĞOL

Aldım məktubunu ay Osman qağa,
Fəhmlisən, diqqətlisən çox sağol.
Eləbil qəlbimi döndərdin dağa,
Xətirlisən, hörmətlisən çox sağol.

Çoxunda göz hanı, görə-götürə?
Deməyə söz hanı, deyib yetirə?
Əl hanı, calaya, əkib-bitirə?
Qüvvətlisən qüdrətlisən çox sağol.

Görünür sənin də qəlbin təmizdir,
O səbəbdən mənə doğma, əzizdir,
Vətənə, xalqına quldur, kənizdir,
İnsaflısan, mürvətlisən çox sağol.

Sözlərindən gəlir eğqin sədası,
Yoxdur onun lovğalığı, ədası,
Mərdlərə dəyməsin namərd xətası,
Məhəbbətli, riqqətlisən çox sağol.

Xətirlisən ariflərin yanında,
Alimlərin, maariflərin yanında,
Dünyagörmüş sərrafların yanında,
Dəyərlisən, qiymətlisən çox sağol.

Sözlərindən kamallısan görünür,
Əqidəli, amallısan görünür,
Pak, müqəddəs camallısan görünür,
Məzmunlusan, hikmətlisən çox sağol.

Vicdanın, məsləyin təmizdir, ağdır,
Fikirin, düşüncən dərindir sağdır,
Qəlbin firavandır, damağın çağdır,
Nəcib arzu, niyyətlisən çox sağol.

Cəmil Əkbər sənə qardaş deyəcək,
Sənə tay-tuş, sənə çağdaş deyəcək,
Sənə həmkar, sənə yoldaş deyəcək,
Abırlısan, ismətlisən çox sağol.

***Cəmil Əkbər***

## 62. SAXTADIR

Qınamıram, qınamıram səni mən,
Əslin - kökün, nəcabətin saxtadır.
Bərkdə-boşda sınamıram səni mən,
Sədaqətin, səxavətin saxtadır.

Xainliklə gözələnib ürəyin,
Ha çalxansa durulanmaz diləyin,
Kəsə bilməz işlətdiyin kələyin,
Şan-şöhrətin, şərafətin saxtadır.

Çıxan deyil ocağının istisi,
Kor eyləyir çox gözləri tüstüsü,
Sağalmazsan ay illərin xəstəsi,
Ədəb-ərkan, nəzakətin saxtadır.

Artist kimi bəzəyirsən üzünü,
Rəndələyib düzəldirsən sözünü,
Ellər görür astarını, üzünü,
Ülvi-istək, məhəbbətin saxtadır.

Qansızlıqda Yezidlərin tayısan,
Eləbilki meşədəki ayısan,
Naxələfə, nadürüstə dayısan,
İnsaf-mürvət, kəramətin saxtadır.

Neyləyəkki xəlq eyləyib Yaradan?
Çıxmalısan tezi-geci aradan,
Getməlisən cərgəmizdən, sıradan,
Ehtiramın, mərhəmətin saxtadır.

Elə-belə nə gülürsən üzümə,
Qılınclayıb daş düzürsən izimə,
Səni görüb gələnmirəm özümə,
Xeyirxahlıq, fəzilətin saxtadır.

Bəyan edib bildirmirəm adını,
Sevindirib güldürmürəm yadını,
Fələk özü qoy söndürsün odunu,
Odun-közün, hərarətin saxtadır.

***Cəmil Əkbər*** 13. 01 – 1996

## 63. SAXTADIR!

Bu millətin əziz dostum yaxşı bil,
Mollası da, qazısı da saxtadır!
Agah olub gözlərini yaxşı sil,
Əlifbası, yazısı da saxtadır!

Özgənindir əynindəki çiti də,
Maşınında səs-küy salan fiti də.
Qapısında saxladığı iti də,
Tulası da, tazısı da saxtadır!

Dədə-baba adətini bilməyir,
Ənənəsi xasyətini bilməyir,
İş-gücünü, sənətini bilməyir,
Qardaşı da, bacısı da saxtadır!

***Cəmil Əkbər***

## 64. SAXTADIR

*I variant*

Nə deyim ki, sözlərimi qanasan?
Zəhmətin də, xidmətin də saxtadır.
Əyiləsən, qatlanasan, sınasan?
Nəzərin də, diqqətin də, saxtadır.[141]

Ürəyində məhəbbətdən əsər yox,
Sədaqətdən, səxavətdən əsər yox,
İnsanlıqdan, ləyaqətdən əsər yox,
İnsafın da, mürvətin də saxtadır.

Hər yetənə yaltaqlanmaq peşəndir,
Təlxəklənmək, şıltaqlanmaq peşəndir,
Arsızlanmaq, sırtıqlanmaq peşəndir,
Hörmətin də, izzətin də saxtadır.

Fikirin, xəyalın sözün də yalan,
Cığırın, çəhlimin, izin də yalan,
Oğul övladın da, qızın da yalan,
İstəyin də, riqqətin də saxtadır.

Kirimək nə lazım, danmaq nə lazım?
Alışmaq nə lazım, yanmaq nə lazım?
Axtarıb yad etmək, anmaq nə lazım?
Şərəfin də, şöhrətin də saxtadır.

Düz qiymət vermirsən, hikmət əhlinə,
Kəramət əhlinə, mürvət əhlinə,
Ar-namus əhlinə, qeyrət əhlinə,
Diləyin də, niyyətin də saxtadır.

Meylini salmısan haram tikəyə,
Yuğurub yapmamış, yağlı kökəyə,
Nəyaman möhtacsan yoğun kötəyə,
Məzmunun da, hikmətin də saxtadır.

---

[141] *II variant*

Nə deyimki düşünəsən, qanasan?
Xidmətin də, zəhmətin də, saxtadır.
Əyiləsən, qatlanasan, sınasan?
Nəzərin də, diqqətin də, saxtadır.

Üzündə gözündə həya görünmür,
Ey süddən tutulan mayə görünmür,
Əqidə görünmür, qayə görünmür,
Abırın da, ismətin də saxtadır.

Xaliqin işinə nə demək olar?
Nə yardım eyləmək, nə kömək olar?
Nə çeynəmək olar, nə yemək olar?
Taleyin də, qismətin də saxtadır.

Ona-buna yaltaqlığı bilirsən,
Təlxəkliyi, şıltaqlığı bilirsən,
Arsızlığı, sırtıqlığı bilirsən,
Vücudun da, xislətin də saxtadır.

Gözlərimdən yayınandöy gözlərin,
Diqqətimdən yayınandöy sözlərin,
Ürəyimdən silinəndöy izlərin,
Həvəsin də, istəyin də saxtadır.

Yaman aldatmısan Cəmil Əkbəri,
Olmayıb əfsus ki, səndən xəbəri,
Səbəb odur, indi çəkir kədəri,
Xətirin də, hörmətin də saxtadır.

***Cəmil Əkbər***

## 65. SAXTADIR

*II variant*

Nə deyim, sözümü qana biləsən,
Zəhmətin də, xidmətin də saxtadır.
Əyilə biləsən, sına biləsən,[142]
Nəzərin də, diqqətin də, saxtadır.

İdrakın da, kamalında dayazdır,
Əqidən də, amalın da dayazdır,
Tutarın da, sambalın da dayazdır,
İnsafın da, mürvətin də saxtadır.

[142] Əyilib, qatlanıb, sına biləsən.

Fikirin, xəyalın sözün də yalan,
Astarın da yalan, üzün də yalan,
Yolağın, çəhlimin, izin də yalan,
İstəyin də, riqqətin də saxtadır.

De kimlərdir səndən olan irazı?
Çəkən kimdir, qisasını, qərəzi?
Nədur səndən umacağı, mərəzi?
Şərəfin də, şöhrətin də saxtadır.

Düz qiymət vermirsən, hikmət əhlinə,
Ar-namus əhlinə, qeyrət əhlinə,
Nəzakət əhlinə, mürvət əhlinə,
Diləyin də, niyyətin də saxtadır.

Üzündə-gözündə görünmür həya,
Görünmür əqidə, görünmür qayə,
Ey südlü anadan kəsb olan mayə,
Abırın da, ismətin də saxtadır.

Hər yetənə aldanmısan a yazıq,
Sınanmısan, daldanmısan a yazıq,
Hara gəldi yollanmısan a yazıq,
Xətirin də, hörmətin də saxtadır.

***Cəmil Əkbər*** 3. 07 – 1994

## 66. SAXTADIR İNDİ

Kimlə ülfət edib əylənəsənki?
Tay-tuş da, yoldaş da saxtadır indi.
Gəzib el-obada söylənəsənki?
Bacı da, qardaş da saxtadır indi.

Kimlə oturasan, kimlə durasan?
Kimlə yaradasan, kimlə qurasan?
Ömrünü-gününü başa vurasan,
Dostlar da, tanış da saxtadır indi.

Hamı bir-birini soyhasoydadır,
Yehaye, içhaiç, doyhadoydadır,
Yığıb son gününə qoyhaqoydadır,
Alver də, daşbaş da saxtadır indi.

Hər şeyin zinəti gözdən düşübdür,
Dəyəri, qiyməti gözdən düşübdür,
Məzmunu, hikməti gözdən düşübdür,
İnci də, daş-qaş da saxtadır indi.

Nə deyək zamanın kəc gərdişinə?
Hiyləgər, dələduz bic vərdişinə?
İnsafsız, mürvətsiz öc vərdişinə?
Səmimi sirdaş da saxtadır indi.

Kimlə söhbət edib danışaq biraz?
Xeyrinə-şərinə qarışaq biraz?
Kefini-halını soruşaq biraz?
Soydaş da, yurddaş da saxtadır indi.

Qalmayıb bəşərdə kamal ay Cəmil!
Azalıb əqidə, amal ay Cəmil!
Mənəvi gözəllik camal ay Cəmil!
Hafizə, yaddaş da saxtadır indi.

***Cəmil Əkbər*** 6. 11 -1992

## 67. ÖLƏSİSƏN DƏ

Yaman dəyişmisən, yaman ay gədə,
Dəyişə-dəyşə öləsisən də.
Heçkəsə vermirsən aman ay gədə,
Döyişə-döyüşə öləsisən də.

Yetənə-yetirsən, daş da atırsan,
Ayaq qaldırırsan, baş da atırsan,
Gücün çatmadıqda xoş da atırsan,
Söyüşə-söyüşə öləsisən də.

Ona-buna sabınlanıb girirsən,
Nə bacarsan meyvəsindən dərirsən,
Faydasını, xeyirini görürsən,
Girişə-girişə öləsisən də.

Onu-bunu güldürürsən özünə,
Tanıtdırıb bildirirsən özünə,
Zərbə vurub öldürürsən özünə,
İrişə-irişə öləsisən də.

Yerli-yersiz davaları salırsan,
Zəhərlənmiş havaları salırsan,
Yer üzünə yavaları salırsan,
Çəkişə-çəkişə öləsisən də.

Şər danışıb vuruşdurdun aranı,
Qövr etdirdin sızıldayan yaranı,
Ha cəhd etdin, tapanmadın çaranı,
Əyişə-əyişə öləsisən də.

Yaxşıları yamanlara qatmısan,
Vicdanını, məsləyini satmısan,
Min sifətlə mətləbinə çatmısan,
Süyüşə-süyüşə öləsisən də.

Elə sandın muradına yetmisən,
Sulanmamış, əkilməmiş bitmisən,
Son arzuna yetişmisən, çatmısan,
Sürüşə-sürüşə öləsisən də.

Sən Cəmil Əkbərə darıldın yaman,
Qoluna-qılçına sarıldın yaman,
İçindən çatlayıb, qırıldın yaman,
Görüşə-görüşə öləsisən də.

***Cəmil Əkbər*** 30.12 – 1992

## 68. KİMDİR?

Yüz təlim ver, tərbiyə ver,
Götürən kim, alan kimdir?
Möhüblər düz, xətirlər gör,
De yadına salan kimdir?

Baxan yoxdu məharətə,
Bacarığa, fərasətə,
Zərifliyə, məlahətə,
Oxuyan kim, çalan kimdir?

Bu dünyanın işinə bax,
Fikirinə, huşuna bax,
Tayına bax, tuşuna bax,
Sayan kimdir, alan kimdir?

Asana bax, kəsənə bax,
İnciyənə, küsənə bax,
Qorxusundan əsənə bax,
Boşalan kim, dolan kimdir?

***Cəmil Əkbər***

## 69. GÖRÜN KİMDİR? (*HƏCV*)

*I variant*

Qanı sorub mığmığa,
Səsi olub cığcığa,
Biznən durur bığ-bığa,
Görün kimdi bu dığa?

Hər nə desən yox deyir,
Zəhlə töküb çox deyir,
Qələt edib, pox deyir,
Görün kimdi həyasız?

Mirbəşirin çölündə,
Yemək-içmək əlində,
Üzür araq gölündə,
Görün kimdi bu lotu?

Can verməmiş sadağa,
Keçmək istər qabağa,
Üz verməyin qoduğa,
Görün kimdi bu naxal?

Nərddə yaman pərt olur,
Uduzanda dərd olur,
Alabaşdan sərt olur,
Görün kimdi bu tula?

Hey qabardır tükünü,
Çəkin bunun ipini,
Kəsin biraz s…..i,
Görün kimdi bu qaban?

***Cəmil Əkbər***

## 70. GÖRÜN KİMDİR? *(HƏCV)*

*II variant*

İş-gücə günorta gedir,
Gündüz yox, günorta gedir,
“Jiquli”də çorta gedir,
Görün kimdi bu hərif?

Mürəbbəli çaydan içir,
Tikələri yaxşı seçir,
Elmiranı yana çəkir,
Görün kimdi bu aşiq?

Aparmayır uçotunu,
Salır yaman potpotunu,
Kim göndərib bu lotunu?
Görün kimdi laqeyid?

Onu-bunu vuruşdurur,
Aralığı qarışdırır,
Qoynu-qurdla barışdırır,
Görün kimdi bu qatil?

İş gələndə xəstələnir,
Od vurmamış tüsdülənir,
Bordaqlarda hey bəslənir?
Görün kimdi bu donuz?

Görünməyir Mirbəşirdə,
Nə xeyirdə, nə də şərdə,
Üzün yusun Mürdəşir də,
Görün kimdi bu ölü?

Nə düşünmür, nə də qanmır,
Nə qızarmır, nə utanmır,
Dünya yansa tükü yanmır,
Görün kimdi bu nadan?

Yaxşı-pisi tanımayır,
Bərkdə-boşda sınamayır,
Təqsirkarı qınamayır,
Görün kimdi bu cahil?

Ona-buna böhtan deyir,
Həcv yazır, dastan deyir,
Peyğəmbərə şeytan deyir,
Görün kimdi bu sarsaq?

***Cəmil Əkbər***

## 71. GÖRÜN KİMDİR? (*HƏCV*)

*III variant*

Tökür bizə qaş-qabağı,
Qoymur çəkək kef-damağı,
Yaşımızın gözəl çağı,
Görün kimdi bu hərif?

Qara papka qoltuğunda,
Dəliləri sağ-solunda,
Şir qüvvəsi var qolunda,
Görün kimdi bu hərif?

Düşüb eşqin həvəsinə,
Sazı basır sinəsinə,
Sözü vermir özgəsinə,
Görün kimdi bu hərif?

Başımıza oyun açır,
Frunzeyə tez-tez qaçır,
“UAZ” ilə göydə uçur,
Görün kimdi bu hərif?

Tapılıbdı hayesini,
Çox xərclədi mayesini,
İtiribdi həyasını,
Görün kimdi bu hərif?

Səhər tezdən duxlanır da,
Ətirlənir, qoxlanır da,
Kölgəsindən xoflanır da,
Görün kimdi bu hərif?

Gözlərindən olduq iraq,
Tutmayırlar bizdən soraq,
Kimə, niyə biz can yoraq?
Görün kimdi bu hərif?

***Cəmil Əkbər***

## 72. GÖRÜN KİMDİR? *(HƏCV)*

*IV variant*

Dərmək üçün gülünü,
İşə salır dilini,
Bütün fitnə-felini,
Görün kimdi bu lotu?

Yaxalayıb el qızını,
Ülkərini, ulduzunu,
Tovlaşdırır baldızını,
Görün kimdi bu lotu?

Almışam ünvanınıda,
Vermişəm ünvanımıda,
Çəkəcək əncamınıda,
Görün kimdi bu şortu?

Uzadıb qara saçını,
Ötüb keçibdir bacını,
Tapın ağıl möhtacını,
Görün kimdi bu gəda.

Gün keçirir kef damaqla,
Yeyib, içib oynamaqla,
Yol getmirik qurumsaqla,
Görün kimdi bu lotu?

Aldadırlar tərəzidə,
Var məqsədi, qərəzi də,
Sağ ol demir əvəzində,
Görün kimdi bu dığa?

Hər gün gedib zəng eləyir,
Hamımızı dəng eləyir,
Bezdirib diltəng eləyir,
Görün kim bu taxtabiti?

Pulunu qoyub qumara,
Bu ağılsız, bu avara,
Kəfənsiz gedəcək gora,
Görün kimdi bu lotu?

Dadanıbdı şəhərə,
Minməyibdir kəhərə,
İndi düşüb qəhərə,
Görün kimdi bu hərif?

Çıxıbdı təxti-taca,
Kömək etmir möhtaca,
Nə deyəsən oğraca?
Görün kimdi müqəvva?

***Cəmil Əkbər***

## 73. SAXTALIQLA OLMAZ ARAM

Əzəl ibtidadan olmayıb aram,
Saxta danışıqla, saxta sözlərlə.
Ağrıyıb bədənim, sızlayıb yaram,
Saxta astarlarla, saxta üzlərlə.

Özgə xəyallara dalmamışam mən,
Açılıb, saçılıb solmamışam mən,
Başqa fikirlərdə olmamışam mən,
Saxta yolaqlarda, saxta izlərdə.

Ədalət, həqiqət amalım olub,
Düşüncəm, dərrakəm, kamalım olub,
Hər sözüm, söhbətim əməlim olub,
Oturub durmadım saxta qızlarla.

Ülfətim olubdur qanan kəslərlə,
Ellərin dərdinə yanan kəslərlə,
Üşüyüb al-qanı donan kəslərlə,
Dil tapa bilmədim saxta düzlərlə.

Əzəldən xoşladım milli oynumu,
Çiçəkli oynumu, güllü oynumu,
Əşrəfli, incili, ləlli oynumu,
Əylənə bilmədim saxta cazlarla.

***Cəmil Əkbər*** 8. 09 -1986

## 74. OLSUN

İstəsən tanısın obalar, ellər,
Keçən qərinələr, ötən fəsillər,
Babalar, atalar, gələn nəsillər,
Kişilik nişanın cürətin olsun.

Ümmanlar, dəryalar keçmək istəsən,
Şahintək səmada uçmaq istəsən,
Yaxşını-yamandan seçmək istəsən,
Namusun, qeyrətin, mürvətin olsun.

İstəsən düşmənlə girəsən cəngə,
Dönəsən aslana, şirə, pələngə,
Budur nəsihətim, eşitsən məncə,
Yenilməz qüdrətin, qüvvətin olsun.

Dolanıb keçsə də min əsr, min il,
Xoş əməl ürəkdən silinın deyil,
Çalış çox yaz, yarat el üçün Cəmil,
Ad-sanın şərəfin, şöhrətin olsun.

***Cəmil Əkbər*** 1959

## 75. BAŞAMMIŞ

Vədə gəlib, vaxt tamama yetəndə,
Eləbilki mən köçəri quşammış.
Ömür keçib yaş yarını ötəndə,
Eləbilki qarlı, buzlu qışammış.

Nadanlıqdan usanmışam, bezmişəm,
Hər acısı ağrısına dözmüşəm,
Əldən salıb ürəyimi üzmüşəm,
Eləbilki hissiyatsız daşammış.[143]

Gah ayağa, gah da başa çəkdilər,
Gah torpağa, gah da daşa çəkdilər,
Gah damağa, gah da dişə çəkdilər,
Eləbilki köz üstündə şişəmmiş.[144]

---

[143] *II variant*
Həyatımda tutanmadım yerimi,
Ha işlətdim, ha yordumsa sərimi,
Ha çalışıb, ha tökdümsə tərimi,
Eləbilki hissiyatsız daşammış.

*III variant*
Həyatımda tutanmadım yerimi,
Korlamışam gövhərimi, zərimi,
Hədər yerə axıtmışam tərimi,
Eləbilki hissiyatsız daşammış.

[144] *II variant*
Gah ayağa, gah da başa çəkdilər,
Gah torpağa, gah da daşa çəkdilər,
Gah damağa, gah da dişə çəkdilər,
Eləbilki kababdakı şişəmmiş.

Sanırdımkı dərya kimi doluyam,
Mərd igidin vuran, tutan qoluyam,
Dənizlərdən, ümmanlardan suluyam,
Dedilər ki, tamam-kamal boşammış.

Nə xeyrimi, nə şərimi qanmadım,
Nə keçmişi, gələcəyi anmadım,
Tüstüləndim, alovlanıb yanmadım.
Eləbilki nəmlər çəkən yaşammış.

Görəmmədim həyatdakı səhvimi,
Nə xeyrimi, qazancımı, nəfimi,
Çəkənmədim çəkiləsi kefimi,
Eləbilki gözü-könlü toxammış. [145]

Mövqeyimdən uzaqlara atdılar,[146]
Yaxşı ikən yamanlara qatdılar,
Dəyərimə-dəyməzimə satdılar,
Eləbilki çürükləmiş dişəmmiş,

Namərdoğlu utanmadı, ölmədi,
Hünərimə sevinmədi, gülmədi,
Dəyərimi, qiymətimi bilmədi,
Sondan-sona dedilər ki, başammış.[147]

***Cəmil Əkbər*** 1977

---

*III variant*
Gah ayağa, gah da başa çəkdilər,
Gah torpağa, gah da daşa çəkdilər,
Gah kotana, gah da xışa çəkdilər,
Eləbilki təpəl öküz hişəmmiş.

[145] *II variant*
Görəmmədim həyatdakı səhvimi,
Çəkənmədim çəkiləsi kefimi,
Götürmədim qazancımı, nəfimi,
Əzəl gündən gözü-könlü toxammış.

[146] *II variant*
Yaxşı ikən yamanlara qatdılar,
Dəyərimə-dəyməzimə satdılar,
Sandılar ki, məqsədinə çatdılar,
Eləbilki çürükləmiş dişəmmiş,

[147] *II variant*
Namərdoğlu utanmadı, ölmədi,
Hünərimə sevinmədi, gülmədi,
Vədəsində qədirimi bilmədi,
Sondan-sona dedilər ki, başammış.

## 76. OLMASA

İstəmirəm gen dünyada qalmağı,
El içində etibarım olmasa.
Bülbül sevməz gül-çiçəklər solmağı,
Ətir saçan çəmənzarım olmasa.[148]

Bu dünyada xoşlamıram qalım mən,
İsrafilin sur-düdüyün çalım mən,
Xəzan vurmuş gül-çiçəktək solam mən,
El içində iftixarım olmasa.

Xoş deyilsə kimsələrə gülməyim,
Yaxşı-yaman, azı-çoxu bilməyim,
Daha xoşdur günü sabah ölməyim,
Qədirbilən bir nigarım olmasa.

İstəmirəm nə kamanı, nə yayı,
Nə yaxşını, nə yamanı, nə zayı,
Nə ümmanı, nə dəryanı, nə çayı,
Şirin dilli bir dildarım olmasa.

Yeriyib, yüyürüb tuta bilmirəm,[149]
Gecəni-gündüzə qata bilmirəm,
Arzuma, məqsədə çata bilmirəm,
Kara yetən havadarım olmasa.

Mən nədən danışıb, nədən yazardım?
Dolaşıb yollarda itib azardım,
Özümün qəbrini özüm qazardım,
Yaşamağa iqtidarım olmasa.

***Cəmil Əkbər*** 1959

---

[148] Cəh-cəh vurmaz çəmənzarım olmasa.
[149] Rahat nəfəs alıb yata bilmirəm.

## 77. TANIYAMMADI

Yazıq min sifətə, min dona düşdü,
Özü-özünü də tanıyammadı.
Ayları, günləri belə ötüşdü,
Baxıb gözünü də tanıyammadı. [150]

Gah düzəldi, gah əyildi, irişdi,
Civə kimi ora-bura sürüşdü,
Gah əzildi, gah büzüldü, qırışdı,
Yazıq öz üzünü tanıyammadı.

Yol getmədi nə doğmayla, nə yadla,
Nə yağışla, nə su ilə, nə odla,
Gününü keçirdi ahı-fəryadla,
Özü öz düzünü tanıyammadı.

Yüz cürə qovğaya, min qala düşdü,
Cığıra, çəhlimə, min yola düşdü,
Gündə bir xəyala, min hala düşdü,[151]
Baxıb izini də tanıyammadı.

Səmtini dəyişdi, yolu dəyişdi,
Söhbəti dəyişdi, valı dəyişdi,
Dəymişi dəyişdi, kalı dəyişdi,[152]
Baxıb bezini də tanıyammadı.

İtirdi özündə olan nişanı,
Yazığı danlayıb qınayan hanı?
Çəkib üzgözünə ənlik, kirşanı,
Baxıb qızını da tanıyammadı.

---

[150] *II variant* Ördək olub qaz yerişi yeridi,
Yazıq heç özünü tanıyanmadı.
Eşqə düşüb Kərəm kimi əridi,
Yazıq heç izini tanıyanmadı.

[151] Törədib qal-qovğa, min qala düşdü.

[152] Palanı dəyişdi, çulu dəyişdi.

Yaxşılar yamana qarışdı getdi,
Yovuşdu, qovuşdu, barışdı getdi,
Vicdanla, məsləklə vuruşdu getdi,
Yazıq sözünü də tanıyammadı.[153]

***Cəmil Əkbər***

## 78. DÜŞƏRSƏN

Sözə qoyma ucalıqdan enəni,
Vaxt olar özün də moddan düşərsən.
Tapdalama yanıb-yanıb sönəni,
Yetişər zamanın, xoddan düşərsən.

Haqq-nahaqdan batarsansa günaha,
Düşəcəksən min qarğışa, min aha,
Ömürboyu qulluq etsən tamaha,
Hörmətdən, izzətdən, addan düşərsən.

Yerli-yersiz çıxarmaynan oyunu,
Kəl yerinə cütə qoşma qoyunu,
Üzüb atma hər yetənin boynunu,
Kəsərdən, ovxardan zoddan düşərsən.

***Cəmil Əkbər***

## 79. DEYİM?

Dünya sənin etibarın,
Varmı deyim, yoxmu deyim?
Əhd-peymanın, düz ilqarın,
Azmı deyim, çoxmu deyim?

Nəvecinə açan, solan?
Gələn, gedən, olan, qalan?
Ya boşalan, ya da dolan?
Gözün-könlün toxmu deyim?

---

[153] *II variant* Yanlıca, yalana bəli deməkdən,
Hər hava çalana bəli deməkdən,
Alana, verənə bəli deməkdən,
Yazıq sözünü də tanıyanmadı.

Eşit, dinlə yüz min kərə,
Nə gözəldi bu mənzərə,
Sözlərimi al nəzərə,
Boylan deyim, baxmı deyim?

Saldın dildən, haldan məni,
Vuran-tutan qoldan məni,
Yordun, qoydun yoldan məni.
Bu işinə haxmı deyim?

Ötür-keçir fəsillərin.
Qoy gəlməsin nəs illərin,
Dava-dalaş pis illərin,
Sonumuza çıxmı deyim?

***Cəmil Əkbər*** 2. 09 – 1986

## 80. VARDADIR

Aldanma hər sözə, aldanma felə,
Şərəf də, şöhrət də, şan da vardadır.
Yalançı vədlərə, hər yağlı dilə,
Bədəndə dövr edən qan da vardadır.

Kasıbı, yoxsulu kim adam sanır?
Sovqatını çıxır, adını anır?
Dərdinə acıyır, halına yanır?
Qüvvət də, qüdrət də, can da vardadır.

Kişinin sorağı var ilə gəlir,
Şərabı, arağı var ilə gəlir,
Hər dəfi-darağı var ilə gəlir,
Sərraf da, gövhər də, kan da vardadır.

Oxuyub, öyrənib sən də bil bunu,
Sözümün ədalət, haqq olduğunu,
Dövranın əzəli, axırı, sonu,
Dəqiqə, saat da, an da vardadır.

Varsızın kim olub dadına çatan?
Əlindən yapışıb savaba batan?
Xeyrinə qarışan, toyunu tutan?
Özül də, əsas da, yan da vardadır.

***Cəmil Əkbər***

## 81. TAPMADIM

Çox aradım dələduzu, bicləri,
Sərsərini, dəngəsəri, gicləri,
Tərsəməssəb inadkarı, öcləri,
Nə yol-ərkan, nə də qayda tapmadım.

Çoxları itirdi xətir-hörməti,
Ülvi-istəkləri, pak məhəbbəti,
Unutdu abırı, həya, isməti,
Südüxarab, qanı zayda tapmadım.

Çox cəhd etdim qanmazları qandıram,
Odu qoyub ocağını yandıram,
Cahilliyi unutduram, dandıram,
Nə bir əsər, nə bir fayda tapmadım.

Elə sandım tez yetişər qoralar,
Çox çəkməz ki, yarpaqları saralar,
Qövr eyləyər, sızıldayar yaralar,
Nə fayda ki, onu mayda tapmadım.

***Cəmil Əkbər***

## 82. TAPMADIM

Çox dolanıb bu dünyanı ha gəzdim,
Sənin kimi mürvət əhli tapmadım.
Muğanı axtardım, Şirvanı gəzdim,
Sənin kimi hörmət əhli tapmadım.

Könül quşum məhəbbətlə döyündü,
Qürrələndi, fərəhləndi, öyündü,
Hünərinlə fəxr edərək sevindi,
Sənin kimi qeyrət əhli tapmadım.[154]

[154] *II variant*
Könül quşum məhəbbətlə döyündü,
Hünərinlə fərəhləndi, sevindi,
Lovğalanıb, qürrələnib öyündü,
Sənin kimi qeyrət əhli tapmadım.

Ömürboyu ocağında isindim,
Hənirinlə qucağında isindim,
O çağında, bu çağında isindim,
Sənin kimi ismət əhli tapmadım.

Əhdi-peyman, ilqarına inandım,
Qüruruna, vüqarına inandım,
Məhəbbətdə nübarına inandım,
Sənin kimi şöhrət əhli tapmadım.

El yolunda çox axıtdın tərini,
Kamal ilə doldurmuşdun sərini,
Səndən sonra çox çəkirəm yerini,
Sənin kimi hikmət əhli tapmadım.

Sənə bu hikməti Xudam veribdir,
Dövran bəxş eyləyib, zaman veribdir,
Atan qazanıbdır, anan veribdir,
Sənin kimi xislət əhli tapmadım.

Yaxşı görüb, düz seçirdi gözlərin,
El-obada yad olunur sözlərin,
Qəlbimizdən silinməyir izlərin,
Sənin kimi niyyət əhli tapmadım.

Cəmil Əkbər həvəsinlə yaşayır,[155]
El-obaya nəfəsinlə yaşayır,
Pürkamalın, gur səsinlə yaşayır,
Sənin kimi qüdrət əhli tapmadım.

***Cəmil Əkbər*** 30. 01 – 1989

## 83. BU QANUNDA

Milyonların haq səsi var,
Bu qanunda, bu qanunda.
Sədaqətin müjdəsi var,
Bu qanunda, bu qanunda.

[155] Cəmil Əkbər xislətinlə yaşayır.

İnqilabın nəfəsi var,
Avropanın gur səsi var,
Beynəlmiləl həvəsi var,
Bu qanunda, bu qanunda.

Fikirlərin müqəddəsi,
Ədalətin ifadəsi,
Nəqş olunub dür danəsi,
Bu qanunda, bu qanunda.

Dahiylərin zəkası var,
Qardaşlığın dünyası var,
Haqqın təməl, əsası var,
Bu qanunda, bu qanunda.

Verilibdir hüququmuz,
Poladdandır sütunumuz,
Var dəlili-sübutumuz,
Bu qanunda, bu qanunda.

Bahar gəldi elimizə,
Bülbül qondu gülümüzə,
Qayğı var hərbirimizə,
Bu qanunda, bu qanunda.

Təbib də var, şəfa da var,
Vəfalıya vəfa da var,
Nankorlara cəfa da var,
Bu qanunda, bu qanunda.

Hökm oxunur cinayətə,
Avamlığa, cəhalətə,
Haqsızlığa, xəyanətə,
Bu qanunda, bu qanunda.

Ellər görür həqiqəti,
Pak arzunu, saf niyyəti,
İnsanlığa sədaqəti,
Bu qanunda, bu qanunda.

***Cəmil Əkbər***

## 84. SƏN ELƏSƏN, MƏN BELƏ

Sən lazım olanda görünməyirsən,
Aldığın borcları verənməyirsən.
Özünü dartırsan, ədalanırsan,
Naz-qəmzə eyləyib gədalanırsan.
Qaçıb gizlənirsən, tapılmayırsan,
İçməmiş məst olub ayılmayırsan.
Eləbil heçnəyə gərəksiz oldun,
Nəyaman saxtakar, ürəksiz oldun.
Qaçdın ön cərgədən, çəkildin dala,
Yön aldın meşəyə, gizləndin kola.
Pozuldu bostanın, kəsildi bağın,
Yox oldu şamaman, üzüldü tağın.
Sığmırsan aləmə, havalanmısan,
Gicbəsər olmusan, yavalanmısan.
Mən lazım olanda nə tez tapırsan?
Özünə bişirib kökə yapırsan.
Kölgəmcə hərlənib əzizləyirsən,
Dalımca dolanıb lap izləyirsən.
Təzim göstərərək saldın qabağa,
Dedinki canımı verrəm sadağa.
Canım-ciyərimsən, dayımsan dedin,
Ulduzum, günəşim, ayımsan dedin.
Mən lazım olanda gizlənməmişəm,
Bostantək dərilib üzlənməmişəm,
Sənə dərd verəndə bilmişəm özüm,
Axtarıb, arayıb gəlmişəm özüm.

***Cəmil Əkbər***

## 85. TƏZƏ İL

Köhnə ili yola saldıq,
Gözləyirik gəl təzə il.
İllər ötdü, yaşa dolduq,
Süfrəmizi gəl bəzə il.

Yenilməsin təməlimiz,
Hər işimiz, əməlimiz,
Səadətdir nəzərimiz,
Sən də baxıb gül üzə il.

Həmrəylikdir amalımız,
Uca Tanrım kamalımız.
Haq yoldur sükanımız,
Yolu salır o düzə il.

Qoy yox olsun zülüm, zillət,
Sərsəm fikir, qəzəb, hiddət,
Həmrəy olsun bütün millət,
Tarix desin möcüzə il.

Qardaş olsun cavanımız,
Şimalımız, Cənubumuz,
Həm Şərqimiz, həm Qərbimiz,
Gətir bizə mey-məzə il.

Bəxş et bizə səadəti,
Xoş arzunu, xoş niyyəti,
Yaşat bütün cəmiyyəti,
Çatdır neçə min yüzə il.

Son qoyulsun cəhalətə,
Kin-küdurət, ədavətə,
Yol açılsın səxavətə,
Fərəh gətir sən bizə il.

Küsülülər qoy barışsın,
Hal tutub əhval soruşsun,
Bir otursun, bir də dursun,
Gülümsəsin göz-gözə il.

İldən ilə ucalsam da,
Zəfər çalıb bac alsam da,
Asta-asta qocalsam da,
Qüvvət gətir gəl düzə il.

Mən Cəmiləm qələmimlə,
Öz fikirim, öz təbimlə,
Bir gözəlin tələbilə,
Şeir yazdım mən sizə il.

***Cəmil Əkbər*** 1977

## 86. VERƏYDİ

Dərdimi sağaldan loğman olaydı,
Qocanı yenidən cavan edəydi.
İnsafsız insana mürvət verəydi,
Qeyrətsiz insana qeyrət verəydi.
Şərəfsiz insana şərəf verəydi,
Şöhrətsiz insana şöhrət verəydi.
Kamalsız insana kamal verəydi,
Camalsız insana camal verəydi,
Amalsız insana amal verəydi.
Cahilə, nadana ayı verəydi,
Özünə oxşayan tayı verəydi,
Qatırdan, eşşəkdən dayı verəydi.

***Cəmil Əkbər***

## 87. EY İNSAN!

Ölənə yanmayın, nə yaxılmayın,
Sağikən dərdinə qalın ey insan!
Üzülüb dərdlərdən nə sıxılmayın,
Qonağı tez yola salın ey insan!

Toxunub əsəbə, qəlbə dəyməyin,
Artırıb dərdini, qəddi əyməyin,
Sonra sinənizə, başa döyməyin,
Dərk edin, anlayın qanın ey insan!

Gözlə əməlinin əvvəl dalını,
Dəymişi saxlayıb, tökmə kalını,
Toxunma huşuna, alma ağlını,
Fikirə, xəyala dalın ey insan!

Ayrılma çəməndən, ayrılma güldən,
Ayrılma dəhandan, uzaşma dildən,
Ayrılma Vətəndən, ayrılma eldən,
Elin havasını çalın ey insan!

Hörmət et qohuma, hörmət et yada,
Hörmət et ünvana, hörmət et ada,
Hörmət et şagirdə, birdə ustada,
Uçruma düşməsin yolun ey insan!

İtirsən vicdanı, azsan yolunu,
Tanıya bilməzsən sağı, solunu,
Gözləməsən əməlinin dalını,
Yetişməz bağında kalın ey insan!

***Cəmil Əkbər***

## 88. HARA?

Sənki elimizin ağsaqqalısan,
Nuranilik hara, nadanlıq hara?
Sənki bu xilqətin müəllimisən,
Müəllimlik hara, nadanlıq hara?

Sənki elimizin hörmətlisisən,
Sağlamı, böyüyü, qüdrətlisisən,
Adlısı, sanlısı, hörmətlisisən,
Bu etibar hara, bu işlər hara?

Deyirlər illərlə ucalmısan sən,
Zəfərdən-zəfərə bac almısan sən,
Ülvi-məhəbbətdən tac almısan sən,
Bu ucalmaq hara, bu enmək hara?

Sənki can deyərdin, əzizləyərdin?
Sənki dayanardın, ha gözləyərdin?
Axtarıb dalınca hey izləyərdin?
Bu usanmaq hara, çəkinmək hara?

***Cəmil Əkbər***

## 89. MÖHTACDIR

İstər alim olsun, ya loğman olsun,
Qatıq satan, şor satana möhtacdır.
İstər arif olsun, ya nadan olsun,
Bəy də, xan da var satana möhtacdır.[156]

---

[156] *II variant* İstər alim olsun, ya loğman olsun,
Şahənşah da şor satana möhtacdır.
İstər sultan olsun, ya xaqan olsun,
Nazü-nemət, var satana möhtacdır.

Heçkəs sinəsinə döyməsin əsla,
Özündən danışıb, öyməsin əsla,
Doğrunu yolundan əyməsin əsla,
Xəstə könül nar satana möhtacdır.[157]

Baxıb kölgəsinə ədalanmasın,
İtirib əqlini gədalanmasın,
Nifrətlə yad olub sədalanmasın,
Saray tikən, xır satana möhtacdır.

El-obasız, oba dağsız heç nədir,
Ağac köksüz, kök butaqsız heç nədir,
Bağ-bağbansız, bağban-bağsız heç nədir,
Peyvənd vuran, cır satana möhtacdır.

Dərk eylə sözünü, al həqiqəti,[158]
Unutma, yadına sal həqiqəti,
Könül rübabında çal həqiqəti,
Qoca tarzən, tar satana möhtacdır.

Belədir əzəldən dünyanın işi,
Zaman yola salır dövrü-gərdişi,
Heç vaxt unutmasın bunu hər kişi,
Balıq tutan tor satana möhtacdır.

İstər dərzi olsun, istər pinəçi,
İstər varlı olsun, istər dilənçi,
İstər dəllal olsun, istər alverçi,
İnci, sədəf, dür satana möhtacdır.[159]

Cəmil Əkbər dünya beylə qurulub,
Beylə əldən düşüb, beylə yorulub,
Beylə çalxalanıb, beylə durulub,
Bəzzazlar da zər satana möhtacdır.

***Cəmil Əkbər*** 5. 09 -1994

---

[157] Bəy də, xan da nar satana möhtacdır.

[158] Eşit sözlərimi, al həqiqəti.

[159] *II variant* İstər dərzi olsun, pinəçi olsun,
İstər varlı olsun, dilənçi olsun,
İstər dəllal olsun, sələmçi olsun,
İnci, sədəf, dür satana möhtacdır.

## 90. MÖHTACDIR

İnsanoğlu göz açandan dünyaya,
Doğru, düzlük, həqiqətə möhtacdır.
Yol salandan, iz açandan dünyaya,[160]
İnsanlığa, ləyaqətə möhtacdır.

O istəyir mehribanlıq bol olsun,
Səmimiyyət, istiqanlıq bol olsun,
Gün-güzaran, firəvanlıq bol olsun,
Xeyirxahlıq, fəzilətə möhtacdır.

İlqarına dönüklərdən usanıb,
Vicdanından sönüklərdən usanıb,
Min bir səmtə yönüklərdən usanıb,
Sədaqətə, səxavətə möhtacdır.

Oqədər görübdür qansoranları,
Zülal çəkənləri, şansoranları,
Məqamı gələndə yanduranları,
İnsaf-mürvət, kəramətə möhtacdır.

Əzəl gündən, körpəlikdən küt olub,
Hamı bilir, əyinbaşı lüt olub,
Dərrakədən, düşüncədən qıt olub,[161]
Bacarığa, fərasətə möhtacdır.

Bir-birini incidərək bezdirir,
Dağa salıb, daşa salıb gəzdirir,
İşgəncəyə, müsibətə dözdürür,
Ədəb-ərkan, nəzakətə möhtacdır.

Bəşəri məhv edir qara fikirlər,
Salır təhlükəyə, dara fikirlər,
Bilən yox aparır, hara fikirlər?
Saf arzuya, pak niyyətə möhtacdır.[162]

---

[160] Qədəm qoyub iz açandan dünyaya.
[161] Dərrakədən, kamalından qıt olub.

Ellərin, obanın varı çatışmır,
Gül-çiçəyi, çəmənzarı çatışmır,
Fərəh, sevinc, iftixarı çatışmır,
Vətənoğlu naz-nemətə möhtacdır.[163]

Şair qardaş nə bacarsan doğru yaz,
Siləndə də qaralayıb doğru poz,
Yozanda da elə çalış doğru yoz,
Doğru sözə, düz söhbətə möhtacdır.

Cəmil Əkbər ədavətdən bezibdir,
Giley-güzar, şikayətdən bezibdir,
Avamlıqdan, cəhalətdən bezibdir,
Ülvü istək, məhəbbətə möhtacdır.[164]

***Cəmil Əkbər*** 4- 5. 06– 1997

## 91. GÖRMƏYƏK

İbtidadan, göz açandan dünyaya,
Aman Allah, nələr qaldı görməyək?!
Dilə gəlib söz açandan dünyaya,
Aman Allah, nələr qaldı görməyək?!

Aravuran fitnəkarlar oqədər?
Evlər yıxan ziyankarlar oqədər?
Qədirbilməz nanıkorlar oqədər?
Aman Allah, nələr qaldı görməyək?!

Oqədərdi cəhalətdə qalanlar?
Addımbaşı qəbahətdə qalanlar?
Kin-küdurət, ədavətdə qalanlar?
Aman Allah, nələr qaldı görməyək?!

---

[162] Pak arzuya, saf niyyətə möhtacdır.

[163] *II variant* Vətənimin varı-halı çatışmır,
Eyiş-işrət, cahcəlalı çatışmır,
Dərdbiləni, əhli-halı çatışmır,
Yemək-içmək, naz-nemətə möhtacdır.

[164] *II variant* Cəmil Əkbər ədavətdən doyubdur,
Avamlıqdan, cəhalətdən doyubdur,
Törədilən qəbahətdən doyubdur,
Ülvü istək, məhəbbətə möhtacdır.

Hiyləgərdən, yaltaqlardan bezmişik,
Həyasızdan, sırtıqlardan bezmişik,
El varına ortaqlardan bezmişik,
Aman Allah, nələr qaldı görməyək?!

Oqədərdi insafını atanlar,
Yaxşıya pis, pisə yaxşı qatanlar,
Bəd danışıb, günah işlər tutanlar,
Aman Allah, nələr qaldı görməyək?!

Gör nəqədər başbiləni yıxdılar?
Qan qaraldıb ürəyini sıxdılar.
Haqq-nahaqdan axırına çıxdılar,
Aman Allah, nələr qaldı görməyək?!

Bir zaman yananlar, söndü bir zaman,
Bir zaman ucalan, endi bir zaman,
Bir zaman susanlar, dindi bir zaman,
Aman Allah, nələr qaldı görməyək?!

Bir zaman yaratdıq, bir zaman qurduq,
Bir zaman yatdıqsa, bir zaman durduq,
Bir zaman bezdirdik, bir zaman yorduq,
Aman Allah, nələr qaldı görməyək?!

Bir zaman ağlayan, bir zaman güldü,
Bir zaman öldürən, bir zaman öldü,
Bir zaman qanmayan, bir zaman bildi,
Aman Allah, nələr qaldı görməyək?!

Düha sahibinə lağ eylədilər,
Çıxıb əndazədən ağ eylədilər,
Təpəni böyüdüb dağ eylədilər,
Aman Allah, nələr qaldı görməyək?!

Doğma vətənini satan da oldu,
Qəflət yuxusunda yatan da oldu,
Üfunət gölünə batan da oldu,
Aman Allah, nələr qaldı görməyək?!

Bu cahan mülkündə bezdi nəqədər?
Dağları, daşları gəzdi nəqədər?
Düşüb müsibətə dözdü nəqədər?
Aman Allah, nələr qaldı görməyək?!

Görən gözlər görə-görə kor oldu,
Mərd igidlər ara-sıra xar oldu,
Gen dünyamız başımıza dar oldu,
Aman Allah, nələr qaldı görməyək?!

Gör nəqədər yurd-yuvalar boş qaldı?
Fikir, xəyal yolu azdı çaş qaldı?
Ürəklərdə nisgil qaldı, daş qaldı?
Aman Allah, nələr qaldı görməyək?!

Dəyişib zəmanə nəgünə düşdü,
Dolaşdı kələfi, düyünə düşdü,
Kəc fikir, xəyallar beyinə düşdü,
Aman Allah, nələr qaldı görməyək?!

Xətir-hörmət, haqq-sayı dandılar,
Sədaqəti, səxavəti dandılar,
Ədəb-ərkan, nəzakəti dandılar,
Aman Allah, nələr qaldı görməyək?!

İtdi, batdı abır, ismət qalmadı,
Ərşə çıxdı, nə şərafət qalmadı,
Dizdə taqət, qolda qüvvət qalmadı,
Aman Allah, nələr qaldı görməyək?!

Ünsiyyət-ülfətdə yalan çoxaldı,
Züy tutan, nağara çalan çoxaldı,
Əllərdə, ayaqda qalan çoxaldı,
Aman Allah, nələr qaldı görməyək?!

Bəylər nökər oldu, nökər bəy oldu,
Nadan alim oldu, alim key oldu,
Səylər aqil oldu, aqil səy oldu,
Aman Allah, nələr qaldı görməyək?!

Qaşqabaqlar yerbəyerdən qırışdı,
Alabaşlar yalquzaqla barışdı,
Canavarlar sürülərə sırışdı,
Aman Allah, nələr qaldı görməyək?!

Cəmil Əkbər görə-görə kor oldu,
Eşitsədə qulaqları kar oldu,
Tərlan ikən niyə belə sar oldu?
Aman Allah, nələr qaldı görməyək?!

***Cəmil Əkbər*** 13. 01 -1997

## 92. VƏTƏNDAŞIYIQ

Vətən anamızdır, bəşər atamız,
Bir elin-obanın vətəndaşıyıq.
Dəyməsin kimsəyə adi xətamız,
Bir elin oğluyuq, vətəndaşıyıq.
Bu cahan mülkünün vətəndaşıyıq.

Onun hər yerini ürəklə sevək,
Xoş arzu-istəklə, diləklə sevək,
Duzla qarşılayıb, çörəklə sevək,
Yorulmaz qollarla, biləklə sevək.
Bu elin, obanın əməkdaşıyıq,
Biz cahan mülkünün vətəndaşıyıq.

Burada böyüyüb yaşa doluruq,
Kamala yetişib, başa doluruq,
Xəyala qapılıb, huşa doluruq,
Bu elin, obanın əməkdaşıyıq,
Bu cahan mülkünün vətəndaşıyıq.

Burada yaşayıb boya çatmışıq,
Xeyirə getmişik, toya çatmışıq,
Haraya yetişib, hoya çatmışıq,
Ellərin, obanın əməkdaşıyıq,
Bu cahan mülkünün vətəndaşıyıq.

Ellərə, obaya borcunu qaytar,
Borcunu qaytarsan, hörmətin artar,
Şərafətin artar, şöhrətin artar,
Dəyərin çoxalar, qiymətin artar.
Sülhün, azadlığın əməkdaşıyıq,
Bu cahan mülkünün vətəndaşıyıq.

Bu ada, bu sana sədaqət gərək,
Əbədi ehtiram, səxavət gərək,
Ülvü-istək gərək, məhəbbət gərək,
Bu yolun, bu izin əməkdaşıyıq,
Bu cahan mülkünün vətəndaşıyıq.

Özünü yad bilib aralı gəzmə,
Oralı axtarıb, buralı gəzmə,
Qəlbi xoflu gəzmə, qaralı gəzmə.
Xoş gün, səadətin əməkdaşıyıq,
Zamanın övladı, vətəndaşıyıq.

Biri-birimizə darılmayaq gəl,
İçindən çatlayıb, qırılmayaq gəl,
Qoluna, qılçına sarılmayaq gəl,
Səadət yolunun əməkdaşıyıq.
Zamanın övladı, vətəndaşıyıq,

Özbək də, Çeçen də, İnquş da olsaq,
Qabardin, Ləzgi də, Layış da olsaq,
Türkmən də, Qırğız da, Latış da olsaq,
Səadət yolunun əməkdaşıyıq.
Bu cahan mülkünün, vətəndaşıyıq,

Onun hər kolunu gülə döndərək,
Bəsləyib daşını lələ döndərək,
Adi damlasını selə döndərək.
Bu yolun, bu izin əməkdaşıyıq,
Bu cahan mülkünün vətəndaşıyıq.

Bəstəkar da olsaq,  şair də olsaq,
Loğman, münəccim də, nasir də olsaq,
Hər hansı peşədə mahir də olsaq,
Bir elin-obanın vətəndaşıyıq.
Bu cahan mülkünün vətəndaşıyıq.

Niyə parçalansın hərə bir yerə?
Kəssin aralığı ya dağ, ya dərə?
Tutulsun bərəlgə, kəsilsin bərə?
İnsafın, mürvətin əməkdaşıyıq,
Zamanın övladı, vətəndaşıyıq.

Səndən də, məndən də, yol gözləyirlər,
Xidməti, zəhməti bol gözləyirlər,
Zülal gözləyirlər, bal  gözləyirlər,
Ülvi-mətanətin əməkdaşıyıq,
Haqqın, ədalətin vətəndaşıyıq. [165]

Qoymayaq kimsəni dara düşməyə,
Kəməndə ilişib tora düşməyə,
Çətinə düşməyə, zora düşməyə.
Pak arzu-niyyətin əməkdaşıyıq,
Bu elin, obanın vətəndaşıyıq.

Qoymayaq yolunu azan tapılsın,
Doğrunu əyriyə yozan tapılsın,
Ülfət-ünsiyyəti pozan tapılsın,
Haqqın, həqiqətin əməkdaşıyıq,
Bu cahan mülkünün vətəndaşıyıq.

Gəlin işə salaq kamalı qardaş,
Əqidə, məsləyi, amalı qardaş,
Bəsləyək el-oba, mahalı qardaş,
Ülvi-ləyaqətin əməkdaşıyıq,
Bu cahan mülkünün vətəndaşıyıq.

---

[165] Bu cahan mülkünün vətəndaşıyıq.

Geniş yazdım, bəlkə biraz anlayaq,
Özgəni yox, özümüzü danlayaq,
Kötəkləyək, qıranclayaq, yanlayaq,
Doğru bəyanatın əməkdaşıyıq,
Bu cahan mülkünün vətəndaşıyıq.

***Cəmil Əkbər***

## 93. TAPMIŞAM

*I variant*

*Gəncəli ağsaqqal Qəmbər kişiyə cavab*

Əziz dostum söylədiyin kəlamda,
Neçə-neçə zər nişanı tapmışam.
Göz görməyən gizli-sirli aləmdə,[166]
Düşündükcə hər nişanı tapmışam. [167]

İnsanoğlu olan zaman anadan,
Əzəl gündən, ibtidadan, binadan,
Hissiyatdır şüurları oyadan,
Xəbər verən pasibanı tapmışam.[168]

Nələr vardır insanların başında? [169]
Kamalında, xəyalında, huşunda?
Arzusunda, əməlində, işində?[170]
Sehirkarlı bir dünyanı tapmışam.

Arzu da, dilək də könüllərdədir,
Huri də, mələk də könüllərdədir,
Hiylə də, kələk də könüllərdədir,
Təlatümlü bir ümmanı tapmışam.

---

[166] Gözgörməyən bu daxili aləmdə.

[167] *II variant* Əziz dostum sən dediyin sözlərdə,
Fikirləşib çox nişanı tapmışam.
Göstərdiyin cığırlarda, izlərdə,
Kefçəkəni, pərişanı tapmışam.

[168] *II variant* Hissiyatdır ürəkləri coşduran,
Könüllərə qəm-kef qoyub daşdıran,
Şeirləri, qəzəlləri qoşduran,
Xəbər verən pasibanı tapmışam.

[169] Nələr vardır gör insanın başında.

[170] Arzusunda, sözlərində, işində.

O ürəkdir hər niyyəti yaşadır,
Eşqimizin zirvəsidir, başıdır,
Məhəbbəti, ya nifrəti yaşadır,[171]
Qadir olan bu məkanı tapmışam.

Dərrakədir, hasil edən kamalı,
Vicdan, məslək, əqidəni, amalı,
Dünyamızı odur edən mənalı,
Verdikləri hər fərmanı tapmışam.

Düşüncədir, məsləhətlər verdirən,
Hökm verib hər işləri gördürən, [172]
Müdrik öyüd, nəsihətlər bildirən, [173]
Onun kimi bir loğmanı tapmışam.

Vicdan dedikləri insana şahdır,
Kimdə tapılmırsa nalədir, ahdır,
Xətadır, bəladır, işi günahdır,
O göstərən yol-ərkanı tapmışam.[174]

Vicdanki var, hər kimdəki birazdır,
Nə qəlbi açılar, nə kefi sazdır,
Mərifətdən, qanacaqdan dayazdır,
Mənlikləri heç olanı tapmışam.

Əql vəzirdir vicdan adlı şahlara,
Vəzirsiz şahlar da düşərlər dara,
İtirir təxtini, qalır avara,
Viran qoyur el-obanı tapmışam.

---

[171] Bədən üzük, könül onun qaşıdır.
[172] Hökm edərək hər işləri gördürən.
[173] Öyüd verib, nəsihətlər bildirən.
[174] *II variant* Vicdan dedikləri insana şahdır,
Vicdansız adamlar nalədir, ahdır,
Gördüyü işləri tamam günahdır,
Odur verən hər imkanı tapmışam.

*III variant* Vicdan dedikləri insana şahdır,
Ağıl dedikləri ona pənahdır,
Kimdəki çatmayır, nalədir, ahdır,
Verdikləri hər imkanı tapmışam.

İnsanı yaşadır onun kamalı,
Verir var-dövləti, cahı-calalı,
Azalmır nəşəsi, pozulmur halı,
Kimin varsa, xoş zəbanı tapmışam.

Bilikdir insanın yolgöstərəni,
Sədaqət, səxavət bol göstərəni,
Ədəbi, ərkanı bil göstərəni,
Qəvvas kimi bu sükanı tapmışam.[175]

Halaldır zəhmətin neməti, nanı,
Cənnətə çevirən odur dünyanı,
Yaşadır, ucaldır hərbir insanı,
Bəxş etdiyi şərəf-şanı tapmışam.

Naz-nemətdir insanlara can verən,
Bədəninə qüvvət verən, qan verən,
İl nədir, ay nədir anbaan verən,
Bu çörəyi, bu Quranı tapmışam.

O səbrdir nə yükləsən götürür,
Hövsələdir, o qəzəbi söndürür,
Kimdə yoxsa zirvələrdən endirir,
Bəxş etdiyi kərəm-kanı tapmışam.[176]

Hövsələdi, səbr verən insana,
Qoymayır qızışıb gələ cövlana,
Sirkətək qıcqırıb girə meydana,
Güzəşt edən xətmi-kanı tapmışam.

Tərbiyədir, insanların binası,
Möhkəm olsun, gərək onun əsası,
Onu versin həm atası, anası,
Ən birinci bu ustanı tapmışam.[177]

---

[175] *II variant* Zəkadır insana yolgöstərənlər,
Sədaqət, səxavət bol göstərənlər,
Ədəbi-ərkanı bil göstərənlər,
Qəvvas kimi bu sükanı tapmışam.

[176] Bəxş etdiyi süfrə-nanı tapmışam.

[177] *II variant* Budur sözlərimin əsli qısası,
Tərbiyədir insanlığın binası,
Gərək möhkəm ola onun əsası,
Memar olub bu mənanı tapmışam.

Pak arzudur, ülviyyətə yol açan,
Sədaqəti, səxavəti bol açan,
Ədəb-ərkan, mərifəti bil açan,
Bu mənanı, bu məzmunu tapmışam.

Hərkəsdənin təməlidir öz əsli, [178]
Öz keçmişi, nəcabəti, nəsili,
Bu olmasa zimistandır hər ili,
Odur verən gülüstanı tapmışam.

İnsanlığın nişanəsi hörmətdir,
Sədaqətdir, səxavətdir, mürvətdir,
Ar-namusdur, abır-həya, ismətdir,
Xiridaram, gövhər-kanı tapmışam.

Azalmasa insanların həyası,
Ona bəsdir məhəbbətin ziyası,
Qurulacaq səadətin binası,
Ləl-cəvahir, gövhər-kanı tapmışam.

Ədalətdir, həqiqətdir doğruluq,
Sədaqətdir, səxavətdir doğruluq,
Saf düşüncə, pak niyyətdir doğruluq,
Həyat boyu bu cahanı tapmışam.

Paxıllıq, xainlik verib əl-ələ,
Salır aralığa yaman vəlvələ,
Qoymayır insanlıq əmələ gələ,
Törədəni, şər-xətanı tapmışam.

Xainliyin nə bağı var, nə barı,[179]
Nə dövləti, nə sərvəti, nə varı,
Nə dostu var, nə yoldaşı, nə yarı,
Əzəl-axır peşimanı tapmışam.

---

[178] Hərkimsənin olmalıdır öz əsli.
[179] Xəbislikdir nə bağı var, nə barı.

Azğınlıqdır, tökən nahaq qanları, [180]
Üzə-üzə əldən salan canları,
Məhv eyləyən gövhərləri, kanları, [181]
Bu qatili, bu düşməni tapmışam.

Kin-küdurət səbəb olur zavala,
Zərər vurur dərrakəyə, kamala,
Qənim çıxır əqidəyə, amala,
O yaradır hər böhtanı tapmışam.[182]

O  nəfsdir, bizi yoldan azdıran,
Ünsiyyəti paralayan, pozduran,
Ayaqlar altından quyu qazdıran,
Vurub tökən nahaq qanı tapmışam.

Acgözlükdür, hərislikdir pis halət,
İstəyir eyləsin dünyanı qarət,
Nə utanır, nə də çəkir xəcalət,
Əzab verən bəd-hədyanı tapmışam.

Qəbahətdir baxışı yox, gözü yox,
Nə dili var, nə ağzı var, sözü yox,
El içinə çıxmaq üçün üzü yox,
Nihan qalan sirri-kanı tapmışam.

Qal-qovğadır, insanları öldürən,
Dost-tanışı düşmənlərə güldürən,
Məhəbbəti paralayıb böldürən,
Odur salan ah-amanı tapmışam.

Kim almasa bu sözləri nəzərə,
Xeyir verməz el-obaya, bəşərə.
Ömür-günü gedəcəkdir hədərə,
Bu qüvvəni, bu təkanı tapmışam.

---

[180] Şər-böhtandır tökən nahaq qanları.
[181] Uçurub, məhv edən nərdibanları.
[182] Törədəndi, hər böhtanı tapmışam.

Kamalı olana bu varlıq bəsdir,
Kimdəki o kəmdir, dünya əbəsdir,
Nəüçün vuruşur, nə bəhsə-bəhsdir,
Gizlin qalan bu pünhanı tapmışam.

Dünya gör-götürdür atalar deyib,
Görüb-götürməyən hədər gedib,
Bədəməl törədib qəddini əyib,
Mən Cəmiləm sərraf-kanı tapmışam.[183]

***Cəmil Əkbər*** 8. 08 – 1978

## 94. TAPMIŞAM

*II variant*

*Gəncəli ağsaqqal Qəmbər kişiyə cavab*

Qəmbər kişi dediklərin yeddi döy,
Dərk etmişəm, çox nişanı tapmışam.
O yaşadır qohumları, yadları,
Dolandırır el-obanı tapmışam.

Mövcud olur doğulanda anadan,
İbtidadan, əzəl gündən, binadan,
Hissiyatdır insanları oyadan,
Xəbər verən pasibanı tapmışam.

Nələr vardır insanların başında?
Kamalında, xəyalında, huşunda,
Sözlərində, əməlində, işində,
Gözgörməyən bu dünyanı tapmışam.

---

[183] *II variant*

Dünya gör-götürdür atalar deyib,
Görüb-götürməyən hədərə gedib,
Əməli önündə qəddini əyib,
Onlar düşən bu ünvanı tapmışam.

*III variant*

İnsan gərək həyatında çaşmasın,
Öz həddini, hüdudunu aşmasın,
Harınlıqdan qaynamasın, daşmasın,
Mən Cəmiləm sərraf-kanı tapmışam.

O beyindir, hasil edir kamalı,
Hər məsləyi, əqidəni, amalı,
Dərrakədir, dolandırır mahalı,
Odur verən hər fərmanı tapmışam.

Düşüncədir bizə məsləhət verən,
Doğru yol göstərib, hərəkət verən,
Ustalıq eyləyib, nəsihət verən,
Rəhm eyləyən xudakanı tapmışam.

Əfsuski vicdanı eşidən azdır,
Çoxlarında heç tapılmır çox azdır,
Kimdə yoxsa qanacaqdan dayazdır,
Zər sərrafı, hikmət-kanı tapmışam.[184]

Əql vəzirdir vicdan adlı şahına,
Vəzirsiz şahlar da düşərlər dara,
Düşərlər qarğışa, amana, aha,
Talan edər el-obanı tapmışam.

Pak arzudur ülviyyətə yol açan,
Sədaqəti, səxavəti bol açan,
Ədəb-ərkan, mərifəti bil açan,
Qəvvas olub bu sükanı tapmışam.

Halaldır zəhmətin neməti, nanı,
Cənnətə çevirir o bu dünyanı,
O yaşadır, o ucaldır insanı,
Qazandıran şərəf-şanı tapmışam.

O səbrdir nə yükləsən götürür,
Bağlar salıb gül-çiçəklər bitirir,
Arzuları, diləkləri yetirir,
Odur verən süfrə-nanı tapmışam.[185]

---

[184] *II variant* O vicdandır köməkçisi çox azdır,
Sədheyifki çoxlarında birazdır,
Onsuz könül qəm-qüssəli avazdır,
Zər sərrafı, hikmət-kanı tapmışam.

Deyirəm sözümü kəsə qısası,
Tərbiyədir insanlığın mənası,
Gərəkdirki, möhkəm ola əsası,
Kəşf etmişəm bu mənanı tapmışam.

Azalmasa insanların həyası,
Ona bəsdir mərifətin ziyası,
Tikiləcək səadətin binası,
Memar olub bu binanı tapmışam.

Məmnuniyəm ədəb-ərkan hörmətin,
Xeyirxahlıq, kəramətin, mürvətin,
Ar-namusun, abır-həya, ismətin,
Cahan içrə bu cahanı tapmışam.

Tamahdır insanı yoldan azdıran,
Odur quyuları tamam qazdıran,
Ən müqəddəs ünsiyyəti pozduran,
Vurub tökür, nahaq qanı tapmışam.

O günahdır dəftəri yox, sözü yox,
Nə dili var, nə ağızı, gözü yox,
El içində sifəti yox, üzü yox,
Gizli qalan sirri-kanı tapmışam.

Dava-dalaş insanları öldürür,
Dost-tanışı düşmənlərə güldürür,
Məhəbbəti paralayıb böldürür,
Odur salan ah-amanı tapmışam.

Cəmil getmir özgə yerə, xəbərə,
Nə fitnəyə, nə böhtana, nə şərə,
Qulluq edən bu aləmdi bəşərə,
Bu qüvvəni, bu təkanı tapmışam.

***Cəmil Əkbər*** 8. 08 – 1978

[185] Bu məzmunu, bu məkanı tapmışam.

## 95. EYDİR

*I variant*

Nadanlar yanında ağa olunca,
Qananlar yanında qul olmaq eydir.
Başbilən olunca, qağa olunca,
İnsan qapısında qul olmaq eydir.

Kəcinə işləyir dövrü-zəmanə,
Yaxşıları tay edirlər yamana,
Kamal sahibləri doyubdur cana,
Beylə bir məqamda mal olmaq eydir.

Çox mənəm deyənin dili kəsilib,
Quruyub çayları, kolu kəsilib,
Nəsli şil-küt olub, qolu kəsilib,
Danışıb dinməmək, lal olmaq eydir.

Deyib danışmağın səməri yoxdur,
Xalqa yetişəsi əsəri yoxdur,
Söz soydan düşübdür, kəsəri yoxdur,
İnləyib-sızlayan val olmaq eydir.

Dərd tüğyan eyləyir, üzmək çətindir,
Seyredib dünyanı sezmək çətindir,
Buqədər cəfaya dözmək çətindir,
Ağarıb saqqalı çal olmaq eydir.

İnsan övladına qəhər olunca,
Sahibsiz, viranə şəhər olunca,
Dəryalar dolusu zəhər olunca,
Dadmağa bir qaşıq bal olmaq eydir.

Ləyaqət əhlinə səcdə qılıram,
Baxıb hünərinə ilham alıram,
Könül rübabımda nələr çalıram,
Yanan ocağında kül olmaq eydir.

Kim xoşlayar qəm üstündə inləsin?
Yaraları qövr eyləsin, simləsin?
Gecə-gündüz ah-naləni dinləsin?
Könül rübabında zil olmaq eydir.

Hayana baxırsan qanın qaralır,
Gül-çiçəklər xəzanlarda saralır,
Gen dünyamız başımıza daralır,
Beylə zəmanədə kal olmaq eydir.

Adımbaşı qəlbimizə dəyirlər,
Xalq malını şülən çəkib yeyirlər,
Düz gedəni yol-izindən edirlər,
Beylə bir məqamda fil olmaq eydir.

Dünyanın işinə darılma Cəmil,
Usanıb bezikmə, yorulma Cəmil,
Nəqədər vursalar qırılma Cəmil,
Meydanda Rüstəmi-Zal olmaq eydir.

***Cəmil Əkbər*** 1. 06 – 1996

## 96. EYDİR

*II variant*

Nadanlarla oturmaqdan, durmaqdan,
Qananlar yanında qul olsam eydir.
Onu-bunu bezikdirib yormaqdan,
Bağban qapısında kol olsam eydir.

Niyə bəd gətirib dövrü-zəmanə?
Son qoyulmur ah-naləyə, amana?
Qiymət verilməyir yaxşı-yamana?
Kəllədar yanında mal olsam eydir.

Dilbilməz anlamaz nadan yanında,
Təlimdən yarımçıq dadan yanında,
Haqq-say unudub udan yanında,
Danışıb dinməyib lal olsam eydir.

Gör nəqədər haqsızlıqlar yeyilir?
Ünvanlara şər-böhtanlar deyilir?
Qurulanlar, düzələnlər əyilir?
İnləyən, sızlayan val olsam eydir.

Gərdişi-dövrana dözə bilmirəm,
Qəmlər dəryasında üzə bilmirəm,
Gedib kef-damağım, məzə bilmirəm,
Ağarıb saqqalım, çal olsam eydir.

Vətən övladına qəhər olunca,
Sahibsiz, dağılmış şəhər olunca,
Dəryalar dolusu zəhər olunca,
Dadmağa bir qaşıq bal olsam eydir.

Ləyaqət əhlinə sədaqətim var,
Mehri-ülfətim var, nəzakətim var,
Əlimdən nə gəlir, fəzilətim var,
Yanıb ocağında kül olsam eydir.

Hüsnünə vuruldum uca dağların,
Tarix yola salan qoca dağların,
Bəzirgan dağların, xoca dağların,
Döşündə bir anlıq sel olsam eydir.

İstəmirəm dərya kimi qabarım,
Qabağıma hər nə gəlsə aparım,
Səs-küy salıb, hay-həşirlər qoparım,
Sonalar məsgəni göl olsam eydir.

Xoşlamıram qəm üstündə inləyim,
Pəsə düşüb, bəm üstündə inləyim,
Əyər-əksik kəm üstündə inləyim,
Könül rübabında zil olsam eydir.

Dövrü-zəmanədə qananlar azdır,
Ləyaqət əhlini ananlar azdır,
Kərəmlər, Məcnunlar, Sənanlar azdır,
Hələ yetişməyib kal olsam eydir.

Addımbaşı xətirlərə dəyirlər,
Şah qaməti, vüqarları əyirlər,
Ünvanlara şər-böhtanlar deyirlər,
Bu dərdə tablaşan fil olsam eydir.

İstəmirəm qulaqları kar olam,
Ağaclarda qurd-quş yeyən bar olam,
Çürükləmiş alma, heyva nar olam,
Zəfəran, zəncəfil, hil olsam eydir.

Könül istər seyrə çıxam dağları,
Bar gətirən şamamalı tağları,
Bir də görəm gözəl dövran çağları,
Qərənfil, yasəmən, gül olsam eydir.

El içində qiymətimi saxlayıb,
Məzmunumu, hikmətimi saxlayıb,
Təmiz arzu, niyyətimi saxlayıb,
Sərraf bazarında ləl olsam eydir.

Dünyanın işinə darılma Cəmil!
Usanıb bezikmə, yorulma Cəmil!
Nəqədər vursalar, qırılma Cəmil!
Meydanda Rüstəmi-Zal olsam eydir.

***Cəmil Əkbər*** 1. 06 – 1996

## 97. HESABAT VER

*I variant*

Çox bay gəzib, bay dolanma,
Xidmətinlə hesabat ver.
Soyuqqanlı, key dolanma,
Zəhmətinlə hesabat ver.

Uyma qafil, cah-calala,
Bais olma dərd-məlala,
Düşmə belə kəc xəyala,
Şöhrətinlə hesabat ver.

Ona-buna lağ eyləmə,
Öz nisyəni dağ eyləmə,
Utan, biraz ağ eyləmə,
Hikmətinlə hesabat ver.

Haq yoluna inandınmı?
Yeri gəlcək sınandınmı?
Bərkdə-boşda tanındınmı?
Qeyrətinlə hesabat ver.

Üz-gözündə olsun həya,
Olsun məslək, olsun qayə,
Dadmısanmı halal maya?
İsmətinlə hesabat ver.

İnsafını atma bir an,
Vicdanını satma bir an,
Aralığı qatma bir an,
Mürvətinlə hesabat ver

Varla-halla öyünmə gəl,
Lovğalanıb söyünmə gəl,
Çalıb-çapıb geyinmə gəl,
Hörmətinlə hesabat ver.

Unutma sən dostu-yarı,
İlqara düz vəfadarı,
Ünsiyyəti kəsmə yarı,
Xislətinlə hesabat ver.

Qulluq eylə ada-sana,
Az əngəl ol ona-buna,
Peşman olma sondan-sona,
Riqqətinlə hesabat ver.

El gözündən düşüb getmə,
Əl-ayaqda qalıb itmə,
Kol-kos olub yolda bitmə,
Qiymətinlə hesabat ver.

Nə paxıl ol, nə də xəbis,
Nə acgöz ol, nə də həris,
Bədəmələ olma varis,
Niyyətinlə hesabat ver.

Göstər görüm ürəyini?
Nəcib arzu-diləyini?
Elə, xalqa gərəyini?
Niyyətinlə hesabat ver.

Sadə yaşa, sadə dolan,
Peyvənd olub, qəlbə calan,
İncimәsin darda qalan,
Nüsrətinlə hesabat ver.

Cəmil Əkbər keylik etmə,
Xəsis olub göylük etmə,
Zəmanədə zaylıq etmə,
Diqqətinlə hesabat ver.

***Cəmil Əkbər*** 30.10 – 1989

## 98. HESABAT VER

*II variant*

Elə-belə baş girləmə,
Zəhmətinlə hesabat ver.
Ömür sürüb, yaş girləmə,
Xidmətinlə hesabat ver.

Nəzər yetir əhli-hala,
Bais olma dərd-məlala,
Nə düşmüsən xam xəyala?
Şöhrətinlə hesabat ver.

Ona-buna lağ eyləmə,
Həddi aşıb ağ eyləmə,
Öz nisyəni dağ eyləmə,
Hikmətinlə hesabat ver

Üz-gözündə olsun həya,
Vicdan məslək, təmiz qayə,
Halal süfrə, halal maya,
İsmətinlə hesabat ver.

Aralığı qatma aman,
İnsafını atma aman,
Ayıl, oyan, yatma aman,
Mürvətinlə hesabat ver.

Yerli-yersiz sevinmə gəl,
Lovğalanıb öyünmə gəl,
Al qırmızı geyinmə gəl,
Hörmətinlə hesabat ver.

Unutmaynan dostu-yarı,
Əhdi-peyman, düz ilqarı,
Gözlə hər an etibarı,
Xislətinlə hesabat ver.

Nəzər yetir ada-sana,
Əngəl olma ona-buna,
Unutmaynan sondan-sona,
Riqqətinlə hesabat ver.

Yaşa, yarat, sadə dolan,
Peyvənd olub, qəlbə calan,
İncimənsin darda qalan,
Nüsrətinlə hesabat ver.

Cəmil Əkbər keylik etmə,
Xəsis olub göylük etmə,
Zəmanədə bəylik etmə,
Diqqətinlə hesabat ver.

***Cəmil Əkbər*** 30.10 – 1989

## 99. ÖZÜN BİL

İlahi çox şükür verdiyin paya,
Az da olubdursa, çox da özün bil.
Çox şükür verdiyin çörəyə, çaya,
Var da veribsənsə, yox da özün bil.

Sənsən həm kəramət, mürvət sahbi,
Cəsarət, fərasət, cürət sahibi,
Həm nicat sahibi, nüsrət sahibi,
Ac da yaradıbsan, tox da özün bil.

Ağladan da sənsən, güldürən də sən,
Anladan da sənsən, bildirən də sən,
Dirildən də sənsən, öldürən də sən,
Nahaq da olubsa, haq da özün bil.

Əzəldən müştağam şirin sözlərə,
Abırlı, ismətli olan üzlərə,
Məni məftun edən alagözlərə,
Kaman da veribsən, ox da özün bil.

Kimi kasıb oldu, kimi də varlı,
Kimi arsız oldu, kimi də arlı,
Kimi barsız oldu, kimi də barlı,
Tale də veribsən, bəxt də özün bil.

Kimi gədə oldu, kimi bəy oldu,
Kimi aqil oldu, kimi səy oldu,
Kimi Hatəm oldu, kimi göy oldu,
Tac da veribsənsə, təxt də özün bil.

Mən Cəmil Əkbərəm, halaldı mayam,
Təmizdi məsləyim, əqidəm, qayəm,
Kamildi ustadım, dərs verib dayəm,
Saf da sayırsansa, saxta, özün bil.

***Cəmil Əkbər*** 27. 06 – 1993

## 100. ÖZÜN BİL

İnsanoğlu Haqq yoluna gəlməsən,
Düşəcəyik müsibətə özün bil.
Doğru-düzlük həqiqəti bilməsən,
Düşəcəyik fəlakətə özün bil.

Şər işlərdən uzaşmasan, qaçmasan,
Qanad çalıb zirvələrdə uçmasan,
Ziyamıza ünsiyyətdə saçmasan,
Düşəcəyik qiyamətə özün bil.

El obanın əhvalına qalmasan,
Haqq-sayı yadınıza salmasan,
Xoş əməldən ilhamını almasan,
Düşəcəyik xəcalətə özün bil.

Ünsiyyəti əbəs yerdən pozmayaq,
Ayaq altdan külüngləyib qazmayaq,
Yaxşılara yaman deyib yozmayaq,
Düşəcəyik küdurətə özün bil.

Bədəməldən tövbə edib bir doyun,
Törədilən qal-qovğaya son qoyun,
Bəsdir daha çıxarılan bu oyun,
Düşəcəyik ədavətə özün bil.

Zalımlıqdan əlimizi çəkməsək,
Sözümüzü, dilimizi çəkməsək,
Obamızı, elimizi çəkməsək,
Düşəcəyik şikayətə özün bil.

Ustadları, ağsaqqalı qanmasaq,
Məqamında yada salıb anmasaq,
Sözlərinə məhəl qoyub sanmasaq,
Düşəcəyik cəhalətə özün bil.

Ləyaqət əhlini anlayanmasaq,
Özünü qınayıb danlayanmasaq,
Kötəklə, qırmancla yanlayanmasaq,
Düşəcəyik qəbahətə özün bil.

Başımızda kamalımız çatmasa,
Əqidəmiz, amalımız çatmasa,
Arxamızda mahalımız çatmasa,
Düşəcəyik sədarətə özün bil.

Biz Cəmil Əkbəri dərk edənməsək,
Qovub avamlığı tərk edənməsək,
Yolunu azana görk edənməsək,
Düşəcəyik fəlakətə özün bil.

***Cəmil Əkbər*** 22.06 – 1997

## 101. ZƏRƏRLİ ÜNSÜRLƏR

Zəmanədə ən zərərli ünsürlər,
Cahillərdir, avamlardır, nadandır.
Tərbiyədən kəm-kəsirlə dadanlar,
Hiyləgərdir, dələduzdur, yaltaqdır.
Abırsızdır, həyasızdır, sırtıqdır.
Nanəcibdir, naxələfdir, naqisdir.
Paxıllardı, xainlərdi, xəbisdir.
Tamahkardır, acgözlərdir, hərisdir.
Ləyaqətdən, mərifətdən xəsisdir.

Zəmanədə ən zərərli ünsürlər,
Kamalından kəm-kəsirlər, qıtlardır,
Amalından, məsləyindən kütlərdir,
Görə-görə görməyənlər, korlardır,
Eşitsə də eşitməyən karlardır.

Zəmanədə ən zərərli ünsürlər,
Yaxşıları yamanlara qatandır,
Vicdanını, məsləyini satandır.
Ünsiyyəti-ülfətləri pozandır,
Doğruları tərsəməssəb yozandır.
Şər uydurub fitnə-fəsad yazandır,
Ayaq altdan dərin quyu qazandır.

Zəmanədə ən zərərli ünsürlər,
Qan qaraldıb, könülləri qırandır.
Gecə-gündüz qəsd-qərəzdə durandır,
Sinələrə dağ-düyünlər vurandır,
Zəli kimi al-qanları sorandır.

Zəmanədə ən zərərli ünsürlər,
El varıyla gözələnib dolandır,
Ünsiyyətdə saxtalıqdır, yalandır.

Zəmanədə ən zərərli ünsürlər,
Ömürboyu qəflətlərdə yatandır.
Bəd iş tutub günahlara batandır,
Mərd igidi namərdlərə satandır.

Zəmanədə ən zərərli ünsürlər,
İnsanlığı, kəc anlayıb qanandır,
Ədaləti-həqiqəti danandır.
Hiyləgərdi, dələduzdu, biclərdi,
İlqarına-imanına kəclərdi.

Zəmanədə ən zərərli ünsürlər,
İdrakından, kamalından kütlərdir.
Laqeyiddi, müqəvvadı, bütlərdir,
Filə hürən alabaşlar, itlərdir.
Ayaq ola-ola başa çıxandır,
Üzüyə salınan qaşa çıxandır.

***Cəmil Əkbər***

## 102. ZƏRƏRLİ ÜNSÜRLƏR

*I variant*

Gör haçandan zühur eyləyib bu zərərli ünsürlər?
Onu-bunu ələ salıb, dövranını sürürlər.
Yerbəyerdən törəyərək, təbiətdə yaşayır,
Səpələnmiş el-obaya, məmləkətdə yaşayır.
Bu bəd nəsil harda varsa, cəmiyyəti pəsinməyir,
Bədəməllər törətsə də, ürpənməyir, diksinməyir.

Bu ünsürlər harda varsa avamlardır, nadanlardır,
Vicdanı kəm, məsləyi kəm, haqq-sayı udanlardır.
Tərbiyədən kəm-kəsirlər, alayarı dadanlardır,
Doğruluğa qənim çıxıb, tərsəməssəb adanlardır.
Abır-həya gözləməyən həyasızlar, sırtıqlardır,
İnsanlıqdan uzaq olan sürtüklərdir, artıqlardır.
Paxıllardır, xainlərdir, manqurtlardır, xəbislərdir,
Tamahkarlar, acgözlərdir, nanəciblər, naqislərdir.
Zəmanədə gör nə çoxdur, aramızda bu ünsürlər,
Kef eyləyir, dövran sürür, sıramızda bu ünsürlər.
Bəşər üçün, millət üçün qəhər verir bu ünsürlər,
İnsanlığı şil-küt edir, zəhər verir bu ünsürlər.
Neyləyəsən, əfsus olsun, beləlari oqədərdir,
Tamahının, nəfsinin köləlari oqədərdir.
Görə-gərə görməyənlər, gözü korlar oqədərdir,
Əqidədən kəm-kəsirlər, qəlbi darlar oqədərdir.
Qiyafətcə insansada, özü mallar oqədərdir,
Nə gizlədib, nə danasan sözü kallar oqədərdir.
Fikri çaşlar, zikri çaşlar, xam xəyallar oqədərdir,
Bəşər üçün, millət üçün, dərd-məlallar oqədərdir.
Ünsiyyəti, ülfətləri qəsd-qərəzlə pozur onlar,
Doğru-düzlük, həqiqəti, tərsəməssəb yozur onlar.
El qanını sora-sora gözələnib dolur onlar,
Yeyib-içib məzələnib "Bağdaduru" çalır onlar.
Bəd işlərlə, əməllərlə ünsiyyəti korlayırlar,
Al-qanları qaraldaraq hissimizi zorlayırlar,
Bu ünsürlər azalan döy, gündən-günə törəyirlər.
Əfsuslarki bu ünsürə bircə kəlmə söz deyilmir,
Yalan-yanlıc tərif olur, sözlər ona düz deyilmir.
Bu zərərli ünsürləri məqamında vuran yoxdur,
Qollarını bağlayaraq, dizlərini qıran yoxdur.
Qısqanmadan onları biz öz yerinə qoymalıyıq,
Tanıtdırıb mənliyini, düz yerinə qoymalıyıq.
Özgələrdən imdad yoxdur, biz yerinə qoymalıyıq,
Zaman keçir, vaxt ötüşür, tez yerinə qoymalıyıq.

***Cəmil Əkbər*** 25. 10 – 1996

## 103. ZƏRƏRLİ ÜNSÜRLƏR

*II variant*

Gör haçandan zühur eyləyib bu zərərli ünsürlər?
O da bircür yaşayaraq, dövranını sürürlər.
Yerbəyerdən törəyərək, təbiətdə yaşayır,
Məskən salıb el-obada, məmləkətdə yaşayır.
Harda varsa, bu nəsillər cəmiyyəti pəsinmir,
Bədəməllər törətsə də, ürpəşməyir, diksinmir.
Bu ünsürlər harda varsa avamlardır, nadandır,
Vicdanı kəm, məsləyi kəm, haqq-sayı udandır.
Tərbiyədən kəm-kəsirlər, alayarı dadandır,
Doğruluğa qənim çıxıb, tərsəməssəb adandır.
Abır-həya gözləməyən həyasızlar, sırtıqdır,
İnsanlıqdan uzaq olan, sıramızda artıqdır.
Paxıllardır, xainlərdir, mənfurlardır, xəbisdir,
Tamahkarlar, acgözlərdir, nanəciblər, naqisdir.
Zəmanədə gör nə çoxdur, aramızda beləsi,
Kef eyləyir, dövran sürür, sıramızda beləsi.
Bəşər üçün, millət üçün qəhər verir həmişə,
İnsanlığı şil-küt edir, zəhər verir həmişə.
Neyləyəsən, əfsus olsun, belələri az deyil,
Tamahının, nəfsinin kölələri az deyil.
Görə-gərə görməyənlər, gözü korlar oqədər,
Əqidədən kəm-kəsirlər, qəlbi darlar oqədər.
Qiyafətcə insansada, özü mallar oqədər,
Nə gizlədib, nə danasan sözü kallar oqədər.
Fikri çaşlar, zikri çaşlar, xam-xəyallar oqədər,
Bəşər üçün, millət üçün, dərd-məlallar oqədər.
Ünsiyyəti, ülfətləri qəsd-qərəzlə pozurlar,
Doğru-düzlük, həqiqəti, tərsəməssəb yozurlar.
El qanını sora-sora gözələnib dolurlar,
Yeyib, içib məzələnib “Bağdaduru” çalırlar.
Bəd işlərlə, əməllərlə ünsiyyəti korlayır,
Al-qanları qaraldaraq hissimizi zorlayır.
Bu ünsürlər azalan döy, gündən-günə törəyir.
Əfsuslar ki, bu ünsürə bircə kəlmə deyilmir,
Yalan-yanlıc tərif olur, doğru sözlər deyilmir.
Bu zərərli ünsürləri məqamında vuran yox,

Qollarını bağlayaraq, dizlərini qıran yox.
Qısqanmadan biz onları qoymalıyıq yerinə,
Tanıtdırıb mənliyini, döyməliyik sərinə.
Özgələrdən ümid yoxdur, biz yerinə qoymalı,
Zaman keçir, vaxt ötüşür, tez yerinə qoymalı.

***Cəmil Əkbər*** 25. 10 - 1996

## 104. AFƏRİN

Mən səndəki bu adətə nə deyim?
Harda aş var, orda başsan "afərin".
Bacarığa, məharətə nə deyim?
Harda üzük, orda qaşsan "afərin".[186]

Ona-buna irişirsən eyhamla,
Sabınlanıb girişirsən eyhamla,
Yeri gəlsə sürüşürsən eyhamla,
Harda haqq var, orda çaşsan "afərin".[187]

Baş işlədib girişmirsən dərinə, [188]
Çəkilirsən kölgələrə, sərinə,
Darılırsan onun-bunun zərinə,[189]
Harda şüşə, orda daşsan "afərin".

Baxan kimi tanıyırsan yerini,[190]
Zəhmət çəkib axıtmırsan tərini,
Hey güdürsən öz xeyrini, şərini,[191]
Harda bahar, orda qışsan "afərin".[192]

---

[186] *II variant* Mən səndəki fərasətə nə deyim?
Harda aş var, orda başsan "afərin".
Hünərinə, cəsarətə nə deyim?
Harda üzük, orda qaşsan "afərin".

*III variant* Mən səndəki məharətə nə deyim?
Harda aş var, orda başsan "afərin".
Bu vərdişə, bu adətə nə deyim?
Harda üzük, orda qaşsan "afərin".

[187] Harda düz var, orda çaşsan "afərin".

[188] Məhəl qoyub girişmirsən dərinə.

[189] Güc vermirsən kamalına, sərinə.

[190] Yaxşı görüb tanıyırsan yerini.

[191] Güdməkdəsən öz xeyrini, şərini.

[192] Harda ac var, orda aşsan "afərin".

Yaxşı işlə əzəl gündən aran yox,
Qövr eyləyən, sızıldayan yaran yox,
Əfsuslarki iliyini vuran yox,
Harda yaz var, orda qışsan "afərin".

Xainlikdə, xəbislikdə tayın yox,
Nanəciblik, naqislikdə tayın yox,
Acgözlükdə, hərislikdə tayın yox,
Harda kabab, orda şişsən "afərin".

Yaxşı işlə əzəl gündən aran yox,
İnildəyən, sızıldayan yaran yox,
Bir xəstəyə dərmanın yox, çaran yox,[193]
Harda yemək, orda dişsən "afərin".

Ona-buna dodağını büzürsən,
Xain-xain qaş-gözünü süzürsən,
Gendən-genə uzaqlarda gəzirsən,[194]
Harda quru, orda yaşsan "afərin".

Varlılarla, hallılarla işin yox,
Güclülərlə, karlılarla işin yox,
Pullularla, mallılarla işin yox,
Harda zor var, orda xoşsan "afərin".

***Cəmil Əkbər*** 29. 11 -1992

## 105. NƏİMİŞ?

*I variant*

İlahi çox şükür verdiklərinə,
Yaxşını verirdin, pislər nəimiş?
Möhüblər düzərək gördüklərinə,
Xeyirxah yanında nəslər nəimiş? [195]

---

[193] Xəstələrə dərmanın yox, çaran yox.

[194] Əllərini-əllərindən üzürsən.

[195] *II variant* İlahi çox şükür verdiklərinə,
Yaxşını verirdin bəs pislər nədir?
Eşidib, bildiyin gördüklərinə,
Xeyirxah vermisən bəs nəslər nədir?

Əhsən, bərəkallah gözəllərinə,
Sonatək göllərdə üzənlərinə,
Könül diyarında gəzənlərinə,
Gözəli verirdin, çirkin nəimiş?[196]

Ruhumu oxşayan zərif güllərə,
Adına, sanına tərif güllərə,
Tərtəmiz güllərə, lətif güllərə,
Kol-koslar, qanqallar, tikan nəimiş?

Həryanda çalına, toy-büsat ola,
Qara zurna ola, nağarat ola,
Qurula həryanda bu barat ola,
Nikbinlər var imiş, bədbin nəimiş?

Yaşasın deyirəm zəhmətkeşlərə,
El yükünü çəkən, cəfakeşlərə,
Haqq-say qoyana, möhnətkeşlərə,
Dağıdıb, talayan, sökən nə imiş?

Böyük ehtiram var günəşə, aya,
Dənizə, dəryaya, çeşməyə, çaya,
Haqqın bəxş etdiyi ən gözəl paya,
Zülməttək araya çökən nə imiş?

Min əhsən deyirəm əhli-hallara,
Təmiz vicdanlara, saf xəyallara,
Dərin-düşüncəli pürkamallara,
Bezdirib zəhlələr tökən nəimiş?

Min şükür deyirəm pərvərdigara,
Salmasın insanı çətinə, dara,
Xələl gətirməsin ol etibara,
Düşməsin könülə güman nəimiş?

***Cəmil Əkbər*** 30. 06 -1986

---

[196] *II variant* Vermisən bizlərə min cahi-cəlal,
Nəciblik, zəriflik, kəramət, vüsal,
De kimə lazımdır qüssə, dərd, məlal?
Bu fəqan, nalələr, bəm səslər nədir?

## 106. NƏİMİŞ?

*II variant*

İlahi çox şükür verdiklərinə,
Gözəli verirdin, çirkin nəimiş?
Eşidib, duyduğun gördüklərinə,
Nikbini verirdin, bədbin nəymiş?

Kimin nə sözü var məharətinə?
Səxavət, kəramət, ol qüdrətinə?
Etibar, etiqat, sədaqətinə?
Yaxşını verirdin, yaman nəimiş?

Təzim eyləyirik qibləgahına,
Hökmü çıxardığın qərargahına,
Xilqəti bağışla öz dərgahına,
Şirini verirdin, acı nəimiş?

Kamalmı yetişər bildiklərinə?
Bəndə çalışsa da güldüklərinə?
Onlar düzəltdikcə əydiklərinə?
Nəşəni verirdin, əzab nəimiş?

Bir yanda doğruluq, bir yanda xəta,
Bir yanda oğruluq, bir yanda əta,
Bununla yetirdin nəyi isbata?
Savabı verirdin, günah nəimiş?

Aləmi yaşadan nurdur, günəşdir,
Xaki-baddır, həm də abu-atəşdir,
Bu necə finişdir, nə bəhsəbəsdir?
İstini verirdin, soyuq nəimiş?

Mərhaba deyirəm üzüağlara,
Fikiri, zikiri sözühaqlara,
Yolları şahraha, izi sağlara,
Əyib qamətini bükən nəimiş?

Vicdan hakim olub ürəklərdədir,
Saf arzu-istəkdə, diləklərdədir,
Cəmil ovçu təki sürəklərdədir,
Eybəcər höcətlər, bəs tərs nəimiş?

***Cəmil Əkbər*** 30. 06 -1986

## 107. NƏ SƏNDƏDİR, NƏ MƏNDƏ

Təqsir nə səndədir, nə də məndədir,
Səni bu dünyaya gətirəndədir.
Nə dağda, nə bağda, nə çəməndədir,
Səni kol-kos kimi bitirəndədir.

Günah nə səndədir, nə də məndədir,
Nə şəhər, qəsəbə, nə də kənddədir,
Nə ayda, ulduzda, nə də gündədir,
Səni qoruğuma ötürəndədir.

Nə yolum, cığırım, nə izimdədir,
Nə işim, nə gücüm, nə sözümdədir,
Nə atam, nə anam, nə özümdədir,
Məni nəzərindən itirəndədir.

Təqsir nə əqildə, kamalda deyil,
Məslək, əqidədə, amalda deyil,
Görkəmdə, yöndəmdə, camalda deyil,
Möhnəti boynuna götürəndədir.

Təqsir nə oğulda, nə də qızdadır,
Nə tar-kamançada, nə də sazdadır,
Nə muğam, nə segah, nə avazdadır,
Onu cəmaətə yetirəndədir.

***Cəmil Əkbər*** 30. 11 -1986

## 108. ƏYDİ

Lənət zəmanədə kəc gərdişlərə,
Dəydi qamətimə, belimi əydi.
Haqqa-ədalətə öc vərdişlərə,
Bağladı nitqimi, dilimi əydi.

Mənə ögey etdi doğma kəndimi,
Sarsıtdı huşumu, aldı fəndimi,
Ayırdı qajımı, qırdı bəndimi,
Pozdu kanalımı, selimi əydi.

Məhəl qoyulmadı söz mətahına,
Əsl mətahına, düz mətahına,
Qəlbimi yandıran köz mətahına,
Korlayıb incimi, ləlimi əydi.

Məkrlə, kələklə başımı qatdı,
Fikir, xəyalımı, huşumu qatdı,
Çıxıb axırıma, daşımı atdı,
Təfəkkür, təxəyyül, felimi əydi.

Hər yetən gədələr girdi qəsdimə,
Dəydi xatirimə, dəydi şəsdimə,
Dartıldı üsdümə, hürdü üsdümə,
Qanırıb qolumu, əlimi əydi.

İxtiyar verildi başıboşlara,
Vicdani-kəmlərə, qəlbi-daşlara,
Filə hücum edən alabaşlara,
Çaşdırdı ayımı, ilimi əydi.

Kökündən oynadıb laxlatdı məni,
Hərzaman, hər yerdə saxlatdı məni,
Hər addımbaşında yoxlatdı məni,
Bəmimi puç etdi, zilimi əydi.

Ninalarla, Tanyalarla dost edib,
Hayqanuşla, Sonyalarla dost edib,
Vartanuşla, Anyalarla dost edib,
Pozaraq höyrümü, dölümü əydi.

Pozdu ünsiyyəti, pozdu ülfəti,
Mat qoydu bəşəri, xalqı, milləti,
Saldı aralığa yaman hiddəti,
Muğanı, Şirvanı, Mlilimi əydi.

***Cəmil Əkbər*** 1. 06 -1986

## 109. GÖRÜNMƏDİ

Bir cahil sərsəri başımı qatdı,
Gözümdə nə günəş, ay görünmədi.
Axırıma çıxdı, daşımı atdı,
Gözümdə nə bahar, yay görünmədi.[197]

Səy oğlu yaranıb, əzəldən səydi,
Oturub-duranda qəlbimə dəydi,
Vurub qamətimi, qəddimi əydi,
Gözümdə nə dərya, çay görünmədi.[198]

Qalmaqal içində ötüşdü yaşım,
Tutuldu qabağım, çatıldı qaşım,
Qarışdı zəhərə halalca aşım,
Gözümdə nə sovqat, pay görünmədi.[199]

Çoxları dar gündə kara yetmədi,
Eyləyib dərdlərə çara etmədi,
Ha caladın, ha suladın bitmədi,
Gəlmədi səmiri, hay görünmədi.

Sarsıldı əhvalım, pozuldu kefim,
Tükəndi qazancım, azaldı nəfim,
Çalındı təbilim, vuruldu dəfim,
Gözümdə nə nəşə, vay görünmədi.

---

[197] *II variant*
Bir cahil sərsəri başımı qatdı,
Gözümə nə bahar, yay görünmədi.
İnsafı mürvəti bir anda atdı,
Gözümə nə dərya, çay görünmədi.

[198] *II variant*
Toxundu qəlbimə, xətrimə dəydi,
Bilmədim məqsədi, mətləbi nəydi?
Dedilər: “bənd olma, səyoğlu səydi”,
Gözümdə nə günəş, ay görünmədi.

[199] *II variant*
Yatan yatdı, çalışanlar çalışdı,
Küsən-küsdü barışanlar-barışdı,
Qalmaqal içində başım qarışdı,
Gözümdə nə sovqat, pay görünmədi.

Dolandı qərinə, ötdü fəsillər,
Çəkdilər kefini yaxşı nəsillər,
Seyrinə çıxaraq baxdı Cəmillər,
Deşdi sinəsini, yay görünmədi.

***Cəmil Əkbər*** 24. 10 – 1985

## 110. ÇATMASA

İnsan oğlu birbirinə pis olar,
Ədəb-ərkan, mərifəti çatmasa.
Qəddar olar, bədxah olar, nəs olar,
İnsanlıqda ləyaqəti çatmasa.

Bəd hərlənər, bəd oturar, bəd durar,
Bəd yaşayar, bəd yaradar, bəd qurar,
Nişan alıb bəd tuşlayıb, bəd vurar,
İnsaf-mürvət, kəraməti çatmasa.

İlqarında dura bilməz nər kimi,
İgid kimi, kişi kimi, ər kimi,
Sayılanmaz, seçilənməz zər kimi,
Sədaqəti, səxavəti çatmasa.

Gözəlliklər pis görünər gözünə,
Qiymət qoymaz özgəsinə, özünə,
Su calanar ocağına, közünə,
İnsanlıqdan əlaməti çatmasa.

Nə xətir gözləyər, nə hörmət qanar,
Nə öyüd götürər, nəsihət qanar,
Nə el məzəmməti, nə töhmət qanar,
Nəcib istək, məhəbbəti çatmasa.

Nə sözün-söhbətin, əsəri olar,
Qılıncı, qalxanı, kəsəri olar,
Xeyiri, səməri, bəhəri olar,
Öz fəhmi, fərasəti çatmasa.

Ha səsləsən haq yoluna çıxanmaz,
Ədalətin gözünə şax baxanmaz,
Ar eyləyib ürəyini sıxanmaz,
Saf arzusu, pak niyyəti çatmasa.

Bircə işi axırına yetirməz,
Zəhmət çəkib bircə gül də bitirməz,
Nəsihət eşitməz, öyüd götürməz,
Əsli-nəsli, nəcabəti çatmasa.

Eşidənlər qınamasın Cəmili,
Bərkdə-boşda sınamasın Cəmili,
Arxasından yanımasın Cəmili,
Məna dolu söz-söhbəti çatmasa.

***Cəmil Əkbər*** 25. 05 -1985

## 111. KƏM OLSA

İnsanoğlu birbirinə pis olar,
Ədəb-ərkan, mərifətdən kəm olsa.
Qəddar olar, bədxah olar, nəs olar,
Sədaqətdən, səxavətdən kəm olsa,

Bəd yaşayar, bəd hərlənər, bəd durar,
Bəd yaşadar, bəd yaradar, bəd qurar,
Mizan alıb bəd tuşlayıb, bəd vurar,
İnsaf-mürvət, kəramətdən kəm olsa.

İlqarında dura bilməz heçzaman,
İgid kimi, kişi kimi, heçzaman,
Sayılanmaz, seçilənməz heçzaman,
Sədaqətdən, səxavətdən kəm olsa.

Gözəlliklər pis görünər gözünə,
Qiymət qoymaz özgəsinə, özünə,
Su calanar ocağına, közünə,
İnsanlıqdan, ləyaqətdən kəm olsa.

Nə xətir tanıyar, nə hörmət qanar,
Nə məzəmmət, qınaq, nə töhmət qanar,
Nə ülviyyət qanar, qüdsiyyət qanar,
Nəcib istək, məhəbbəti kəm olsa.

Nə sözün-söhbətin, əsəri olar,
Xeyiri, faydası, səməri olar,
Qılıncı, qalxanı, kəsəri olar,
Bacarıqdan, məharətdən kəm olsa. [200]

Ha çəksən də haq yoluna çıxanmaz,
Ədalətə, həqiqətə baxanmaz,
Xəcil olub ürəyini sıxanmaz,
Abır, həya, ar, ismətdən kəm olsa.[201]

Becərməklə, bəsləməklə yetişməz,
Çağırmaqla, səsləməklə yetişməz,
Məzəmmətlə, pisləməklə yetişməz,
Əsl kökdən, nəcabətdən kəm olsa.

Könül bulağının gözü kor olar,
Əyrini görsə də düzü kor olar,
Ay Cəmil, lal olar, gözü kor olar,
Saf-arzudan, pak niyyətdən kəm olsa.

***Cəmil Əkbər*** 25. 05 -1985

---

[200] *II variant* Nə sözün-söhbətin, əsəri olar,
Faydası, təsiri, səməri, olar,
Nə qılınc-qalxanı, kəsəri olar,
Əsl zatdan, nəcabətdən kəm olsa.

[201] *II variant* Ha getsə də haq yoluna çıxanmaz,
Ar eyləyib ürəyini sıxanmaz,
Ədalətə, həqiqətə baxanmaz,
Abır-həya, ismətindən kəm olsa.

## 112. QIZIL GÜL

Təbiət nəqədər gözəl yaradıb?
Hər çiçəkdən ətirlisən qızıl gül.
Bəlkə də gözəldən əzəl yaradıb?
Hər göyçəkdən xətirlisən qızıl gül.

Ətirinlə yaraşıqsan ellərə,
Çəmənlərə, çəmənzara, çöllərə,
O səbəbdən car olmusan dillərə,
Məna dolu sətirlisən qızıl gül.

Alyanağın lalə kimi qızarır,
Həzin-həzin, zərif-zərif közərir,
Gör şəninə nə cəh-cəhlər düzəlir,
Min çələngli çətirlisən qızıl gül.

Darılmaki tez-tələsik solursan,
Sən solsanda qəlbimizdə qalırsan,
Könüllərdə öz kamını alırsan,
Sənki, məndən tutarlısan qızıl gül.

***Cəmil Əkbər*** 23. 05 – 1986

## 113. UMMAQ ƏBƏSDİR

Bədəsildən, nanəcibdən, nakəsdən,
Mərifət, ləyaqət ummaq əbəsdir.
Tamahkirdən, acgözlərdən, hərisdən,
Kəramət, səxavət ummaq əbəsdir.[202]

Hiyləgərdən, dələduzdan, biclərdən,
Sərsəridən, kəmağıldan, giclərdən,
Bədniyyətli inadlardan, öclərdən,[203]
Məhəbbət, mərhəmət ummaq əbəsdir.[204]

---

[202] *II variant* Yarımçıq, bədəsil, naqis kəslərdən,
Nəcabət gözləmək, ummaq əbəsdir.
Tamahkir, acgözdən, həris kəslərdən,
Səxavət gözləmək, ummaq əbəsdir.

[203] Tərsəməssəb düşünəndən, öclərdən,

[204] Sədaqət gözləmək, ummaq əbəsdir.

Bədniyyətdən, bədxahlardan, nacinsdən,
Paxılardan, xainlərdən, xəbisdən,
Hər yetirən nəqabildən, o pisdən,
Ülviyyət, qüdsiyyət, ummaq əbəsdir.[205]

Qayda-qanun, yol-ərkanı azandan,
Fitnə-fəsad, şər-böhtanı yazandan,
Düz fikiri tərsəməssəb yozandan,
Tərbiyə, nəsihət ummaq əbəsdir.[206]

İlqar, iman, peymanına yalandan,
Əqidəsi bərbadlardan, talandan,
İnsanlıqdan çox uzaqda qalandan,
Dəyanət, qətiyyət, ummaq əbəsdir.[207]

Hər yetirən bambılıdan, gədədən,
Şaqquludan, hoqquludan, dədədən,
Könül mülkü viranədən, zədədən,
Kəramət, mərifət, ummaq əbəsdir.

Qəflətlərdə məskən salıb yatandan,
Yaxşıları yamanlara qatandan,
Namərdliklə məqsədinə çatandan,
Nəzakət, xoş əxlaq, ummaq əbəsdir.

---

[205] *II variant* Bədniyyətdən, bədxahlardan, nəslərdən,
Xainlərdən, xəbislərdən, pislərdən,
Hər yetirən gədalardan, kəslərdən,
Ləyaqət, şərafət, ummaq əbəsdir.

[206] *II variant* Hər yetirən, yol-ərkanı azandan,
Ona-buna dərin quyu qazandan,
Düzü-əyri, əyrini-düz yazandan,
Nəsihət gözləyib, ummaq əbəsdir.

[207] *II variant* İlqarsızdan, imansızdan, yalandan,
Əqrəblərdən, əfilərdən, ilandan,
İnsanlıqdan çox uzaqda qalandan,
Ədalət, gözləmək ummaq əbəsdir.

Şər danışıb, böhtanlara uyandan,
İblis, əqrəb, şeytanlara uyandan,
Aralığı qatanlara uyandan,
Həqiqət gözləmək, ummaq əbəsdir.

Kiminki üzündə həyası yoxdur,
Amalı, məsləyi, qayəsi yoxdur,
Bir kamil ustadı, dayəsi yoxdur,
İnsani ləyaqət, ummaq əbəsdir.

Alçaqlardan, mənfurlardan, xəbisdən,
Namərdlərdən, nanəcibdən, naqisdən,
Zalımlardan, qəddarlardan, o pisdən,
Hörmət, ehtiramı ummaq əbəsdir.[208]

Ey Cəmil ümidi mərdlərə bağla,
Onlara dərdikib, onlara ağla,
Onlarla fərəhlən, öyünüb çağla,
Namərddən bərəkət ummaq əbəsdir.

***Cəmil Əkbər*** 27. 01 – 1986

## 114. KÜRD OĞLUNA

A Kürd oğlu o nə sözdü yazmısan?
Nihayətdi, nihayətdi, nihayət!
Dost-tanışın bir birinə salamı,
Şikayətdi, şikayətdi, şikayət!

Eşit məni, bu dünyanın mənası,
Həqiqətdi, həqiqətdi, həqiqət.
Ünsiyyətin, hər ülfətin əsası,
Ədalətdi, ədalətdi, ədalət!

Səni məni el içində tanıdan,
İmtahanda bərkdə-boşda sınadan,
Yetişdirib, zühur etdirən anadan,
Ünsiyyətdir, ünsiyyətdir, ünsiyyət!

---

[208] *II variant*
Birkəsin ki, haqqı-sayda sözü yox,
Babası yox, atası yox, özü yox,
Yolağı yox, keçidi yox, izi yox,
Nəcabət, gözləmək, ummaq əbəsdir.

Ürəkləri birbirinə bağlayan,
Vəcdə gəlib, ümman kimi çağlayan,
Daşa dəysə uşaq kimi ağlayan,
Məhəbbətdir, məhəbbətdir, məhəbbət!

Ürəklərə qüvvət verən, can verən,
İnsaf verən, vicdan verən, qan verən,
Məclis qurub, süfrə açıb, nan verən,
Sədaqətdir, sədaqətdir, sədaqət!

Zinət verən kainata, cahana,
Hər dövürə, hər məqama, zamana,
Dövran verən, həyat verən insana,
Cəmiyyətdir, cəmiyyətdir, cəmiyyət!

Düz eşidib, düz anlayıb görməmək,
Düz oturub, düz dolanıb durmamaq,
Bəşər üçün yaratmamaq qurmamaq,
Xəyanətdi, xəyanətdi, xəyanət!

Bu cahanı sızıldadan, ağladan,
Tərəqqinin qapısını bağladan,
Sinələri od-ocaqsız dağladan,
Cəhalətdi, cəhalətdi, cəhalət!

Haqq yolunu tanımamaq, bilməmək,
El xeyrinə danışmamaq, gülməmək,
Bədəməldən utanmamaq, ölməmək,
Cinayətdi, cinayətdi, cinayət!

Bir peşəyə bağlanmamaq, uymamaq,
El malından yeyib-içib doymamaq,
Böyük-kiçik tanımamaq, saymamaq,
Fəlakətdi, fəlakətdi, fəlakət!

Kərəm kimi eşq oduna yanmamaq,
Fərhad kimi qayaları çapmamaq,
Cəmil kimi bir insanı qanmamaq,
Qəbahətdi, qəbahətdi, qəbahət!

***Cəmil Əkbər***

## 115. SALAMAT QALIN

Mən gəldim, gedirəm mehriban ellər,
Görüm sizi sağlıq ilə qalasız.
Düşünən zəkalar, yaradan ellər,
Görüm sizi sağlıq ilə qalasız.

Ey mehriban Daşkənd, ey gözəl diyar,
Qəlbimdə silinməz xatiratın var,
Görmüşəm xalqında sədaqət, ilqar,
Görüm sizi sağlıq ilə qalasız.

Dolanır, il keçir, ötür əsrlər,
Səndə məskən salır neçə nəsillər,
Birləşib qovuşub yaradan əllər,
Görüm sizi sağlıq ilə qalasız.

Ey dostluq simvolu, ey dostluq yeri,
Olmusan cahanda dillər əzbəri,
Mən sənə heyranam görəndən bəri,
Görüm sizi sağlıq ilə qalasız.

Moskvadır bu hikmətin əsası,
Səadətin, həmrəyliyin binası,
Sən də oldun bu ananın balası,
Görüm sizi sağlıq ilə qalasız.

Mən səndən doymadım ey gözəl şəhər,
Hüsnünə baxıram hər axşam-səhər,
Heçkəsə vermirsən nə qüssə, qəhər,
Görüm sizi sağlıq ilə qalasız.

Mən sizi sevmişəm öz anam kimi,
Öz varlığım kimi, öz canım kimi,
Öz doğma diyarım, məkanım kimi,
Görüm sizi sağlıq ilə qalasız.

Yenə də yetirin Biruniləri,
Sinanı, Xarəzmi, Addımbaşıi,
Xamsanı,  Qafuru, o dahiləri,
Görüm sizi sağlıq ilə qalasız.

Ayrılıq anları nəyaman olur?
Yadıma düşdükcə gözlərim dolur.
Mən getsəm də, qəlbim sizinlə qalır,
Görüm sizi sağlıq ilə qalasız.

Arzum budur yenə düşsün güzarım,
Qalmasın qəlbimdə bu intizarım,
Xatiri qəlbimdə qalan dostlarım,
Görüm sizi sağlıq ilə qalasız.

Azəri oğlunun budur diləyi,
Üstündən əsməsin tufan, küləyi,
Ellərdən, obadan kəsmə köməyi,
Görüm sizi sağlıq ilə qalasız.

***Cəmil Əkbər*** 1970

## 116. ÇƏKMİSƏN ÖVLAD?

Başında Nizami sevdası yoxdur,
De kimə oxşayıb, çəkmisən övlad?
Hökmü-qərarı yox, nidası yoxdur,
Bəs kimə oxşayıb, çəkmisən övlad?

Dərsini "Xəmsə"dən alanmamısan,
Dərk edib yadına salanmamısan,
Düşünüb xəyala dalanmamısan,
Kimlərə oxşayıb, çəkmisən övlad?

Sözündə Sabirin duzu görünmür,
Yolağı, cığırı, izi görünmür,
Haqqı, ədaləti düzü görünmür,
De kimə oxşayıb, çəkmisən övlad?

Vurğunun kəlamı, nəfəsi yoxdur,
Eşqi-məhəbbəti, ilhamı yoxdur,
Qərar, qətnaməsi, məramı yoxdur,
Bəs kimə oxşayıb, çəkmisən övlad?

Babamız Koroğlu, nənəm Nigardır,
Sədası ellərdə diyar-diyardır,
Bu kökdən olanlar nə bəxtiyardır?
Sən kimə oxşayıb, çəkmisən övlad?

Ulu babalara çəkənməmisən,
Saldığı bağlardan əkənməmisən,
Tərini torpağa tökənməmisən,
De kimə oxşayıb, çəkmisən övlad?

Təfəkkürdən, düşüncədən dayazsan,
Əzab-əzyət, işgəncədən dayazsan,
Hasilin az, nəticədən dayazsan,
Kimlərə oxşayıb, çəkmisən övlad?

Qəflətdə yatmısan, ayılanmadın,
Ellərdə-obada yayılanmadın,
İnsan cərgəsində sayılanmadın,
Kimlərə oxşayıb, çəkmisən övlad?

İgidlər xasına biganə oldun,
İtirib əqlini, divanə oldun,
De hansı odlara pərvanə oldun?
Kimlərə oxşayıb, çəkmisən övlad?

Nəqədər gördünsə, götürənmədin,
Becərib, bəsləyib, bitirənmədin,
Ülfətə məhəbbət gətirənmədin,
Kimlərə oxşayıb, çəkmisən övlad?

Hünər meydanında fərsiz olmusan,
Sərraf bazarında zərsiz olmusan,
Qüvvəsiz, qüdrətsiz, girsiz olmusan,
De kimə oxşayıb, çəkmisən övlad?

Hayanda qalmısan, kara gəlmədin?
Saraldın qönçədə bara gəlmədin,
İxtiyara, iqtidara gəlmədin,
Kimlərə oxşayıb, çəkmisən övlad?

Eşidəni, bilənləri bezdirdin,
Dağa salıb, daşa salıb gəzdirdin,
Cəhənnəmin əzabına dözdürdün,
De hara oxşayıb, çəkmisən övlad?

Gördü əzabını bu millət sənin,
Bu ellər, obalar, bu xilqət sənin,
Al Cəmil Əkbərdən, bu hiddət sənin,
Kimlərə oxşayıb, çəkmisən övlad?

***Cəmil Əkbər*** 15.05 – 1996

## 117. GÜLÜM

Mənim bir qəlbim var, bir məhəbbətim,
Onu da mən sənə vermişəm gülüm.
Mənim bir dözümüm, dəyanətim var,
Onu da mən sənə vermişəm gülüm.

Mənim sədaqətim, etibarım var,
Öz əhdim, öz andım, öz ilqarım var,
Cəmiləm hüququm, ixtiyarım var,
Onu da mən sənə vermişəm gülüm.

***Cəmil Əkbər***

## 118. MƏN İSTƏRDİM

Mən istərdim a gülüm, mənim sözüm-söhbətim,
Arzularım, istəyim, ən müqəddəs niyyətim.
Öz içimdə od alıb, ürəyimdə qalmasın,
Nəcib, ülvi fikirlər, diləyimdə qalmasın.

Düşüncəmdən süzülən, ürəyimdən keçənlər,
Xəyalımdan dolanıb, diləyimdən keçənlər,
Car olaydı hərkəsə, paylanaydı hamıya,
Bölünəydi hamıya, yayılaydı hamıya.

Gizli qalan gövhərin xeyri nədir bəşərə?
Faydası nə bəşərə, səməri nə bəşərə?
Könüllərə yol aça, əsər edə hərkəsə,
Xəbər verə hərkəsə, təsir edə hərkəsə.

Mən istərəm a gülüm, sözlərimin mənası,
Hər qapısı, bacası, hər işıqlı aynası,
Şüa saça hamıya, nur ələyə hamıya,
Nemət verə hamıya, dür ələyə hamıya.

Yayılaydı həryana, sözlərimin ətiri,
Hər buketi, çələngi, hər qönçəsi, çətiri.
Dəstə-dəstə dərilib, o ellərdə gəzəydi,
O düşəydi dodağa, o ellərdə gəzəydi.

Mən istərdim a gülüm, sözlərimi sənə də,
Oxuyaydım hamıya, bildirəydim yenə də.
Eşidəydi, biləydi qələmimdən keçəni,
Mənliyimdə cəm olub, aləmimdən keçəni.

Mən istərdim a gülüm, söz-söhbətim yayılsın,
Mürgüləyən oyansın, yatanlar da ayılsın.
Xəyalımdan keçənlər qoy ellərə car olsun,
Anlamayan, qanmayan, qoy özləri xar olsun.

Mən istərdim a gülüm, sözlərimin həniri,
Hər məzmunu, mənası, hər faydası, səməri,
Əsrlərdən addayıb, ildən-ilə çataydı,
Ürəyimdə qalmaya, eldən-elə çataydı.

***Cəmil Əkbər*** 23. 01 -1986

## 119. TANI

Toxunma qəlblərə dilbilməz nadan,
Dinləyib düz anla, insanı tanı.
Tanıya bilməsən get kənarda dur,
Ədəbi-ərkanı, qananı tanı.

Tərlanlara sar deməsən yaxşıdır,
Çəmənzara xar deməsən yaxşıdır,
Hər yetənə yar deməsən yaxşıdır,
Balanı, alanda ananı tanı.

Ovçu olub şikarını tapanda,
Tez-tələsik bərəlgəyə çatanda,
Çaxmaq çəkib ova güllə atanda,
Tərlanı, Laçını, Sonanı tanı.

***Cəmil Əkbər*** 1960

## 120. NEYLƏYƏK?

Üzdə, gözdə qalmayıbdır ar, həya,
Tapdalanır hər ismətim neyləyək?
Haram-halal qarışıbdır hər maya,
O bu yeyir hər qismətim neyləyək?

Çalıb-çapır, var toplayır oğrular,
Dərd əlindən dözə bilmir doğrular,
Dinən kimi səsimizi boğurlar,
Bilən yoxdur şikayətim, neyləyək?

Lotu-potu dövran sürür maşında,
Nə olsun ki, kamalı yox başında?
Belə getsə bağrı çatlar daşın da,
Dözə bilmir xasiyyətim neyləyək?

Nanəciblər ayaq alır üstümə,
Qiymət vermir varlığıma, şəsdimə,
Hücum çəkir, yaman girir qəsdimə,
Görə bilmir ləyaqətim, neyləyək?

Yeyib-içir, dövran sürür kalanlar,
Doğru olub dələduzlar, yalanlar,
Harda qaldı qeydimizə qalanlar?
Tapdalanır həqiqətim, neyləyək?

Nadanlarla vuruşmaqdan yoruldum,
Xeyir-şərə qarışmaqdan yoruldum,
Kommunadan danışmaqdan yoruldum,
Əsər etmir məsləhətim neyləyək?

Bağrım başın sökə-sökə qocaldım,
El dərdini çəkə-çəkə qocaldım,
Gözyaşımı tökə-tökə qocaldım,
Əldən gedir şəxsiyyətim neyləyək?

Xiridar yox ləl, cəvahir daşına,
Acıyan yox, gözlərimin yaşına,
Toxunurlar ürəyimin başına,
Nəolsunki var hikmətim, neyləyək?

Kömək etdim kimsəsizə, yazığa,
Fərq qoymadım nə yaxına, uzağa,
Mən düşürəm bilməm niyə sazağa,
Daşa dəyər məhəbbətim neyləyək?

***Cəmil Əkbər*** 21.11 - 1973

## 121. NEYLƏYƏK?

Verilən maaşla dolanan yoxdur,
A partiyam, a hökmətim neyləyək?
Öz alın təriylə sulanan yoxdur,
A partiyam, a hökmətim neyləyək?

Ona-buna əl açmaqdan yorulduq,
Köks ötürüb, həsəd çəkib darıldıq,
Daş-baş ilə bina tikib qudurduq,
A partiyam, a hökmətim neyləyək?

Qalmayıbdır üzümüzdə həyamız,
Nəvaxtacan eldən gəlsin payımız?
Harınlaşıb, bizi saymır tayımız,
Xahiş keçmir, nə minnətim neyləyək?

Nəvəsinə var toplayır oğrular,
Əl-ayaqdan boylanırlar doğrular,
Düz danışsan nəfəsini boğurlar,
Eşidilmir şikayətim, neyləyək?

Gəda-güda dövran sürür maşında,
Nəolsunki kamalı yox başında?
Xeyri yoxdur ixtisasın, yaşın da,
Nalbənd verir hər zinətim neyləyək?

Ucuz alıb, baha satır baqqallar,
Kef eyləyir, dövran sürür naqqallar,
Toyuqlara qənim çıxıb çaqqallar,
Çarə yoxdur a hökumətim neyləyək?

***Cəmil Əkbər*** 21.11 - 1973

## 122. NEYLƏYİM?

Namərdoğlu ayaq alır üstümə,
Aman vermir, yaman girir qəsdimə,
Qiymət vermir dağvüqarlı şəsdimə,
İtib gedir ləyaqətim neyləyim?

Yeyib içir, meydan açır kalanlar,
Onu-bunu cücə kimi yolanlar,
Harda qaldı qeydimizə qalanlar?
Tapdalanır həqiqətim neyləyim?

Komunnadan danışmaqdan yoruldum,
Xeyrə-şərə qarışmaqdan yoruldum,
Cahillərlə vuruşmaqdan yoruldum,
Gücüm çatmır a dövlətim, neyləyim?

Seçən yoxdur astarları, üzləri,
Tanımırlar əyriləri, düzləri,
Eşidən yox çox dəyərli sözləri,
Təsir etmir nəsihətim neyləyim?

Ülviyyətdən bac alıram dünyada,
Xəyalımda ucalıram dünyada,
Asata-asta qocalıram dünyada,
Əldən gedir şəxsiyyətim neyləyim?

Acıyan yox gözlərimin yaşına,
Toxunurlar ürəyimin başına,
Qiymət yoxdur ləl-cəvahir daşına,
Nəolsunki var hikmətim neyləyim?

Əhli-halı tapşırırlar nadana,
Sussayırlar zəli kimi al-qana,
İnsanoğlu qəsd eyləyir insana,
Ərşə çıxıb məşəqqətim, neyləyim?

Qəvvas yoxsa qiyməti yox gölün də,
Nadan üçün dəyəri yox ləlin də,
Mərdlər qalıb namərdlərin əlində,
İtib gedir əziyyətim neyləyim?

Mərd igiddir yaraşığı ellərin,
Sonalardır bər-bəzəyi göllərin,
Bülbüllərdir həvəskarı güllərin,
Duymayırsa təravəti neyləyim?

Dərdlilər dərdini çəkməkdən öldüm,
Ağlayıb gözyaşı tökməkdən öldüm,
Əyilməz qəddimi bükməkdən öldüm,[209]
Daha çatmır dəyanətim neyləyim?

***Cəmil Əkbər*** 21.11 - 1973

## 123. GÖZDƏN DÜŞMƏSİN

Nə düşsə nəzərdən eyib eyləməz,
Ədalət, həqiqət gözdən düşməsin.
Əksiklik gətirməz, xələl eyləməz,
İnsanda ləyaqaət, gözdən düşməsin.

---

[209] Cəmiləm, qəddimi bükməkdən öldüm.

Kamal sahibinə pis deyilməsin,
Qızıla, gümüşə mis deyilməsin,
Harda var, səsinə kəs deyilməsin,
Amandır nəzakət gözdən düşməsin.

Ünsiyyət-ülfətdə nifrət olmasın,
Qəsd-qərəz olmasın, hiddət olmasın,
Ara qarışmasın, şiddət olmasın,
Amandır məhəbbət gözdən düşməsin.

İgidlər zirvədən enib getməsin,
Hərə bir diyarda sinib getməsin,
İlqardan, imandan dönüb getməsin,
Sədaqət, səxavət gözdən düşməsin.

Xəyanət etməsin insan-insana,
Bais olmasınlar tökülən qana,
Dərdinə acıya, qəminə yana,
Kəramət, mərhəmət gözdən düşməsin.

İstedad sahibi başa çəkilsin,
Üzüyə salınsın, qaşa çəkilsin,
Ellərə layiqli işə çəkilsin,
Amandır fəzilət gözdən düşməsin.

Xidməti olana hörmət edilsin,
İrəli getməyə möhlət verilsin,
Cahilə, nadana töhmət edilsin,
Bacarıq, fərasət gözdən düşməsin.

Nabələd gədələr başa çıxmasın,
Fürsət tapıb qoşa-qoşa çıxmasın,
Payızdan addayıb qışa çıxmasın,
İqtidar, sədarət gözdən düşməsin.

Hamı yazılanı oxuya bilsin,
Ətiri-gülüstan qoxuya bilsin,
Özünə bir çuxa toxuya bilsin,
Amandır qiraət gözdən düşməsin.

Zəhmət sahibinə baş əysin hamı,
Təzim göstərərək döş əysin hamı,
Ehtiram göstərib, xoş əysin hamı,
Amandır ziraət gözdən düşməsin.

Yolu saxlanılsın ağsaqqalların,
Dünyagörmüşlərin, əhli-halların,
İdrak sahibləri, pürkamalların,
Amandır ibadət gözdən düşməsin.

***Cəmil Əkbər*** 5. 08 -1998

## 124. VƏHDƏTİNDƏDİR

Hərkəsin şərəfi, şərafəti də,
Zəhmətlə, xidmətin vəhdətindədir.
Könül diyarının hərarəti də,
İnsafla, mürvətin vəhdətindədir.[210]

Hərkəsin dözümü, dəyanəti də,
İnsanlıq naminə bəyanatı də,
Yardımı, köməyi, ənaəti də,
Namusla, qeyrətin vəhdətindədir.

Övladı-bəşərin səadəti də,
Sədaqət, səxavət, kəraməti də,
Doğruluq, düzgünlük, həqiqəti də,[211]
Arziyla niyyətin vəhdətindədir.[212]

Ölçümüz, biçimiz, kəmiyyətimiz,
Adımız, sanımız, şəxsiyyətimiz, [213]
Ülvilik, nəciblik, keyfiyyətimiz,
Dəyərlə, qiymətin vəhdətindədir. [214]

---

[210] *II variant* Hərkəsin şərəfi, şərafəti bil,
Hünərlə, zəhmətin vəhdətindədir.
Məhəbbət mülkünün hərarəti bil,
İnsafla, mürvətin vəhdətindədir.

[211] İnsafı, mürvəti, mərhəməti də.

[212] Dəyərlə qiymətin vəhdətindədir.

[213] Ləyaqət naminə şəxsiyyətimiz.

[214] Abırla ismətin vəhdətindədir.

Keçilən cığırlar, uca zirvələr,
Yüksələn nərdiban, qalxan pillələr,
Qurulan məclislər, mey-piyalələr,
Taleyin, qismətin vəhdətindədir.

Hərkəsin dövləti, sərvəti, varı,
Yeyilən, içilən təzə nübarı,
Ömür-gün yoldaşı, öz dostu-yarı,
Taleyin, qismətin vəhdətindədir.

Ünsiyyət-ülfətin əsas mayası,
Təməli, özülü, kökü, binası,
Ən ulu əcdadı, qoca babası,
Eşqin, məhəbbətin vəhdətindədir.

Dövrü-zəmanədə, gözəl həyat da,
Şənlik də, nəşə də, toy da, büsat da,
Müqəddəs ənənə, gözəl adət də,
Təpərin, riqqətin vəhdətindədir.

İnsanam deyənin əqli, kamalı,
Vicdan, məslək, əqidəsi, amalı,[215]
Qalmasın heçkəsə qoy müəmmalı,[216]
Nəsil-nəcabətin vəhdətindədir.

Elmin aləmində çapmaq istəsən,
Sirri-müəmmanı tapmaq istəsən,[217]
Ömürlük qalalar yapmaq istəsən,
Düşüncə, diqqətin vəhdətindədir

Bəşər övladının səadəti də,
Ülvülük naminə ləyaqəti də,
Bilik-bacarığı, məharəti də,
Haqqın, ədalətin vəhdətindədir.[218]

***Cəmil Əkbər*** 8. 03 – 1979

---

[215] Vicdanı, məsləki, eşqi, amalı.
[216] Qalmasın heçkəsə bu müəmmalı.
[217] Arayıb, axtarıb tapmaq istəsən.
[218] *II variant* Dünyada çəkilən ləzzətimiz də,
Gözəl növrağımız, ağ günümüz də,
Sağlam düşüncəli niyyətimiz də,
Haqqın, ədalətin vəhdətindədir.

## 125. M. Q. SADIQOVUN 70 İLLİYİ

Səni görcək fəxr eyləyir el-obamız, doğma diyar,
Gətirmisən Vətəninə şərəf, şöhrət, həm iftixar.
Həsədini çəkə bilər başı qarlı uca dağlar,
Bunu bilki, Mirzə dayı, ləyaqətin, haqqın da var.

İftixarla fəxr eyləyir Vətənimin alimləri,
Həkimləri, mühəndisi, kolxozçusu, fəhlələri.
Xidmətində yaxşı dursun həyat dostun Şərəbanı,
Sizin kimi yaxşı yoldaş, yaxşı ata desin hanı?

Sizin ilə fəxr eyləyir, qohum, qardaş nəki sağdır?
Öz peşənin bağbanısan, əməliniz barlı-bağdır.
Hünərinə əhsən dedi, körpə, cavan, qarı, qoca,
Çalışaraq, vuruşaraq, başınızı etdin uca.

Dönə-dönə fəxr eyləyir sizə uzaq, yad olan da,
Sizə sağlıq arzulayan, xoş günündə şad olan da.
Təbrik edir yubileyini, alim dostlar, həmkarların,
Siz ki, gövhər-kanısınız, qiymət verdi sərrafların.

Baş əyirlər hüzurunda, xatirinə dəyənlər də,
Arxanızdan danışan da, üzünüzə gülənlər də.
Deyə bilməz yorulmusan kitab yazan, qələm tutan,
Təsadüfi "alim" olan, ünvanına böhtan atan.

Bu gün təzim eyləyirlər, insafını atanlar da,
Elmə doğru gedən yolda, mürgüləyib yatanlar da.
Yetirdiyin bol məhsullu "kəhraba" sort taxıllar da,
Şərəfinə darılan da, qəlbiqara, paxıllar da.

Sizin ilə fəxr eyləyir, zərif yunu toxuyan da,
Qələmindən çıxanları, dönə-dönə oxuyan da.
Gəlib çıxır məclisinə, cızma-qara yazanlar da,
Öz yolunda büdrəyən də, çaşıb yolu azanlar da.

Fəxr edirəm sizin ilə, çatışmayır söz-söhbətim,
Sizə qarşı ehtiramım, arzularım, məhəbbətim.
Alqışlayır şənliyini ümmanlara axan çaylar,
Yetmiş ildə keçirdiyin, ötən günlər, ötən aylar.

Siz inqilab oğlusunuz, bizim yeni dünyamızın,
Bizim şanlı partiyanın, bizim böyük dühamızın.
Zəmanəyə yolgöstərən Leninin al bayrağının,
Himnimizin, gerbimizin, çəkicinin, orağının.

***Cəmil Əkbər*** 13. 05 – 1967

## 126. BƏNDƏNİN

Əsərha qalmayıb ilqar-imandan?
Nəyaman dönübdür üzü bəndənin?
Mərd igid əlçəkib əhdi-peymandan,
Düşübdür qiymətdən sözü bəndənin.[219]

Zaman bəd gətirib, pozulub bəşər,
Dolaşıq düşübdür, xeyir ilə şər,[220]
Kamal yerində döy, ağıl dərbədər, [221]
Sönübdür məhəbbət közü, bəndənin.

Əvvəlki xətirlər hörmət qalmayıb,
Kəramət azalıb, mürvət qalmayıb,
Mənəvi gözəllik, sərvət qalmayıb,
Düz getmir çəhlimi, izi bəndənin.[222]

---

[219] *II variant* Əsər qalmayıbdır ilqar-imandan,
Nəyaman dönübdür üzü bəndənin?
Çəkibdir əlini əhdi-peymandan,
Düşübdür hörmətdən sözü bəndənin.

*III variant* Sorağı gəlməyir ilqar-imanın,
Nəyaman dönübdür üzü bəndənin?
Haçandan bəridir əhdi-peymanın,
Uyuşmur söhbəti-sözü bəndənin.

[220] Çevrilib tərsinə yozulub bəşər.
[221] Nadürüst əlidə sozalıb bəşər.

Məhəbbət diyarı soyuyub gedib,
Qərq olub qəflətdə uyuyub gedib,
Dərrakə, düşüncə keyiyib gedib,
Ərimir ürəkdə buzu, bəndənin. [223]

Hayana baxırsan nadanlar çoxdur,
Yolunu tərsinə adanlar çoxdur,
Təlimdən yarımçıq dadanlar çoxdur,
Dərk edib anlayır azı, bəndənin.[224]

Aldığı borcları verə bilməyir,
Bağ salıb barından dərə bilməyir,
Yaxını, uzağı görə bilməyir,
Tor gəlib, torlaşıb gözü bəndənin.

---

[222] Dağ-daşa düşübdür izi bəndənin.

[223] *II variant*

Məhəbbət sarayı soyuyub gedir,
Qərq olub qəflətdə yuyuyub gedir,
Dərrakə, düşüncə keyiyib gedir,
Çoxalıb ürəkdə buzu, bəndənin.

*III variant*

Ünsiyyət-ülfətlər soyuyub yaman,
Qərq olub qəflətdə uyuyub yaman,
Kütləşib, bütləşib, keyiyib yaman,
Sönübdür məhəbbət közü, bəndənin.

*IV variant*

Gözəl dünyamızdan dava kəsilmir,
Zəhərə qarışmış hava kəsilmir,
Sərsəri, kəmağıl, yava kəsilmir,
Ərimir ürəkdə buzu, bəndənin.

[224] *II variant*

Deyib danışmaqla qanan kimdiki?
Küsüb barışmaqla anan kimdiki?
Acıyıb halına yanan kimdiki?
Dərk edir, anlayır azı, bəndənin.

*III variant*

Bəşərin övladı zəlalətdədir,
Çıxanmır torundan cəhalətdədir,
Kində, küdurətdə, ədavətdədir,
Düşünür, dərk edir azı, bəndənin.

Qəlblərə vurulan zədə birdimi?
Vahimə, həyəcan, hədə birdimi?
Kişilər yerində gədə birdimi?
Birinə dəyməyir yüzü, bəndənin. [225]

Hamı bir-birinin şəstinə dəyir,
Vurub qamətini, qəddini əyir,
Ünvanı dalınca bədinə deyir,
Çəkilmir heç yerdə nazı bəndənin. [226]

Nəqədər çalışdım zilə köklədim,
Darçına, mixəyə, hilə köklədim,
Anlayaraq bilə-bilə köklədim,
Bəmdə inildəyir sazı bəndənin.[227]

Tufan ara vermir, sərt keçir qış da,
Keyləşib ağıl da, işləmir baş da,
Sarsıyıb xəyal da, dağılıb huş da,
Gecikir baharı, yazı bəndənin.[228]

---

[225] *II variant* Qəlblərə vurulan zədə oqədər,
Vahimə, həyəcan, hədə oqədər,
Kişilər yerində gədə oqədər,
Birinə dəyməyir yüzü, bəndənin.

*III variant* Qəlblərə vurulan zədələr artıb,
Vahimə, həyəcan, hədələr artıb,
Kişilər yerində gədələr artıb,
Birinə dəyməyir yüzü, bəndənin.

[226] *II variant* Hamı bir-birinin şəstinə dəyir,
Artırıb dərdini, qəddini əyir,
Dağıdıb, talayıb, varını yeyir,
Çəkilmir heç yerdə nazı bəndənin.

*III variant* Hamı bir-birinin şəstinə dəyir,
Artırıb dərdini, qəddini əyir,
Danıb xidmətini, haqqını yeyir,
Müşgüldür açıla yazı bəndənin.

[227] *II variant* Millət uzaq düşüb öz sənətindən,
Adət-ənənəsi, öz vərdişindən,
Şeir vərdişindən, söz vərdişindən,
Xoş gəlmir çoxuna sazı bəndənin.

[228] *II variant* Tufan ara vermir, sərt keçir qış da,
İnləyir ürək də, ağrıyır baş da,
Tutulub qabaq da, çatılıb qaş da,
Xoş gəlmir heç kimə, nazı bəndənin.

İblislər çoxalıb, şeytanlar artıb,
Fitnələr, fəsadlar, böhtanlar artıb,
Aranı, bərəni qatanlar artıb,
Yalana çevrilib düzü bəndənin.

Hamı birbirinə baxıb pozulub,
Düz tərsinə, tərs də düzə yozulub,
Mərd igidlər qəhətləşib, azalıb,
İtirib tamını, duzu bəndənin.

Ay Cəmil deməklə dərk edən hanı?
Naqis təbiəti tərk edən hanı? [229]
Yolunu azana görk edən hanı?
Çaşıbdır oğulu, qızı bəndənin.[230]

***Cəmil Əkbər*** 19. 02 – 1997

## 127. ÖYRƏNƏSƏN

Böyük dühalardan nə öyrəndinki?
Məndən də bir kəlmə söz öyrənəsən.
Təzə pöhrələyib, nə göyərdinki?
Məndən ya dərini, üz öyrənəsən.

Dedim qalmayasan qəflət içində,
Cəhalət, yoxsulluq, zillət içində,
Törənən müsibət, dəhşət içində,
Ləngimək bilmədən tez öyrənəsən.

Qəlbimdən keçəni qana biləsən,
Məhəbbət bağına qona biləsən,
Məqamı gəldikcə ana biləsən,
Payız gözləmədən yaz öyrənəsən.

---

[229] Çəkərək nazını ərk edən hanı?

[230] *II variant* Ay Cəmil, deməklə qanan kimdiki?
Böyüyü, kiçiyi sanan kimdiki?
Axtarıb, arayıb, anan kimdiki?
Çaş-baş düşüb oğulu, qızı bəndənin.

Nəzər yetirəsən öz ustadına,
Fəhmin-fərasətin düz ustadına,
Sənət ustadına, söz ustadına,
Məclisə çıxmağa saz öyrənəsən.

Yaxşını-yamandan seçə biləsən,
Haqqın yollarından keçə biləsən,
Dünyadan şərəflə köçə biləsən,
Ədəbi-ərkanı düz öyrənəsən.

Ünsiyyət-ülfətdə yolu biləsən,
Sağını tanıyıb, solu biləsən,
Dəymişi, sütülü, kalı biləsən,
Tapıb özün üçün iz öyrənəsən.

Qəlbinin başına hərarət qona,
Ülvü-istək qona, məhəbbət qona,
Bacarıq, fərasət, məharət qona,
Alışan ocaqdan köz öyrənəsən.

Yazılan sözləri dərk eyləyəsən,
Avamlıq harda var tərk eyləyəsən,
Yolunu azana görk eyləyəsən,
Tamı anlayasan, duz öyrənəsən.

Yaxşı tanıyasan Cəmil Əkbəri,
Kamalı başında, sinədəftəri,
Olasan sözünə layiq müştəri,
Çox da götürməsən, az öyrənəsən.

***Cəmil Əkbər*** 27. 10 -1998

## 128. ƏYRİDİR

Düzələndöy  bu işlərin axırı,
İbtidadan yüz yerindən əyridir.
Çox eyləsən qurdlar qırar naxırı,
İşarədə, göz yerindən əyridir.

Ha çalışsan əfsanədir, əbəsdir,
Yerin zindan, dar məzardır, qəfəsdir,
Bilən yoxdur nə hay- həşir, nə səsdir?
Yolaq, cığır, iz yerindən əyridir.

Hər düzdə də bir əyrilik var bilin,
Hər doğmada bir qeyrilik var bilin,
Hər qabaqda bir gerilik var bilin,
Oğul övlad, qız yerindən əyridir.

Kimi varlı, kimi varsız dolanır,
Kimi karlı, kimi karsız dolanır,
Kimi arlı, kimi arsız dolanır,
Çoxlu-çoxlu az yerindən əyridir.

Bir çoxuna naz eyləmək yaraşmır,
Nə işarə, göz eyləmək yaraşmır,
Çox danışıb, az eyləmək yaraşmır,
İşvə-qəmzə, naz yerindən əyridir.

Çox sözlərə inanmaq da olmayır,
Bərkdə-boşda sınanmaq da olmayır,
Sayılmaq da, unanmaq da olmayır,
Fikir-xəyal, söz yerindən əyridir.

***Cəmil Əkbər***

## 129. HALINA?

Dağıdan-dağıdır, yeyənlər-yeyir,
Bəs kim qalsın əl-ayaqsız halına?
Bəzənib-düzənən, geyənlər-geyir,
Bəs kim qalsın fəqirlərin halına?

Alanlar-alırlar, satanlar-satır,
Üzənlər-üzürlər, batanlar-batır,
Var-hala qərq olub, çatanlar-çatır,
Bəs kim qalsın məzlumların halına?

Məzlum atasına gicdi dedilər,
Xaindi, xəbisdi, kəcdi dedilər,
Haqqa-ədalətə öcdu dedilər,
Bəs kim yansın səqirlərin halına?

Yaşayan-yaşayır, ölənlər-ölür,
Ağlayan-ağlayır, gülənlər-gülür,
Gözünün yaşını silənlər-silir,
Bəs kim yansın ağlayanın halına?

Alimlər qəm yeyir, nadan kef çəkir,
Təlimdən yarımçıq dadan kef çəkir,
Haqq-say sümürüb udan kef çəkir,
Bəs kim yansın qananların halına?

Zaman keçib həyasızlar əlinə,
Əqidəsiz, qayəsizlər əlinə,
Tərbiyəsiz, dayəsizlər əlinə,
Bəs kim qalsın həyalının halına?

Dağıdan-dağıdır, sökənlər-sökür,
Bezdirib zəhlələr tökənlər-tökür,
Şux gəzən-şux gəzir, çökənlər-çökür,
Bəs kim yansın dözməyənin halına?

Əzilən-əzilir, əzənlər-əzir,
İnciyən-inciyir, bezənlər-bezir,
Dözməyən-dözməyir, dözənlər-dözür,
Bəs kim qalsın dözməyənin halına?

Tökülən-tökülür, axanlar-axır,
Boylanan-boylanır, baxanlar-baxır,
Əllərdə, ayaqda tapdanır fağır,
Bəs kim qalsın fağırların halına?

Cəmil Əkbər bu nə qəmdi çəkirsən?
İçin-için gözyaşını tökürsən,
Qəlb evinin təməlini sökürsən,
Bəs kim qalsın sən səqirin halına?

***Cəmil Əkbər*** 5. 02 – 1995

## 130. KƏRƏM EYLƏ

Qoy ilhamım dilə gəlsin,
Xudam özün kərəm eylə.
Yazdıqlarım ələ gəlsin,
Xudam özün kərəm eylə.

Salma məni nəzərindən,
Səadətə güzarından,
Xilas eylə azarından,
Xudam özün kərəm eylə.

Sözlərimi əsərli et,
Gəl xalqıma səmərli et,
Ovxarlı et, kəsərli et,
Xudam özün kərəm eylə.

Xəyalıma qol-qanad ver,
Yetiş dada, bir imdad ver,
Ona ümid, bir nicat ver,
Xudam özün kərəm eylə.

Kara yetən nə dayım var?
Nə sovqatım, nə payım var?
Nə həmkarım, nə tayım var?
Xudam özün kərəm eylə.

Sənsən verən nüsrətimi,
Təpərimi, riqqətimi,
Cəsarəti, cürətimi,
Xudam özün kərəm eylə.

Sən olmasan mən heçnəyəm,
Kütbeyinəm, ya da keyəm,
İnildəyən qırıq neyəm,
Xudam özün kərəm eylə.

Karvanım yolda qalmasın,
Üzülüb dalda qalmasın,
Nə yorğun halda qalmasın,
Xudam özün kərəm eylə.

Gözyaşımı sildir qurtar,
Hörmətini bildir qurtar,
Rəvadırsa öldür qurtar,
Xudam özün kərəm eylə.

Ümid yoxdur özgə kəsə,
Özgə avaz, özgə səsə,
Yığıncağa, nə də dəsə,
Xudam özün kərəm eylə.

***Cəmil Əkbər*** 18. 03 -1997

## 131. YETİMİN

Dad sənin əlindən a qanlı fələk,
Gülməyir əlindən üzü yetimin.
Qalır sinəsində çox arzu-dilək,
Çatmır qulaqlara sözü yetimin.

Ata-ana niyə öldü vədəsiz?
Niyə qaldı yazıq, tifil, dədəsiz?
A qohumlar, a qardaşlar gədəsiz?
Yollarda qalıbdır gözü yetimin.

Birini öldürür amansız vərəm,
Onlara əvvəldən qulam, nökərəm,
Sizlə ədavəti özüm çəkərəm,
Qoymayın qırıla dizi yetimin.

Onlar görmür nəvazişi, qucağı,
Çox görürlər ona küncü, bucağı,
Nə olsun ki, alovlanmır ocağı?
Sönükdür istisi, közü yetimin.

Töküldü daşlara, dəydi dəymisi,
Pozuldu, saraldı könül zəmisi,
Deyin harda qaldı dayı, əmisi?
Qoymasın silinə izi yetimin.

Aclıq bir il gedər, möhnətsə min il,
Yaxşılıq dünyadan itən ha deyil,
Dərdlərə nəqədər dözəcək Cəmil?
Nimdaşdır əynində bezi yetimin.

***Cəmil Əkbər*** 1967

## 132. GİZLƏNİBDİR

Neçə-neçə gözəlliyin arxasında,
Neçə-neçə çirkinliklər gizlənibdir.
Neçə-neçə nikbinliyin arxasında,
Neçə-neçə bədbinliklər gizlənibdir.

Neçə-neçə zərifliyin arxasında,
Neçə-neçə kobudluqlar gizlənibdir.
Neçə-neçə həqiqətin arxasında,
Neçə-neçə saxtalıqlar gizlənibdir.

Neçə-neçə qüvvətlinin arxasında,
Neçə-neçə qüvvətsizlər gizlənibdir.
Neçə-neçə hörmətlinin arxasında,
Neçə-neçə hörmətsizlər gizlənibdir.

Neçə-neçə düzlüklərin arxasında,
Neçə-neçə əyriliklər gizlənibdir.
Neçə-neçə kəramətin arxasında,
Neçə-neçə bimürvətlər gizlənibdir.

Neçə-neçə qeyrətlinin arxasında,
Neçə-neçə qeyrətsizlər gizlənibdir.
Neçə-neçə cürətlilər arxasında,
Neçə-neçə cürətsizlər gizlənibdir.

Neçə-neçə dəryalara,
Neçə çaylar axıb gedir.
Neçə-neçə seyr eyləyir,
Neçə-neçə baxıb gedir.

***Cəmil Əkbər***

## 133. QOHUMLAR

Eşidirəm sizdən giley-güzarı,
Unutmayın siz nəsili, qohumlar.
Adam olan xalqa verməz azarı,
İtirməyin siz əsili, qohumlar.

Yaxşı qohum kara yetib əl tutar,
Yaman qohum yaxşıdırki öl qutar,
Qohumluğun bir qədrini bil qutar,
Yaşamayın siz küsülü, qohumlar.

Kənar gəzib gen dolansın uzaqdan,
Qan qaraldıb qəlbə dəysən nahaqdan,
Deyərlərki çıxıb hansı sokaqdan,
Əl ətəkdən tez kəsili, qohumlar.

İnsan gərək qohumluqdan yarısın,
Dərd üz versə kədərlənsin, zarısın,
Dağıtmasın, uçurmasın barısın,
Düz eşidin siz Cəmili qohumlar.

***Cəmil Əkbər*** 1970

## 134. DOLUDUR

*I variant*

*("Ocaq"və "Çörək" kitabının müəllifi Z.Balayana)*

Nə "ocaqdır" qalamısan Balayan?
Odu-közü ədavətlə doludur.
Ünsiyyətə benzin töküb calayan,
Alışarsa hərarətlə doludur.

Bu "ocaqda" zəhər dolu tüstü var,
Ölənlərin, itənlərin büstü var,
Qəzəbi var, qisası var, qəsdi var,
Kin-küdurət, xəyanətlə doludur.[231]

---

[231] *II variant* Bu "ocaqda" zəhər dolu tüstü var,
Ölənlərin, itənlərin büstü var,
Ermənin Türkə qarşı qəsdi var,
Başdan-başa küdurətlə doludur.

Qəlbin sənin çamırlıqdır, görünür,
Lil basıbdır, mamırlıqdır görünür,
Həyasızlıq, harınlıqdır görünür,
Bəd fikirlə, bədniyyətlə doludur.[232]

Sənin zorun bir dığanın zorudur,
Məkəs-milçək, mığmığanın zorudur,
Bir köstəbək, bir bağanın zorudur,
Xəta-bəla, xəsarətlə doludur.

Nə toxumdur aralığa səpirsən?
Duzu töküb urvalığa səpirsən?
De kim ilə yarılığa səpirsən?
Hay-həşirlə, qiyamətlə doludur.

Nə lazımdır, belə kitab yazılıb?
Millətlərə təzə qəbir qazılıb,
Ünsiyyətlər, ülfətlər də pozulub,
Bədxəbərlə, bəyanatlə doludur.

Nəyə lazım beylə qovğa, beylə qal?
Beylə çalğı, beylə avaz, beylə val?
Əli bağlı, dili bağlı belə qal,
Sənin fikrin fəlakətlə doludur.

Kimə lazım belə kitab görəsən?
Beylə xəbər, beylə xitab görəsən?
Bişirmisən beylə qutab görəsən?
Hiddət ilə, nifrət ilə doludur.

Səbəb nədir böylə kitab yazmısan?
Sən deyəsən yolağını azmısan?
Hinkorluğu, Akperliyi pozmusan?
Hər sətirin cin-ifritlə doludur.

---

[232] *II variant* İdrakınız çamırlıqdır görünür,
Lil basıbdır, mamırlıqdır görünür,
Azğınlıqdır, harınlıqdır görünür,
Bədxəbərlə, bəyanətlə doludur.

Gör nə ilə əlləşirsən a yazıq?
Bəhsə düşüb dilləşirsən a yazıq?
Gəlib kəllə helləşirsən a yazıq?
Hər abzası zillət ilə doludur.

Adın sənin düz qoyulub Balayan,
Öz xalqını oda-közə calayan,
Millətləri bir-birnə qalayan,
"Şan-şöhrətin" hillət ilə doludur.[233]

***Cəmil Əkbər*** 1988

## 135. DOLUDUR

*II variant*

*("Ocaq"və "Çörək" kitabının müəllifi Z.Balayana)*

Nə "ocaqdır" ad qoymusan ona sən?
Başdan-başa ədavətlə doludur.
Utan, qızar, çək üzünə cuna sən,
Qərəz, qisas, küdurətlə doludur.

Tanıtdırdın, nədə imiş zorunu,
Ocağının hənirini, qorunu,
Belə getsə qazacaqlar gorunu,
Başın sənin cinayətlə doludur.

Kitabının bir adı da çörəkdir,
Bəd fikirlər görən kimə gərəkdir?
Sanmırıqki Zori yaman tüləkdir,
Hər fikirin xəyanətlə doludur.

Bilirikki Türkəqarşı çıxırsan,
Ürəyini bulandırıb sıxırsan,
Öz evini bilə-bilə yıxırrsan,
Dörd bir yanın bu millətlə doludur.

---

[233] *II variant* Belə getsə kəsəcəklər əlini,
Qulağını, dodağını, dilini,
Qal-qovğaya qərq etmisən elini,
Əzab-əzyət, hillət ilə doludur.

Qəzəb ilə qələm alma əlinə,
Bir də belə söz gətirmə dilinə,
Düz qulluq et vətəninə, elinə,
Sənin fitnən xəsarətlə doludur.

Xainliklə gözələnib kitabın,
Əldən-ələ cəzalanıb kitabın,
Xəbisliklə təzələnib kitabın,
Giley-güzar, şikayətlə doludur.

Nə fikirdi, nə xəyaldı dalmısan?
Nə həvəsdi, nə ilhamdı almısan?
Püfüləyib nə zurnadı çalmısan?
Vay-şivənlə, müsibətlə doludur.[234]

Qəlbin sənin çamırlıqdır nədənsə?
Lil basıbdır, mamırlıqdır nədənsə?
Azğınlıqdır, harınlıqdır nədənsə?
Bədxəbərlə, bəyanatlə doludur.

Zaman keçib, sən özünə gəlmirsən,
Bu dövrana, bu büsata gülmürsən,[235]
Utanmırsan, qızarmırsan, ölmürsən,
Sənin qəlbin üfunətlə doludur.

Görünürki düz işləmir kamalın,
Vicdan, məslək, nə əqidən, amalın,
Kitabında əks olundu camalın,[236]
Hər cümləsi cinayətlə doludur.

Beylə kitab öz xalqına nə verər?
Nəyi tikər, nəyi qurar, nə hörər?[237]
Nə qazanar, nə götürər, nə qurarr?
Qəm-qüssəylə, möhnət ilə doludur.

---

[234] *II variant* Nə fikirdi, nə xəyaldı dalmısan?
Xalq içinə nə nifaqdı salmısan?
Nə zunadı, nə qavaldı çalmısan?
Vay-şivənlə, müsibətlə doludur.

[235] Bu dövrana darılırsan, gülmürsən.

[236] Kitabında əks olunub camalın.

[237] Nə yaradar, nəyi tikər, nə hörər?

Jurnalistsən beylə kitab yazma sən!
Yolağını sağa-sola azma sən!
Millətinə təzə qəbir qazma sən!
Ağ eyləsən ziyarətlə doludur!

Adın sənin düz qoyulub Balayan,
Azğınlaşıb onu-bunu dalayan,
Ara vurub quyruğunu bulayan,
"Şan-şöhrətin" hillət ilə doludur.[238]

***Cəmil Əkbər*** 1988

## 136. ANA TORPAĞIM

Mən sənə nə əkdim, onu vermisən,
Ey ana torpağım, ana torpağım.
Birin əvəzində onu vermisən,
Ey ana torpağım, ana torpağım.
Üstündə yaşayıb dolanmaq üçün,
Ellərdən-ellərə calanmaq üçün.
Sinənin üstündən ayaqlamışam,
Oyana-buyana at çapırtmışam.
Üstündə kənd tikib, şəhər salırıq,
Qoynundan nələri çəkib alırıq.
Qızılı, gümüşü, nefti, dəmiri,
Qazı da, suyu da, daşı, mərməri.
Bizim üçün verdin nazı-neməti,
Bu cahı-calalı, bu məmləkəti.
Biz sənin üstündə kef eyləyirik,
Çalışıb qazanıb nəf eyləyirik.
Biz sənin üstündə dövran sürürük,
Gah tufan, gah çovğun, boran görürük.
Gözəl dağlarımız sənin deyilmi?
Gözəl bağlarımız sənin deyilmi?
Tarla səninkidir, çöl səninkidir,

---

[238] *II variant* Adın sənin düz qoyulub Balayan,
Millətləri bir-birnə qalayan,
Bəd fikiri bir-birnə calayan,
Sənin nəbzin bəd riqqətlə doludur.

Dərya səninkidir, göl səninkidir.
Torpaqdan yaranır həyatda nə var,
Ya armud, ya alma, qarpız, gilənar.
Üzüm də, əncir də, şövtəlilər də,
Keşniş də, şüyüd də, şahtərələr də.
Biz sənə borcluyuq hər vaxt, hərzaman,
Yoxdu sözlərimə nə şübhə, güman.
Ey ana torpağım, ana torpağım,
Sənsiz işləyərmi bədəndə qanım?
Ey torpaq hamıdan etibarlısan,
Öləndə qoynuna çəkib alırsan.
Demirsən üstümdən ayaqlamısan,
Yuxular görmüsən, sayıqlamısan.
Demirsən başıma bomba tökmüsən,
Eşibsən, qazıbsan dağıtmısan da,
Od vurub, qalayıb yandırmısan da.
Heç demirsən, məni susuz da qoydun,
Əkib becərmədin işsiz də qoydun.
Ey ana torpağım, ana torpağım,
Sənsiz açılarmı gülüm, yarpağım?
Ey ana torpağım, ana torpağım,
Sənsiz de olarmı kefim, növrağım?
Hayana tərpənsəm sənə bağlıyam,
Təmələ bağlıyam, himə bağlıyam.
Səndən ayrılanlar həyat qurammaz,
Ömrünü gününü başa vurammaz.
Planet içində gözəli sənsən,
Əvvəli, axırı, əzəli sənsən.
Yaşayan səndədir, quran səndədir,
Yorulan səndədir, yoran səndədir,
Zəhər də sənindir, bal da sənindir,
Dəymiş də sənindir, kal da sənindir.
Yaxşı da sənindir, yaman da sənin,
Çiskin də sənindir, duman da sənin.
Bu dövran, yaşayış, həyat səndədir,
Bu işvə, əyləncə, büsat səndədir.
Alim də səndədir, dahi də səndə,
Xadim də səndədir, bani də səndə.

Dünyada nə varsa sən yetirmisən,
Sən qida vermisən, sən bitirmisən.
Ey ana torpağım, ana torpağım.
Mən sənə borcluyam öz ilhamımla,
Öz varlığım ilə, qanım-canımla.
Mən sənə borcluyam öz sözlərimlə,
Həyatda saldığım hər izlərimlə.
Mən sənə borcluyam əzəl binadan,
Babadan, nənədən, ata-anadan.
Məni sən yedirdib, sən içirmisən,
Həyat yollarından sən keçirmisən.
Mən sənə borcluyam ay ana torpaq.
Mən sənə bağlıyam ay ana torpaq.
Hüsnünə baxmaqdan doymayır gözüm,
Doymayır dəhanım, doymayır sözüm.
Saxlaynan sinəndə izim itməsim,
Cəmilin itsədə, özüm itməsin.
Ey ana torpağım, ana torpağım.
Təməlim, özülüm, bina torpağım.
Mən ki, unutmuram haqq-sayını,
Yediyin çörəyi, nə də çayını.
Çalışdım mən səni şərəfləndirəm,
Doğru təsvir edib, qiymətləndirəm.
Təsvirin etməyə gücüm çatmayır,
Qüvvətim çatmayır, vecim çatmayır.
Sənin nemətinlə qidalanmışam,
Yaşayıb, yaşadıb faydalanmışam.
Mən sənin döşündən nələr əmmişəm?
Nələr qoparmışam, nələr dərmişəm?
Mən sənin döşündən nələr yemədim?
Nələr eşitmədim, nələr görmədim.
Mən sənə borcluyam ay ana torpaq.
Nəqədər çalışsam qaytarammaram?
Haqqını-sayını qurtarammaram.
Nəqədər danışsam yenə də azdır,
Deyərsən bu nə söz, bu nə avazdır?

***Cəmil Əkbər***

## 137. O DA, BU DA

O da gedir, bu da gedir,
Hərə bircür məqsəd güdür.
O da gəlir, bu da gəlir,
Hərə bir təmənna edir.

O da alır, bu da alır,
O da dolur, bu da dolur,
O da çalır, bu da çalır,
O da qalır, bu da qalır,
O da solur, bu da solur,
Hərə bircür yola salır.

O da durur, bu da durur,
O da vurur, bu da vurur,
O da qurur, bu da qurur,
O da sorur, bu da sorur,
O da sevir, bu da sevir,
Hərə bircür ilham alır.

O da görür, bu da görür,
O da dərir, bu da dərir,
O da verir, bu da verir,
Hərə bircür yola salır.

Birisi milyonu alır,
Birisi minliyi alır,
Birisi yüzlüyü alır,
Birisi onluğu alır,
Birisi manatı alır,
Birisi qəpiyi alır,
Hərə bircür yola salır.

Birisi incidib alır,
Birisi yoncudub alır,
Birisi soncudub alır,
Birisi qıncıdıb alır,
Hərə bircür yola salır.

O da alır, bu da alır,
Qohum alır, yad da alır,
Su da alır, od da alır,
Çox da alır, az da alır,
Hərə bircür yola salır.

Dünya alver üstündədir,
Get-gör, gəl-gör üstündədir,
Hərə bircür yola salır.

***Cəmil Əkbər***

## 138. MƏN DƏ DONORAM

Mən də bil ki, bir donoram,
Bir kəlmədən bil qanaram.
Qaranlıqda bil fənaram,
Bir çınqıdan bil yanaram.

Mən də bil ki, bir donoram,
Biri ölsə tez sınaram,
Əgər ona can verməsəm,
İnsanlıqdan bil kənaram.

Qan verməsəm birkimsəyə,
Can verməsəm birkimsəyə,
Damarımda qanım donar,
Yerbəyerdən canım donar.

Mən donoram imdadsıza,
Köməksizə yardımsıza,
Mən donoram qan verərəm,
Hərkimsəyə can verərəm.

Mən hörmətin donoruyam,
Mən mürvətin donoruyam,
Mən ismətin donoruyam,
Mən hikmətin donoruyam.

İstərdimki canı verəm,
Damarımda qanı verəm,
İnsanlığa, ləyaqətə,
Qüdsiyyətə, ülviyyətə,
Ədəb-ərkan nəzakətə,
Ülvi istək, məhəbbətə.

***Cəmil Əkbər***

## 139. AYRILSIN

Bilmirəm nə yazım, necə yazım mən?
Eşidənlər cəhalətdən ayrılsın.
Gündüz- günortamı, gecə yazım mən?
Xainlikdən, xəyanətdən ayrılsın.

Son qoyulsun naqisliyə cahanda,
Acgözlüyə, hərisliyə cahanda,
Naxələflik, xəbisliyə cahanda,
Kin-küdurət, ədavətdən ayrılsın.

Nədən yazım bəhrəsini görsünlər?
Vətəninə öz borcunu versinlər,
Bağlar salıb meyvəsindən dərsinlər,
Addımbaşı qəbaətdən ayrılsın.

Saxta fikir yalan sözə uymasın,
Onu-bunu çalan sözə uymasın,
Xəzanlarda solan sözə uymasın,
Qan qaraldan bəyanatdən ayrılsın.

Ömürboyu qəflətlərdə qalmasın,
Açmamışdan tər qönçədə solmasın,
Könül şəhri iztirabla dolmasın,
Giley-güzar, şikayətdən ayrılsın.

Cəmil Əkbər nələr yazsın, bildirsin?
Könülləri sevindirsin, güldürsün?
Gözyaşını harda varsa sildirsin?
Sondan-sona xəcalətdən ayrılsın.

***Cəmil Əkbər*** 16. 01 – 1997

## 140. ŞAİR ÜRƏYİ

Haçandan bəridir təlatümdədir,[239]
Fikirdir, xəyaldır şair ürəyi.
Özü də bilməyir heç nəgündədir?
Qüssədir, məlaldır şair ürəyi.

Düşüncə, dərrakə, ağlı başdadır,[240]
Meyli alagözdə, qələmqaşdadır,
Bilən yox, deyən yox hansı yaşdadır,
Qocadır, cahaldır şair ürəyi.

Əsrlər keçsə də qocalan deyil,
Bir gilə əksilib, azalan deyil,
Qurusu, büsatı pozulan deyil,
El-oba, mahadır şair ürəyi.[241]

Bəzənib görüşə qarılar gəlsin,
Sünbülü-reyhanlar, sarılar gəlsin,
Qonsun çəmənzara, arılar gəlsin,[242]
Şərbətdi, zülaldı şair ürəyi.

Ülfət eyləyərək nadan kəslərlə,[243]
Yolunu tərsinə adan kəslərlə,
Haqq-say sümürüb udan kəslərlə,
Barışa bilmədi şair ürəyi.

---

[239] Dövrü-zəmanədə təlatümdədir.

[240] *II variant* Düşüncə, dərrakə, ağlı başdadır,
Hələ cavan ikən, kamil yaşdadır,
Meyli alagözdə, qələmqaşdadır,
Cahaldır, ahaldır şair ürəyi.

[241] *II variant* Əsrlər keçsə də azalan deyil,
Silinib tarixdən pozulan deyil,
Qurusu, büsatı yozulan deyil,
Obadır, mahaldır şair ürəyi.

[242] Qonsun tər qönçəyə, arılar gəlsin.

[243] Ülfəti olmayıb nadan kəslərlə.

Yaxına gəlmədi, aralı gəzdi,[244]
Qəlbi xoflu gəzdi, qaralı gəzdi,
Alıb zərbələri yaralı gəzdi,
Qovuşa bilmədi şair ürəyi.

Hər yetən kəslərlə söhbət etmədi,
Kəsib duz-çörəyi ülfət etmədi,
Karvanı sürmədi, yola getmədi,[245]
Görüşə bilmədi şair ürəyi.

Bezibdi ilqardan dönən kəslərdən,
Vicdan zirvəsindən enən kəslərdən,
Orada-burada sinən kəslərdən,[246]
Uyuşa bilmədi şair ürəyi.

Səcdə qıldı ərənlərin pirinə,
Fikirdə, xəyalda getdi dərinə,
Getmədi çoxunun xeyir-şərinə,[247]
Qarışa bilmədi şair ürəyi.

Gecə də, gündüz də ahuzardadır,[248]
Borandadır, tufandadır, qardadır,
İşgəncədə, müsibətdə, dardadır,
Sovuşa bilmədi şair ürəyi.

***Cəmil Əkbər*** 6. 03 -1997

## 141. O VAXTDAN

Məhəbbət yelkənim toxunub daşa,
Dəyibdir qəlbimə yara, o vaxtdan.
Qərq oldum boranı kəsməyən qışa,
Düşmüşəm çovğuna, qara o vaxtdan.[249]

Eşqin xəstəsiyəm, loğman neyləsin?
Acıyıb halıma yanan neyləsin?
Qanmayan neyləsin, qanan neyləsin?
Tapmadım dərdimə çarə o vaxtdan.

---

[244] Uzaqda dolandı, aralı gəzdi.
[245] Sazişə girərək yola getmədi.
[246] Qaralıb, qarsıxıb sönən kəslərdən.
[247] Hər mənəm deyənin xeyir-şərinə.
[248] Cahilin əlindən ahuzardadır.
[249] Düşmüşəm borana, qara o vaxtdan.

Ürəyim çəkdiyi qəm-kədər oldu,
İztirab, işgəncə, dərdi-sər oldu,
Fikrim, xəyallarım dərbədər oldu,
Bilmədim yön alım hara, o vaxtdan?

Utandım abırdan, həyadan neylim?
Qırıldı, kəsildi həryandan meylim.[250]
Mənə təlim verən dayədən neylim?
Düşmüşəm tilsimə, tora o vaxtdan.

İstədim bağbantək calayım bağı,
Becərim, bəsləyim yetirim tağı, [251]
Olmuşam hicranın, qəmin dustağı,[252]
Peyvəndim düşməyir bara o vaxtdan.

Düzünə getməyir tərsinə çəkir,
Nə deyib danışsam hirsinə çəkir,
Toxunub yağrına, kirsinə çəkir,
Eyləyib günümü qara o vaxtdan.[253]

Qönçə ikən çiçəyimi soldurur,[254]
Gözəlimi, göyçəyimi öldürür,
Mən fəqiri xəyallara daldırır,
Gileyliyəm mən biçarə o vaxtdan.

Sevda deyiləndən yarıyammadım,
Fərəhlə, sevinclə qarıyammadım,
Qövr edən yaramı sarıyammadım,
Düşmüşəm çətinə, dara o vaxtdan.

---

[250] Vicdandan, məsləkdən, qayədən neylim?
[251] Becərim bostanı, sulayım tağı.
[252] Sanırkı olmuşam mən ona yağı.
[253] *II variant* Düşünüb, dərk edib qanmaq istəmir,
Acıyıb halıma yanmaq istəmir,
Haqqımı-sayımı anmaq istəmir,
Düşmüşəm fəqana, zara o vaxtdan.
[254] Qönçələrdə çiçəyimi soldurur.

Yersiz sözlər ilə qəlbimi qırır,
Yaralar üstündən yaralar vurur,[255]
Mənimtək insanı bezdirir, yorur, [256]
Həsrətəm ismətli yara, o vaxtdan.

Açılmır ürəyim, açılmır eynim,
Qəzəblə, hiddətlə dolubdur beynim,[257]
Özüm də bilmirəm bu dərdə neynim?
Qərq oldum xəzana, xara o vaxtdan.[258]

Eşqin xəstəsiyəm loğman neyləsin?
Acıyıb halıma yanan neyləsin?
Düşünüb dərk edən, qanan neyləsin?
Düşmüşəm məzara, gora o vaxtdan. [259]

***Cəmil Əkbər*** 20. 08 - 1993

### 142. KEŞKƏ

El varını dağıdanın, sökənin,
Mənimlə söhbəti olmaya keşkə.
Yazıq xalqın zəhləsini tökənin,
Yanımda dayanıb qalmaya keşkə.

Şər-böhtan danışıb, ara qatanlar,
Eli soyub külli-vara çatanlar,
Şan-şöhrətə, iqtidara çatanlar,
Zəfərlər təblini çalmaya keşkə.

Qan qaraldıb evlər yıxan kimsənin,
Qəlbə dəyib, ürək sıxan kimsənin,
El-obaya xain çıxan kimsənin,
Açılıb qabağı gülməyə keşkə.

---

[255] Sinəmin üstünə dağ-düyün vurur.
[256] Cəmiltək insanı bezdirir, yorur.
[257] İşləmir, düşünmür, dərk etmir beynim.
[258] Düşmüşəm xəzana, xara o vaxtdan.
[259] *II variant* Soruşub halımı, qeydimə qalmır,
Küsdürüb haçandan könlümü almır,
Axtarıb, arayıb yadına salmır,
Getməyir hayıf ki, gora o vaxtdan.

Obalar, oymaqlar, ellər bir ola,
Ayrılıq salmaya dillər bir ola,
Yaradan biləklər əllər bir ola,
Sərhədlər aranı bölməyə keşkə.

El varını harın-harın yeyənlər,
Altdan-üstdən bəzənənlər, geyənlər,
Öz-özünü tərifləyib öyənlər,
Nəqədər dolsa da, dolmaya keşkə.

Bəşər övladının nər oğulları,
İgid oğulları, ər oğulları,
Nurani, ağsaqqal pir oğulları,
Xəzana qərq olub solmaya keşkə.

Yaxşıya-pis, pisə yaxşı qatanı,
Vətənini, torpağını satanı,
Namərdliklə muradına çatanı,
Könlünü heçkimsə almaya keşkə.

Bar verə hamının ilk məhəbbəti,
İlk andı, ilk eşqi, ilk bəyanatı,
Aşiqin məşuqə ilk səxavəti,
Həsrətlər ürəyi dəlməyə, keşkə.

***Cəmil Əkbər*** 22. 01 – 1997

## 143. KEŞKƏ

*(D e y i ş m ə)*

***Bəhmən Vətənoğlu***: Yaz fəsli gələndə ana torpağa,
Şaxtadan əlamət qalmaya keşkə.
Göz açıb dünyaya gələn bir çiçək,
Vədəsiz saralıb, solmaya keşkə.

***Cəmil Əkbər:*** Nəola tarlada alaqotları,
Cücərib, boy atıb qalmaya keşkə.
Gicitkansayağı dalaqotları,
Əlləri dalayıb, çalmaya keşkə.

***Bəhmən Vətənoğlu***: Dostun meyli dostdan dönməyə yana,
Yamanlıq etməyə insan-insana,
Balanın dağını görməyə ana,
Ağlayıb saçını yolmaya keşkə.

***Cəmil Əkbər:*** Güllər itirməyə təravətini,
Təbii gözəllik, lətafətini,
Saxlaya biləydi dəyanətini,
Ətiri-gülüstan solmaya keşkə.

***Bəhmən Vətənoğlu***: Şər üzəngi tapıb minməyə ata,
Övladı bədəsil görməyə ata,
Heç kimin əlindən çıxmaya xəta,
Nə zindan, nə dustaq olmaya keşkə.

***Cəmil Əkbər:*** Bir nəfər ölməyə vaxtsız, vədəsiz,
Körpələr qalmaya cavan, dədəsiz,
Yaşaya biləydi dərdsiz, qəhərsiz,
Analar saçını yolmaya keşkə.

***Bəhmən Vətənoğlu***: Vaxtsız qocaltmaya il cavanları,
Qəfil aparmaya sel cavanları,
Arzuya çatmamış gül cavanları,
Məzarlar qoynuna almaya keşkə.

***Cəmil Əkbər:*** Ünsiyyət-ülfətlər pozulmayaydı,
Xətirlər, hörmətlər azalmayaydı,
Doğrular tərsinə yozulmayaydı,
Şər-böhtan danışan olmaya keşkə.

***Bəhmən Vətənoğlu***: Çeşmətək çağlaya o gözəl pəri,
Sinəmi dağlaya o gözəl pəri,
Sevincdən ağlaya o gözəl pəri,
Qəhərdən gözləri dolmaya keşkə.

***Cəmil Əkbər:*** Hamı lənətləyə pis adamları,
Bədxah adamları, nəs adamları,
Höcət adamları, tərs adamları,
Heçkimsə qeydinə qalmaya keşkə.

***Bəhmən Vətənoğlu***: Heçkəsin zimistan olmaya yazı,
Qalmaya gözündə mətləb, murazı,
Bu çərxi-gərdişin sədəfl sazı,
Hicran havasını çalmaya keşkə.

***Cəmil Əkbər:*** Nadanlar çıxmasın cəngə, savaşa,
Çəkilsə zülm edər qardaş-qardaşa,
Bəşərin taleyi toxunar daşa,
Zəfərlər təblini çalmaya keşkə.

***Bəhmən Vətənoğlu***: Dirilməyə paxıllıqdan ölənlər,
Dost adına üzəbarı gələnlər,
Yaman günə sevinənlər, gülənlər,
Ömründə bir dəfə gülməyə keşkə.

***Cəmil Əkbər:*** İnsanoğlu harda olsa bir ola,
Orda olsa, burda olsa bir ola,
İri olsa, xırda olsa bir ola,
Nə dini-məzhəbi bölməyə keşkə.

***Bəhmən Vətənoğlu***: Bəhmən ağlar qəlbindəki yaradan,
Dağ üstündən dağ çəkmişdir yar, adan,
İki qəlbi bir eyləyə yaradan,
Bir ürəyi iki bölməyə keşkə.

***Cəmil Əkbər:*** Çəmil Əkbər məclislərdə baş ola,
Harda olsa yaxşılara tuş ola,
Nəyi yesə, nəyi içsə nuş ola,
Yaşayıb yarada, ölməyə keşkə.

***Cəmil Əkbər*** 20. 01 - 1997

## 144. İNSANLAR DOSTLAŞARSA

Əzilən əzən olmaz,
İnsanlar dostlaşarsa.
İnciyib bezən olmaz,
İnsanlar dostlaşarsa.

Qəm-qüssələr yad olar,
Könüllər də şad olar,
Hərkəsə imdad olar,
İnsanlar dostlaşarsa.

Kef üstünə kef gələr,
Qazanc gələr, nəf gələr,
Həm işləyib dincələr,
İnsanlar dostlaşarsa.

Bilməzlər dərdi-qəmi,
Çoxaldarlar həmdəmi,
Gələr azadlıq dəmi,
İnsanlar dostlaşarsa.

Arzu, əməl birləşər,
Sevinc, fərəh kürləşər,
Fikir, xəyal cəmləşər,
İnsanlar dostlaşarsa.

Varlı, kasıb tapılmaz,
Qaşqabaqlar çatılmaz,
Vicdan, məslək satılmaz,
İnsanlar dostlaşarsa.

Millətlər qardaş olar,
Ürək bir sirdaş olar,
Mehriban yoldaş olar,
İnsanlar dostlaşarsa.

Müsibətlər azalar,
Ürəklərdə yaz olar,
Könüllər pərvaz olar,
İnsanlar dostlaşarsa.

Dünyada sərvət artar,
Şərafət, şöhrət artar,
Qollarda qüvvət artar,
İnsanlar dostlaşarsa.

Tapılmaz ara vuran,
Ona-buna tor quran,
Nə də pusquda duran,
İnsanlar dostlaşarsa.

Bağçalar barlı olar,
Kasıb da varlı olar,
İgid vüqarlı olar,
İnsanlar dostlaşarsa.

***Cəmil Əkbər*** 25. 07 – 1963

## 145. GENLƏR

Nəyaman böyüksüz xırdaca genlər,
Sizə bata bilmir soyuq da, qar da.
Nə eniş, nə yoxuş, nə geniş, dar da.
Hər şeyi dəyişdi elm, tərbiyə,
Genlər dəyişmədi, nə tərpənmədi,
Diksinib, qısqanıb, nə ürpənmədi?
Bədən də dəyişdi, baş da dəyişdi,
Fəsil də dəyişdi, yaş da dəyişdi.
Genlər dəyişmədi xasiyyətini,
Nə vərdiş, nə əməl, nə adətini.
Vəzifə dəyişdi, stol dəyişdi,
Tonqallaq dəyişdi, futbol dəyişdi.
Genlər dəyişmədi möcüzəsini,
Genlər dəyişmədi ərizəsini.
Savadsız dəyişdi savadlı oldu,
Elmsiz dəyişdi, elmli oldu.
Genlər dəyişmədi, yerində durdu,
Yerində yaratdı, yerində qurdu.
Göz ilə görülmür xırdaca genlər,
Həyatın nə böyük aləmləri var.
Genlər də insanın öz günəşidir,
Özünün zinəti, öz nəqişidir.

***Cəmil Əkbər***

## 146. BİLƏRSƏN

Düşünüb, dərk edib anlaya bilsən,
Kamal dünyasıyla dola bilərsən.
Nadanı, cahili danlaya bilsən,
Fikirə, xəyala dala bilərsən.

Fəhmin, nəzərin, diqqətin olsa,
Qəlbində təpərin, riqqətin olsa,
Vətənə, xalqına xidmətin olsa,
Zəfərlər təblini çala bilərsən.

Ünsiyyət məqamı pozmasan yolu,
Dağlara, daşlara azmasan yolu,
Vurub, eşələyib qazmasan yolu,
İncik könülləri ala bilərsən.

İdrakın işləyib gətirə bilsə,
Becərib, bəsləyib bitirə bilsə,
Möhnəti üstündən götirə bilsə,
Könüllər mülkündə qala bilərsən.

Həyat mürəkkəbdir qana bilməsən,
Xətiri, hörməti ana bilməsən,
Böyüyü-kiçiyi sana bilməsən,
Xəzana qərq olub sola bilərsən.

Sən Cəmil Əkbərin sözünü qansan,
Duyub mətləbini düzünü qansan,
Yolunu tanıyıb, izini qansan,
Gəlib bir mehmanı ola bilərsən.

***Cəmil Əkbər*** 26. 07 -1998

## 147. BİLƏRSƏN

Asta hərlən, asta otur, asta dur,
Kövrəkdi, qəlbimi əzə bilərsən.
Ehtiyat et, asta toxun, asta vur,
Zərifdi, telini üzə bilərsən.

İtirib əqlini divanə olma,
Laqeyid, keyqubad, biganə olma,
Abırsız, həyasız zənanə olma,
Ülfət-ünsiyyəti poza bilərsən.

Aldanıb fitnəyə, uymaynan felə,
Meyl etmə altuna, satılma lələ,
Qərq olub tufana, düşərsən selə,
Yolunu-izini aza bilərsən.

Bədəməl önündə saralıb, solub,
Qara bulud kimi çalxanıb, dolub,
Fikir aləmində xəyala dalıb,
Özün də özündən bezə bilərsən.

Səndən uzaq olmaz qal-qovğa, qada,
Yetişən tapılmaz haraya, dada,
Ləkələr salınar ləkəsiz ada,
Sonra əməlini yoza bilərsən.

Məhəbbət mülkünü yaralayaraq,
Qılıncsız, qalxansız paralayaraq,
Cəmili özündən aralayaraq,
Vaxtsız məzarımı qaza bilərsən.

***Cəmil Əkbər*** 22.08 – 1986

## 148. DÖNMƏYƏ

Ürəkdə hərzaman məhəbbət ola,
İnsandan insanın üzü dönməyə.
Ünsiyyət-ülfətdə sədaqət ola,
Yayına nəzəri, gözü dönməyə.

Hərkəsdən hamıya etibar ola,
Etiqad baş tuta, düz ilqar ola,
Çəkə cəfasını, vəfadar ola,
Oğulu dönməyə, qızı dönməyə.

Könül diyarında hərarət ola,
Nəciblik, zəriflik, məlahət ola,
Ətiri-gülüstan, təravət ola,
Alovu azalıb, közü dönməyə.

Bəşərin övladı yolu düz görə,
Sağı düz tanıyıb, solu düz görə,
Uzağı seyredib, dalı düz görə,
Cığırı, cəhlimi, izi dönməyə.

Hamı düz anlaya Cəmil Əkbəri,
Kamalı başında sinədəftəri,
Edəydi həryanda dillər əzbəri,
Xəyalı çaşmaya, özü dönməyə.

***Cəmil Əkbər*** 5. 08– 1998

## 149. ÇATMAZ

Ağsaqqallıq zirvəsinə,
Hərkəsdənin əli çatmaz.
Yetişsə də doxsan sinə,
Ayı, günü, ili çatmaz.

Vətəninmin torpağına,
Ötüb-keçən növrağına,
Butağında yarpağına,
Nə obası, eli çatmaz.

Doğma yurdun havasına,
Hər dərdinə, dəvasına,
Sürmək üçün səfasına,
Nə Muğanı, Mili çatmaz.

Ha çalışıb vuruşsa da,
Axtarsa da, soruşsa da,
Bəhsə düşüb yarışsa da,
Nə dodağı, dili çatmaz.

Yaz fəslində bahar çağı,
Bəslənsə də bağca-bağı,
Olacaqdı qəm dustağı,
Nə çiçəyi, gülü çatmaz.

Hər gülünə, çiçəyinə,
Gözəlinə, göyçəyinə,
Qönçədəki dibçəyinə,
Nə çəməni, çölü çatmaz.

Cəmil keçən zamanlara,
Könlümdəki gümanlara,
Sinəmdəki ümmanlara,
Nə dəryası, gölü çatmaz.

***Cəmil Əkbər***

## 150. DÖNƏRMİ?

Kimin varsa kamalının əsəri?
Ədalətdən, həqiqətdən dönərmi?
Məslək, vicdan amalının əsəri?
Sədaqətdən, səxavətdən dönərmi?

Düz eşidib, düz anlayıb, düz görər,
Hörmət edib xətir qoyar, üz görər,
Haqq-saylar əllidirsə yüz görər,
Ülvi istək, məhəbbətdən dönərmi?

Düz dolanıb, düz yaradıb, düz qurar,
Düz hərlənib, düz oturub, düz durar,
Nişan alıb, düz tuşlayıb, düz vurar,
Xeyirxahlıq, fəzilətdən dönərmi?

Kimin varsa idrakının kəsəri?
O verəcək öz xalqına səməri,
Göstərəcək azdan-çoxdan hünəri,
İnsaf-mürvət, mərhəmətdən dönərmi?

Uzaqları seyr edəcək gözləri,
Yayılacaq, fəth edəcək sözləri,
Uzaq-uzaq yol gedəcək izləri,
Şan-şöhrətdən, şərafətdən dönərmi?

Göstərəcək zəriflikdən nişanə,
Həssaslıqdan, ariflikdən nişanə,
Qiraətdən, maariflikdən nişanə,
Lətafətdən, təravətdən dönərmi?

Olacaqdır ürəyində təpəri,
Arzusunda, diləyində təpəri,
Xəlbirində, ələyində təpəri,
Dəyanətdən, mətanətdən dönərmi?

Üz-gözündən görünəcək həyası,
Vicdan-məslək, əqidəsi, qayəsi,
Bilinəcək tezi-geci dayəsi,
İnsanlıqdan, ləyaqətdən dönərmi?

Boğacaqdır tamahını kişitək,
Yuyacaqdır günahını kişitək,
Satacaqdır mətahını kişitək,
İxtiyardan, sədarətdən dönərmi?

***Cəmil Əkbər*** 31. 12 – 1988

## 151. LƏKƏDİ BU

Qaçqınlıqda, köçkünlükdə,
Millətimə ləkədi bu.
Məyusluqda, düşgünlükdə,
Qeyrətimə ləkədi bu.

Tərki-vətən, didərginlik,
Pərişanlıq, bu qəmginlik,
Həm inciklik, həm küsgünlük,
Hörmətimə ləkədi bu.

Zalımlıqda, qəddarlıqda,
Cahillikdə, nadanlıqda,
Cəhalətdə, avamlıqda,
Mürvətimə ləkədi bu.

Abırsızlıq, həyasızlıq,
Vicdansızlıq, qayəsizlik,
Arxasızlıq, sayəsizlik,
İsmətimə ləkədi bu.

Orda-burda baş girləmək,
Sürmə çəkib qaş girləmək,
Qürur ilə döş girləmək,
Şöhrətimə ləkədi bu.

Ünsiyyətdə aralanmaq,
Şəkkə düşmək, qaralanmaq,
Oralanmaq, buralanmaq,
Hikmətimə ləkədi bu.

Ləyaqətə ağız büzmək,
Haqq-saysız möhüb düzmək,
Hara gəldi orda gəzmək,
Xidmətimə ləkədi bu.

Onu-bunu zəhərləmək,
Dərdə salmaq, qəhərləmək,
Haldan salıb, təhərləmək,
Zəhmətimə ləkədi bu.

Gəl unutma haqq-sayı,
Ömür-gündən keçən ayı,
Payız, qışı, yazı, yayı,
Qiymətimə ləkədi bu.

***Cəmil Əkbər***

## 152. GƏRƏKKİ

Gözəllik eşqiylə vuran ürəklər,
Çirkinliyə yol verməsin gərəkki.
Yaradan ürəklər, quran ürəklər,
Gərginliyə yol verməsin gərəkki.

Ədəblə oturub, durun vətəndaş,
Yaradın, yaşadın, qurun vətəndaş,
Özünü bu yolda yorun vətəndaş,
Xudbinliyə yol verməsin gərəkki.

Həyatda ilhamı, həvəsi alan,
Sağlam düşüncəni, nəfəsi alan,
Şirin avazları, xoş səsi alan,
Bədbinliyə yol verməsin gərəkki.

Var ilə hal ilə dolanan insan,
Sərvətlə, mal ilə dolanan insan,
Yağ ilə, bal ilə dolanan insan,
Tənbəlliyə yol verməsin gərəkki.

Sülhün, səadətin nurunu sevən,
Abır-həyasını, arını sevən,
Xətir-hörmətini, zorunu sevən,
Əngəlliyə yol verməsin gərəkki.

Düşüncə, dərrakə, kamalı olan,
Vicdanı, məsləyi, amalı olan,
Çəkidə tutarı, sambalı olan,
Cəncəlliyə yol verməsin gərəkki.

Elin sərvətilə cana gələnlər,
Şərəfə, şöhrətə, şana gələnlər,
Bilə-bilə, qana-qana gələnlər,
Dəcəlliyə yol verməsin gərəkki.

Cəmiyyətdən öz kefini gözləyən,
Qazanc, gəlir, öz nəfini gözləyən,
Zurna, qaval, həm dəfini gözləyən,
Əfəlliyə yol verməsin gərəkki.

Eşitsin Cəmili vətən övladı,
Arzu-muradına yetən övladı,
Cücərən övladı, bitən övladı,
Nadincliyə yol verməsin gərəkki.

***Cəmil Əkbər*** 6. 04 - 1990

## 153. GƏZ

Tərtəmiz havanı udmaq istəsən,
Seyrə çıx yamyaşıl meşələrdə gəz.
Gözəl nemətlərdən dadmaq istəsən,
Çəkdiyin zəhmətdə, işlərində gəz.

Anlamaq istəsən məhəbbət nədir?
Ehtiram göstərmək, mərhəmət nədir?
Xeyirxahlıq nədir, fəzilət nədir?
Könül aynasında, şüşələrdə gəz.

İstəsən ellərdə tanınsın adın,
Enişdə, yoxuşda sınansın adın,
Sayılsın, seçilsin, unansın adın,
Atlananda axtar, düşənlərdə gəz.

Bezdirib zəhləni tökən olmasın,
Vurub qamətini bükən olmasın,
Sinəyə dağ-düyün çəkən olmasın,
Sakit təbiətli guşələrdə gəz.

Yada sal gördüyün gözəl günləri,
Səndən də, məndən də əzəl günləri,
Gəlhagəl günləri, xəzəl günləri,
Kefində, damaqda, nəşələrdə gəz.

Qovuşmaq istəsən səadətə sən,
Gözəl ənənəyə, xoş adətə sən,
Ad-sana, şöhrətə, şərafətə sən,
İdraklı zəkada, başlarında gəz.

İstəsən olasan ləyaqət əhli,
Bacarıq, fərasət, məharət əhli,
İxtiyar, iqtidar, sədarət əhli,
Kamil sənətkarda, peşələrdə gəz.

Cəm olsun yanında, yoldaş çoxalsın,
Mehriban dost-tanış, sirdaş çoxalsın,
Həmyaşıd, tay-tuşlar, çağdaş çoxalsın,
Yemək-içməyində, aşlarında gəz.

İstəsən özgəyə əl açmayasan,
Yalvarıb, yaxarıb, dil açmayasan,
Oxu bu naməni bil, açmayasan,
Kotan, dırmığında, xışlarında gəz.

Günü-güzəranı, gözəl həyatı,
Ruhunu oxşayan qurğu, büsatı,
Elinə, xalqına olan nicatı,
Məğrur sinələrdə, döşlərində gəz.

Hər yetən kimsədən mərhəmət umma,
Kəramət gözləmə, səxavət umma,
Mehri-ülfət umma, ünsiyyət umma,
Tayın, bərabərin, tuşlarında gəz.

İstəsən bu həyat sənə yar olsun,
Qışın da yaz kimi çəmənzar olsun,
Qazancın, sərmayən iftixar olsun,
Aldığın qiymətdə, beşlərində gəz.

Heçkimsədən gileylənmə, incimə,
Nə yalvarma, nə yaxarma, yoncuma,
İş bəd gəlsə, təpik atma soncuma,
Boş keçən günlərdə, yaşlarında gəz.

Müdrik çağlarını görmək istəsən,
Bağ salıb barından dərmək istəsən,
Aldığın borcları vermək istəsən,
Payızında axtar, qışlarında gəz.

Ay Cəmil istəsən hörmətin olsun,
Xalqına xoş gələn xidmətin olsun,
Məzmunun çoxalsın, hikmətin olsun,
Fikir-xəyalında, huşlarında gəz.

***Cəmil Əkbər*** 5-11-18 //05 – 1997

## 154. GƏZİR?

Qəlbi məhəbbətlə döyünən insan,
Bəs niyə kin gəzir, küdurət gəzir?
Eşqlə, hərarətlə döyünən insan,
Görəsən bəs niyə, qəbahət gəzir?

Ünsiyyət-ülfətlə dolanan insan,
Biri-birisilə sulanan insan,
Gedişlə, gəlişlə calanan insan,
Bəs niyə görəsən ədavət gəzir?

Düşüncə, dərrakə, kamal sahibi,
Əqidə sahibi, amal sahibi,
Mənəvi gözəllik, camal sahibi,
Nəüçün görəsən cəhalət gəzir?

Mərifət, nəzakət tanıyan insan,
Zəriflik, lətafət tanıyan insan,
Sədaqət, səxavət tanıyan insan,
Bəs niyə görəsən cinayət gəzir?

Pak arzunu, saf niyyəti qananlar,
Məna dolu məziyyəti qananlar,
Çətinliyi, əziyyəti qananlar,
Paxıllıq axtarır, xəyanət gəzir.

Niyə özü qanmır, öz gərdişini?
Ənənə, adəti, öz vərdişini,
İncidir öz bacı, öz qardaşını,
Gileylər, güzarlar, şikayət gəzir.

Bu bəşər övladı anlamır niyə?
Günahı olanı danlamır niyə?
Kötəkləmir niyə, yanlamır niyə?
Uydurma xəbərlər, bəyanat gəzir.

***Cəmil Əkbər*** 6. 04 - 1991

## 155. SORAĞI GƏLMİR

Oğruluq, əyrilik oqədər artıb,
Haqqın, ədalətin sorağı gəlmir.
Özgəlik, qeyrilik oqədər artıb,
Ülvi-məhəbbətin sorağı gəlmir.

Ülfət-ünsiyyətlər pozulub yaman,
Doğruluq tərsinə yazılıb yaman,
İnləyib, sızlayıb üzülüb yaman,
Saf-arzu, niyyətin sorağı gəlmir.

Gözəllər nəyaman həyasızlaşıb?
Məsləkdən uzaşıb, qayəsizləşib,
Qalıbdı sahibsiz, dayəsizləşib,
Abırın, ismətin sorağı gəlmir.

İnsaf tükənibdi, mürvət azalıb,
Şərafət azalıb, şöhrət azalıb,
Ədəb-ərkan, həm mərifət azalıb,
Xətirin, hörmətin sorağı gəlmir.

Bürüyüb bəşəri, tənbəllik artıb,
Buxovlar çoxalıb, əngəllik artıb,
Höcətlik, inadlıq, cəncəllik artıb,
Zəhmətin, xidmətin sorağı gəlmir.

Yaxşılar boğulur pislər əlində,
Qızıllar, gümüşlər, mislər əlində,
Bədxahlar, zalımlar, nəslər əlində,
Dəyərin, qiymətin sorağı gəlmir.

Zəmanə bəd gəlib, gədə hökm edir,
Vicdanı, məsləyi zədə hökm edir,
Çox etsən zərbələr, hədə hökm edir,
Namusun, qeyrətin sorağı gəlmir.

***Cəmil Əkbər*** 17. 01 – 1991

## 156. YAŞAMA!

Oğul, sözlərimə yaxşı qulaq as,
Sədaqətsiz, səxavətsiz yaşama!
Ata nəsihəti faydasız olmaz,
Pak istəksiz, məhəbbətsiz yaşama!

Bil ona bağlıdır ünsiyyətimiz,
Ən ali keyfiyyət, qüdsiyyətimiz,
Adət-ənənəmiz, xasiyyətimiz,
Ədəb-ərkan, mərifətsiz yaşama!

Qəlbində küdurət kini saxlama!
İlanı, əqrəbi, cini saxlama!
Cəhalət, avamlıq, dini saxlama!
Şan-şöhrətsiz, şərafətsiz yaşama!

Haqq yolunu düz get əzəl günündən,
Gənclik çağlarından gözəl günündən,
Gəlhagəl günündən, xəzəl günündən,
Haq-divansız, ədalətsiz yaşama!

Qoy həvəsin cövlan etsin ürəkdə,
Sağlam fikir, arzu-istək, diləkdə,
Qüvvət olsun, qüdrət olsun biləkdə,
Odsuz-közsüz, hərarətsiz yaşama!

Doğru get yolunu, izini bala,
Bişirib danışın sözünü bala,
Nüfuzdan salmaynan özünü bala,
Bacarıqsız, fərasətsiz yaşama!

Abır da, həya da bağlıdır ona,
Məslək də, qayə də bağlıdır ona,
Kömək də, sayə də bağlıdır ona,
İradəsiz, dəyanətsiz yaşama!

Eylə et ki, ləyaqətin bilinsin,
Yolunla, izinlə gedib gəlinsin,
Yaxşı pislər əleyində ələnsin,
İnsaf, mürvət, kəramətsiz yaşama!

Cəmil Əkbər ilham alır ürəkdən,
Saf arzudan, saf istəkdən, diləkdən,
Umub küsmə yaradandan, fələkdən,
Əqidəsiz, ibadətsiz yaşama!

***Cəmil Əkbər*** 25. 01 – 1989

## 157. DUMANDAYIQ, ÇƏNDƏYİK

Çox şeyləri edərdik, indi edə bilmirik,
Uzaq yollar gedərdik, indi gedə bilmirik.
Görülməyən yerləri, gedib görə bilərdik,
Dərilməyən bağları gedib dərə bilərdik.
Burda, orda süründük, heyif görə bilmədik,
Gör nəqədər bağlardan heyif dərə bilmədik.
Çox şeyləri düşünüb, dərk edərdik, yazardıq,
Çox dəstəni dağıdıb, cərgəsini pozardıq.
Əfsus olsun çox şeyi indiyəcən yazmadıq,
Çoxlarının qəbrini külüngləyib qazmadıq.
Bu dünyanı seyredib, çox işləri sezərdik,
Sinə gərib çətinə dayanardıq, dözərdik.
Uzaqları seyredib, sezənmədik heyifki,
Cəfasına tablaşıb, dözənmədik heyifki.
Diyar-diyar elləri gəzənmədik heyifki,
Dəryaları, ümmanı üzənmədik heyifki.
Dərinliyə girməyib, dayazlarda dolandıq,
İstilərə düşməyib, ayazlarda dolandıq.
Çox işləri görərdik, yaradardıq, qurardıq,
Qəflətlərdə yatmazdıq, oyanardıq, durardıq.
Əfsuslarki vaxt keçdi, quranmadıq heyifki,
Məqamında oyanıb, duranmadıq heyifki.
Çoxlarına yetişib, ürək-dirək olardıq,
Harayına çataraq, ona həyan olardıq.
Heyif elə-obaya bəhrəni az vermişik,
Baltaları sovlayıb, dəhrəni az vermişik.
Saray nədir, ev nədir, daxma yapa bilmədik,
Hey axtardıq, aradıq yaxma tapa bilmədik.
Qanadlanıb səmaya uçanmadıq neyləyim?
İdraklardan ziyanı saçanmadıq neyləyim?
Ha yüyürdük, ha yortduq, ha çalışdıq vuruşduq,
Ona-buna üz tutub, ha öyrəndik, soruşduq.
Anlamadıq, bilmədik, bu həyatın sirrini,
Silənmədik ləkəni, yuyanmadıq kirini.
Ha çalışdıq vuruşduq, səadətə çatmağa,
Gözəl vərdiş, ənənə, xoş adətə çatmağa.
Əfsus olsun vaxtında, çatanmadıq tez ona,

Veyilləndik, gecikdik, tutanmadıq üz ona.
Çox əlləşib vuruşduq, cəhalətə son qoyaq,
Addımbaşı törəyən qəbahətə son qoyaq.
Küdurətə son qoyaq, ədavətə son qoyaq,
Paxıllığa uymayaq, xəyanətə son qoyaq.
Əfsuslarki nədənsə cəhalət də, yaşayır,
Qəbahət də yaşayır, ədavət də yaşayır.
Hey çalışıb vuruşduq, xoş dövrana qovuşaq,
Xətalardan, bəladan, birdəfəlik sovuşaq.
Ha oxuduq, ha bildik, nə düşünüb qanırıq,
Nə böyüyü pəsinib, nə kiçiyi sanırıq.
Əfsus olsun nədənsə insanlıqdan gendəyik,
Bulud çöküb həryana, dumandayıq, çəndəyik.

***Cəmil Əkbər*** 11. 01 – 1997

## 158. YAŞAYIB

İnsanoğlu bu dünyaya gələndə,
Necə bacarıbsa, elə yaşayıb.
Dərsin alıb oxuyandan, biləndən,
Necə bacarıbsa, elə yaşayıb.

Hamı yaşamayıb sədaqət ilə,
İnsafla, mürvətlə, kəramət ilə,
Cahi-cəlal ilə, var-dövlət ilə,
Biri ağa, biri kölə yaşayıb.

Birisi kef çəkib, biri pərt olub,
Biri varlı olub, biri lüt olub,
Birisi nə balıq, nə də at olub,
Biri qəddar, biri pilə yaşayıb.

Biri qorxaq olub, biri ürəkli,
Birisi yararsız, biri gərəkli,
Biri kasıb olub, biri çörəkli,
Biri gədə, biri lələ yaşayıb.

Birisi dağıdır, birisi qurur,
Birisi yorulur, birisi yorur,
Birisi şərəflə oturur durur,
Biri dovşan, biri dələ yaşayıb.

Birinin arzusu gözündə qalıb,
Çatmayıb mənzilə izində qalıb,
Xəyalında qalıb, sözündə qalıb,
Biri ölüb, biri hələ yaşayıb.

***Cəmil Əkbər***

## 159. ORDADIR!

Gəzmə şərafətsiz, şərəfsiz yerdə,
Şərafət hardasa, şöhrət ordadır!
Axtarma hünərsiz, cəfasız yerdə,
Dəyanət hardasa, qüdrət ordadır!

Dolanıb, girlənib başını saxla,
Turşutma qabağı, qaşını saxla,
Gödəltmə ömrünü, yaşını saxla,
Məharət hardasa, qeyrət ordadır!

Əkiz doğulmuşdur yaxşı pis ilə,
Xeyirxah bədxahla, həlim nəs ilə,
Mülayim inadla, höcət tərs ilə,
Cəsarət hardasa, cürət ordadır!

Axtarma yaxşını pis olan yerdə,
Qızılı, gümüşü mis olan yerdə,
Ətalət hökmedən, sus olan yerdə,
Hərəkət hardasa, sürət ordadır!

Gəzməynən dəyəri zəhmətsiz yerdə,
Cəfa çəkilməyən xidmətsiz yerdə,
Ədəbsiz, ərkansız, mərfətsiz yerdə,
Dəyərlər hardasa, qiymət ordadır!

Sən abır axtarma həyasız kəsdən,
Vicdansız, məsləksiz, qayəsiz kəsdən,
Tərbiyə görməyən dayəsiz kəsdən,
Abır hayandasa, ismət ordadır!

***Cəmil Əkbər***

## 160. AMANDIR!

Sənin öz yerin var, mənim öz yerim,
Mənimlə yarışa girmə, amandır!
Mənim öz yerim var, sənin öz yerin,
Mənimlə yürüşə girmə, amandır!

Sənin öz işin var, mənim öz işim,
Sənin öz sənətin, mənim öz peşəm,
Sənin öz çənən var, mənim öz dişim,
Mənimlə ötüşə girmə, amandır!

Sənin öz huşun var, öz kamalın var,
Əqidə, məsləyin, öz amalın var,
Özünün hüsnün var, öz camalın var,
Mənimlə öpüşə girmə, amandır!

Hərənin özünün öz bəzəyi var,
Öz kökü, kömənci, öz özəyi var,
Naxışı, baxışı, öz düzəyi var,
Mənimlə naxışa girmə, amandır!

Baxıb öz kölgənə gəl aldanma sən,
Sığınıb kimsəyə gəl daldanma sən,
Düşüb bəd fikirə gəl yollanma sən,
Mənimlə çıxışa girmə, amandır!

Nəvəm sənin üçün baba olacaq,
Çömçəm sənin üçün tava olacaq,
Çəngəlim, dırnağım yava olacaq,
Mənimlə baxışa girmə, amandır!

***Cəmil Əkbər***

## 161. TƏLƏSMƏ!

İlahi, dünyaya nadan kəsləri,
Tez-tələsik gətirməyə tələsmə!
Yolunu tərsinə adan kəsləri,
Səadətə yetirməyə tələsmə!

Nanəcibin, naxələfin, naqisin,
Tamahkarın, acgözlərin, hərisin,
Paxılların, xainlərin, xəbisin,
Şələsini götürməyə tələsmə!

Qoy yaşasın, mərd igidlər harda var,
Düşsələr də çətinliyə, darda var,
Tufanlarda, boranlarda, qarda var,
Yola salıb ötürməyə tələsmə!

Ünsiyyəti, ülfətləri pozanı,
Fitnə-fəsad uyduranı, yazanı,
Yollarını, izlərini azanı,
Peyvənd edib, bitirməyə tələsmə!

Yaxşı saxla qananları hərzaman,
Haqq-sayı ananları hərzaman,
Böyük, kiçik sananları hərzaman,
Gözdən salıb itirməyə tələsmə!

***Cəmil Əkbər*** 12. 01 - 2000

## 162. ÖLDÜ

Sarsıtdı elimi bu qara xəbər,
Deyirlərki Turqut Özal da öldü.
Şərəf-şan sahibi, dillərdə əzbər,
Deyirlərki Turqut Özal da öldü.

O, Türk ellərinin dayağı idi,
Parlaq kəhkəşanı, mayağı idi,
İgidlər dəsinin oyağı idi,
Deyirlərki Turqut Özal da öldü.

İslam dünyasının çırağı söndü,
Eşqi, məhəbbəti, marağı söndü,
Kəsildi xəbəri, sorağı söndü,
Deyirlərki Turqut Özal da öldü.

Azərbaycanımın qardaşı idi,
Həmdəmi, həmkarı, sirdaşı idi,
Sədaqətli dostu, yoldaşı idi,
Deyirlərki Turqut Özal da öldü.

Mətləbi, məqsədi yarıda qaldı,
Susdu bülbülləri, zarıda qaldı,
Üzüldü qatardan, sırıda qaldı,
Deyirlərki Turqut Özal da öldü.

Gör necə dayandı ürəyi onun?
Çox arzu, istəyi, diləyi onun?
Qayğısı, yardımı, köməyi onun?
Deyirlərki Turqut Özal da öldü.

İlahi nə sirdir, bu necə işdir?
Necə həngamədir, necə gərdişdir?
Necə səksəkədir, necə müdhişdir?
Deyirlərki Turqut Özal da öldü.

Ölümdə insaf yox, zalımda mürvət,
Əzrail eşitmir təvəqqi, minnət,
Tükəndi qolumda, qılçımda qüvvət,
Deyirlərki Turqut Özal da öldü.

O da şəhid oldu, şəhidlər kimi,
Can verdi torpağa igidlər kimi,
Qoyuldu məzara meyitlər kimi,
Deyirlərki Turqut Özal da öldü.

Bu kədər sarsıtdı Cəmil Əkbəri,
Əlində ağladı qələm dəftəri,
Əyildi qaməti, əyildi səri,
Deyirlərki Turqut Özal da öldü.

***Cəmil Əkbər*** 18. 04 – 1993

## 163. BİR NƏVƏM ÖLÜBDÜR

Bir nəvəm ölübdür ürəyim kimi,
Qızılım, gümüşüm, gərəyim kimi,
Bükülməz qollarım, biləyim kimi,
Qolum, qanadımtək, lələyim kimi.

Bir nəvəm ölübdür, tayı yox idi,
Qılıncı, qalxanı, yayı yox idi,
Sovqatı yox idi, payı yox idi,
Nöqsanı yox idi, zayı yox idi.

Bir nəvəm ölübdür, qardaşım kimi,
Mehriban, istəkli yoldaşım kimi,
Həmkarım, həmdəmim, sirdaşım kimi,
Yaşdaşım, tay-tuşum, çağdaşım kimi.

Mən onun yelinə dağlar aşardım,
Tarlalar, zəmilər, bağlar aşardım.
Yorulmaq, ərinmək bilmirdim əsla,
İlantək sürünmək bilmirdim əsla.

Bir nəvəm ölübdür, qolumu qırdı,
Sağımı məhv etdi, solumu qırdı,
Düzümü sarsıdıb, yolumu qırdı,
Taqətimi kəsib, halımı qırdı.

Bir nəvəm ölübdür, gül kimi təmiz,
Hamıdan mehriban, hamıdan əziz,
Hamıdan müqəddəs, hamıdan əziz,
Hamıdan şip-şirin, hamıdan ləziz.

Bir nəvəm ölübdür, sözü bal idi,
Baxışı bal idi, gözü bal idi,
Çəhlimi bal idi, izi bal idi,
Kölgəsi bal idi, özü bal idi.

Bir nəvəm ölübdür, qətl günündə,
Şəhadətə yetidi, qətl günündə.
Bir nəvəm ölübdür, belimi qırıb,
Dodağımı kəsib, dilimi qırıb,
Yurdumu, yuvamı, elimi qırıb,
Gövhərimi qırıb, ləlimi qırıb.

***Cəmil Əkbər*** 12. 07 -1992

## 164. XƏTASIDIR

Çəkdiyimiz əziyyətlər,
Gic başların xətasıdır.
Məşəqqətlər, müsibətlər,
Gic başların xətasıdır.

Hay eyləsən haya gəlmir,
Toy eyləsən toya gəlmir,
Ha soylasan, soya gəlmir,
Öc başların xətasıdır.

Qəlbimizə dəyən yara,
Haqqımızı yeyən yara,
İşimizi əyən yara,
Puç başların xətasıdır.

Nə gəlirsə başımıza,
Düyünlənən qaşımıza,
Qarşımıza, tuşumuza,
Heç başların xətasıdır.

Qal-qovxalar, dava-dalaş,
Həyəcanlar, qorxu, təlaş,
Ha fikirləş, ha da çalış,
Suç başların xətasıdır.

Hamı olub huri-mələk,
İşlətsədə hiylə, kələk,
Əsən, çoşan bu sərt külək,
Biç başların xətasıdır.

Günah səndə, nə məndədir,
Nə Misirdə, Yəməndədir,
Hamı deyir zamandadır,
Tunc başların xətasıdır.

***Cəmil Əkbər*** 18. 03 – 1992

## 165. AZƏRBAYCANIM

Qəlbimin odu da, hərarəti də,
Sənindir, sənindir, Azərbaycanım.
Fəhmi-fərasəti, cəsarəti də,
Sənindir, sənindir, Azərbaycanım.

Sözümün mənası, gözümün nuru,
Dizimin taqəti, qüvvəsi, giri,
İdrak-düşüncəmin incisi, zəri,
Sənindir, sənindir, Azərbaycanım.

Ədəbim, ərkanım, nəzakətim də,
Haqqım, hüququm da, ədalətim də,
Nəciblik, incəlik, məlahətim də,
Sənindir, sənindir, Azərbaycanım.

Mən Cəmil Əkbərin şərəfi, şanı,
Könül diyarımın gövhəri, kanı,
Ayaqdan başadək damarda qanı,
Sənindir, sənindir, Azərbaycanım.[260]

***Cəmil Əkbər***

## 166. AZƏRBAYCANIM

*I variant*

Dərdi tüğyan edir gözəl vətənin,
Biclər əlindədir Azərbaycanım.
Səndən də, məndən də əzəl vətənin,
Giclər əlindədir Azərbaycanım.[261]

---

[260] *II variant* Nə varsa şeiri, sözü Cəmilin?
Oğulu, övladı, qızı Cəmilin,
Söhbəti, kəlamı, sazı Cəmilin,
Sənindir, sənindir, Azərbaycanım.

Dağıdan dağıdır, sökənlər-sökür,
Bezdirib zəhlələr tökənlər-tökür,
Sinəyə dağ-düyün çəkənlər-çəkir,
Kəclər əlindədir Azərbaycanım.[262]

Yoluyla, iziylə düz gedən yoxdur,
İşarə anlayıb, göz gedən yoxdur,
İlişib qalırlar, tez gedən yoxdur,
Ləclər əlindədir Azərbaycanım.[263]

Haqqı-ədaləti gözdən salıblar,
Yolundan çıxarıb, izdən salıblar,
Fürsət ələ keçib, tezdən salıblar,
Öclər əlindədir Azərbaycanım.[264]

Dağılıb, talanıb var əldən gedir,
Bağlar viran qalıb, bar əldən gedir,
Dost-mehriban yoldaş, yar əldən gedir,
Pis günə qalıbdır Azərbaycanım.

Yaxşılar yerini tutubdur yaman,
Nə bilir eyləyir, verməyir aman,
Dağların başını bürüyür duman,
Sis günə qalıbdır Azərbaycanım.

---

[261] *II variant* Dərdin tüğyan edir ağla, ağla sən,
Biclərə qalmısan, Azərbaycanım.
Başına qaralar bağla, bağla sən,
Giclərə qalmısan, Azərbaycanım.

[262] *II variant* Dağıdan dağıdır, sökənlər-sökür,
Bezdirib zəhləni tökənlər-tökür,
Dağı sinələrə çəkənlər-çəkir,
Kəclərə qalmısan Azərbaycanım.

[263] *II variant* Yoluyla, iziylə düz gedən yoxdur,
Gecikir mənzilə, tez gedən yoxdur,
Eşidib, anlayıb söz gedən yoxdur,
Ləclərə qalmısan Azərbaycanım.

[264] *II variant* Haqqı-ədaləti ananha yoxdur?
Xətiri-hörməti sananha yoxdur?
Deyib-danışmayan, qaxanha yoxdur?
Öclərə qalmısan Azərbaycanım.

Açılmır qaşqabaq, açılmır eyin,
Kütləşib, pas atıb, işləmir beyin,
İstər yavaş danış, istərsə yeyin,
Nəs günə qalıbdır Azərbaycanım.

Ellərin dərdinə yanan de kimdir?
Aşiqlər, məşuqlar, canan de kimdir?
Məhəbbət düşgünü Sənan de kimdir?
Tərs günə qalıbdır Azərbaycanım.

İstər siz ağlayın, istərsə gülün,
İstəyir dirilin, istərsə ölün,
İstər anlamayın, istərsə bilin,
Gör kimə qalıbdır Azərbaycanım?

***Cəmil Əkbər***

## 167. AZƏRBAYCANIM

*II variant*

Nə vaxtdan bəridir yatha-yatdasan?
Haçan ayılacaq Azərbaycanım?
Çamıra qərq olub, bathabatdadır?
Haçan ayılacaq Azərbaycanım?[265]

Əllərdə, ayaqda döyülən odur,
Ünvanı dalınca söyülən odur,
Dövləti, sərvəti yeyilən odur,
Haçan ayılacaq Azərbaycanım?[266]

---

[265] *II variant* Nəqədər qəflətdə yatacaq görən?
Haçan ayılacaq Azərbaycanım?
Qərq olub, çamıra batacaq görən?
Haçan ayılacaq Azərbaycanım?

[266] *II variant* Hamı tapdalanıb, döyüləcəkdir,
Ünvanı dalınca söyüləcəkdir,
Çürüyüb içindən yeyiləcəkdir,
Haçan ayılacaq Azərbaycanım?

Quduzlar əlində talanıb gedir,
Qanları yerlərə calanıb gedir,
Birtəhər girlənib dolanıb gedir,
Haçan ayılacaq Azərbaycanım?[267]

Nəqədər səbr edib dözəcək görən?
İnciyib küsəcək, bezəcək görən?
Qırıb ümidini üzəcək görən?
Haçan ayılacaq Azərbaycanım?[268]

Görənin, bilənin qaralır qanı,
Sarsılır varlığı, üşüyür canı,
Kəhkəşan ulduzu görəsən hanı?
Haçan ayılacaq Azərbaycanım[269]

Nəqədər görəsən baş ağrıyacaq?
Çatılıb qabaqlar, qaş ağrıyacaq?
Sinələr tutulub döş ağrıyacaq?
Haçan ayılacaq Azərbaycanım?

Tərini tökməmiş yeyənə bir bax,
Özünü dartana, öyənə bir bax,
Vurub sinəsinə döyənə bir bax,
Haçan ayılacaq Azərbaycanım?

---

[267] *II variant* Dağılıb, sökülüb, talanacaqdır,
Qanları yerlərə calanacaqdır,
Dilənçi payılə dolanacaqdır,
Haçan ayılacaq Azərbaycanım?

[268] *II variant* Nəqədər səbr edib dözəcək görən?
Usanıb canından bezəcək görən?
Üzəcək qəlbini, üzəcək görən?
Haçan ayılacaq Azərbaycanım?

[269] *II variant* Al qanlar nəqədər qaralacaqdır?
Dünyası başına daralacaqdır?
1) Gül kimi çöhrəsi saralacaqdır, 2) Didərgin düşəcək, xar olacaqdır?
Haçan ayılacaq Azərbaycanım.

Düz çəkmir qəlblərdə mizan tərəzi,
Başqadır hərkəsin qəsdi, qərəzi,
Arzusu, istəyi, mətləb, mərəzi,
Haçan ayılacaq Azərbaycanım?[270]

Nəvaxtacan qəbahətdə qalacaq?
Kin-küdurət, ədavətdə qalacaq?
Avamlıqda, cəhalətdə qalacaq?
Haçan ayılacaq Azərbaycanım?

Nəvaxtacan al-qanımız qaralsın?
Şaxta vursun, bostanımız saralsın?
Başımıza gen dünyamız daralsın?
Haçan ayılacaq Azərbaycanım?

Nəvaxtacan bir-birini satacaq?
Namusunu, qeyrətini atacaq?
Şər danışıb, aralığı qatacaq?
Haçan ayılacaq Azərbaycanım?[271]

Nəqədər əzilən, əzən olacaq?
İnləyən, sızlayan, dözən olacaq?
Avarə dolanıb, gəzən olacaq?[272]
Haçan ayılacaq Azərbaycanım?

Nəqədər sərsəri, yava olacaq?
Qal-qovğa törəyib, dava olacaq?
Zəhərə qarışmış hava olacaq?
Haçan ayılacaq Azərbaycanım?

---

[270] *II variant* Hərzaman görürük qəsdi-qərəzi,
Buminvalla bilən yoxdu mərəzi,
Tərsinə çəkəcək mizan tərəzi,
Haçan ayılacaq Azərbaycanım?

[271] *II variant* Orda-burda bir-birini satacaq?
İnsafını-vicdanını atacaq?
Şər danışıb, aralığı qatacaq?
Haçan ayılacaq Azərbaycanım?

[272] Çərlədib özünü üzən olacaq?

Nəqədər ülfəti pozan olacaq?
Doğrunu tərsinə yozan olacaq?
Ayaqlar altını qazan olacaq?
Haçan ayılacaq Azərbaycanım?

Nəqədər xainlər, xəbis olacaq?
Nanəcib, naxələf, naqis olacaq?
Yaramaz övladdan varis olacaq?
Haçan ayılacaq Azərbaycanım?

Nəvaxtacan bir-birini yoracaq?
Qərəzində, qisasında duracaq?
Dağlar çəkib sinəsinə vuracaq?
Haçan ayılacaq Azərbaycanım?

***Cəmil Əkbər*** 20.03 -1992

## 168. QƏHƏTDİR

Yaradan bəşərə qəsd eylədilər,
İnsanam deyəndə kamal qəhətdir.
Yemədən, içmədən məsd eylədilər,
Əqidə çatışmır, amal qəhətdir.

Həryana baxırsan çirkinlər çoxdur,
Lovğa, yekəxana, xudbinlər çoxdur,
Taledən inciyən, bədbinlər çoxdur,
Mənəvi gözəllik, camal qəhətdir.

Bir yan darısqallıq, bir yan genişdir,
Bir yan yoxuşdursa, bir yan enişdir,
Bir yan zülmətdirsə, bir yan günəşdir,
Mərd igid yetirən mahal qəhətdir.

Könüllər diyarı qəmə batıbdır,
İtirib ahəngi bəmə batıbdır,
Gözlərin didəsi nəmə batıbdır,
İlham qanad açmır, xəyal qəhətdir.

Zaman yola salır hər kişiləri,
Nurani, ağsaqqal, pir kişiləri,
İgid kişiləri, ər kişiləri,
Layiqli varislər, cahal qəhətdir.

***Cəmil Əkbər*** 20.03 – 1992

## 169. MATƏMDƏDİR

Nəyaman bədxəbər, müsibətdi bu,
Misginli mahalı, el matəmdədir.
Qohuma-qardaşa qiyamətdi bu,
Uyuyub meşələr, çöl matəmdədir.

Qələndər Nəbiyev gözünü yumub,
O kimdən inciyib, üzünü yumub?
Danışmır, dillənmir, sözünü yumub,
Dodaq matəmdədir, dil matəmdədir.

Qərq olub qüssəyə dostlar, tanışlar,
Mehriban eloğlu, qohum, qardaşlar,
Çatılıb ay aman, o şux baxışlar,
Bülbül yasa batıb, gül matəmdədir.

Dağlar da, daşlar da bürünüb qara,
Eləbil onlar da, alıbdır yara,
Təbibdən, loğmandan olmadı çara,
Sərraflar neyləsin, ləl matəmdədir.

Nə deyim, danışım, söz tapanmıram?
Suala cavabı düz tapanmıram.
Damaq daddan düşüb, duz tapanmıram,
Sonasız qalıbdır, gül matəmdədir.

Qəlbimdən yerbəyer qara qan axır,
Ayrılıq sinəmi yandırıb-yaxır,
Ağrılar, acılar şimşəktək çaxır,
Çeşmə sızıldayır, sel matəmdədir.

Beylə bir dəhşəti neyləsin yazan?
Neyləsin qəm çəkən, canını üzən?
Neyləsin mürdəşir, məzarı qazan?
Külüng inildəyir, bel matəmdədir.

Sizi əyən kədər, məni də əyir,
Sizi yeyən kədər, məni də yeyir,
Sizi döyən kədər, məni də döyür,
Cəmil də sizintək, bil matəmdədir.

***Cəmil Əkbər*** 22. 01 – 1988

## 170. ŞÜBHƏLƏNMİŞƏM

Oqədər yaxşıya pisdi dedilər,
Ləyaqət əhlinə nəsdi dedilər,
Höcətdi, inaddı, tərsdi dedilər,
Fəzilət əhlindən şübhələnmişəm.

Nəqədər gözələ çirkin dedilər,
Nikbin olanlara  bədbin dedilər,
Sadəyə, fəqirə, xudbin dedilər,
Nəzakət əhlindən şübhələnmişəm.

Oqədər alimə nadan dedilər,
Yolunu tərsinə adan dedilər,
Təlimdən yarımçıq dadan dedilər,[273]
Şərafət əhlindən şübhələnmişəm.

Oqədər gədəyə bəysən dedilər,
Kamal sahibinə keysən dedilər,
İdraksız, əqilsiz, səysən dedilər,
Fərasət əhlindən şübhələnmişəm.

---

[273] Haqqı-say sümürüb udan dedilər.

Dünyada oqədər söz dəyişdi ki?
Əyri dəyişdi ki, düz dəyişdi ki?
Cığırlar, yolaqlar, iz dəyişdi ki?
Həqiqət əhlindən şübhələnmişəm.

Nəqədər qönçədə solanlar oldu,
Boşların yerinə dolanlar oldu,
Fikirə, xəyala dalanlar oldu,
Siyasət əhlindən şübhələnmişəm.

Dünyada oqədər yalanlar gördüm,
Dağılan, sökülən, talanlar gördüm,
Züy tutub, nağara çalanlar gördüm,
Ədalət əhlindən şübhələnmişəm.

Dünyada oqədər mürvətsizlər var,
Abırsız, həyasız, ismətsizlər var,
Hünərsiz, təpərsiz, riqqətsizlər var,
Kəramət əhlindən şübhələnmişəm.

Dünyada oqədər naqislər gördüm,
Paxıllar, xainlər, xəbislər gördüm,
Nanəcib, naxələf varislər gördüm,
Səxavət əhlindən şübhələnmişəm.

Dünyada oqədər əniklər varki?
Hər səmtə üz tutan yönüklər varki?
İlqara, imana dönüklər varki?
Sədaqət əhlindən şübhələnmişəm.

Dünyada oqədər qansızlar gördüm,
Zülalsız, şəkərsiz şansızlar gördüm,
Vicdansız, məsləksiz cansızlar gördüm,
Mərhəmət əhlindən şübhələnmişəm.

Nəqədər gədəni ucalan gördüm,
Ömür karvanında qocalan gördüm,
Sürüb dövranını bac alan gördüm,
Şərafət əhlindən şübhələnmişəm.

Dünyada oqədər yaltaqlıq gördüm,
Abırsız, ismətsiz sırtıqlar gördüm,
Hiyləgər, dələduz, şıltaqlar gördüm,
Cəsarət əhlindən şübhələnmişəm.

*Cəmil Əkbər*

## 171. HƏR ŞEY

Hər şey dəyişsə də, yeniləşsə də,
İnsanlıq, ləyaqət yeniləşməsin.
Hər şey kök atsa da, dərinləşsə də,
Avamlıq, cəhalət dərinləşməsin.

Hər şey təmizlənib, yeniləşsə də,
Ədalət, həqiqət yeniləşməsin.
Kirpiklər, yanaqlar süniləşsə də,
Ülfət-ünsiyyətlər süniləşməsin.

Hər şey püxtələşib, təkmilləşsə də,
Sədaqət, məhəbbət təkmilləşməsin.
Əl-ələ versə də, yeniləşsə də,
Bəd fikir, xəyallar yeniləşməsin.

Hər şey ciddiləşib, mətinləşsə də,
Paxıllıq, xainlik mətinləşməsin.
Hər şey bu dünyada çətinləşsə də,
Yaşamaq, yaratmaq çətinləşməsin.

Hər şey becərilib, bəslənilsə də,
Paxıllıq, xainlik bəslənilməsin.
Hamı səadətə səslənilsə də,
Heçkəs qəbahətə səslənilməsin.

Hər şey kök atsa da, bəhrə versə də,
Acgözlər, hərislər bəhrələnməsin.
Namərdlər, nakəslər qəhərlənsə də,
Mərd igid dünyada qəhərlənməsin.

Hər şey bu dünyada kasadlaşsa da,
Əqillər, kamallar kasadlaşmasın,
Yemək də, içmək də qəhətləşsə də,
Əqidə, məsləklər qəhətləşməsin.

Hər şey bu dünyada ərşə çıxsa da,
İnsaflar, mürvətlər ərşə çıxmasın.
Yerdən ayaq üzüb gürşə çıxsa da,
Xətirlər, hörmətlər gürşə çıxmasın.

Hər şey bu dünyada kasadlaşsa da,
Nə abır, nə həya kasadlaşmasın.
Qəhətə çıxsa da, cılızlaşsa da,
Səxavət, kəramət cılızlaşmasın.

Nadanlar dünyada azğınlaşsa da,
Ariflər, qananlar azğınlaşmasın.
Quldurlar, qatillər quzğunlaşsa da,
Ustadlar yanılıb pozğunlaşmasın.

Hamı bu dünyadan köçüb getsə də,
Mərifət, şərafət köçüb getməsin.
Əcəl şərbətini içib getsə də,
Saf arzu, pak niyyət köçüb getməsin.

***Cəmil Əkbər***

## 172. ÖYRƏNİN

Əzəl başdan budur sənlə söhbətim,
İnsanlıqdan, ləyaqətdən öyrənin.
Budur ilk təvəqqəm, xahiş minnətim,
Ədalətdən, həqiqətdən öyrənin.

Meylini yetirmə tamaha doğru,
Qal-qovğa, xətaya, günaha doğru,
Naləyə, qarğışa, nə aha doğru,
İnsaf, mürvət, səxavətdən öyrənin.

Şər danışıb qarışdırma aranı,
Qövr etdirib qızışdırma yaranı,
Loğman kimi özün eylə çaranı,
Dəva-dərman, təbabətdən öyrənin.

Qoymayın bu azar hamını qırsın,
Bahalıq, bu bazar hamını qırsın,
Bu səfər, bu güzar hamını qırsın,
El-obadan, cəmaətdən öyrənin.

Vətən torpağını gülə döndərin,
Onun hər daşını lələ döndərin,
Damlanı artırın, gölə döndərin,
Zəhmət çəkib hər xidmətdən öyrənin.

Xətir-hörmət, haqq-sayı itirmə!
Nə deyilsə peysərinə ötürmə!
Heçbirkəsin minnətini götürmə!
Zirəklikdən, fərasətdən öyrənin.

İgidsənsə öz adına hörmət et,
Dərin-dayaz, düz adına hörmət et,
Səksən, doxsan, yüz adına hörmət et,
Bacarıqdan, məharətdən öyrənin.

Bu oba, bu mahal, el səninkidir,
Bu çəmən, bu çiçək, gül səninkidir,
Dağlar da, aran da, bil səninkidir,
Səxavətdən, sədaqətdən öyrənin.

İnsanam deyənin arı gərəkdir,
Öz dostu, həmkarı, yarı gərəkdir,
Qüvvəsi, qüdrəti, karı gərəkdir,
Bu mənadan, bu hikmətdən öyrənin.

Qızıl olub, mis yerinə satılma!
Yaxşı olub, pis yerinə atılma!
Bədxah olub nəs yerinə tutulma!
Bu dəyərdən, bu qiymətdən öyrənin.

Sanmaki, hər şeyin biləmdərisən?
Alimi, loğmanı, qələndərisən?
Sərrafı, xarratı, çilingərisən?
El-obadan, cəmaətdən öyrənin.

Yaxşı qoru ata-baba yolunu,
Peyvənd eylə harda varsa kolunu,
Şahrah eylə, cığırını, yolunu,
Ədəb-ərkan, mərifətdən öyrənin.

Keçmişlərə nəzər salın, əl atın,
Ədiblərə, maariflərə əl atın,
Gözüaçıq ariflərə əl atın,
İncil, Quran, təriqətdən öyrənin.

Qüvvət olsun, qüdrət olsun canında,
Təpər olsun, hünər olsun qanında,
Süzüləndə zülal olsun şanında,
İgidlikdən, cəsarətdən öyrənin.

Anlayın, qanın ki, elin oğlusan,
Dəryayi-kamil ol, selin oğlusan,
Şirin ülfətlərin, dilin oğlusan,
Dözüm, durum, dəyanətdən öyrənin.

Keçirmə günləri havayı, hədər,
Mənalı günlərin, mənasız gedər,
Sonrakı peşmanlıq ürəyi didər,
Şan-şöhrətdən, şərafətdən öyrənin.

Deməki mən baxıb kimdən öyrənim?
Hansı himdən, hansı cimdən öyrənim?
Hansı kökdən, hansı simdən öyrənim?
Bu söylənən hekayətdən öyrənin.

Ay Cəmil qoşulma fitnə-fellərə,
Boğazdan yuxarı yağlı-dillərə,
Qulluq et daima saf-əməllərə,
Doğru fikir, pak niyyətdən öyrənin.

***Cəmil Əkbər*** 5. 08 - 1988

### 173. QAYIT!

Özgə ocaqlarda az isin qardaş,
Doğma ocağına, közünə qayıt!
Özgəni saya al, az pəsin qardaş,
Özünü dərk eylə, özünə qayıt!

Özgənin dağları gözəl olsa da,
Bağları-bağçası xəzəl olsa da,
Səndən də, məndən də əzəl olsa da,
Öz dağ-aranına, düzünə qayıt!

Bəsdir, hər yetənə meyil saldığın,
Bu yurdda, o yurdda qonaq qaldığın,
Saksafonda, gitarada çaldığın,
Özünün tarına, sazına qayıt!

Bəsdir özgələrdən qız aldığımız,
Çəkib cəfasını, naz aldığımız,
Əlüstü, tələsik, tez aldığımız,
Özünün oğluna, qızına qayıt!

Özgə aşinadan sənə yar olmaz,
Dar gündə usanar, vəfadar olmaz,
Baxıb qəm-qüssədən intizar olmaz,
Özünün çoxuna, azına qayıt!

Özgə kölgəsində qalanlar solar,
Buludtək tutulub, qaralıb dolar,
Kötüksüz, butaqsız, bəhərsiz qalar,
Öz yol-ərkanına, izinə qayıt!

Haçandırki babaları danmışıq,
Yarımçıq anlayıb belə qanmışıq,
Nə vecə almışıq, nə də sanmışıq,
Öz dəsti-xəttinə, yazına qayıt!

Özgə hesabına var  axtarma gəl!
Namus axtarma gəl, ar axtarma gəl!
Özünə münasib yar axtarma gəl!
Özcə düşüncənə, gözünə qayıt!

Dolanma buqədər dağ-daşı yetər!
Olmaynan kütbeyin, nə naşı yetər!
Gödəltmə ömürü, nə yaşı yetər!
Öz ədəb-ərkanın, izinə qayıt!

Yetər özgələrdən söz öyrəndiyin!
Əyri öyrəndiyin, düz öyrəndiyin!
Dayaz öyrəndiyin, üz öyrəndiyin!
Öz fikir dünyana, sözünə qayıt!

Az buqədər özgələri yamsıla,
Meyil salıb, mehir salıb, imsilə,
Bir-birini az kötəklə, dümsülə,
Özünün ərkinə, nazına qayıt!

Demirəm özgədən görmə, götürmə,
Könül bağçanızda peyvənd bitirmə,
Estafeti əldən-ələ ötürmə,
Öz süfrənə qayıt, duzuna qayıt!

Bəsdir birbirinə ağız büzdüyün!
Aralı düşərək gendə gəzdiyin!
Sinə gərib ağrılara dözdüyün!
Fəsli-baharına, yazına qayıt!

Cəmil Əkbər çox olubdur çaşdığın,
Gözləməyib öz həddini aşdığın,
Bir kəlmədən qaynadığın, daşdığın,[274]
Öz xəyal dünyana, sözünə qayıt!

***Cəmil Əkbər*** 22.10 -1989

## 174. QAYIT!

Bəsdir yad ellərdə girələndiyin,
Elinə, obana, evinə qayıt!
Yassarlıq etdiyin, fərəhləndiyin,
Yoluna nəzər sal, izinə qayıt!

Özgə ocaqlarda isindin bəsdir!
Düşüb vahiməyə, səksəndin bəsdir!
Utandın, qısqandın, pəsindin bəsdir!
Doğma ocağının közünə qayıt!

---

[274] Haqlı-haqsız şeirini qoşduğun.

Özgə diyarlardan sənə el olmaz,
Yadların kolundan sənə kol olmaz,
Oxu bu naməni, öyrən bil olmaz,
Ata-babaların sözünə qayıt!

Vətən torpağından aralı gəzmə,
Oralı axtarıb, buralı gəzmə,
Qəlbi xoflu gəzmə, qaralı gəzmə,
Düşmə dağa-daşa, düzünə qayıt!

Saksafondan, gitaradan əlgötür,
Özün üçün azdan-çoxdan bil götür,
Aç gözünün dumanını sil götür,
Tarına, kamana, sazına qayıt!

Özgə gözəllərə uyduğun yetər!
Gətirib yanına qoyduğun yetər!
Buqədər hiss edib, duyduğun yetər!
Özünün oğluna, qızına qayıt!

Daldanma, sığınma özgə ölkəyə,
Yoğurub yapmamış yağlı kökəyə,
Kim hörmət edibdir sümsük köpəyə?
Özünün tamına, duzuna qayıt!

Eşit sözlərini Cəmil Əkbərin,
Xidmət et Vətənə bilinsin yerin.
Düşünüb dərk eylə dərindən-dərin,
Öz bahar fəslinə, yazına qayıt!

***Cəmil Əkbər*** 31. 12 – 1996

## 175. QAYITMALIYIQ!

*I variant*

İstəsək ki, arzumuza çataq biz?
Baba qeyrətinə qayıtmalıyıq!
Üstümüzdən qəm yükünü ataq biz?
Baba şöhrətinə qayıtmalıyıq!

Səadətə qovuşmaqdan ötəri,
Xətalardan sovuşmaqdan ötəri,
Birbirinə yovuşmaqdan ötəri,
Baba nüsrətinə qayıtmalıyıq!

Harada yaşayıb qalası olsaq?
Fikirə, xəyala dalası olsaq?
Açılası olsaq, solası olsaq?
Baba hikmətinə qayıtmalıyıq!

İstəsək ki, nazı-nemət çoxalsın?
Acqarınlar gündən-günə toxalsın?
Cəhalətlər, avamlıqlar yoxalsın?
Baba xislətinə qayıtmalıyıq!

İstəsək ki, nəzakətlər var olsun?
Sədaqətlər, səxavətlər bol olsun?
İnsaf, mürvət, kəramətlər bol olsun?
Baba xidmətinə qayıtmalıyıq!

İstəsək kəsilsin qal-qovğa, dava?
Dolsun kainata tərtəmiz hava?
Azalsın günbəgün sərsəri, yava?
Baba adətinə qayıtmalıyıq!

İstəsək qəlblərə dəyən olmasın?
Düzələn işləri əyən olmasın?
Haqq-say sümürüb yeyən olmasın?
Baba diqqətinə qayıtmalıyıq!

İstəsək ki, şan-şöhrətə yetişək?
Bacarığa, məharətə yetişək?
Saf-arzuya, pak-niyyətə yetişək?
Baba söhətinə qayıtmalıyıq!

İstəsək ki, yolumuzu azmayaq?
Şər danışıb böhtanları yazmayaq?
Ona-buna dərin quyu qazmayaq?
Baba hörmətinə qayıtmalıyıq!

İstəsək Vətəni dardan qurtaraq?
Qurulan qurğudan, tordan qurtaraq?
Qəm-qüssədən, ahuzardan qurtaraq?
Baba cürətinə qayıtmalıyıq!

İstəsək dünyamız gözəl görünsün?
Dahada şahanə, özəl görünsün?
Şeirlər oxunsun, qəzəl görünsün?
Baba riqqətinə qayıtmalıyıq!

İstəsək əzilən, əzən olmasın?
Düşüb müsibətə dözən olmasın?
Qəmlər dəryasında üzən olmasın?
Halal qismətinə qayıtmalıyıq!

İstəsək saralan, solan olmasın?
Əllərdə, ayaqda qalan olmasın?
Ünsiyyət-ülfətdə yalan olmasın?
Baba ismətinə qayıtmalıyıq!

İstəsək qohumlar, qardaş çoxalsın?
Həmkarlar, həmdəmlər, sirdaş çoxalsın?
Mehriban tay-tuşlar, çağdaş çoxalsın?
Baba nüsrətinə qayıtmalıyıq!

İstəsək üzlərdə həya görünsün?
Tərtəmiz əqidə, qayə görünsün?
İnsandan-insana sayə görünsün?
Baba hikmətinə qayıtmalıyıq!

Onlarda nə varsa görək götürək,
İgidliyi əldən-ələ ötürək,
Gənc nəslə xoş xəbərlər yetirək,
Baba zəhmətinə qayıtmalıyıq!

İstəsək dünyada qəhər olmasın?
Ağrılar, acılar, zəhər olmasın?
Hal pozulub min bir-təhər olmasın?
Baba  diqqətinə qayıtmalıyıq!

Deməyin babalar dəbdən düşübdür,
Eşqdən, həvəsdən, təbdən düşübdür,
Dərmanı tapılmır, həbdən düşübdür,
Baba nemətinə qayıtmalıyıq!

Dövrü-zəmanədə Kərəm olmalı,
Ya Məcnun, ya Sənan, Dilqəm olmalı,
Sevgidə ən yaxın həmdəm olmalı,
Baba həsrətinə qayıtmalıyıq!

***Cəmil Əkbər*** 26. 12 – 1999

## 176. QAYITMALIYIQ!

*II variant*

İstəsək ki, səadətə çataq biz?
Baba qeyrətinə qayıtmalıyıq!
Qəm yükünü üstümüzdən ataq biz?
Baba şöhrətinə qayıtmalıyıq!

İstəsək ki, abır-həya bol olsun?
Halal süfrə, halal maya bol olsun?
İnsandan-insana sayə bol olsun?
Baba xidmətinə qayıtmalıyıq!

İstəsək dünyada hörmət çoxalsın?
Kəramət çoxalsın, mürvət çoxalsın?
Mənəvi gözəllik, sərvət çoxalsın?
Baba xislətinə qayıtmalıyıq!

Bu cahan mülkündə dava kəsilsin?
Zəhərə qarışan hava kəsilsin?
Sərsəri, kəmağıl, yava kəsilsin?
Baba diqqətinə qayıtmalıyıq!

İstəsək şərəfə, şöhrətə çataq?
Pak-arzu istəyə, niyyətə çataq?
Mənaya, məzmuna, hikmətə çataq?
Baba riqqətinə qayıtmalıyıq!

İstəsək tərbiyə, təlim götürək?
Estafeti əldən-ələ ötürək?
Qəm yükünü üstümüzdən götürək?
Baba zəhmətinə qayıtmalıyıq!

İstəsək dünyada qəhər olmasın?
Yeyilən, içilən zəhər olmasın?
Dərd azar çoxalıb, kədər olmasın?
Baba xidmətinə qayıtmalıyıq!

İstəsək ki, yolu-izi azmayaq?
Əyrini-düz, düzü tərsə yozmayaq?
Ünsiyyəti, ülfətləri pozmayaq?
Baba söhbətinə qayıtmalıyıq!

İstəsən inciyən, bezən olmasın?
Düşüb müsibətə dözən olmasın?
Canı haldan salıb üzən olmasın?
Sərraf qiymətinə qayıtmalıyıq!

İstəsən aranı qatan olmasın?
Vicdanı-məsləyi satan olmasın?
Bəd işlər törədib tutan olmasın?
Baba hörmətinə qayıtmalıyıq!

İstəsən dünyada qardaş çoxalsın?
Vəfalı dost-tanış, yoldaş çoxalsın?
Həmkarlar, tay-tuşlar, çağdaş çoxalsın?
Baba mürvətinə qayıtmalıyıq!

Dövrü-zəmanədə Kərəm gərəkdir,
Ya Məcnun, ya Sənan, Dilqəm gərəkdir,
Sevgi məhəbbətdən həmdəm gərəkdir,
Baba həsrətinə qayıtmalıyıq!

***Cəmil Əkbər***      27.12 – 1999

## 177. VERMİSƏN?

İlahi, çox şükür ənaətinə,
Bu nə fikir, bu nə huşdu vermisən?
İnsaf-mürvətinə, kəramətinə,
Nə düşüncə, bu nə başdı vermisən?

İnsan bir-birinin qanını sorur,
Çəkib zülalını şanını sorur,
İncidib bezdirir, canını yorur,
Bu nə zordu, bu nə xoşdu vermisən?

İnsan bir-birinin qəlbinə dəyir,
Vurub qamətini, qəddini əyir,
Çoxları heçkəsə verməyir xeyir,
Bu nə həmkar, nə yoldaşdı vermisən?

Bəzənib-düzənib geyənlər geyir,
Düzəldən-düzəldir, əyənlər-əyir,
Qazanan-qazanır, yeyənlər-yeyir,
Bu nə bozbaş, bu nə aşdı vermisən?

Biri süd gölündə üzür hey üzür,
Elləri şad-xürrəm gəzir hey-gəzir,
Biri də canından bezir hey-bezir,
Nə həngamə, bu nə işdi vermisən?

Pak döyünən ürəklərin yerində,
Nəcib arzu, diləklərin yerində,
Ariflərin, zirəklərin yerində,
Nə kəsəkdi, bu nə daşdı vermisən?

Çoxları dözməyib ölüb gedibdir,
Xəzana qərq olub, solub gedibdir,
Fikir-xəyallara dalıb gedibdir,
Nə ömürdü, bu nə yaşdı vermisən?

Boylanıb baxsa da görə bilməyir,
Aldığı borcları verə bilməyir,
Məhəbbət mülkünə girə bilməyir,
Bu nə gözdü, bu nə qaşdı vermisən?

Dost-tanış içində qanmayan da var,
Xətiri, hörməti anmayan da var,
Azacıq pəsinib sanmayan da var,
Bu nə taydı, bu nə tuşdu vermisən?

Çoxları vədəsiz, nakam köçdülər,
Əcəl şərbətini alıb içdilər,
Sirat körpüsündən gəlib keçdilər,
Bu nə eniş, nə yoxuşdu vermisən?

Çoxları qəflətdə yatıb ayılmır,
El-obada xoş sədası yayılmır,
İnsan cərgəsində yoxdu, sayılmır,
Bu nə meyxoş, nə sərxoşdu vermisən?

Deyirsən sözünü qanmaq istəmir,
Yaxşını-yamanı sanmaq istəmir,
Odunu qoyursan yanmaq istəmir,
Bu nə höyüş, bu nə yaşdı vermisən?

Çoxları alışdı, külə qarışdı,
Qərq olub torpağa, gilə qarışdı,
Gözgörəti, bilə-bilə qarışdı,
Bu nə alov, nə atəşdi vermisən?

Birisi dərk edib sezib dolanır,
Ağrıya-acıya dözüb dolanır,
Dərini, dayazı gəzib dolanır,
Bu nə dövran, nə gərdişdi vermisən?

Haçandan bəridir kəsilmir dava?
Zəhərə qarışır tərtəmiz hava,
Azalıb qurtarmır sərsəri, yava,
Bu nə adət, nə vərdişdi vermisən?

Ucalan kim oldu, enən kim oldu?
Alışan kim oldu, sönən kim oldu?
Susanlar kim oldu, dinən kim oldu?
Nə zirvədi, bu nə qaşdı vermisən?

Əyib qamətini bükənlər-bükür,
Müsibət, işgəncə çəkənlər-çəkir,
Yalvarıb yaxaran, çökənlər-çökür,
Nə həyəcan nə təşvişdi vermisən?

Biri-birisinə qəsd eyləyirlər,
Yeməmiş, içməmiş məsd eyləyirlər,
Gör kimi kimlərlə dosd eyləyirlər?
Bu nə himcim, nə göz-qaşdı vermisən?

Tamah insanları bu günə qoyub,
Kələfi, yumağı düyünə qoyub,
Salıb səs-səmirə, bu ünə qoyub,
Hərdəmxəyal, nə çaşbaşdı vermisən?

***Cəmil Əkbər*** 20. 12 – 1999

## 178. DÜNYASIYMIŞ

İnanıb çox sözə aldanmışam mən,
Sən demə bu dünya bic dünyasıymış.
Haqqa ümid olub daldanmışam mən,
Sən demə bu dünya kəc dünyasıymış.

Sandım ki, insana kamal gərəkdir,
Əqidə gərəkdir, amal gərəkdir,
Mənəvi gözəllik, camal gərəkdir,
Sən demə bu dünya gic dünyasıymış.

Qal-qovğa xoşlayıb, dava sevmədim,
Zəhərə qarışmış hava sevmədim,
And, qəsəm eylərəm, tova sevmədim,
Sən demə bu dünya öc dünyasıymış.

İstədim ülfəti pozmayıb gedim,
Ayaqlar altını qazmayıb gedim,
Yolumu, izimi azmayıb gedim,
Sən demə bu dünya ləc dünyasıymış.

Çalışdım həyatda günah etməyim,
Yolu azıb özgə səmtə getməyim,
Aldanıb nəfsə tamah etməyim,
Sən demə bu dünya suç dünyasıymış.

Sandımki yaşayıb qalacam müdam,
Fikirə, xəyala dalacam müdam,
Vətəndən ilhamı alacam müdam,
Sən demə bu dünya puç dünyasıymış.

İstər düzünə get, istərsə əyil,
Bu cahan mülkünə az eylə meyil,
Heçkəsə daimi, əbədi deyil,
Gəlhagəl, gethaget, köç dünyasıymış.

Avara dolanıb, veyil görünmə,
İlantəki toz-torpaqda sürünmə,
Yas saxlayıb, qaralara bürünmə,
Əngin səmalarda uç dünyasıymış.

Bacarsan heç zaman qəm, kədər çəkmə,
Amandı, axıdıb gözyaşı tökmə,
Əyib qamətini, qəddini bükmə,
Özünə yol, cığır aç dünyasıymış.

Hər yetən kəslərlə oturma, durma!
Qəlbini incidib, başını yorma!
Dilini ağrıdıb halını sorma!
Mərdləri namərddən seç dünyasıymış.

Onu-bunu haraylayıb, küyləmə!
Ağzına gələni açıb söyləmə!
Car çəkib hamıya bəyan eyləmə!
Mərifət şərbətin iç dünyasıymış.

Hərkəsin özünün xidməti vardır,
Dəyər kəmiyyəti, qiyməti vardır,
Məzmunu, mənası, neməti vardır,
Boyuna xələti biç, dünyasıymış.

Dövrü-zəmanədə, küt xoşa gəlmir,
Ağıldan, kamaldan qıt xoşa gəlmir,
Müqəvva olanlar, büt xoşa gəlmir,
İdrakdan ziyanı saç dünyasıymış.

Cəmil, nanıkorla ülfət eyləmə!
Dayanıb yanında söhbət eyləmə!
Nə giley, nə güzar, qeybət eyləmə!
Yanından uzaşıb, qaç dünyasıymış.

***Cəmil Əkbər*** 20. 12 – 1999

## 179. YADDAN ÇIXIB

Hamı öz qarnını, cibini güdür,
Oba yaddan çıxıb, el yaddan çıxıb.
Özünün daxması, evini güdür,
Mahal unudulub, bil yaddan çıxıb.

İnsanam deyənin başı qarışıb,
Qabağı tutulub, qaşı qarışıb,
Alimlər, loğmanlar, naşı qarışıb,
Hamı gün düşünür, il yaddan çıxıb.

Hərkəs meyl eyləyir kalanasarı,
Dağıdıb sökənə, alanasarı,
Aləmə vəlvələ salanasarı,
Çəmən yaddan çıxıb, çöl yaddan çıxıb.

Ünsiyyət-ülfətdə qəbahət artıb,
Küdurət çoxalıb, ədavət artıb,
Qəsd-qərəz çoxalıb, xəyanət artıb,
Muğan yaddan çıxıb, Mil yaddan çıxıb.

Çoxalıb həryanda alaqotları,
Gicitkansayağı dalaqotları,
Tikanlar, qanqallar, ulaq otları,
Qərənfil, lalələr, gül yaddan çıxıb.

İdrak zəyifləşib, beyin keyləşib,
Yaddaş xarablaşıb, zehin keyləşib,
Nəzərə alınmır, eyin keyləşib,
Sərraf naşılaşıb, ləl yaddan çıxıb.

Bordaxda bəslənən donuz çoxalıb,
Məzlumlar, fəqirlər, kəniz çoxalıb,
Gözlərin yaşından dəniz çoxalıb,
Çeşmə yaddan çıxıb, göl yaddan çıxıb.

İgid oğlanların yeri dəyişib,
Sərrafı tanınmır, zəri dəyişib,
Xeyiri dəyişib, şəri dəyişib,
Qarışqa fil olub, fil yaddan çıxıb.

***Cəmil Əkbər*** 25. 12 – 1999

## 180. EDİR

*I variant*

Gözəllik aşiqi olan insanlar,
Bəs nədən arabir çirkinlik edir? [275]
Əqilə, kamala dolan insanlar,
Bəs nədən arabir gərginlik edir?

İnsan sinəsində vuran ürəklər,
Yaradan ürəklər, quran ürəklər,
Oyanan ürəklər, duran ürəklər,
Bəs niyə kobudluq, xudbinlik edir?

Sadəlik eşqiylə yaşayan insan,
Bəs niyə arada xudbinlik edir?
Kef-damaq, şənliyi xoşlayan insan,
Görəsən bəs niyə bədbinlik edir?

---

[275] Görəsən nəüçün çirkinlik edir?

Var ilə, hal ilə dolanan kəslər,
Sərvətlə, mal ilə dolanan kəslər,
Yağ ilə, bal ilə dolanan kəslər,
Bəs niyə çalışmır, tənbəllik edir?

Sülhün, səadətin nurunu görən,
Bu gözəl adətin karını görən,
Meyvəsini yeyən, barını dərən,
Bəs niyə, görəsən əngəllik edir?

Düşüncə sahibi, kamal sahibi,
Əqidə sahibi, amal sahibi,
El-oba sahibi, mahal sahibi,
Niyə hay-küy salır, cəncəllik edir?

Elin var-halıyla cana gələnlər,
Ərsəyə gələnlər, qana gələnlər,
Şərəfə, şöhrətə, şana gələnlər,
Niyə ara qatır, dəcəllik edir?

Zamanın, dövranın kefini çəkən,
Xeyrini, karını, nəfini çəkən,
Süpürüb, sümürüb, müfünü çəkən,
Bəs niyə buqədər əfəllik edir?

Görəsən nəüçünVətən övladı?
Arzuya, murada yetən övladı?
Cücərən övladı, bitən övladı?
Bəs niyə buqədər nadanlıq edir?

Ayırmaq istəmir yaxşını pisdən,
Gümüşü qalaydan, qızılı misdən,
Xeyirxah kəsləri bədxahdan, nəsdən,
Bəs niyə vicdana xəyanət edir?

Doğrunu eşitmir, düzü anlamır,
Bir tamı dadmayıb, duzu anlamır,
Yolağı tanımır, izi anlamır,
Bəs niyə taledən şikayət edir?

***Cəmil Əkbər*** 4. 04 - 1991

## 181. EDİR

*II variant*

Gözəllik aşiqi olan bu bəşər,
Bəs səbəb nədir ki, çirkinlik edir?
Dalaşıb vuruşur daim sərbəsər,
Salır aralığa gərginlik edir?

Həyatdan ilhamı almaq istəyən,
Düşüb xəyallara dalmaq istəyən,
Dünyada firavan qalmaq istəyən,
Bəs niyə görəsən bədbinlik edir?

Sülhün, səadətin nurunu görən,
Bəhrəsini görən, barını görən,
Meyvəsini dərən, karını görən,
Niyə düz dolanmır, əngəllik edir?

Düşüncə, dərrakə, kamal sahibi,
Əqidə sahibi, amal sahibi,
El-oba sahibi, mahal sahibi,
Bəs niyə görəsən cəncəllik edir?

El varıyla cana-qana gələnlər,
Şərəfə, şöhrətə, şana gələnlər,
Bilə-bilə, qana-qana gələnlər,
Bəs niyə ülfətdə dəcəllik edir?

Ərşdən-gürşdən, yerdən, göydən danışan,
Açılmamış neçə sirdən danışan,
Xeyirdən danışan, şərdən danışan,
Bəs niyə görəsən əfəlllik edir?

Görəsən nəüçünVətən övladı?
Arzuya, murada yetən övladı?
Sulanıb, cücərib bitən övladı?
Bəs niyə görəsən nadinclik edir?

***Cəmil Əkbər*** 4. 04 - 1991

## 182. DOLANDIRIR

*I variant*

Evdə arvadına gücü çatmayan,
Xalqa darğa olub, el dolandırır.
Sözü ötüşməyən, dişi batmayan,
Bağı tar-mar edib, kol dolandırır. [276]

Bir şitil calayıb, yetirə bilmir,[277]
Becərib, bəsləyib bitirə bilmir,
Möhnəti boynuna götürə bilmir,
Bağları, bağçanı kal dolandırır.

Fəsillər keçsə də yetişə bilmir,
Qaynayıb, qarışıb, bitişə bilmir,
Finişə çıxaraq ötüşə bilmir,
Bəsləyir qoranı, kal dolandırır.

Aranı-bərəni qatıbdır yaman,
Haqqı-ədaləti atıbdır yaman,
Dəyər-dəyməzinə satıbdır yaman,
Gədələr fitnələr, fel dolandırır.

Çox sözün-söhbətin əsəri yoxdur,
Tökülüb dişinin kəsəri yoxdur,
Tükənib faydası, səməri yoxdur,
Girib çamırlığa, göl dolandırır.[278]

---

[276] *II variant* Evdə arvadına gücü çatmayan,
Gəlib kovxa olub, el dolandırır.
Sözü ötüşməyən, dişi batmayan,
Fitnələr işlədib, fel dolandırır.

[277] *II variant* Bir şitil calayıb, yetirməyən kəs,
Becərib, bəsləyib bitirməyən kəs,
Möhnəti boynuna götürməyən kəs,
Bağ-bağat yerində kol dolandırır**.**

[278] *II variant* Ha deyib, danlasan əsəri yoxdur,
Faydası, xeyiri, səməri yoxdur,
Ovxarı tükənib, kəsəri yoxdur,
Qəlbində çamırlıq, göl dolandırır.

Milləti-millətə düşmən eyləyib,
Begemont eyləyib, şişman eyləyib,
Xəcalət eyləyib, peşman eyləyib,
Qovğa dolandırır, qal dolandırır.[279]

Adını çəkmirəm, eldən ayıbdır,
Dəhandan, dodaqdan, dildən ayıbdır,
Qarışqadan ayıb, fildən ayıbdır,
Olubdur başına kül dolandırır.[280]

Eşitmir qulağı eləbil kardır,
Tutulub gözləri sanırsan kordur,[281]
Çəkdiyi nə namus, nə qeyrət, ardır,
Gözlərə soxmağa mil dolandırır.

Bir məna, məzmun yox söz-söhbətində,
Doğru söhbətində, düz söhbətində,
Dərin söhbətində, üz söhbətində,
Girləyir başını, dil dolandırır.[282]

Cəmil Əkbər beləlri az deyil,
İlqarına, vəfasına düz deyil,
Əfsus olsun mərd igiddir, qız deyil,
Ömür-gün keçirir, il dolandırır.

***Cəmil Əkbər*** 15. 07 – 1989

---

[279] *II variant* Elləri özünə düşmən eyləyib,
Oturub-duranı peşman eyləyib,
Özünü begemont, şişman eyləyib,
Qovğa dolandırır, qal dolandırır.

[280] *II variant* Adını bilinməsin, eldən ayıbdır,
Dəhandan ayıbdır, dildən ayıbdır,
Çaylardan, sellərdən, göldən ayıbdır,
Olubdur başına kül dolandırır

[281] Tutulub gözləri qarovdur, kordur.

[282] *II variant* Məna yox, məzmun yox söz-söhbətində,
Əyri söhbətində, düz söhbətində,
Dərin söhbətində, üz söhbətində,
İlan xislətlidir, dil dolandırır.

## 183. DOLANDIRIR

*II variant*

“Evdə arvadına söz deyənməyən,
Gəlib kovxa olub, el dolandırır.”
Kəlməni, cümləni düz deyənməyən,
Daş-qaş sahibidir, ləl dolandırır.

Bir şitil calayıb bitirməyənlər,
Becərib, bəsləyib yetirməyənlər,
Möhnəti boynuna götürməyənlər,
Dolayıb başına şal dolandırır.

Aranı-bərəni qatır gədələr,
İnsafı-mürvəti atır gədələr,
Dəyər dəyməzinə satır gədələr,
Fitnə dolandırır, fel dolandırır.

Əqildən, kamaldan əsəri yoxdur,
Sözünün mənası, kəsəri yoxdur,
Ellərə-obaya səməri yoxdur,
Batıb çamırlığa, göl dolandırır.

Elləri-obanı talayıb çapır,
Özünə saraylar, qalalar yapır,
Hay-həşir düşəndə yayınır, sapır,
Daş-qaşla yaşayıb, ləl dolandır.

Bəşəri-aləmi düşmən eyləyib,
Xəcalət çəkdirib, peşman eyləyib,
Özünü begemont, şişman eyləyib,
Qovğa dolandırır, qal dolandırır.

Adını çəkməyin nə mənası var?
Nə fikir, nə zikir, nə xülyası var?
Nə yuxu görübdür, nə röyası var?
Olubdur başına kül dolandırır.

Qəlbi çamırlıqdır, kin ilə dolu,
Şeytan ilə dolu, cin ilə dolu,
Cəhalətlə dolu, din ilə dolu,
Gözlərə soxmağa mil dolandırır.

İnanan yox söhbətinə, sözünə,
Yalanına, yanlıcına, düzünə,
Düşən yoxdur cığırına, izinə,
Girləyib başını, dil dolandırır.

Eşitmir qulağı, eləbil kardır,
Görməyir gözləri, sanırsan kordur,
Çəkdiyi nə qeyrət, nə iffət, ardır,
Sanırki begemont, fil dolandırır.

***Cəmil Əkbər*** 14. 08 – 1989

## 184. VAXTIDIR

Nəqədər dəyməyib, kal qalacağıq?
Yaşatmaq, yaratmaq, qurmaq vaxtıdır.
Nəqədər qanmayıb, mal olacağıq?
Oyanıb qəflətdən durmaq vaxtıdır.

Nəqədər kişlənib sinəcəyik biz?
Yolundan, izindən dönəcəyik biz?
Yanmamış qarsıxıb, sönəcəyik biz?
Hər işin sonuna varmaq vaxtıdır.

Nəqədər dayazdan, üz gedəcəyik?
Laqeyid olaraq düz gedəcəyik?
Qəlbinin başında köz gedəcəyik?
İdrakı, beyini yormaq vaxtıdır.

Nəqədər noxtadan bağlanacağıq?
Sinəsi çal-çarpaz dağlanacağıq?
Bordaqda kökəlib yağlanacağıq?
Dartıb kəndirini qırmaq vaxtıdır.

Nəqədər kənara çəkiləcəyik?
Haqdan uzaqlaşıb əkiləcəyik?
Dağılıb, talanıb, söküləcəyik?
Zalımın qolunu burmaq vaxtıdır.

Mərdlər meydanıdır cıdıra çıxsın,
Zülmün qalasını kökündən yıxsın,
Hünərlər, zəfərlər əlini sıxsın,
Namərd yavısını yormaq vaxtıdır.

Haqqı-ədaləti unutmaq olmaz,
Nahaqqı böyüdüb qudurtmaq olmaz,
Hünərsiz, zəfərsiz yaratmaq olmaz,
Axtarıb aramaq, sormaq vaxtıdır.

***Cəmil Əkbər*** 23. 01 – 1989

## 185. NƏ MƏNDƏ, NƏ SƏNDƏ

Nəyaman, nəyaman cılızlaşmışıq?
Nə məndə ar qalıb, nə səndə həya.
Kimsəsiz olmuşuq, yalqızlaşmışıq?
Nə məndə lələ var, nə səndə dayə.

Nəyaman, nəyaman pozulmuşuq biz?
Tərsəməssəbinə yozulmuşuq biz?
Hər küncə-bucağa yazılmışıq biz?
Nə məndə məzhəb var, nə səndə qayə.

Nəyaman, nəyaman əfəlləşmişik?
Ərinə-ərinə tənbəlləşmişik?
Kim deyər, kim deyər əməlləşmişik?
Nə məndə haray var, nə səndə sayə.

Ömürboyu ha çalışdıq, vuruşduq,
Azdan-çoxdan xeyir-şərə qarışdıq,
Əhval tutub, hal öyrənib soruşduq,
Nə halal nemət var, nədəki mayə.

***Cəmil Əkbər***

## 186. İSTƏYİRƏM MƏN

Heçkəsə səhv deyib, aldatmayıram,
Vicdanı, məsləyi daldatmayıram,
Bəd işə, bəd sözə yollatmayıram,
Hamıdan xoş niyyət istəyirəm mən.

Heçkəsi yolundan döndərmirəm mən,
Özgə bir diyara göndərmirəm mən,
Vurub mövqeyindən endirmirəm mən,
Hamıdan kəramət istəyirəm mən.

Heçkəsi yolundan  əyləmirəm mən,
Fikri izhar edib söyləmirəm mən,
Qovlayıb, qaçırıb, teyləmirəm mən,
Hamıdan məhəbbət istəyirəm mən.

Mən səndən heç nəyi istəməyirəm,
Hamıdan ləyaqət istəyirəm mən.
Heçkəsdən heç nəyi istəməyirəm,
Hamıdan dəyanət istəyirəm mən.

Hərkəs nə iş tutur, qoy özü bilsin,
Saldığı yolağı, qoy izi bilsin,
Astarı utansın, qoy üzü bilsin,
Hamıdan mərhəmət istəyirəm mən.

Heçkəsdən heç nəyi gözləməyirəm,
Axtarıb izini izləməyirəm,
Noxtasın çəkmirəm bizləməyirəm,
Hamıdan sədaqət istəyirəm mən.

Heçkəsi yolundan  azdırmıramki?
Ayaqlar altından qazdırmıramki?
Düzünü əyriyə yozdurmuram ki?
Hamıdan səxavət istəyirəm mən.

Heçkəsə demirəm gəl qələt eylə,
Nöqsana yol verib, min halət eylə,
Utanıb, qızarıb xəcalət eylə,
Hamıdan ülviyyət istəyirəm mən.

Heçkəsə demirəm avarə dolan,
Əlacsız, səmərsiz, biçarə dolan,
Gününü eyləyib gəl qarə dolan,
Hamıdan cəsarət istəyirəm mən.

Heçkəsə demirəm aclıqdan ölün,
Sərsəri, kəmağıl, giclikdən ölün,
Hiyləgər, dələduz, biclikdən ölün,
Hamıdan fərasət istəyirəm mən.

Heçkəsə demirəm yolunu azın,
Sağını yanılın, solunu azın,
Qajını ayırın, qolunu azın,
Hamıdan həqiqət istəyirəm mən.

Heçkəsə demirəm qul olun mənə?
Od alıb yanaraq, kül olun mənə?
Ya balınc, ya döşək, tül olun mənə?
Hamıdan kəramət istəyirəm mən.

Heçkəsə demirəm ülfəti kəsin?
Bədəməl törədib, yarpaqtək əsin?
Taledən, yığvaldan inciyib küsün?
Hamıdan ədalət istəyirəm mən.

Heçkəsə demirəm vecə almayın?
Nə sait, nə samit, heca almayın?
Nə boynuna alın, beca almayın?
Hamıdan xəcalət istəyirəm mən.

***Cəmil Əkbər***

## 187. KİMƏ İNANIM?

Dünyada oqədər söz eşitmişəm?
Kimə inanmayım, kimə inanım?
Əyri eşitmişəm, düz eşitmişəm?
Kimə inanmayım, kimə inanım?

Oqədər saxtalıq, yalan eşitdim?
Boğazdan yuxarı kalan eşitdim?
Züy tutan, nağara çalan eşitdim?
Kimə inanmayım, kimə inanım?

Nəqədər söhbət var, nəqədər söz var?
Nəqədər əyri var, nəqədər düz var?
Nəqədər sir-sifət, nəqədər üz var?
Kimə inanmayım, kimə inanım?

Fikirlər, xəyallar dolaşıb yaman,
İpi ilməsinə culaşıb yaman,
Ağı qarasına bulaşıb yaman,
Kimə inanmayım, kimə inanım?

Yaxşı görünənə pisdi deyirlər,
Xaindi, xəbisdi, nəsdi deyirlər,
Höcətdi, inaddı, tərsdi deyirlər,
Kimə inanmayım, kimə inanım?

Gözəl görünənə çirkin deyirlər,
Lovğa, yekəxana, xudbin deyirlər,
Özündən bədgüman, nikbin deyirlər,
Kimə inanmayım, kimə inanım?

Çoxunun astarı, üzü bilinmir,
Əyrisi görünmür, düzü bilinmir,
Yolağı, cığırı, izi bilinmir,
Kimə inanmayım, kimə inanım?

Düzgün görünənə əyri deyirlər,
Özgə fikri-zikri, qeyri deyirlər,
Yoxdu Vətən üçün xeyri deyirlər,
Kimə inanmayım, kimə inanım?

Düşmən sayılana yoldaş deyirlər,
Vəfalı dost-tanış, qardaş deyirlər,
Həmkardı deyirlər, sirdaş deyirlər,
Kimə inanmayım, kimə inanım?

Bilmirsən əyri kim, düz deyən kimdir?
Dərin düşünən kim, üz deyən kimdir?
Yararlı, yararsız söz deyən kimdir?
Kimə inanmayım, kimə inanım?

Bir də gördün ucalanı vurdular,
Zəfər çalıb tac alanı vurdular,
Kişi kimi qocalanı vurdular,
Kimə inanmayım, kimə inanım?[283]

Bir də gördün ləkə düşdü yaxşıya,
Yol verildi nabələdə, naşıya,
Oğul gərək belə dərdi daşıya,
Kimə inanmayım, kimə inanım?

Çoxlarının bilinmədi xidməti,
Saf-arzusu, pak-istəyi, niyyəti,
İtdi-batdı aralıqda zəhməti,
Kimə inanmayım, kimə inanım?

Nökərlik edənə bəydi deyirlər,
Ustada, alimə keydi deyirlər,
İtirib əqlini, səydi deyirlər,
Kimə inanmayım, kimə inanım?

Qəflətlərdə gedib yatan oqədər,
Çamırlıqda itib-batan oqədər,
Vicdanını alıb-satan oqədər,
Kimə inanmayım, kimə inanım?

Sualım sənədir ay Cəmil Əkbər?!
Nəzər sal tarixə, doğru ver xəbər,
Bir zaman kim idi dillərdə əzəbər?
Kimə inanmayım, kimə inanım?

***Cəmil Əkbər*** 6. 06 - 1992

---

[283] *II variant* Bir də gördün birisini vurdular,
Haldan salıb, dildən salıb yordular,
Qərəzində, qisasında durdular,
Kimə inanmayım, kimə inanım?

## 188. BİLMİRƏM İNANIM, YA İNANMAYIM?

Dünyada oqədər söz eşitmişəm,
Bilmirəm inanım, ya inanmayım?
Əyri eşitmişəm, düz eşitmişəm,
Bilmirəm inanım, ya inanmayım?

Biri elə deyir, birisi belə,
Biri bəmə çəkir, birisi zilə,
Salırlar aləmə yaman vəlvələ,
Bilmirəm inanım, ya inanmayım?

Nəqədər karlını, karsız edirlər,
Almasız, heyvasız, narsız edirlər,
Qırıb butağını barsız edirlər,
Bilmirəm inanım, ya inanmayım?

Oqədər cığır var, oqədər iz var,
Oqədər sifət var, oqədər üz var,
Hər cürə oğul var, hər cürə qız var,
Bilmirəm inanım, ya inanmayım?

Çoxunun astarı, üzü bilinmir,
Əyrisi görünmür, düzü bilinmir,
Dumanlı yollarda izi bilinmir,
Bilmirəm inanım, ya inanmayım?

Bir də gördün tez birini vurdular,
Qərəzində, qisasında durdular,
Haldan salıb, bezikdirib yordular,
Bilmirəm inanım, ya inanmayım?

Yerli-yersiz pis deyirlər yaxşıya,
Yol verilir nabələdə, naşıya,
Oğul gərək bu dərdləri daşıya,
Bilmirəm inanım, ya inanmayım?

Çoxlarının bilinmədi qiyməti,
Arzuları, istəkləri, niyyəti,
İtdi-batdı aralıqda xidməti,
Bilmirəm inanım, ya inanmayım?

Çox gədə oğluna bəydi deyirlər,
Alimə, loğmana keydi deyirlər,
İtirib əqlini, səydi deyirlər,
Bilmirəm inanım, ya inanmayım?

Axır ümidimiz Qurana qalıb,
Əqidə, məsləkdə durana qalıb,
Özünü bu yolda yorana qalıb,
Bilmirəm inanım, ya inanmayım?

Sualım sənədir ay Cəmil Əkbər?!
Tarixə nəzər sal, doüru ver xəbər.
Bir zaman kim idi dillərdə əzəbər?
Bilmirəm inanım, ya inanmayım?

***Cəmil Əkbər*** 24. 03 – 1990

## 189. KİMƏ İNANASAN, İNANMAYASAN?

Həyatda çox sözlər eşitmişəm mən,
Kimə inanasan, inanmayasan?
Əyri doğru, yalan, eşitmişəm mən,
Kimə inanasan, inanmayasan?

Nəqədər karlını karsız ediblər?
Almasız, heyvasız, narsız ediblər?
Qırıb butağını barsız ediblər?
Kimə inanasan, inanmayasan?

Çoxunun astarı, üzü bilinmir,
Əyrisi görünmür, düzü bilinmir,
Dumanlı yollarda izi bilinmir,
Kimə inanasan, inanmayasan?

Nəqədər düzgünə əyri deyirlər?
Yoxdur öz xalqına xeyri deyirlər?
Özgədir, ögeydir, qeyri deyirlər?
Kimə inanasan, inanmayasan?

Nəqədər düşmənə yoldaş deyiblər?
Mehriban, səmimi qardaş deyiblər?
Həmyaşıd deyiblər, qardaş deyiblər?
Kimə inanasan, inanmayasan?

Nəqədər kişiyə gədə deyirlər?
Sağlam bir bədəndə zədə deyirlər?
Hər yetən cocuğa dədə deyirlər?
Kimə inanasan, inanmayasan?

Nəqədər qanana qanmaz deyirlər?
Xətiri-hörməti anmaz deyirlər?
Odlara düşsə də yanmaz deyirlər?
Kimə inanasan, inanmayasan?

Bir də gördün ucalana söyürlər,
Zəfər çalıb bac alana söyürlər,
Şan-şöhrətdən tac alana söyürlər,
Kimə inanasan, inanmayasan?

Yeni-yeni dirçələni yıxırlar,
Məngənədə xidmətini sıxırlar,
Tez-tələsik axırına çıxırlar,
Kimə inanasan, inanmayasan?

Şər danışıb, araqatan oqədər,
Çalıb-çapan, vara çatan oqədər,
Qohum-qardaş, kara çatan oqədər,
Kimə inanasan, inanmayasan?

Qəflətlərdə gedib yatan da çoxdur,
Düşüb çamırlığa batan da çoxdur,
Vicdanını, məsləyi satan da çoxdur,
Kimə inanasan, inanmayasan?

Axır gümanımız Qurana qalıb,
Özünü bu yolda yorana qalıb,
Əqidə, məsləkdə durana qalıb,
Kimə inanasan, inanmayasan?

Sualım sənədir ay Cəmil Əkbər?!
Tarixə nəzər sal, doğru ver xəbər.
Bir zaman kim idi dillərdə əzəbər?
Kimə inanasan, inanmayasan?

***Cəmil Əkbər*** 24. 03- 1990

## 190. DÖZDÜM

Nəqədərki, cavan idim,
Dağda dözdüm, daşda dözdüm.
Haq yoluna rəvan idim,
Bərkdə dözdüm, boşda dözdüm.

Usanmadım düz ilqardan,
Etiqaddan, etibardan,
Xof etmədim tufan, qardan,
Sinə gərdim, qışda dözdüm.

Hər yetənə əyilmədim,
Arxasınca söyülmədim,
Tez silinib yuyulmadım,
Kotan dözdüm, xışda dözdüm.

Orda-burda daldanmadım,
Fitnəsinə yollanmadım,
Tamahıma aldanmadım,
Zorda dözdüm, xoşda dözdüm.

Ömür-günü saldım yola,
Asta-asta, bala-bala,
Baxdım sağa, baxdım sola,
Əlli-altmış yaşda dözdüm.

Vədə çatdı, aldım cavab,
Yeyənmədim tikə kavab,
Belə imiş haqqı-hesab,
Hörrə içdim, borşda dözdüm.

***Cəmil Əkbər***

## 191. BİR YANDAN

Bu dünya belədir əzəldən bəri,
Bir yandan doğulur, bir yandan ölür.
Çəksən də zəhməti, töksən də təri,
Bir yandan ağlayır, bir yandan gülür.

Nəqədər olsa da təbibi-loğman,
Kamalı olsa da dəryayi-ümman,
Əzəldən yazılan belədir fərman,
Bir yandan açılır, bir yandan solur.

Hər yetənə oxu demə, yaz demə!
Hərzə-hərzə çox danışıb az demə!
Dərin demə, dayaz demə, üz demə!
Bir yandan bilməyir, bir yandan bilir.

Təbiət hökm edib, belədir belə,
Kimi ağa olub, kimi də kölə,
Kimi kobud olub, kimi də pilə,
Bir yandan boşalır, bir yandan dolur.

Birisi alışır, birisi sönür,
Birisi ucalır, birisi enir,
Birisi susursa birisi dinir,
Bir yandan gethaget, bir yandan gəlir.

***Cəmil Əkbər*** 1.06 – 1992

## 192. YETİRİRMİŞ

Nəqədər yerlərdən xəbərim yoxdur?
Qərənfil, yasəmən, gül bitirirmiş.
Halı olmamışam, ətərim yoxdur?
İnci yetirirmiş, ləl yetirirmiş.

Qədir-qiymətini bilənməmişəm,
Yanına gedərək, gələnməmişəm,
Utanıb, qızarıb, ölənməmişəm,
Darçın yetirirmiş, hil yetirirmiş.

Düşünüb, dərk edib, sezənməmişəm,
Cəfasını çəkib dözənməmişəm,
Minib qayığına üzənməmişəm,
Dəryalar, dənizlər, göl yetirirmiş.

Nəqədər çəkərsən qüssə, qəm, kədər?
Vermisən gününü havayı, hədər?
Qəflətdə yatmısan ay Cəmil Əkbər?
Gözündən dumanı sil yetirirmiş.

***Cəmil Əkbər*** 8. 06 -1992

## 193. ALLAH?

Hərə bir biçimdə, hərə bir boyda,
Nəqədər ismətsiz üzlər var Allah?
Bilinmir insanlıq ondadır, bunda,
Nəqədər oğul var, qızlar var Allah?

Bilən yoxdur kimin söhbəti düzdür,
Gileyi-güzarı, qeybəti düzdür,
İddia, tələbi, heyrəti düzdür,
Nəqədər söhbətlər, sözlər var Allah?

Bilmirsən heç kimə qulaq asasan?
Kimin qapısını gedib pusasan?
Kimə söz deyəsən, kimə susasan?
Nəqədər yolaqlar, izlər var Allah?

Seçilmir haçandan yaxşılar-pisdən,
Xeyirxah-bədxahdan, mülayim tərsdən,
Tapdanır insanlıq qərəzlə, qəsddən,
Nəqədər əyrilər, düzlər var Allah?

Çoxları masada öz yerində döy,
Düşübdü tərsinə, düz yerində döy,
Oğul yerində döy, qız yerində döy,
Oqədər sizlər var, bizlər var Allah?

Bu dünya yaranıb ağlı-qaralı,
Birisi oralı, biri buralı,
Birisi sağlamdır, biri yaralı,
Enişlər, yoxuşlar, düzlər var Allah?

Nəqədər ürəklər kinlə döyünür?
Kinlə fəxr eyləyir,  kinlə öyünür,
Kinlə fərəhlənir, kinlə sevinir,
Nəqədər qəlblərdə buzlar var Allah?

Hərə bir fikirdə, bir xəyaldadır,
Özü də bilməyir heç nə haldadır?
Birisi acıdır, biri bal dadır,
Nəqədər baxışlar, gözlər var Allah?

Birisi zil ötür, biri bəmdədir,
Birisi kef çəkir, biri qəmdədir,
Birisi zirvədə, biri himdədir,
Çalmağa nəqədər sazlar var Allah?

***Cəmil Əkbər*** 15.06 – 1993

## 194. ALLAH?

Nəqədər eşidib saxta sözləri?
Usanıb doyasan, bezəsən Allah?
Baxasan, görəsən saxta üzləri?
Duyub dərk edəsən, sezəsən Allah?

Sinəni gərəsən saxta ülfətə,
Saxta danışığa, saxta söhbətə,
Saxta fikirlərə, saxta niyyətə,
Qəsd etmə buqədər bizə sən, Allah.[284]

---

[284] *II variant* Sinəni gərəsən ədavətə sən,
Xainlik, xəbislik xəyanətə sən,
İntizar qalasan ləyaqətə sən,
Rəhm eylə bu xalqa, bizə sən, Allah.

Nəqədər insanı dönük görəsən?
Vicdanı, məsləyi sönük görəsən?
Biri-birisinə ənik görəsən?
Sinirə biləsən, dözəsən Allah?

Nəqədər eşidək yalan sözləri?
Əqrəbtək, iblistək çalan sözləri?
Boğazdan yuxarı kalan sözləri?
Əlini-əllərdən üzəsən Allah?

Bir deyil, beş deyil qəbahət edən,
Nadanlıq, avamlıq, cəhalət edən,
Kin-küdrət törədib, ədavət edən,
Nəqədər vurasan, əzəsən Allah?[285]

Nəqədər küsəsən yoldaşlarından?
Həmkardan, həmdəmdən, sirdaşlarından?
Həmyaşıd, tay-tuşdan, çağdaşlarından?
Dolanıb, uzaqda gəzəsən Allah?

Bəşər övladını kamala gətir,
Vicdana, məsləyə, amala gətir,
Mənəvi gözəllik, camala gətir,
Salma cəzirəyə, düzə sən Allah.

Ay Cəmil, nəqədər gendə gəzəsən?
Kölgədə gəzəsən, gündə gəzəsən?[286]
Dalanda, dölmədə, tində gəzəsən?
Xəyal aləmində üzəsən Allah.

***Cəmil Əkbər*** 27. 12 – 1994

---

[285] *II variant* Bir deyil, beş deyil qəbahət əhli,
Nadanlıq, avamlıq, cəhalət əhli,
Kin-küdurət əhli, ədavət əhli,
Nəqədər vurasan, əzəsən Allah?

[286] Dumanda, çisgində, çəndə gəzəsən?

## 195. ALLAH

Nəqədər eybinə kor olmayan var,
Utanmaz, qızarmaz bəndən var, Allah.
Baxıb əməlinə xar olmayan var,
Közərməz, bozarmaz bəndən var, Allah.

Nəqədər sözünü düz danışmayan,
Dərin düşünməyən, tez danışmayan,
Yolaq tanımayan, iz danışmayan,
Çəkinməz, qısqanmaz bəndən var Allah.

Yerini-yurdunu bilməyən də çox,
Utanıb, qızarıb ölməyən də çox,
Ay Cəmil, gözyaşı silməyən də çox,
Qəlbidaş-kəsəkər, bəndən var Allah.

***Cəmil Əkbər***

## 196. AY ALLAH

Dünyanın nəyaman xarabı çıxıb?
Nə xətir var, nə hörmət var ay Allah.
Qıcqırıb doşabı, şərabı çıxıb?
Nə insaf var, nə mürvət var ay Allah.

Ədəb-ərkan, qayda-qanun pozulub,
Əyri-düzə, düz-əyriyə yozulub,
İnsanlığın ləyaqəti azalıb,
Nə Hatəm var, səxavət var ay Allah.

Əyrilik, oğruluq həddini aşıb,
Hüdudunu keçib, səddini aşıb,
Çıxıb əndazədən, xəttini aşıb,
Nə ədalət, həqiqət var ay Allah.

Hamı bir-birini soyhasoydadır,
Salıb pis günlərə qoyhaqoydadır,
Düşüb ah-naləyə, vayhavaydadır,
Nə insanlıq, ləyaqət var ay Allah.

Cəmiləm, bu dərdi çəkə bilmirəm,
Ataraq üstümdən əkə bilmirəm,
Heç kimə nə açıb, bükə bilmirəm,
Nə dözüm var, dəyanət var ay Allah.

***Cəmil Əkbər*** 4. 12 – 1991

## 197. BİLİNMİR ALLAH?!

Nəqədər günahsız ölən olubdur?
Nələr sirli qalıb, bilinmir Allah?!
Məhbəsdə saralıb solan olubdur?
Nələr sirli qalıb, bilinmir Allah?!

Nəqədər xainlər, xəbis var imiş?
Nanəcib, seyrağub, naqis var imiş?
Qanlara sussayan varis var imiş?
Nələr sirli qalıb, bilinmir Allah?!

Nəqədər qəsd ilə, qərəzlə ölüb?
Min bir hiylə ilə, mərəzlə ölüb?
Qax ilə, qoz ilə, çərəzlə ölüb?
Nələr sirli qalıb, bilinmir Allah?!

Nəqədər zirvədən endirilibdir?
Yanan çıraq kimi söndürülübdür?
Gedər-gəlməzlərə göndərilibdir?
Nələr sirli qalıb, bilinmir Allah?!

Nəqədər qapılar bağlı qalıbdır?
Sinələr düyünlü-dağlı qalıbdır?
Talelər qaralı-ağlı qalıbdır?
Nələr sirli qalıb, bilinmir Allah?!

Bilinəndən bilinməyən çox imiş,
Günahları silinməyən çox imiş,
Xəlbirlərdən ələnməyən çox imiş,
Nələr sirli qalıb, bilinmir Allah?!

Çoxları nə yolla başa çəkilib,
Dırmaşıb zirvəyə qaşa çəkilib,
Sırışıb süfrəyə, aşa çəkilib,
Nələr sirli qalıb, bilinmir Allah?!

Bilinmir çoxları nə məqsəd güdür,
Qəlbini iblislər, şeytanlar didir,
Özü də bilməyir heç nələr edir?
Nələr sirli qalıb, bilinmir Allah?!

Eylə hökm eylə ki, görünsün hamı,
Könül vəcdə gəlsin, alsın ilhamı,
Bəşərin övladı götürsün kamı,
Nələr sirli qalıb, bilinmir Allah?!

***Cəmil Əkbər***

## 198. VAR ALLAH?

Görkəmi, yöndəmi insan donunda,
Nəqədər fikiri kəclər var Allah?
Alimi-biəməl qanan donunda,
Nəqədər sərsəri, giclər var Allah?

Əqidə, məsləyi özü düz deyil,
Baxışı, nəzəri, gözü düz deyil,
Söhbəti düz deyil, sözü düz deyil,
Nəqədər hiyləgər, biclər var Allah?

Haqqa-ədalətə qənim çıxanlar,
Xətirə-hörmətə qənim çıxanlar,
Ülvi-məhəbbətə qənim çıxanlar,
Nəqədər tərsməssəb, öclər var Allah?

Salırlar araya yersiz davanı,
Zəhərləyib korlayırlar havanı,
Nəqədər doğublar beylə yavanı,
Qal-qovğa törədən ləclər var Allah?

Yolunda nəqədər düz getməyən var?
Dərinə kök atıb üz bitməyən var?
Çataraq haraya tez yetməyən var?
Nəqədər nöqsanlar, suçlar var Allah?

Nəqədər böyüsə başa gəlməyir?
Çıxıb bərəlgəyə döşə gəlməyir?
Fikirə-xəyala, huşa gəlməyir?
Axır aqibəti puçlar var Allah?

***Cəmil Əkbər*** 10. 09 – 1991

**199. BAX ALLAH?!**

Birisi aldanır, biri aldadır,
İnsanın düşdüyü günə bax Allah?!
Birisi zəhərdir, biri bal dadır,
İnsanın düşdüyü günə bax Allah?!
Səsə bax, küyə bax, ünə bax Allah?!

Birisi tükənməz varlı-hallıdır,
Yapıbdı saraylar, cah-calallıdır,
Güclüdür, zorludur, iqtidarlıdır,
İnsanın düşdüyü günə bax Allah?!
Səsə bax, küyə bax, ünə bax Allah?!

Birisi mey-məzə, kef içindədir,
Alhaal, verhaver, nəf içindədir,
Toplayır paranı, müf içindədir,
İnsanın düşdüyü günə bax Allah?!
Səsə bax, küyə bax, ünə bax Allah?!

Biri kef-damaqda, biri qəm yeyir,
Düşübdür kökündən, müdam bəm yeyir,
Biri harınlanıb, biri kəm yeyir,
İnsanın düşdüyü günə bax Allah?!
Səsə bax, küyə bax, ünə bax Allah?!

Birisi əzilir, birisi əzir,
Birisi incidir, birisi bezir,
Birisi dözdürür, birisi dözür,
İnsanın düşdüyü günə bax Allah?!
Səsə bax, küyə bax, ünə bax Allah?!

Birisi gedirsə, birisi gəlir,
Birisi doğulur, birisi ölür,
Birisi ağlayır, birisi gülür,
İnsanın düşdüyü günə bax Allah?!
Səsə bax, küyə bax, ünə bax Allah?!

Birisi gözəldir, birisi çirkin,
Birisi sadədir, birisi xudbin,
Birisi bədbindir, birisi nikbin,
İnsanın düşdüyü günə bax Allah?!
Səsə bax, küyə bax, ünə bax Allah?!

Haçandan bəridir düzəlmir bəşər,
Üz-üzə durubdur xeyr ilə şər,
Vuruşur, didişir, daim sərbəsər,
Cahanda buluda, günə bax Allah?!
Dumana, çisginə, çənə bax Allah?!
İnsanın düşdüyü günə bax Allah?!
Səsə bax, küyə bax, ünə bax Allah?!

Dünyada yaxşı da, pis də tapılır,
Xeyirxah bəndə də, nəs də tapılır,
Qızıl da, gümüş də, mis də tapılır,
Damara, nüvəyə, genə bax Allah?!
İnsanın düşdüyü günə bax Allah?!
Səsə bax, küyə bax, ünə bax Allah?!

Salma nəzərindən, mərhəmətindən,
İnsafdan, mürvətdən, kəramətindən,
Vəfandan, səxandan, səxavətindən,
İnsanın düşdüyü günə bax Allah?!
Səsə bax, küyə bax, ünə bax Allah?!
Rəhm eylə Cəmilə, mənə bax Allah!
Salma nəzərindən, yenə bax Allah!

***Cəmil Əkbər*** 21.05-1993

## 200. BAX ALLAH

Aldığı borcları verməyən də var,
Namusa, qeyrətə, ara bax Allah.
Xətiri, hörməti görməyən də var,
Lala bax, kora bax, kara bax Allah.

Gədələr nəyaman bəylik eyləyir?
İtirib ağlını səylik eyləyir?
Peysərə verərək keylik eyləyir?
Toplanan sərvətə, vara bax Allah.

Ünsiyyət, ülfətlər sərinləşibdi,
Oyulub, qazılıb dərinləşibdi,
Sədaqət, səxavət şirinləşibdi,
Məhəbbət mülkündə qara bax Allah.

Xəzan vurub gül-çiçəklər solubdur,
Buludlar qaralıb yaman dolubdur,
Bülbülün işləri fəna olubdur,
Qönçələr üstündə xara bax Allah.

Hiyləgər, dələduz, biclər çoxalıb,
İlqara, imana öclər çoxalıb,
Qaydaya, qanuna kəclər çoxalıb,
Kəməndə, ilgəyə, tora bax Allah.

Qalmayıb arada etibar, vəfa,
Hökm edir nadanlıq, çoxalır cəfa,
Belə bir məqamda kim sürər səfa?
Vəfasız yoldaşa, yara bax Allah.

Birisi əzilir, birisi əzir,
Birisi tablaşıb, birisi dözür,
Birisi inciyir, birisi bezir,
Qılınca, qalxana, zora bax Allah.

İnsan bir-birini didib dalayır,
Olan cəsədini oda qalayır,
Qanını torpağa tökür bulayır,
İlana, çayana, mara bax Allah.

İnsanam deyənin gözü doymayır,
Söhbəti qurtarmır, sözü doymayır,
Nə deyim, danışım, düzü doymayır?
Kəfənə, məzara, gora bax Allah.

***Cəmil Əkbər***

## 201. ÇƏTİNDİR ALLAH?

Mərdlər azalıbdır, namərd çoxalıb,
Yaşamaq nəyaman çətindir Allah?
Ünsiyyət pozulub, həmdərd yoxalıb,
Yaşamaq nəyaman çətindir Allah?

İnsan bir-birinin qəlbinə dəyir,
Vurub qamətini, qəddini əyir,
Danıb xidmətini, haqqını yeyir,
Yaşamaq nəyaman çətindir Allah?

Hamı üz tutubdur tamaha sarı,
Xətaya, bəlaya, günaha sarı,
Baxan yox işıqlı sabaha sarı,
Yaşamaq nəyaman çətindir Allah?

Ədalət, həqiqət sözdə qalıbdır,
Kim onu axtarır, düzdə qalıbdır,
Cığırda, yolaqda, izdə qalıbdır,
Yaşamaq nəyaman çətindir Allah?

Nə ədəb, nə ərkan, nəzakət qalıb,
Nəciblik, insanlıq, ləyaqət qalıb,
Nə eşq-həvəs qalıb, məhəbbət qalıb,
Yaşamaq nəyaman çətindir Allah?

İnsan bir-birinin bədinə gedir,
Özüdə bilməyir nə məqsəd güdür?
Nadanlıq, cəhalət qəlbləri didir,
Yaşamaq nəyaman çətindir Allah?

Nədən bir-birini bezdirir görən?
Dağları, daşları gəzdirir görən?
Əzab-əziyyətə dözdürür görən?
Yaşamaq nəyaman çətindir Allah?

Böyüyü, kiçiyi pəsinən yoxdur,
Nə qorxan, nə ülkən, səksənən yoxdur,
Utanan, qızaran, diksinən yoxdur,
Yaşamaq nəyaman çətindir Allah?

Nə namus, nə qeyrət, nə ar qalıbdır,
Nə qohum, nə qardaş, nə yar qalıbdır,
Nə halal süfrə var, nə var qalıbdır,
Yaşamaq nəyaman çətindir Allah?

Hamı bir-birini soyhasoydadır,
Sümürüb varını doyhadoydadır,
Yığıb son gününə qoyhaqoydadır,
Yaşamaq nəyaman çətindir Allah?

***Cəmil Əkbər*** 22. 03 – 1993

**202. ALLAH SƏN SAXLA**

Dövrü-zaman bəd gətirib,
Allah sən saxla, sən saxla.
Bəd becərib, bəd bitirib,
Allah sən saxla, sən saxla.

Aralığı qatan-qatır,
Qaçan-qaçır, tutan-tutur,
Günahlara batan-batır,
Allah sən saxla, sən saxla.

Arvadlar əri bəyənmir,
Sərraflar zəri bəyənmir,
Qoduqlar nəri bəyənmir,
Allah sən saxla, sən saxla.

Açan-açır, solan-solur,
Saçlarını yolan-yolur,
Gözü yolda qalan-qalır,
Allah sən saxla, sən saxla.

Haq yolunu əyən-əyir,
Gözlərini döyən-döyür,
Könüllərə dəyən-dəyir,
Allah sən saxla, sən saxla.

Vuran vurur, yıxan-yıxır,
Əzən-əzir, sıxan-sıxır,
Axırına çıxan-çıxır,
Allah sən saxla, sən saxla.

Yatan-yatır, duran-durur,
Al-qanları soran-sorur,
Haldan salıb yoran-yorur,
Allah sən saxla, sən saxla.

Həyatından bezən-bezir,
Ürəkləri üzən-üzür,
Əzablara dözən-dözür,
Allah sən saxla, sən saxla.

Sən yaratdın bu bəşəri,
Yaxşı-pisi, xeyri-şəri,
Vermə bizə dərdi-səri,
Allah sən saxla, sən saxla.

Hamı sənin övladındır,
Öz doğmandır, öz yadındır,
İmdad sənin imdadındır,
Allah sən saxla, sən saxla.

Yola gətir bu xilqəti,
Bəşər oğlu cəmiyyəti,
Nəzərə al bu milləti,
Allah sən saxla, sən saxla.

Sayan yoxdur ağsaqqalı,
Dərdbiləni, əhli-halı,
Artırırlar qeylü-qalı,
Allah sən saxla, sən saxla.

Qarışıbdır halal-haram,
Təbiblərdə yoxdur çaram,
Hüzurunda günahkaram,
Allah sən saxla, sən saxla.

Əffet bizi bu günahdan,
Bu nəfsdən, bu tamahdan,
Qurtar bizi ah-amandan,
Allah sən saxla, sən saxla.

Sənsən sahib bu cahana,
Həm qanmaza, həm qanana,
Rəhmin gəlsin hər insana,
Allah sən saxla, sən saxla.

Qoyma qalaq müşgül-məlil,
Bədən sağkən olaq zəlil,
Yol gözləyir səndən Cəmil,
Allah sən saxla, sən saxla.

***Cəmil Əkbər*** 9. 09 – 1996

## 203. ALLAH SƏN SAXLA

Ünsiyyətlər pozğunlaşıb,
İnsan yaman azğınlaşıb.
Tükənibdir insaf, mürvət,
Mehri-ülfət, xətir-hörmət.
Ərşə çıxıb namus, qeyrət,
Ülvü istək, pak məhəbbət.
Yox səxavət, yox sədaqət,
Yox insanlıq, yox ləyaqət,
Allah sən saxla, sən saxla.

Dərdimizi kimə deyək?
Nifrət edib kimə söyək?
Dərk eyləyib qanan yoxdur,
Haqq-sayı anan yoxdur.
Leyli-Şirin, Əsli yoxdur,
Məcnun, Kərəm nəsli yoxdur,
Allah sən saxla, sən saxla.

Kimlə gedib ülfət edək?
Ürək açıb söhbət edək?
Giley-güzar qeybət edək?
Xahiş edək, minnət edək?
Sağlam fikir, niyyət edək?
Zəhmət çəkib xidmət edək?
Allah sən saxla, sən saxla.

Hamı quldur tamahına,
Xəta-bəla, günahına,
Baxan yoxdur sabahına,
Məzlumların nə ahına?

Hayandadır mərd igidlər?
Çəkib gedir dörd igidlər.
Çoxalıbdır həyasızlar,
Məsləksizlər, qayəsizlər.
Tərbiyəsiz dayəsizlər,
Halal süddən mayəsizlər,
Allah sən saxla, sən saxla.

Əyyam indi bicin olub,
Xayin, xəbis gicin olub.
İnadkarın, öcün olub,[287]
Sərsərinin gicin olub.
Nə ədəb var, nə mərifət,
Nə doğruluq, nə həqiqət,
Xeyirxahlıq, nə fəzilət,
Allah sən saxla, sən saxla.

Qaşlar-gözlər sürmələnib,
Alyanaqlar gərmələnib.
Duman dizə çərmələnib,
Abır-ismət cərmələnib.
Çoxalıbdır çalıb-çapan,
Tez-tələsik alan-qapan,
Vicdanını pula satan,

---

[287] Tərsəməssəb öcün olub.

Yaxşıları pisə qatan.
Şər danışıb böhtan atan,
Qərq olub qəflətdə yatan,
Allah sən saxla, sən saxla.

İtdi-batdı ər kişilər,
Hanı indi nər kişilər?
İnci-sədəf, zər kişilər?
Gözə dəymir zor kişilər.

Çoxalıbdı gədə indi,
Qəlbi xəstə zədə indi.
Belə getsə pis olacaq,
Duman, tüsdü, his olacaq.
Xeyir işlər nəs olacaq,
Qızıl-gümüş mis olacaq,
Allah sən saxla, sən saxla.

Gündən-günə qiymət artır,
Giley-güzar qeybət artır.
Qəzəb artır, hiddət artır,
Kin-küdurət, nifrət artır.
Son qoyulmur cinayətə,
Xəta-bəla qəbahətə.
Qəsd-qərəzə, xəyanətə,
Baxan yoxdur şikayətə.
İşə düşüb zirzəmilər,
Şeytan olub pir əmilər.
Allah sən saxla, sən saxla.
Allah sən saxla, sən saxla.

***Cəmil Əkbər*** 12. 02 – 1992

**204. SƏN SAXLA**

İlahi dünyamı qoyma pozalar,
İnsafsızdan, mürvətsizdən sən saxla.
Çevirərək tərsəməssəb yozalar,
Ədəbsizdən, mərfətsizdən sən saxla.

Bu meydanı vermə həyasızlara,
Əqidə, məsləksiz, qayəsizlərə,
Təlimdən dadmayan dayəsizlərə,
Abırsızdan, ismətsizdən sən saxla.

Qoyma hər yetirən başa çəkilə,
Dırmaşıb zirvəyə, döşə çəkilə,
Vəzifə sahibi işə çəkilə,
Şərəfsizdən, şöhrətsizdən sən saxla.

Fürsəti verməynən biganələrə,
Sərsəri, kəmağıl, divanələrə,
Söz də tapmayıram nələr nələrə,
Nəzərsizdən, diqqətsizdən sən saxla.

***Cəmil Əkbər*** 11. 04 – 1993

## 205. SAXLA

Hiyləgər, dələduz bic əyyamında,
Oğulsan gəl indi başını saxla.
Sərsəri, kəmağıl gic əyyamında,
Mizan tərəzini, daşını saxla.

Qəlbinə toxunub dəyən oqədər,
Vurub qamətini əyən oqədər,
Zəhmətsiz döşürüb yeyən oqədər,
Turşutma qabağı, qaşını saxla.

Hayasız, abırsız, sırtıqlar artıb,
Hoqqabaz təlxəklər, şıltaqlar artıb,
Tülkü təbiətli yaltaqlar artıb,
Oğulsan gödəltmə yaşını saxla.[288]

Zəlitək qanları soran oqədər,
Dağıdıb, talayıb qıran oqədər,
Qərəzdə, qisasda duran oqədər,
Oğulsan xəyalı huşunu saxla.

[288] Oğulsan qoruyub yaşını saxla.

Acgöz, tamahkarlar, hərislər artdı,
Xainlər, paxıllar, xəbislər artdı,
Nanəcib, naxələf, naqislər artdı,
Oğulsan süfrəndə aşını saxla[289].

Alim də, loğman da, sərkərdə çaşıb,
İşində-gücündə pərkər də çaşıb,
Ən ali zabit də, əsgər də çaşıb,
Oğulsan gəl indi qoşunu saxla.

***Cəmil Əkbər*** 30. 11 – 1991

## 206. SAXLA

Nə çətin, nə ağır illərə qaldıq?
Oğulsan gəl indi başını saxla.
Qəlbi çamırlara, lillərə qaldıq,
Qoru el-obanı, qoşunu saxla.

Qoşulma, qarışma əqli-kəmlərə,
Yeməmiş, içməmiş əhli-dəmlərə,
Pəsdə inildəyən, kökü bəmlərə,
Uzadıb ömrünü, yaşını saxla.

Düşməsin havayı qalmaqal, dava,
Qatmasın aranı kəmağıl, yava,
Gərəkdir insana tərtəmiz hava,
İtirmə əqlini, huşunu saxla.

Orda-burda pozğunlarla əyləşib,
Əqidəsiz azğınlarla əyləşib,
Leşgəmirən quzğnlarla əyləşib,
Çatma qabağını, qaşını saxla.

Qoşulmaynan dələduza, biclərə,
Sərsəriyə, kəmağıla, giclərə,
Ədalətə qənim çıxan öclərə,
Məğrur qamətini, döşünü saxla.

---

[289] *II variant* Acgöz, tamahkarlar, həris oqədər,
Nanəcib, naxələf, naqis oqədər,
Biqeyrət, bişərəf, varis oqədər,
Oğulsan süfrəndə aşını saxla.

Tüfeylidən, həşarətdən nə çıxar?
Xəta-bəla, xəsarətdən nə çıxar?
Nöqsanlardan, qəbahətdən nə çıxar?
Göstərmə zorunu, xoşunu saxla.

Yeyib-içən çörək dostu yanında,
Gedək-gələk, görək dostu yanında,
Can-ciyərlər, gərək dostu yanında,
Bozbaşını saxla, aşını saxla.

Haqq-sayı udanlardan uzaq ol,
Cahillərdən, nadanlardan uzaq ol,
Tərsəməssəb adanlardan uzaq ol,
Xəyalını saxla, huşunu saxla.

Məhəbbətin qapısını bağlama,
Şivən salıb sinələri dağlama,
Dərd-qəm çəkib için-için ağlama,
Tökmə gözlərinin yaşını saxla.

Korlayıb əsəbi, qaraltma qanı,
Pozub səhətini, üzməynən canı,
Ayıq ol dostunu, düşməni tanı,
İncitək, sədəftək dişini saxla.

Yalquzaqlar, canavarlar yanında,
Acgöz, həris, tamahkarlar yanında,
Vicdani-kəm, günahkarlar yanında,
Qoru kababını, şişini saxla.

Qədirbilməz nanıkora qoşulma,
Xain-xəbis ziyankara qoşulma,
Kələkbaza, fitnəkara qoşulma,
Dəyişmə sənəti, peşəni saxla.

Xörəyini, çörəyini yedirtmə,
Kabab çəkib ürəyini yedirtmə,
Olan-qalan gərəyini yedirtmə,
Arağı korlama, xaşını saxla.

Hər yetən gədəyə can fəda vermə,
Əsəbi korlayıb, qan fəda vermə,
Zülalı sordurub, şan fəda vermə,
Baharda həyat sür, qışını saxla.

Hücum çəkir üstümüzə yağılar,
Bais olur büstümüzə yağılar,
Gendən baxır tüstümüzə yağılar,
Oğulsan torpağı, daşını saxla.

Kişisənsə hər yetənə əyilmə,
Zindanında, çəkicində döyülmə,
Nifrət ilə yad olunub söyülmə,
Mizan-tərəzini, daşını saxla.

Ay Cəmil gözündən gəl sil dumanı,
Gözlə şəriəti, dini-imanı,
Saxlasan samanı, gələr zamanı,
İşlət kotanını, xışını saxla.

***Cəmil Əkbər*** 8. 02 - 1992

## 207. SAXLA

İlahi bu xalqı, bəşəriyyəti,
Fikiri-xəyalı kəclərdən saxla.
Bu eli-obanı, bu cəmiyyəti,
Sərsəri, kəmağıl, giclərdən saxla.

Qoyma ünsiyyətlər pozulub getsin,
Doğrular tərsinə yozulub getsin,
Həqiqət, ədalət nəzilib getsin,
Hiyləgər, dələduz, biclərdən saxla.

Ləyaqət əhlinə qovuşmayandan,
Qaynayıb, qarışıb yovuşmayandan,
Təmasa gələrək sovuşmayandan,
Tərsdən, inadkardan öclərdən saxla.

Qoymaynan yaxşıya pisdi desinlər,
Bədxahdı, yamandı, nəsdi desinlər,
Qızıla-gümüşə misdi desinlər,
Xaindən, xəbisdən ləclərdən saxla.

Qoyma əyriləri əlbir olsunlar,
Söz-sözə verərək dilbir olsunlar,
Him-cimə verərək sirbir olsunlar,
Beylə dəstələrdən, dəclərdən saxla.

Salmasın araya yersiz davanı,
Zəhərləyib korlamasın havanı,
Yoluna qoy, izinə sal yavanı,
Axır aqibəti puçlardan saxla.

Qoyma zəmanəni tərsinə dönsün,
Bəşər hiddətinə, hirsinə dönsün,
Vəhşilik dövrünün irsinə dönsün,
Günahdan, xətadan, suçlardan saxla.

***Cəmil Əkbər*** 6. 09 – 1991

## 208. SAXLA

*I variant*

Hatəm səxalıyla yol getmək olar,
İlahi xəsisdən sən özün saxla.
Sadiq vəfalıyla yol getmək olar,
Xaindən xəbisdən sən özün saxla.

Arzuya, mətləbə tez çatmaq olar,
Nə yalan, nə yanlış, düz çatmaq olar,
Yol tapıb bir yana iz çatmaq olar,
Mənfurdan, o pisdən sən özün saxla.

Ünsiyyət saxlayıb dil tapmaq olar,
Gövhər mədənində ləl tapmaq olar,
Axtarsan bağında gül tapmaq olar,
Acgözdən, hərisdən sən özün saxla.

Mərd, igid insanla yol getmək olar,
Enişə, yoxuşa bol getmək olar,
Dinməyib bir kəlmə lal getmək olar,[290]
Namərddən, naqisdən sən özün saxla.

Mehriban insana can demək olar,
Mətləbi çatdırıb qan demək olar,
Dərdimə şərik ol, yan demək olar,
Bədəməl, o nəsdən sən özün saxla.

İşarət bilməzdən, söz anlamazdan,
Mətləbi, məqsədi, düz anlamazdan,
Qırmanc anlamazdan, biz anlamazdan,
İnadkar, o tərsdən sən özün saxla.

Vicdanı kəmlərdən, qəlbidaşlardan,
Xəyalı çaşlardan, sözü çaşlardan,
Fikiri çaşlardan, özü çaşlardan,
Bəd uğur, bəm səsdən sən özün saxla.

Cəmiləm, qurbanam qanan kəslərə,
İnsafı, mürvəti anan kəslərə,
Əyrini-üyrünü yonan kəslərə,
Tamahdan, nəfsdən sən özün saxla.[291]

***Cəmil Əkbər***

## 209. SAXLA

*II variant*

Əhli-hal insanla ötüşmək olar,
İlahi xəbisdən sən özün saxla.
Arzuya, məqsədə yetişmək olar,[292]
Mənfurdan, o pisdən sən özün saxla.

---

[290] Sağına sığınıb sol getmək olar.

[291] *II variant* Qoymayın mənimlə yoldaş olmağa,
Can-ciyər olmağa, qardaş olmağa,
Həmfikir olmağa, sirdaş olmağa,
Xaric ötən səsdən sən özün saxla.

[292] Məkana, mənzilə, yetişmək olar.

Ülfət məqamında dil tapmaq olar,
Sərraf bazarında ləl tapmaq olar,
Bağbanın bağında gül tapmaq olar,[293]
Acgözdən, hərisdən sən özün saxla.

Mərd, igid insanla dolanmaq olar,
Oduna alışıb qalanmaq olar,
Yolunda, uğrunda talanmaq olar,
Namərddən, naqisdən sən özün saxla.

Kərəmkan əhlinə can demək olar,
Düşünüb dərk eylə qan demək olar,
Alışıb oduna yan demək olar,
Naxələf, nakəsdən sən özün saxla.

Meylimi salaram mehri-ülfətə,
Müqəddəs arzuya, o pak niyyətə,
Qovuşmaq istərəm əbədiyyətə,
İnadkar, o tərsdən sən özün saxla.

Vicdanı-kəmlərdən, qəlbi-daşlardan,
Sürməli yanaqdan, yoluq qaşlardan,
Kütbeyin, sərsəri, yekə başlardan,
Bədniyyət varisdən sən özün saxla. [294]

Qoyma Cəmil ilə yoldaş olmağa,
Canhacan olmağa, sirdaş olmağa,
"Sən ölmə, mən ölüm" qardaş olmağa,
Xaric ötən səsdən sən özün saxla.

***Cəmil Əkbər***

---

[293] Bağban bağçasında gül tapmaq olar.
[294] *II variant* Vicdanı kəmlərdən, qəlbi daşlardan,
Əqidə, məsləki, izi çaşlardan,
Filə hücum çəkən alabaşlardan,
Bəd fikir, nəfsdən sən özün saxla.

## 210. ZAVALLI MİLLƏT

Xainlik, xəbislik qəlbini didir,
Ay fəqir, ay məzlum, zavallı millət.
Özün də bilmirsən nə məqsəd güdür,
Ay fəqir, ay məzlum, zavallı millət.

Baxıb mat qalıram xeyir-şərinə,
Zalımsan, qəddarsan biri-birinə,
Utanıb ölürəm sənin yerinə,
Ay fəqir, ay məzlum, zavallı millət.

De hanı Müşviqin,  hanı Cavidin?
Hanı Seyd Əzimin, Sabirin, Hadin?
Salmanın, Ruhullan, Əhməd Cavadın?
Ay fəqir, ay məzlum, zavallı millət.

Biri-birinizi yandırmısınız,
Silib ünvanını dandırmısınız,
Yalandan, yanlıcdan qandırmısınız,
Ay fəqir, ay məzlum, zavallı millət.

Dərdi-qəm içində ağardı başın,
Tutuldu qabağın, çatıldı qaşın,[295]
Sibirə, qəbirə atıldı daşın,
Ay fəqir, ay məzlum, zavallı millət.

Duyub anlamadı biri-birini,
Unutdun Kəbəni, dandın pirini,
Tülküyə döndərdi şiri-nərini,
Ay fəqir, ay məzlum, zavallı millət.

Asılan sən oldun, asan sən oldun,
İnciyən sən oldun, küsən sən oldun,
Ümidi həryandan kəsən sən oldun,
Ay fəqir, ay məzlum, zavallı millət.

---

[295] Töküldü üzünə axdı gözyaşın.

Əzilən də sənsən, əzən də sənsən,
Əzab-əziyyətə bezən də sənsən,
Səbr edib, tablaşıb dözən də sənsən,
Ay fəqir, ay məzlum, zavallı millət.

Özgələr varına varımdı dedin,
Almamdı, heyvamdı, narımdı dedin,
Dostum, tanışımdı, yarımdı dedin,
Ay fəqir, ay məzlum, zavallı millət.

İnfarkt da, xərçəng də öldürür səni,
Döndərib xəzana soldurur səni,
Xar edib düşmənə güldürür səni,
Ay fəqir, ay məzlum, zavallı millət.

Ülfət, ünsiyyətdə əlbir deyilsən,
Həmfikir deyilsən, dilbir deyilsən,
Əqidə, məsləkdə sirbir deyilsən,
Ay fəqir, ay məzlum, zavallı millət.

Hərə bir söhbətdə, başqa dildədir,
Sanırki özünü başqa eldədir,
Qonub butaqlara, başqa güldədir,
Ay fəqir, ay məzlum, zavallı millət.

Birisi aldanır, biri aldadır,
Birisi dəyməyib, yaman kal dadır,
Biri qovğadadır, biri qaldadır,
Ay fəqir, ay məzlum, zavallı millət.

Birisi düzəldir, birisi əyir,
Birisi qazanır, birisi yeyir,
Biri üryan qalır, birisi geyir,
Ay fəqir, ay məzlum, zavallı millət.

Ləyaqət əhlinə qiymət vermirsən,
Bəzəyi vurmursan, zinət vermirsən,
Tükənib insafın, mürvət vermirsən,
Ay fəqir, ay məzlum, zavallı millət.

Haçandan düşmüsən, cəhalətdəsən,
Yolunu azmısan, qəbahətdəsən,
Kində, küdurətdə, ədavətdəsən,
Ay fəqir, ay məzlum, zavallı millət.

Xainlik kök salıb ürəyinizdə,
Arzu-istəyində, diləyinizdə,
Ağrısı, acısı kürəyinizdə,
Ay fəqir, ay məzlum, zavallı millət.

Haçandan bəridir əmələ gəlmir,
Oxuyub öyrənmir, nədə ki, bilmir,
Açılmır qabağı, üzü də gülmür,
Ay fəqir, ay məzlum, zavallı millət.

Eşidin, dərk edin Cəmil Əkbəri,
Bir namə yazdım ki, alın xəbəri,
Yıxıb uçurmağa tökməyin təri,
Ay fəqir, ay məzlum, zavallı millət.

***Cəmil Əkbər***

## 211. LƏLƏ

*Prof.Dr.Qoşqar Əhmədlinin əziz xatirəsinə*

Yönüm düşüb mən Bakıya gəlmişəm,[296]
Qalx ayağa, imdadıma çat lələ.
Telfon götür, dost-tanışa zəng elə,
Bu Bakını birbirinə qat lələ.

Büdrəyəndə qollarımdan tutan yox,
Harayıma, həşirimə yetən yox,
Əl uzadıb köməyimə çatan yox,
Dur yenidən qollarımdan tut lələ[297]

[296] İşim düşüb mən Bakıya gəlmişəm.

[297] *II variant* Büdrəyəndə qolumuzdan tutmusan,
Sağımızdan, solumuzdan tutmusan,
Çoxlarının harayına çatmısan,
Dur yenidən, qollarımdan tut lələ.

*III variant* Necə qıyım necə, vaxtsız yatanı?
Heçkimsəyə yetirməyən xətanı?
Büdrəyənin qollarından tutanı?

Duman gəlib dağ başını bürüyür,
Kədərimdən ürək yağım əriyir,
Eşqim, andım, məhəbbətim çürüyür,
Bu kədərin dur daşını at lələ.[298]

İtirmişəm əhli-halı, həmdəmi,
Çəkmişəm nəqədər müsibət, qəmi?[299]
Dağlamısan dağ görməyən sinəmi,
Dur bu dərdi özgələrə sat, lələ. [300]

Əhsən dedi əməlinə el hamı,
Çəmən, çiçək, lalə, nərgiz, gül hamı,
Oba, oymaq, cümlə-cahan bil hamı,
Əbədilik behiştlərdə yat lələ.

***Cəmil Əkbər*** 14. 07 -1976

## 212. BU GÜN DƏ BİRİNİ GÖRMÜŞƏM LƏLƏ

Oqədər görmüşəm nadan kəsləri,
Bu gün də birini görmüşəm lələ.
Təlimdən yarımçıq dadan kəsləri,
Bu gün də birini görmüşəm lələ.

Oturub duranda yerini bilmir,
Dayazı anlamır, dərini görmür,
İstini sezməyir, sərini görmür,
Bu gün də birini görmüşəm lələ.

---

Dur ayağa, qollarımdan tut lələ.
[298] *II variant* Duman gəlib dağ başını bürüyüb,
Kədərimdən ürək yağım əriyib,
Nikbinliyim səndən ayrı çürüyüb,
Bu kədəri dur başımdan at lələ.

[299] Könlüm çəkdi hər hicranı, hər qəmi.

[300] *II variant* İşlətmədin hər qüssəni, hər qəmi,
İtirmişik sənin kimi həmdəmi,
İnildətdin, sızıldatdın sinəmi,
Qalx bu dərdi özgələrə sat, lələ.

Nə kiçik pəsinir, nə ağsaqqalı,
İş bilən, güc bilən nə əhli-halı,
Salır aralığa dərdi-məlalı,
Bu gün də birini görmüşəm lələ.

Araq şüşəsini sümürür yaman,
Dolma, bozartmanı gəmirir yaman,
Danışır, deyişir, çəmkirir yaman,
Bu gün də birini görmüşəm lələ.

Görəni, biləni saya gətirmir,
Əqidə, məsləyə, qayə gətirmir,
Üzünə, gözünə həya gətirmir,
Bu gün də birini görmüşəm lələ.

Nəqədər çox imiş təlimsiz olan?
Əqildən, kamaldan çəlimsiz olan?
Nəcabətsiz olan, nəsilsiz olan?
Bu gün də birini görmüşəm lələ.

İnsan övladının kalı çox imiş,
Qovğası çox imiş, qalı çox imiş,
Heyvanı çox imiş, malı çox imiş,
Bu gün də birini görmüşəm lələ.

Dünyanın gərdişi beləki gedir?
Dələduz, fırıldaq, hiyləki gedir?
Düşməyir kəməndə tələ ki, gedir?
Bu gün də birini görmüşəm lələ.

***Cəmil Əkbər*** 11. 10 – 1993

## 213. MEYDANIDIR

Aman Allah bu nə işdir?
Meydan kimin meydanıdır?
Nə dövrandır, nə gərdişdir?
Meydan kimin meydanıdır?

Ulu tanrı bu nə işdir?
Nə hərəkət, nə vərdişdir?
Nə vüsətdir, tərpənişdir?
Meydan kimin meydanıdır?

Kişi gedib, gədə gəlib,
Qorxu düşüb, hədə gəlib,
Nə vaxt çatıb, vədə gəlib?
Meydan kimin meydanıdır?

Çoxalıbdır dəllal, baqqal,
Abırsız, həyasız naqqal,
Yol göstərir tülkü, çaqqal,
Meydan kimin meydanıdır?

Hamı duyur, hamı sezir,
Əlacı yox dözür, bezir,
Əlini əllərdən üzür,
Meydan kimin meydanıdır?

***Cəmil Əkbər*** 23. 03 – 1993

## 214. ZALIM OĞLU?

İnciyən xalqındır, bezən xalqındır,
Kimə qəsd edirsən a zalım oğlu?
Səbr edən, tablaşan, dözən xalqındır,
Kimə zülm edirsən a zalım oğlu?

Əllərdə, ayaqda qalan xalqındır,
Saralan xalqındır, solan xalqındır,
Fikirə, xəyala dalan xalqındır,
Kimə xof gəlirsən a zalım oğlu?

Əcəlsiz, macalsız ölən xalqındır,
Bağrının başını dələn xalqındır,
Gözünün yaşını silən xalqındır,
Kimə qəsd edirsən a zalım oğlu?

Çatılır qabağı, qaşı xalqının,
Ağarıb saqqalı, başı xalqının,
Sağalmır yarası naşı xalqının,
Kimə qəsd edirsən a zalım oğlu?

Görmürsənmi ağlayanı, güləni?
Milyon-milyon gedənləri, gələni,
Ağladanı, sızladanı, öləni,
Niyə göz yumursan a zalım oğlu?

Görmürsənmi ədalətdən əsər yox?
Doğruluqdan, həqiqətdən kəsər yox?
İnsanlıqdan, ləyaqətdən səmər yox?
Niyə göz yumursan a zalım oğlu?

Görmürsənmi Vətən oğlu nə çəkir?
Nə bəsləyir, nə becərir, nə əkir?
Tarmar edib, nə talayır, nə sökür?
Niyə kor olubsan a zalım oğlu?

Bu səs-küyü eşitmirmi qulağın?
Nə qızarıb, nə közərib yananın?
Gedib gəlir gecə-gündüz qonağın,
Niyə kar olubsan a zalım oğlu?

Nifrət edir başdan-başa el sənə,
Bel bağlamır, inanmayır bil sənə,
İnanma ki, kömək edər ləl sənə?
Niyə xar olubsan a zalım oğlu?

İtirmisən el içində hörməti,
Ləyaqəti, şərafəti, şöhrəti,
İgidliyi, cəsarəti, cürəti,
Niyə sar olmusan a zalım oğlu?

Buminvalla görən hara gedirik?
Düşüb çətinliyə, dara gedirik,
İşgəncə, zülümə, zara gedirik,
Niyə kor olmusan a zalım oğlu?

Nə susmusan, danışmırsan sözünü?
Nə bağlayıb, nə yummusan gözünü?
Görənmirsən, bilənmirsən düzünü,
Niyə kar olmusan a zalım oğlu?

***Cəmil Əkbər***

## 215. AYRI

Ey bəşər övladı, yaşamaq olmaz,
Qayğıdan, yardımdan, xidmətdən ayrı.
Həyatın yükünü daşımaq olmaz,
Hünərdən, zəfərdən, zəhmətdən ayrı.

Güzəran pozular, gün də gün olmaz,
Səda səda olmaz, ün də ün olmaz,
Könüllər diyarı hər an şən olmaz,
Mənadan, məzmundan hikmətdən ayrı.

İnsan nəyə gərək, qoy desin özü,
Nə əkib, nə biçsin, nə yesin özü,
Toxuyub nə tiksin, nə geysin özü,
Cəsarət, fərasət, cürətdən ayrı.

İnsanam deyənə şərafət gərək,
Sədaqət, səxavət, kəramət gərək,
Nəciblik, gözəllik, ləyaqət gərək,
Həyat nəyə gərək, hörmətdən ayrı?

Dövlət də, sərvət də, var da yaxşıdır,
Qohum da, qardaş da, yar da yaxşıdır,
Namus da, qeyrət də, ar da yaxşıdır,
Ürək nəyə gərək mürvətdən ayrı?

Ey Cəmil, ellərdən gəzmə aralı,
Ürəyi kədərli, qəlbi yaralı,
Könül bağın xəzan olub, saralı,
Abırdan, həyadan, ismətdən ayrı.

***Cəmil Əkbər*** 7. 03 – 1993

## 216. AYRI

Necə səbr edəsən, dözəsən necə?
Mehriban istəkli yoldaşdan ayrı?
Necə seyr edəsən, gəzəsən necə?
Can-ciyər eloğlu, qardaşdan ayrı?

Necə şənlənəsən, kef eyləyəsən?
Qəm-qüssə, kədəri məhv eyləyəsən?
Deyəsən, güləsən, nəf eyləyəsən?
Hörmətli, izzətli tay-tuşdan ayrı?

Bu dərdi ortadan necə qaldıraq?
Qohumu, qardaşı necə güldürək?
Car olan gözyaşı necə sildirək?
Ən yaxın, mötəbər, sirdaşdan ayrı.

Necə dərd çəkməyib qəmlənməyəsən?
Zildən pəsə düşüb bəmlənməyəsən?
Leysanı axıdıb nəmlənməyəsən?
Məclislər başında meyxoşdan ayrı.

Necə inləməsin könül rübabın?
Qırılıb getdikcə qolun, qanadın?
Göylərə qalxmasın ahın, amanın?
Sükuta qərq olmuş bihuşdan ayrı.

Əriyib içimdən qırılıram mən,
Fikirdən, xəyaldan yoruluram mən,
Fələyin işinə darılıram mən,
Əziz eloğludan, çağdaşdan ayrı.

Necə tutulmasın qaşım-qabağım?
Solub saralmasın məhəbbət bağım?
Qolunu gen açsın eyvan otağım,
Məhəbbət yolçusu naxoşdan ayrı.

Kim çəksin Cəmilin ərkinazını?
Kokləsin qəlbinin bəmli sazını?
Yazı yazan belə yazdı yazını,
Saldı sərrafını daş-qaşdan ayrı.

***Cəmil Əkbər*** 25.04 – 1983

## 217. SAXLAMA!

Çalışki, qəlbində məhəbbət olsun,
Yaddaşında kin-küdurət saxlama!
Xalqına sədaqət, səxavət olsun,
Nifrət edib gəl ədavət saxlama!

Gözəlliyə üstünlük ver çirkindən,
Sadəliyə üstünlük ver xudbindən,
Nikbinlərə üstünlük ver bədbindən,
Yaddaşında gəl cəhalət saxlama!

Qananları ayırıb seç qanmazdan,
Ananlara üstünlük ver anmazdan,
Yananlara diqqət yetir yanmazdan,
Özgə fikr, özgə halət saxlama!

Həyatda yaxşını pislərdən seçin,
Xeyirxah bəndəni nəslərdən seçin,
Höcətdən, inaddan tərslərdən seçin,
Yaddaşında gəl xəyanət saxlama!

Həyatda acı da, şirin də vardır,
Səthi də, dayaz da, dərin də vardır,
İsti də, soyoq da, sərin də vardır,
Yaddaşında gəl sən nifrət saxlama!

Dünyada səxa da, səxavət də var,
Doğruluq, düzlük də, həqiqət də var,
İnsanlıq naminə ləyaqət də var,
Yaddaşında gəl pis adət saxlama!

Yerin, göyün zinətidir məhəbbət,
İnsanlığın zinətidir məhəbbət,
Ürəklərin zinətidir məhəbbət,
Yaddaşında özgə niyyət saxlama!

Gəl qardaşım nəzakətlə dolanaq,
Doğru-düzlük, həqiqətlə dolanaq,
Fəhm ilə, fərasətlə dolanaq,
Yaddaşında başqa qələt saxlama!

Mehri-ülfət səmimiyyət var olsun,
Mehribanlıq cəmiyyətə yar olsun,
Qoy zalımlar el içində xar olsun,
Yaddaşında elə nifrət saxlama!

***Cəmil Əkbər*** 10. 02 – 1990

## 218. HƏRƏYƏ BİRCÜRƏ PAY VERİB FƏLƏK

Birinə ay verib, birinə ulduz,
Hərəyə bircürə pay verib fələk.
Birinə yar verib, birinə baldız,
Hərəyə bircürə pay verib fələk.

Birinə qaranlıq, birinə gündüz,
Birinə dağ-dərə, birinə dümdüz,
Birinə beş oğul, birinə bir qız,[301]
Hərəyə bircürə pay verib fələk.[302]

Birinə dəryaca pürkamal verib,
Birinə qəm-qüssə, dərd-məlal verib,
Birinə bir ölkə, bir mahal verib,
Hərəyə bircürə pay verib fələk.[303]

Birinə at verib birinə dəvə,
Birinə nəticə, birinə nəvə,
Birinə boz kilim, birinə gəvə,
Hərəyə bircürə pay verib fələk.

Birinə boy-buxun, birinə yöndəm,
Tər sinə, tər buxaq, birinə əndam,
Birini xar edib, birini bədnam,
Hərəyə bircürə pay verib fələk.

Birinin dəstinə kolu bəxş edib,
Birinin gözünə külü bəxş edib,
Birinə bir dəstə gülü bəxş edib,
Hərəyə bircürə pay verib fələk.[304]

---

[301] Birinə on oğul, birinə kor qız.

[302] *II variant* Kimiyə qaranlıq, kimiyə gündüz,
Kimiyə dağ-dərə, kimiyə dümdüz,
Kimiyə beş oğul, kimiyə bir qız,
Hərəyə bircürə pay verib fələk.

[303] *II variant* Birinə var-dövlət, birinə kamal,
Birinə əqidə, birinə amal,
Birinə bir daxma, birinə mahal,
Hərəyə bircürə pay verib fələk.

Birinə sağlamca canı bol verib,
Birinə hüceyrə, qanı bol verib,
Birinə gövhəri, kanı bol verib,
Hərəyə bircürə pay verib fələk.[305]

Birinə dayaqdır əqli, kamalı,
Əqidə, məsləyi, düzgün amalı,
Mehriban ülfəti, gözəl camalı,
Hərəyə bircürə pay verib fələk.

Biri babasından yarıyıb gedib,
Biri atasından yarıyıb gedib,
Biri anasından yarıyıb gedib,
Hərəyə bircürə pay verib fələk.[306]

Biri dayısından yarıyıb yaman,
Biri əmisindən yarıyıb yaman,
Biri də arvaddan yarıyıb yaman,
Hərəyə bircürə pay verib fələk.

Birisi dostundan yaxşı yarıyıb,
Birisi postundan yaxşı yarıyıb,
Birisi sirdaşdan yaxşı yarıyıb,
Hərəyə bircürə pay verib fələk.

Birisi qardaşdan kam alıb gedib,
Birisi yoldaşdan kam alıb gedib,
Birisi tay-tuşdan kam alıb gedib,
Hərəyə bircürə pay verib fələk.

---

[304] *II variant* Birinin dəstinə gülü bəxş edib,
İncini, sədəfi, ləli bəxş edib,
Birinə fitnəni, feli bəxş edib,
Hərəyə bircürə pay verib fələk.

[305] *II variant* Birinə quruca canı veribdir,
Hüceyrə, toxuma, qanı veribdir,
Birinə gövhəri, kanı veribdir,
Hərəyə bircürə pay verib fələk.

[306] *II variant* Birisi hərşeydən yarıyıb gedib,
Yaşayıb, qocalıb, qarıyıb gedib,
Birinin hər işi sarıyıb gedib,
Hərəyə bircürə pay verib fələk.

Birisi atadan ilham alıbdır,
Birisi anadan ilham alıbdır,
Birisi zinadan ilham alıbdır,
Hərəyə bircürə pay verib fələk.

Birisi gözəldir, birisi çirkin,
Birisi şad-xürrəm, birisi bədbin,
Birisi sadədir, birisi xudbin,
Hərəyə bircürə pay verib fələk.

Birisi karlıdır, birisi karsız,
Birisi barlıdır, birisi barsız,
Birisi arlıdır, birisi arsız,
Hərəyə bircürə pay verib fələk.

Biri əyri qanır, biri düz qanır,
Biri dərin qanır, biri üz qanır,
Birisi gecikir, biri tez qanır,
Hərəyə bircürə pay verib fələk.

Birisi yaxşıdır, birisi pisdir,
Birisi xeyirxah, birisi nəsdir,
Birisi mülayim, birisi tərsdir,
Hərəyə bircürə pay verib fələk.

Xudanın işinə darılmayın siz,
İçindən çürüyüb qırılmayın siz,
Partlayıb, çatlayıb, cırılmayın siz,
Hərəyə bircürə pay verib fələk.[307]

Birinə ar verib, birinə qeyrət,
Birinə məhəbbət, birinə hiddət,
Birinə işgəncə, birinə xidmət,[308]
Hərəyə bircürə pay verib fələk.

---

[307] *II variant* Fələyin işinə darılmaq olmaz,
Çatdayıb, partlayıb, qırılmaq olmaz,
İçindən üzülüb cırılmaq olmaz,
Hərəyə bircürə pay verib fələk.

[308] Birinə kef verib, birinə möhnət.

Birinə bol verib, birinə kasad,
Birinə viranə, birinə abad,
Birinə düz verib, birinə bərbad,
Hərəyə bircürə pay verib fələk.

Birisi qoçaqdır, birisi kütdür,
Birisi sürsümük, birisi ətdür,
Birisi tək-tənha, birisi cütdür,[309]
Hərəyə bircürə pay verib fələk.

Biri yekəxana, biri lovğadır,
Birisi bülbüldür, biri qarğadır,
Birisi mütidir, biri darğadır,
Hərəyə bircürə pay verib fələk.

Birisi ağıllı, birisi gicdir,
Birisi sadəlövh, birisi bicdir,
Birisi şuluqdur, birisi dincdir,
Hərəyə bircürə pay verib fələk.[310]

Fələyin işinə qarışmaq olmaz,
Əzilib-büzülüb, qırışmaq olmaz,
Öyrənib səbəbin soruşmaq olmaz,
Hərəyə bircürə pay verib fələk.

Onun verdiyinə  min şükür deyək,
Bizdən uzaq olsun hər zikir deyək,
Biz onun hökmünə həmfikir deyək,
Hərəyə bircürə pay verib fələk[311]

---

[309] Birində kasaddır, çatışmır, qıtdır.

[310] *II variant* Biri sadəlövhdür, birisi bicdir,
Birisi aqildir, birisi gicdir,
Birisi mülayim, birisi öcdür,
Hərəyə bircürə pay verib fələk.

[311] *II variant* Onun verdiyinə min şükür deyək,
Nə verib geyinək, nə verib yeyək,
Bizdən uzaq olsun hər zikir deyək,
Hərəyə bircürə pay verib fələk.

Nə verib, verməyib qailik ona,[312]
Məzlumuq, mütiyik, sailik ona,
Kim deyir böyüyük, aliyik ona?
Hərəyə bircürə pay verib fələk.

Xaliqin işinə nə demək olar?
Nə yardım, nə qayğı, nə kömək olar?
Nə zəhmət, nə xidmət, nə əmək olar?
Hərəyə bircürə pay verib fələk.[313]

Mən kimin işinə qarışa billəm?
Gedib kef-halını soruşa billəm?
Üz-üzə dayanıb vuruşa billəm?
Hərəyə bircürə pay verib fələk.

Odur pay paylayan, bizik əl açan,
Odur bahar verən, bizik gül açan,
Odur fürsət verən, bizik yol açan,
Hərəyə bircürə pay verib fələk.[314]

Əlinin üstünə əl qoyan olmaz,
Dilinin üstünə dil qoyan olmaz,
İlinin üstünə il qoyan olmaz,
Hərəyə bircürə pay verib fələk.[315]

---

[312] Nə verib, nə alıb qailik ona.

[313] *II variant*

Xudanın işinə nə demək olar,
Nə yardım eyləmək, nə kömək olar,
Nə danlamaq olar, nə söymək olar,
Hərəyə bircürə pay verib fələk.

[314] *II variant*

Odur pay paylayan, bizik əl açan,
Odur hökm eyləyən, bizik dil açan,
Odur ətir verən, bizik gül açan,
Hərəyə bircürə pay verib fələk

[315] *II variant*

Əlinin üstünə əl ola bilməz,
Dilinin üstünə dil ola bilməz,
Selinə bərabər sel ola bilməz,
Hərəyə bircürə pay verib fələk

Hər anadan doğulan da bir olmur,
Hər torpaqdan tapılan da zər olmur,
Əvvəl-axır aşkar olur, sirr olmur,
Hərəyə bircürə pay verib fələk.

Fələyin hökmünə qaildir Cəmil,
Cahan daimidir, anidir Cəmil,
Deməyin cəlladdır, canidir Cəmil.
Hərəyə bircürə əsibdir külək,
Hərəyə gəlibdir bircürə kələk,
Hərəyə bircürə pay verib fələk.

***Cəmil Əkbər*** 26. 11 -1984 // 25. 09 – 1993

## 219. FƏLƏK

Günah nə məndədir, nə də səndədir,
Hərəni bircürə xəlq edib fələk.
Hüceyrədə, nüvədədir, gendədir,
Hərəni bircürə xəlq edib fələk,
Pozub ovqatını təlx edib fələk.

Kimi karlı oldu, kimi də karsız,
Kimi arlı oldu, kimi də arsız,
Kimi barlı oldu, kimi də barsız,
Hərəni bircürə xəlq edib fələk.[316]
Pozub ovqatını təlx edib fələk.

Kimi fərsiz oldu, kimi fərlidir,
Kimi girsiz oldu, kimi girlidir,
Kimi açıq-aşkar, kimi sirlidir,
Hərəni bircürə xəlq edib fələk,
Pozub ovqatını təlx edib fələk.

---

[316] *II variant* Birisi karlıdır, birisi karsız,
Birisi barlıdır, birisi barsız,
Birisi arlıdır, birisi arsız,
Hərəyə bircürə pay verib fələk.
Pozub ovqatını təlx edib fələk.

Kimi dayaz qandı, kimi dərindir,
Kimi soyuq oldu, kimi sərindir,
Kimi acı daddı, kimi şirindir,
Hərəni bircürə xəlq edib fələk,
Pozub ovqatını təlx edib fələk.

Birisi abırlı, biri üzlüdür,
Birisi kiprikdir, biri gözlüdür,
Birisi tamsızdır, biri duzludur,
Hərəni bircürə xəlq edib fələk,
Pozub ovqatını təlx edib fələk.

Birisi gözəldir, birisi çirkin,
Birisi sadədir, birisi xudbin,
Birisi nikbindir, birisi bədbin,
Hərəni bircürə xəlq edib fələk,
Pozub ovqatını təlx edib fələk.

Birisi yaxşıdır, birisi pisdir,
Birisi xeyirxah, birisi nəsdir,
Birisi mülayim, birisi tərsdir,
Hərəni bircürə xəlq edib fələk,
Pozub ovqatını təlx edib fələk.

Belədir əzəldən sirli kainat,
İnsan gəlir-gedir, ömür əmanət,
Acizdir önündə küllü-camaat,
Hərəni bircürə xəlq edib fələk,
Pozub ovqatını təlx edib fələk.

Hərə bir biçimdə, başqa boydadır,
Başqa əsil-nəsil, başqa soydadır,
Bilinmir insanlıq, onda-bundadır,
Hərəni bircürə xəlq edib fələk,
Pozub ovqatını təlx edib fələk.

Hər insanoğlunun adı başqadır,
Qohum-əqrəbası, yadı başqadır,
Hər bağın meyvəsi, dadı başqadır,
Hərəni bircürə xəlq edib fələk,
Pozub ovqatını təlx edib fələk.

Dünyanın işinə nə demək olar?
Nə ağlamaq olar, nə gülmək olar,
Öyrənib sirləri, nə bilmək olar,
Hərəni bircürə xəlq edib fələk,
Pozub ovqatını təlx edib fələk.

Ay Cəmil, belədir dünyanın işi,
Keçirmə həyəcan, etmə təşvişi,
Quran belə qurub, dövrü-gərdişi,
Hərəni bircürə xəlq edib fələk,
Pozub ovqatını təlx edib fələk.

***Cəmil Əkbər*** 26.01 – 1994

## 220. FƏLƏK

Yaradan nə verib, qaytarıb alır,
Baxmayır nə vara, nə hala fələk.
Çox mənəm deyəni amana salır,
Baxmayır nə dövlət, nə mala fələk.

Nə zalım tanıyır, nə yazıq görür,
Nə yaxın, nə doğma, nə uzaq görür,
Nə isti, nə soyuq, nə sazaq görür,
Baxmayır həsrətə, zavala fələk.

Kasıb da, varlı da köç edib gedir,
Karsız da, karlı da köç edib gedir,
Arsız da, arlı da, köç edib gedir,
Baxmayır altuna, nə pula fələk.[317]

Sahibi-dövranlar, ixtiyar gedir,
Sanmayın kimsəni bəxtiyar gedir,
Nəqədər könüllər intizar gedir?
Baxmayır qovğaya, nə qala fələk[318].

---

[317] *II variant* Kasıb da, varlı da, nəki var gedir,
Karsız da, karlı da, nəki var gedir,
Arsız da, arlı da, nəki var gedir,
Baxmayır altuna, nə pula fələk.

Zalımdı, halına qalası deyil,
Soruşub dərdini bulası deyil,
Yalvarıb versən də, alası deyil,
Baxmayır inciyə, nə ləlƏ fələk.

Eşidib sözünü haxlayan deyil,
Yaxşını-yamanı yoxlayan deyil,
Heçkəsi əbədi saxlayan deyil,
Baxmayır ərkana, nə yola fələk[319]

Çoxları sozalıb, saralıb gedib,
Gözündə kainat qaralıb gedib,
Gendünya başına daralıb gedib,
Baxmayır nə yağa, nə bala fələk[320].

Kef çəkən, nəşəxor, nikbin də gedir,[321]
Taleyi bəd gələn, bədbin də gedir,
Gözəl də, göyçək də, çirkin də gedir,
Baxmayır surətə, camala fələk.[322]

Alim də,  mömin də, çoban da gedir,
Nabələd, yarımçıq, qanan da gedir,
Münəccim, arif də, nadan da gedir,
Baxmır dərrakəyə, kamala fələk.[323]

---

[318] *II variant* Sahibi-dövranlar, ixtiyar gedir,
Sanmayın kefikök bəxtiyar gedir,
Qəlbində min nisgil, intizar gedir,
Baxmayır qovğaya, nə qala fələk.

[319] *II variant* Heçkəsi əbədi saxlayan deyil,
Eşidib sözünü haxlayan deyil,
Yaxşını-yamanı yoxlayan deyil,
Baxmayır ərkana, nə yola fələk.

[320] *II variant* Çoxları sozalıb, saralıb gedib,
Günəş də gözündə qaralıb gedib,
Gendünya başına daralıb gedib,
Baxmayır nə yağa, nə bala fələk.

[321] Dünyada kef çəkən, nikbin də gedir.

[322] Baxmır boy-buxuna, camala fələk.

Süpürüb hamını udur, nə çarə?
Sanki pusqudadır, güdür nə çarə?
Adəti belədir, budur nə çarə?
Baxmayır məsləyə, amala fələk.

Nə gəlir, qazancı, nəfi gözləyir,
Nə düzü, əyrini, səhvi gözləyir,
Nə nəşə, damağı, kefi gözləyir,
Baxmayır büsata, cəlala fələk.

Verdiyi fərmanı qətidir-qəti,
Nə insafı vardır, nə kəraməti,
Nə xətir gözləyir, nə də hörməti,
Baxmayır nə xəttə, nə xala fələk.

Dünyada nəqədər qapı bağlayıb?
Qanları qaraldıb, sinə dağlayıb,
Ana, bacı ağı deyib ağlayıb,
Baxmayır qüssəyə, məlala fələk.

Heçkəs bu dünyada havalanmasın,
Gədalıq eyləyib yavalanmasın,
Nifrətlə yad olub sədalanmasın,
Baxmayır nə bəmə, nə zilə fələk.

Heçkəs qürrələnib qoy sevinməsin,
Baxıb kölgəsinə qoy öyünməsin,
Dəbdən-dəbə düşüb qoy geyinməsin,
Baxmayır nə quya, nə tülə fələk.

Körpə də, cavan da, qoca da gedir,
Mövqedə kiçik də, uca da gedir,
Vəzir də, vəkil də, xoca da gedir, [324]
Baxmayır körpəyə, ahala fələk.

---

[323] *II variant* Sərraf da, arif də, çoban da gedir,
Münəccim, mömin də, qanan da gedir,
Nabələd, yarımçıq, nadan da gedir,
Baxmayır idraka kamala fələk.

[324] Bəzirgan da gedir, xoca da gedir.

Nəqədər el-oba qəm içindədir,
Salınıb kökündən, bəm içindədir,
Gözlərin didəsi nəm içindədir,
Baxmayır obaya, mahala fələk.

Qəribə işi var, qoca dünyanın,
Tarixi-Nadirdən uca dünyanın,
Əvvəldən-axıra beca dünyanın,
Baxmayır nə kara, nə lala fələk.

Ayrılıq hissləri qəlbləri didər,
Salır aralığa qüssə-qəm, kədər,
Çox gələn Cəmillər durmayıb gedər,
Baxmayır bu qova, bu hala fələk.[325]

***Cəmil Əkbər*** 25. 10 - 1985

## 221. PƏRİŞANDIR

İnildəyir telli sazın,
Səndən ayrı pərişandır.
Şirin sözün, xoş avazın,
Səndən ayrı pərişandır[326]

---

[325] *II variant*
Salır aralığa qüssə-qəm, kədər,
Çox mənəm deyənlər durmayıb gedər,
Ayrılıq həsrəti qəlbləri didər,
Baxmayır fikirə, xəyala fələk.

[326] *II variant*
Sən sevdiyin bahar, yazın,
Səndən ayrı pərişandır.
Tər qönçəli güllü yazın,
Səndən ayrı pərişandır.

*III variant*
Sən sevdiyin telli sazın,
Xoş ətirli bahar yazın,
Göllərdəki quba qazın,
Səndən ayrı pərişandır.

*IV variant*
Sən gördüyün o təpələr,
Dənizdəki o ləpələr,
Qara bulud su səpələr,
Səndən ayrı pərişandır.

Bu dərələr, bu təpələr,
Yal-yamaclı bu zirvələr,
Toy-büsatlar, düşərgələr,
Səndən ayrı pərişandır.[327]

Haray salıb uca dağlar,
Sərin sular, turş bulaqlar,
Bu el-oba, bu oymaqlar,
Səndən ayrı pərişandır.[328]

Sən sevdiyin yaşıl meşə,
Səfalı yer, gözəl guşə,
Yas saxlayıb bil həmişə,
Səndən ayrı pərişandır.[329]

Düz ilqarlı vəfadarın,
Qohum-qardaş övladların,
Qədirbilən dostun, yarın,
Səndən ayrı pərişandır.

---

[327] *II variant*

Sən gördüyün bu təpələr,
Bu dalğalar, bu ləpələr,
Toy-büsatlar, düşərgələr,
Səndən ayrı pərişandır.

*IV variant*

Bu yal-yamac, bu təpələr,
Bərəlgələr, bu zirvələr,
Toy-düyünlü düşərgələr,
Səndən ayrı pərişandır.

[328] *II variant*

Başı qarlı uca dağlar,
Bu el-oba, bu oymaqlar,
Vurulduğun gözəl bağlar,
Səndən ayrı pərişandır.

[329] *II variant*

Çiçəkli yurd, yaşıl meşə,
Lalə, nərgiz, tər bənövşə,
Səfalı kənd, gözəl guşə,
Səndən ayrı pərişandır.

*III variant*

Yuvalarda körpə bala,
Yaşıl meşə, gözəl tala,
Gör necə dalıb xəyala?
Səndən ayrı pərişandır.

Dinlə məni qardaş inan,
Qanyaş tökən qoca anan,
Nəqədərsə canı yanan?
Səndən ayrı pərişandır.

Sən sevdiyin ana torpaq,
Çəmən, çiçək, yaşıl yarpaq,
Saf çeşmələr, sərin irmaq,
Səndən ayrı pərişandır.[330]

Sən sevdiyin eloğlular,
Təmiz qəlbli güloğlular,
Şəkər-şərbət, qənd noğullar,
Səndən ayrı pərişandır.

Doğma kəndin, ana torpaq,
Qucaq açdı sana torpaq,
Az qalırki, yana torpaq,
Səndən ayrı pərişandır.

Yol gözləyir ana, bacı,
Tərlan balan nə qiyqacı,
Olubdur ata möhtacı,
Səndən ayrı pərişandır.[331]

Həsrət çəkir qardaşların,
Tay-tuşların, yoldaşların,
Həmdəmlərin, sirdaşların,
Səndən ayrı pərişandır.

---

[330] *II variant*
Doğma Vətən, ana torpaq,
Bahar fəsli qönçə yarpaq,
Saf çeşmələr, sərin irmaq,
Səndən ayrı pərişandır.

[331] *II variant*
Yol gözləyir anan, bacın,
Tərlan balan, şahin, laçın,
Yaz gələndə o sığırçın,
Səndən ayrı pərişandır.

Arif olub sözqananlar,
Tar anlayıb, saz qananlar,
Mətləbləri düz qananlar,
Səndən ayrı pərişandır.

Matəmdədir elin, günün,
Qulağından getməz ünün,
Məclislərdə toy-düyünün,
Səndən ayrı pərişandır.

Nərman oldu qəm dustağı,
Dostun Məcid, həkim Nağı,
Aprel ayı, bahar çağı,
Səndən ayrı pərişandır.

Neçə-neçə bacanaqlar,
Hey adını anacaqlar,
İçin-için yanacaqlar,
Səndən ayrı pərişandır.

Bu enişlər, bu yoxuşlar,
İntizarlı bu baxışlar,
Cəmil kimi dost-tanışlar,
Səndən ayrı pərişandır.

***Cəmil Əkbər***

## 222. VƏTƏN TORPAĞI

*I variant*

Nəqədər qal-qovğa, dava görmüsən?
Ay Vətən torpağı, Vətən torpağı.
Zəhərə qarışmış hava görmüsən?
Ay Vətən torpağı, Vətən torpağı.

Zərbələr almısan, hədə görmüsən,
Qırmanclar, kötəklər, pedə görmüsən,
Xəsarət almısan, zədə görmüsən,
Ay Vətən torpağı, Vətən torpağı.

Üstündə nəqədər nadanlar gəzdi?
Yolunu tərsinə adanlar gəzdi?
Təlimdən yarımçıq dadanlar gəzdi?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər vicdanı satanlar gördün?
Şər deyib aranı qatanlar gördün?
Qəflətlər içində yatanlar gördün?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər böhtanlar, yalanlar gördün?
Əqrəbtək, iblistək çalanlar gördün?
Dağıdan, sökülən, talanlar gördün?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər müsibət, zülmət görmüsən?
Düşüb fəlakətə dəhşət görmüsən?
Gileylər, güzarlar, qeybət görmüsən?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər nanəcib, naqislərin var?
Paxıllar, xainlər, xəbislərin var?
Yaramaz övladdan varislərin var?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər hay-həşir, qovğalar gördün?
Darğalar, kattalar, kovxalar gördün?
Özündən bədgüman, lovğalar gördün?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər ucalan, enən görmüsən?
İlqardan, imandan dönən görmüsən?
Qaralıb qarsıxan, sönən görmüsən?
Ay Vətən torpağı, Vətən torpağı.

Əzilən görmüsən, əzən görmüsən,
Usanıb canından bezən görmüsən,
Səbr edib, tablaşıb, dözən görmüsən,
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər başlara qara bağlandı?
Dəydi ürəklərə yara bağlandı?
Tapmadı dərdlərə çara bağlandı?
Ay Vətən torpağı, Vətən torpağı.

Göylərə yüksəldi ahlar, amanlar,
Bürüdü səmanı qara dumanlar,
Çoxaldı həryanda küsüb-umanlar,
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər haq batdı, ədalət batdı?
Doğruluq, düzgünlük, həqiqət batdı?
Fərasət boğuldu, ləyaqət batdı?
Ay Vətən torpağı, Vətən torpağı.

Ülfət-ünsiyyətdə qəbahət oldu,
Küdurət çoxaldı ədavət oldu,
Nadanlıq hökm etdi, cəhalət oldu,
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər evləri yıxılan varmış?
Dərdləyib ürəyi sıxılan varmış?
Nizəyə, süngüyə taxılan varmış?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər vədəsiz ağardı başlar,
Tutuldi qabaqlar, çatıldı qaşlar,
Qısaldı ömürlər, kəsildi yaşlar,
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər arzular gözlərdə qaldı?
Çatmadı mənzilə, düzlərdə qaldı?
Yetmədi yerinə, sözlərdə qaldı?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər qaməti bükənlər oldu?
Sinəyə dağ-düyün çəkənlər oldu?
Gözlərin yaşını tökənlər oldu?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər yollarda, yarıda qaldı?
Çatmadı yaşıla, sarıda qaldı?
Ağladı, sızladı, zarıda qaldı?
Ay Vətən torpağı, Vətən torpağı.

Dolu döydü aranını, dağını?
Bülbülləri heyran qoyan bağını?
Şamamalı bostanını, tağını?
Ay Vətən torpağı, Vətən torpağı.

Dayanmadı, nər kişilər qocaldı,
İnci-sədəf, dür kişilər qocaldı,
Oxu, öyrən, gör kişilər qocaldı,
Ay Vətən torpağı, Vətən torpağı.

Təzə-təzə nər oğullar bəslə sən,
Mərd igidlər, zor oğullar bəslə sən,
Yenilməyən ər oğullar bəslə sən,
Ay Vətən torpağı, Vətən torpağı.

Çalış qurtar gədələrin əlindən,
Qəlbiqara, zədələrin əlindən,
Gönü qalın dədələrin əlindən,
Ay Vətən torpağı, Vətən torpağı.

Açılsın köksündən sellərin sənin,
Solmasın qönçədə güllərin sənin,
Şen olsun günbəgün ellərin sənin,
Ay Vətən torpağı, Vətən torpağı.

Qoy yaşasın, mərd igidin var olsun,
Nanəciblər xəcil olsun, xar olsun,
El içində bədnam olsun, car olsun,
Ay Vətən torpağı, Vətən torpağı.

Üstündən bu qara duman çəkilsin,
Ah nalə kəsilsin, aman çəkilsin,
Yaxşılar yaşasın, yaman çəkilsin,
Ay Vətən torpağı, Vətən torpağı.

İnsanlar-insanın dadına çatsın,
Qohum nə, qardaş nə, yadına çatsın,
Ünvanına çatsın, adına çatsın,
Ay Vətən torpağı, Vətən torpağı.

Toxunub qəlblərə dəyən olmasın,
Zəhmətsiz, xidmətsiz yeyən olmasın,
Haqqı-ədaləti əyən olmasın,
Ay Vətən torpağı, Vətən torpağı.

Üstündən nəqədər küləklər əsdi,
Qırıb arzuları, diləklər kəsdi,
Bir deyən olmadı dayanın, bəsdi!
Ay Vətən torpağı, Vətən torpağı.

Fəsillər dalınca fəsil xoş gəlsin,
Nəsillər dalınca nəsil xoş gəlsin,
Cəmillər dalınca Cəmil xoş gəlsin,
Ay Vətən torpağı, Vətən torpağı.

***Cəmil Əkbər*** 20.01 – 1994

## 223. VƏTƏN TORPAĞI

*II variant*

Nəqədər qal-qovğa, davaya düşdün?
Ay Vətən torpağı, Vətən torpağı.
Zəhərə qarışmış havaya düşdün?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər qan gördün, qadalar gördün,
Lovğalıq eşitdin, ədalar gördün.
Qanları qaraldan gədalar gördün,
Həm nələr eşitdin, hədələr gördün.
Qırmanclar, kötəklər, pedələr gördün,
Xəsarətlər aldın, zədələr gördün.
Şaqqulusayağı dədələr gördün,
Avamlar, cahillər, nadanlar gördün.
Təlimdən yarımçıq dadanlar gördün,
Yolunu tərsinə adanlar gördün,
Haqq-say sümürüb udanlar gördün,
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər saxtalıq, yalan görmüsən?
Xəzana qərq olan, solan görmüsən?
Dağılan, sökülən, talan görmüsən?
Züy tutub nağara çalan görmüsən?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər qəflətdə yatan da oldu,
Vicdanı, məsləyi satan da oldu,
Şər deyib aranı qatan da oldu,
İnsafı-mürvəti atan da oldu,
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər zəlalət, zülmət görmüsən?
Gileylər eşidib, qeybət görmüsən?
Müsibət, fəlakət, dəhşət görmüsən?
Kamala sığmayan heyrət görmüsən?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər vədəsiz ölənlər gördün?
Axan gözyaşını silənlər gördün?
Dərdləyib, bağrını dələnlər gördün?
Yersiz danışanlar gülənlər gördün?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər nanəcib, naqislər gördün?
Tamahkir, acgözlər, hərislər gördün?
Yaramaz övladlar, varislər gördün?
Bədəsil züryətlər, nacinslər gördün?
Ay Vətən torpağı, Vətən torpağı.

Nəqədər savaşlar, qovğalar gördün?
Darğalar, kəttalar, kovxalar gördün?
Ədəbaz, modabaz, lovğalar gördün?
Ay Vətən torpağı, Vətən torpağı.

***Cəmil Əkbər*** 20.01 – 1994

## 224. AY VƏTƏN?

Növrağın nəyaman pozulub sənin?
Bu nə gündü, güzərandı ay Vətən?
Dövlətin, sərvətin azalıb sənin,
Bu nə gündü, güzərandı ay Vətən?

Qiymət artıb, bahalıqdır bazarın,
Buminvalla hara gedir güzarın?[332]
Sağalarmı qövr eyləyən azarın?
Bu nə gündü, güzərandı ay Vətən?

[332] Bu gedişlə hara düşür güzarın?

Bürüyür tarlanı alaqotları,
Gicitkansayağı dalaqotları,
Tikanlar, qanqallar, ulaqotları,
Bu nə gündü, güzərandı ay Vətən?

Torpağını becərən yox, əkən yox,
Zəhmət çəkib tərlərini tökən yox,
Can yandırıb, bir qayğını çəkən yox,
Bu nə gündü, güzərandı ay Vətən?

Vəfasız çıxıbdır vətəndaşların,
Qaçır yad ellərə arkadaşların,
Qurdlarla barışır alabaşların,[333]
Bu nə gündü, güzərandı ay Vətən?

Yaxşı-yaman birbirinə qatılıb,[334]
Vicdan, məslək ayaq altda atılıb,
Qaşqabaqlar düyünlənib, çatılıb,
Bu nə gündü, güzərandı ay Vətən?

Azırlar yolunu naqis bəndələr,
Nadürüst, naxələf, xəbis bəndələr,
Şərəfsiz, şöhrətsiz varis bəndələr,[335]
Bu nə gündü, güzərandı ay Vətən?

Nanəciblər oyun açır başına,[336]
Qiymət vermir torpağına, daşına,[337]
Toxunurlar xəyalına, huşuna,
Bu nə gündü, güzərandı ay Vətən?

Addımbaşı qəbahətlər çoxalır,
Kin-küdurət, ədavətlər çoxalır,
Giley-güzar, şikayətlər çoxalır,
Bu nə gündü, güzərandı ay Vətən?

---

333 Fillərə hürüşür alabaşların.
334 Torpaqların gör kimlərə satılıb?
335 Ellərin varına həris bəndələr.
336 Nanəciblər qaxınc olub başına.
337 Hörmət etmir torpağına, daşına.

Dünyagörmüş ağsaqqalı sayan yox,
Günahını təmizləyib yuyan yox, [338]
Hərkəsdəni öz yerinə qoyan yox,[339]
Bu nə gündü, güzərandı ay Vətən?

Sözünü demirsən hoqqabazlara,
Lovğa, yekəxana, ədəbazlara,
Hiyləgər, dələduz, kələkbazlara,
Bu nə gündü, güzərandı ay Vətən?

Xeyirxahlıq, fəzilətə həsrətik,
Sağlam fikir, pak niyyətə həsrətik, [340]
İnsanlığa, ləyaqətə həsrətik,[341]
Bu nə gündü, güzərandı ay Vətən?

Alverə qarışıb hamının başı,
Vurhavur işləyir tərəzi, daşı,
Saya gətirməyir qardaş-qardaşı,
Bu nə gündü, güzərandı ay Vətən?

Dövrü-zəmanəmiz qəlizləşibdir,
Yaman sısqalaşıb, cılızlaşıbdır,
Alimlər, loğmanlar kənizləşibdir,
Bu nə gündü, güzərandı ay Vətən?

Ağrıyıram, acıyıram halına,
Son qoya bilmirəm qeylü-qalına,
Qüssə-kədərinə, dərd-məlalına,
Bu nə gündü, güzərandı ay Vətən?

Bir cavab versənə Cəmil Əkbərə,[342]
Qoyma keçsin ömür-günün hədərə,
Yazaq kitablara, düşsin dəftərə,
Bu nə gündü, güzərandı ay Vətən?

***Cəmil Əkbər*** 7. 02 - 1995

---

338 Alim, loğman, pürkamalı sayan yox,
339 Dərdbiləni, əhli-halı sayan yox.
340 Ədəb-ərkan, nəzakətə həsrətik.
341 Saf arzuya, pak niyyətə həsrətik.
342 Susmaynan cavab ver, Cəmil Əkbərə.

## 225. AY VƏTƏNOĞLU?

A Bəhmən qələmin niyə susubdur?
Kim satdı Vətəni ay Vətənoğlu?
Kimdən inciyibdir, kimdən küsübdür?
Kim satdı Vətəni ay Vətənoğlu?

Bu necə satqınlıq, xəyanət oldu?
Necə də qəddarlıq, cinayət oldu?
Avamlıq, nadanlıq, cəhalət oldu?
Satdı Kəlbəcəri ay Vətənoğlu?

Buqədər millətə xəyanət olmaz,
Beylə düşmənçəlik, ədavət olmaz,
Ünsiyyət-ülfətdə qəbahət olmaz,
Kim satdı Vətəni ay Vətənoğlu?

Buqədər var-halı necə atdınız?
Necə rahat olub necə yatdınız?
Yad elə, obaya necə çatdınız?
Kim satdı Vətəni ay Vətənoğlu?

Necə dözür bu dərdlərə ürəyin?
Yoxundursa Vətəninə gərəyin,
Harda qaldı halal süfrə, çörəyin?
Kim satdı Vətəni ay Vətənoğlu?

Beylə Vətən oğlu, Vətəndaş olmaz,
Vicdanı kəm-kəsir, qəlbidaş olmaz,
Xəyalı dolaşıq, fikri çaş olmaz,
Kim satdı Vətəni ay Vətənoğlu?

Yazın mətbuatda çəkin adını,
Qalayın tonqalı, qoyun odunu,
Söndürün çırasın, çəkin xodunu,
Kim satdı Vətəni ay Vətənoğlu?

Zalıma, qatilə fərman verilsin,
Yaralı qəlblərə dərman verilsin,
Sağalmaz dərdlərə loğman verilsin,
Kim satdı Vətəni ay Vətənoğlu?

Bu necə avamlıq, cəhalətdi bu?
Xətadı, bəladı, qəbahətdi bu?
Qəzəbdi, nifrətdi, küdurətdi bu?
Kim satdı Vətəni ay Vətənoğlu?

Bu necə vətəndaş, Vətən oğludur?
Yayınıb gözlərdən itən oğludur?
Çatıb millətinə deyən oğludur?
Kim satdı Vətəni ay Vətənoğlu?

Bu zalım oğlunun adı de kimdi?
Qohumu, qardaşı, yadı de kimdi?
Tnınsın ocağı, odu de kimdi?
Kim satdı Vətəni ay Vətənoğlu?

Tutun yaxasından beylə caninin,
Vicdanı, məsləyi, kölə caninin,
Salıb məşhur edin dilə caninin,
Kim satdı Vətəni ay Vətənoğlu.

Vətəni belə də satmaq olarmı?
El-obanı ucuz tutmaq olarmı?
Onu ayaq altda atmaq olarmı?
Kim satdı Vətəni ay Vətənoğlu?[343]

Bu necə insandır, ürəyi daşdır?
Arzusu, istəyi, diləyi çaşdır?
Qayğısı, yardımı, köməyi gecdir,
Kim satdı vətəni ay Vətənoğlu?

Vətən xainləri asılmalıdır,
Tutulub məhbəsə basılmalıdır,
Yolları, izləri kəsilməlidir,
Kim satdı vətəni ay Vətənoğlu?

---

[343] *II variant* Hər şey satılsada, vətən satılmaz,
O tullanıb ayaq altda atılmaz,
Qabaqlar tutulmaz, qaşlar çatılmaz,
Kim satdı Vətəni ay Vətənoğlu?

Vətən xainləri xar olasıdır,
Oyulub gözləri kor olasıdır,
Gendünya başına dar olasıdır,
Kim satdı vətəni ay Vətənoğlu?

Kim bais olubdu bu müsibətə?
Nadanlıq, avamlıq, bu cəhalətə,
Yol verib dəhşətə, bu fəlakətə,
Kim satdı Vətəni ay Vətənoğlu?

***Cəmil Əkbər*** 30.09 – 1993

## 226. SEVMİŞƏM

Gəlib gəzib el-obanı dolandım,
İnsanlarda etibarı sevmişəm,
Pərvanətək atəşlərə qalandım,
Könül açan novbaharı sevmişəm.[344]

Salsalar da məni dərdə, davaya,
Könül uymur yad ölkəyə, obaya,
Vurulubdur doğma yurda, yuvaya,
Vətənimi, xoş diyarı sevmişəm.[345]

Dostum yetiş haraya sən, kara sən,[346]
Gözəl pərim zülflərini dara sən,
Yalan yoxdur sözlərimi ara sən,
Doğru sözü, düz ilqarı sevmişəm.[347]

---

[344] *II variant* Seyr eyləyib el-obanı dolandım,
Etibarı, düz ilqarı sevmişəm,
Pərvanətək atəşlərə qalandım,
Tər qönçəli novbaharı sevmişəm.

[345] *II variant* Salsalar da məni qala, qovğaya,
Könül uymur yad ölkəyə, obaya,
O aşiqdir doğma yurda, yuvaya,
Vətən kimi xoş diyarı sevmişəm.

[346] Yetiş dostum haraya sən, kara sən.

[347] Mən özümə vəfadarı sevmişəm.

Uymamışam hər söhbətə, hər sözə,
İsinmədim hər atəşə, hər közə,
Mənasız, mənasız gülmədim üzə,
Bülbül kimi çəmənzarı sevmişəm.

Gərdan üstə tökülübdür teli xoş,
Bağçasında al-əlvandı gülü xoş,
Baxışı xoş, duruşu xoş, dili xoş,
O nigarı, o dildarı sevmişəm.[348]

İnsafımı atmamışam heç zaman,
Vicdanımı satmamışam heç zaman,
Aralığı qatmamışam heç zaman,
Namus, qeyrət, iftixarı sevmişəm.[349]

Od-ocaqsız könülləri qalama,
A nainsaf bağrım-başı talama,
Cəmil Əkbər qəlbim dözmür yalana,
Öz əhdinə vəfadarı sevmişəm.

***Cəmil Əkbər*** 27.03 – 1989

## 227. BİZİM ELLƏR

Səni görcək könül gülür,
Bizim ellər, bizim ellər.
Çiçəyin yerə səpilir,
Bizim ellər, bizim ellər.

Bağlarımız bar bitirir,
Alma, heyva, nar yetirir,

---

[348] *II variant* Gərdan üstə tökülübdür teli xoş,
Xoş avazlı zəbanı xoş, dili xoş,
Bağçasında ruha yatan gülü xoş,
Özüm üçün o nigarı sevmişəm.

[349] *II variant* İnsafımı atmamışam bir an da,
Vicdanımı satmamışam bir an da,
Aralığı qatmamışam bir an da,
Sevinc, fərəh, iftixarı sevmişəm.

Hər ilimiz var gətirir,
Bizim ellər, bizim ellər.
Sədasıza verir səfa,
Vəfasıza verir vəfa,
Xəstə qəlbə verir şəfa,
Bizim ellər, bizim ellər.

El-obanın yaylağısan,
Xəstə qəlbin saflığısan,
Mərd igidin oylağısan,
Bizim ellər, bizim ellər.

Başın nələr keçirmişdir,
Qoç igidlər yetirmişdir,
Vaxtsız oğul itirmişdir,
Bizim ellər, bizim ellər.

Köksün vüqarlı dolğundur,
Çiçəyin niyə solğundur?
Cəmil də sənin oğlundur,
Bizim ellər, bizim ellər.

***Cəmil Əkbər***

## 228. QANIRSAN

Ayıbdı ellərdən, ayıbdı gəda,
Nə namus, nə qeyrət, nə ar qanırsan.
Bədxahlıq eyləmə, çıxarma səda,
Nə tərlan, nə şahin, nə sar qanırsan.

Gözlərin yaxşını-pisi seçməyir,
Dumanı, tüsdünü, hisi seçməyir,
Gözəli, çirkini, nəsi seçməyir,
Nə tay-tuş, nə yoldaş, nə yar qanırsan.

Niyə öz-özünə şeşələnirsən?
Dartılıb, çəkilib, eşələnirsən,
Nifrətlər içində pöşələnirsən,
Nə halal bir tikə, nə var qanırsan.

Ürəyin bomboşdu, dayazdı, sərin,
Rahatdı mənzilin, istidi yerin,
Tutubdu naxışın, gətirib zərin,
Nə tufan, qasırğa, nə qar qanırsan.

Güzəran yaxşıdır, damağın çağdır,
Arvadın yanında üzün də ağdır,
Peysərdən qalınsan, canın da sağdır,
Nə hillət tanıyıb, nə zar qanırsan.

Ayıbdır, el görür, düşünür, qanır,
Nə olsun üzünə demir, utanır,
Düşüb alovuna şam kimi yanır,
Səməndər, pərvanə, nə nar qanırsan.

Meylini salmısan tvistə, caza,
Fitnəyə, fəsada aldanan qıza,
Çiçəkli bağlara, bülbüllü yaza,
Nə ilan, nə çayan, nə mar qanırsan.

Əlinə keçəni qırıb tökürsən,
Dağıdırsan, talayırsan, sökürsən,
Vüqarını, qamətini bükürsən,
Nə bağça tanıyıb, nə bar qanırsan.

Bir nəzər sal dağa, düzə, arana,
Cəmil kimi özlərini yorana,
Qəlb evini sən qoymusan virana,
Nə uçurum, gədik, nə tar qanırsan.

***Cəmil Əkbər***

## 229. CİBDƏDİR

Axtarma daş-qaşı, deyim yerini,
Ədalət də, həqiqət də cibdədir.
Əbəs yerə gəl ağrıtma sərini,[350]
Sədaqət də, səxavət də cibdədir.

---

[350] 1a Hədər yerə gəl incitmə sərini, 1b Hədər yerə əldən salma sərini, 1 c. Çox düşünüb əldən salma sərini.

Taleyindən gileylənmə, incimə,
Heçkimsəyə nə yaxarma, yoncuma,
Ora-bura çabalama, soncuma,
İnsanlıq da, ləyaqət də cibdədir.[351]

Odur, bilin ünsiyyətin əsası,
Həm özülü bünövrəsi, binası,
Eşit sözlərimi budur qısası,
İnsaf, mürvət, kəramət də cibdədir.[352]

Pulun yoxsa bu dünyadan öl, qurtar,
Gözyaşının leysanını sil qurtar,
Oxu, öyrən, bu dastanı bil qurtar,
Eşq-həvəs, məhəbbət də cibdədir.[353]

Dağ ürəklər onun ilə sıxılır,
Mərd igidlər onun ilə yıxılır,
Nəzir-niyaz onun ilə çıxılır,
İbadət də, ziyarət də cibdədir.

Əfəllərdə dövlət olmur, var olmur,
Dost-mehriban, qardaş olmur, yar olmur,
Adı-sanı el-obada car olmur.
Bacarıq da, məharət də cibdədir.[354]

---

[351] *II variant*
Taleyindən gileylənmib, incimə,
Heçkimsəyə nə yalvarma, yoncuma,
Ora-bura çabalayıb soncuma,
Sədaqət də, səxavət də cibdədir.

[352] *II variant*
Onsuz yoxdur ünsiyyətin əsası,
Əzəl gündən bünövrəsi, binası,
Həm məzmunu, həm mətləbi, qısası,
İnsaf, mürvət, kəramət də cibdədir.

*III variant*
Odur, bilin ünsiyyətin mərkəzi,
Öyüd sənə, nəsihətin mərkəzi,
Bu bəşərin, cəmiyyətin mərkəzi,
İnsaf, mürvət, kəramət də cibdədir.

[353] *II variant*
Pulun yoxsa bir dəfəlik öl, qurtar,
Öz dərdinə özün ağla, sil qurtar,
Oxu, öyrən, birdəfəlik bil qurtar,
Ülvi-istək, məhəbbət də cibdədir.

Odur, qardaş yer üzünün mehvəri,
Ürəklərin hökm eyləyən təpəri,
Damaqlara dad gətirən şəkəri,
Eyş-işrət də, səadət də cibdədir[355]

Pulun varsa tanınarsan hər yerdə,
İmtahanda sınanarsan hər yerdə,[356]
Sayılarsan, unanarsan hər yerdə,
Şan-şöhrət də, şərafət də cibdədir.[357]

Çox igidlər ümid oldu kamala,
Vicdan-məslək, əqidəyə, amala,
Nəzər saldı el-obaya, mahala,
Əvvəl-axır nihayət də cibdədir.

Güvənməynən kamalına gəl indi,
Əqidənə, amalına gəl indi,
Bu mənəvi camalına gəl indi,
İxtiyar da, sədarət də cibdədir[358]

---

[354] *II variant* Mürvətlidə dövlət olmur, var olmur,
Qohum olmur, qardaş olmur, yar olmur,
Nəolsunki yasar olmur, sar olmur?
Bacarıq da, məharət də cibdədir.

[355] *II variant* Odur, bilin yerin, göyün mehvəri,
Ürəklərin, diləklərin təpəri,
Gözəlliyin, qəşəngliyin şakəri,
Eyş-işrət də, səadət də cibdədir.

[356] Sayılarsan, seçilərsən hər yerdə.

[357] *II variant* Pulun olsa dağ da sana baş əyər,
Kol-kos nədir, bağ da sana baş əyər,
Xəstə nədir, sağ da sana baş əyər,
Şan-şöhrət də, şərafət də cibdədir.

[358] *II variant* Güvənməynən kamalına ay Cəmil,
Əqidənə, amalına ay Cəmil,
Bu mənəvi camalına ay Cəmil,
İxtiyar da, sədarət də cibdədir.

Heçkimsədən sovqat umma, pay umma,
Süfrə umma, çörək umma, çay umma,
Zaman keçir gözlərini gəl yumma,
Dözüm, durum, dəyanət də cibdədir.

Cəmil Əkbər çox aldanıb əzəldən,
Kam almayıb hər yetirən gözəldən,
Belə qərar verib özü düzəldən,
Hökm, fərman, bəyanat də cibdədir.

***Cəmil Əkbər*** 15. 09 – 1989

## 230. ZƏHMƏT

Onun sayəsində qurulur həyat,
Düzəlir toy-düyün, kef-damaq, büsat,
Tapırıq qurtuluş, tapırıq nicat,
Vəzndir, dəyərdir, qiymətdir zəhmət[359]

Dağları axtarıb arana düşmə,
Qərq olub tufana, borana düşmə,
Üz tutub hər səmtə, həryana düşmə,
Sağlam düşüncədir, niyyətdir zəhmət[360]

Onun sayəsində ucalırıq biz,
Zəfərlər çalırıq, bac alırıq biz,
Şərəfə çatırıq, tac alırıq biz,
Ən böyük səadət, şöhrətdir zəhmət[361]

---

[359] *II variant* Onunla qurulur bu gözəl həyat,
Xoş dövran, toy-düyün, kef-damaq, büsat,
Tapılır qurtuluş, tapılır nicat,
Vəzndir, dəyərdir, qiymətdir zəhmət.

[360] *II variant* Dağlara, daşlara borana düşmə,
Enişə, yoxuşa, arana düşmə,
İtirib huşunu, hər yana düşmə,
Sağlam düşüncədir, niyyətdir zəhmət.

[361] *II variant* Onun sayəsində bac alırıq biz,
Zirvəyə qalxırıq, ucalırıq biz,
Şərəfə çatırıq, tac alırıq biz,
Ən böyük səadət, şöhrətdir zəhmət

Odur insanları ürəkləndirən,
Cəsarətləndirən, zirəkləndirən,
Açıb gözlərini tüləkləndirən.
Ən gözəl ənənə, adətdir zəhmət[362]

Kim ki, bu mətləbi başa düşməsə?
Böyüyüb, boy atıb, yaşa düşməsə?
Etməyib bir tövbə, haşa düşməsə?
Ən ağır cəzadır, töhmətdir zəhmət[363]

---

*III variant*

Onun sayəsində yaşayırıq biz,
Həyatın yükünü daşıyırıq biz,
Hər işə, hər gücə başlayırıq biz,
Ən böyük səadət, şöhrətdir zəhmət.

*IV variant*

Onun sayəsində ucalır bəşər,
Yaşayır, yaradır, qocalır bəşər,
Zəfərlər çalaraq bac alır bəşər,
Ən böyük səadət, şöhrətdir zəhmət.

[362] *II variant*

Odur insanları ürəkləndirən,
Bacarıq verdirən, zirəkləndirən,
Açıb gözlərini tüləkləndirən,
Ən gözəl ənənə, adətdir zəhmət.

*III variant*

Odur insanları ürəkləndirən,
Gözünü açaraq zirəkləndirən,
Fəhimə gətirən, tüləkləndirən,
Ən gözəl vərdişdir, adətdir zəhmət.

*IV variant*

Odur insanları insan eyləyən,
Düşünüb dərk edib, qanan eyləyən,
Dünyada ən böyük loğman eyləyən,
Ən gözəl vərdişdir, adətdir zəhmət.

[363] *II variant*

Kim ki, bu mətləbi başa düşməsə?
Xəyala düşməsə, huşa düşməsə?
Dərk edib, anlayıb, haşa düşməsə?
Ən ağır cəzadır, töhmətdir zəhmət.

*III variant*

Kim ki, bu mətləbi başa düşmədi?
Qaynayıb, dəm alıb, aşa düşmədi?
Etmədi bir tövbə, haşa düşmədi?
Ən ağır cəzadır, töhmətdir zəhmət.

Eşidib Cəmili al nəsihəti,
Gözəl əmanəti, bu zəmanəti,
Deyir həqiqəti qətidir-qəti,
Xətirdir, hörmətdir, izzətdir zəhmət.

***Cəmil Əkbər*** 22-25 // 10 – 1985

## 231. ŞAHİDDİR

Kim necə yaratdı, necə qurdusa?
Vicdanı, məsləyi, özü şahiddir.
Necə oturdusa, necə durdusa?
Öz yolu şahiddir, izi şahiddir.

Kim necə hərləndi, necə gəzdisə?
Necə dərk eylədi, necə sezdisə?
Necə səbr eylədi, necə dözdüsə?
Oğulu şahiddir, qızı şahiddir.

Heçkim deməsin ki, hamıdan düzəm?
Hamıdan dərinəm, dayazam, üzəm?
Hamıdan dadlıyam, tamlıyam, duzam?
Qolları, qılçası, dizi şahiddir.

Deməsin hamıdan karlı tək mənəm,
Almalı, heyvalı, barlı tək mənəm,
Namuslu, qeyrətli, arlı tək mənəm,
Enişi, yoxuşu, düzü şahiddir.

Sanmasın özünü nar doğulubdur,
İnci doğulubdur, zər doğulubdur,
Nurani, ağsaqqal, pir doğulubdur,
Astarı şahiddir, üzü şahiddir.

Deməsin hamıdan əsərli mənəm,
Faydalı, xeyirli, səmərli mənəm,
Qılıncı, qalxanı kəsərli mənəm,
Söhbəti şahiddir, sözü şahiddir.

***Cəmil Əkbər*** 25. 05 – 1991

### 232. ÇOXDUR

Dünyada nəqədər kamallı varsa?
Sarsağı, axmağı, gici də çoxdur.
Vicdanlı, məsləkli, amallı varsa?
Xaini, xəbisi, kəci də çoxdur.

İnsanın nəqədər səlimi varsa?
Mülayimi varsa, həlimi varsa?
Tərbiyəsi varsa, təlimi varsa?
İnadı, höcəti, öcü də çoxdur.

Atadan, anadan düz olan da var!
Dərin doğulan da, üz olan da var!
Darıxıb, karıxıb, tez olan da var!
Hiyləgər, dələduz, bici də çoxdur.

Hamı öz yerində cağbacağ deyil,
Bir anbar, bir şələ, bir qucaq deyil,
Müqəvvasayağı oyuncaq deyil,
Günahı da çoxdur, suçu da çoxdur.

***Cəmil Əkbər***

### 233. SƏNDƏN

Toxunma insanın mənafeyinə,
Toxunsan inanki, küsəcək səndən,
Azadlıq, xoşbəxtlik, səadətinə,
Gedib-gəlmişini kəsəcək səndən.

Qiymət ver hərkəsin ləyaqətinə,
Əhdinə, andına, sədaqətinə,
Toxunma hissinə, hissiyatına,
Əlini-əlindən üzəcək səndən.

Birkəsin itirmə haqq-sayını,
Ənamını, sovqatını, payını,
Bir istəkan, bircə qaşıq çayını,
İtirsən ağzını büzəcək səndən.

Gözyumma heçkəsin məharətinə,
Qocaqlıq, zirəklik, fərasətinə,
İnsafı, mürvəti, kəramətinə,
Gözünü ox kimi süzəcək səndən.

Deməki, heç kimə qanası deyil?
Nəqədər qalasan yanası deyil?
Axtarıb, arayıb, anası deyil?
Hiss edib duyacaq, sezəcək səndən.

Çalış ki, heçkəsin xətrinə dəymə,
Vüqarını qırıb, qəddini əymə,
Baxıb əməlinə gözünü döymə,
Dözməyib, inciyib-bezəcək səndən.

***Cəmil Əkbər*** 27. 09 -1991

## 234. GÜC ALDI

Kimin ki, başında kamalı vardır?
Ədalətdən, həqiqətdən güc aldı.
Əqidə, məsləyi, amalı vardır?
İnsanlıqdan, ləyaqətdən güc aldı.

Kimin ki, qəlbində ədavət yoxdur?
Paxıllıq, xainlik, xəyanət yoxdur?
Kindən uzaq durub, küdurət yoxdur?
Eşq-həvəs, məhəbbətdən güc aldı.

Kimsənin ki, bəd olmayıb əməli?
Möhkəm olub bünövrəsi, təməli?
Əsl insan odur qardaş, deməli?
Pak arzudan, saf niyyətdən güc aldı.

Bir kimsəki tək özünü sevmədi?
Astarını, tək üzünü sevmədi?
Öz oğlunu, öz qızını sevmədi?
Bu bəşərdən, cəmiyyətdən güc aldı.

Kiminki, qəlbində mehribanlıq var?
Yaxşılıq, həlimlik, istiqanlıq var?
Fəzilət nişanı, xeyirxahlıq var?
İnsaf-mürvət, kəramətdən güc aldı.

***Cəmil Əkbər*** 29. 09 – 1991

## 235. VƏZİFƏ

Sən mənimlə, mən səninlə olaydım,
Dolanıb gəzəydik qoşa, vəzifə.
Bir yerdə açılıb, birgə solaydıq,
Qonaydıq hərzaman başa, vəzifə.

Cığırı düz gedə, yolu düz gedə,
Sağı yanılmaya, solu düz gedə,
Qajlardan adlayıb, qolu düz gedə,
İlişib dəyməyə daşa, vəzifə.

İnsan gündən-günə ucala bilə,
Şərəflə yaşayıb qocala bilə,
Ellərdən daima güc ala bilə,
Sellənib, qaynayıb daşa, vəzifə.

Enişdə, yoxuşda hey dözə-dözə,
Onunla çəkəydik kef-damaq, məzə,
Həmişə bizimlə barmaqda gəzə,
Salına üzüyə, qaşa, vəzifə.

Onsuz düz gedənmir karvanımız da,
Sayılmır, seçilmir sarvanımız da,
Tapılmır dərdlərə dərmanımız da,
Qoymayaq azacıq çaşa, vəzifə.

Gəlin bu varlığın qədrini bilək,
Onunla şənlənək, onunla gülək,
Onunla yaşayıb, onunla ölək,
Düşməsin borana, qışa vəzifə.

Olmasa hörmət də, izzət də yoxdur,
Şərafət də yoxdur, şöhrət də yoxdur,
Mənəvi gözəllik, surət də yoxdur,
Yaraşır xəyala, huşa vəzifə.

Onunla yaşayıb, bir yerdə qalsaq,
Bir yerdə düşünüb xəyala dalsaq,
Ömür karvanını bir yola salsaq,
Gələrdik hərzaman xoşa vəzifə.

Zirvədən, mövqedən enməyəydik kaş,
Qaralıb, qarsıxıb, sönməyəydik kaş,
Hakim divanında dinməyəydik kaş,
Gətirə insanı çoşa vəzifə.

***Cəmil Əkbər*** 8. 10 -1995

## 236. O ÖYRƏTDİ

O öyrətdi bizlərə ədalətli olmağı,
Sədaqətlə yaşayıb, səxavətli olmağı.
O öyrətdi bizlərə mərhəmətli olmağı,
İşgüzarlıq göstərib məharətli olmağı.
O öyrətdi bizlərə cəsarətli olmağı,
İşdə-gücdə, hünərdə, fərasətli olmağı.
O öyrətdi bizlərə yaratmağı, qurmağı,
Ömür-günü axıra, mərifətlə vurmağı.
O öyrətdi bizlərə ləyaqəti görməyi,
Doğruluğu, düzlüyü, həqiqəti görməyi.
O öyrətdi bizlərə səadətə çatmağı,
Saf arzuya, istəyə, pak adətə çatmağı.
O öyrətdi bizlərə məlahətli olmağı,
Bərkdə, boşda, çətində, dəyanətli olmağı.
O öyrətdi bizlərə qardaşlığın yolunu,
Mehribanlıq etməyi, yoldaşlığın yolunu.
O öyrətdi bizlərə ucalmağın yolunu,
Zəfərləri qazanıb, bac almağın yolunu.
O öyrətdi bizlərə çətinliyə dözməyi,
Sinə gərib hər işdə, mətinliyə dözməyi.
O öyrətdi bizlərə cəmiyyətin yolunu,
Ünsiyyətdə, ülfətdə fəzilətin yolunu.

***Cəmil Əkbər***

## 237. GÖRMƏMİŞƏM

Nifrət eyləyirəm özüm-özümə,
Səni düz tanıyıb, düz görməmişəm.
Eşidən qulağım, görən gözmə,
Yaman gecikmişəm, tez görməmişəm.

Heyıf ki, mən səni gec anlamışam,
Yerini səhv salıb, kəc anlamışam,
Sarsaq anlamışam, gic anlamışam,
Tamını anlayıb, duz görməmişəm.

Vicdanı kəm-kəsir, qəlbi soyuqsan,
Müqəvvasayağı yazıq, oyuqsan,
Sanan kimdi çox həssasan, duyuqsan?
Qəlbində hənirti, köz görməmişəm.

***Cəmil Əkbər***

## 238. QƏMKEŞ

Mən necə yaradım hikmətli sözü?
Axı söz gedirmi söz qiymətinə?
Zaman seçə bilmir yaxşını pisdən,
Çox astar satılır üz qiymətinə.

Ola mərhəməti, haq-divan hanı?
Ayıra biləydi yaxşını-pisdən.
Veriblər nadana zəri-zibanı,
Alıb-sata bilmir düz qiymətinə.

Xəyalım qəmlərdən heç olmur ayaz,
Sınasan qələmim, nə yarat, nə yaz.
Qəmkeş gəl çullama, ulağa atlas,
Onu da salacaq öz qiymətinə.

***Cəmil Əkbər***

## 239. DANMIRAM

Zəhləm gedir açığını deyim mən,
Diriikən ölənlərdən danmıram.
İstəyirəm nifrət ilə söyüm mən,
Ona-buna gülənlərdən danmıram.

Aram yoxdu düz yolunu azandan,
Ona-buna dərin quyu qazandan,
Şər danışıb, fitnə-fəsad yazandan,
Mövqeyindən enənlərdən danmıram.

Veyil-veyil gəzənlərdən bezirəm,
Ürəkləri üzənlərdən bezirəm,
Hər əzaba dözənlərdən bezirəm,
Yana-yana sönənlərdən danmıram.

***Cəmil Əkbər***

## 240. ÇƏKİRSƏN

Ey mahir tələbəm, ey əziz Kərəm,
Nə qüssədi, nə kədərdi çəkirsən?
Mən də sənin kimi çox mükəddərəm,
Elin dərdi bir hünərdi çəkirsən.

Aqranomsan bağlar salıb, bar becər,
Zəhmət çəkib dövlət saxla, var becər,
Ailə qur, övlad qazan, yar becər,
Bu qanundu, nə qəhərdi çəkirsən?

Abır, həyan yanaqdadır a dostum,
Həyat yolun qabaqdadır a dostum,
Hələ dərdin uzaqdadır a dostum,
Oyanmısan, bu səhərdir çəkirsən.[364]

Mərd oğulsan sinəni gər çətinə,
Xələli gətirmə pak hörmətinə,
Arxalan hərzaman öz zəhmətinə,
Haqq, ədalət bir nəhrdir çəkirsən.[365]

---

[364] *II variant* Həyat yolun qabaqdadır a Kərəm!
Abır, həyan yanaqdadır a Kərəm!
Zəfərlərin qabaqdadır a Kərəm!
Oyanmısan, bu səhərdir çəkirsən.

[365] *II variant* Oğul gərək sinə gərə çətinə,
Şan-şöhrət gətirsin öz hörmətinə,
İnansın işinə, öz qüvvətinə,
Haqq, ədalət bir nəhrdir çəkirsən.

Cəmiləm xoşladım haqq, ədaləti,
Görmək istəmirəm mən cəhaləti,
Nadanlıq, avamlıq, nə qəbahəti,
Görünür ki, bu təhərdir çəkirsən.[366]

***Cəmil Əkbər*** 5. 04 - 1975

## 241. AY MARAL!

Gülümsəyən gözlərinə baxmaqdan, [367]
Olmamışam mən biganə, ay Maral!
Çatmaz mənə eşq oduna yanmaqdan,
Nə Səməndər, nə Pərvanə ay Maral!

Könül quşum pərvaz edir uzaqdan,
Ətirini soraqlayır sazaqdan,
Uzaq gəzmə mənim kimi yazıqdan,
Etmə məni sən divanə, ay Maral. [368]

Çox çalışdım danışmayım sözümü,
Xar etməyim el içində özümü,
Çəkdimsə də nəzərimi, gözümü,
Könlüm qaldı müşgül, məlil ay Maral.

Saç ağarıb, qar yağıbdı başıma,
Bilirsənmi necə gəldin xoşuma?
Mərhəmət qıl, bir qida ver huşuma,
Nə qəm çəkim, nə də nisgil, ay Maral.

---

[366] *II variant* Cəmil Əkbər ədaləti xoşlayır,
Doğru-düzlük həqiqəti xoşlayır,
İnsanlığı, ləyaqəti xoşlayır,
Görünür ki, bu təhərdir çəkirsən.

[367] Məlahətli gözlərinə baxmaqdan.

[368] *II variant* Könlüm quşu pərvaz edir uzaqdan,
Ətirini ala bilmir sazaqdan,
Qisas alıb mənim kimi yazıqdan,
Eyləməynən qəlbi zəlil ay Maral.

Kam almadım ülfətindən, əlindən,
Bülbül kimi vəcdə gəldim gülündən,
Bal bələnmiş dodağından, dilindən,
Nə mən doydum, nə də Cəmil, ay Maral.

***Cəmil Əkbər*** 10-20 // 05 - 1975

## 242. NECƏDİR?

Salam olsun sənə, əziz Mehdixan,
Sizin yerin oylaqları necədir?
O gözəl yurdunuz yadımdan çıxmaz,
Elinizin yaylaqları necədir?

Çəmənlik içində odlu lalələr,
Üstünə səpilən zərif jalələr,
Daşlardan tökülən gur şəlalələr,
Sərin sulu buz bulaqlar necədir?

Zoğ atıbmı "cacıq"ları, bandağı?
"Yolotu"su, "gicitkan"ı, "qıcı"sı?
Dadmısanmı "türpəng"lərin acısı?
"Baldırğan"lar, "quzqulaq"lar necədir?

Eşidəydim "hop-hop"unun səsini,
"Nənəcüy"ün, "bildirçin"in səsini,
Qıy vuranda "qartal"ların səsini,
"Şahin"ləri, "tərlanlar"ı necədir?

Bahar fəsli çoxalırmı şənliyi?
Ötüşürmü qayalarda kəkliyi?
Qaçışırmı bərəlgədən əliyi?
"Dağkeçi"si, " Ceyran"ları necədir?

Şairləri təzə şeir qoşurmu?
Yağış yağıb sellər, sular daşırmı?
Dərələrdən, təpələrdən aşırmı?
Yaşıl meşə, göy talalar necədir?

Salam söylə tanışlara, yoldaşa,
Dost-müsahib, nəki varsa qardaşa,
Həmkarlara, həmdəmlərə, sirdaşa,
Qardaş oğlu, gül balalar necədir?

De gəlirmi Qardaşxanın avazı?
Sizin kəndsoveti çalırmı sazı?
Kürdün gözəlləri çəkirmi nazı?
İgidlərin əhvalları necədir?

***Cəmil Əkbər***

## 243. VARMI HEÇ?

Lovğalanıb öz-özünə öyünmə,
Gör məzmunun, məziyyətin varmı heç?
Ənliklənib, kirşanlanıb söyünmə,
Abır-həyan, gör ismətin varmı heç?

Çox aldanma bəzəyinə, formana,
Hər təbibə, hər həkimə, loğmana,
Hər bir hökmə, hər əmirə, fərmana,
Yaşamağa ləyaqətin varmı heç?

İnsanlıqdan olubdurmu xəbərin?
Ona-buna dəyməyibki xətərin?
Görən-bilən deməyibki afərin?
Dəyanətin, qətiyyətin varmı heç?

Yedin-içdin el-obanın varından,
Almasından, heyvasından, narından,
Təzəcə bəslənmiş ilk nübarından,
Sədaqətin, səxavətin varmı heç?

Etmisənmi kimsələrə köməyi?
Çəkmisənmi azdan-çoxdan əməyi?
Məhəbbətlə coşdurdunmu ürəyi?
Arzuların, saf niyyətin varmı heç?

Duymusanmı ürəyini canında?
Təpər varmı cövlan edən qanında?
Ləl-cəvahir tapılarmı kanında?
Dəyər-dəyməz, öz qiymətin varmı heç?

Ömürboyu yedin-içdin dolandın,
Becərildin, bəslənildin, sulandın,
Tamahına, nəfsinə də allandın,
Bəşər üçün de xidmətin varmı heç?

Əsəbləri korladıqca bildinmi?
Ürəkləri qorladıqca bildinmi?
Bərkə salıb zorladıqca bildinmi?
Şərafətin, şəxsiyyətin varmı heç?

Üzə gülüb ayaq altdan qazdıqca,
Şər danışıb, böhtanları yazdıqca,
Məsləyindən uzaşdıqca, azdıqca,
Kəmiyyətin, keyfiyyətin varmı heç?

Günlərini keçirdikcə kef ilə,
Oğrun-oğrun qazanc ilə, nəf ilə,
Barışdıqca saxtalıqla, səhv ilə,
Anladınmı, aqibətin varmı heç?

El varından selləndikcə, daşdıqca,
Hüdudunu, sərhəddini aşdıqca,
Vəcdə gəlib qızışdıqca, coşduqca,
Hiss etdinmi, xəcalətin varmı heç?

Güclülərə əyilməkdən doymadın,
Arxasından söyülməkdən doymadın,
Nifrət ilə döyülməkdən doymadın,
El yanında de hörmətin varmı heç?

Ay acgözlər, tamahkirlər, hərislər,
Mərdimazar, paxıl, xain, xəbislər,
A eybəcər, a çirkinlər, a pislər,
Vicdan, məslək, kəramətin varmı heç?

***Cəmil Əkbər*** 25.05 – 1979

## 244. AYIBDIR

Saman altda su əndərmə, calama,
Düşən olar, batan olar, ayıbdır.
Hər yetəni barmağına dolama,
Qəflətində yatan olar, ayıbdır.

Bəd işinlə qürrələnmə, öyünmə,
Ədalanma, lovğalanma, söyünmə,
Sondan-sona peşman olub deyinmə,
Ölən olar, itən olar, ayıbdır.

Yoxdu bu dünyanın behi-bazarı,
Bir də gördün peyda oldu azarı,
Çox eyləsən üzün-gözün qızarı,
Alan olar, satan olar, ayıbdır.

Hər əmələ meyl salma, yollanma!
Tamahına, nəfsinə də, aldanma!
Ümid olub dayılara daldanma!
Qovan olar, tutan olar, ayıbdır.

Nəyi əksən biçəcəksən, bilginən,
Gözlərini bir yaxşıca silginən,
Doğru yola, düz ilqara gəlginən,
Baş qaldırıb, bitən olar, ayıbdır.

Qan qaraldıb əsəbləri korlama,
Evlər yıxıb, ürəkləri qorlama,
Hissimizi-həyəcanı sorlama,
Xəsarətin, xatan olar, ayıbdır.

Hər yetənə yerli-yersiz sataşma,
Qapısına, bacasına daş atma,
Qəlb evində iblisləri yaşatma,
Baban olar, atan olar, ayıbdır.

Yerli-yersiz ədalanmaq nə lazım?
Dilə düşüb, sədalanmaq nə lazım?
Dəbdən-dəbə modalanmaq nə lazım?
Səni keçib ötən olar, ayıbdır.

***Cəmil Əkbər*** 3. 06 – 1988

## 245. AYIBDIR

İnsanoğlu bir-birini bezdirmə,
Ədəb-ərkan, mərifətdən ayıbdır.
Cəhənnəmin əzabına dözdürmə,
İnsaf, mürvət, kəramətdən ayıbdır.

Ünsiyyəti, ülfətləri pozma gəl,
Düz fikiri tərsəməssəb yozma gəl,
Ayaq altdan dərin quyu qazma gəl,
İnsanlıqdan, ləyaqətdən ayıbdır.

Danışanda diqqət yetir dilinə,
Hörmət qoyub bir nəzər sal elinə,[369]
Bel bağlama fitnə-fəsad felinə,
Ədalətdən, həqiqətdən ayıbdır.

Unutmaynan ibadəti dünyada,
Kəbəmizi, ziyarəti dünyada,
Haqdan gələn ənaəti dünyada,
Quran, kitab, şəriətdən ayıbdır.

Vicdana, məsləyə dönüklük etmə,
Biganəlik etmə, sönüklük etmə,
Hər səmtə üz tutub yönüklük etmə,
Sədaqətdən, səxavətdən ayıbdır.

Çalış ləkə salma təmiz adına,
Nə cavab verərsən qohum, yadına,[370]
De kim çatar harayına, dadına?
Şan-şöhrətdən, şərafətdən ayıbdır.

Deməsinlər anlamayır, qanmayır,
Dünya yansa, bir tükü də yanmayır,
Haqq-sayı yada salmır, anmayır,
Mehri-ülfət, nəzakətdən ayıbdır.

---

[369] *"Danışanda diqqət yetir dilinə, Hörmət qoyub bir nəzər sal elinə"*, bu beyt Cəmil Əkbərin "Hayıf olar" rədifli şeirində də var.

[370] *"Çalış ləkə salma təmiz adına, Nə cavab verərsən qohum, yadına",* bu beyt Cəmil Əkbərin "Hayıf olar" rədifli qoşmasında da var.

Sanma ki, hər şeyin biləndərisən,
Alimi, loğmanı, qələndərisən,
Sərrafı, xarratı, çilingərisən,[371]
Bu bəşərdən, cəmiyyətdən ayıbdır.

Bir-birini yamanlayıb pis demə!
Bədxah, zalım, qəddar demə, nəs demə!
Get-gəlişi, ənaəti kəs demə!
Ülvi-istək, məhəbbətdən ayıbdır.

***Cəmil Əkbər***

## 246. AYIBDIR

Arvadı yanında sözü keçməyən,
Gəlib el yanında kişilənməsin.
Zalımlar yanında məzlumluq edən,
Məzlumlar yanında şeşələnməsin.

Heçkimsə çaşmasın öz sənətində,
Həyat yollarının səadətində,
Öz işi, əməli, öz adətində,
Nalbənd zərgər olub peşələnməsin.

Milləti, millətə haçalayanlar,
Sərhəddi sərhəddə parçalayanlar,
Həyat yollarında hecalayanlar,
Çəkilib bir küncə guşələnməsin.

Şər danışıb fitnə-fəsad deyənlər,
Qazanmamış el varını yeyənlər,
Çalıb-çapıb al qumaşlar geyənlər,
Bəzəklə, düzəklə şüşələnməsin.

İnsafını, vicdanını atanlar,
Qəflətə qərq olub gedib yatanlar,
Yaxşıya-pis, pisə-yaxşı qatanlar,
Ulduza dartılıb eşələnməsin.

---

[371] *"Sanma ki, hər şeyin biləndərisən, Alimi, loğmanı, qələndərisən, Sərrafı, xarratı, çilingərisən"* bu üç misralar "İnsanoğlu insanlarla yola get" şerində olduğu kimi var.

Oğrunu-əyrini kalan görəndə,
Xalqın qazancını talan görəndə,
İnsan xilqətində yalan görəndə,
Cəmil Əkbər necə pöşələnməsin?

***Cəmil Əkbər*** 22. 07 -1976

## 247. DUYMAMIŞAM

Vaxt var idi, cavan idim,
Qocaları duymamışam.
İndi daha qocalmışam,
Cavanları duymamışam.

Vaxt var idi, güclü idim,
Gücsüzləri duymamışam.
Vaxt yetişdi gücsüz oldum,
Güclüləri duymamışam.

Vaxt olub ki, varlı idim,
Varsızları duymamışam,
Vaxt olub ki, varsız oldum,
Varlıları duymamışam.

Vaxt olub ki, qanan idim,
Qanmazları duymamışam.
Vaxt olub ki, qanmaz oldum,
Qananları duymamışam.

Vaxt olub ki, mən görmüşəm,
Mən korları duymamışam.
Vaxt olub ki, mən kor oldum,
Gözlüləri duymamışam.

Vaxt olub ki, mən gülmüşəm,
Ağlayanı duymamışam,
Vaxt olub ki, ağlamışam,
Gülənləri duymamışam.

***Cəmil Əkbər***

## 248. HƏRƏ BİR YOLDA, BİR YANDA

Biri ağa, biri kölə,
Hərə bir yolda, bir yanda.
Biri gədə, biri lələ,
Hərə bir yolda, bir yanda.

Biri qədək, biri pilə,
Biri elə, biri belə,
Çoxunu demirəm hələ,
Hərə bir yolda, bir yanda.

Biri ayaq, biri başdır,
Biri kəcdir, biri çaşdır,
Biri zordur, biri xoşdur,
Hərə bir yolda, bir yanda.

Biri arif, biri naşı,
Biri arvad, biri kişi,
Ətəyindən tökmür daşı,
Hərə bir yolda, bir yanda.

Biri sadə, biri xudbin,
Biri qəmgin, biri nikbin,
Biri xürrəm, biri bədbin,
Hərə bir yolda, bir yanda.

Biri bəmdir, biri zildir,
Biri tikan, biri güldür,
Biri yükdür, biri şəndir,
Hərə bir yolda, bir yanda.

Biri dayaz, biri dərin,
Biri isti, biri sərin,
Biri acı, biri şirin,
Hərə bir yolda, bir yanda.

Biri dinir, biri susur,
Biri coşur, biri əsir,
Biri yeyir, biri qusur,
Hərə bir yolda, bir yanda.

Biri karlı, biri karsız,
Biri arlı, biri arsız,
Biri barlı, biri barsız,
Hərə bir yolda, bir yanda.

Biri nahaq, biri haqdır,
Biri vardır, biri yoxdur,
Biri azdır, biri çoxdur,
Hərə bir yolda, bir yanda.

Biri şikayət törədir,
Biri cinayət törədir,
Salıb ədavət törədir,
Hərə bir yolda, bir yanda.

Biri hörmətə layiqdir,
Biri hiddətə layiqdir,
Biri nifrətə layiqdir,
Hərə bir yolda, bir yanda.

Biri yaxşı, biri pisdir,
Biri qızıl, biri misdir,
Biri bədxah, biri nəsdir,
Hərə bir yolda, bir yanda.

Biri çoxdur, biri azdır,
Biri kaman, biri sazdır,
Biri qışdır, biri yazdır,
Hərə bir yolda, bir yanda.

Biri dəymiş, biri kaldır,
Biri insan, biri maldır,
Biri doşab, biri baldır,
Hərə bir yolda, bir yanda.

Biri axdı, biri doldu,
Biri qovğa, biri qaldı,
Biri açdı, biri soldu,
Hərə bir yolda, bir yanda.

Biri şöhrətlə yaşadı,
Biri qeyrətlə yaşadı,
Biri möhnətlə yaşadı,
Hərə bir yolda, bir yanda.

Biri hiylə, biri bicdir,
Biri xain, biri kəcdir,
Biri mömin, biri öcdür,
Hərə bir yolda, bir yanda.

Biri dayaz, biri üzdür,
Biri əyri, biri düzdür,
Biri tirmə, biri bezdir,
Hərə bir yolda, bir yanda.

Biri duyur, biri sezir,
Biri yazır, biri yozur,
Biri batır, biri üzür,
Hərə bir yolda, bir yanda.

Biri dostdur, biri düşmən,
Biri incik, biri peşman,
Biri sısqa, biri şişman,
Hərə bir yolda, bir yanda.

Biri doğma, biri ögey,
Biri güney, biri quzey,
Biri həyat, biri muzey,
Hərə bir yolda, bir yanda.

Biri sevib sevilməkdə,
Biri daim söyülməkdə,
Biri yolu əyilməkdə,
Hərə bir yolda, bir yanda.

Biri işdə çalışmaqda,
Gecə-gündüz vuruşmaqda,
Biri küsüb barışmaqda,
Hərə bir yolda, bir yanda.

Biri iri, biri xırda,
Biri bəsdə, biri girdə,
Biri orda, biri burda,
Hərə bir yolda, bir yanda.

Biri güclü, biri gücsüz,
Biri vecli, biri vecsiz,
Biri suçlu, biri suçsuz,
Hərə bir yolda, bir yanda.

Cəmil, çata hamı dada,
Yetişə arzu, murada,
Şərəfə, şöhrətə, ada,
Hərə bir yolda, bir yanda.

***Cəmil Əkbər*** 19. 01 – 1991

## 249. YADA SALIN

Qafil olma insanoğlu,
Naqis olma, zail olma.
Haqq-sayı unutmayın,
Süfrə, nanı yada salın.

Çox da demə mənəm-mənəm,
Çəmən, çiçək, ya gülşənəm,
Şehəm, jalə, ya şəbnəməm,
Gövhər-kanı yada salın.

Unutmayın ayı, ili,
Qərinəni, əsrləri,
Nə həftəni, nə fəsili,
Bircə anı yada salın.

Gendünyanı daraltmayın,
Al-qanları qaraltmayın,
Gül rəngini saraltmayın,
Qara qanı yada salın.

Dünya sənə dar olmasın,
Qoy gözlərin tor olmasın,
Arzun sənin sar olmasın,
Tanı, tanı yada salın.

Dodağını büzmə bala,
Qaş-gözünü süzmə bala,
Gəl özünü üzmə bala,
Canı, canı yada salın.

El çal-çağır, sən sazəndə,
El toy-bayram, sən xanəndə,
El ustaddır, sən danəndə,
Adı-sanı yada salın.

***Cəmil Əkbər***

## 250. YAPIŞ

İstəsənki yatmayasan qəflətdə,
Fəhmdən, nəzərdən, diqqətdən yapış.
Qərq olaraq batmayasan qəflətdə,
Zəhmətdən əl çəkmə, xidmətdən yapış.

Günahlara batmayasan cahanda,
Şux gəzəsən bu dövranda zamanda.
Unutmaynan haqq-sayı bir anda,
Məzmundan, mənadan, hikmətdən yapış.

Uymayasan fitnələrə, fellərə,
Düşməyəsən qasırğaya yellərə,
Getməyəsən daşqınlara, sellərə,
Abırdan, həyadan, ismətdən yapış.

Dolanasan el içində həyalı,
Vicdan-məslək əqidəsi qayəli,
Alnıaçıq, qədəmləri səyalı,
Arzudan, istəkdən, niyyətdən yapış.

Ona-buna həsəd çəkib darılma,
Qol-qılçaya, ayağına sarılma,
İçin-için nə çürümə, qırılma,
Hünərdən, təpərdən riqqətdən yapış.

Qınamasa oba səni, el səni,
Ötüb keçən aylar səni il səni,
Dəhan səni, dodaq səni, dil səni,
Nicatdan əl çəkmə, nüsrətdən yapış.

İstəsənki tamah səni yıxmasın,
Xəta-bəla ürəyini sıxmasın,
Qənim olub, axırına çıxmasın,
İnsaf, kərəmdən, mürvətdən yapış.

İstəsənki uca olsun başınız,
Çatılmasın qabağınız, qaşınız,
Atılmasın birdəfəlik daşınız,
Şərafətdən yapış, şöhrətdən yapış.

Eşidəsən, anlayasan Cəmili,
Götürəsən nəsihəti, dəlili,
Olmayasan günahının zəlili,
Dəyərdən uzaşma, qiymətdən yapış.

***Cəmil Əkbər*** 16. 01 – 1991

## 251. BAŞLARA

*I variant*

Deyib danışmağa söz əsər etmir,
Kəmağıl, kütbeyin, o key başlara.
Çatıb hədəfinə düz kəsər etmir.
Sərsəri, gicbəsər, o səy başlara.

Düşüncə, dərrakə, kamal sığışmır,
Əqidə yerləşmir, amal sığışmır,
Mənəvi gözəllik, camal sığışmır,
O ərdöy başlara, o döy[372] başlara.

[372] Döy – dev

Namus da, qeyrət də, ar da mat qalıb,
Tay-tuş da, yoldaş da, yar da mat qalıb,
Tərlan da, şahin də, sar da mat qalıb,
Yetişmək bilməyən o göy başlara.

Gücümüz çatmayır alışdırmaqla,
İşə gətirməyə çalışdırmaqla,
Sədaqət calayıb, culaşdırmaqla,
Ədəbə-ərkana, o çiy başlara.

Neyləsin dəftərim, kitabım ona?
Xahişim, minnətim, xitabım ona?
Nəqədər yesə də "qutab"ım, ona?
Haqq-say bilməyən, o zay başlara.

***Cəmil Əkbər*** 20. 01 – 1991

## 252. BAŞLARA

*II variant*

Nəqədər desən də söz əsər etmir, [373]
Kütbeyin, sərsəri o key başlara.
Nə bir fayda vermir, nə səmər etmir,
Gicbəsər başlara, o səy başlara.

Nə idrak düşüncə, kamal sığışdı,
Nə məslək, əqidə, amal sığışdı,
Nə oba yerləşdi, mahal sığışdı,
O ərdöy başlara, o döy başlara.

Kamal dünyasının varını almır,
Dərib meyvəsini, barını almır,
Almasın xoşlamır, narını almır,
Nə deyim kal qalan o göy başlara.

[373] Nəqədər söz desən heç əsər eyləmir.

Təfəkkür, təxəyyül, ağıl neyləsin?
Dastanlar söylənsin, nağıl neyləsin?
Xəbərçi neyləsin, çuğul neyləsin?
Dəngəsər başlara, o çiy başlara.

Nəqədər desən də iz sala bilmir,
Bir ocaq yandırıb, köz sala bilmir,
Fikiri, xəyalı düz sala bilmir,
O xarab, o çürük, o zay başlara.

Biti-bozbaş, aşxanalar yaraşır,
Yemək-içmək, xaşxanalar yaraşır,
Karxanalar, daşxanalar yaraşır,
Yağlı peysərlərə, o piy başlara.

Bir güllə lazımdır vurub gedəsən,
Dəlib çanağını, qırıb gedəsən,
Yanında bircə an durub gedəsən,
Müqəvva başlara, o şöy başlara.

***Cəmil Əkbər*** 20. 01 – 1991

## 253. NƏYİ PİSDİKİ?

Gəlin zəhmət çəkək nemət bol olsun,
Nemət bolluğunun nəyi pisdiki?
Qazanaq, artıraq sərvət bol olsun,
Sərvət bolluğunun nəyi pisdiki?

Göstərək Vətənə layiq xidməti,
Tökək tərimizi, çəkək zəhməti,
Yaradaq dünyada şanı-şöhrəti,
Şöhrət bolluğunun nəyi pisdiki?

Hər insanoğluna hörmət eyləyək,
Kəramət göstərək, mürvət eyləyək,
Ar-namus göstərək, qeyrət eyləyək,
Hörmət bolluğunun nəyi pisdiki?

Gəlin hərbir işdə hünər göstərək,
Qələbə qazanaq, zəfər göstərək,
Nurlu gələcəyə səfər göstərək,
Hünər bolluğunun nəyi pisdiki?

Doğru fikirləşək, düzünü deyək,
Yolunu göstərək, izini deyək,
Astarını deyək, üzünü deyək,
Düzünü deməyin nəyi pisdiki?

Gəlin doğru görüb, düz fikirləşək,
Doxsan fikirləşək, yüz fikirləşək,
Oğul fikirləşək, qız fikirləşək,
Həqiqət bol olsa nəyi pisdiki?

Gəlin yolumuzdan kənar getməyək,
Bilə-bilə, qana-qana getməyək,
Haqq-sayı dana-dana getməyək,
Ədalət bol olsa nəyi pisdiki?

Gəlin insanlığa ənaət edək,
Çıxaraq ağ günə səadət edək,
İgidlik göstərək, rəşadət edək,
Bu adət bol olsa nəyi pisdiki?

Gəlin qulluq edək ilqar- imana,
Deməyək, dönübdür bizim zamana,
Qoy fəda getməsin yaxşı yamana,
Sədaqət bol olsa nəyi pisdiki?

Ədəb ilə, ərkan ilə dolanaq,
Ürəklərdən-ürəklərə calanaq,
Yaxşı əməllərə, işə yollanaq,
Nəzakət bol olsa nəyi pisdiki?

Artıraq meyili nəzakətə biz,
Zəriflik, incəlik, lətafətə biz,
Ay Cəmil, pak arzu, məhəbbətə biz,
Səxavət bol olsa nəyi pisdiki?

***Cəmil Əkbər***

## 254. HEÇNƏYƏ DƏYMƏZ

Anlayıb həyatı belə qanmışam,
Ədalət olmasa heçnəyə dəyməz.
Haqsızlıq gördükcə elə yanmışam,
Həqiqət olmasa, heçnəyə dəyməz.

Bəşərə yararlı söz deyənlərə,
Fikrini cəmləyib düz deyənlərə,
Məqamı çatdıqca tez deyənlərə,
Şərait olmasa heçnəyə dəyməz.

Deyirəm sözümü, anlayın məni,
Əgər səhvim olsa danlayın məni,
Kötəklə, qırmancla yanlayın məni,
Bu adət olmasa heçnəyə dəyməz.

Çalışın araya dava düşməsin,
Zəhərə qarışmış hava düşməsin,
Sərsəri, kəmağıl, yava düşməsin,
Bu hikmət olmasa, heçnəyə dəyməz.

Dahi kəlamından, dahi sözündən,
Dahi cığırından, dahi izindən,
Dahi baxışından, dahi gözündən,
Bəyanat olmasa, heçnəyə dəyməz.

Varın çox olsa da korlama onu,
Dostun çox olsa da xorlama onu,
Qarnın tox olsa da zorlama onu,
Qənaət olmasa, heçnəyə dəyməz.

İlqara-imana dönüklər artıb,
Hər səmtə, üz tutan yönüklər artıb,
Daş-qaşa, altuna əniklər artıb,
Dəyanət olmasa, heçnəyə dəyməz.

İstər bacı olsun, ya qardaş olsun,
Ya həmkar, ya həmdəm, ya sirdaş olsun,
Dövrü-zəmanədə ya çağdaş olsun,
Ləyaqət olmasa, heçnəyə dəyməz.

Sinədə döyünən ürək olsa da,
Hərkəsə, hər anda gərək olsa da,
Yetişib haraya kömək olsa da,
Məhəbbət olmasa, heçnəyə dəyməz.

Münəccim, alim də, loğman da olsa,
Aləmdə aşikar, pünhan da olsa,
Görkəmi, yöndəmi insan da olsa,
Mərifət olmasa heçnəyə dəyməz.

Ünsiyyət məqamı hörmət gərəkdir,
Kəramət gərəkdir, mürvət gərəkdir,
Mənəvi gözəllik, sərvət gərəkdir,
Sədaqət olmasa, heçnəyə dəyməz.

Get-gedə kütləşər kamal sahibi,
Əqidə sahibi, amal sahibi,
El-oba sahibi, mahal sahibi,
Qiraət olmasa heçnəyə dəyməz.

Nəqədər olsa da yolgöstərənlər,
Öyüd-nəsihəti bol göstərənlər,
Sağı tanıdanlar, sol göstərənlər,
Ziraət olmasa, heçnəyə dəyməz.

Şeytanlar, iblislər başa dolubdur,
Zirvəyə qalxıbdır, qaşa dolubdur,
“Fikirə”, “xəyala”, “huşa” dolubdur,
Şəriət olmasa, heçnəyə dəyməz.

Bəşərin övladı yolunu azıb,
Ünsiyyət-ülfəti yerbəyer pozub,
Haqqı-ədaləti tərsinə yozub,
Təriqət olmasa heçnəyə dəyməz.

Hərkəs gərək təmiz adla dolana,
Mehri-ülfət, əziz adla dolana,
Dadlı, tamlı, ləziz adla dolana,
Fəzilət olmasa, heçnəyə dəyməz.

Heçkimsə yolunu azmasın gərək,
Şər-böhtan danışıb, yazmasın gərək,
Şəhid məzarını qazmasın gərək,
İbadət olmasa, heçnəyə dəyməz.

Hörmət edilməsə ağsaqqallara,
Dərin düşüncəli pürkamallara,
Abırlı, ismətli, nurcamallara,
İtaət olmasa, heçnəyə dəyməz.

Ellərdə nəqədər adın olsa da,
Qohumun, qardaşın, yadın olsa da,
Ocağın yansa da, odun olsa da,
Məlahət olmasa, heçnəyə dəyməz.

Dünyamız nəqədər gözəl olsa da,
Səndən də, məndən də əzəl olsa da,
Şeirlər yazılıb, qəzəl olsa da,
Sədarət olmasa, heçnəyə dəyməz.

Hamı yüz yaşına çata bilsə də,
Gecəni-gündüzə qata bilsə də,
Yeriyib, yüyürüb tuta bilsə də,
Şərafət olmasa, heçnəyə dəyməz.

Naz-nemət nəqədər bol olur-olsun?
Dəymişmi, sütülmü, kal olur-olsun?
Acımı, şirnimi, bal olur-olsun?
Səxavət olmasa, heçnəyə dəyməz.

Bu dünya belədir, əzəldən bəri,
Yoluna qoyasan xeyiri, şəri,
Çəkəsən zəhməti, tökəsən təri,
Mətanət olmasa, heçnəyə dəyməz.

Sərraflıq igidin özündə gərək,
Qüvvət qollarında, dizində gərək,
Qeyrət hərkəsdənin özündə gərək,
Məharət olmasa heçnəyə dəyməz.[374]

[374] Bu bəndin üç misrası Cəmil Əkbərin “Gözləmə” rədifli şeirdə də var.

Oba da, oymaq da, el də belədir,
Muğan da, Şirvan da, Mil də belədir,
Çəmən də, çiçək də, gül də belədir,
Təravət olmasa, heçnəyə dəyməz.

Heçkimsə xalqını dara çəkməsin,
Kəməndə salmasın, tora çəkməsin,
Qəm-qüssəyə, ahuzara çəkməsin,
Hürriyyət olmasa, heçnəyə dəyməz.

Hərkəs gərək tək özünü duymaya,
Öz oğlunu, öz qızını duymaya,
Öz çoxunu, öz azını duymaya,
Cəmiyyət olmasa, heçnəyə dəyməz.

Hərkəs gərək ləyaqəti bildirə,
Əməliylə el-obanı güldürə,
Gözlərdəki sis, dumanı sildirə,
Pak-niyyət olmasa, heçnəyə dəyməz.

İnsanam deyənə alilik gərək,
Dövrü-zəmanəyə Valilik gərək,
Doğru yolgöstərən, dahilik gərək,
Ülviyyət olmasa heçnəyə dəyməz.

İnsafı-mürvəti atan kəslərə,
Şər deyib aranı qatan kəslərə,
Vətəni, xalqını satan kəslərə,
Ədavət olmasa, heçnəyə dəyməz.

Mən Cəmil Əkbərəm, fani dünyaya,
Sanmayın gəlmişəm ani dünyaya,
Birkəs kəsilməsin cani dünyaya,
Fərasət olmasa, heçnəyə dəyməz.

***Cəmil Əkbər*** 30.08 – 1998

## 255. DƏYMƏZ

Çirkinlik nəqədər çox olur olsun?
Bir nəfər nazənin gözələ dəyməz.
Xudbinlik qoy kimdə qalırsa-qalsın?
Yüzü, bir sadəcə əfələ dəyməz.[375]

Namərdlər nəqədər olursa-olsun?
Nəqədər boşalıb dolursa-dolsun?
Nəqədər açılır, solursa-solsun?
Dünyada bir  nəfər o mərdə dəyməz.[376]

Kol-koslar nəqədər artırsa-artsın?
Yeriyib, yüyürüb yortursa-yortsun?
Dördnala çaparaq, çortursa-çortsun?
Bir dənə calanmış peyvəndə dəyməz.

Nə qəqdər çox olsa alaqotları, [377]
Gicitkansayağı, dalaqotları,
Tikanlar, qanqallar, ulaqotları,
Tək bir qərənfilə, nə gülə dəyməz.

Dünyanı bürüsə tamam yalanlar,
Əqrəblər, iblislər, kürzə ilanlar,
Cəhalətdə ömürboyu qalanlar,
Bir nəfər doğruya, nə düzə dəyməz.

Nəqədər olsa da həyasız üzlər?
Qədəmi uğursuz, sayəsiz üzlər?
Təlimdən kəm-kəsir, dayəsiz üzlər?
Bir nəfər sahibi-ismətə dəyməz.

---

[375] *II variant* Dünyada nəqədər çirkinlik olsa?
Bir nəfər nazənin gözələ dəyməz.
Lovğa, yekəxana xudbinlər olsa?
Yüzü, bir sadəcə nəfərə dəyməz.

[376] *II variant* Namərdlər nəqədər olursa-olsun?
Boşalır boşalsın, dolursa-dolsun?
Açılır açılsın, solursa-solsun?
Bir nəfər həmfikir, həmdərdə dəyməz.

[377]Hər yanı bassada alaq otları.

Nəqədər olsa da gədə-güdələr?
Vicdanı kəm-kəsir, qəlbi zədələr?
Cibi pullu, gönü yağlı dədələr?
Cəm olsa, bir nəfər kişəyə dəyməz.

Nəqədər olsa da keyoğlu keylər?
Kütbeyin, gicbəsər, səyoğlu səylər?
Yetişmək bilməyən çiyoğlu çiylər?
Bir nəfər, sahibi-kamala dəyməz[378]

Nəqədər olsada kin, qəzəb küdrət?
Min cürə xətalar, min cürə qələt?
Yenə də üstündür onlardan mürvət?
Bir xətir-hörmətə, izzətə dəyməz.

Nəqədər olsada tənbəl gədələr?
Dövrü-zəmanəyə əngəl gədələr?
Qal-qovğa törədən cəncəl gədələr?
Bir nəfər sahibi-cürətə dəyməz.

Nəqədər olsada adsız ölənlər?
Qohumsuz, qardaşsız, yadsız ölənlər?
Tamı anlamayıb dadsız ölənlər?
Bir nəfər sahibi-şöhrətə dəyməz.

Nəqədər çoxalsa arsız bəndələr?
Dəyərsiz, faydasız, karsız bəndələr?
Söyüd ağacıtək barsız bəndələr?
Bir nəfər sahibi-qeyrətə dəyməz.

Nəqədər olsa da acgöz, hərislər?
Nanəciblər, naxələflər, naqislər?
Mənfurlar, rəzillər, pisoğlu pislər?
Bir nəfər, sahibi-hatəmə dəyməz.[379]

---

[378] *II variant* Həryanda olsa da bicoğlu biclər,
Xain oğlu xain, öcoğlu öclər,
İlqara-imana kəcoğlu kəclər,
Bir nəfər, sahibi-kamala dəyməz.

[379] *II variant* Dünyanı bürüsə acgöz, hərislər,
Tamahkar, xainlər, həm də xəbislər,
Mənfurlar, rəzillər, pisoğlu pislər,
Bir nəfər, sahibi-hatəmə dəyməz.

Cahanı bürüsə şair dostlarım,
Yazıçı, ədiblər, nasir dostlarım,
Mütərcim dostlarım, naşir dostlarım,
"Xəmsə"ni bəxş edən o şeyxə dəyməz.[380]

Həyada çox olsa söz yazanlarım,
Mətləbi, mənanı, düz yazanlarım,
Dərin yazanlarım, üz yazanlarım,
Hamısı bir yerdə Vurğuna dəyməz.

Nəqədər olsada dava günlərim?
Zəhərə qarışmış hava, günlərim?
Kəmağıl, sərsəri, yava günlərim?
Bircə günlük xoş rüzgara o dəyməz.

Nəqədər çox olsa dünyada gözəl?
Səndən də, məndən də, ondan da əzəl?
Xəzana dönsə də bağında xəzəl?
Heç biri Şirinə, Leyliyə dəyməz.

Nəqədər olsa da min cür sevənlər?
Bəzənib, düzənib tirmə geyənlər?
Min cürə düzəldib, min cür əyənlər?
Tək bircə Kərəmə, Dilqəmə dəyməz.[381]

Nəqədər olsa da vurub tutanlar?
Şər danışıb aralığı qatanlar?
İnsafını, mürvətini atanlar?
Bir nəfər, sahibi-mürvətə dəyməz.

---

[380] *II variant* Nəqədər yığılsa şair dostlarım?
Yazıçı, ədiblər, nasir dostlarım?
Eşqə-məhəbbətə dair dostlarım?
Gəncəli Nizami, o şeyxə dəyməz.

[381] *II variant* Dünyada nəqədər olsa sevənlər?
Xəzana qərq olub solsa sevənlər?
Getsədə, gəlsədə, qalsa sevənlər?
Dilqəmə, Kərəmə, Məcnuna dəyməz.

Olsa da dünyada çox gəlib-gedən,
Qəlbini paxıllıq, xainlik didən,
Özünü düşünüb, qarnını güdən,
Bir nəfər, sahibi-amala dəyməz.

Çoxalıb artsa da qanmaz kimsələr,
Xətiri, hörməti anmaz kimsələr,
Tutuşub, alışıb yanmaz kimsələr,
Bir nəfər, sahibi-qanana dəyməz.

Bürüsə aləmi alaqarğalar,
Özündən bədgüman kovxa, darğalar,
Saxsağan, boz sərçə, bir də qırğılar,
Heç biri sahibi-şahinə dəyməz.[382]

Nəqədər olsa da cahil nadanlar?
Bir otruma haqq-sayı udanlar?
Tərbiyədən dadar-doymaz dadanlar?
Yüzü bircə nəfər ahala dəyməz.

Dünyada çoxsa da kiçik təpələr,
Xırda daş-kəsəklər, çınqıl qəlpələr,
Kiçicik dalğalar, kiçik ləpələr,
Yığılsa bir yerə Qoşqara dəyməz. [383]

Nəqədər olsada çeşmələr, çaylar?
Düzəlsə saatdan həftələr, aylar?
İtməsin arada heç haqq-saylar?
Yüzü bircə dənə ümmana dəyməz.

---

[382] *II variant* Bürüsə dünyanı alaqarğalar,
Özündən bədgüman kovxa, darğalar,
Saxsağan, boz sərçə, nə də qırğılar,
Ölsədə tərlana, şahinə dəyməz.

[383] *II variant* Nəqədər olsada kiçik təpələr?
Kiçik daş-kəsəklər, kiçik qəlpələr?
Kiçicik dalaqlar, kiçik ləpələr?
Bir dənə Murova, Qoşqara dəyməz.

Göylərdə nəqədər ulduz da olsa?
Gecələr bərq vursa, gündüz də olsa?
Eniş də, yoxuş da, dümdüz də olsa?
Nə aya çatanmaz, nə günə dəyməz.[384]

Var olsun dünyada az olan nə var,
Kefləri, damağı, saz olan nə var,
Yaşasın doğruluq, düz olan nə var,
Onun hər birinə çox olan dəyməz.

***Cəmil Əkbər*** 6. 04 -1990

## 256. YETİM OLMAYAQ

Atadan, anadan yetim olsaq da,
Amandır, kamaldan yetim olmayaq.
İbtida, binadan yetim olsaq da,
Əqidə, amaldan yetim olmayaq.
Gözləyək ədəbi, iffəti, arı,
Atmayaq yoldaşı, atmayaq yarı.
Abırdan, həyadan yetim olmayaq,
Vicdandan, qayədən yetim olmayaq.
Olsun üstümüzdə haqqın nəzəri,
Onun kəraməti, onun güzarı.
Xətirdən, hörmətdən yetim olmayaq,
İnsafdan mürvətdən yetim olmayaq.
Namusdan qeyrətdən yetim olmayaq,
Şərəfdən, şöhrətdən yetim olmayaq.
Fəhm-fərasətdən yetim olmayaq,
Hünər, cəsarətdən yetim olmayaq.
Təpərdən, riqqətdən yetim olmayaq,
Nəzərdən, diqqətdən yetim olmayaq.
Qayğıdan, xidmətdən yetim olmayaq,
Zəfərdən, zəhmətdən yetim olmayaq.
Nəcabət, xislətdən, yetim olmayaq,
Məzmundan, hikmətdən yetim olmayaq,
Dövlətdən, nemətdən yetim olmayaq.
Qüvvətdən, qüdrətdən yetim olmayaq.
Nicatdan, nüsrətdən yetim olmayaq.

***Cəmil Əkbər*** 16. 12 - 1990

[384] Nə aya tay olub, nə günə dəyməz.

## 257. AZ DEYİL

Gülləri, çiçəyi heşan dünyanın,
Qanqalı da, tikanı da az deyil.
Bir yandan boşalıb daşan dünyanın,[385]
Dağıdanı, sökəni də, az deyil.

Oxumayan, öyrənməyən, bilməyən,
El şəninə sevinməyən, gülməyən,
Utanmayıb, qızarmayıb, ölməyən,
Zəhlələri tökəni də az deyil.[386]

Hər yerin yaxşısı, pisi də vardır,
Qızılı, gümüşü, misi də vardır,
Xeyirxahı vardır, nəsi də vardır,
El dərdini çəkəni də az deyil.[387]

Baxıb-baxıb əməlinin önündə,
Bünövrəsi, təməlinin önündə,
Nəcabətli nəsilinin önündə,
Təzim edib çökəni də az deyil.

İnsanın qəflətdə yatanı da var,
Nəqədər günaha batanı da var?
El yükü boynundan atanı da var,
Tab gətirib çəkəni də az deyil.

---

[385] Qaynayıb, kükrəyib daşan dünyanın.

[386] *II variant* Oxuyub, öyrənib bilməyən də var,
Ellərin şəninə gülməyən də var,
Utanıb, qızarıb, ölməyən də var,
Zəhlələri tökəni də az deyil.

[387] *II variant* Hamı yaxşı, hamı pis də olanmaz,
Hamı qızıl, hamı mis də olanmaz,
Hamı bədxah, hamı nəs də olanmaz,
El dərdini çəkəni də az deyil.

Hamı eyni deyil, hamı bir deyil,
Bu ki, açıq-aşkar, aydın sir deyil?
Həryan Məkkə deyil, həryan pir deyil,
Qamətləri bükəni də az deyil.[388]

***Cəmil Əkbər*** 30-31. 12 – 1990

## 258. ÇIXANMIR

Haçandan çalışır bu yazıq bəşər,
Avamlıqdan, cəhalətdən çıxanmır.
Didişir, vuruşur xeyir ilə şər,
Kin-küdurət, ədavətdən çıxanmır.

Gedənlər getdilər, qalanlar qaldı,
Açılan-açıldı, solanlar-soldu,
Gözləri qanyaşla dolanlar doldu,
Törədilən qəbahətdən çıxanmır.

Nəqədər gördüsə, götürənmədi?
Peyvəndlər vursa da bitirənmədi?
Naxələf, xoryadı yetirənmədi,
Xainlikdən, xəyanətdən çıxanmır.

Nəqədər eşidib, öyrənsədə hey,
Diksinib, ürpəşib iyrənsədə hey,
Deyinə-deyinə söylənsədə hey,
Giley-güzar, şikayətdən çıxanmır.

Haqqa-ədalətə çağırsalar da,
Hay-həşir eyləyib çığırsalar da,
Səs-səmir salaraq bağırsalar da,
Xəta-bəla, cinayətdən çıxanmır.

---

[388] *II variant* Hamı nəşə vermir, hamı kef vermir,
Hamı fayda vermir, hamı nəf vermir,
Hamı zəhmət vermir, hamı müf vermir,
Qamətləri bükəni də az deyil.

Ayılmır qəflətdən yatıb qalanlar,
Günahlar içində batıb qalanlar,
Qaşları-qabağı çatıb qalanlar,
Çamırlıqdan, üfunətdən çıxanmır.

Bir-birini gör nəqədər qırdılar?
Sinəsinə dağ-düyünlər vurdular?
Qərəzində, qisasında durdular?
Müsibətdən, fəlakətdən çıxanmır.

Gen dünyası başlarına daraldı,
Gül-çiçəyi xəzan oldu, saraldı,
Korlandı əsəbi, qanı qaraldı,
Ehtiyacdan, rəzalətdən çıxanmır.

***Cəmil Əkbər*** 12. 11– 1995

**259. ÇIXANMIR**

Beylə qərar verib Xudai-Kərim,
Mərd igidlər ləyaqətdən çıxanmır.
Qoluna güc verib, dəyanət, girim,
Doğru, düzlük, həqiqətdən çıxanmır.

Sərinə huş verib, əqlinə qayə,
Vicdanı bol edib, üzünə həya,
Bir kamil ustaddan olubdur dayə,
Hatəm kimi səxavətdən çıxanmır.

Qəlbini bağlayıb yoldaşa, yara,
Eyləyir hər dərdə Loğmantək çara,
İstəsən min dəfə yoxlayıb, ara,
Fəzilətdən, sədaqətdən çıxanmır.

Sinə gərib hər çətinə dözür də,
Məqam gəlir inciyir də, bezir də,
Əllərini çox əllərdən üzür də,
Doğru yoldan, düz adətdən çıxanmır.

Eləsi var, ismət yoxdur üzündə,
Məna yoxdur, məzmun yoxdur sözündə,
Xəyanət var baxışında, gözündə,
Ömürboyu qəbahətdən çıxanmır.

Ürəyində ibtidadan kin yatır,
İblis yatır, əqrəb yatır, cin yatır,
Ona-buna istehzaları yatır,
Qəsd-qərəzdən, xəyanətdən çıxanmır.

İmkan tapıb qarışdırır aranı,
Sızıldadıb qövr etdirir yaranı,
Ünsiyyətdə rəva bilir boranı,
Nəs fikirdən, nəs adətdən çıxanmır.

Az deyildir sıramızda beləsi,
Tamahının, öz nəfsinin kölәsi,
Vaxt-vədəsiz qırılası, öləsi,
Xəta-bəla cinayətdən çıxanmır.

Eşidənlər qınamasın Cəmili,
Dar ayaqda sınamasın Cəmili,
İlqarakəm unamasın Cəmili,
Giley-güzar, şikayətdən çıxanmır.

***Cəmil Əkbər*** 31. 02 – 1990

## 260. QONŞULAR

Ay qonşular hiddətimi artırma,
Qəzəbimi, nifrətimi artırma.
Qonşu-qonşusuyla pis olmamalı,
Nə höcət, nə inad, nəs olmamalı.
Qonşu-qonşusuyla ülfətdə gərək,
Təmasda, təamda, söhbətdə gərək.
Qonşu-qonşusundan od almalıdır,
Ləzzət almalıdır, dad almalıdır.
Qonşu-qonşusunun dadına çatar,
Qohumuna çatar, yadına çatar,

Yetişər haraya, imdada çatar.
Qonşu-qonşusuyla ədavət çəkməz,
Xətalar yetirməz, küdurət çəkməz.
Anlayın, pis işin axırı heçdir,
Sirkəsi, doşabı, çaxırı heçdir.
Əvvəli nədir ki, sonu nəola,
Qoyunu nədir ki, yunu nəola?
Kim nəyi əkirsə, onu da biçir,
Boynuna xələti, donu da biçir.
İnsan olan bədəməldən utanar,
Bəd bünövrə, bəd təməldən utanar.
Qonşu-qonşusunu inəkli istər,
Güyümlü, cınqırlı, sənəkli istər.
Qonşu-qonşusunu ələkli istər,
Arxalı, köməkli, gərəkli istər,
Vüqarlı, qamətli, kürəkli istər,
Xoş arzu-istəkli, diləkli istər.
Qonşu-qonşusuyla yol getməlidir,
Nə sağa çəkilib, sol getməlidir.
Qonşu-qonşusuyla xoşrəftar gərək,
Hər qəmə, hər dərdə giriftar gərək.

***Cəmil Əkbər*** 30.11 – 1990

## 261. MƏNİM VARLIĞIMDIR, SƏNİN VARLIĞIN

Demə, sən özgəsən, mən də özgəyəm,
Sənin varlığındır, mənim varlığım.
Demə sən ayrımsan, mən də ləzgiyəm,
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Demə, mən şəhərli, sən də kəndlisən,
Mən nəşə çəkirəm, sən də dərdlisən,
Bakılı, Şəkili, ya Dərbəndlisən,
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Dağ-dağa söykənər, insan-insana,
Çeşmələr-çaylara, damla-leysana,
Dərrakə gərəkdir düşünə, qana.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Sən pambıq əkirsən, mən söz deyirəm,
Sən nemət verirsən, mən də yeyirəm,
Sən paltar tikirsən, mən də geyirəm.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Sən ilham verirsən, mən də alıram,
Sən kaman verirsən, mən də çalıram,
Sən həvəs verirsən, mən də doluram.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Mən dağda yaşadım, sən də aranda,
Mən Mildə yaşadım, sən də Muğanda,
Sən Qaxda yaşadın, mən də Şirvanda.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Sənin gözəlliyin qol-qanad verib,
İşimə-gücümə o nicat verib,
Fərhada oxşadıb, o isnad verib.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Hey səni düşündüm, hey səni andım,
Mən sənin oduna alışdım, yandım,
Bilki səs-küyünə qalxdım, oyandım?
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Sənin pis gününə kədərlənmişəm,
Qəm-qüssə çəkmişəm, qəhərlənmişəm,
Düşüb haldan-hala təhərlənmişəm.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Etiraf edirəm sənsiz mən kiməm?
Kamanın üstündə tənha bir siməm,
Çəkib kökləməsən bəməmki, bəməm.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Yerlər göysüz, göy də yersiz olarmı?
Zər sərrafsız, sərraf zərsiz olarmı?
Ər arvadsız, arvad ərsiz olarmı?
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Sən gövdəsən, mən butağam, bilginən,
Sən tumurcuq, mən yarpağam bilginən,
Sən ağacsan, mən torpağam bilginən.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Mən satıram, sən alırsan a gülüm,
Mən köklədim, sən çalırsan a gülüm,
Mən gedirəm, sən qalırsan a gülüm.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Sən məndən öyrəndin yaşamağı da,
Tikməyi, qurmağı, yaratmağı da,
Ömrü uzatmağı, yaşatmağı da.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Mən səndən öyrəndim danışmağı da,
Küsüb inciməyi, barışmağı da,
Axtarıb, arayıb, soruşmağı da.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Mən səndən öyrəndim qocalmağı da,
Zirvəyə çıxmağı, ucalmağı da,
Zəfərlər çalmağı, bac almağı da.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Mən səndən öyrəndim söz deməyi də,
Doğru fikirləşib düz deməyi də,
Dərin düşünməyi, üz deməyi də.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Mən səndən öyrəndim dolanmağı da,
Ürəkdən-ürəyə calanmağı da,
Soğulub, dağılıb, talanmağı da.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Sən məndən öyrəndin ləyaqətini,
Doğruluq, düzlüyü, həqiqətini,
Vəfanı, səxanı, sədaqətini.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Sən məndən öyrəndin məhəbbətini,
Zəriflik, nəciblik, məlahətini,
Odunu, közünü, hərarətini.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Sən məndən öyrəndin məharətini,
Fəhm-fərasəti, cəsarətini,
Almısan soyunu, kəsarətini.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Sən məndən, mən səndən gördük-götürdük,
Becərib, bəslədik, əkdik, bitirdik,
Axtarıb aradıq, tapdıq itirdik.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Sən mənə, mən səsə gəl darılmayaq,
Qoluna, qılçına gəl sarılmayaq,
Çatlayıb içindən gəl qırılmayaq.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Dağ-dağa arxadır, insan-insana,
Bağ-bağa arxadır, bostan-bostana,
Söz-sözə söykənir, dastan-dastana,
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Mən tarla becərdim, sən bağ becərdin,
Mən bostan becərdim, sən tağ becərdin,
Mən taxıl becərdim, sən yağ becərdin.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Gəl sən mənlə, mən də sənlə yola get,
Eşit məni, sözü dinlə, yola get,
Olma şeytan, gəl mənimlə yola get.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

Gəl mən sənlə, sən də mənlə barışaq,
Əhval tutub, hal öyrənib soruşaq,
Xoş günlərə xeyirə, şərə qarışaq.
Mənim varlığımdır, sənin varlığın,
Sənin varlığındır, mənim varlığım.

***Cəmil Əkbər***

## 262. MƏNİM XİDMƏTİMDİR, SƏNİN XİDMƏTİN

Sənə daş atdılar, mən də səksəndim,
Sənə sataşdılar, mən də diksindim,
Səni qorxutdular, mən də pəsindim.
Mənim hörmətimdir, sənin hörmətin,
Mənim şöhrətimdir, sənin şöhrətin.

Sənə pis dedilər, mən də pis oldum,
Sənə nəs dedilər, mən də nəs oldum,
Sənə mis dedilər, mən də mis oldum.
Mənim qüdrətimdir, sənin qüdrətin,
Mənim qüvvətimdir, sənin qüvvətin.

Mən səndən öyrəndim ədalətimi,
Doğruluq, düzlüyü, həqiqətimi,
İnsanlıq naminə ləyaqətimi.
Mənim mürvətimdir, sənin mürvətin,
Mənim ismətimdir, sənin ismətin.

Mən səndən öyrəndim məlahətimi,
Ülvilik, nəciblik, nəzakətimi,
Oturub, durmağı, hərəkətimi.
Mənim diqqətimdir, sənin diqqətin,
Mənim xidmətimdir, sənin xidmətin.

Mən uzaq deyiləm, sən yad deyilsən,
Mən sazax deyiləm, sən od deyilsən,
Mən tamsız deyiləm, sən dad deyilsən.
Mənim hikmətimdir, sənin hikmətin,
Mənim xidmətimdir, sənin xidmətin.

***Cəmil Əkbər***

## 263. BƏSLƏYƏNMƏZ

Tərbiyəsi kəm olanlar,
Abır-ismət gözləyənməz.
Nadanla həmdəm olanlar,
Elə hörmət bəsləyənməz.

Gicliyini bildirəcək,
Düşmənini güldürəcək,
Qohumunu öldürəcək,
Öz-özünü öyə bilməz.

Ha çalışsa, ha vuruşsa,
Ha axtarsa, ha soruşsa,
Ha qaynasa, ha qarışsa,
Günahını yuya bilməz.

Qanan deyil əqli-kəmlər,
Nə dost-tanış, nə həmdəmlər,
Nə görkəmlər, nə yöndəmlər,

Ha düşünsə duya bilməz.
Kamalsıza yoxdur əlac,
İstər yalvar, istər əl aç,
İstər danış, ya da sirr aç,[389]
Ha yetişsə dəyə bilməz.

***Cəmil Əkbər***

## 264. EDƏRLƏR

Tərbiyəsiz elə çıxsa,
Özlərini xar edərlər.
El-obaya xain baxar,
Gen dünyanı dar edərlər.

Ədəb-ərkan yolu görməz,
Sağı seçməz, solu görməz,
Qədir bilməz, qiymət verməz,
Ahı-fəqan, zar edərlər.

Tay-tuş olar lotulara,
Cılızlara, qatılara,
Kəndirbaza, çatılara,
Haqq-sayı şor edərlər.

Əhli-halı yəhərləyər,
Ürəkləri qəhərləyər,
Alqanları zəhərləyər,
Özlərini mar edərlər.

Axmaq sanıb gic eyləyər,
Əsl-soyu bic eyləyər,
Başqasını heç eyləyər,
Özlərini var edərlər.

***Cəmil Əkbər***

---

[389] İstər uzaş, istərsə qaç.

## 265. EYLƏMƏ!

Sənin dərdin mənimkidir eloğlu,
Uzaq bilib məni kənar eyləmə!
Mənim dərdim səninkidir eloğlu,
Oda tutub məni yanar eyləmə!

Yaxın bilib tanımasan xatandır,
Mənim atam elə sanki, atandır,
Nə mən səni, nə sən məni utandır,
Diksindirib məni zinhar eyləmə!

Bağban olaq, bağça salaq, gül dərək,
El-obanı sevindirək, güldürək,
Düşmənləri qəhərləyək, öldürək,
Millətini, xalqını xar eyləmə!

Deməsinlər nəyamandır, nə pisdir,
Nəqabildir, nanəcibdir, naqisdir,
Nə acgözdür, tamahkirdir, hərisdir,
Nə utan, nə qızar, nə ar eyləmə!

Eşidib, qulaq as öz ustadına,
Fərqi yox, qohumdur, ya da yadına,
Elə et çatsınlar el fəryadına,
Düçar olma dərdə fərar eyləmə!

Aldanmaynan hər hiyləyə, kələyə,
Düşməginən hər çovğuna, küləyə.
Kəsirsənsə kəs başımı qibləyə,
Ucuz tutub məni mundar eyləmə!

Bilirsənsə möhkəm saxla sirrimi,
Yaxşı tanı, mövqeyimi, yerimi,
İnsaf eylə, topa tutma sərimi,[390]
Böhtan deyib məni izhar eyləmə!

***Cəmil Əkbər*** 3. 05 - 1981

---

[390] Ayaq altda tapdalama sərimi.

## 266. SƏHV DÜŞÜBDÜR YERİMİZ

Nə mən səni, nə sən məni qınama,
Aman Allah səhv düşübdür yerimiz.
Nə sən məni, nə mən səni sınama,
Aman Allah səhv düşübdür yerimiz.

Gədə ikən bəy olan da tapılır,
Aqil ikən səy olan da tapılır,
Hatəm ikən göy olan da tapılır,
Aman Allah səhv düşübdür yerimiz.

Ağa ikən gədəlik də eylədik,
Sağlam ikən zədəlik də eylədik,
Şaqqulutək dədəlik də eylədik,
Aman Allah səhv düşübdür yerimiz.

Qana-qana bizə qanmaz dedilər,
Yana-yana bizə yanmaz dedilər,
Ana-ana bizə anmaz dedilər,
Aman Allah səhv düşübdür yerimiz.

Pisə yaxşı, yaxşıya pis deyilib,
Misə qızıl, qızıla mis deyilib,
Nəsə mələk, mələyə nəs deyilib,
Aman Allah səhv düşübdür yerimiz.

***Cəmil Əkbər*** 21.12 -1990

## 267. SƏHV DÜŞÜBDÜR YERİMİZ

Kişi qadın, qadın kişi olubdur,
Dişi erkək, erkək dişi olubdur,
Şüşə polad, polad şüşə olubdur,
Nə edimki səhv düşübdür yerimiz?

Varlı kasıb, kasıb varlı olubdur,
Karlı karsız, karsız karlı olubdur,
Arlı arsız, arsız arlı olubdur,
El bil ki, səhv düşübdür yerimiz.

Düzə əyri, əyriyə düz deyilib,
Üzə astar, astara üz deyilib,
Qıza oğul, oğula qız deyilib,
Neyləyim ki, səhv düşübdür yerimiz?

Nə deyəsən zəmanənin işinə?
Kəc rəftarı, dövranı, gərdişinə,
Belə adət, ənənə, vərdişinə,
Çaşbaş qalıb səhv düşübdür yerimiz.

***Cəmil Əkbər*** 21.12 -1990

## 268. ƏLƏSGƏR

Çıxmasın yolundan, izindən nə də,
Təpələr yanında dağdı Ələsgər.
Utansın, qızarsın tozundan gədə,
Barlı-bərəkətli bağdı Ələsgər.

Ulu sənətkardı ellər içində,
Bəslənib, yetişib güllər içində,
Dolanır əsrlər, illər içində,
Ölməyib yaşayır, sağdı Ələsgər.

Çoxları çalışdı, izi qalmadı,
Sönübdür ocağı, közü qalmadı,
Ellərə çıxmağa üzü qalmadı,
El yanında üzü ağdı Ələsgər.

Dərməklə neməti azalan deyil,
Qatardan üzülüb pozulan deyil,
Tərsinə çevrilib yozulan deyil,
Barlı-bərəkətli tağdı Ələsgər.

Cəmiləm yaxşını yamandan seçdim,
Çisgədən addayıb, dumandan keçdim,
Şeir çeşməsindən əyildim içdim,
Zülal, şərbət, baldı, yağdı Ələsgər.

***Cəmil Əkbər*** 6. 10 – 1991

## 269. BAŞA DÜŞ!

Mən sənin yolunda canımı qoydum,
Zəhmətimi, zəhmət kimi başa düş!
Korladım əsəbi, qanımı qoydum,
Xidmətimi, xidmət kimi başa düş!

Hər zaman düşündüm, dərdini çəkdim,
İstidə, bürküdə tərimi tökdüm,
Əydim qamətimi, vüqarı bükdüm,
Niyyətimi niyyət kimi başa düş!

Ellərdən, obadan həyalanmışam,
Əqidə götürüb qayələnmişəm,
Böyüyə, kiçiyə sayələnmişəm,
İsmətimi ismət kimi başa düş!

Nə qədər insana etdim hörməti?
Səxavət göstərib, etdim mürvəti?
Doldurub camımı verdim şərbəti?
Hörmətimi hörmət kimi başa düş!

Sanmışam oğulam, qeyrətli olum,
Cəsarətli olum, cürətli olum,
Şərafətli olum, şöhrətli olum,
Qeyrətimi qeyrət kimi başa düş!

İnciyib bezərəm, küsərəm səndən,
Əlimi əlindən kəsərəm səndən,
Dolanıb aralı, gəzərəm səndən,
Nifrətimi nifrət kimi başa düş!

Hörmətimə hörmətsizlik eyləmə,
Şöhrətimə, şöhrətsizlik eyləmə,
Mürvətimə mürvətsizlik eyləmə,
Qiymətimi qiymət kimi başa düş!

Paxıllıqdan xəyanətdən əlçəkin,
Giley-güzar, şikayətdən əlçəkin,
Kin-küdurət, ədavətdən əlçəkin,
Hikmətimi, hikmət kimi başa düş!

***Cəmil Əkbər*** 6. 10 – 1991

## 270. ƏLGÖTÜR!

İnsan bir-birini nəgünə qoyur?
Xəbisoğlu xəbislikdən əlgötür!
Davaya, dalaşa, düyünə qoyur,
Naqisoğlu, naqislikdən əlgötür!

İnsansan insana hörmətin olsun,
Kəramətin, rəhmin, mürvətin olsun,
Köməyin yetişsin, nüsrətin olsun,
Xəsisoğlu xəsislikdən əlgötür!

Meylini artırma tamahasarı,
Xətaya, bəlaya, günahasarı,
Qarğışa, naləyə, nə ahasarı,
Hərisoğlu hərislikdən əlgötür!

Aldanıb sussama özgə malına,
Özgə dəyirmana, özgə kalına,
Özgə zülalına, özgə balına,
Varisoğlu, varislikdən əlgötür!

Bədxah olub gəl xilqəti bezdirmə!
Cəhənnəmin əzabına dözdürmə!
Günahsızı günahlınla əzdirmə![391]
Cəsusoğlu cəsusluqdan əlgötür!

***Cəmil Əkbər*** 13. 10 – 1991

## 271. CƏMİYYƏT

Bir yanda yaxşı var, bir yanda pis var,
Belə gəlir, belə gedir cəmiyyət.
Bir yanda xeyirxah, bir yanda nəs var,
Belə gəlir, belə gedir cəmiyyət.

[391] Birisini digərinə əzdirmə.

Bir yanda həyat var, bir yanda ölüm,
Bir yanda nəşə var, bir yanda zülüm,
Bir yanda tikan var, bir yanda gülüm,
Belə gəlir, belə gedir cəmiyyət.

Bir yanda gözəl var, bir yanda çirkin,
Bir yanda sadə var, bir yanda xudbin,
Bir yanda bədbin var, bir yanda nikbin,
Belə gəlir, belə gedir cəmiyyət.

Bir yanı dağ-daşdır, bir yanı dümdüz,
Bir yanı gecədir, bir yanı gündüz,
Bir yanı dərindir, bir yanı da üz,
Belə gəlir, belə gedir cəmiyyət.

Birisi aldadır, biri aldanır,
Biri üzə çıxır, biri daldanır,
Birisi yandırır, biri odlanır,
Belə gəlir, belə gedir cəmiyyət.

Bir yanda həqiqət, bir yanda yalan,
Bir yanda mələk var, bir yanda ilan,
Bir yanda kasıblıq, bir yanda kalan,
Belə gəlir, belə gedir cəmiyyət.

Bir yanda doğruluq, bir yanda biclik,
Bir yanda kamal var, bir yanda giclik,
Bir yanda qalmaqal, bir yanda dinclik,
Belə gəlir, belə gedir cəmiyyət.

Bir yandan gedirsə, bir yandan gəlir,
Bir yandan közərir, bir yandan sönür,
Bir yandan lal olur, bir yandan dinir,
Belə gəlir, belə gedir cəmiyyət.

Bir yanı enişdir, bir yanı yoxuş,
Bir yanı bəzəkdir, bir yanı naxış,
Bir yanı girişdir, bir yanı çıxış,
Belə gəlir, belə gedir cəmiyyət.

Bir yandan doğulur, bir yandan ölür,
Bir yandan bölünür, bir yandan bölür,
Bir yandan ağlayır, bir yandan gülür,[392]
Belə gəlir, belə gedir cəmiyyət.

***Cəmil Əkbər*** 1997

## 272. BU YERLƏRİN

Gözəlinə gözəl çatmaz,
Bu yerlərin, bu yerlərin.
Axır çatmaz, əvvəl çatmaz,
Bu yerlərin, bu yerlərin.

Dövlətinə dövlət çatmaz,
Sərvətinə sərvət çatmaz,
Mürvətinə mürvət çatmaz,
Bu yerlərin, bu yerlərin.

Obasına oba çatmaz,
Havasına hava çatmaz,
Dəvasına dəva çatmaz,
Bu yerlərin, bu yerlərin.

Küçə gözəl, yollar gözəl,
Qızlar gözəl, dullar gözəl,
Bəyaz buxaq, qollar gözəl,
Bu yerlərin, bu yerlərin.

Gözəlinə xidmət eylə,
Xətir qoyub hörmət eylə,
İnsaf eylə, mürvət eylə,
Bu yerlərin, bu yerlərin.

Bağını gəz, gülünü gəz,
Ayını gəz, ilini gəz,
Oymağını, elini gəz,
Bu yerlərin, bu yerlərin.

---

[392] Bir yandan öyrənir, bir yandan bilir.

Şair könlüm vəsfini de,
Tapa bilsən səhvini de,
Xeyrini de, nəfini de,
Bu yerlərin, bu yerlərin.

Xəzan olsun, bağı solsun,
Cənazəsi düzdə qalsın,
Qoy qənimi varsa ölsün,
Bu yerlərin, bu yerlərin.

Şair könül xəyala dal,
Seyrə çıxıb ilhamın al,
Rübabını kökləyib çal,
Bu yerlərin, bu yerlərin.

***Cəmil Əkbər*** 3. 04 – 1987 */Minsk*

## 273. OXŞAMASINMI?

Oğullar-ataya, qızlar-anaya,
Oxşasınmı deyim, oxşamasınmı?
Atalar-babaya, ana-nənəyə,
Oxşasınmı deyim, oxşamasınmı?

Oğullar-dayıya, qızlar-xalaya,
Oxşasınmı deyim, oxşamasınmı?
Atalar-əmiyə, qızlar bibiyə,
Oxşasınmı deyim, oxşamasınmı?

Bacılar-bacıya, qardaş-qardaşa,
Tay-tuşlar-tay-tuşa, çağdaç-çağdaşa,
Həmkarlar-həmkara, yoldaş-yoldaşa,
Oxşasınmı deyim, oxşamasınmı?

***Cəmil Əkbər***

## 274. ÇOX ŞÜKÜR

İlahi çox şükür verdiyin paya,
Dəymişi dəymişdir, kalı da kaldır.
Nə deyim, qoyduğun o haqq-saya?
Zəhəri-zəhərdir, balı da baldır.

Fələyin işinə nə demək olar?
Nə yardım eyləmək, nə kömək olar?
Nə düzəltmək olar, nə əymək olar,
Qədəyi qədəkdir, şalı da şaldır.

Hərə bircürədir, hamı bir deyil,
Meyvə də meyvədir, tamı bir deyil,
Şərbəti, zülalı, camı bir deyil,
Darçını darçındır, hili də hildir.

Hərənin bircürə qüdrəti vardır,
Fəhmi-fərasəti, cürəti vardır,
Uçuşu, qaçışı, sürəti vardır,
Sərçəsi-sərçədir, fili də fildir.

Birisi xeyirxah, birisi nəsdir,
Birisi yaxşıdır, birisi pisdir,
Birisi qızıldır, birisi misdir,
İncisi-incidir, ləli də ləldir.

Əzəldən dünyanın bilən yox sirrin,
Kimisi acıdır, kimisi şirin,
Kimisi dayazdır, kimisi dərin,
Dəryası dəryadır, gölü də göldür. [393]

Hərə bir fikirdə, bir xəyaldadır,
Kefdə, nəşədədir, ya məlaldadır,
Özü də bilməyir heç nə haldadır?
Nömrəsi nömrədir, xalı da xaldır.

Hərə bir arzuda, bir niyyətdədir,
Bir baxış, bir nəzər, bir diqqətdədir,
Bircürə istəkdə, bir riqqətdədir,
Ərlisi-ərlidir, dulu da duldur.[394]

---

[393] Dənizi-dənizdir, gölü də göldür.

[394] Evlisi-evlidir, duluda-duldur.

Hərənin bircürə xətiri vardır,
Həyat səhifəsində sətiri vardır,
Hər bağın-bağçanın öz ətri vardır,
Tikanı-tikandır, gülü də güldür.

Yaradan hərkəsi bircürə verib,
Bircür yola salıb, bircür göndərib,
Birisi mərd igid, biri şoğərib,
Topalı topaldır, şili də şildir.

Kimiyə meh əsib, kimiyə külək,
Kimiyə rəhm verib, kimiyə kələk,
Beylə hökm eyləyib, neyləyək fələk?
Kəköyü kəköydür, lalı da laldır.

Hərənin taledən bir qisməti var,
Öz arzu-istəyi, öz niyyəti var,
Öz məna-məzmunu, məziyyəti var,
Sarısı sarıdır, alı da aldır.

Hər insanoğlunun öz vəfası var,
Düşüncə, idrakı, öz qafası var,
Hər yerin özünün bir səfası var,
Muğanı-Muğandır, Mili də Mildir.

Ay Cəmil, hərkəsin öz yaddaşı var,
Tay-tuşu, yoldaşı, öz çağdaşı var,
Həmkarı, həmdəmi, öz sirdaşı var,
İnsanı insandır, malı da maldır.[395]

***Cəmil Əkbər*** 13. 02 – 1994

---

[395] *II variant* Ay Cəmil, hərkəsin öz payı vardır,
Hərənin çağdaşı, öz tayı vardır,
Taledən bəxş olan öz sayı vardır,
İnsanı-insandır, malı da maldır.

## 275. ÇOX ŞÜKÜR

İlahi çox şükür verdiklərinə,
Hərə bir biçimdə, bir təhərdədir.
Möhüblər düzdüyün, gördüklərinə,
Hərə bir dərd-azar, bir qəhərdədir.

Hərənin zamanı, məkanı başqa,
Gəmisi, lövbəri, sükanı başqa,
Alveri, bazarı, dükanı başqa,
Hərə bir kənddədir, bir şəhərdədir.

Hərənin əhvalı, kefi bir deyil,
Gəliri, çıxarı, nəfi bir deyil,
Nöqsanı, xətası, səhvi bir deyil,
Hərə bir xəyalda, bir bəhərdədir.

Hərə bir fikirdə, bir xəyaldadır,
Özü də bilməyir heç nə yoldadır?
Hansı vəzifədə, hansı haldadır?
Hərə bir axışda, bir nəhrdədir.

***Cəmil Əkbər***

## 276. GERİ DÖNMƏZ

Dağ vüqarlı cavanlığım,
Geri dönməz, geri dönməz.
Haq yoluna rəvanlığım,
Geri dönməz, geri dönməz.

Gözəllərə məhəbbətim,
Eşqim, andım, sədaqətim,
Odum, közüm, hərarətim,
Geri dönməz, geri dönməz.

Dağı-daşı dolandığım,
Eşq oduna qalandığım,
Könüllərə calandığım,
Geri dönməz, geri dönməz.

Tayla-tuşla yarışdığım,
Xeyir-şərə qarışdığım,
Küsməmişdən barışdığım,
Geri dönməz, geri dönməz.

Hatəm kimi səxavətim,
İnsaf, mürvət, kəramətim,
Gənclik kefim, ləyaqətim,[396]
Geri dönməz, geri dönməz.

Zirvələrdə dayandığım,
Bulaq kimi qaynadığım,
Uşaqlarla oynadığım,
Geri dönməz, geri dönməz.

Gül-çiçəkli fəsillərim,
Koroğlutək nəsillərim,
Köçüb gedən Cəmillərim,[397]
Geri dönməz, geri dönməz.

***Cəmil Əkbər*** 20. 03 – 1987

## 277. NƏYİ GÖRSƏM O OLURAM

Dağ görürəm, dağa dönür ürəyim,
Bağ görürəm, bağa dönür ürəyim.
Tağ görürəm, tağa dönür ürəyim,
Sağ görürəm, sağa dönür ürəyim.
Təpə görcək təpələrə dönürəm,
Ləpə görcək ləpələrə dönürəm.
Dərə görüb dərələrə dönürəm,
Bərə görüb bərələrə dönürəm.
Bahar görüb çiçəklərə dönürəm,
Gözəllərə, göyçəklərə dönürəm.
Tumurcuğa, dibçəklərə dönürəm,

---

[396] 1) Gəncliyimdə ləyaqətim 2) İnsanlıqda ləyaqətim,
[397] 1) Əldən düşən Cəmillərim. 2) Yorğun düşən Cəmillərim.

Tər qönçədə ləçəklərə dönürəm.
Yayı görüb istilərə dönürəm,
Yanan görüb tüstülərə dönürəm.
Payız görüb bürünürəm bara mən,
Alma-armud, heyvaya mən, nara mən.
Qışı görüb soyuqlara dönürəm,
Müqəvvaya, oyuqlara dönürəm.
Sanıram ki, mən gərəksiz oluram,
Həm həvəssiz, həm ürəksiz oluram.
Yaxşı görüb, yaxşılara dönürəm,
Bəzəklərə, naxşılara dönürəm.
Pisi görcək mən pislərə dönürəm,
Nəsi görcək mən nəslərə dönürəm.
Hörmət görüb, hörmətliyə dönürəm,
Mürvət görüb, mürvətliyə dönürəm.
Qeyrət görüb, qeyrətliyə dönürəm,
Heyrət görüb, heyrətliyə dönürəm.
Nadan görüb, nadanlardan uzaşdım,
Haqq-sayı udanlardan uzaşdım.
Tərbiyədən dadanlardan uzaşdım,
Tərsəməssəb adanlardan uzaşdım.
Nəcib gördüm, nəcibləri xoşladım,
Zərif gördüm, zərifləri xoşladım.
Arif gördüm, arifləri xoşladım,
Maarif gördüm, maarifləri xoşladım.
Həya gördüm, həyalandım bir anda,
Qayə gördüm, qayələndim bir anda.
Sayə gördüm, sayələndim bir anda,
Dayə gördüm, dayələndim bir anda.
İnsanoğlu, gör-götürdü bu həyat,
Zəhmət çəkib ək, bitirdi bu həyat.
Becər, bəslə, gəl yetirdi bu həyat,
Hörmət eylə, al xətirdi bu həyat.
Yaxşı yadda saxla atalar deyib,
Görüb götürməyən hədərə gedib.
Əyib vüqarını qəddini əyib,
Gah onun, gah bunun xətrinə dəyib.

***Cəmil Əkbər*** 24. 11 – 1990

## 278. TÜKƏNMƏKDƏDİR

Hamı birbirinə kəf gələ-gələ,
Hörmət də, izzət də tükənməkdədir.
Yanlış gedə-gedə, səhv gələ-gələ.
İnsaf da, mürvət də tükənməkdədir.

Şər, böhtan danışıb, yalan deyərək,
Boğazdan yuxarı, kalan deyərək,
Dünyanı puç bilib, solan deyərək,
Saf arzu, niyyət də tükənməkdədir.

Acığa girərək, qəsd eyləyərək,
Yeməmiş, içməmiş məsd eyləyərək,
Astarı çevirib üst eyləyərək,
Abır da, ismət də tükənməkdədir.

Hamı öz yolunda əyri gedərək,
Ögey addımlayıb, qeyri gedərək,
Özünün qarnını, xeyri güdərək,
Qayğı da, xidmət də tükənməkdədir.

Hərə bir tərəfdə düz danışmayır,
Mənalı, məzmunlu söz danışmayır,
Dərin düşünməyib, üz danışmayır,
Nəşə də, ləzzət də, tükənməkdədir.

Hərə bir tərəfdə saxtalıq edir,
Vicdanı, məsləyi axtalıq edir,
Hiyləlik, şıltaqlıq, yaltaqlıq edir,
Dəyər də, qiymət də  tükənməkdədir.

Hərə bir tərəfdə baş girləyərək.
Fikiri, xəyalı çaş girləyərək,
Sərsəm düşüncələr, huş girləyərək,
Namus da, qeyrət də tükənməkdədir.

Hərə bir tərəfdə dəllallıq edir,
Möhtəkirlik edir, baqqallıq edir,
Həyasızlıq edir, naqqallıq edir,
Dəyər də, qiymət də tükənməkdədir.

Hərə bir tərəfdə xəyanət edir,
Oğruluq, əyrilik, cinayət edir,
Giley-güzar edir, şikayət edir,
Saf arzu niyyət də, tükənməkdədir.

***Cəmil Əkbər*** 13. 11 - 1990

## 279. BEL BAĞLAYIB

İnsanoğlu əzəl gündən, haqsızlıqdan cana doymuş,
Davalarda, dalaşlarda, axıdılan qana doymuş.
Avamlığın, cəhalətin pəncəsindən əzildikcə,
Yarpaq kimi saralaraq, butağından üzüldükcə.
Dərdlər çəkib, qəm yeyərək, vaxt-vədəsiz qocaldıqca,
Haldan düşüb, gücdən düşüb, için-için sozaldıqca.
Haq sözlərə ümid olub, ədalətə bel bağlayıb,
Yaxşı günlər görmək üçün səadətə bel bağlayıb.
Ağlayaraq, sızlayaraq için-için inlədikcə,
Yersiz-yersiz hədələri, hədyanları dinlədikcə.
Nəcib arzu, xoş diləyə, saf niyyətə bel bağlayıb,
Ülviyyətə, qüdsiyyətə, ləyaqətə bel bağlayıb.
Xainlikdən cana doymuş, xəbislikdən bezikmişdir,
Cılızlıqdan hazar etmiş, naqislikdən bezikmişdir.
Nifrət etmiş əzəl gündən hərisliyə uyanlara,
El varını mənimsəyib harınlaşıb doyanlara.
Dözüm, durum, dəyanətə qətiyyətə bel bağlamış,
İnsaf, mürvət, səxavətə, kəramətə bel bağlamış.
Qulaq asıb hakimlərə, dinləmişdir şahları da,
Ərşə çıxan fəryadları, qarğışı da, ahları da.
Acizlərə, fəqirlərə ürəyindən acımışdır,
Xəyalından sarsılaraq, diləyindən acımışdır.
Şər, böhtanlar eşitdikcə al-qanları qaralmışdır,
Eləbilki gen dünyası başlarına daralmışdır.
Dolu döymüş zəmisini, bostanları saralmışdır,
İgidləri moddan düşmüş, dastanları saralmışdır.
Dərdi-qəmlər çəkə-çəkə, sinəsini dağlamışdır,
Taleyindən gileylənib qapısını bağlamışdır.
Qəddarlıqdan, zalımlıqdan hər zaman dad-hazar etmiş,
Bu dünyadan əl üzərək, gen dünyaya güzar etmiş.

Acizlikdən, fəqirlikdən ömürboyu kar görməmiş,
Ağacında gül çiçəklər, butağında bar görməiş.
Qoçaqlığa, zirəkliyə, məharətə bel bağlayıb,
İgidliyin nişanəsi, cəsarətə bel bağlayıb.
Laqeyidlik, biganəlik, soyuqluqdan gileylənib,
Karsız olan müqəvvadan oyuqluqdan gileylənib.
Ürəklərin təpərinə, hərarətə bel bağlayıb,
Nəcibliyə, gözəlliyə, təravətə bel bağlayıb.
Nifrət edib əzəl gündən ilqarsıza, vəfasıza,
Kütbeyinə, savadsıza, başıboşa, qafasıza.
Etibara, düz ilqara, sədaqətə bel bağlanıb,
Bərk ayaqda dözüm-durum dəyanətə bel bağlanıb.
Bəd düşüncə, bədəməldən, əllərini üzüb gedib,
Xətir-hörmət gözləyərək möhübləri düzüb gedib.
Xoş ənənə, xoş vərdişə, bu adətə bel bağlayıb,
Kütlələrə isnad edib, cəmaətə bel bağlayıb.
Nadanlığı, avamlığı, dönə-dönə qamçılayıb,
Qeyiz ilə, qəzəb ilə, yana-yana qamçılayıb.
Oxumaqdan kömək umub, qiraətə bel bağlayıb,
Ədəb, ərkan gözləyərək, mərifətə bel bağlayıb.
Alimləri, loğmanları gör nə gözəl söz deyiblər?
Yaman günlər gəlib keçər, səbr eyləyib, döz deyiblər.
Şərəf ilə yaşamağa, şan-şöhrətə bel bağlanıb,
Bu mənaya, məziyyətə, bu hikmətə bel bağlanıb.
Zəhmət çəkib bu dünyada, hər neməti yaratmışlar,
Bərəkəti tükənməyən bir sərvəti yaratmışlar.
Xidmətinə arxalanıb, bu zəhmətə bel bağlayıb,
Bütün xalqa, bu bəşərə,cəmiyyətə bel bağlayıb,
Yerin, göyün sütununa məhəbbətə bel bağlayıb,
Ürəklərdə cövlan edən, bu riqqətə bel bağlayıb.

***Cəmil Əkbər*** 14. 04 – 1987

## 280. UYMA

Uyma qardaş, dönüklərin felinə,
Səni mənə, məni sənə satacaq.
El malına yönüklərin felinə,
Səni mənə, məni sənə qatacaq.

Aldanmaynan yağlı-yağlı dilinə,
Var-halına, daş-qaşına, ləlinə,
Obasına, oymağına, elinə,
Səni mənə, məni sənə qatacaq.

Vəfasızın sözlərinə inanma,
Cığırına, izlərinə inanma,
Baxışına, gözlərinə inanma,
Səni mənə, məni sənə qatacaq.

***Cəmil Əkbər*** 19.04 -1987

## 281. NƏSİHƏTNAMƏ

Güclüsənsə əzib sıxma, gücsüzləri, füqəranı,
Zülm eyləmə hər yetənə, ayaqlama biçarəni.
Varlısansa səxan olsun, yoxsula da bir əl uzat,
Əlin tutsa haraya çat, gücün yoxsa ol farağat.
Bacarırsan yaxşılıq et, bezikdirmə millətini,
Nahaq yerə incidərək, irzikdirmə xilqətini.
Ağlın olsun ey biçarə, aldanmaynan şöhrətinə,
Ümid olma var qüvvənə, arxalanma qüdrətinə.
Qayğı göstər insanlara ata-ana, bacı kimi,
Bu dövranın, bu həyatın bünövrəsi, tacı kimi.
Yardım eylə köməksizə, tut qolundan yıxılanın,
Dərdlərinə əlac eylə, dadına çat sıxılanın.
Bilirsənsə öyrət onu, bilmirsənsə dinlə məni,
Öyrənməsən, öyrətməsən qınayarlar ellər səni.
Bu dünyada ömür sürmə, qəzəb ilə, nifrət ilə,
Yaxşı dolan el içində, ədəb ilə, hörmət ilə.
Gəl törətmə qal-qovğanı, yersiz dava, nə dalaşı,
Məskən etmə ürəklərdə, nə həyəcan, nə təlaşı.
At çapırtma böhtanlara, meydan açma nadanlara,
Ləkə salma ada-sana, meyl eyləmə avamlığa.
Kim törətsə bədəməllər, peşimandır əzəl-axır,
Öz xalqına dost olanmaz, o düşməndir əzəl-axır.
Ədəb ilə rəftar eylə, görən desin bərəkallah,
Qoy desinlər ey süd əmib, halal olsun ay maşallah.
İnsansansa nəzərə al, yaxşı anla bu mənanı,
Toxunmaynan əsəblərə, qaraltmaynan sən al-qanı.
Artırmaynan ahuzarı, gözlərdən tökmə leysanı,
Zəhlə töküb, ürək üzmə, cana doydurma insanı.

İnsanoğlu cana doysa, bunun bil ki, xətası var,
Kənar olmaz heç də yaxan, sənə də pay çatası var.
El çox görüb əzənləri, xalqına zülm edənləri,
Doğru yolu tərk eyləyib, əyri yolla gedənləri.
Elə et ki, ellər səni yad etməsin nifrət ilə,
Təzim etsin hüzurunda ədəb ilə, hörmət ilə.
Zülm eyləmə gəl bəşərə, quyu qazıb evlər yıxma!
Fitnə-fəsad törətmə gəl, günahsız qəlbləri sıxma!
Arifsənsə yadda saxla, unutmaynan nəsihəti,
Müdrikliklə söylənilən hər kəlamı, hər söhbəti.
Bu sözlərlə qidalandır, öz zəkanı, kamalını,
Gözdən salma el içində öz hüsnünü, camalını.
Ətir saçan qızıl gül ol, dilə gətir bülbülləri,
Hərkəsdənin öz bəxtidir, törətdiyi əməlləri.
Nifrət ilə anılmasın, nə ünvanın, adın sənin,
Eşidəndə utanmasın, nə qohumun yadın sənin.
Abır eylə, həya eylə, yaxşı saxla namus, arı,
Xeyirxaha bədxah olma, ara, axtar səbəbkarı.
İnsansansa huşun olsun, unutmaynan haqq-sayı,
Həyatından gəlib keçən, payız-qışı, yazı-yayı.
Deməsinlər nankor oğlu unudubdur haqq-sayı,
Yaxşı olcaq güzəranı, artıq düşüb yalı-payı.
Deməsinlər nankor oğlu, ayaqlayır millətini,
Baha alıb ucuz satır namusunu, qeyrətini.
Deməsinlər havalanıb, gözü yeri-göyü seçmir,
Tanımayır qohum-yadı, öz yoluyla gəlib keçmir.
Kimsəsizə bir kimsə ol, heç olmasa bircə dəfə,
Bir dada çat, haraya çat, yaraginən xeyrə, şərə,
Hərkəsdənin əməlləri, yadigardır nəsillərə,
Danışılır dildən-dilə, keçir əllərdən-əllərə.
Yaxşı əməl sahibinin könüllərdə izi qalır,
El içində xatirəsi, adı-sanı, sözü qalır.
Baş girləyib can saxlama, elə-belə arsız-arsız,
Gün keçirmə veyil-veyil, orda-burda karsız-karsız.
"Qazanına nə qoyarsan çıxacaqdır qaşığına",
Kamil insan miras qoymaz, bədəməllər uşağına.
Nəyi əksən biçəcəksən, söyləyibdir ata-baba,
El sözünü yadda saxla, əməl eylə, al hesaba.

***Cəmil Əkbər*** 12. 09 – 1975

## 282. ŞƏKƏR

Özünü bənzətmə sən heçkimsəyə,
Ən şirin söhbətim, sözüm ol Şəkər.
Bizlərə sevinc ver, ruha yaraşıq,
Düşünən zəkam ol, gözüm ol Şəkər.

Yarından yarıyıb alın ilhamı,
Sürün yaxşı dövran, həyatda kamı,
Artırın süfrədə çörəklə, tamı,
Ağzımın dadı ol, duzu ol Şəkər.

Şan çəkib, bal düzməz hər uçan milçək,
Hər yetən kimsədən biryolluq əl çək!
Açılsın qəlbində hər gül, hər çiçək,
Gəl mənim baharım, yazım ol Şəkər.

İndiyədək Qələndərin qızıydın,
Özgənin ülkəri, dan ulduzuydun,
Atanın, ananın ərkinazıydın,
İndi də gəl mənim qızım ol Şəkər.

Artır qəlbimizdə gəl məhəbbəti,
Sevin çalışmağı, sevin zəhməti,
Artır İlqarında eşq-hərarəti,
Ocağım odum ol, közüm ol Şəkər.

Olmaynan fikrinin hərdəmxəyalı,
Qədəmin xoş olsun, üzün səyalı,
Dolanıb dünyanı, gəzin həyalı,
Abırlı, ismətli üzüm ol Şəkər.

Çalış ki, işində olmasın nöqsan,
Haqdan yaranmısan, bilginən haqsan!
Eşitsən, Cəmilin sözünə baxsan,
Gəl mənim avazım, sazım ol Şəkər.

***Cəmil Əkbər*** 11.09 – 1987

## 283. DÖNDÜ NƏ DÖNDÜ

Aman Allah bu nə bəladır endi?
Zəmanə tərsinə döndü, nə döndü.
Düha sahibləri "zirvədən" endi,
Zəmanə tərsinə döndü nə döndü.

Ünsiyyət-ülfətlər pozuldu getdi,
Doğrular tərsinə yozuldu getdi,
Xətir də, hörmət də azaldı getdi,
Zəmanə tərsinə döndü nə döndü.

Qanundan, qaydadan qalmadı əsər,
Verməyir bəşərə bir fayda, səmər,
İnsan birbirindən inciyib küsər,
Zəmanə tərsinə döndü nə döndü.

Satan satmağında, alan almaqda,
Gözləri yollarda qalan qalmaqda,[398]
Saralan saralır, solan solmaqda,
Zəmanə tərsinə döndü nə döndü.

Nə insaf qalıbdır, nə mürvət Allah?!
Nə abır, nə həya, nə ismət Allah?!
Nə namus qalıbdır, nə qeyrət Allah?!
Zəmanə tərsinə döndü nə döndü.

Zalımlıq, qəddarlıq çoxalıb yaman,
Etiqad, ehtiram yoxalıb yaman,
Acgözlər, hərislər toxalıb yaman,
Zəmanə tərsinə döndü  nə döndü.

Nadanlıq çoxalıb, cəhalət artıb,
Avamlıq çoxalıb, qəbahət artıb,
Küdurət çoxalıb, ədavət artıb,
Zəmanə tərsinə döndü nə döndü.

---

[398] Əl-ayaq altında qalan qalmaqda.

Hər yetən gədəyə bəydi deyirlər,
Alimə, loğmana keydi deyirlər,
İtirib ağlını, səydi deyirlər,
Zəmanə tərsinə döndü nə döndü.

İnsan bir-birinin bədinə gedir,
Xainlik, xəbislik qəlbini didir,
Özü də bilməyir nə məqsəd güdür,[399]
Zəmanə tərsinə döndü nə döndü.

Şər deyib aranı qatan oqədər?
Vicdanı, məsləyi satan oqədər?
Qərq olub qəflətdə yatan oqədər?
Zəmanə tərsinə döndü nə döndü.[400]

Tülkülər, çaqqallar nərlərə gülür,
Qarğalar, quzğunlar güllərə gülür,
Zənanlar çəmkirib ərlərə gülür,
Zəmanə tərsinə döndü nə döndü.

Şahrah yolumuzdan uzağa düşdük,
Tufana qərq olub, sazağa düşdük,[401]
Qarğatək aldanıb duzağa düşdük,
Zəmanə tərsinə döndü nə döndü.

Xalqın zəhmətini yerə vurdular,
Qərəzində, qisasında durdular,
Bilən yoxdu, nə kələkdi qurdular?[402]
Zəmanə tərsinə döndü nə döndü.

---

[399] Özü də bilməyir nə mətləb güdür.

[400] *II variant*
Şər deyib aranı qatan çoxalıb,
Vicdanı-məsləki satan çoxalıb,
Qərq olub qəflətdə yatan çoxalıb,
Zəmanə tərsinə döndü nə döndü.

[401] İstidən soyuğa, sazağa düşdük.

[402] Min bir hiylə, min bir kələk qurdular.

Ədəb-ərkan nəzakət də pozuldu,
Xeyirxahlıq, fəzilət də pozuldu,
Başdan-başa cəmiyyət də pozuldu,
Zəmanə tərsinə döndü nə döndü.[403]

Ədaləti, həqiqəti dandılar,
İnsanlığı, ləyaqəti dandılar,[404]
Ülvü istək məhəbbəti dandılar,[405]
Zəmanə tərsinə döndü nə döndü.

Nəqədər yaxşıya pisdi dedilər,
Höcətdi, inaddı, tərsdi dedilər,
Gövhər mədəninə misdi dedilər,[406]
Zəmanə tərsinə döndü nə döndü.

Dirilən dirilir, ölənlər ölür,
Ağlayan-ağlayır, gülənlər gülür,
Gözünün yaşını silənlər silir,
Zəmanə tərsinə döndü nə döndü.[407]

***Cəmil Əkbər*** 8. 04 - 1994

## 284. GƏLMƏYİR

Oqədər söz deyib, danışmışam ki,
Heçkimsəyə söz deməyim gəlməyir.
İnciyib, küsmüşəm, barışmışam ki,
Heçkimsəyə tez deməyim gəlməyir.[408]

---

[403] *II variant* Ədəb-ərkan nəzakəti pozdular,
Xeyirxahlıq, fəziləti pozdular,
Şan-şöhrəti, şərafəti pozdular,
Zəmanə tərsinə döndü nə döndü.

[404] Sağlam fikir, pak niyyəti dandılar,

[405] Məna dolu məziyyəti dandılar,

[406] Zalımdı, qəddardı, nəsdi dedilər.

[407] *II variant* Dağıdan-dağıdır, sökənlər-sökür,
Əyib qamətini bükənlər-bükür,
Gözünün yaşını tökənlər-tökür,
Zəmanə tərsinə döndü nə döndü.

Yazmaqla, deməklə qanan kimdiki?
Ellərin dərdinə yanan kimdiki?
Xətiri-hörməti anan kimdiki?
Dərin, dayaz, üz deməyim gəlməyir.[409]

İdrak zəifləyib, zehin korlanıb,
Əsəb tab gətirmir, qanlar qaralıb,
Hövsələ tükənib, səbr daralıb,
Heçkimsəyə döz deməyim gəlməyir.[410]

Kimə nə deyirsən qəlbinə dəyir,
Bal, şərbət yerinə zəhrimar yeyir,
Sözlər hədər gedir, verməyir xeyir,
Heçkimsəyə düz deməyim gəlməyir.[411]

Qaşlar sürmələnib, göz saxtalaşıb,
Ənlikdən, kirşandan üz saxtalaşıb,
Qarılar, gəlinlər, qız saxtalaşıb,
Zənənlərə qız deməyim gəlməyir.

Kimə nə deyirsən, kütoğlu kütdür,
Ağıldan, kamaldan qıtoğlu, qıtdır,
Müqəvvasayağı, bütoğlu bütdır,
Yol göstərib, iz deməyim gəlməyir.

---

[408] *II variant*
Oqədər söz deyib, danışmışamki?
Heçkimsəyə söz deməyim gəlməyir.
Qəlbimdən keçəni düz demişəmki?
Heçkimsəyə düz deməyim gəlməyir.

[409] *II variant*
Qəflət yuxusunda yatan çoxalıb,
Şər deyib aranı qatan çoxalıb,
Üfunət gölünə batan çoxalıb,
Heçkimsəyə üz deməyim gəlməyir.

[410] *II variant*
İdraklar kütləşib, zehin korlanıb,
Əsəblər tablaşmır, qanlar qaralıb,
Hövsələ tükənib, səbr daralıb,
Heçkimsəyə döz deməyim gəlməyir.

[411] *II variant*
Kimə nə deyirsən xətrinə dəyir,
Vurub qamətini, qəddini əyir,
Bir fayda yetirib verməyir xeyir,
Heçkimsəyə tez deməyim gəlməyir.

Aqillər yerinə naşı gəlibdir,
Zalımlar, qəddarlar, vəhşi gəlibdir,
Ünsiyyət-ülfətin qışı gəlibdir,
Açılsada yaz deməyim gəlməyir.

Cəmil Əkbər buminvalla qəmdədir,
Düşüb eşq-həvəsdən, yaman bəmdədir,
Əyərdədir, əksikdədir, kəmdədir,
Dilim-ağzım saz deməyim gəlməyir.[412]

***Cəmil Əkbər*** 20. 08 -1999

## 285. EHTİRAM

*Prof. Ş.A.Əliyevin 60 illik yubileyinə*

Eşitdimki, yubleyindi bu günlər,
Açıldı qəlbimdə düşən düyünlər,
Nə gözəldir bu səs-səmir, bu ünlər,
Bu xətirə, bu hörmətə ehtiram.[413]

Gözəl bir diyarın kamallı oğlu,
Dərin düşüncəli, amallı oğlu,
Dəyərli, məzmunlu, samballı oğlu,
Gülərüzə, xoş sifətə ehtiram.[414]

---

[412] *II variant* Cəmil Əkbər qəm içində qalsan da,
Pəsə düşüb, bəm içində qalsan da,
Əyər əksik, kəm içində qalsan da,
Bu dünyadan bez deməyim gəlməyir.

[413] *II variant* Eşitdimki, yubleyindi bu günlər,
Bu xəbərə, bəyanətə ehiram.
Nə gözəldir bu səs-səmir, bu ünlər,
Bura gələn cəmaətə ehtiram.

*III variant* Mehriban, səmimi əziz yubliyar,
Bu şərəfə, bu şöhrətə ehtiram.
Arzusu, istəyi təmiz yubliyar,
Bu xidmətə, bu zəhmətə ehtiram.

[414] *II variant* Gözəl bir diyarın kamallı oğlu,
Vicdanlı, məsləkli amallı oğlu,
Mənalı, məzmunlu, samballı oğlu,
Nurlu üzə, xoş sifətə ehtiram.

Eşq olsun, harda var hünər əhlinə,
Qələbə, təntənə, zəfər əhlinə,
Uğurlu yollarda səfər əhlinə,
İnsanlığa, ləyaqətə ehtiram.[415]

Qoy sözlərim məclisində gül açsın,
Darçın açsın, mixək açsın, hil açsın,
Al-yaşıla bürünərək, çöl açsın,
Gül-çiçəyə, təravətə ehtiram.[416]

Böyüyün, kiçiyin yerini bildin,
Dayazı seyr etdin, dərini bildin,
İnsanlıq elminin sirrini  bildin,
Mərifətə, nəzakətə ehtiram.

Ünsiyyətdə etibarın az deyil,
Sinən dolu iftixarın az deyil,
Məhəbbətdən ilk nübarın az deyil,
Sədaqətə, səxavətə ehtiram.[417]

Xainliklə, xəbisliklə aran yox,
Naxələflik, naqisliklə aran yox,[418]
Ehtirasla, hərisliklə aran yox,
İnsaf-mürvət, kəramətə ehtiram.

---

*III variant* Gözəl bir diyarın kamallı oğlu,
Əqidəli oğlu, amallı oğlu,
Dəyərli, qiymətli samballı oğlu,
Bu məzmuna, bu hikmətə ehtiram.

[415] *II variant* Harda var eşq olsun, hünər əhlinə,
Qələbə, təntənə, zəfər əhlinə,
Uğurlu yollarda səfər əhlinə,
Bu nicata, bu nüsrətə ehtiram.

[416] Ətri-ənbər, təravətə ehtiram.

[417] *II variant* Sinən dolu iftixarın gözəldir,
Bacarığın, iqtidarın gözəldir,
Ünsiyyətdə etibarın gözəldir,
Sədaqətə, səxavətə ehtiram.

[418] Fitnə-fəsad naqisliklə aran yox.

Elmin yollarında yorulmamısan,
Nə sağa, nə sola burulmamısan,
Heçkəsə küsənib darılmamısan,
Bu bacarıq, fərasətə ehtiram.[419]

Halal zəhmət ilə murada çatdın,
Şərəfli-şöhrətli bir ada çatdın,
Yetişib köməyə, imdada çatdın,
Bu nicata, bu nüsrətə ehtiram.

Gözəldi, nəcibdi, arzu-diləyin,[420]
Bəd əsməyir heçbir kəsə küləyin,
İncitməyib, yerli-yersiz kələyin,
Sənin kimi qənimətə ehtiram.

Bu məclisə şərafətlə gəlmişik,
Ürək dolu hərarətlə gəlmişik,
Ərk eyləyib cəsarətlə gəlmişik,
Üzdə həya, bu ismətə ehtiram.

Mehri-ülfət, səmimiyyət var olsun,
Kamil insan harda varsa car olsun,
Qəlbində hərzaman iftixar olsun,
Bu istəyə, məhəbbətə ehtiram.[421]

Əziz Şikar yoldaşlığın gözəldir,
Dost-mehriban, qardaşlığın gözəldir,
Tay-tuşluğun, çağdaşlığın gözəldir,
Xeyirxahlıq, fəzilətə ehtiram.

Bilmirəm heç nədən söz açım indi,
Təzə puçurlayıb göz açım indi,
Könüllər mülkünə iz açım indi,
Bu şərəfə, bu şöhrətə ehtiram.[422]

---

[419] Bu bacarıq, məharətə ehtiram.
[420] Gözəldir, ülvidir, arzu-diləyin.
[421] *II variant* Sözüm nə çox olsun, nə az deyilsin,
Nə dayaz görünsün, nə üz deyilsin,
Nə biraz geciksin, nə tez deyilsin,
Eşq-həvəsə, məhəbbətə ehtiram.

Elimin, obamın həyalı oğlu,
Məsləkli, vicdanlı, qayəli oğlu,[423]
Qədəmi uğurlu, sayəli oğlu,
Bu abıra, bu nemətə ehtiram.

Bu saflığı dağlar sənə bəxş edib,
Gül-çiçəkli bağlar sənə bəxş edib,
Şamamalı tağlar sənə bəxş edib,
Bu töhvəyə, ənaətə ehtiram.

Qoy səni yetirən ellər var olsun,
Çəmənlər, çiçəklər, güllər var olsun,
Bədinə danışan dillər xar olsun,
Ədəb-ərkan, mərifətə ehtiram.

Enişli, yoxuşlu yollar keçmisən,
Durna gözlü bulaqlardan içmisən,
Özün üçün düzgün yolu seçmisən,
Bu fəhmə, fərasətə ehtiram.[424]

İşləkdi idrakın, parlaqdı zehnin,
Gülsün dövranımız, nəvar al, geyin,
Açılsın qaşqabaq, açılsın eyin,
Xoş arzuya, pak niyyətə ehtiram.

Bəslədiyin dürlü-dürlü bağ olsun,
Yetirdiyin bostan olsun, tağ olsun,
Kef-damağın qoy həmişə çağ olsun,
Bu zəhmətə, bu xidmətə ehtiram.[425]

---

[422] *II variant* Bir deyin mən nədən, söz açım indi?
Söyləyib mətləbi düz açım indi?
Təzə puçurlayıb, göz açım indi?
Bu şərəfə, bu şöhrətə ehtiram.

[423] Əqidəli oğlu, qayəli oğlu.

[424] *II variant* Özün üçün gözəl yolu yeçmisən,
Durna göz bulaqdan suyu içmisən,
Gör nəqədər eniş-yoxuş keçmisən?
Bu bacarıq, məharətə ehtiram.

[425] *II variant* El içində üzün daim ağ olsun,
Həyat boyu canın-başın sağ olsun,
Becərdiyin bostan olsun, tağ olsun,
Bu nemətə, bu hikmətə ehtiram.

Altmış nədir, yetmişi də qeyd edək,
Yetmiş azdır, səksəni də qeyd edək,
Məqam gəlsin yüz yaşı da qeyd edək,
Bu dözümə, dəyanətə ehtiram.[426]

***Cəmil Əkbər*** 11-15. 01 – 1996

## 286. EHTİRAM!

Sarısuda keçən günə aylar, illər, gün çatarmı?
Səsi yayıb, səda salıb sözünü deyin çatarmı?
Bu məramla keçən günlər gedər ay, il hədərdi o,
Dərd-azara, işgəncəyə, qəm-qüssəyə kədərdi o.
Mərd igidlə keçən günün anbaanı kef-damaqdı,
Yeyib-içmək, deyib-gülmək, çal-çağırdı, oynamaqdı.
Ha keçsə də dövrü-zaman, bu günlərə il çatanmaz,
Yığılsa da, cəm olsa da, Muğan, Şirvan, Mil çatanmaz.

Əziz günlər, xoş xatirə yaddaşlardan çıxan deyil,
Əsəbləri korlayaraq, ürəkləri sıxan deyil.
Məhəbbətlə keçən günlər, ləyaqətdən xatirədir,
Hatəmlərdən nişanədir, səxavətdən xatirədir.
Gözəl gündən, xoş dövrandan qəlbimizdə izi qalar,
Artacaqdı hərarəti, odu sönməz, közü qalar.
Boş-bikarə keçən günlər, bu günlərə tay olanmaz,
Hər səs-küyü, səmirləri, bu ünlərə tay olanmaz.
Sağlam fikir, düşüncələr, məhəbbətdən yadigardır,
Dost-tanışa nəsib olan, sədaqətdən yadigardır,
Əhdi-peyman, düz ilqardan, nəzakətdən yadigardır,
Xətir-hörmət, insaf-mürvət kəramətdən yadigardır.
Zaman-zaman xatırlarıq ötüb-keçən bu anları,
Yaddaşlardan unutmarıq, bu dövranı, zamanları.
Sərf olunan bu qayğıya, bu zəhmətə min ehtiram!
Pak arzuya, pak diləyə, pak niyyətə min ehtiram!

---

[426] *II variant*

Altmış nədir, yetmişi də yola sal,
Yetmiş azdır, səksəni də yola sal,
Gəlsin o gün, doxsanı da yola sal,
Kürd elinə, cəmatə ehtiram.

Əhsən olsun bu dostluğa, bu ünsiyyət, bu ülfətə,
Vaqif dostun göstərdiyi bu qayğıya, bu xidmətə.
Namaz kimi eloğluya, komunistə min ehtiram!
Harda varsa nəcib insan, humanistə min ehtiram!
Qədir bilib, qiymət verən ləyaqətə min ehtiram!
Cəmiyyətə zinət verən məharətə min ehtiram!
El yükünü, qayğısını çəkənlərə min ehtiram!
Bağlar salıb becərənə, əkənlərə min ehtiram!
Zəhmət çəkib tər tökərək quranlara min ehtiram!
İnsanlığın keşiyində duranlara min ehtiram!
Kişi kimi ad qazanıb, yaşayana min ehtiram!
Gecə-gündüz el dərdini daşıyana min ehtiram!
Ürəklərdə hökm eyləyən məhəbbətə min ehtiram!
Qoy var olsun əbədilik, sədaqətə min ehtiram!

***Cəmil Əkbər*** 27.08 – 1999

## 287. YARAŞSIN

*Prof.Dr. Niyaz Səfərovun 70 il yubileyi münasibəti ilə*

Şəninə nə deyim əziz yubliyar?
Şərəfinə, şöhrətinə yaraşsın.
Vicdanı, məsləyi təmiz yubliyar,[427]
Xidmətinə, zəhmətinə yaraşsın.

Mən nədən başlayım, necə söz açım?
Könüllər mülkündə necə iz açım?
Necə puçurlayım, necə göz açım?
Məclisinə, söhbətinə yaraşsın.[428]

Neyləyək şəninə darılmasınlar?
Çatlayıb içindən qırılmasınlar?
Bədinə danışıb yorulmasınlar?
Qeyrətinə, heyrətinə yaraşsın.

---

[427] 1) Ünsiyyət-ülfəti təmiz yubliyar. 2) Arzusu, istəyi təmiz yubliyar.

[428] *II variant* Mən nədən başlayım, söz açım indi?
Yolları-izləri düz açım indi,
Necə puçurlayım, göz açım indi?
Məclisinə, söhbətinə yaraşsın.

Elimin-obamın kamallı oğlu,
Vicdanlı, məsləkli, amallı oğlu,
Tutarlı, dəyərli, samballı oğlu,
Məzmununa, hikmətinə yaraşsın.[429]

Nəyi bəyan edim, nəyi bildirim?
Necə sevindirim, kimi güldürüm?
Kimləri yaşadım, kimi öldürüm,
Hörmətinə, izzətinə yaraşsın. [430]

Kimlə ülfət edim, kimi dindirim?
Kimi zirvələrdən vurub endirim?
Kimləri yandırım, kimi söndürüm?
Nəzərinə, diqqətinə yaraşsın.[431]

---

[429] *II variant*
Bu elin-obanın kamallı oğlu,
Əqidəli oğlu, amallı oğlu,
Dəyərli, qiymətli samballı oğlu,
Məzmununa, hikmətinə yaraşsın.

*III variant*
Zəmanə mülkünün hörmətli oğlu,
İdraklı, zəkalı, mürvətli oğlu,
Cəsarətli oğlu, cürətli oğlu,
Məzmununa, hikmətinə yaraşsın.

[430] *II variant*
Nəyi elan edim, nəyi bildirim?
Kimləri şən edim, kimi güldürüm?
Kimləri dirildim, kimi öldürüm,
Təpərinə, riqqətinə yaraşsın.

*III variant*
Heç bilmirəm nəyi, necə bildirim?
Şuxluq edim, kimi necə güldürüm?
İncik könülləri necə aldırım?
Təpərinə, riqqətinə yaraşsın.

[431] *II variant*
Kimdən uzaq gəzim, kimi dindirim?
Su töküb üstünə kimi söndürüm?
Vurub zirvələrdən kimi endirim?
Nəzərinə, diqqətinə yaraşsın.

*III variant*
Kimi bu mövqedən salıb endirək,
Ocağına su calayıb söndürək,
Ondan kənarlaşaq, sərin dindirək,
Nəzərinə, diqqətinə yaraşsın.

Yetmiş nədir, səksəni də qarşıla,
Səksən nədir, doxsanı da qarşıla,
Doxsan nədir, lap yüzü də qarşıla,
Var qüvvənə, qüdrətinə yaraşsın. [432]

Necə qiymət verim hünər əhlinə?
Qələbə, təntənə, zəfər əhlinə?
Uğurlu yollarda səfər əhlinə?
Nicatına, nüsrətinə yaraşsın.[433]

Sözlərim nə əksik, artıq olmasın,
Hərzəkar olmasın, sırtıq olmasın,
Heçkəsin malına ortaq olmasın,
Pak-arzuna, niyyətinə yaraşsın[434]

Fikirlər dolaşıb düşməsin düyün,
İşləsin düzünə təfəkkür, beyin,
Açılsın qaşqabaq, açılsın eyin,
İnsafına, mürvətinə yaraşsın.[435]

---

[432] *II variant*
Yetmiş nədir, səksəni də qarşıla,
Gəlsin məqam, doxsanı da qarşıla,
Arzum budur yüz yaşı da qarşıla,
Dözüm, durum qüdrətinə yaraşsın.

*III variant*
Yetmiş nədir, səksəni də yola sal,
Səksən nədir, doxsanıda yola sal,
Doxsan nədir, lap yüzü də yola sal,
Dözüm, durum qüdrətinə yaraşsın.

[433] *II variant*
Eşq olsun harda var, hünər əhlinə,
Qələbə, təntənə, zəfər əhlinə?
Uğurlu səhərə səfər əhlinə?
Nicatına, nüsrətinə yaraşsın.

*III variant*
Zərbələr dəyməsin hünər əhlinə,
Qələbə, təntənə, zəfər əhlinə?
Uğurlu yollarda səfər əhlinə?
Nicatına, nüsrətinə yaraşsın.

[434] *II variant*
Elə dərk eyləyib, elə sezginən,
Seyrə çıxıb el-obanı gəzginən,
Elə sinə gərib, elə dözgünən,
Pak-arzuna, niyyətinə yaraşsın.

Qoy sözlərim düz atılsın hədəfə,
Gecikməsin, tez atılsın hədəfə,
Səksən, doxsan, yüz atılsın hədəfə,
Nəzərinə, diqqətinə yaraşsın.[436]

İlqar-iman aralıqda düz olsun,
Nə dayaz görünsün, nə də üz olsun,
Vicdanla, məsləklə üzbəüz olsun,
Dəyərinə, qiymətinə yaraşsın.

Adın-sanın el içində dağ olsun,
Canın-başın ömürboyu sağ olsun,
Qoy üzün də pambıq kimi ağ olsun,
İşin-gücün, sənətinə yaraşsın.[437]

***Cəmil Əkbər*** 6 – 11. 01 – 1996

## 288. SƏMTİNƏ

Göz açıb dünyaya gələn kimsələr,
Seyr edin səmtinə, gəzin səmtinə.[438]
Ellərin dərdinə gülən kimsələr,[439]
Səbr edib sinə gər, dözün səmtinə.

---

[435] *II variant* İdrak pas atmasın, parlasın zehnin,
Açılsın qaşqabaq, açılsın eynin,
Fikirlər dolaşıb, düşməsin düyün,
İnsafına, mürvətinə yaraşsın.

[436] *II variant* Qoy sözlərim məclisində gül açsın,
Darçın açsın, mixək açsın, hil açsın,
Muğan açsın, Şirvan açsın, Mil açsın,
Nəzərinə, diqqətinə yaraşsın.

[437] *II variant* Pambıq kimi qoy üzün də ağ olsun,
Canın-başın ömürboyu sağ olsun,
İşin-gücün, sənətinə yar olsun,
Təki sözüm söhbətinə yaraşsın.

*III variant* Adın-sanın el içində yaşasın,
Bülbül olsun gül içində yaşasın,
Səksən, doxsan, yüz içində yaşasın,
Vüsətinə, sürətinə yaraşsın.

[438] Dolanın səmtinə, gəzin səmtinə.

[439] Ağlayan, sızlayan, gülən kimsələr.

Hərlənib tərsinə, kəcinə getmə!
Bədinə danışıb öcünə getmə!
İtirib əqlini gicinə getmə!
Yön alın səmtinə, üzün səmtinə.

Tərsinə dartılıb, tərsinə çəkmə!
Tərsinə şum edib, tərsinə əkmə!
Tərsinə becərmə, tərsinə tökmə!
Becərin səmtinə, üzün səmtinə.

Ana deyin, bacı deyin qadına,
Hörmət eylə qohumuna, yadına,
Ötürməynən peysərinin ardına,
Hiss edin səmtinə, sezin səmtinə.

İnsafı-mürvəti atıb getməyin,
Qəflət yuxusunda yatıb getməyin,
Yaxşını yamana qatıb getməyin,
Becərin səmtinə, düzün səmtinə.

Salma aralığa dava-dalaşı,
Həyəcan, səksəkə, qorxu, təlaşı,
Bəd işlə, əməllə getmə yanaşı,
İnciyin səmtinə, bezin səmtinə.

Zalımın, qansızın halına qalma!
Ruhunu oxşayıb, könlünü alma!
Nənnini düzəldib layla da çalma!
Tapdala səmtinə, əzin səmtinə.[440]

***Cəmil Əkbər*** 3. 06 – 1982

---

[440] *II variant* Zalımın, qansızın halına qalma,
Qərq olub fikirə, xəyala dalma,
Yüyrəklər düzəldib laylasın çalma,
Tapdala səmtinə, əzin səmtinə.

## 289. VARSA

Şərəf də səndədir, şöhrət də səndə,
Qanında, canında, genində varsa.
Xətir də səndədir, hörmət də səndə,
Səsində, küyündə, ünündə varsa.

Namus da səndədir, qeyrət də səndə,
Xidmət də səndədir, zəhmət də səndə,
Dəyər də səndədir, qiymət də səndə,
Düşüncə, dərrakə, zəndində varsa.

Abır da səndədir, ismət də səndə,
Halaldan kəsb olan, qismət də səndə,
Məzmun da, məna da, hikmət də səndə,
Arzu-istəyində, şənində varsa.

Zirvədən-zirvəyə ucalacaqsan,
Səksənə, doxsana  qocalacaqsan,
Hünərlər göstərib, bac alacaqsan,
Təməlində varsa, himində varsa.

Külək də, tufan da söndürə bilməz,
Zirvədən aşağı endirə bilməz,
Yolundan, izindən döndərə bilməz,
Damarında varsa, qanında varsa.

Əsrlərdən-əsrə sözün qalacaq,
Cığırın, yolağın, izin qalacaq,
Ocağın, alovun, közün qalacaq,
Fürsətində varsa, fəndində varsa.

Hamı hüzurunda bəli deyəcək,
İncinin, sədəfin ləli deyəcək,
Çəməni, çiçəyi, gülü deyəcək,
Zülalında varsa, şanında varsa.

Sənə sərraf nədir, zərgər baş əyər,
İşində, gücündə pərgar baş əyər,
General baş əyər, əsgər baş əyər,
Gövhərində varsa, kanında varsa.

Arı da şirənə gəlib qonacaq,
Dadacaq tamını, bilib qonacaq,
İrişib üzünə, gülüb qonacaq,
Damarında varsa, qanında varsa.

Qınama qardaşım, Çəmil Əkbəri,
Olubdu dünyadan az-çox xəbəri,
Görüb-götürübdür haçandan bəri,
Cəsədində varsa, canında varsa.

***Cəmil Əkbər*** 12. 03- 1991

## 290. HƏSRƏTİNDƏYƏM

Haçandan bəridir gözüm yoldadır,
Gözəl bir afətin həsrətindəyəm.
Fikirim, xəyalım, özüm yoldadır,
Abırın, ismətin həsrətindəyəm.

Hayanda qalıbdır can deyənlərim?
Xətiri, hörməti an deyənlərim?
Böyüyü, kiçiyi san deyənlərim?
Ülvi-məhəbbətin həsrətindəyəm.

Üzlərdə, gözlərdə həya azalıb,
İnsandan-insana sayə azalıb,
Təlimi düz verən dayə azalıb,
Vətənə xidmətin həsrətindəyəm.

Hamı bir-birinin bədinə gedir,
Qanına sussayıb, cibini güdür,
Xainlik, xəbislik qəlbləri didir,
Nicatın, nüsrətin həsrətindəyəm.

Kimi dindirirsən yalan danışır,
Boğazdan yuxarı kalan danışır,
Əqrəbdən söz açıb, ilan danışır,
Doğru bəyanatın həsrətindəyəm.

İstərdim qəlblərin pası silinsin,
Kədəri, qüssəsi, yası silinsin,
Hamının astarı, üzü bilinsin,
Pak arzu-niyyətin həsrətindəyəm.

Utanan yox, qızaran yox bəd işdən,
Bəd adətdən, ənənədən, vərdişdən,
Baş açan yox bu dövrandan, gərdişdən,
Haqqın, ədalətin həsrətindəyəm.

Hayana baxıram dönüklər çoxdur,
Vicdanlar, məsləklər sönüklər çoxdur,
Yırtıcı, canavar, əniklər çoxdur,
Sağlamca ülfətin həsrətindəyəm.

Dünyada oqədər yalan eşitdim,
Züy tutub nağara çalan eşitdim,
Xəzana qərq olub solan eşitdim,
Bir doğru söhbətin həsrətindəyəm.

İstərdim qəlblərin pası silinsin,
Kədəri, qüssəsi, yası silinsin,
Hamının astarı, üzü bilinsin,
Pak arzu-niyyətin həsrətindəyəm.

Sinələrə dağ-düyünlər vururlar,
Birbirinə hiylə-kələk qururlar,
Qərəzində, qisasında dururlar,
Cəmiləm hörmətin həsrətindəyəm.

***Cəmil Əkbər*** 2. 08-1998

## 291. ÇALIŞDIM

Əzəldən bu oldu amalım mənim,
Sədaqətə, səxavətə çalışdım.
Hökmedən idrakım, kamalım mənim,
Ədalətə, həqiqətə çalışdım.

El-obada xətir-hörmət gözlədim,
Ülvi-istək, pak-məhəbbət gözlədim,
Ünsiyyətdə mən ləyaqət gözlədim.
Ədəb-ərkan, nəzakətə çalışdım.

Yaxşıları yamanlara qatmadım,
Mərd igidi namərdlərə satmadım,
Bədxahlıqla muradıma çatmadım,
İnsaf-mürvət, kəramətə çalışdım.

Bu cahanda tək özümü görmədim,
Öz yolumu, öz izimi görmədim,
Öz ərkimi, öz nazımı görmədim,
Cəmiləm, bu məmləkətə çalışdım.

***Cəmil Əkbər*** 11.09 -1998

## 292. BU NECƏ HƏYATDIR?

İnsan birbirinə yalan danışır,
Bu necə yaşayış, necə həyatdır?
Boğazdan yuxarı kalan danışır,
Bu necə yaşayış, necə həyatdır?

Birisi dünyanın qəmini çəkir,
Əyər-əksiyini, kəmini çəkir,
Qaralmış buludun nəmini çəkir,
Bu necə yaşayış, necə həyatdır?

Birinin kefi kök, damağı çağdır,
El-oba içində üzü də ağdır,
Yediyi-içdiyi bal ilə yağdır,
Bu necə yaşayış, necə həyatdır?

Biri birisinin qanını sorur,
Zülalını çəkir, şanını sorur,
Gövhərini sorur, kanını sorur,
Bu necə yaşayış, necə həyatdır?

İnsan bir-birinin qəlbinə dəyir,
Bədinə danışıb, bədinə deyir,
Artırıb dərdini- qəddini əyir,[441]
Bu necə yaşayış, necə həyatdır?

Ünsiyyət-ülfəti pozana baxın,
Doğrunu əyriyə yozana baxın,
Yolunu-izini azana baxın,
Bu necə yaşayış, necə həyatdır?

Bezdirən bir yanda, bezən bir yanda,
Avara dolanıb gəzən bir yanda,
Düşüb müsibətə dözən bir yanda,
Bu necə yaşayış, necə həyatdır?

Biri kef içində, biri qəmdədir,
Biri zildə ötür, biri bəmdədir,
Biri cah-calalda, biri kəmdədir,
Bu necə yaşayış, necə həyatdır?

***Cəmil Əkbər*** 15-16. 09 - 1998

## 293. DÜŞƏNDƏ

Sarvan yolu azarmış, karvan izi çaşarmış,
Göz nurunu itirib, diz taqətdən düşəndə.
Xış da dəbdən düşərmiş, vəl xırmansız qalarmış,
Göz nurunu itirib, diz taqətdən düşəndə.

Yoldaş ruhu oxşamaz, yar da ruhu oxşamaz,
Cahi-calal azalar, var da ruhu oxşamaz.
Aşiq həvəsdən düşər, saz da ruhu oxşamaz,
Ərk də ruhu oxşamaz, naz da ruhu oxşama.
Söz də əsərdən düşər, qılınc kəsərdən düşər,
Zəhmət səmərdən düşər, xidmət bəhərdən düşər.
Göz nurunu itirib, diz taqətdən düşəndə.
Payız nədir, qış nədir, yaz da xoşa gəlməyir,
Çox da gözə görünmür, az da xoşa gəlməyir.

[441] Atıb insafını, haqqını yeyir.

Gözəl-göyçək bakirə, qız da xoşa gəlməyir,
“Tərəkəmə”, “Tvist” də, “Caz” da xoşa gəlməyir.
Dağlar nəzərdən düşür, bağ da ruhu oxşamır,
Bostanlar da, dirrik də, tağ da ruhu oxşamır.
“Ləl”, “Cəvahir”, “Yaqut” da, daş da gözə görünmür.
Ayaq yolu gedənmir, baş bədəni girləmir,
Ha yeyirsən, içirsən, “Aş” bədəni girləmir.
“Kabab”, “dolma”, “düşbərə”, “xaş” bədəni girləmir,
Fikir-xəyal dağılır, huş bədəni girləmir.
Olan qüvvət azalır, iş də gözə görünmür,
Damaqlarda qalmayır, diş də gözə görünmür.
Göz nurunu itirib, diz də girdən düşəndə.

Gəraylı da, qoşma da, qəlbimizə yatmayır,
Nə yazılır-yazılsın, beynimizə batmayır.
“Xəmsə” təsir eyləmir, dastan ruhu oxşamır,
Sədi yazan “Gülüstan”, “Büstan” ruhu oxşamır.
Gözə dəymir dost-tanış, gendən gəzir yoldaşlar,
Seyrəlibdir tay-tuşlar,  azalıbdır çağdaşlar.
Yetə bilmir haraya, atalar da, baba da,
Olduğumuz mahal da, elimiz də, oba da.
Alim kömək edənmir, loğman kara yetənmir,
Təbib əlac edənmir, dərman kara yetənmir.
Göz nurunu itirib, diz taqətdən düşəndə.

Əsəblər də korlanır, al-qanımız qaralır,
Həyat dönür zülmətə, dünya başa daralır.
Xəzan bağı bürüyür, əzalar da çürüyür,
Qəm-qüssələr yol tapıb, qəlbimizə yeriyir.
Butaqlarda açmamış, tər qönçələr saralır,
Dağ başını bürüyür, duman alır, qar alır.
İnsan möhtac qalarmış, təbiblərə, dərmana,
Təmiz abı-havaya, gül-çiçəkli ormana.
Zaman gəlir, vaxt ötür, vücud gərəksiz olur,
Sönüb gedir eşq-həvəs, insan ürəksiz qalır.
Bədəndən güc azalır, olan-qalan pozulur,
Göz nurunu itirib, diz taqətdən düşəndə.

***Cəmil Əkbər*** 30.09 – 1996

## 294. SƏN YADIMA DÜŞƏNDƏ[442]

Duman çökür gözümə,
Su calanır közümə,
Gələnmirəm özümə,
Sən yadıma düşəndə.

Gah boşalıb-doluram,
Saralıram-soluram,
Gözü yolda qalıram,
Sən yadıma düşəndə.

Ürəyim qan ağlayır,
Diləyim qan ağlayır,
Çörəyim qan ağlayır,
Sən yadıma düşəndə.

Elim-obam ağlayır,
Yurdum-yuvam ağlayır,
Nənə, baba ağlayır,
Sən yadıma düşəndə.

Dərdə-qəmə düşürəm,
Zildən-bəmə düşürəm,
Gör nəgünə düşürəm?
Sən yadıma düşəndə.

Kədər dolur başıma,
Düyün düşür qaşıma,
Qayçı dəyir yaşıma,
Sən yadıma düşəndə.

***Cəmil Əkbər*** 16. 09 - 1998

---

[442] "Sən yadıma düşəndə" rədifli şeirini Cəmil Əkbər, oğul nəvəsi Fariz Zakiroğlunun faciəvi şəkildə həlak olması ilə əlaqədar kədərini izhar etmişdir.

## 295. ARXADA

Dövrü-zəmanəyə nə deyim indi?
Xətir qaldı, hörmət qaldı arxada.
Danlayım, dalaşım, nə söyüm indi?
İnsaf qaldı, mürvət qaldı arxada.

Yaddan çıxıb namus, qeyrət, ar nədi?
Tərlan nədi, şahin nədi, sar nədi?
Qohum-qardaş, tay-tuş, sirdaş, yar nədi?
Abır-həya, ismət qaldı arxada.

Hərkəs indi öz başını girləyir,
Fikir, xəyal, öz huşunu girləyir,
Öz tayını, öz tuşunu girləyir,
Qayğı qaldı, xidmət qaldı arxada.[443]

Qiymət yoxdur ləyaqəti olana,
Ülvi-istək, məhəbbəti olana,
Sədaqəti, səxavəti olana,
Nəzər qaldı, diqqət qaldı arxada.[444]

Ünsiyyəti tənzim edir pul indi,
İnci-sədəf, daş-qaş indi, ləl indi,
Oxu, öyrən düz başa düş, bil indi,[445]
Xahiş qaldı, minnət qaldı arxada.

---

[443] *II variant* Təmənnasız xidmət qaldı arxada.
Düşünənə, dərk edənə, qanana,
Nə alimə, münəccimə, loğmana,
Təmənnasız xidmət qaldı arxada.

[444] *II variant* Qiymət yoxdur ləyaqəti olana,
Düşünənə, dərk edənə, qanana,
Nə alimə, münəccimə, loğmana,
Nəzər qaldı, diqqət qaldı arxada.

[445] İstər yaşa, istərsədə öl indi.

İnsan oğlu biclik ilə dolanır,
İlqarına kəclik ilə dolanır,
Haq-divana öclük ilə dolanır,
Məzmun qaldı, hikmət qaldı arxada.[446]

Hamı indi cəhalətə yol tapıb,
Gör haçandan qaj ayırıb, qol tapıb,
Dəhşətləri, müsibəti bol tapıb,
Behişt qaldı, cənnət qaldı arxada.

Ədəb-ərkan, nəzakətə baxan yox,
Xeyirxahlıq, fəzilətə baxan yox,
Saf arzuya, pak niyyətə baxan yox,
Mənəviyyat, mərfət qaldı arxada.

Kimi hara qoyurlarsa işləyir,
Toyuğunu, cücəsini küşləyir,
Çalıb-çapır, gen-boluna dişləyir,
Peşə, məslək, sənət qaldı arxada.

***Cəmil Əkbər*** 20. 09 -1998

## 296. EYLƏYİRLƏR

İlahi sən yetiş haraya, dada,
Qananı qanmaza qul eyləyirlər.
Ah-nalə əlindən dolur dərya da,
Gözlərin yaşını sel eyləyirlər.[447]

---

[446] *II variant*
Bəşər batır qəbahətin içində,
Kin-küdurət, ədavətin içində,
Xainliyin, xəyanətin içində,
Məzmun, məna, hikmət qaldı arxada.

[447] *II variant*
İlahi tez yetiş haraya, dada,
Qananı qanmaza qul eyləyirlər
Çoxalar dünyada ziddiyət, qada,
Gözlərin yaşını sel eyləyirlər.

*III variant*
Nəüçün belədir qoca dünyada?
Qananı qanmaza qul eyləyirlər,
Baxan yox ah-nalə, nə də fəryada,
Gözlərin yaşını sel eyləyirlər.

Xətirdən, hörmətdən qalmayıb əsər,
Sözlərdən, söhbətdən qalmayıb səmər,
Nəqədər deyilir, etməyir kəsər,
Milçəyi böyüdüb fil eyləyirlər.[448]

Aldanırlar tamah ilə nəfisə,
Meydan verilibdir acgöz, hərisə,
Xainə, paxıla, pisə, xəbisə,
Yandırıb Kərəmi kül eyləyirlər.[449]

Var-hala çatıbdır dəllal, darğalar,
Çəkilir irəli yaltaq yorğalar,
Bağda meydan açıb alaqarğalar,
Bülbülün yerini kol eyləyirlər. [450]

Çox eyləsən girəcəklər qəsdinə,
Ayaq alıb düşəcəklər üstünə,
Dəyəcəklər xətirinə, şəstinə,
Axıdıb qanını göl eyləyirlər.

İnanırlar saxtalığa, yalana,
Varlılara, hallılara, kalana,
Düyünlənib hücrələrdə qalana,
Çevrilib daş-qaşa, ləl eyləyirlər.

Nəüçün belədir görən zamana?
Baxan yox naləyə, aha-amana,
Köhlən həsrət qalıb ota, samana,
Eşşəyin yemini bol eyləyirlər.

---

[448] *II variant* Xətir də, hörmət də itir arada,
İnsaf da, mürvət də itir arada,
Zəhmət də, xidmət də itir arada,
Milçəyi böyüdüb fil eyləyirlər.

[449] *II variant* Aldanırlar tamah ilə nəfsə,
Meydanı verirlər acgöz, hərisə,
Baxan yox məhəbbət, eşqə həvəsə,
Yandırıb arzunu kül eyləyirlər.

[450] *II variant* Varlanır, hallanır dəllal, darğalar,
Çəkilir başlara yaltaq yorğalar,
Bağçada oxuyur alaqarğalar,
Bülbülün yerini kol eyləyirlər.

Bu sirli dünyaya mən qalmışam mat,
Nə dəlil var, nə sübut var, nə isbat,
Niyə vaqe olur bu cürə həyat?
Cılız danaları kəl eyləyirlər.

İnanın sözümün əsası vardır,
Özülü, təməli, binası vardır,
Uzunu, gödəyi, qısası vardır,
Nələr qalmayıb ki, bil eyləyirlər?

***Cəmil Əkbər*** 1980

## 297. DE SƏNMİSƏN, YA MƏNƏMMİ?

Qan qaraldıb evlər yıxan,
De sənmisən, ya mənəmmi?
Zəhlə töküb, ürək sıxan,
De sənmisən, ya mənəmmi?

Şah qaməti, qəddi bükən,
Qurulanı vurub sökən,
Kef yerinə dərd, qəm əkən,
De sənmisən, ya mənəmmi?

Yoldan çıxan, izdən düşən,
El yanında gözdən düşən,
Gün çıxmamış tezdən düşən,
De sənmisən, ya mənəmmi?

Öz xalqından nifrət alan,
Qəzəb alan, hiddət alan,
Gündə min bir töhmət alan,
De sənmisən, ya mənəmmi?

Şər danışıb, böhtan yazan,
Doğru fikri tərsə yozan,
Ona-buna quyu qazan,
De sənmisən, ya mənəmmi?

Ürəyində qurdlar yatan,
Vicdanını pula satan,
Qəflətlərdə gedib yatan,
De sənmisən, ya mənəmmi?

Haqq-sayları itirən,
Gültəki tikan bitirən,
Qazanmamış hey ötürən,
De sənmisən, ya mənəmmi?

Gecə-gündüz xalqı soyan,
Günahını pulla yuyan,
Son gününə miras qoyan,
De sənmisən, ya mənəmmi?

Nifrət ilə yad edilən,
Ləkələnib ad edilən,
Nanəcib xoryad edilən,
De sənmisən, ya mənəmmi?

Könül evi bərbad olan,
Tamahına arvad olan,
Aqibəti fəryad olan,
De sənmisən, ya mənəmmi?

Cəmil, eldə ad qazanan,
Dostlar tutub, yad qazanan,
Ürəyində od qazanan,
De sənmisən, ya mənəmmi?

***Cəmil Əkbər*** 4. 11 - 1981

## 298. HEÇDİR

İstər xaliq olsun, ya pərvərdigar,
Əfsuski qanmazın yanında heçdir.
Ad qazan, san qazan diyarbadiyar,
Əfsuski nadanlar yanında heçdir.

Nəqədər istəsən səxavətli ol,
İnsaflı, mürvətli, kəramətli ol,
Gözəl ol, nəcib ol, ləyaqətli ol,
Əfsuski cahillər yanında heçdir.

İstəsən alim ol, loğman ol qardaş,
Dəniz ol, dərya ol,  ümman ol qardaş,
Küsüb inciyən ol, uman ol qardaş,
Əfsuski gədələr yanında heçdir.

Doğru ol, düzgün ol, ədalətli ol,
Qoçaq ol, zirək ol, fərasətli ol,
Ədəbli, ərkanlı, nəzakətli ol,
Əfsuski karsızın yanında heçdir.

Nəqədər düz deyib, düz də danışsan,
Səksən də, doxsan da, yüz də danışsan,
Vaxtından irəli, tez də danışsan,
Əfsuski sərsəri yanında heçdir.

***Cəmil Əkbər*** 15. 09 – 1991

## 299. LAĞA QOY

Nə dedilər yozmusan,
Get özünü lağa qoy.
Yol-ərkanı pozmusan,
Get izini lağa qoy.

Qaraltmaynan gəl qanın,
Özündə gör nöqsanın,
Ötüb keçib doxsanın,
Get yüzünü lağa qoy.

Dağlar təpə göründü,
Dalğa ləpə göründü,
Palıd cökə göründü,
Get gözünü lağa qoy.

Nələr gəldi başına,
Kirpiyinə, qaşına,
Payızına, qışına,
Get yazını lağa qoy.

Demirəmki nəçisən?
Qoyun, quzu, keçisən,
Zəhər alıb içisən,
Get duzunu lağa qoy.

Hələ yoxdur arvadın,
Sənin kimi xoryadın,
De kişisən, ya qadın?[451]
Get qızını lağa qoy.

Cəmilə söz demə sən,
Hər dərdə döz demə sən,
Tirməmə bez demə sən,
Get bezini lağa qoy.

***Cəmil Əkbər*** 20. 07 – 1980

### 300. NƏ

Nəqədər yalanlar, riyalar gördüm?
Nə haqqı görən var, nə həqiqəti.
Nəqədər verməmiş alanlar gördüm?
Nə sədaqət qanır, nə səxavəti.

Qəflətdə nəqədər yatan var imiş?
Çalxayıb aranı qatan var imiş?
Mərdləri namərdə satan var imiş?
Nə mərhəmət qanır, nə kəraməti.

Eləbilki, ötəriymiş gülüşlər,
Ötəriymiş əyləncələr, görüşlər,
Üz-gözlərdə təbəssümlər, öpüşlər,
Nə istək tanıyır, nə məhəbbəti.

[451] Göyə çıxır fəryadın.

Neçə-neçə haqq-saylar itirmiş,
Xətir-hörmət, çörək-çaylar itirmiş,
Həftə nədir, illər, aylar itirmiş,
Nə tər tökmək bilir, nədə zəhməti.

Yaxşı-pisi gözləyən kim, görən kim?
Qazanan kim, döşürən kim, verən kim?
Bağ salan kim, meyvəsini dərən kim?
Nə dəyər qanan var, nə də qiyməti.

Hamı minib at çapırlar tərsinə,
Söz deyəndə tezcə dəyir hirsinə,
Qiymət vermir əcdadına, irsinə,
Nə xətir qanırlar, nə də hörməti.

Qansızlıqda yarışırlar yezidlə,
Əsər etmək mümkün deyil öyüdlə,
Kəsmək olmaz yandırsan da nöyüdlə,
Nə xahiş qanan var, nə də minnəti.

Heçkimsənin çəkilməyir yuxusu,
Hiss olunmur ocağında qorxusu,
Pozulubdur insanlığın çoxusu,
Nə hökməti sanır, nə də dövləti.

***Cəmil Əkbər***

## 301. AYRILIRAM

Qocalıqda görən niyə?
Məhəbbətdən ayrılıram.
Geri alır verən niyə?
Bu hikmətdən ayrılıram.

Dağ başına çökür duman,
Vermir fürsət, nə də aman,
Könüllərə düşür güman,
Ləyaqətdən ayrılıram.

Xoşlamıram gedib-gələm,
Qorxuramki vaxtsız öləm,
Sevirəm şənlənib güləm,
Eyş-işrətdən ayrılıram.

Yana-yana sönürəm mən,
Asta-asta enirəm mən,
İlqarımdan dönürəm mən,
Şan-şöhrətdən ayrılıram.

Zəyifləyir dəyanətim,
Dar günlərdə ənaətim,
Əldən gedir səadətim,
Sədaqətdən ayrılıram.

İndi meydan nadanlıqda,
Cəhalətdə, avamlıqda,
Bir xeyir yox adamlıqda,
Həqiqətdən ayrılıram.

***Cəmil Əkbər***

## 302. DÖZDÜLƏR

Bəşər oğlu nəqədər başıboşa dözüblər?
Vicdanı kəm olana, qəlbidaşa dözüblər?
Qəflətlərə qərq olub, yatanlara dözüblər,
İnsafını, mürvəti atanlara dözüblər.
Mərd igidi namərdə, satanlara dözüblər,
Fitnə-fəsad uydurub, yayanlara dözüblər.
Nanəcibə, namərdə, naqislərə dözüblər,
Acgözlərə, quldura, harislərə dözüblər.
Kamalından kəm olan, o kütlərə dözüblər,
Müqəvvaya əl açıb, o bütlərə dözüblər.
Ümid olub sabaha, nihayətə inanıb,
Gözəlliyə inanıb, məlahətə inanıb.
Nəcibliyə inanıb, mərhəmətə inanıb,
İgidliyə inanıb, cəsarətə inanıb.
Qoçaqlığa inanıb, fərasətə inanıb,
Bəşər oğlu əzəldən, ədalətə inanıb.
Doğruluğa sığınıb, həqiqətə inanıb,
İnsanlığa inanıb, ləyaqətə inanıb.
Xoş arzuya, istəyə, pak niyyətə inanıb,
Eşqin ulu sevdası, məhəbbətə inanıb.
Ünsiyyətdə müqəddəs, sədaqətə inanıb,

Tər tökməyə inanıb, o xidmətə inanıb.
Məna dolu hikmətə, məziyyətə inanıb,
Sinə gərib dözməyə, əziyyətə inanıb.
O inandı həmişə, əqidəyə, kamala,
O inandı məsləyə, vicdanına, amala.
O inandı alimə, o inandı Loğmana,
O inandı düşünüb, dərk edənə, qanana.
Bəşər oğlu dözdülər, cəhalətə nəqədər?
Avamlığın əlində xəyanətə dözdülər,
Nöqsanlara dözdülər, qəbahətə dözdülər,
Hər gileyə-güzara, şikayətə  dözdülər.
Bəşər oğlu nəqədər əsəbini korladı?
Öz hissini korladı, al-qanını korladı?
Nəcabəti korladı, nəsilini korladı?
Bəşər oğlu nəqədər həlak oldu, qırıldı?
Dodağını çeynəyib, için-için yarıldı.
Gah tətilə qoşuldu, gah inqilab eylədi,
Müsəllaya çıxdılar, gah da tələb eylədi.
El malını sümürüb udanlara dözdülər,
Doğru yolu tərsinə, adanlara dözdülər.
Düz fikiri, xəyalı yozanlara dözdülər,
Ünsiyyəti, ülfəti pozanlara dözdülər.
Yollarını çaşana, azanlara dözdülər,
Ayaq altdan eşənə, qazanlara dözdülər.
İnsanoğlu davadan, dalaşlardan yoruldu,
Həyəcandan usandı, təlaşlardan yoruldu.
Zindanlara düşməkdən, qırılmaqdan yoruldu,
Ona-buna küsənib, darılmaqdan yoruldu.
Qəddarlıqdan yoruldu, haqsızlıqdan yoruldu,
Məvacibsiz qalmaqdan, muzdsuzluqdan yoruldu.
Əvvəl-axır ab-hava, çalxalandı, duruldu,
Xalqın canı əzabdan, zülümlərdən qurtuldu.

***Cəmil Əkbər***

## 303. UNUTMA!

Harda olsan, harda qalsan bunu bil,
Son məzarın dar məzardı, unutma!
Əvvələ bax, axıra bax sonu bil,
Tezi-geci bu güzardı, unutma!

Onu-bunu bezdirməyin əbəsdir,
Əzablara dözdürməyin əbəsdir,
Dağı-daşı gəzdirməyin əbəsdir,
Son səfərin bu bazardı, unutma!

Eşit sözərimi yoxla hərzaman,
Çıxartma yadından saxla hərzaman,
Onun ətirini qoxla hərzaman,
Sağalmayan bir azardı, unutma!

***Cəmil Əkbər***

## 304. ÖYRƏNİN!

Əzəl başdan budur sözüm-söhbətim,
İnsanlığı, ləyaqəti öyrənin!
İltimas, təvəqqim, xahiş minnətim,
Ədaləti, həqiqəti, öyrənin!

Gəl aldanma sən nəfsinə, tamaha,
Addımbaşı yolu vermə günaha,
Mətahını xırd eyləmə çox baha,
İnsaf-mürvət, səxavəti öyrənin!

Şər danışıb qarışdırma aranı,
Sızıldayan, qövr eyləyən yaranı,
Özün tapıb əlac eylə çaranı,
Şan-şöhrəti, şərafəti öyrənin!

Hərkim olsa haqq-sayı itirmə,
Gül yerinə kol-kosları bitirmə,
Deyiləni peysərinə ötürmə,
Zəhmət çəkib hər xidməti öyrənin!

İgidsənsə öz adını saxla sən,
Dərin-dayaz, düz adını saxla sən,
Səksən, doxsan, yüz adını saxla sən,
Bacarığı, məharəti öyrənin!

Ellərin içində həyalı dolan,
Məsləkli, vicdanlı, qayəli dolan,
Əsərli, kəsrəli, sayəli dolan,
Abır, həya, ol isməti öyrənin!

Bu oba, bu oymaq, el səninkidir,
Çəmən səninkidir, çöl səninkidir,
Dağlar da, aran da bil səninkidir,
Zirəkliyi, fərasəti öyrənin!

İnsanam deyənin arı gərəkdir,
Öz dostu, yoldaşı, yarı gərəkdir,
Qüvvəsi, qüdrəti, karı gərəkdir,
Bu mənanı, bu hikməti öyrənin!

Gözləginən ata-baba yolunu,
Peyvənd eylə varsa əgər kolunu,
Pozma qardaş birkimsənin yolunu,
Ədəb-ərkan, mərifəti öyrənin!

Qüvvət olsun, qüdrət olsun canında,
Təpər olsun, hünər olsun qanında,
Zülal olsun, şərbət olsun tamında,
İgidliyi, cəsarəti öyrənin!

Keçmişlərə, tarixlərə əl atın,
Ədiblərə, maariflərə əl atın,
Gözüaçıq ariflərə əl atın,
Din məzhəbdən, təriqətdən öyrənin!

Seyr eyləyib bu dünyanı dolaşın,
Şimal, Cənub, lap həryanı dolaşın,
Mil, Muğanı, ya Şirvanı dolaşın,
Hərbir xalqdan, cəmaətdən öyrənin.

Qızıl olub mis yerinə tutulma,
Yaxşı olub pis yerinə tutulma,
Hatəm olub nəs yerinə tutulma,
Həm dəyərdən, həm qiymətdən öyrənin!

Cəmil, yaranmısan elin oğlusan,
Şirin ünsiyyətin, dilin oğlusan,
Dərya ol, ümman ol, selin oğlusan,
Dözüm, durum, dəyanəti öyrənin!

***Cəmil Əkbər*** 4.10 – 1988

## 305. TORPAĞINKIDIR

De necə sir qalsın, niyə gizlədim?
Yediyim çörək də torpağınkıdır.
Gecəmi gizlədim, gündüz gizlədim?
Sinəmdə ürək də torpağınkıdır.

Ucalan saraya qoyulan millər,
Ətiri-gülüstan, yasəmən, güllər,
Bağda cəh-cəh vuran şeyda bülbüllər,
Sütün da, dirək də torpağınkıdır.

Gözəl də, çirkin də onda yetişir,
Sadə də, xudbin də, onda yetişir,
Bədbin də, nikbin də onda yetişir,
Huri də, mələk də torpağınkıdır.

Dünyada yaxşı da, pis də onundur,
Qızıl da, gümüş də, mis də onundur,
Zalım da, bədxah da, nəs də onundur,
Xəlbir də, ələk də torpağınkıdır.

İnsanı girləyən düşüncə, kamal,
Ən ülvi istəklər, əqidə, amal,
Bizə diyar olan el, oba mahal,
Saf arzu, dilək də torpağınkıdır.

Dünyada nəqədər canlı yaşayır,
Vicdanlı, məsləkli qanlıyaşayır,
Şərəfli, şöhrətli şanlı yaşayır,
Tərlan da, tülək də torpağınkıdır.

Odur öz qoynunda nemət yetirən,
Var-dövlət saxlayan, sərvət bitirən,
Ağırlığı öz çiyninə götürən,
Hər yardım, kömək də torpağınkıdır.

Gəlin bu varlığın qədrini bilək,
Çəkdiyi ağrını, dərdini bilək,
Bizə məchul qalan sirrini bilək,
Çəkilən əmək də torpağınkıdır.

***Cəmil Əkbər*** 30.07 -1998

## 306. OZANISANMIŞ

Danışıb hər sözün düzünü dedin,
Ədalət fərmanı yazanısanmış,
Əllisini dedin, yüzünü dedin,
Yolunu çaşanı pozanısanmış.

Harada gördünsə cəhaləti sən!
Hər addımbaşında qəbahəti sən!
Bu cahan mülkündə rəzaləti sən!
Qəbrini külünglə qazanısanmış.

Seyrinə çıxaraq gəzdin dünyanı,
Gördün ac-yalavac olan üryanı,
Hərcür axınları, hərcür cəryanı,
Dərindən hiss edib sezənisənmiş.

Gərdişi-dövranla barışanmadın,
Qoşulub axına qarışanmadın,
Kefini-halını soruşanmadın,
İnciyib-küsəni, bezənisənmiş.

Bu dərdi görsəydi dağ əriyərdi,
Şamama quruyub, tağ əriyərdi,
Yüz illik, min illik bağ əriyərdi,
Nəyaman səbr edib dözənisənmiş?

Ay Cəmil qəlbinə dəyən oqədər?
Düzələn işləri əyən oqədər?
Dağıdıb, talayıb yeyən oqədər?
Zamanın nə qəmli ozanısanmış?

***Cəmil Əkbər*** 14.07 – 1998

## 307. ARTAR

Oxu sözlərimi gör bir nələr var?
Dərk edib anlasan, şöhrətin artar.
Gəzərsən elləri diyarbadiyar,
Övladı-bəşərə xidmətin artar.
Yetişib haraya, dada çatarsan,
Arzu-istək, xoş murada çatarsan.
Ellərə nicatın, nüsrətin artar,
Hissin-həyəcanın, riqqətin artar,
Nəzərin çoxalar, diqqətin artar,
Mənəvi gözəllik, sərvətin artar.
Ayılıb qəflətdən açılar gözün,
Könül diyarından silinməz izin,
Başın uca olar, ağ olar üzün.
Anlayıb mətləbi qana bilərsən,
Haqq-say qoyanı sana bilərsən,
Axtara bilərsən, ana bilərsən.
Uzaşa bilərsən biganəlikdən,
Sərsəri olmaqdan, divanəlikdən,
Lazımsız odlara pərvanəlikdən.
Ürəkdən keçəni seçə bilərsən,
Mərifət şərbətin içə bilərsən,
Dünyadan şərəflə köçə bilərsən.
Ədəbin, ərkanın, ismətin artar,
Hünər meydanında sürətin artar.
Üzündə, gözündə həyan çoxalar,
Əqidən bol olar, qayən çoxalar,
Təlimi düz verən dayən çoxalar.
Hamıdan mötəbər, əziz olarsan,
Müqəddəs sayılıb təmiz olarsan,
Ən yaxın dost-tanış hənuz olarsan.

Məqamı gəldikcə kara gələrsən,
Çiçəkdən adlayıb, bara gələrsən,
İxtiyara, iqtidara gələrsən.
Saf arzu, istəyin, niyyətin artar,
Qüvvətin çoxalar, qüdrətin artar,
Hamını özünə qardaş bilərsən,
Ən yaxın, mehriban, yoldaş bilərsən.
Həmfikir bilərsən, sirdaş bilərsən,
Cəmillə ünsiyyət, ülfətin artar.

***Cəmil Əkbər*** 24. 06 – 1998

## 308. ARTAR

Eşidib, dərk edib anlaya bilsən,
Vətənə, xalqına xidmətin artar.
Özünü azacıq danlaya bilsən,
Yayılıb ellərdə söhbətin artar.

Elin nəzərində gözdən düşməzsən,
Yolundan çıxmazsan, izdən düşməzsən,
Gün çeşdə qalxmamış tezdən düşməzsən,
Dəyərin çoxalar, qiymətin artar.

Əfsanə korlanmaz ötən çağların,
Yenicə cücərib bitən çağların,
Arada, bərədə itən çağların,
Qüvvətin tükənməz, qüdrətin artar.

Qəflətdən ayılar, açılar gözün,
Gen olar yolağın, çəhlimin, izin,
İncitməz enişin, yoxuşun, düzün,
Fəhmin, nəzərin, diqqətin artar.

Tirmə qurşanarsan, şal bəzənərsən,
Qırmızı geyərsən, al bəzənərsən,
Könlün nə istəsə al, bəzənərsən,
Bəzəyin, düzəyin, zinətin artar.

Müdrik kəlamlarla ürəklənərsən,
Eşidib bilərsən, zirəklənərsən,
Elin dar günündə gərəklənərsən,
Hünərin, təpərin, riqqətin artar.

Xətadan, bəladan gendə olarsan,
Daldada dolanıb tində olarsan,
Buluddan çıxarsan, gündə olarsan,
Hünər meydanında sürətin artar.

Barışa bilməzsən qəbahət ilə,
Kin ilə, küdrətlə, ədavət ilə,
Paxıllıq, xainlik, xəyanət ilə,
Cahilə, nadana nifrətin artar.

Mərdləri yolundan əyən kəslərə,
Toxunub qəlbinə dəyən kəslərə,
Dinəndə özünü öyən kəslərə,
Qəzəbin çoxalar, hiddətin artar.

Yaxşı tanıyarsan Cəmil Əkbəri,
Alarsan müjdəni, çoxlu nəməri,
Yayarsan ellərə hər xoş xəbəri,
Saf arzu, istəyin, niyyətin artar.

***Cəmil Əkbər*** 21. 07 – 1998

## 309. ƏLVİDA

Saxtalıq çoxalıb, yalanlar artır,
Ay ədalət, ay həqiqət hardasan?
Dağıdan, sökənlər, talanlar artıb,
Ay el-oba, ay məmləkət əlvida.

Əqrəblər, iblislər, ilan o qədər?
Zəhmətsiz, xidmətsiz kalan o qədər?
Araya qal-qovğa salan oqədər?
Ay insanlıq, ay ləyaqət əlvida.

İnsanın-insana zülməti artır,
Qəzəbi çoxalır, hiddəti artır,
Kini-küdurəti, töhməti artır,
Ülvi-istək, ay məhəbbət əlvida.

Ünsiyyət pozulub, ülfət korlanıb,
Şərəf gözdən düşüb, şöhrət korlanıb,
Ar-namus qalmayıb, qeyrət korlanıb,
Ay cəsarət, ay fərasət əlvida.

Hamı birbirinə qəsd edir indi,
Yeməmiş, içməmiş məsd edir indi,
Çevirib astarı üst edir indi,
Xeyirxahlıq, ay fəzilət əlvida.

Ha deyirsən anlayan yox, qanan yox,
Xətir-hörmət, haqq-sayı anan yox,
Böyük-kiçik axtaran yox, sanan yox,
Doğru, dürüst ay bəyanat əlvida.

İlqara-imana dönüklər artıb,
Ellərin varına əniklər artıb,
Hər səmtə üz tutan yönüklər artıb,
Ay sədaqət, ay səxavət əlvida.

Yaxşılar yamana qarışıb gedib,
Köpək yalquzaqla barışıb gedib,
Qurdlar sürülərə sırışıb gedib,
İnsaf, mürvət, ay kəramət əlvida.

Mərdlər namərdlərə tay olub gedib,
Mənliyi tapdanıb, zay olub gedib,
Oğrular, əyrilər bay olub gedib,
Güman yoxdur, ay nihayət əlvida.

Zəmanədə haqq-nahaqqa baxan yox,
Guruldayıb şimşəktəki çaxan yox,
Hüzuruna xoş məramla çıxan yox,
Giley-güzar, ay şikayət əlvida.

Cahil dünyasında gəzmək çətindir,
Kainat gözəldir, bezmək çətindir,
Dayanıb, tablaşıb dözmək çətindir,
Ay əyalət, ay vilayət əlvida.

Yığışın, Cəmili siz yola salın,
İnciyib küsübsə könlünü alın,
Nəlazım əyləmək, tez yola salın?!
Yaxın uzaq, ay cəmaət əlvida.

***Cəmil Əkbər*** 14. 11 – 1998

## 310. ƏLVİDA DEYİR

Dəllallar yanında, pul bazarında,
Ədalət, həqiqət əlvida deyir.
Əxlaqsız, ismətsiz dul bazarında,
Sədaqət, səxavət əlvida deyir.

Acgöz, tamahkirlər, həris yanında,
Nanəcib, namərdlər, naqis yanında,
Paxıllar, xainlər, xəbis yanında,
Ülviyyət, ləyaqət əlvida deyir.

Cahillər yanında, nadan yanında,
Dağıdan, talayan, udan yanında,
Tamsınıb, umsunub, dadan yanında,
Mərhəmət, kəramət, əlvida deyir.

Kütbeyinlər, qanmazların yanında,
Böyük-kiçik sanmazların yanında,
Haqq-sayı anmazların yanında,
Ülviyyət, qüdsiyyət əlvida deyir.

Xətirsizin, hörmətsizin yanında,
Abırsızın, ismətsizin yanında,
İnsafsızın, mürvətsizin yanında,
Xoş arzu, xoş niyyət əlvida deyir.

Məsləksizin, qayəsizin yanında,
Xeyir-şərdə sayəsizin yanında,
Tərbiyəsiz, dayəsizin yanında,
Düz ölçü, düz qiymət əlvida deyir.

***Cəmil Əkbər***

## 311. APAR

Mehriban qızlarım, gözəl qızlarım,
Bu evdən o evə sədaqət apar.
Yoluna-izinə düzəl qızlarım,
Ülvi-istək apar, məhəbbət apar.[452]

Aldanma fikiri-zikri çaşlara,
Kəlləsi xaraba, başıboşlara,[453]
Vicdanı-kəmlərə, qəlbi-daşlara,
Özünlə mərhəmət, səxavət apar.

Atma insafını, qoru mürvəti,
Saxla namusunu, arı, qeyrəti,
Gözlə şərafəti, artır şöhrəti,
Cehiz əvəzinə mərifət apar.

Aldanıb gül olma saxta sözlərə,
Saxta baxışlara, saxta gözlərə,
Saxta yolaqlara, saxta izlərə,
Etibar, etiqat, ləyaqət apar.

Desinlər nə gözəl hörmətli qızdır?
Mənliyi zəngindir, sərvətli qızdır?
Abırlı, həyalı, ismətli qızdır?
İncəlik, zəriflik, lətafət apar.

Ellərin içində həyanı gözlə,
Əqidə, məsləyi, qayəni gözlə,
Quranı, kitabı, dayəni gözlə,[454]
Sağlam düşüncələr, pak niyyət apar.[455]

---

[452] Ülvi istək apar, nəcabət apar.
[453] Kəllədən xaraba, başıboşlara.
[454] Təlimi düz verən dayəni gözlə.
[455] 1) Sağlam fikir apar, pak niyyət apar. 2) Sağlam fikirlərlə, pak niyyət apar.

İtirib əqlini, yolunu azma!
Sağını yanılıb, solunu azma!
Qajını tərs qazıb, qolunu azma!
Bu evdən o evə məlahət apar.

Ataya, anaya ləkə gətirmə!
Məhəbbət bağında kol-kos bitirmə!
Xətiri-hörməti əsla itirmə![456]
Saxla ünsiyyəti, pak ülfət apar.

Görənlər, bilənlər əhsən desinlər,
Baxıb əməlinə inciməsinlər,
Bədinə danışıb diksinməsinlər,
Bu evdən o evə məharət apar.

Hörmətlə dolanıb, izzətlə yaşa!
Eyhamla otur-dur, diqqətlə yaşa!
Təmiz, pak arzuyla, niyyətlə yaşa!
Xeyirxahlıq apar, fəzilət apar.

Unutma Cəmil, babanı eşit,
Seyr eylə elləri, obanı eşit,
Cavanı dinləyib, qocanı eşit,
Özünlə ehtiram, nəzakət apar.

***Cəmil Əkbər*** 11. 01 -1996

## 312. APAR

Atanın evindən yarın evinə,
Pak-arzu, saf-istək, məhəbbət apar.
Cəmi cehizlərin hamsı bir yana,
Bir abır, bir həya, bir ismət apar.

Burax höcətliyi, etmə tərsliyi,
Etmə dəcəlliyi, etmə nəsliyi,
Burax naqisliyi, burax pisliyi,
Dözümlük, durumluq, dəyanət apar.

---

[456] Vicdanı-məsləki əsla itirmə.

İnsaflı, vicdanlı, mərhəmətli ol,
İşində-gücündə ədalətli ol,
Ədəbli-ərkanlı, mərifətli ol,
Xoş adət, ənənə, ünsiyyət apar.

Nanəcib, namərdə daldanma qəti!
Heçkəsə inanıb, aldanma qəti!
Hər sözə-söhbətə inanma qəti!
Məziyyət kəsb eylə, min hikmət apar.

Uymaynan böhtana, yalana gülüm,
Oğruya, əyriyə, kalana gülüm,
Xalqını qaz kimi yolana gülüm,
Qəlbində haq-divan, həqiqət apar.

Eşit ustadları, eşit Cəmili,
Dinlə müdrikləri, alın dəlili,
Atın bir kənara fitnəni, feli,
Qalsın qulağında nəsihət apar.

***Cəmil Əkbər*** 5. 09-1982

## 313. UTAN QIZ

Gen dünyanı başımıza dar etmə,
Utan arvad, utan gəlin, utan qız.
Anatəki şərafəti xar etmə,
Utan arvad, utan gəlin, utan qız.

Başımızda az darğalıq eyləyin,
Zəhlə töküb az qarğalıq eyləyin,
Çorta çıxıb az yorğalıq eyləyin,
Utan arvad, utan gəlin, utan qız.

Abır gərək, ismət gərək anaya,
Namus gərək, qeyrət gərək anaya,
İnsaf gərək, mürvət gərək anaya,
Utan arvad, utan gəlin, utan qız.

Həya gərək üzünüzdə görünsün,
Baxışlarda, gözünüzdə görünsün,
Yolunuzda, izinizdə görünsün,
Utan arvad, utan gəlin, utan qız.

Qadınlara yaraşmayır söyüşmək,
Aşıq kimi üzbəüzə deyişmək,
Koroğlutək meydan açmaq, döyüşmək,
Utan arvad, utan gəlin, utan qız.

Ana gərək həyasını gözləsin,
Məsləyini, qayəsini gözləsin,
Eysüd versin, mayasını gözləsin,
Utan arvad, utan gəlin, utan qız.

Ənlik nədir, kirşan nədir üzündə?
Sürmə nədir, vəsmə nədir gözündə?
Yalan nədir, yanlıc nədir sözündə?
Utan arvad, utan gəlin, utan qız.

Belə getsə məhəbbətim məhv olar,
Əhdim-andım, sədaqətim məhv olar,
İnsanlığım, ləyaqətim məhv olar,
Utan arvad, utan gəlin, utan qız.[457]

Qadınların yaraşığı ismətdir,
Kimdə varsa ən müqəddəs nemətdir,
El gözündən o aldığı qiymətdir,
Utan arvad, utan gəlin, utan qız.[458]

---

[457] *II variant*
Belə getsə məhəbbət də məhv olar,
Sədaqət də, səxavət də məhv olar,
İnsanlıq da, ləyaqət də məhv olar,
Utan arvad, utan gəlin, utan qız.

[458] *II variant*
Qadınların yaraşığı ismətdir,
Kimdə varsa o müqəddəs nemətdir,
El-obadan bəxş olunan ziynətdir,
Utan arvad, utan gəlin, utan qız.

Yaxşı anla sən müqəddəs anasan,
Eşqimizdə sən özülsən, binasan,
Bu sözləri mən dedim ki, qanasan,[459]
Utan arvad, utan gəlin, utan qız.

Analardan yol gözləyir bu bəşər,
Məhəbbəti bol gözləyir bu bəşər,
Əməlindən bal gözləyir bu bəşər,
Utan arvad, utan gəlin, utan qız.

Qan qaraldıb, zəhlə töküb kef etmə,
Məhəbbəti talan, viran, məhv etmə,[460]
Daha bəsdir, gəl buqədər səhv etmə,
Utan arvad, utan gəlin, utan qız.

Oturmusan babaların yurdunda,
Gözəl-göyçək obaların yurdunda,
Nənələrin, anaların yurdunda,
Utan arvad, utan gəlin, utan qız.

Doğru anla bu həyatda yerini,
Gəl itirmə kamalını, sərini,
Nəzərə al irəlini, gerini,
Utan arvad, utan gəlin, utan qız.

Nənələrdən, babalardan ayıbdır,
Bu ellərdən, obalardan ayıbdır,
Doğma yurddan, yuvalardan ayıbdır,
Utan arvad, utan gəlin, utan qız.[461]

---

[459] Ya hurisən, ya pərisən, sonasan.
[460] Belə yolla qazanc görüb nəf etmə.
[461] *II variant* Nənəmizdən, babamızdan ayıbdır,
Elimizdən, obamızdan ayıbdır,
Yurdumuzdan-yuvamızdan ayıbdır,
Utan arvad, utan gəlin, utan qız.

Qalmayıbdır dəyanətim, dözümüm,
Qohumumun, qardaşımın, özümün,
Fikirimin, xəyalımın, sözümün,
Utan arvad, utan gəlin, utan qız.[462]

Sən hurisən, sən pərisən, mələksən,
Sən gözəlsən, sən qəşəngsən, göyçəksən,
Sən laləsən, qərənfilsən, çiçəksən,
Utan arvad, utan gəlin, utan qız.

***Cəmil Əkbər*** 17. 05- 1988

## 314. DİLƏYİM

Yer üzündə harda varsa insana?
Gözəl dövran, səadətdi diləyim.
El-obanı dərk edənə, qanana?
Sədaqətdi, səxavətdi diləyim.

Ən səmimi, ən mehriban yoldaşa,
Həmkarlara, həmdərdlərə, sirdaşa,
Həmyaşıda, tay-tuşlara, çağdaşa,
Saf arzudu, pak niyyətdi diləyim.

Harda varsa ərənlərə, ərlərə?
Vətənpərvər, mərd igidə, nərlərə?
Nuraniyə, ağsaqqala, pirlərə?
Dözüm, durum, dəyanətdi diləyim.

Harda varsa yaradana, qurana?
Özlərini zəhmət çəkib yorana?
Mənim ilə oturana, durana?
Ədəb-ərkan, nəzakətdi diləyim.

---

[462] *II variant* Məndə yoxdur nə dəyanət, nə dözüm,
Daha dözmür nə astarım, nə üzüm,
Nə cığırım, nə yolağım, nə izim,
Utan arvad, utan gəlin, utan qız.

Qəddarlara, zalımlara, qansıza,
Şərəfsizə, şöhrətsizə, şansıza,
Diri-diri ölülərə, cansıza,
İnsaf-mürvət, kəramətdi diləyim.

İxtiyara, iqtidara çatana,
Cah-calala, külli-vara çatana,
Fərəh, sevinc, iftixara çatana,
Xeyirxahlıq, fəzilətdi diləyim.

İstərdim cahanda yalan olmasın,
Araya qal-qovğa salan olmasın,
Dağılan, sökülən, talan olmasın,
Doğru, düzgün bəyanatdı diləyim.

Hərzaman hamını bəxtiyar görüm,
Ürəklər dolusu iftixar görüm,
Səksəndə, doxsanda ixtiyar görüm,
Şan-şöhrətdi, şərafətdi diləyim.

Ünsiyyətdə xəyanətlər olmaya,
Kin-küdurət, ədavətlər olmaya,
Addımbaşı qəbahətlər olmaya,
Ətri-ənbər təravətdi diləyim.

İstərdim hamını firavan görüm,
Evini-eşiyi çıraqban görüm,
Hər məkan, hərzaman anbaan görüm,
Ehtiramdı, mərhəmətdi diləyim.

Cəmil Əkbər soyuqluğu xoşlamır,
Müqəvvalıq, oyuqluğu xoşlamır,
Yassarlığı, toyuqluğu xoşlamır,
Hünər dolu cəsarətdi diləyim.

***Cəmil Əkbər*** 17. 05 – 1988

## 315. ÖLDÜM

Ədalətin, həqiqətin yolunda,
Narahat yaşadım, nigaran öldüm.
Doğru sözün, həqiqətin yolunda,
Narahat yaşadım, nigaran öldüm.

İnsanam deyəndən kamal istədim,
Əqidə istədim, amal istədim,
Mənəvi gözəllik, camal istədim,
Narahat yaşadım, nigaran öldüm.

Ülvi-istək, məhəbbətdən ötəri,
Xeyirxahlıq, fəzilətdən ötəri,
Bəşər oğlu, cəmiyyətdən ötəri,
Narahat yaşadım, nigaran öldüm.

İstədim yer üzü dava görməsin,
Zəhərə qarışmış hava görməsin,
Sərsəri, kəmağıl, yava görməsin,
Narahat yaşadım, nigaran öldüm.

Nanəcib, naxələf, naqis olmasın,
Xainlər, paxıllar, xəbis olmasın,
Zindanlar, qalalar, məhbus olmasın,
Narahat yaşadım, nigaran öldüm.

Ünsiyyət-ülfətdə yalan olmasın,
Ellərin sərvəti talan olmasın,
Xəzana qərq olub solan olmasın,
Narahat yaşadım, nigaran öldüm.

Çalışdım, vuruşdum nadan olmasın,
Təlimdən yarımçıq dadan olmasın,
Yolunu tərsinə adan olmasın,
Narahat yaşadım, nigaran öldüm.

Cahil dünyasında bezən olmasın,
Çəkərək qəhrini dözən olmasın,
Qəmlər dəryasında üzən olmasın,
Narahat yaşadım, nigaran öldüm.

İstədim dərdləyən ürək olmasın,
Bəd əsib sovuran külək olmasın,
Nə hiylə, nə məkr, kələk olmasın,
Narahat yaşadım, nigaran öldüm.

İstədim hamını qardaş eyləyim,
Vəfalı dost-tanış, yoldaş eyləyim,
Can deyib eşidən çağdaş eyləyim,
Narahat yaşadım, nigaran öldüm.

İstədim ki, qanmayanı qandıram,
Məqamında cırağını yandıram,
Xətir-hörmət harda varsa andıram,
Narahat yaşadım, nigaran öldüm.

***Cəmil Əkbər*** 7.06 -1998

## 316. YATIR

İlahi görəsən qoca dünyada,
Nəqədər haq batır, həqiqət yatır?
Nəqədər mərd igid gedibdir bada,
Silinib, puç olub, ləyaqət yatır?

Ağladıb nəqədər, gülüb nəqədər?
Doğulub nəqədər, ölüb nəqədər?
Bilməyib nəqədər, bilib nəqədər?
Tükənib səbrlər, dəyanət yatır?

Nəqədər düşübdür diyarbadiyar,
Bükülüb qamətlər, əyilib vüqar,
Pozulub ünsiyyət, gedibdir ilqar,
Xoş arzu məhv olub, xoş niyyət yatır?[463]

Nəqədər talelər toxunub daşa?
Çatmayıb mənzilə, yetməyib başa?
Döyünən ürəklər dönübdür daşa?
Nəqədər ülviyyət, qüdsiyyət yatır?

Nəqədər vicdanlar atıldı getdi?
Bir qaraqəpiyə satıldı getdi?
Tutuldu qaşqabaq, çatıldı getdi?
Nəqədər səxavət, kəramət yatır?

---

[463] Xoş arzu, xoş istək, xoş niyyət yatır.

Cəmiləm çəkirəm bu dərdi-səri,
Çəkirəm zəhməti, tökürəm təri,[464]
Arif mis oynadır, nadanlar zəri,
Nəqədər ürəkdə məhəbbət yatır?

***Cəmil Əkbər*** 10.01- 1982

## 317. ÇİÇƏKLƏR

Min bir dərdə dərmanın var deyirlər,
Heyıf, sizdən xəbərsizik çiçəklər.
Çəmənzarın, ormanın var deyirlər,
Heyıf, sizdən xəbərsizik çiçəklər.

Xəstələrə loğmanısız, deyirlər,
Sağlığına gümanısız deyirlər,
Xoş ovqatı, imanısız deyirlər,
Heyıf, sizdən xəbərsizik çiçəklər.

Neçə-neçə yaralara şəfasız,[465]
Qəlbi sınıq, paralara şəfasız,
Bilən yoxdur haralara şəfasız?
Heyıf, sizdən xəbərsizik çiçəklər.

Təbiblərin fəndi-feli sizsiniz,
Təbiətin zərif gülü sizsiniz,
Gülüstanın inci, ləli sizsiniz,
Heyıf, sizdən xəbərsizik çiçəklər.

Arılar da şanı sizdən alırlar,
Zülal çəkib nanı sizdən alırlar,
Yaşamağa canı sizdən alırlar,
Heyıf, sizdən xəbərsizik çiçəklər.

Vurulmuşuq əzəl gündən rənginə,
Əfsuslar ki, yetənmirik tənginə,
Ümidgahsan, sən inamsan son günə,
Heyıf, sizdən xəbərsizik çiçəklər.[466]

---

[464] Çəkirəm havayı, tökürəm təri.
[465] Neçəsinə məlhəmsiniz, şəfasız.
[466] Heyran olduq əzəl gündən rənginə.

Bu qüvvəniz, qüdrətiniz nədəndir?
Bəzəyiniz, zinətiniz nədəndir?
Məzmununuz, hikmətiniz nədəndir?
Heyıf, sizdən xəbərsizik çiçəklər.

Öz-özünə açılırsız, solursuz,
Xəzan görüb yerlə-yeksan olursuz,
Nə müddətdir sirri-pünhan qalırsız,
Heyıf, sizdən xəbərsizik çiçəklər.

Sirrini vermədin hər yetənlərə,
Hər yoldan keçənə, hər ötənlərə,
Hər qaval vurana, züy tutanlara, [467]
Heyıf, sizdən xəbərsizik çiçəklər.

Cəmil sənin bu sirrini biləydi,
Xislətindən sevinəydi, güləydi,
Öləndə də yüzdən sonra öləydi,
Heyıf, sizdən xəbərsizik çiçəklər[468]

***Cəmil Əkbər*** 5. 05 – 1984

## 318. KÖVRƏKDİR

Əsəblər korlama dilbilməz, qanmaz,
Sınar qəlbim, şüşədən də kövrəkdir.
Bədxahlıqdan, kəcxəyaldan utanmaz,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Məhəbbət əhlinə biganə olma,
İtirib əqlini divanə olma,
Hər yanan şamlara pərvanə olma,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

---

[467] Hər zurna çalana züy tutanlara.

[468] *II variant* Təmənnam var bu sirrini bilməyə,
Xislətindən sevinməyə, gülməyə,
Öləndə də yüzdən sonra ölməyə,
Heyıf, sizdən xəbərsizik çiçəklər.

Ədəblə oturub, dura bilməsən,
Çalışıb yaradıb qura bilməsən,
Axtarıb, arayıb sora bilməsən,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Qəlbində xoş arzu, niyyət olmasa,
Təmiz istək, pak-məhəbbət olmasa,
Sədaqət, səxavət, hörmət olmasa,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Xətir-hörmət haqq-sayı itirsən,
Yediyin, içdiyin çayı itirsən,
Aldığın sovqatı, payı itirsən,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Qədirbilməz, nanıkorluq eyləsən,
Bəd dolanıb ziyankarlıq eyləsən,
Çalıb-çapıb haramxorluq eyləsən,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Övladı-bəşərə pislik eyləsən,
İnadlıq, höcətlik, tərslik eyləsən,
Xainlik, xəbislik, nəslik eyləsən,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Böyük olan yerdə böyüklük etsən,
Hər dinə, məzhəbə yönüklük etsən,
İlqara, vəfaya dönüklük etsən,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Dolansan bədinə, sən həqiqətin,
Doğruluq, düzgünlük, ya ədalətin,
Çəkərsən axırda bil xəcalətin,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Aldansan fitnəyə, uysan fellərə,
Hər saxta sözlərə, yağlı dillərə,
Güdaza gedərsən daşqın sellərə,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Şər, böhtan danışıb vursan aralıq,
Alarsan ellərdən üzüqaralıq,
Eyləmə lovğalıq, yekəxanalıq,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Hər yetən kəslərlə oturub dursan,
Hörümçəksayağı torunu qursan,
Özgələr yağıyla bığını bursan,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Hünərlər göstərib, ad qazanmasan,
Dostluq eyləyərək, yad qazanmasan,
Ülfət-ünsiyyətdə dad qazanmasan,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Onun-bunun kölgəsində dolanma,
Künc-bucağın sinisində yallanma,
Ətə-cana, qana gəlib sulanma,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Olmaynan tamaha nə qul, nə sayil,
Yabançı malına eyləmə meyil,
Nəqədər sulansa ucalmır ceyil,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Xəyanət eyləsən dosta-yoldaşa,
Yaxına, uzağa qohum-qardaşa,
Arzular, əməllər yetişməz başa,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Hiyləgərlik, dələduzluq eyləmə,
Başı keylik, qəlbi buzluq eyləmə,
Min bir sifət, ikiüzlük eyləmə,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Sevəsən bəşəri, bu kainatı,
Elin şənliyini, toyu, büsatı,
Yaşamaq eşqiylə, gözəl həyatı,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

İnsanlığın dürdanəsi olmasan,
İnci-əşrəf, zərdanəsi olmasan,
Nadir övlad, yeganəsi olmasan,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Qanmazdan qanana şikayətim var,
Nəqədər yazmalı hekayətim var?
Sonluğu görünməz nihayətim var,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

Yersiz lovğalanma, ədalanma gəl,
Pis adla hallanma, sədalanma gəl,
Böyük ol, ali ol, gədalanma gəl,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

İncitsən Cəmili aha düşərsən,
Xəta-bəla, min günaha düşərsən,
Güman etmə, çox iştaha düşərsən,
Sınar qəlbim, şüşədən də kövrəkdir.

***Cəmil Əkbər*** 18. 10-1984

## 319. XİLAS ET

*I variant*

Ümid sənə qalıb ey pərvərdigar,
Bu milləti cəhalətdən xilas et.
Sənin əlindədir hərbir ixtiyar,
Addımbaşı qəbahətdən xilas et.

Qoyma aralığa qovğa-qal düşə,
Qəm-qüssə, dərd-azar, nə məlal düşə,
Nə umu nə küsü, qeyri-hal düşə,
Kin-küdurət, ədavətdən xilas et.

Qoyma aralığı qatan tapılsın,
Vicdanı, məsləyi satan tapılsın,
Üfunət gölünə batan tapılsın,
İztirabdan, məşəqqətdən xilas et.

Könüllər mülkündə qara qalmasın,
Qövr edib, sızlayan, yara qalmasın,
Məhəbbət gülşəni xara qalmasın,
Xainlikdən, xəyanətdən xilas et.[469]

İxtiyar sənindir ay Xuda-Kərim,
Sənsiz nə gücüm var, nə də hünərim,
Eylə eyləyərsən bilinməz yerim,
Xəta-bəla, cinayətdən xilas et.

Övladı-bəşəri zəhmətə gətir,
Qayğıya, yardıma, xidmətə gətir,
Mənaya, məzmuna, hikmətə gətir,
Giley-güzar, şikayətdən xilas et.

Qəflətlər içindən insan ayılsın,
İdrakların ziyaları yayılsın,
Hamı qayğı görsün, hamı sayılsın,
Nəs fikirdən, nəs niyyətdən xilas et.

Ürəklər qalmasın qəmin içində,
Əyərin, əksiyin, kəmin içində,
Gözlərin didəsi nəmin içində,
İşgəncədən, müsibətdən xilas et.

Könül diyarına məhəbbət gətir,
Sədaqət bəxş eylə, səxavət gətir,
İnsaf-mürvət gətir, mərhəmət gətir,
Bəd ənənə, bəd adətdən xilas et.

Ana Vətənimdə nemət bol olsun,
Mənəvi var-dövlət, sərvət bol olsun,
İnsandan-insana xidmət bol olsun,
Yoxsulluqdan, səfalətdən xilas et.

Qoymayın Cəmili pis yola düşsün,
Əyri yola düşsün, nəs yola düşsün,
Höcət yola düşsün, tərs yola düşsün,
Rüsvayçılıq, xəcalətdən xilas et.

***Cəmil Əkbər*** 14. 12 -1994

---

[469] Mərd igidi xəyanətdən xilas et.

## 320. XİLAS ET

*II variant*

Ümid sənə qalıb ay Xuda-Kərim,
Bu məxluqu cəhalətdən xilas et.
Hünər səninkidir ay sədd-afərim,
Bu xilqəti qəbahətdən xilas et.

Qoyma zəmanədə qovğa-qal olsun,[470]
Qəm-qüssə, dərd-azar, nə məlal olsun,
Nə umu nə küsü, qeyri-hal olsun,
Kin-küdurət, ədavətdən xilas et.

Qoyma aralığı qatanlar olsun,
Vicdanı, məsləyi satanlar olsun,
Üfunət gölünə batanlar olsun,
İztirabdan, məşəqqətdən xilas et.

Səadətə yön alıbdır səfərim,
Sənsiz qüdrətim yox, nə də hünərim,
Qələbəm, təntənəm, nə də zəfərim,
Xəta-bəla, cinayətdən xilas et.

Bəşəri səsləyib zəhmətə gətir,
Qayğılar çəkməyə xidmətə gətir,
Məzmuna, mənaya, hikmətə gətir,
Giley-güzar, şikayətdən xilas et.

Rəhm eylə, bəşərin açılsın gözü,[471]
Açılsın yolağı, bilinsin izi,
Şən keçsin hər anı, gecə-gündüzü,
Nəs fikirdən, bədniyyətdən xilas et.

Qalmasın bu bəşər qəmlər əlində,
İdrakdan, kamaldan kəmlər əlində,
Yeməmiş, içməmiş dəmlər əlində,
Müsibətdən, zəlalətdən xilas et.

---

[470] Qoyma aralıqda qovğa-qal olsun.
[471] Bəşər övladının açılsın gözü.

Könül diyarına məhəbbət gətir,
Sədaqət bəxş eylə, səxavət gətir,
Xeyirxahlıq gətir, fəzilət gətir,
Bədəməldən, nəs adətdən xilas et.

Azad Vətənimdə nemət bol olsun,
Var-dövlət çoxalsın, sərvət bol olsun,
Mərhəmət bol olsun, hörmət bol olsun,
Yoxsulluqdan, səfalətdən xilas et.

Qoymayın insanı pis yola düşsün,
Əyri yola düşsün, nəs yola düşsün,
Höcət yola düşsün, tərs yola düşsün,
Xar olmaqdan, xəcalətdən xilas et.[472]

Sən Cəmil Əkbəri kamala yetir,
Əqidə, məsləyə, amala yetir,
Mənəvi gözəllik, camala yetir,
Qeyri yola dəlalətdən xilas et.

***Cəmil Əkbər*** 15. 12 -1994

## 321. VAR İDİ ONDA

Nə gözəl zəmanə, dövran görmüşük,
İnsaf da, mürvət də var idi onda.
Karvanı düz çəkən sarvan görmüşük,
Xətir də, hörmət də var idi onda.

Hamı birbirinə yoldaş deyərdi,
Vətəndaş deyərdi, çağdaş deyərdi,
Vəfalı dost-tanış, qardaş deyərdi,
Şərəf də, şöhrət də var idi onda.

Bazar da, dükan da, mal da bol idi,
Qədək də, tirmə də, şal da bol idi,
Şəkər də, şərbət də, bal da bol idi,
Zəhmət də, xidmət də var idi onda.

---

[472] Bədnamlıqdan  xəcalətdən xilas et.

Millət bir-birini qıra bilməzdi,
Dağı sinəsinə vura bilməzdi,
Naxələf oturub, dura bilməzdi,
Namus da, qeyrət də var idi onda.

İnsanın üzündə həya var idi,
Əqidə var idi, qayə var idi,
Halaldan kəsb olmuş mayə var idi,
Abır da, ismət də var idi onda.

Hünər meydanında yarış gedərdi,
Bəhsə-bəhs düşərdi, çağrış gedərdi,
Qəbahət üstündə vuruş gedərdi,
Dövlət də, sərvət də var idi onda.

Bədxaha, zalıma pis deyilərdi,
Xalqa zülm edənə nəs deyilərdi,
Danışma, sözünü kəs deyilərdi,
Cəsarət, cürət də var idi onda.

Hamı öz yerində düz işləyərdi,
Gecikə bilməzdi, tez işləyərdi,
Oğul işləyərdi, qız işləyərdi,
Ülvi-ləyaqət də var idi onda.

Tarlada, zəmidə tər tökülərdi,
İnci bəslənərdi, zər tökülərdi,
Xeyir ələnərdi, şər tökülərdi, [473]
Tərəqqi, surət də var idi onda.

Hər gün dəyişməzdi malın qiyməti,
Tirmənin, sətinin, şalın qiyməti,
Dəymişin, sütülün, kalın qiyməti,
Dəyərə qiymət də, var idi onda.

[473] Deyilib nöqsanlar sir tökülərdi.

Hamı "Movzoley"i qiblə sanardı,
O böyük insanı düha sanardı,
Zəka dünyasında ulduz yanardı,
Şərəf də, şöhrət də var idi onda.

İnsan birbirinə əl tutardılar,
Verərək dəstinə gül tutardılar,
Oxu bu dastanı bil tutardılar,
Saf arzu, niyyət də var idi onda.

Lənət bu dövranı pozana gəlsin!
Yolunu-izini azana gəlsin!
Doğrunu tərsinə yozana gəlsin!
Haqq da, ədalət də var idi onda.

İnsan bir-birini döyə bilməzdi,
Toxunub qəlbinə söyə bilməzdi,
Vurub qamətini əyə bilməzdi,
Eyham da, diqqət də var idi onda.

Ünsiyyət-ülfətdə vəfa var idi,
Dostluq yollarında cəfa var idi,
Sürməyə nə gözəl səfa var idi,
Gözəl cəmaət də var idi onda.

İnsan arasında inam var idi,
Bəxşeyiş var idi, ənam var idi,
Səadət sarayım, binam var idi,
Əsl ziyarət də, var idi onda.

***Cəmil Əkbər*** 9.10 -1993

## 322. AĞRIDI

Bu cahan mülkünü belə gördükcə,
Ürəyim sıxıldı, başım ağrıdı,
Ünsiyyət-ülfətdə hiylə gördükcə,
Tutuldu qabağım-qaşım ağrıdı.

Dəyişdi zəmanə, dövran pis gəldi,
Sarvan çaşbaş düşdü, karvan nəs gəldi,
Oxundu qərarlar, fərman tərs gəldi,
Sarsıldı xəyalım-huşum ağrıdı.

Ünsiyyət pozuldu, bəd gəldi zaman,
Könüllər mülkünü bürüdü duman,
Ağrılar-acılar verməyir aman,
İnlədi-sızladı, dişim ağrıdı.

Nəqədər qurulan tarimar oldu?
Yeyilən-içilən zəhrimar oldu?
İnsan qılıfında iblis, mar oldu?
Payızım saraldı, qışım ağrıdı.

Bu fani dünyada pis gəldi illər,
Biri-birisindən nəs gəldi illər,
Köç etdi, qalmadı köhnə nəsillər,
Kotanım, dırmığım, xışım ağrıdı.

Qalmışıq nəyaman nadan əlində,
Təlimdən yarımçıq dadan əlində,
Yolunu tərsinə adan əlində,
Dözmədi bu dərdə döşüm ağrıdı.

Keçdi qərinələr, dolandı illər,
Haqdan, ədalətdən danışmır dillər,
Saralıb qəlbimdə soluxur güllər,
Ömür-gün çürüdü, yaşım ağrıdı.

Qırdılar, tökdülər öz alətimi,
Haqdan xəbər verən söz alətimi,
Sənət alətimi, düz alətimi,
Ellərə layiqli peşəm ağrıdı.

Günahlara batanları gördükcə,
Qəflətlərdə yatanları gördükcə,
Vicdanını satanları gördükcə,
Tərəzim ağrıdı, daşım ağrıdı.

***Cəmil Əkbər*** 19. 02 -1996

## 323. UTANDIM

Sanırdım ki, mən də evdə yatıram,
Evlər gördüm, öz evimdən utandım.
Öz arzuma, muradıma çatıram.[474]
Ciblər gördüm, öz cibimdən utandım.

İnsan var ki, dolanırlar xan kimi,
Bal süzülür pətəyindən şan kimi,
İnanmadım gözlərimə dan kimi,
Dəblər gördüm, öz dəbimdən utandım.

Sanırdım ki, uzaq görən gözüm var,
Ürəklərdə silinməyən izim var,
Neçə-neçə şeirim var, sözüm var,
Təblər gördüm, öz təbimdən utandım.

Gün keçirib yaman keflər görmüşəm,
Azdan-çoxdan mən də nəflər görmüşəm,
Zurna, qaval, neçə dəflər görmüşəm,
Keflər gördüm, öz kefimdən utandım.[475]

Çox baxmışam gedənlərə, qalana,
Qönçələrdə açılana, solana,
Tökülənə, boşalana, dolana,
Nəflər gördüm öz nəfimdən utandım.[476]

Deyirlər hərənin öz qisməti var,
Abırı, həyası, öz isməti var,
Bazarda, dükanda öz kəsməti var,
Müflər gördüm, öz müfümdən utandım.

---

[474] Elə sandım muradıma çatıram.

[475] *II variant* Gün keçirib yaman keflər görmüşəm,
Azdan-çoxdan dürlü nəflər görmüşəm,
Yeyib-içib hazır müflər görmüşəm,
Keflər görüb, öz kefimdən utandım.

[476] *II variant* Seyr etmişəm gedənlərə, qalana,
Qönçələrdə açılana, solana,
Çalxalanıb boşalana, dolana,
Nəflər gördüm öz nəfimdən utandım.

Adam var ki, vara-hala bələnib,
Kef-damağa, cah-calala bələnib,
Min fikirə, min xəyala bələnib,
Səhvlər gördüm, öz səhvimdən utandım.

***Cəmil Əkbər*** 18.09 -1986

## 324. ÖLƏNDƏ NƏYAMAN

Sağikən bir dəfə kara gəlməyən,
Öləndə nəyaman o əzizlənib?
Yetişib bir dada, bara gəlməyən,
Öləndə nəyaman lətafətlənib?

Əzəldən hamıdan çirkin görünən,
Lovğa, yekəxana, xudbin görünən,
Tərini tökməkdən nikbin görünən,
Öləndə nəyaman məlahətlənib?

Sağikən xeyirə, şərə yaramaz,
Yaran qövr etsə də, onu sarımaz,
Ülfət edib dost-tanışı aramaz,
Öləndə nəyaman səxavətlənib?

Adı-sanı el-obada tanınmaz,
Yüz il keçsə, yada düşməz, unanmaz,
Abır edib, həya edib, utanmaz,
Öləndə nəyaman məharətlənib?

Ünsiyyət-ülfəti soyuq olanlar,
Bir quru müqəvva, oyuq olanlar,
İnsan cilidində toyuq olanlar,
Öləndə nəyaman hərarətlənib?

Sağikən vicdanı sönük olanlar,
İlqara-imana dönük olanlar,
Hər səmtə üz tutub, yönük olanlar,
Öləndə nəyaman sədaqətlənib?

Sağikən hamıdan xəbis olanlar,
Nanəcib, naxələf, xəbis olanlar,
Tamahkar olanlar, həris olanlar,
Öləndə nəyaman şərafətlənib?

Sağikən bir dəfə haya gəlməyən,
Ahına, naləyə, vaya gəlməyən,
Çörəyə gəlməyən, çaya gəlməyən,
Öləndə nəyaman fərasətlənib?

Sağlığında bir yol yada düşməyən,
Bir tama gəlməyən, dada düşməyən,
Qohum qapısına, yada düşməyən,
Öləndə nəyaman nəzarətlənib?

Ömründə xalqına yaramayanlar,
Dar günə düşəndə aramayanlar,
Telini düzəldib daramayanlar,
Öləndə nəyaman xəcalətlənib?

Sağikən qəlbləri abad etməyən,
Yetib dar günlərə imdad etməyən,
Həyəcana düşüb, fəryad etməyən,
Öləndə nəyaman cəsarətlənib?

***Cəmil Əkbər*** 20.09 – 1996

## 325. ÇAŞDIRAR

İnsanoğlu tamahına qul olma!
Yol səhv düşər, iz də səni çaşdırar.
Gəl bu odda yanıb-yanıb kül olma!
Fikir, xəyal, söz də səni çaşdırar.

Yaxşı-pisi birbirindən seçməsən,
Ədəb-ərkan şərbətini içməsən,
Haqq yolundan dolanmasan, keçməsən,
Çox da səni, az da səni çaşdırar.

Verənməsən öz nəfsinə qadağa,
Başın gedər bu yollarda sadağa,
Tezi-geci gələcəksən badağa,
Qış da səni, yaz da səni çaşdırar.

Şər danışıb böhtanlara uymayın,
İblislərə, şeytanlara uymayın,
Aralığı qatanlara uymayın,
Püsdə, fındıq, qoz da səni çaşdırar.

Acgözlükdən, hərislikdən əlçəkin,
Nanəciblik, naqislikdən əlçəkin,
Xainlikdən, xəbislikdən əlçəkin,
Astar səni, üz də səni çaşdırar.

Hərkəs gərək diqqət verə kamala,
Qulluq edə əqidəyə, amala,
Görkəminə, yöndəminə, camala,
Qaş da səni, göz də səni çaşdırar.

Hara getsən şəriətdən uzaşma!
Ləyaqətdən, mərifətdən uzaşma!
Qayda-qanun, təriqətdən uzaşma!
Dərin-dayaz, üz də səni çaşdırar.

Hərkəs gərək xidmətini bildirə,
Hünərini, zəhmətini bildirə,
Xətirini, hörmətini bildirə,
Qış da səni, yaz da səni çaşdırar.

İnsan gərək vicdanını atmaya,
Yaxşıya pis, pisə yaxşı qatmaya,
Bəd söz deyib, bədəməli tutmaya,
Eniş-yoxuş, düz də səni çaşdırar.

***Cəmil Əkbər*** 21. 07 – 1988

## 326. AĞANIN HÖKMÜYLƏ

Ağanın hökmüylə nökərin boynu,
Tarix boyu vurulubki-vurulub.
Tükənib taqəti, alınıb canı, [477]
Yalvarmağa sarılıbki-sarılıb.

Talanıb neməti, yeyilib nanı,
Olmayıb xoş günü, olmayıb anı.
Korlanıb əsəbi, qaralıb qanı,
Şirətəki sorulubki-sorulub.

Yollara dikilib yazığın gözü,
Olmayıb imkanı, keçməyib sözü,[478]
Bükülüb qolları, qatlanıb dizi,
Haldan düşüb, qırılıbki-qırılıb.

Alınıb sorağı əsrdən, ildən,
Düşübdü həvəsdən, taqətdən, dildən,
Həm gücdən, qüvvədən, ayaqdan, əldən,
Tarix boyu yorulubki-yorulub.

İnsan cərgəsində sayılmayıblar,
Əsrlər keçibdir, ayılmayıblar,
Hünərlər göstərib, yayılmayıblar,
İçin-için darılıbki-darılıb.

Yeyilibdi, içilibdi pulları,
Kəsilibdir cığırları, yolları,
Bağlanıbdır dil-dodağı, qolları,
Buxov, qandal vurulubki-vurulub.

Varı-halı özünə də çatmayıb,
Oğluna da, qızına da çatmayıb,
Ərkinə də, nazına da çatmayıb,
Gül yanağı saralıbki-saralıb.

---

[477] Üzülüb taqəti, alınıb canı.
[478] Olmayıb qüdrəti, keçməyib sözü.

Baxan yoxdur gözlərinin yaşına,
Kül olubdur məzlumların başına,
Düyün düşüb qabağına, qaşına,
Gen dünyası daralıbki-daralıb.

Zora düşüb zalımların əlində,
Lağa düşüb qansızların dilində,
İnildəyir şeytanların felində,
Qara bağrı yarılıbki-yarılıb.

Ümid qalıb açıq görən gözlərə,
Açıq-aşkar deyiləsi sözlərə,
Ədalətə, həqiqətə düzlərə,
Dönə-dönə durulubki-durulub.

***Cəmil Əkbər*** 1981

## 327. UNUTMA Kİ, SON MƏNZİLİN BURADIR

Nəqədər at sürsən, piyada gəzsən,
Unutmaki son mənzilin buradır.
Dolaşıb həddindən ziyadə gəzsən,[479]
Unutmaki son mənzilin buradır.

Padşah da, sultan da, xaqan da olsan,[480]
Alim də, loğman da, çoban da olsan,
Arif də, sərraf da, nadan da olsan,
Unutmaki son mənzilin buradır.

Soruşub demirlər nə karəçisən?
Sünnisən, şiəsən, ya qaraçısan,
Seyidsən, qazısan, ya naxırçısan,
Unutmaki son mənzilin buradır.

Oxuyub bilsən də, İncil, Quranı,
Ayırıb seçsən də, ağı-qaranı,
Dolanıb gəzsən də dağı-aranı,
Unutmaki son mənzilin buradır.

---

[479] Kef çəkib həddindən ziyadə gəzsən.
[480] Nəqədər sultan da, xaqan da olsan.

Güvənmə dünyada evə-eşiyə,
Qudan, yorğanına, tüldən döşəyə,[481]
Nənniyə, yüyrəyə, nə də beşiyə,
Unutmaki son mənzilin buradır.

Uyma fitnələrə, fellərə yazıq,
Yalançı sözlərə, dillərə yazıq,[482]
Laləli, nərgizli çöllərə yazıq,
Unutmaki son mənzilin buradır.

Nə varına, sərvətinə bel bağla,
Şərəfinə, şöhrətinə bel bağla,
Nə qoluna, qüvvətinə bel bağla,
Unutmaki son mənzilin buradır.

Nəqədər yesən də sürü, naxırdan,
İçib məst olsan da, şərab, çaxırdan,
Çox dedim sözümü, əvvəl, axırdan,
Unutmaki son mənzilin buradır.

***Cəmil Əkbər***

## 328. HƏYATIN LÖVHƏLƏRİ

Hər qəlbin arzusu, öz diləyi var,
Hərə bir həvəsdə, məhəbbətdədir.
Quşun da uçmağa öz lələyi var,
Hərə bir məkanda səyahətdədir.

Hər insanoğlunun öz dünyası var.
Fikiri, xəyalı, öz xülyası var,
Gizli aləmi var, öz röyası var,
Hərə bir məqsəddə, bir niyyətdədir.

Hər könül məskəni bircürə vurur,
Bircürə yaradır, bircürə qurur,
Bircürə oyanır, bircürə durur,[483]
Hərə bir həvəsdə, bir riqqətdədir.

---

[481] Qu tükdən, yorğana, tüldən döşəyə.
[482] Hər yağlı sözlərə, dillərə yazıq.
[483] Çalışıb özünü bircürə yorur.

Hərənin özünün görkəmi vardır,
Əyəri, əksiyi, öz kəmi vardır,
İmkanı, fürsəti, öz çəmi vardır,
Hərə bir diyarda, bir qiymətdədir.

Hərənin peşəsi, sənəti başqa,
Ənənə, vərdişi, adəti başqa,
Məzmunu, mənası, hikməti başqa,
Hərə bir təbdədir, xasiyyətdədir.

Yaxşı-yaman birbirinə qarışır,
Köpək gəlib qurdlar ilə barışır,
Canavarlar sürülərə sırışır,
Özü də bilməyir hansı səmtdədir?

Hərənin çəkdiyi zəhməti başqa,
Köməyi, yardımı, xidməti başqa,[484]
Xətası, bəlası, töhməti başqa,
Hərə bir məzmunda, bir hikmətdədir.

Hərkəsin məkanı, yeri başqadır,
Xeyiri başqadır, şəri başqadır,
Him-cimi başqadır, sirri başqadır,
Hərə bir əməldə, hərəkətdədir.

Hərənin ünvanı, adı başqadır,
Qohumu, qardaşı, yadı başqadır,
Ünsiyyət-ülfətdə dadı başqadır,
Hərə bir tamdadır, lətafətdədir.

Hamının zülalı, balı bir deyil,
Tirməsi, qumaşı, şalı bir deyil,
Dəymişi bir deyil, kalı bir deyil,
Hərə bir haldadır, vəziyyətdədir.

---

[484] Vətənə, xalqına xidməti başqa.

Təbiət bəxş edib, hamı bir deyil,
Şərbəti bir deyil, camı deyil,
Məlumdu, məchuldöy, bu ki, sir deyil,
Hərə bir kəmiyyət, keyfiyyətdədir.

Oba da, oymaq da, el də bir deyil,
Çəmən də, çiçək də, gül də bir deyil,
Əsrlər, fəsillər, il də bir deyil,[485]
Hərə bir küçədə, bir qüdrətdədir.

Hamının atası, anası başqa,
Təməli başqadır, binası başqa,
Qidası başqadır, mayası başqa,
Hərə bir cəsarət, bir cürətdədir.[486]

Birisi yaxşıdır, birisi pisdir,
Birisi xeyirxah, birisi nəsdir,
Birisi höcətdir, birisi tərsdir,
Hərə bir rəftarda, nəzakətdədir.

Birisi gözəldir, birisi çirkin,
Birisi sadədir, birisi xudbin,
Birisi nikbindir, birisi bədbin,
Hərə bir ürəkdə, cəsarətdədir.[487]

Hərə bir obadan, bir eldən gəlib,
Muğandan, Şirvandan, ya Mildən gəlib,
Bir ata-anadan, bir beldən gəlib,
Hərə bir bacarıq, ləyaqətdədidr.

Fələyin işinə nə demək olar?
Nə yardım göstərmək, nə kömək olar?
Nə düzəltmək olar, nə əymək olar?
Hərə bir tutumda, mətanətdədir.

---

[485] Qarışqa, mığmığa, fil də bir deyil.

[486] *II variant* Hamının isməti, həyası başqa,
Təlimi verəni, dayəsi başqa,
Əqidə, məsləki, qayəsi başqa,
Hərə bir cəsarət, bir cürətdədir.

[487] Hərə bir yol tutub, hərəkətdədir.

Kimi hörmətlidir, kimi hörmətsiz,
Kimi mürvətlidir, kimi mürvətsiz,
Kimi şərəflidir, kimi şöhrətsiz,
Hərə bir namusda, bir qeyrətdədir.

Hər dövrü-zamanın öz gərdişi var,
Öz adət-ənənə, öz vərdişi var,
Özünün Hürmüzü, öz Zərdüştü var,
Hərə bir ixtiyar, sədarətdədir.

Birisi acgözdür, hərisdir yaman,
Paxıldır, xaindir, xəbisdir yaman,
Nanəcib, namərddir, naqisdir yaman,
Hərə bir səxada, səxavətdədir.

Birisi zindanda inləyib yatır,
Qərq olub dəryada, gəmisi batır,
Biri də arzuya, kama da çatır,
Biri də azaddır, bəraətdədir.

Biri də düşünmür, dərk edib qanmır,
Dünya alışsada bir tükü yanmır,
Böyükdən utanmır, kiçiyi sanmır,
Hərə bir təlimdə, qiraətdədir.

Hərə bir biçimdə, hərə bir boyda,
Hərə bir kökdədir, hərə bir soyda,
Bilmirsən insanlıq ondadır, bunda,
Hərə bir mürvətdə, kəramətdədir.

Hərə bir məqsəddə, bir mərəzdədir,
Acıqda, qisasda, ya qərəzdədir,
Biri dərindədir, biri üzdədir,
Hərə bir təmənna, ədavətdədir.

Birisi zəifdir, biri zorludur,
Birisi karsızdır, biri karlıdır,
Birisi məzlumdur, biri varlıdır,
Hərə bir fəhmdə, fərasətdədir.

Heçkəs deməsin ki, günahım yoxdur,
Boğmuşam nəfsimi, tamahım yoxdur,
Nə qüssəm, kədərim, nə ahım yoxdur,
Hərə bir qüsurda, qəbahətdədir.

Hərkəsin söhbəti, sözü bir deyil,
Astarı bir deyil, üzü bir deyil,
Yolağı, cığırı, izi bir deyil,
Hərə bir qərarda, vəkalətdədir.

Birisi tənbəldir, birisi qoçaq,
Birisi quldurdur, birisi qaçaq,
Birisi soyuqdur, birisi sıcaq,
Hərə bir məzmunda, məziyyətdədir.

Biri cana doyur, inciyir, bezir,
Birisi tablaşıb, səbr edib, dözür,
Birisi dərk edir, anlayır, sezir,
Hərə bir təbdədir, bir xislətdədir.

Birinin başında kamalı çatmır,
Əqidə, məsləyi, amalı çatmır,
Mənəvi aləmi, camalı çatmır,
Hərə bir əzabda, əziyyətdədir.

Hərənin obası, eli başqadır,
Doğulduğu günü, ili başqadır,
Hər bağın, bağçanın gülü başqadır,
Hərə bir ətirdə, təravətdədir.[488]

---

[488] *II variant*

Hərənin obası, öz eli vardır,
Doğulduğu günü, öz ili vardır,
Hər bağın-bağçanın öz gülü vardır,
Hərə bir ətirdə, təravətdədir.

*III variant*

Birisi dəymişdir, birisi kaldır,
Birisi zəhərdir, birisi baldır,
Birisi çəhrayı, birisi aldır,
Hərə bir ətirdə, təravətdədir.

Birisi dayazdır, birisi dərin,
Birisi acıdır, birisi şirin,
Birisi istidir, birisi sərin,
Hərə bir ülfətdə, ünsiyyətdədir.

Dünyanın yükünü çəkməyən kimdir?
Əyib qamətini, bükməyən kimdir?
Gözünün yaşını tökməyən kimdir?
Hərə bir qayğıda, bir möhnətdədir.

İşində-gücündə yarıyan da var,
Taleyi gətirib sarıyan da var,
Ağlayan, sızlayan, zarıyan da var,
Hərə bir məzmunda, məziyyətdədir.

Hamının gəliri, çıxarı bir döy,
Sürüsü bir deyil, naxırı bir döy,
Əvvəli bir deyil, axırı bir döy,
Hərə bir şərəfdə, bir şöhrətdədir.

Bilən yox nə dükan, nə bazardı bu?
Haraya səfərdi, nə güzardı bu?
Necə xəstəlikdir, nə azardı bu?
Hər şey əndazəsiz, bir qiymətdədir.

Hamı mətahını bahalaşdırır,
Qəpik-quruşunu şahalaşdırır,
Cahil, nadanını dahiləşdirir,
Hərə bir məzənnə, bir kəsmətdədir.

Qalxıbdır aradan, həya qalmayıb,
Nə əqidə, məslək, qayə qalmayıb,
Təlimi verməyə dayə qalmayıb,
Hərə bir abırda, bir ismətdədir.

Çoxalır sərsəri, kəmağıl, yava,
Bələnir zəhərə, tərtəmiz hava,
Qarışır aralıq, salınır dava,
Hərə öz taleyi, qismətindədir.

Fürsət ələ keçib bəyzadələrə,
Sərsəri, dəngəsər, keyzadələrə,
Kütbeyin, kəmağıl, səyzadələrə,
Hərə öz kinində, nifrətindədir.

Sönənlər yanırlar, yananlar sönür,
Enənlər qalxırlar, qalxanlar enir,
Dinənlər susurlar, susanlar dinir,
Hərə bir hikkədə, hiddətindəir.

Baxan yox ağlayıb, gülənə əsla,
Əllərdə, ayaqda, ölənə əsla,
Saralıb vədəsiz solana əsla,
Hərə qaçışında, sürətindədir.

Deməklə çoxunu qandırmaq olmur,
Od qoyub qalasan, yandırmaq olmur,
Cəhalət buzunu sındırmaq olmur,
Hərə öz ədəbi, mərfətindədir.

***Cəmil Əkbər*** 5. 02 – 1992

## 329. UMMUŞAM

Günah səndə deyil, məndə olubdur,
Hər çürük kəllədən kamal ummuşam.
Fəhm-fərasətdə, zənddə olubdur,
Mənəvi gözəllik, camal ummuşam.

Təlimdən yarımçıq dadan gədədən,
Yolunu tərsinə adan gədədən,
Haqq-say sümürüb udan gədədən,
Əqidə gözləyib, amal ummuşam.

Bilən yox xəyanət kimdə olubdur?
Dumanda, çiskində, çəndə olubdur?
Hansı dalanlarda, tində olubdur?
Vətəni satandan mahal ummuşam.

Nanəcibdən, naxələfdən, naqisdən,
Paxıllardan, xainlərdən, xəbisdən,
Hər yetirən yaramazdan, varisdən,
Əsl soy axtarıb, təməl ummuşam.

Məqamı gəldikcə ülfət eyləyib,
Gəlmişdən, keçmişdən söhbət eyləyib,
Gileylər, güzarlar, qeybət eyləyib,
Nicat gözləmişəm, nüsrət ummuşam.

Hədər yerə ağartmışam başımı,
Gətirmişəm payızımı, qışımı,
Dağıtmışam xəyalımı, huşumu,
Arsız həyasından ismət ummuşam.

Şəklənib çoxundan aralı gəzdim,
Qəlbi xoflu gəzdim, qaralı gəzdim,
Oralı axtardım, buralı gəzdim,
Tülküdən, çaqqaldan qeyrət ummuşam.

***Cəmil Əkbər*** 8.05-1998

## 330. ELƏBİL DÜNYANIN AXIRI ÇIXIB

Ləzzəti azalıb, qəmi çoxalıb,
Zili kökdən düşüb, bəmi çoxalıb,
Dideyi-giryanın nəmi çoxalıb,
Əyəri, əksiyi, kəmi çoxalıb.
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

Dağıdan-dağıdır, sökənlər-sökür,
Yerində turşənək əkənlər-əkir,
Bezdirib zəhlələr tökənlər-tökür,
Sinəyə dağ-düyün çəkənlər-çəkir.
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

Darıxan darıxır, dözənlər-dözür,
Avara dolanıb gəzənlər-gəzir,
Qəmlər dəryasında üzənlər üzür.
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

Alan-almağında, satan-satmaqda,
İnsafı-mürvəti atan-atmaqda,
Qərq olub qəflətdə yatan-yatmaqda,
Üfunət gölünə batan-batmaqda.
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

Ünsiyyət-ülfəti pozan oqədər,
Doğrunu əyriyə yozan oqədər,
Yolunu-izini azan oqədər,
Ayaqlar altından qazan oqədər,
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

Hayana baxırsan yalan çoxalıb,
Əllərdə, ayaqda qalan çoxalıb,
Xəzana qərq olub solan çoxalıb,
Fikirə, xəyala dalan çoxalıb.
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

Obanı düşünüb eli sayan yox,
Bülbülü pəsinib, gülü sayan yox,
Qaralan ocağı, külü sayan yox,
Nə şeyda bülbülü gülü sayan yox.
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

İnsan bir-birinin qanını sorur,
Zülalını çəkir, şanını sorur,
Toxunur cəsədə, canını sorur,
Gövhərini sorur, kanını sorur.
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

Bazara baxırsan dəllal çoxalıb,
Alverçi, möhtəkir, baqqal çoxalıb,
Meşədə tülkülər, çaqqal çoxalıb,
Abırsız, həyasız, naqqal çoxalıb.
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

Hiyləgər, dələduz, biclər çoxalıb,
İlqara-imana kəclər çoxalıb,
Sərsəri, kəmağıl, giclər çoxalıb,
Qanuna, qaydaya öclər çoxalıb.
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

Qandırmaq olmayır başıboşları,
Vicdani-kəmləri, qəlbi-daşları,
Fikiri, xəyalı, huşu çaşları,
Fillərə hürüşən alabaşları.
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

Dərdlər çox ağırdır, dözmək olmayır,
Qəmlər dəryasında üzmək olmayır,
Fikir dolaşıqdır, sezmək olmayır,
Cismi-can çox şirin, bezmək olmayır.
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

Nəqədər bacarsan yaz, Cəmil Əkbər!
Tablaşıb səbr eylə, döz Cəmil Əkbər!
Ruhunu oxşasın saz, Cəmil Əkbər!
Yaraşmır eyləmək naz, Cəmil Əkbər!
Eləbil dünyanın axırı çıxıb,
Sürtülüb qalayı, paxırı çıxıb.

***Cəmil Əkbər*** 17. 02 – 1998

## 331. ARZULARIM

Xoşlamıram dünyada, mən əli boş getməyi,
İz salaraq cahanda, qalanlardan olaydım.
Əməlimlə, işimlə, sənətimlə, peşəmlə,
Zəfərlərin təblini çalanlardan olaydım.
Bir gün gedər olsam da, elə-belə getməyəm,
Yaddaşlarda həkk olub, qalanlardan olaydım.
Könüllərdən silinib, birdəfəlik getməyəm,

El-obamdan ilhamı, alanlardan olaydım.
Buxarlara qoşulub, azalsam da bir anlıq,
Dəryatəki çalxanıb, dolanlardan olaydım.
İftixarla, fərəhlə, öyünənlə öyünəm,
Xoş əməli işimlə, sevinənlə sevinəm.
Gedənlərlə getsəm də, gələnlərlə gələydim,
Xeyirxalıq eyləyib, gülənlərlə güləydim.
Doğulanla doğulub, olanlarla olaydım,
Fikirlərə, xəyala, dalanlarla dalaydım.
Bu torpağı becərib, əkənlərlə əkəydim,
El-obanın yükünü, çəkənlərlə çəkəydim.
Zəhmət çəkib tərtökən, becərənlə becərəm,
Səpilənlə səpilib, cücərənlə cücərəm.
Oxuyanla oxuyub, yazanlarla yazaydım,
Səbr eyləyib tablaşan, dözənlərlə dözəydim.
Xeyir-şərə qarışıb, möhübləri düzəydim,
Qəvvas olub dəryada, üzənlərlə üzəydim.
Duyanlarla duyaydım, sezənlərlə sezəydim,
İnciyənlə inciyib, bezənlərlə bezəydim,
Alnıaçıq, üzüağ, gəzənlərlə gəzəydim.
Bağbantəki bağ salıb, dərənlərlə dərəydim,
Öz borcunu xalqına verənlərlə verəydim.
Yaradanla yaradıb, quranlarla quraydım,
Oyananla oyanıb, duranlarla duraydım.
Anlayanla anlayıb, qananlarla qanaydım,
Eşq oduna düşənlə, alışaydım, yanaydım.
El-obama çəkdiyim zəhmətimlə öyünəm,
Azdan-çoxdan nə varsa, xidmətimlə sevinəm.
Ünsiyyətdə-ülfətdə mən qəbahət eyləsəm,
Ləyaqətin əhlinə, mən xəyanət eyləsəm.
Dünyasını dəyişib, gedənlərlə gedəydim,
Adsız, sansız, ünvansız, ölənlərlə öləydim,
Gözlərinin yaşını silənlərlə siləydim.
Saralanla saralıb, solanlarla solaydım,
Saçlarını qoparıb, yolanlarla yolaydım.
Silinəydi həyatda, izim belə qalmaya,
Sovrulaydı göylərə, tozum belə qalmaya.

***Cəmil Əkbər*** 17. 02 - 1998

## 332. ARZUM BUDUR

Nəolaydı bu bəşər, xətir-hörmət gözləyə,
Xidmət edə hərzaman, insaf-mürvət gözləyə.
Ədalətlə iş görə, əyriliyə getməyə,
Saxtalıqdan əl çəkə, qeyriliyə getməyə.
Ülfət edib hamıyla, sədaqətlə dolana,
Ədəb-ərkan gözləyib, nəzakətlə dolana.
Fitnə-fəsad törədib, qarışmaya şər işə,
Meyl etməyə bəd fikrə, bədəmələ, vərdişə.
Yol verməyə hiyləyə, bicliyinə son qoya,
İlqarına, imana, kəcliyinə son qoya.
Yol verməyə bir an da, şər-xətaya, böhtana,
Bac verməyə əqrəbə, iblislərə, şeytana.
Acgözlüyə qoşulub, tamaha qul olmaya,
Savabını qazana, günaha qul olmaya.
Ustadlardan öyrənə, oxuyaydı həmişə,
Naşı qalıb həyatda, düşməyəydi təşvişə.
Çətinlikdə, məqamda, qüdrətini bildirə,
Hünəriylə, zəfərlə, dost-tanışı güldürə.
Haqq-sayı unudub, nanıkorluq etməyə,
İnsanlığa qəsd edib, ziyankarlıq etməyə.
Eşidənlər inciyib küsməyələr dilindən,
Nifrət edib, bezməyə, doğulduğu elindən.
İstərdimki eloğlu, sağlam ola ürəyin,
Nəcib ola arzular, istəklərin, diləyin.
Harda olub yaşasa, elə gərəkli olsun,
Geniş süfrələr açıb, halal çörəkli olsun.
Nə paxıllıq, xainlik, nə xəbislik bilməyə,
Nə namərdlik tanıyıb, nə naqislik bilməyə.
İftixarla, qürurla, sözü gəzə ellərdə,
Baxışları, nəzəri, gözü gəzə ellərdə.
Alnıaçıq, başı uca, eldə üzü ağ olsun,
Bəslədiyi, becərdiyi, bərəkətli bağ olsun.
Eşidənlər, bilənlər, ona ağız büzməsin,
Çəkilərək kənara, uzaqlarda gəzməsin.
Ünvanının dalınca, hamı nifrət etməsin,
Qəzəbini bildirib, nə küdurət etməsin.
Köç eyləyib gedəndə, hamı rəhmət söyləsin,

Oğul-qız övladına hamı hörmət eyləsin.
El-obaya amandır, divanəlik etməsin,
Laqeyidlik göstərib, biganəlik etməsin,
Hünərinə baxdıqca kef-damağı çağ ola,
Ağrımaya ürəyi, canı-başı sağ ola.

***Cəmil Əkbər*** 15.05-1980

## 333. QƏDRİNİ BİLƏK

Gəlin bu dünyanın qədrini bilək,
Hər yerin, hər yanın qədrini bilək.
Səpilən torpağın qədrini bilək,
Ağacda yarpağın qədrini bilək.
Günəşin, ulduzun qədrini bilək,
Gecənin, gündüzün qədrini bilək.
Bu suyun, havanın qədrini bilək,
Hər elin, obanın qədrini bilək.
Qocaman dağların qədrini bilək,
Bülbüllü bağların qədrini bilək.
Gəlin insanlığa xidmət eyləyək,
Məhəbbət bəsləyək, hörmət eyləyək.
Heçkimsə girməsin, qərəzə-qəsdə,
Göz yolda qalmasın, könüllər xəstə.
Dəyməsin heçkimsə xətirə, şəsdə,
Desin birbirinə can, gözüm üstə.
Hərkəsdən hamıya mərhəmət olsun,
Sədaqət, səxavət, kəramət olsun.
Meydan açılmasın fitnə-fəsada,
Sərsəri, gicbəsər, əqli-kasada.
Tamahı itiyə, acgöz, hərisə,
Paxıl, xain, nanəcibə, naqisə.
Ehtiyac olmasın dava-dalaşa,
Həyəcana, səksəkəyə, təlaşa.
Meydan verilməsin, başıboşlara,
Ulduza dartılan alabaşlara.
Olmasın arada nə kin, küdurət,
Nə qəzəb, nə hiddət, nə də ədavət.
Qoymayaq göylərdən bomba tökülsün,

Torpağın, insanın bağrı sökülsün.
Olmasın hay-haray, olmasın həşir,
Qorxu, səksəkələr qəlbləri deşir.
Nəüçün dünyamız alışıb, yansın?
Bəşərin övladı zülmə dayansın?
Gəlin xoş əməllə şəklənək, gülək,
Əsməsin cahana qoy acı külək.
Gəlin bu dövranın qədrini bilək,
Qüssəni, kədəri, məhv edib silək.
Gəlin bu cahanı zəhərləməyək,
Bəşər övladını qəhərləməyək.
Zülümlər içində bezib getməsin,
Əzab-əziyyətə dözüb  getməsin.
Cəhd edib hamının dadına çataq,
Qohumuna çataq, yadına çataq.
Gəlin hər əzabı çəkib getməyək,
Torpağa bəd toxum, səpib getməyək.
Nə səpsən torpağa, o da bitəcək,
Nəvə-nəticənə gedib yetəcək.[489]
Gəlin ünsiyyəti korlamayaq biz,
Hissi-həyəcanı zorlamayaq biz.
Biz bilək qədrini körpə balanın,
Nəvə-nəticənin, kötücənin də.
Biz bilək qədrini babaların da,
Atanın, ananın, nənələrin də.
Qardaşın, bacını qədrini bilək,
Şirinin, acının qədrini bilək.
Dostların, yoldaşın, qədrini bilək,
Həmkarın, tay-tuşun qədrini bilək.
Doğmanın, ögeyin qədrini bilək,
Hər eşik, hər evin qədrini bilək.
Qoymayaq bir daha, davalar olsun,
Əqlini itirən yavalar olsun.
Gəlin insanlığa sataşmayaq biz,
Qapı-bacalara daş atamayaq biz.
Uymayaq yalana, böhtana, şərə,

[489] Nəvə-nəticənə nə var yetəcək.

Qoymayaq alınsın, yaman mənzərə,
Hamını çətindən, dardan qurtaraq,
Nalədən, fəryaddan, zardan qurtaraq.

***Cəmil Əkbər*** 20. 10 - 1986

## 334. QƏDRİNİ BİLƏK

Yeyirik, içirik, kef eyləyirik,
Gəlin yer şarının qədrini bilək.
Qazanclar götürüb, nəf eyləyirik,
Gəlin yer şarının qədrini bilək.

Biz onun üstündə məzələnirik,
Bəzənib, düzənib təzələnirik,
Nəsildən-nəsilə gözələnirik,
Gəlin yer şarının qədrini bilək.

Onsuz nə yaşayış, nə də həyat var,
Nə toy var, nə düyün, nə də büsat var,
Nə çıxış yolu var, nə də nicat var,
Gəlin yer şarının qədrini bilək.

Soruruq neftini, qazını onun,
Varının çoxunu-azını onun,
Çəkmirik ərkini-nazını onun,
Gəlin yer şarının qədrini bilək.

Biz onun üstündə sürürük dövran,
Saxlayıb var-dövlət, görürük karvan,
Dağıdıb, talayıb etməyək viran,
Gəlin yer şarının qədrini bilək.

Gəlin kainata qəsd eyləməyək,
Haldan-hala salıb, məsd eyləməyək,
Çevirib altını, üst eyləməyək,
Gəlin yer şarının qədrini bilək.

Sərsəri, kəmağıl, dəli olmayaq,
Onun damarına zəli olmayaq,
Həşəratsayağı bəli olmayaq,
Gəlin yer şarının qədrini bilək.

Tükənib sərvəti azala bilər,
İnləyib, sızlayıb sozala bilər,
Sarsıyıb növrağı pozula bilər,
Gəlin yer şarının qədrini bilək.

Bu gözəl cahanı məhv eyləməyək,
Varını, halını püf eyləməyək,
İtirib kamalı səhv eyləməyək,
Gəlin yer şarının qədrini bilək.

Son qoyaq dünyada dava olmasın,
Zəhərə qarışmış hava olmasın,
Aranı qatanlar, yava olmasın,
Gəlin yer şarının qədrini bilək.

İndi məqamıdır, sonra gec olar,
Zəmanə tərsləşib, yaman kəc olar,
Girib qəsdimizə, bizlə öc olar,
Gəlin yer şarının qədrini bilək.

Nəqədər kefimiz, halımız çağdır?
Gəzirik, dözürük can hələ sağdır?
Nəqədər baş uca, üzümüz ağdır?
Gəlin yer şarının qədrini bilək.

***Cəmil Əkbər***

## 335. GERİ QAYTARIN

Ay ellər, obalar birləşin yenə,
Gözəl sovetləri geri qaytarın.
Toplaşın, yığışın, gurlaşın yenə,
Gözəl sovetləri geri qaytarın.

Əzilən olmasın, əzən olmasın,
Bezdirən olmasın, bezən olmasın,
Zülmə, işgəncəyə dözən olmasın,
Gözəl sovetləri geri qaytarın.

Hamı səcdə qılsın ziyarətgaha,
Moskva, Kremil, iqamətgaha,
Lenin uyuduğu o qibləgaha,
Gözəl sovetləri geri qaytarın.

Hamı birbirinə qardaşıq desin,
Mehriban, səmimi yoldaşıq desin,
Həmkarıq, həmdəmik, sirdaşıq desin,
Gözəl sovetləri geri qaytarın.

Bu cahan mülkündə millət bir olsun,
Ürəkdə təpərlər, riqqət bir olsun,
Nəzərlər, qayğılar, diqqət bir olsun,
Gözəl sovetləri geri qaytarın.

Qoy zəhmət dünyası çıraqban olsun,
Çatsın səadətə, firavan olsun,
Vədə boş keçməsin, anbaan olsun,
Gözəl sovetləri geri qaytarın.

Arzular, istəklər, dilək bir olsun,
Qollar yorulmasın, bilək bir olsun,
Fikirlər, xəyallar, ürək bir olsun,
Gözəl sovetləri geri qaytarın.

Qoy zəhmət dünyası bərqərar olsun,
Ülviyyət, qüdsiyyət sərasər olsun,
Hamı bir-biriylə bəradər olsun,
Gözəl sovetləri geri qaytarın.

Bazarda, dükanda ət də bol olsun,
Şəkər də, şərbət də, qənd də bol olsun,
Şəhər, qəsəbə də, kənd də bol olsun,
Gözəl sovetləri geri qaytarın.

Qoruyaq, saxlayaq beynəlmiləli,
Qalmasın ürəkdə heç şey şübhəli,
Deməyin Cəmilə olub gülməli,
Gözəl sovetləri geri qaytarın.

***Cəmil Əkbər***

## 336. TARİXİN TƏKƏRİ DÖNƏNDƏN BƏRİ

Nəyaman bəd gəlib dövrü-zamana?
Qiyməti verən yox, yaxşı-yamana.
Nə deyək, danışaq, beylə gərdişə?
Adət-ənənəyə, beylə vərdişə?
Alimlər, loğmanlar gözdən salınır,
Yoluna məhəl yox, izdən salınır.
Ləyaqət əhlinə pisdi deyirlər,
Qızıl döy, gümüş döy, misdi deyirlər.
Bədxahdı, zalımdı, nəsdi deyirlər,
Höcətdi, inaddı, tərsdi deyirlər.
Düşünmür, dərk etmir, keydi deyirlər,
İtirib əqlini, səydi deyirlər.
Gədadan olana bəydi deyirlər,
Əjdaha, begemont, döydü[490] deyirlər.
Xəyanət eyləyir yoldaş-yoldaşa,
Həmkar-həmkarına, sirdaş-sirdaşa.
Ata-oğuluna, qardaş-qardaşa,
Tay-tuş-tay-tuşuna, çağdaş-çağdaşa.
Günümüz-gün deyil, ayımız ay döy,
Qışımız qış deyil, yayımız yay döy.
Sənət gözdən düşüb, hey gözdən düşüb,
Kotan yaddan çıxıb, xış gözdən düşüb.
Kimi ac-yalavac, kimi dəmdədir,
Gör kimlər kefdədir, kimlər qəmdədir,
Kimlər zil üstündə, kimlər bəmdədir.
Kimlərin gözləri nəm içindədir,
Dərdi-qəm əlində, kəm içindədir.
Kimi əzab çəkir, kimi kefdədir,
Kiminin var-halı, hamsı müftədir.
Gəlhagəl içində, daim nəfdədir,
Yehaye, içhaiç, püfha-püfdədir.
Dağıdan-dağıdır, sökənlər sökür,
Bezdirib zəhlələr tökənlər-tökür.
Dağı sinələrə çəkənlər-çəkir,

---

[490] Döy- dev

Qəddini yay kimi bükənlər-bükür.
Ağlayan-ağlayır, gülənlər-gülür,
Gözünün yaşını silənlər-silir.
Eşidən-eşidir, bilənlər-bilir,
Dirçələn-dirçəlir, ölənlər-ölür.
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.
İnsan bir-birinin bədinə gedir,
Özü də bilməyir nə məqsəd güdür.
Korlanır əsəblər, qaralır qanlar,
Tükənir səbrlər, üzülür canlar.
Çoxalıb nəyaman şəhid qurbanlar?
Azalıb, seyrəlib dost-mehribanlar.
Düşmüşük nəyaman cəhalətə biz?
Hər addımbaşında qəbahətə biz.
Çəkişmə, didişmə, şikayətə biz,
Gileyə, güzara, ədavətə biz.
Gözəl zəmanədən zülmətə düşdük,
Əzab-əziyyətə, zillətə düşdük.
Ünsiyyət-ülfətlər pozuldu getdi,
Həqiqət tərsinə yozuldu getdi.
Sədaqət, səxavət azaldı getdi,
İnlədi, sızladı, sozaldı getdi.
Həryanda törədi, nadanlar artdı,
Təlimdən yarımçıq dadanlar artdı.
Yolunu-tərsinə adanlar artdı,
Haqq-say sümürüb, udanlar artdı.
Ar-namus bilməyən pozğunlar artıb,
Leşlərə daraşan pozğunlar artıb.
İlanlar, əqrəblər çayanlar artıb,
Yoğurub-yapmamış tapanlar artıb.
Qalmışıq davalar, dalaş içində,
Qal-qovğa, həyəcan, təlaş içində.
Hiyləgər, dələduz ara qatırlar,
Dövlətə, sərvətə, vara çatırlar,
Özü də bilməyir hara çatırlar?
Vicdanı-məsləyi satanlar-satır,
İnsafı-mürvəti atanlar-atır.
Üzənlər-üzürlər, batanlar-batır,

Qərq olub qəflətdə yatanlar-yatır.
Danışan-danışır, susanlar-susur,
Döşürən-döşürür, qusanlar-qusur.
Saralan-saralır, solanlar-solur,
Buludtək qaralan, dolanlar dolur.
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.
Qaz vurub qazanlar doldurana bax,
Badələr doldurub, qaldırana bax.
Üzlərdə-gözlərdə həya qalmayıb,
Əqidə qalmayıb, qayə qalmayıb.
Halaldan kəsb olan, maya qalmayıb,
Təlimi düz verən dayə qalmayıb.
Qanun kitabının özü saxtadır,
Cilidi, astarı, üzü saxtadır.
Yolağı saxtadır, izi saxtadır,
Torbası saxtadır, duzu saxtadır.
Güzəran pisləşib, səfa qalmayıb,
Etibar, etiqad, vəfa qalmayıb,
Xalqa yolgöstərən qafa qalmayıb,
Dərdə əlac edən şəfa qalmayıb.
Düşmüşük nəyaman səfalətdəyik,
Müsibət içində fəlakətdəyik.
İnsan birbirinə hörmət eyləmir,
Kəramət eyləmir, mürvət eyləmir.
Hamı meyl eyləyir tamahasarı,
Xətaya-bəlaya, günahasarı.
Nəyaman qıtlaşıb kamal dünyası?
Mənəvi gözəllik, camal dünyası?
Mərd igid yetirən mahal dünyası?
İgidlər yetirən cahal dünyası?
Sədası gəlməyir ər kişilərin,
Nəhəng kişilərin, nər kişilərin.
Həryana baxırsan naqis çoxalıb,
Şərəfsiz, şöhrətsiz varis çoxalıb.
Bu qəddar zamanda soluram yaman,
Buludtək tutulub, doluram yaman.
Gədalar dünyası susdurub məni,
İncidib, bezdirib, küsdürüb məni.

Haçandan özümə gələ bilmirəm,
Yoluma-izimə gələ bilmirəm.
Ürəkdən sevinib gülə bilmirəm,
Gözümdən dumanı silə bilmirəm.
Tutulub qabağım, çatılıb qaşım,
Düşünüb, dərk edib, yorulub başım.
Sənət dəbdən düşüb, işləmir peşə,
Düşən yox həyəcan, nə də təşvişə.
Tarixin təkəri dönəndən bəri,
Gədalar danışıb, dinəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri,
Ləyaqət zirvədən enəndən bəri.

***Cəmil Əkbər*** 8. 09 - 1994

## 337. KƏHKƏŞAN ULDUZU SÖNƏNDƏN BƏRİ

Nəvaxtdır özümə gələ bilmirəm,
Tarixin təkəri dönəndən bəri.
Ürəkdən şad olub gülə bilmirəm,
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

Elə saralmışam, elə solmuşam,
Fikir, xəyallara elə dalmışam,
Buludtək qaralıb elə dolmuşam,[491]
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

Hamı birbirinə yalan danışır,
Boğazdan yuxarı, kalan danışır,
Vicdanı satanlar, alan danışır.
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

---

[491] Eləbil dünyada tənha qalmışam.

Ünsiyyət, ülfətdə hörmət qalmayıb,
Kəramət qalmayıb, mürvət qalmayıb,
Mənəvi gözəllik, sərvət qalmayıb.
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

İnsanam deyəndə vəfa qalmayıb,
Korlanıb zəmanə, səfa qalmayıb,
Dərk edən, düşünən qafa qalmayıb.
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

Çox mənəm deyənlər pozuldu getdi,
Çevrilib tərsinə yozuldu getdi,
Seyrəldi dəsdəsi, azaldı getdi.
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

Çoxları qurşanıb alış-verişə,
Yaman uyğunlaşıb dövrü-gərdişə,
Ürpətmir tükünü, düşmür təşvişə.
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

Qal-qovğa çoxalıb, dava çoxalıb,
Zəhərə qarışan hava çoxalıb,
Sərsəri, kəmağıl, yava çoxalıb,[492]
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

Sədaqət də, səxavət də azalıb,
Eşq-həvəs, məhəbbət də azalıb,
Xeyirxahlıq, fəzilət də azalıb,[493]
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

---

[492] Araqarışdıran yava çoxalıb.
[493] İnsanlıq da, ləyaqət də azalıb.

Yaman bəd gəlibdir dövrü-zəmanə,
Qarışıb gedibdir, yaxşı-yamana,
Baxan yox qarğışa, aha-amana.
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

Alimə, loğmana keydi deyirlər,
İtirib əqlini səydi deyirlər,
Hər yetən gədəyə bəydi deyirlər.
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri,

Xəyanət edirlər yoldaş-yoldaşa,
Həmkarlar-həmkara, sirdaş-sirdaşa,
Tay-tuşlar-tay-tuşa, çağdaş-çağdaşa,
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

Kimi ac-yalavac, kimi dəmdədir,
Kimi kef-damaqda, kimi qəmdədir,
Kimi zil kökdədir, kimi bəmdədir,
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

Dağıdan dağıdır, sökənlər-sökür,
Bezdirib zəhlələr tökənlər-tökür,
Dağı sinələrə çəkənlər-çəkir.
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

Düşmüşük nəyaman cəhalətə biz,
Hər addımbaşında qəbahətə biz,
Kinə-küdurətə, ədavətə biz,
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

Abırsız, həyasız, azğınlar artıb,
Qal-qovğa törədən, pozğunlar artıb,
Leşlərə sırışan quzğunlar artıb,
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

Halaldan kəsb olan maya qalmayıb,
Əqidə qalmayıb, qayə qalmayıb,
İnsandan-insana sayə qalmayıb.
Tarixin təkəri dönəndən bəri,
Kəhkəşan ulduzu sönəndən bəri.

***Cəmil Əkbər*** 8. 09 – 1994 // 17.04 – 1995

## 338. DARIXMA!

Beylə getməz bu işlərin axırı,
Ləl dəyəri itəsi döy, darıxma![494]
Çoxlarının açılacaq paxırı,
Hil dəyəri itəsi döy, darıxma![495]

Həşarətlər girsələr də qəsdinə,
Hücum çəkib düşsələr də üstünə,
Dəysələr də xətirinə, şəstinə, [496]
Fil dəyəri itəsi döy, darıxma![497]

Tikan, qanqal əl-ayağa batsa da,
Qan tökməklə muradına çatsa da,
Yerli-yersiz günahlara batsa da,
Gül dəyəri itəsi döy, darıxma![498]

Öz-özünə öyünməsin danalar,
Kölgəsiylə sevnməsin sonalar,
Qoy görsünlər nələr doğur analar?
Kəl dəyəri itəsi döy, darıxma!

Düha sahibləri yaşamalıdır,
Ellərin yükünü daşımalıdır,
Kim deyər onlara müəmmalıdır?[499]
Bil dəyəri itəsi döy, darıxma! [500]

---

[494] Qədir-qiymət blinəcək darıxma!
[495] Gözyaşları silinəcək darıxma!
[496] Dəysələr də addımbaşı şəstinə.
[497] Filin qədiri bilinəcək, darıxma!
[498] *II variant* Tikan, qanqal əllərinə batsa da,
Vicdanını, məsləkini satsa da,
Qan tökməklə muradına çatsa da,
Gülün qədiri bilinəcək, darıxma!
[499] Kim deyər onlara naşı malıdır?

Nəqədər bacarsan hörmətlə dolan?
Xalqına insaf et, mürvətlə dolan,[501]
Mənəvi gözəllik, sərvətlə dolan,
İl dəyəri bilinəcək, darıxma!

Qədəklər, sətinlər bahalaşsa da,
Cahillər, nadanlar dühalaşsa da,
Qəpiklər bazarda şahalaşsa da,
Şal dəyəri itəsi döy, darıxma!

Xidmət sahibləri yaddan çıxan döy,
Damaqdan düşən döy, daddan çıxan döy,
Əsrlər keçsə də, dəbdən çıxan döy,
Dil dəyəri itəsi döy, darıxma![502]

Qəlbi qırır dadsız, tamsız söhbətlər,
Dedi-qodu, giley-güzar, qeybətlər,
Kin-küdurət, ədavətlər, hiddətlər,
El dəyəri itəsi döy, darıxma!

Harda olsan ədaləti tapdama,
Doğru-düzlük, həqiqəti tapdama,
İnsanlığı, ləyaqəti tapdama,
Yol dəyəri itəsi döy, darıxma! [503]

Yayılacaq adın-sanın ellərdə,
Satılacaq gövhər-kanın ellərdə,
Xoşa gələr yol-ərkanın ellərdə,
Çöl dəyəri itəsi döy, darıxma!

---

500 Gölün qədri bilinəcək, darıxma!

501 Xalqa rəhmin gəlsin mürvətlə dolan.

502 *II variant* Xidmət sahibləri daddan çıxan döy,
Yaddaşdan silinib, yaddan çıxan döy,
Əsrlər keçsədə, dəbdən çıxan döy,
Zəhmət qədiri bilinəcək, darıxma!

503 *II variant* Nəqədər bacarsan ədalətli ol,
Ünsiyyət-ülfətdə sədaqətli ol,
Elinə-xalqına ləyaqətli ol,
Yolun qədiri bilinəcək, darıxma!

Güzarımız düşər olsa Muğana,
Gözəl diyar Şamaxıya, Şirvana,
Kür sahili el-obaya, Salyana,
Mil dəyəri itəsi döy, darıxma![504]

Ünsiyyət-ülfəti dərin eyləsən,
Səmimi, mehriban, şirin eyləsən,
Sözünü car çəkib, bəyan eyləsən,
Bal dəyəri itəsi döy, darıxma![505]

Cəmil Əkbər dəyişməynən rəngini,
Yeri gəlcək tez səsləndir zəngini,
Möhkəm saxla əllərində süngünü,
Çal dəyəri itəsi döy, darıxma! [506]

***Cəmil Əkbər*** 26. 09 – 1996

## 339. YAZIQ MİLLƏT BU NƏ GÜNDÜR DÜŞÜBDÜR?!

Kim nalə endirib, kim qarğayıbdır?
Yazıq millət bu nə gündür düşübdür?!
Tale ulduzunu kim doğrayıbdır,
Yazıq millət bu nə gündür düşübdür?!

Davalardan, dalaşlardan qurtarmır,
Həyəcandan, təlaşlardan qurtarmır,
Döyüşlərdən, vuruşlardan qurtarmır,
Yazıq millət bu nə gündür düşübdür?!

Göz dikirlər bir-birinin varına,
Almaslına, heyvasına, narına,
Namusuna, qeyrətinə, arına,
Yazıq millət bu nə gündür düşübdür?!

---

[504] Milin qədiri bilinəcək, darıxma!

[505] *II variant* Fikrini aşikar bəyan eyləsən,
Ünsiyyət-ülfəti dərin eyləsən,
Səmimi, mehriban, şirin eyləsən,
Balın qədri bilinəcək, darıxma!

[506] *II variant* Cəmil Əkbər ilhamı al obadan,
Doğulduğun halal yurddan, yuvadan,
Nə bacarsan kənarda qal davadan,
Hil qədrini biləcəklər, darıxma!

Bir-birini gicitkantək dalayır,
Var-halını şülən çəkir, talayır,
Nə bacarsa barmağına dolayır,
Yazıq millət bu nə gündür düşübdür?!

Arvadları lağ eyləyir ərinə,
Gətirən yox, din-imanın pirinə,
Qoyan yoxdur hərkəsdəni yerinə,
Yazıq millət bu nə gündür düşübdür?!

Bir-birini gecə-gündüz xorlayır,
Ünsiyyəti-ülfətləri korlayır,
Əsəbləri tarım çəkib zorlayır,
Yazıq millət bu nə gündür düşübdür?!

Nə cavan sayılır, nə qocalanlar,
Nə zəfər çalanlar, nə bac alanlar,
Nə hünər göstərib, nə ucalanlar,
Yazıq millət bu nə gündür düşübdür?!

Bazar qıtlaşıbdır, şor da tapılmır,
Qeyrət ərşə çıxıb, ar da tapılmır,
Yoldaş saxtalaşıb, yar da tapılmır,
Yazıq millət bu nə gündür düşübdür?!

Beylə getsə sağalan döy yaramız,
Tapılan döy dərdimizə çaramız,
Almaq üçün qıtlıq edir paramız,
Yazıq millət bu nə gündür düşübdür?!

Həyasızlar, azğınlar da çoxalıb,
Leşgəmirən quzğunlar da çoxalıb,
Əhli-keflər, pozğunlar da çoxalıb,
Yazıq millət bu nə gündür düşübdür?!

Hər yetirən gədə bəylik eyləyir,
Sahib olub elə eylik eyləyir,
İtirib əqlini səylik eyləyir,
Yazıq millət bu nə gündür düşübdür?!

Gör haçandan cəhalətdən ayılmır?
Avamlıqdan, qəbahətdən ayılmır?
Xəbislikdən, xəyanətdən ayılmır?
Yazıq millət bu nə gündür düşübdür?!

Qazanandan satan çoxdur ay aman,
Aralığı qatan çoxdur ay aman,
Günahlara batan çoxdur ay aman,
Yazıq millət bu nə gündür düşübdür?!

Bu dərd qocaldıbdır Cəmil Əkbəri,
Nə gücü qalıbdır, nə də hünəri,
Yazıb məlum edir beylə xəbəri,
Yazıq millət bu nə gündür düşübdür?!

***Cəmil Əkbər*** 11.04-1994

## 340. YAZIQ MİLLƏT GÖR NƏGÜNƏ DÜŞÜBDÜR?

Birbirinə gör necə də qəsd edir,
Yazıq millət gör nəgünə düşübdür?
Yeməmişdən, içməmişdən məsd edir,
Yazıq millət gör nəgünə düşübdür?

Kəlləsində şeytan yatır, cin yatır,
Qərəz yatır, qisas yatır, kin yatır,
Cəhalətə sürükləyən din yatır,
Yazıq millət gör nəgünə düşübdür?

Xətirə, hörmətə möhtac qalıbdır,
İnsafa, mürvətə möhtac qalıbdır,
Abıra, ismətə möhtac qalıbdır,
Yazıq millət gör nəgünə düşübdür?

Yerə-göyə sığışmayır ədası,
Pis işlərdən gəlir adı, sədası,
Saymaq ilə qurtaran döy, qadası,
Yazıq millət gör nəgünə düşübdür?

Acgöz, tamahkiri, hərisi çoxdur,
Nanəcib, namərdi, naqisi çoxdur,
Biqeyrət övladdan varisi çoxdur,
Yazıq millət gör nəgünə düşübdür?

Bir-birinin al-qanını qaraldır,
Bağlarında gül-çiçəyi saraldır,
Gen dünyanı başlarına daraldır,
Yazıq millət gör nəgünə düşübdür?

Birbirinə lağ etməkdən utanmır,
Həyasızlıq, ağ etməkdən utanmır,
Kef-damağın çağ etməkdən utanmır,
Yazıq millət gör nəgünə düşübdür?

Bir-birini usandırır, bezdirir,
Dağa salır, daşa salır, gəzdirir,
Cəhənnəmin əzabına dözdürür,
Yazıq millət görnəgünə düşübdür?

Bir-birini haldan salıb yorubdur,
Daşa vurub, iliyini sorubdur,
Ümidini çilikləyib qırıbdır,
Yazıq millət görnəgünə düşübdür?

Qardaş-qardaşını saya gətirmir,
Yoldaş-yoldaşını saya gətirmir,
Sirdaş-sirdaşını saya gətirmir,
Yazıq millət görnəgünə düşübdür?

Nə ismət gözləyir, nə həya qanır,
Nə vicdan, nə məslək, nə qayə qanır,
Nə təlim götürür, nə dayə qanır,
Yazıq millət görnəgünə düşübdür?

Birbirinə həsəd çəkir, darılır,
Xainlikdən için-için qırılır,
Haldan, heydən dildən düşür, yorulur,
Yazıq millət gör nəgünə düşübdür?

Deyən yoxdur elə gəlmə, belə gəl,
Bülbül-olub çiçəyə gəl, gülə gəl,
Qoşulmaynan fitnəyə gəl, felə gəl,
Yazıq millət gör nəgünə düşübdür?

Ömür-günü davalarda keçibdir,
Zəhərlənmiş havalarda keçibdir,
And-amanda, tovalarda keçibdir,
Yazıq millət gör nəgünə düşübdür?

Bir-birini gicitkantək dalayır,
Var-halını nə bacarsa talayır,
Onu-bunu barmağına dolayır,
Yazıq millət gör nəgünə düşübdür?

Bir-birini tez-tələsik korlayır,
Ünvanını pisləyərək xorlayır,
Əsəbini yerbəyerdən zorlayır,
Yazıq millət gör nəgünə düşübdür?

Nə cavan gün görür, nə qocalanı,
Nə zəfər çalanı, nə ucalanı,
Nə hünər göstərən, nə bac alanı,
Yazıq millət gör nəgünə düşübdür?

Hər gün gör nəqədər ölənimiz var?
Ağlayan, sızlayan, gülənimiz var?
Qanlı gözyaşını silənimiz var?
Yazıq millət gör nəgünə düşübdür?

Beylə getsə sağalan döy yaramız,
Tapılan döy dərdimizə çaramız,
Möhkəm olmaz, qatarımız, sıramız,
Yazıq millət gör nəgünə düşübdür?

***Cəmil Əkbər*** 1992

## 341. DƏBDƏN DÜŞÜBDÜR

İlahi nə bəla, müsibətdi bu?
Ədalət, həqiqət, dəbdən düşübdür.
Necə bədxəbərdi, bəyanatdı bu?
İnsanlıq, ləyaqət dəbdən düşübdür.

Qanmaz gəlib qananlara pis deyir,
Bədxah deyir, zalım deyir, nəs deyir,
Höcət deyir, inad deyir, tərs deyir,
Şan-şöhrət, şərafət dəbdən düşübdür.

Meydan verilibdir gədə "bəylərə",
Vicdanı, məsləyi zədə "bəylərə",
Zəmanə mülkünə hədə "bəylərə",
Ehtiram, nəzakət dəbdən düşübdür.

Həryanı bürüyür naqisin dəsi,
Paxılın, xainin, xəbisin dəsi,
Acgöz, tamahkarın, hərisin dəsi,
Saf arzu, pak niyyət dəbdən düşübdür.

Ünsiyyət-ülfətdə yalan çoxalıb,
Araya nifaqı salan çoxalıb,
Züy tutub nağara çalan çoxalıb,
Sədaqət, səxavət dəbdən düşübdür.

Hiyləgər, dələduz, biclər çoxalıb,
İlqara-imana kəclər çoxalıb,
Qanuna, qaydaya öclər çoxalıb,
Bacarıq, fərasət dəbdən düşübdür.

Hörmət edilməyir zəhmət əhlinə,
El üçün can qoyan, xidmət əhlinə,
Nurani, pirani, hörmət əhlinə,
Kəllədar, ziraət dəbdən düşübdür.

Kamal sahibləri dallarda qalır,
İlişir tikana, kollarda qalır,
Yüyürüb yortsa da, yollarda qalır,
Kəramət, mərhəmət dəbdən düşübdür.

Ay Cəmil, dərdini kimə deyəsən?
Kimdən inciyəsən, kimə söyəsən?
Kimlə ülfət edib çörək yeyəsən?
Qətiyyət, dəyanət dəbdən düşübdür.

***Cəmil Əkbər*** 9. 03 – 1995

## 342. GÖRƏSƏN?

Səni düşünürəm, səni ay bala,
Taleyin üzünə güləcəkdimi?
Dostlar sevəcəkmi səni ay bala,
Axsa, gözyaşını siləcəkdimi?

Paxıllar sənə də darılacaqmı?
Sarsıyıb içindən qırılacaqmı?
Usanıb, hörmətdən yorulacaqmı?
Utanıb xətirdən öləcəkdimi?

Necə çıxacaqdır dostun, yoldaşın?
Həmkarın, həmdəmin, yaxın sirdaşın?
Atan olacaqmı əziz qardaşın?
Dərdini tən yarı böləcəkdimi?

Səni düşünürəm, səni ay oğul,
Yetiş mərd igidə, olun tay oğul,
Çalış zəhmətimi etmə zay oğul,
Gedənin qayıdıb gələcəkdimi?

Səni tapşırıram elə əmanət,
Çəmənə, çiçəyə, çölə əmanət,
Bülbülə zəmanət, gülə zəmanət,
Atan o dünyada biləcəkdimi?

***Cəmil Əkbər*** 23. 09-1999

## 343. GÖRƏSƏN?

Ellərin sərvəti talanıb gedir,
Bu nə korluq, nə karlıqdır görəsən?
Kimlərdir biləsən nə məqsəd güdür?
Bu nə korluq, nə karlıqdır görəsən?

Dağıdıb, talayıb, sökənlər-sökür,
Sinəyə dağ-düyün çəkənlər-çəkir,
Bezdirib zəhlələr tökənlər-tökür,
Bu nə korluq, nə karlıqdır görəsən?

Ağlayan-ağlayır, gülənlər-gülür,
Yaşayan-yaşayır, ölənlər-ölür,
Dərd çəkib, qəm yeyib solanlar-solur,
Bu nə korluq, nə karlıqdır görəsən?

Nələr yazılıbdır, oxuyan yoxdur,
Ətiri-gülüstan qoxuyan yoxdur,
Məhəbbət xalısın toxuyan yoxdur,
Bu nə korluq, nə karlıqdır görəsən?

Baxdıqca insanın qaralır qanı,
Dəhşətlər içində üzülür canı,
Bu bəşər çaşıbdır yolu, ərkanı,
Bu nə korluq, nə karlıqdır görəsən?

Çəkirlər insanı nəyaman dara?
Xəyanət edirlər əhdə, ilqara,
Üz tutub nə deyək Pərvərdigara?
Bu nə korluq, nə karlıqdır görəsən?

İnsanoğlu qəbahətdən çıxanmır,
Avamlıqdan, cəhalətdən çıxanmır,
Pis fikirdən, nəs adətdən çıxanmır,
Bu nə korluq, nə karlıqdır görəsən?

Düha sahibini lağa qoyurlar,
Çəkib cızdağını dağa qoyurlar,
Kəfənə bürüyüb ağa qoyurlar,
Bu nə korluq, nə karlıqdır görəsən?

Ayıran tapılmır yaxşını-pisdən,
Gümüşü qalaydan, qızılı-misdən,
Evləri yıxırlar qərəzlə, qəsdən,
Bu nə korluq, nə karlıqdır görəsən?

Ünsiyyət-ülfəti pozan oqədər,
Doğrunu tərsinə yozan oqədər,
Yolunu-izini azan oqədər,
Bu nə korluq, nə karlıqdır görəsən?

Bəşərin kələfi dolaşıb yaman,
Haçandan bəridir bəd əsir zaman,
Baş açmaq mümkündöy, ay dad, ay aman,
Bu nə korluq, nə karlıqdır görəsən?

Artıran tapılmır nazı-neməti,
İdxal eyləyirlər hərbir sərvəti,
Bahadır hər şeyin dəyər, qiyməti,
Bu nə korluq, nə karlıqdır görəsən?

Başları dəng edir tərifnamələr,
Hiyləgər yaltaqlar, hərifnamələr,
İdraksız, kamalsız maarifnamələr,
Bu nə korluq, nə karlıqdır görəsən?

Ədalətdən deyən sözlər susubdur,
Yollar tutulubdur, izlər susubdur,
Uzağı seyr edən gözlər susubdur,
Bu nə korluq, nə karlıqdır görəsən?

***Cəmil Əkbər*** 14. 11 – 1996

## 344. QAŞQABAQLIYAM

Toxunub dəyirlər qəlbimə yaman,
Bəli, o səbəbdən qaşqabaqlıyam.
Ağrılar, acılar verməyir aman,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

Görürəm ədalət tapdandığını,
Doğruluq, həqiqət tapdandığını,
İnsanlıq, ləyaqət tapdandığını,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

Görürəm yalana, düzdü deyirlər,
Dərinə dayazdı, üzdü deyirlər,
Qumaşa, atlasa, bezdi deyirlər,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

Hərkəs vəzifədə, öz yerində döy,
Doğru yerində döy, düz yerində döy,
Oğul yerində döy, qız yerində döy,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

Oğrular, əyrilər kef eyləyirlər,
Götürüb qazancı, nəf eyləyirlər,
Yeyirlər-içirlər püf eyləyirlər,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

Sərraf da nədənsə zəri tanımır,
Arvadlar korlanıb, əri tanımır,
Xötəklər nədənsə nəri tanımır,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

Meydan verilibdir başıboşlara,
Vicdanı, məsləyi, qəlbidaşlara,
Filə "ham-ham" edən alabaşlara,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

Yaxşılar yamana qarışıb gedir,
Əyib qamətini, bürüşüb gedir,
Saralıb, soluxub, qırışıb gedir,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

Oxuyub, eşidən bilsin halımı,
Görsün mən çəkdiyim qovğa-qalımı,
Görmədim, bilmədim əhli-halımı,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

Sevdamın əzəli daşa toxundu,
Kamala toxundu, başa toxundu,
Çatılmış, qırışmış qaşa toxundu,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

Mənim bu dərdimi bilən olmadı,
Axan gözyaşımı silən olmadı,
Axtarıb yanıma gələn olmadı,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

Mənim dərdim cəhalətdən törəyib,
Pis tərbiyə, pis adətdən törəyib,
Nadanlıqdan, qəbahətdən törəyib,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

***Cəmil Əkbər*** 31.08 – 1988

### 345. GÜN GÖRÜB

Əfilərin, ilanların əlindən,
Onu-bunu çalanların əlindən,
Qal-qovğanı salanların əlindən,
Nə bu bəşər, nə cəmiyyət gün görüb.

“Nəzir-niyaz”, duaların üzündən,
Əqli-kəmlər, yavaların üzündən,
Zəhələnmiş havaların üzündən,
Nə eşq-həvəs, nə məhəbbət gün görüb.

Şaxtaların, ayazların üzündən,
Əqli-kəmlər, dayazların üzündən,
Zəhlə tökən avazların üzündən,
Nə kəramət, nə səxavət gün görüb.

Tufanların, boranların üzündən,
Qəsd-qərəzdə duranların üzündən,
Onu-bunu yoranların üzündən,
Nə el-oba, nə məmləkət gün görüb.

Dağıdanlar, talayanlar əlindən,
Quyruğunu bulayanlar əlindən,
Yerə-yurda calayanlar əlindən,
Nə sakitlik, nə hərəkət gün görüb.

Qəmə düşər şıltaqların üzündən,
Həyasızlar, sırtıqların üzündən,
Cəmiyyətdə artıqların üzündən,
Nə azadlıq, nə səadət gün görüb.

Qəsd-qərəzdə duranların əlindən,
Düz işləri buranların əlindən,
Ümidləri qıranların əlindən,
Nə pak arzu, nə xoş niyyət gün görüb.

İnsafını atanların əlindən,
Vicdanını satanların əlindən,
Qəflətlərdə yatanların əlindən,
Nə iradə, nə dəyanət gün görüb.

Öz qarnını güdənlərin əlindən,
El varını udanların əlindən,
Tərsəməssəb adanların əlindən,
Nə siniflər, nə də millət gün görüb.

Kütbeyinlər, başıboşlar əlindən,
Vicdanı kəm, qəlbidaşlar əlindən,
Sümsük tula, alabaşlar əlindən,
Nə nəzarət, nə də diqqət gün görüb.

***Cəmil Əkbər***

## 346. GÜN GÖRÜB

Kütbeyinlər, başıboşlar əlindən,
Nə bacarıq, nə fərasət gün görüb.
Vicdanı kəm, qəlbidaşlar əlindən,
Nə insanlıq, nə ləyaqət gün görüb.

Saxtaların, yalanların əlindən,
Əqrəblərin, ilanların əlindən,
Onu-bunu çalanların əlindən,[507]
Nə ədalət, nə həqiqət gün görüb.[508]

---

[507] Hər zurnanı çalanların əlindən.

[508] *II variant* Saxtaların, yalanların üzündən,
İlan kimi çalanların üzündən,
Bədəməldən solanların üzündən,
Nə ədalət, nə həqiqət gün görüb.

Nəqədərki, dələduzlar olubdur,
Soyuqqanlı, qəlbibuzllar olubdur,
Ağzı qanlı yalquzaqlar olubdur,[509]
Nə ünsiyyət, nə də ülfət gün görüb.

Qəddarların, qansızların əlindən,
Daşa dönmüş ürəyinin telindən,
Mərdimazar fitnəsindən, felindən,
Nə mərhəmət, nə də mürvət gün görüb.

Cahillərin, nadanların əlindən,
Tərsəməssəb adanların əlindən,
Haqq-sayı udanların əlindən,
Nə kəmiyyət, nə keyfiyyət gün görüb.[510]

Abırsızlar, həyasızlar əlindən,
Məsləksizlər, qayəsizlər əlindən,
Tərbiyəsiz, dayəsizlər əlindən,
Nə ar-namus, nə də ismət gün görüb.[511]

Nəqədərki, yollarını azan var?
Ayaq altdan dərin quyu qazan var?
Düzü-tərsə, tərsi-düzə yazan var?
Nə sənətkar, nə də sənət gün görüb.

Nəqədərki, ilqarına dönük var?
Hər cığıra, hər yolağa yönük var?
Qanıxmış var, qudurmuş var, ənik var?
Nə səxavət, nə kəramət gün görüb.

Nəqədərki, cinayətlər törəyir?
Qəsd-qərəzlər, ədavətlər törəyir?
Giley-güzar, şikayətlər törəyir?
Nə etibar, nə sədaqət gün görüb.[512]

---

[509] 1)Xain, kinli yalquzaqlar olubdur. 2) Qəlbi kinli yalquzaqlar olubdur.
[510] Nə şəxsiyyət, nə cəmiyyət gün görüb.
[511] Nə ar-namus, nə də qeyrət gün görüb.
[512] Nə vilayət, nə məmləkət gün görüb.

Nəqədərki, ölüvay var, tənbəl var,
Atışma var, didişmə var, səngər var,
İrəliyə getmək üçün əngəl var,
Nə bacarıq, nə fərasət gün görüb. [513]

Nəqədərki, qiymət yoxdur zəhmətə?
Həvəs dolu şərafətli xidmətə?
Məna dolu, məzmun dolu hikmətə?
Nə şərafət, nə də şöhrət gün görüb.

Avamlığın pəncəsindən, əlindən,
Pis vərdişlər, pis adətlər əlindən,[514]
Say-hesabsız qəbahətin əlindən,
Nə el-oba, nə cəmaət gün görüb.

Nəqədərki, gicbəsərlər hökm edib?
Yelbeyinlər, dəngəsərlər hökm edib?
Tamahkirlər, müxtəsərlər hökm edib?
Nə xahişlər, nə də minnət gün görüb.

Nəqədərki, arxalarda dayı var?
Göndərməyə sovqatı var, payı var? [515]
Armudları döşürməyə ayı var?
Nə zəhmətkeş, nə rəiyyət gün görüb.

***Cəmil Əkbər*** 25. 07 – 1987

## 347. QURTARMADI

Bu dünya baqidir əzəldən bəri,
Dəymişlər tükəndi, kal qurtarmadı.
Tarixi-Nadirdən, yüz ildən bəri,
Qovğa kəsilmədi, qal qurtarmadı.[516]

---

[513] Nə tək insan, nə cəmiyyət gün görüb.

[514] Pis vərdişlər, pis halətin əlindən.

[515] Aydan-aya sovqatı var, payı var.

[516] *II variant* Dünyadan nəqədər köçdü də getdi?
Dəymiş dözənmədi, kal qurtarmadı.
Əcəl şərbətini içdi də getdi,
Heyvan azalmadı, mal qurtarmadı.

Korladı ülfəti sərsəri, yava,
Saldılar araya hər yersiz dava,
Zəhərə qərq oldu, tərtəmiz hava,
Gözyaşı sel oldu, sil qurtarmadı.

Nəqədər ağladı, güldülərsə də,
Doğuldu, dirildi, öldülərsə də,
Oxudu, öyrəndi, bildilərsə də,
Heyvan azalmadı, mal qurtarmadı.

Nəqədər mədrəsə, məktəb açıldı,
İdrakın ziyası, nuru saçıldı,
Avamlıqdan, nadanlıqdan qaçıldı,[517]
Karlar azalmadı, lal qurtarmadı.

Kitab çoxaldıqca nadanlar artdı,
Təlimdən yarımçıq dadanlar artdı,
Yolunu tərsinə adanlar artdı,
Bəylər azalmadı, qul qurtarmadı.

Ünsiyyət-ülfətdə qəbahət artdı,
Küdurət çoxaldı, ədavət artdı,
Gileylər, güzarlar, şikayət artdı,
Yanan azalmadı, kül qurtarmadı.

Zalımlar fəqiri sarıdı getdi,[518]
Eylə anladı ki, yarıdı getdi,[519]
Yaşadı, qocaldı, qarıdı getdi,
Fitnələr, fəsadlar, fel qurtarmadı.

Hiyləgər, dələduz, biclər çoxaldı,
Sərsəri, kəmağıl, giclər çoxaldı,
İlqara-imana, kəclər çoxaldı,
İşlənən nömrələr, xal qurtarmadı.

---

[517] Avamlıqdan, cəhalətdən qaçıldı.
[518] Zalımlar məzlumu sarıdı getdi.
[519] Sandı ki, həyatda yarıdı getdi.

Haçandan bəridir yoruldu bəşər,
Davada-dalaşda qırıldı bəşər,
Şirətək çəkildi, soruldu bəşər,
İnləyib sızlayan val qurtarmadı.

Nəqədər çalışdıq düzünə gedək?
Baxaq aqillərin sözünə gedək?[520]
Oduna isinək, közünə gedək?[521]
Bəşəri çaşdıran yol qurtarmadı.

Dünyada nəqədər alət dəyişdi?
Qanunlar, qaydalar, halət dəyişdi?
Hökmlər dəyişdi, qələt dəyişdi?
Külüng azalmadı, bel qurtarmadı.

Nəqədər kol-koslar calandısada?
Çatılıb odlara qalandısada?[522]
Yolunub darandı, talandısada? [523]
Tikanlar, qanqallar kol qurtarmadı.

Hökmü belə verdi qocaman fələk,
Qırıldı, töküldü, qol-qanad, lələk, [524]
Toxundu daşlara çox arzu-dilək,
Qasırğa kəsmədi, yel qurtarmadı.

Nəqədər küsənlər barışdı, getdi?
Xeyrinə, şərinə qarışdı getdi?
Xətadan, bəladan sovuşdu getdi?[525]
Söz-söhbət kəsmədi, dil qurtarmadı.

Könüllər mülkünü çamır bürüdü,
Bataqlıq, üfunət, mamır bürüdü,
Qıcqırmış, kiflənmiş xamır bürüdü,
Dəryalar, dənizlər, göl qurtarmadı.[526]

---

[520] Düşüb sorağına, izinə gedək.
[521] Baxıb dühaların sözünə gedək.
[522] Dağılıb, sökülüb talandısada.
[523] Çatılıb ocaqda qalandısada.
[524] Qırıldı, töküldü, nəqədər lələk,
[525] Oxudu, öyrəndi  soruşdu getdi.

Nəqədər qulaqlar dinlədi getdi?
Ağlayan, sızlayan inlədi getdi?
Qövr edən yaralar simlədi getdi?
Xətalı-bəlalı il qurtarmadı.[527]

Nəqədər abırdan, həyadan dedik?
Eysüdlü anadan, mayadan dedik?
Təlimi düz verən dayədən dedik?
Abırsız, ismətsiz dul qurtarmadı.[528]

Seyredib dünyaya yaxşı nəzər sal,
Gələndən-gedəndən soruş, xəbər al,
Oğulsan iz salıb, könüllərdə qal,
Aşrımlı keçidlər, zil qurtarmadı.

Nəqədər haqq dedik, ədalət dedik,
Sədaqət, səxavət, kəramət dedik,
Bəşəri məhv edir cəhalət dedik,
Daş-baş azalmadı, pul qurtarmadı.

Nəqədər istədik zəlil olmasın,
Əzanı itirən zəlil olmasın,
Nə müşgül qalanlar, məlul olmasın,
Arıq, axsaq, şikəst, şil qurtarmadı.[529]

---

[526] *II variant* Könüllər mülkündə çamır çoxaldı,
Bataqlıq, üfunət, mamır çoxaldı,
Qıcqırmış, kiflənmiş xəmır çoxaldı,
Dəryalar, dənizlər, göl qurtarmadı.

[527] *II variant* Nəqədər eşidən dinlədi getdi,
Ağladı, sızladı, inlədi getdi,
Qövr etdi yarası simlədi getdi,
Qovğalı-qadalı il qurtarmadı.

[528] *II variant* Elə hey abırdan, həyadan dedik,
Əqidə məsləkdən, qayədən dedik,
Qurandan, kitabdan, ayədən dedik,
Abırsız, ismətsiz dul qurtarmadı.

[529] *II variant* İstədik vədəsiz ölüm olmasın,
Yersiz əziyyətlər, zülüm olmasın,
Xəzana qərq olan elim olmasın,
Arıqlar, axsaqlar, şil qurtarmadı.

Vicdanı-məsləyi atan çoxaldı,
Onu kor qəpiyə satan çoxaldı,
Qərq olub qəflətdə yatan çoxaldı,
Məkrli hiylələr, pəl qurtarmadı.[530]

Fikiri, xəyalı çaşqınlar artdı,
Didərgin çoxaldı, qaçqınlar artdı,[531]
Buludlar kişnədi, daşqınlar artdı,
Leysan azalmadı, sel qurtarmadı.

Nəqədər bağları dolu döydüsə?
Cığırı-cəhlimi yolu döydüsə?
Sağa səpələnib, solu döydüsə?
Bülbüllər susmadı, gül qurtarmadı.

Nəqədər yaxşıya pis deyildisə?
Bədxah deyildisə, nəs deyildisə?
Qızıla-gümüşə mis deyildisə?
Ləyaqət azalıb bil qurtarmadı.[532]

Nəqədər çalışdı, vuruşdu getdi,
Axtarıb, arayıb soruşdu getdi,
Tutulub qabağı, qırışdı getdi,
Sərraf olmasa da, ləl qurtarmadı.[533]

Gör necə vaxt keçdi, zaman dəyişdi?
Vermədi çoxuna aman dəyişdi,
Könüllər mülkündə güman dəyişdi,
Kür-Araz soğulub, Nil qurtarmadı.

---

[530] Məkrlər, hiylələr, pəl qurtarmadı.

[531] Köçha-köç çoxaldı, qaçqınlar artdı.

[532] *II variant*
Nəqədər yaxşıya pis dedilərsə,
Höcət dedilərsə, tərs dedilərsə,
Bədxah dedilərsə, nəs dedilərsə,
Ləyaqət azalıb bil qurtarmadı.

[533] *II variant*
Nəqədər çalışdı, vuruşdu getdi,
Tutuldu qabağı, qırışdı getdi,
Axtardı, aradı, soruşdu getdi,
Sərraf bazarında, ləl qurtarmadı.

Eşşək qanmasa da zəfəran nədir,
Gözəl rəftar nədir, güzəran nədir,[534]
Eniş nə, yoxuş nə, dağ-aran nədir, [535]
Nə darçın, zəfəran, hil qurtarmadı.

Dünyada nəqədər baqidir yemək,
Baqidir danışmaq, baqidir demək,
Baqidir tər tökmək, baqidir əmək,
Dəyirman işlədi, vəl qurtarmadı.

Dünyamız kiçik də, böyük də gördü,
Qaralıb-qarsıxmış, sönük də gördü,
Hər səmtə sorağa yönük də gördü,
Qarışqa, mığmığa, fil qurtarmadı.[536]

Arının neməti halaldır-halal,
O ki, yük daşıyır deyildir kahal,
Şirindir nəqədər çəkdiyi zülal, [537]
Çiçəklər dərildi, bal qurtarmadı. [538]

Dünyada nəqədər canlı yaşadı?
İnsaflı-insafsız, qanlıyaşadı?
Şərəfli-şöhrətli şanlı yaşadı?
Qırmızı, çəhrayı, al qurtarmadı.

Baramaqurdunun zəhmətinə bax,
Gördüyü işinə, xidmətinə bax,
Arzu-istəyinə, niyyətinə bax,
Tirmə azalmadı, şal qurtarmadı.

---

[534] İsti nə, soyuq nə, dağ-aran nədir?

[535] Yaşamaq, dolanmaq, güzəran nədir?

[536] *II variant* Dünyada karlı da, karsız da oldu,
Namuslu, qeyrətli, arsız da oldu,
Söyüd ağacıtək barsız da oldu,
Qarışqa, mığmığa, fil qurtarmadı.

[537] Haçandan bəridir tanıyır mahal.

[538] Çiçək tükənmədi, bal qurtarmadı.

Bu dünya belədir ay Cəmil Əkbər!
Neyləyək əzizim çəkmə qəm-kədər,
Çürütmə canını, havayı, hədər,
Ocaqlar yandıqca kül qurtarmadı.[539]

***Cəmil Əkbər*** 3.10 – 1992

## 348. CAHANA GƏLDİMKİ...

Öz könül dünyamla cahana gəldim,
Düşüb dodaqlara dəhana gəldim.
Gəldim ki, burada yaşayım, durum,
Ömrümü şərəflə mən başa vurum.
Elə dolanım ki, el əhsən desin,
Çəmən əhsən desin, çöl əhsən desin.
Görənlər, bilənlər hamı sevinsin,
Qəlbi iftixarla vursun, döyünsün.
Gəldim ki, dünyada hünərim olsun,
Qələbəm, təntənəm, zəfərim olsun.
Səadət naminə səfərim olsun,
Alınan, verilən nəmərim olsun.
Ellərə nəzərim, diqqətim olsun,
Qayğılar göstərim, xidmətim olsun,
Məzmunum bilinsin, hikmətim olsun.
Silinib getməyən iz sala bilim,
Haraya yetişən söz sala bilim,
Yolumu, izimi düz sala bilim,
Bir an gecikməyim, tez sala bilim.
Yaxını, uzağı görməyə gəldim,
Xalqıma borcumu verməyə gəldim.
Saldığım bağlardan mən dərə bilim,
Öz sovqat, payımı göndərə bilim.
Gəldim ki, dünyanın kefini görəm,
Qazancı götürüb, nəfini görəm.

---

[539] *II variant*

Bu dünya belədir ay Cəmil Əkbər,
Üzsəndə canını, çəksən də kədər,
Çürütmə ömrünü, gününü hədər,
Ocaqlar yandıqca kül qurtarmadı.

Zirvədən-zirvəyə ucalım gedim,
Zəfər çələngini, tac alım gedim,
Hünər dünyasından bac alıb gedim,
Gözəl əməllərlə qocalıb gedim.
Bu cahan mülkündə izim bilinsin,
Söhbətim bilinsin, sözüm bilinsin,
Ocağım, hənirim, közüm bilinsin,
Məndəki dəyanət, dözüm bilinsin.
Qəflətlər içində yatıb qalmayım,
Qərq olub günaha batıb qalmayım.
İnsafı, mürvəti atıb getməyim,
Yaxşını-yamana qatıb getməyim,
Bəd işlər törədib, tutub getməyim.
Cahana gəldim ki, yerim bilinsin,
Zəhmətim görünsün, tərim bilinsin,
Gövhər mədənində zərim bilinsin,
Pünhanda qalmasın, sirrim bilinsin.
Gücüm çatdığınca yaradım, qurum,
Vaxtında oyanım, vaxtında durum.
Baxıb əməlimdən bezən olmasın,
İztirab, əzaba dözən olmasın.
Gəlmədim dünyaya, yük olmaq üçün,
Gözlərə batmağa, tük olmaq üçün,
Korlayıb qanları qaraltmaq üçün,
Dünyanı başlara daraltmaq üçün.
Cahana gəldim ki, yazıb-yaradım,
Gizlində nə varsa üzə daradım.
Sözlərim, söhbətim dəhana düşsün,
Yayılsın ellərə, həryana düşsün.
Harda var gözəllik, sevim onları,
Söyləyib vəsvini, öyüm onları,
Çıxaraq seyrinə görüm onları,
Bəsləyib, becərib verim onları.
Bu cahan mülkünü abad eyləyim,
Tapıb çox məchulu, icad eyləyim.

***Cəmil Əkbər*** 21.03 – 1998

## 349. DAMARINDA, QANINDADIR

Yaxşılıq da, yamanlıq da,
Hərkəsdənin genindədir.
Mülayimlik, zalımlıq da,
Hərkəsdənin genindədir,
Damarında, qanındadır.

Gözəllik də, çirkinlik də,
Sadəlik də, xudbinlik də,
Nikbinlik də, bədbinlik də,
Hərkəsdənin genindədir,
Damarında, qanındadır.

Xainlik də, xəbislik də,
Nanəciblik, naqislik də,
Acgözlük də, hərislik də,
Hərkəsdənin genindədir,
Damarında, qanındadır.

Vicdanını tezcə atmaq,
Ucuz alıb, baha satmaq,
Qəflətlərdə uyub yatmaq,
Nüvəsində, genindədir,
Damarında, qanındadır.

Ha qandırsan qanası döy,
Ha yandırsan, yanası döy,
Ha sındırsan, sınası döy,
Hüceyrəsi, genindədir,
Damarında, qanındadır.

Mən nə deyim bu xislətə?
Bu varlığa, təbətə,
Bu arzuya, bu niyyətə,
Hərkəsdənin genindədir,
Damarında, qanındadır.

Onu-bunu ələsalmaq,
Dişə salmaq, dilə salmaq,
Fitnə-fəsad, felə salmaq,
Hərkəsdənin qanındadır,
Nüvəsində, genindədir.

Bir-birini dara salmaq,
Hiylə qurub tora salmaq,
Vaxt-vədəsiz gora salmaq,
Hərkəsin genindədir,
Damarında, qanındadır.

Qan qaraltmaq, qəlbə dəymək,
Vurub şahvüqarı əymək,
Bədəməllə gözün döymək,
Hərkəsdənin genindədir,
Damarında, qanındadır.

Şər danışıb ara vurmaq,
Ona-buna yara vurmaq,
Ləkə salmaq, qara vurmaq,
Hərkəsdənin genindədir,
Damarında, qanındadır.

Səbəb odur pis günlərin,
Bədxah günün, nəs günlərin,
Höcət, inad, tərs günlərin,
Hərkəsdənin genindədir,
Damarında, qanındadır.

Cəmil Əkbər yalan deməz,
Boş-boşuna kalan deməz,
Hər nə desən solan deməz,
Hərkəsdənin genindədir,
Damarında, qanındadır.

***Cəmil Əkbər***

## 350. HƏRKƏSDƏNİN GENİNDƏDİR

Həm yaxşılıq, həm yamanlıq,
Mülayimlik, mehribanlıq,
Səmimilik, istiqanlıq,
Həm qəddarlıq, həm zalımlıq,
Həm gözəllik, həm çirkinlik,
Həm sadəlik, həm xudbinlik,
Həm nikbinlik, həm bədbinlik,
Hərkəsdənin genindədir.

Xainlik də, xəbislik də,
Nanəciblik, naqislik də,
Acgözlük də, hərislik də,
Hərkəsdənin genindədir.

Nə deyəsən bu xislətə?
Bu varlığa, təbətə.
Bu arzuya, bu niyyətə,
Bu məzmuna, bu hikmətə.
Bu nəzərə, bu diqqətə,
Bu təpərə, bu riqqətə.
Hərkəsdənin genindədir.

Onu-bunu ələsalmaq,
Dişə salmaq, dilə salmaq,
Fitnə-fəsad, felə salmaq,
Qasırğaya, yelə salmaq.
Hərkəsdənin genindədir.

Bir-birini dara salmaq,
Hiylə qurub tora salmaq.
Tufan, boran, qara salmaq,
Vaxt-vədəsiz gora salmaq.
Hərkəsdənin genindədir.

Qan qaraltmaq, qəlbə dəymək,
Şah vüqarı vurub əymək,
Bədəməllə gözün döymək,
Hərkəsdənin genindədir.

Şər danışıb ara qatmaq,
Vicdanını tezcə atmaq,
Ucuz alıb, baha satmaq,
Qəflətlərdə uyub yatmaq,
Hərkəsdənin genindədir.

Böhtan atıb ara vurmaq,
Ona-buna yara vurmaq,
Ləkə salmaq, qara vurmaq,
Hərkəsdənin genindədir.

Bais olmaq pis günlərə,
Bədxah günə, nəs günlərə,
Höcət-inad tərs günlərə,
Hərkəsdənin genindədir.

Ha qandırsan qanasıdöy,
Yandırsan da, yanasıdöy,
Söndürsən də sönəsidöy,
Sındırsan da, sınasıdöy,
Döndərsən də, dönəsidöy,
Dindirsən də dinəsidöy,
Endirsən də enəsidöy.
Hərkəsdənin genindədir.

Cəmil Əkbər yalan demə!
Boş-boşuna kalan demə!
Hər nə desən solan demə!
Hərkəsdənin genindədir.

***Cəmil Əkbər***



## HÜQUQŞÜNAS ƏLİ İLQAR OĞLU İMAMVERDİ

Əli İlqaroğlu İmamverdi 1993-cü ildə Bakı şəhərində anadan olmuşdur. 2000 ilində Bakı şəhər ibtidai məktəbdə, daha sonra Ərzurum ilk okulda təhsilini davam etdirdi. 2008-2012 illər arası "Çağdaş" bilgi okulunda litseyi tamamlayıb 2012 ilində Qaziantep Universitetinin Hüquq Fakultəsində təhsilini davam etdirib 2021 ilində məzun oldu. 2021-2022-ci ildə Qaziantep şəhərində ixtisası üzrə hüquq sahəsində təcrübə keçməklə, Gaziantep Universitetində magistr təhsili almaqdadır.

Sənətşünaslıq doktoru İlqar Cəmiloğlu ilə ortaq yazdıqları "Azərbaycan rəqs havaları atlası" I cild "Qaytağı" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" II cild "Yallılar" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" III cild "Diringi" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" IV cild "Qədim rəqslər" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" V cild "Çağdaş dönəm rəqsləri" (1. bölüm) *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" VI cild, "Çağdaş dönəm rəqsləri" (2. bölüm) *(2020) (türkcə),* "Avtandil İsrafilovun 26 rəqs havaları" *(2021),* "Azərbaycan aşıq ifaçılığı sənəti" *(2021) (türkcə),* "İnstrumantal tar əsərləri" *(dəramədlər, rənglər, diringilər) (2021) (türkcə),* "Şüştər dəramədləri və rəngləri" *(2021) (türkcə),* "Şur dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Kürdü-Şahnaz, Dilkəş, Rahab, Nəva dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Hümayun, Bayatı – Kürd dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Rast dəramədləri və Rəngləri" *(2022) (türkcə),* "Muğam dəramədləri və rəngləri" *(Mahur–Hindi, Orta-Mahur, Bayatı-Gacar, Gatar, Dügah, Bayatı-Türk, Zəmin–xara, Çoban-Bayatı) (2022) (türkcə),* "Bayatı - Şiraz dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Segah dəramədləri və rəngləri" *(2022),* "Cahargah dəramədləri və rəngləri" *(2022) (türkcə)* "Azərbaycan muğam dəramədləri və rəngləri ensiklopediyası" *(2022) (türkcə),* I cild "Cəmil Əkbər –şeirlər" *(2022),* II cild "Cəmil Əkbər –şeirlər" *(2022),* III cild "Cəmil Əkbər –şeirlər" *(2022),* IV cild "Cəmil Əkbər – şeirlər" *(2022),* "Cəmil Əkbər – IV cild şeirlər" *(2022),* isimli 23 kitabı Azərbaycan və Türkiyə ictimaiyyətinə təqdim olunmuşdur. Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə yayınlanan ***V cild "Cəmil Əkbər – şeirlər"*** adlı kitab, Hüquqşünas Əli İmamverdinin Azərbaycan ədəbi-filoloji sahədə xalqımıza ərmağan etdiyi **24-cü** əsəridir.



# PROF. DR. İLQAR CƏMİLOĞLU İMAMVERDİYEV

İlqar Cəmiloğlu İMAMVERDİYEV 23 sentyabr 1956-cı ildə Azərbaycanın Gənçə şəhrində anadan oldu. Fikrət Əmirov adına 1 saylı Uşaq Musiqi Məktəbini *(1967-1972),* Qənbər Hüseynli adına Orta İxtisas Müziqi Litseyini *(1972-1976)* və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (Bakı Musiqi Akademiyası) *(1976 - 1981 ilində tar ixtisası üzrə)* fərqlənmə diplomaları ilə bitirdi. 1985 ilində Moskvada təşkil olunmuş Tələbə və Gənclərin XII Ümumdünya Festivalının diplomunu, 1986 ilində Orta Asiya və Zaqafqaziya dövlətləri arasında Şərq Alətləri üzrə Bakıda keçirilən Üzeyir Hacıbəyli adına I Beynəlxalq müsabiqəsinin laureatı adana layiq görüldü. Zaqafqaziya, Orta Asiya və Türkiyədə düzənlənən xalq musiqisi və folkloru sahəsində bir çox uluslararası kongreslərdə aktual mövzularla çıxış edərək, 200-dən artıq elmi məqalələri fərqli hakimli dərgilərdə eyni zamanda Azərbaycan və Türkiyə mətbuatında yayınlanmıştır. 1994 ilində Azərbaycan Respublikası Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarına əsasən "sənətşünaslıq namizədi" diplomunu *(EN № 0308, 2 Noyabr 1994 il tarixli Protokol № 54),* 2009 ilində sənətşünaslıq doktoru diplomunu *(ED № 01109, 8 May 2009 il tarixli Protokol № 8 –R)*, - elmi ünvanlarını aldı. 1981 ilindən 2000 ilə qədər Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Xalq Çalgı Alətləri Kafedrası"nda, 2000–2006-ci illərdə Ərzurum Atatürk Üniversitetndə dosent vəzifəsində çalışdı. 2007-ci ilindən etibarən Gaziantep Üniversiteti Türk Musiqisi Dövlət Konservatoriyasında dosent, 2011-ci ilindən etibarən həmin Ali Təhsil Qurumunun İdarə Heyətinin qərarı *(05.07-2011, № 14)* ilə professor vəzifəsində çalışmaqdadır. 2015 ilində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı əsasında 2-ci Professorluq Diplomunu *(PR № 01432, 17 Aprel 2015 tarixli Protokol №* 07 *R )* almağa layiq görülən İlqar Cəmiloğlu İmamverdiyev bir çox mükafatlara layiq görüldü.

1. İstanbul Büyükşehir Belediyesi ile Motiv Vakfı işbirliğinde düzenlenen 21.Motiv Halk Bilim Ödülleri değerlendirmeleri Ödül Tespit Komisyonu tarafından yapılmış "Halk Müziği Hizmet Ödülü". 12 Aralık 2015
2. "Avrupa Nəşr Mətbuat Evi"nin "En Yaxşı Vətənsevər Tədqiqatçı Elm Adamı" Qızıl Medalı və Diplomu *(AZ - № 8032200126 )* Bakı – 2016.
3. İksad Yayınevinin "Onur ödülü" 2018, 2020.

Ötən illər ərzində İlqar Cəmil oğlu İmamverdiyev "Ansambl üçün pyeslər məcmuəsi" *(1997),* "Azərbaycan aşıq ifaçılığı sənətinin səciyyəvi xüsusiyyətləri" *(2004),* "Azərbaycanın 20 saz havası" adlı I, II *(2005)* və III cild *(2006),* "Azərbaycanın 40 saz havası" *(2006 ),* "Fortepiano müşayiətli saz əsərləri" *(2006),* "Fortepiano müşayiətli tar əsərləri" I, II cild *(2006),* "İran Türklərində aşıq toy mərasimləri" *(2006),* iki cilddən ibarət "Azərbaycan rəqs havaları" *(2007),* üç cilddən ibarət "Azərbaycan muğam rəngləri və dəramədləri" *(2007, 2009),* "Azərbaycan və İran Türklərinin aşıq - ifaçılıq sənətinin qarşılıqlı əlaqələri" 1-ci nəşr *(2007),* 2-ci nəşr *(2008),* "Aşıq Mikayıl Azaflının saz havaları" *(2008),* altı cilddən ibarət "Azərbaycan xalq mahnıları" *(2007, 2008, 2009),* "Azərbaycan muğam inciləri" *(2010),* "Məzəli əhvalatlar və gülməcələr" *(2010),* "Miskin Abdal ocağının el sənətkarları" 1-ci nəşr *(2011),* "Şirvan aşıqlarının saz havaları" *(2011),* "İran-Azərbaycan aşıqlarının 40 saz havası" *(2012),* "Koroğlu havaları" *(2012),* "Saz havaları antologiyası" *(2013),* "Azərbaycan instrumental xalq musiqi örnəkləri" *(2014),* "Vahid Əlioğlunun şeirlərinə bəstələnmiş musiqilər" *(2015),* "Miskin Abdal elinin saz - söz ustadları" 2-ci nəşr *(2017),* "Dədə Şəmşir ifaçılığı sənətində ənənəvi saz havaları" *(2017),* "Azərbaycan musqisində Bahar mövzusu və Novruz motivlərinin izləri" *(2018),* "Bir millət, iki dövlət, Azərbaycan – Türkiyə" *(2018),*"Azərbaycan musiqi mədəniyyətində bayatılar – manilər" *(2019) (türkcə),* "Yaşayırsan ürəyimdə" *(2020),* eyni zamanda Əli İmamverdi ilə ortaq "Azərbaycan rəqs havaları atlası" I cild "Qaytağı" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" II cild "Yallılar" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" III cild "Diringi" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" IV cild "Qədim rəqslər" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" V cild "Çağdaş dönəm rəqsləri" (1. bölüm) *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" VI cild, "Çağdaş dönəm rəqsləri" (2. bölüm) *(2020) (türkcə),* "Avtandil İsrafilovun 26 rəqs havaları" *(2021),* "Azərbaycan aşıq ifaçılığı sənəti" *(2021) (türkcə),* "Ürəyimin nəğmələri" *(2021),* "Aşıq Ələsgər - 200, Aşıq Ələsgərin poetik və musiqi dünyası" *(2021),* "Fortepiano müşayiətli instrumental tar əsərləri" *(2021),* Firuzə İmamverdi ilə ortaq yazdığı "İran Türklərində aşıq düyün gələnəyi" *(2021) (türkcə),* Əli İmamverdi ilə ortaq yazdığı "İnstrumantal tar əsərləri" *(dəramədlər, rənglər, diringilər) (2021) (türkcə),* "Şüştər dəramədləri və rəngləri" *(2021) (türkcə),* "Şur dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Kürdü-Şahnaz, Dilkəş, Rahab, Nəva dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Hümayun, Bayatı – Kürd dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Rast dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Muğam dəramədləri və rəngləri" *(Mahur–Hindi, Orta-Mahur, Bayatı-Qacar, Qatar, Dügah, Bayatı-Türk, Zəmin–xara, Çoban-Bayatı) (2022) (türkcə),* "Bayatı-Şiraz dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Segah dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Cahargah dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Azərbaycan muğam

dəramədləri və rəngləri ensiklopediyası" *(2022) (türkcə),* I cild "Cəmil Əkbər –şeirlər" *(2022),* II cild "Cəmil Əkbər –şeirlər" *(2022),* III cild "Cəmil Əkbər –şeirlər" *(2022),* IV cild "Cəmil Əkbər –şeirlər" *(2022),* isimli altmış yeddı kitabı nəşr edilməklə,*"Klassik saz havaları" (54 hava) adlı **SD** albomu (2015)* Azərbaycan, Türk mədəni-ədəbi, musiqi ictimaiyyətinin faydalana bilməsi üçün təqdim olunmuşdur. .

Prof. Dr. İlqar Cəmiloğlu İmamverdiyev fərqli illərdə **Azərbaycanda** *(Bakı 1979, 1980, 1999, Qazax 2022),* **Gürcüstanda** *(Tiflis 1981),* **Özbəkistanda** *(Daşkənd 1988, 1989),* **Rusiyada** *(Moskva 1982, 1985, Sankt-Peterburq 1980),* **Qazaxıstanda** *(Alma – ata 1992),* **Moldovada** *(Komrat - Qagauziya 2017),* **KKTC** (*Lefkoşa 2019),* və **Türkiyədə**: (*Ankara 2002, 2007, 2012, Qocaeli 2007, Şanlıurfa 2015, Edirnə 2016, Niydə 2017, İstanbul 2012, 2017, Nevşəhər 2017, 2018, Iğdır 2017, Sivas 2017, Diyarbakır 2017, Antalya 2018, Afyon 2018, Ardahan 2019, Əskişəhər 2019, Qaziantep 2019, 2021, Muqla 2021, İzmir 2022, Ərzincan 2022*) düzənlənən bir çox tədbirlərdə, mərasimlərdə folklor və xalq müsiqisi sahəsində beynəlxalq konqreslərdə, simpoziumlarda aktual mövzulardakı məqalələri ilə yanaşı həm də tarda və sazda professional ifaları ilə iştirak etmişdir. Sənətşünaslıq elmləri doktoru, professor İlgar İmamverdiyev fərqli illərdə **Azərbaycan** *(Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Bərdə, Ağcabədi),* **Rusiya** *(Moskva, Sankt-Peterburq),* **Qazaxıstan** *(Alma - ata),* **Özbəkistan** *(Daşkənd, Səmərqənd),* **İtaliya** *(Roma, Napoli, Kapri),* **İran** *(Təbriz, Urmiya),* **İrak** *(Bağdat, Babil),* **Türkiyə** *(Ankara, Ərzurum, Ağrı, Iğdır, Qars, Bayburt, Amasya, Osmaniyə, Şanlıurfa, Akçaabad, İstanbul, Bursa, İzmir, Hayvalık, Əskişəhər, Kırşəhər, Nevşəhər, Qaziantep, Adıyaman, Kozan)* vs. bir çox ölkələrdə təşkil olunmuş konsertlərdə iştirak edərək 70 –dən artıq fəxri fərman və plaketlərlə təltif olunmuşdur. Ötən illər ərzində Azərbaycan və Türkiyə televiziyalarında: "AzTV1", "İctimai TV", "TRT İnt", "TRT Gap", "25. kanal"da tar və saz aləti ilə fərqli konsertlərdə çıxış etmişdir. "Qaçaq Nəbi", "Papaq", "Bəyin oğurlanması", "Doğma sahillər" filmlərinin və Dədə Qorqud motivləri əsasında çəkilmiş "Səkrəyin dastanı" cizgi filminin musiqisində tar, saz, bağlama və ud alətində ifa etmişdir.

Pedaqoji sahədə 50 il ali təhsil müəssisəsində ardıcıl xidmət etmiş, iqtisadcı alim, şair təbiətli Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə bir araya gətirilmiş ***V cild "Cəmil Əkbər –şeirlər"*** kitabı Hüquqşünas Əli İmamverdinin **24-cü**, Sənətşünaslıq elmləri doktoru, professor İlqar Cəmiloğlunun Azərbaycan ədəbi-mədəni, filoloji sahədə xalqımıza ərmağan etdiyi **68-ci** əsəridir.

İKSAD
Publishing House

ISBN: 978-625-367-059-7